# SƏFƏVİLƏR TARİXİ (ZÜHURDAN SÜQUTADƏK)

**MÜƏLLİF: RƏSUL CƏFƏRYAN**

ادخلوها بسلام آمنين

**Kitabın adı:...................... Səfəvilər tarixi (zühurdan süqutadək)**
**Müəllif:.................................................................Rəsul Cəfəriyan**
**Nəşr edən:..........................................................................................**
**Çap tarixi:......................................................................2007**
**Çap növbəsi:..........................................................Birinci**
**Tiraj:........................................................................3000**

**Bağışlayan və mehriban Allahın adı ilə! Şükür olsun aləmlərin Rəbbinə! Salam olsun peyğəmbərimiz Məhəmmədə (s) və onun pak ailəsinə!**

## ON SÖZ

Ölkəmizin həm müstəqillik, həm milli-dini cəhətdən formalaşma, həm də dini mədəniyyətimizə təsir qoyma baxımından mühüm dövrlərindən birini də Səfəvilərin hakimiyyət dövrü təşkil edir. Səfəvilərin hakimiyyət dövründən əvvəl İran parçalanmış bir dövlət olmuş və onun hər bir guşəsi ayrı-ayrı ölkə və tayfaların ixtiyarında olmuşdur. Həmən dövrlərdə bu ölkəni ya Şam, ya Bağdad xilafəti və ya Orta Asiya türkləri və monqollar idarə edirdi. Səfəvilərin fəaliyyətinin başlanması ilə Şah İsmayıl özünün güclü qızılbaş ordusu ilə İranı vahid dövlətə çevirdi. Onlar çalışırdılar ki, alimlərin, ədəbiyyatçıların, incəsənət xadimlərinin, sənətkar və əkinçilərin köməyi ilə bu ölkədə vahid və sıx mədəniyyət meydana gətirsinlər. Onların göstərdikləri səy və çalışmalar o qədər yüksək nəticə verir ki, ərazisinin müəyyən bir hissəsini itirməsinə baxmayaraq İranı iki yüz otuz il vahid dövlət şəklində saxlamaqla yanaşı, bu günün özünədək bu birliyin qorunmasına səbəb olur. Bu isə Səfəvilərin İrana müstəqillik bəxş etmək uğrunda gördükləri işlərin olduqca böyük əhəmiyyət kəsb etməsindən və İran əhalisinə indinin özündə də ondan bəhrələnmək imkanın yaradılmasından xəbər verir. Səfəvi dövlətinin atdığı ən uğurlu addımlardan biri də ölkə ərazisində illər boyu çətinliklə özünü qoruyan Əhli-beyt (ə) məktəbini yayması olmuşdur. Əhli-beyt (ə) məktəbi bu dövlətin sayəsində bir neçə əsrdən sonra azad nəfəs alıb özünün qəbul etdiyi dini ayinləri yerinə yetirmək imkanı əldə edir. Bəzi hallarda ifratçılıqlara yol verilsə də ümumilikdə olduqca zəngin olan bu məzhəb alim, filosof, fəqih və ariflərin himayəsi ilə daha da inkişaf etmiş, bu günün özünədək İranın siyasi səhnəsində cəmiyyətin hidayət olunmasında həlledici rollardan birini ifa etməkdədir. Bundan əvvəl İran tarixinin iki dörd yüzilliyinə şamil olan üç kitab nəşr olunmuşdur. Birinci kitabda İslamın zühurundan İranın islamlaşması, ikinci kitabda Tahirilərdən Xarəzmşahlar dövlətinin süqutu, üçüncü kitabda isə monqolların hücumundan türklərin hakimiyyətinin sonunadək olan dövrlərdən söhbət açılır. Qarşınızdakı kitab isə Səfəvi dövlətinin 1501-ci ildən başlanan və 1731-ci ilədək davam edən siyasi

fəaliyyətinə həsr olunmuşdur və bu dövr hər bir oxucu üçün hər baxımdan maraqlı ola bilər.

İndinin özündə də istər iranlı olsun, istərsə də xarici Səfəvi dövlətinin tarixini araşdırmaq istəyən tədqiqatçı tarixçilərin sayı heç də az deyildir. Bunun isə ən başlıca səbəbi həmən dövrdə ölkənin siyasi, dini, mədəni, ədəbi və memarlıq sahələrində böyük nailiyyətlər əldə etməsi və nəzərə çarpacaq dərəcədə inkişaf etməsidir. Bütün bunlarla yanaşı, Səfəvi dövrünün araşdırılması müasir İranın tanınmasına da böyük köməklik göstərir. Bunun özünü də tarixçilərin bu dövrə xüsusi diqqət yetirmələrinə səbəb olan ən başlıca amillərdən biri hesab etmək olar.

Bu günə qədər yazdığımız digər kitablar kimi, qarşınızda olan bu kitabda bu sahədə ixtisası olan şəxslər üçün nəzərdə tutulmuşdur. Bu səbəbdən üçün də istifadə olunan mənbələr haqda heç bir məlumat verilməmişdir. Lakin kitabın bəzi yerlərində istifadə olunan əsas mənbələrin ad və dəqiq ünvanlarına işarə olunmuşdur ki, bu da kitabı diqqətlə mütaliə edən oxucuların nəzərindən qaçmayacaqdır. Təbii ki, belə bir həcimli kitabda bu dövrün tarixi və mədəni məsələləri haqqında ətraflı söhbət açmaq olmaz. Bunu nəzərə alaraq həmən dövrə ümumi nəzər sala biləcək qədər ən mühüm məsələlər haqqında söhbət açılmışdır.

Sonda bütün elmi və ideoloji müəssisələrin rəhbərlərinə öz dərin minnətdarlığımızı bildirmək istəyirəm.

Rəsul Cəfəriyan, Fitir bayramı 2000

## SƏFƏİVLİK BEŞİKDƏ

### *İRAN SƏFƏVİ DÖVLƏTİNİN TƏSİS OLUNMA ASTANASINDA*

İran tarixi barədə yazdığımız kitabda Elxanilər sülaləsinin süqutundan sonra İran ərazisində bir əsrə yaxın hakimiyyətdə olmuş dövlətlər haqqında söhbət açmışıq. Daha dəqiq desək, orada Topal Teymurun hücumu, Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin təsis olunması, habelə Xorasanda hakimiyyətdə olan Məşəşi və Teymurilərin oraya olan tam nəzarəti haqqında ətraflı söhbət açmışıq. Bütün bu siyasi qalmaqallar mədəni uyğunluqlarla birgə Elxanilər dövründə müəyyən qədər də olsun birlik əldə etmiş İranın parçalanmasına səbəb oldu.

Belə ki, bir vaxtlar Xorasan, Təbriz, Şiraz, İsfahan və Yəzd şəhərinin regional dövlətləri İrana hökmranlıq edirdi. Dövlətlərarası gedən ardı-arası kəsilməyən müharibələr bir vaxtlar İslam mədəniyyətinin inkişafında aparıcı rol oynayan və onun bayraqdarına çevrilən İranı olduqca çıxılmaz və acınacaqlı vəziyyətə salmışdı. Bu kitabda sufiliyin cəmiyyət və dövlətin inkişafına ən başlıca əngəl olmasına da dəfələrlə işarə olunmuşdur. Zaman keçdikcə bu sufi firqələrindən bəziləri siyasi cərəyana çevrilmişdir. Onlardan biri də haqqında bir qədər sonra söhbət açacağımız Səfəvi dövləti olmuşdur.

Səfəvi dövlətinin ən mühüm xüsusiyyətlərindən biri də Sasanilər və sonralar Elxanilər dövründə biri-biri ilə əlaqəli olan əraziləri birləşdirməkdən ibarət olmuşdur və bu ərazi özündə mədəniyyət və İslam svilizasiyasının dirçəlişini yaşada bilərdi. İki yüzillik bir dövrdə Səfəvi dövlətinin həyata keçirməsini qarşısına qoyduğu məqsəd də məhz bundan ibarət idi. Əslində, İran Səfəvilərin hakimiyyət dövründən etibarən əvvəllər tanıyıb bilmədiyi yeni bir yola qədəm qoymağa başlayır. Elə bir yol ki, bütün eniş və yoxuşluqlara, habelə zəfər və məğlubiyyətlərə baxmayaraq, müstəqil İranı dünyanın siyasət səhnəsində qoruya biləcək və onun regionda dini, mədəni və ədəbi sahələrdə aparıcı rol oynamasına səbəb olan yeganə amil olmuşdur.

X-X-X

## *ƏRDƏBİL VƏ İRAN*

Elxanilərin və sonralar türkmənlərin hakimiyyət dövründə İranda baş verən dəyişikliklərə səbəb olan ən başlıca amillərdən biri də mərkəzi hakimiyyət dairəsinin Xorasandan Azərbaycana daha dəqiq desək, Təbrizə köçürülməsi olmuşdur; bu hakimiyyət bir neçə onillik ərzində İranın mərkəz əyalətlərinə də hökmranlıq edir. Əlbəttə, Təbrizin mərkəzi hakimiyyət dairəsi kimi fəaliyyət göstərməsi monqolların zamanına qayıdır. Lakin tayfa mülkədarlarının hakimiyyət dövründə Təbrizin siyasi rolu nəzərə çarpacaq dərəcədə zəifləyir. Türkmənlərin isə hakimiyyətə gəlişi ilə yenidən güclənərək əvvəlki mövqeyini özünə qaytara bilir. Hər halda mərkəzi hakimiyyətin coğrafi yaxınlığı Ərdəbildə baş qaldıran Səfəvilərə İranın digər məntəqələrini də ələ keçirməyə və onlara nəzarət etməyə yaxından köməklik edir. Azərbaycanın qədim şəhərlərindən biri olan Ərdəbil hələ qədim dövrlərdən belə əyalətdə mərkəz funksiyasını daşımış və adı tarix kitablarında İslamdan sonra böyük əhəmiyyət kəsb edən şəhərlərlə birgə çəkilmişdir.

Ümumiyyətlə, tarixin müxtəlif dövrlərində Təbriz, Ərdəbil və Marağanın mərkəzi hakimiyyət dairəsini əldə etmək üçün apardıqları rəqabət daim diqqət mərkəzində olmuşdur. Belə ki, məşhur tarixçi Məqdisi hicrətin IV əsrində Ərdəbili Azərbaycanın ən böyük şəhəri adlandırmışdır.

Ərdəbilin Kəlxuran kəndində dünyaya gələn (650 h.q.) Şeyx Səfiyyəddin Ərdəbili həmən şəhərdə mürşidliyi öz üzərinə götürdükdən sonra Ərdəbil təkcə siyasi baxımdan deyil, dini və məzhəbi baxımdan da xüsusi əhəmiyyət kəsb etməyə başlayır.

Beləliklə, Ərdəbil on minlərlə mürid və mürşidlərinin sevimli şəhərinə çevrilir və sonralar özünə «Darul irşad» adını alır. Bundan sonra hər il on minlərlə insan buraya gəlir və Şeyx Səfinin ziyarətinə nail olduqdan sonra onun müridinə çevrilirdilər.

X-X-X

## *AZƏRBAYCAN VƏ TÜRKLƏR*

Azərbaycan İranın sair məntəqələrindən biri kimi İslamdan əvvəl irq və mədəniyyət baxımından digər regionlardan heç nə ilə fərqlənməmişdir. İslamdan sonra isə ərəblərin böyük bir hissəsi İranın bütün şəhərlərini, o cümlədən Azərbaycanı ələ keçirir. Buna baxmayaraq, məntəqənin yerli

əhalisi yeni mühacirlərdən çoxluq təşkil etmiş və özünün irq və dilini qoruyub saxlaya bilmişdir. Belə ki, yerli əhali İranın qədim dillərindən olan azəri dilində danışmış və VİİİI əsrdən etibarən türk dili daha geniş vüsət almışdır.

Səlcuqilər İrana hücum etdikdən sonra Türküstan türklərinin böyük bir hissəsi İran və Kiçik Asiyaya doğru üz tutur. Kiçik Asiya və Anadoluya doğru olunan mühacirətlərin bir çoxu Xəzər dənizinin şimalından və Qafqazdan olunurdu ki, həmən ərazidə də Rum Səlcuq dövləti bir neçə əsr fəaliyyət göstərirdi. Bunun ardınca türklərin az bir hissəsi Azərbaycanda məskun olub digər xalqlarla birgə yaşamağa başlayırlar.

Rum Səlcuqlarının aradan getməsi ilə Azərbaycanla Kiçik Asiya arasındakı əlaqələr daha da gücləndi. Bu məntəqə Elxanilərin təyin etdikləri əmirlərlə idarə olunurdu. Belə bir şəraitdə Kiçik Asiya türklərinin Azərbaycana gündəlik gəlişi də tamamilə təbii bir hal idi.

Elxanilərin süqutu ilə bəzi Anadolu tayfaları İranın siyasi səhnəsinə daxil olmağa başladı və əvvəllər olduğu kimi Cəlayirlərin dövründə də türkmənlər şərqə doğru, əvvəl Qaraqoyunlu, sonralar isə Ağqoyunlu tayfalarından gəlməyə başladı. Beləliklə, onlar Azərbaycan və İranın mərkəz əyalətlərinə nəzarət etməyə başladılar. Bunun ardınca Elxanilərin süqutundan sonra və Səfəvilərin hakimiyyətə gəldiyi günədək bir neçə onillikdə Kiçik Asiyadan Azərbaycana kütləvi şəkildə türk mühacirlər gəlir və tədricən əhalinin tərkib hissəsini və dilini dəyişməyə başlayır. Türk dili ilə azəri dilinin sintezi məhz bu dövrdə əvvəlki dövrlərdən daha çox özünü büruzə verməyə başlayır. Beləliklə, məntəqədə sakin olan qeyri-türk əhalinin böyük bir hissəsi yeni xalqın təsiri altına düşüb onun bir hissəsinə çevrilir. Türklərin türkmənlərin hakimiyyət dövründəki kütləvi mühacirəti belə bir dəyişikliyə səbəb oldu və bir çox Kiçik Asiya türkləri öz yurd-yuvalarını tərk edib İran ərazisinə üz tutmağa başladı.

## *ORTA ASİYA ƏLƏVİ ŞİƏLİYİN BAŞ QALDIRDIĞI YER OLMUŞDUR*

Suriyadan Anadoluya və İrandakı Zaqros dağlarınadək şiə məzhəbinin təsirinə məruz qalmış bir çox tayfalar yaşamışdır.

Şimali İraq və Suriya sakinlərinin şiəliyə olan meyli isə hicrətin İİİ əsrinə qayıdır və bu dövrdə ifratçı şiələr imamların özləri tərəfindən uzaqlaşdırılır və onlar da ətraf məntəqələrdə öz ifratçı əqidələrini yaymağa başlayırlar.

Misirdə Fatimilər qüdrəti ələ keçirdikdən sonra isə ətraf məntəqələrə yüzlərlə təbliğatçı göndərilir və onlardan bəziləri ucqar yerlərdə yeni məzhəbi öz adları ilə təqdim etməyə başlayırlar. Belə ki, zaman keçdikcə Fatimilər özlərinin həqiqi simasını itirmiş və yalnız ucqar yerlərdə öz mürəkkəb və məchul fəaliyyətini qoruyub saxlaya bilmişdir.

Bu təmayüllərin bəziləri bir növ sufi əqidələri ilə qarışıq idi. Türkiyədəki Hacı Bektaş (646-738 h.q.) kimi məşhur olan Seyyid Mahmud Rəzəviyə mənsub və Ələvi məzhəbi ilə qarışıq olan Bektaşiyə sufilərini buna misal çəkmək olar.

Kiçik Asiya VII və VIII (h.q.) əsrlərdə Ələvi şiəliyin əsas mərkəzlərindən biri olmuşdur. Şeyx Səfiyyəddin Ərdəbilinin fəaliyyətinin başlaması ilə məntəqədə sakin olan şiələrin bir çoxu Şeyx Səfi müridləri sırasına daxil olmuş və bundan sonra da əlaqələrini Ərdəbil sülaləsindən kəsməmişdilər. Ərdəbil sülaləsinə hörmət bəsləməklə yanaşı, Qaraqoyunlu türkləri şiə əqidəsində olmuş və Həzrət Əliyə (ə) xüsusi sevgi ilə yanaşmışlar. Faruq Sumər Bağdad Qaraqoyunluların hakimi İsfahan Mirzə haqqında yazır: «O, on iki imamın adına xütbə oxumuş və sikkə düzəltdirmişdir».

Anadolu türklərinin şərqə, daha dəqiq desək, Azərbaycana doğru mühacirəti başladığı zaman onların bir çoxu Şeyx Səfi sülaləsinin müridləri və onun mənəvi qoşununu təşkil edən Ələvi şiələri olmuşdur. Onlar az sonra özlərinə qızılbaş ləqəbini götürmüş və silahlı Səfəvi ordusunu təşkil edən həmən türklər idilər. Ələvi türklərinin İrana mühacirət etmələrinin ən mühüm səbəblərindən biri də Osmanlı imperatorluğunun onlarla sərt davranması olmuşdur. Səfəvi dövlətinin təsis olunması ilə eyni zamanda Ələvilərlə qarşı olunan təzyiqlər daha da güclənməyə başlanır və beləliklə, onların böyük bir hissəsi İrana mühacirət edərək Səfəvi dövlətinin hərbi-siyasi tərkib hissəsini təşkil etməyə başlayır. Çox keçmədən Osmanlı dövləti Anadolu məntəqəsində böyük bir ərazinin boşaldığını görür. Bununla o, şiə məzhəbli əhalinin böyük bir hissəsinin Səfəvi dövlətinə qoşulacağından da nigarançılıq hissi keçirməyə başlayır və bunun üçün də mühacirət yolunu bağlamaq qərarına gəlir. Ürək ağrıdan hadisələrdən biri də Şeyx Heydər Səfəvinin müridlərindən olan Həsən Xəlifənin oğlu Şah Qulubaba Təklunun bir neçə sufi ilə Aralıq dənizinin kənarındakı Kiçik Asiyadan Azərbaycana mühacirət etməsi olmuşdur. Şah İsmayılla birləşmək istəyən Şah Qulubaba yolda Osmanlı ordusu ilə qarşı-qarşıya gəlir və onları məğlub edir. Bundan sonra Şeyx Səfi sülaləsinin müridlərinin böyük bir hissəsi ona qoşularaq Osmanlı dövlətinə qarşı qiyama qalxır. Belə olduqda Osmanlı dövləti

qiyamı yatırtmaq üçün əlli minlik ordu tədarük görüb onlara tərəf göndərir. Baş verən döyüşdə həm Osmanlı ordusuna rəhbərlik edən Əli Paşa, həm də Qulubabanın özü öldürülür. Şeyx Səfi müridlərinin qalan hissəsi isə İrana gələrək 1538-ci ildə Rey şəhərində olan Şah İsmayıla qoşulur.

Türkiyə Ələvilərinin böyük bir hissəsi indinin özünədək bu ölkədə yaşayır və deyilənlərə görə onların sayı iyirmi milyon nəfərə çatır. Onların böyük bir hissəsi də Balkan yarmadasında yerləşir. Özlərini on iki məsumla əlaqələndirən bu ifratçı şiələrin nə şəriət hökmləri vardır, nə fiqhi, nə də ki, əməli ehkamları. Hal-hazırda da onların bir o qədər də böyük olmayan hissəsi İranın Zaqros dağının ətəklərində yaşayır və özünəməxsus dini adət-ənənələrə malikdirlər. Ələvilərin böyük bir hissəsi Suriya ərazisində də yaşayır və burada onlar Nusəyriyyə kimi tanınırlar.

Bütün bu məntəqələrdə yaşayan Ələvilərin ən başlıca xüsusiyyəti İmamlara və şiəliyə olan məhəbbət və qəlbi əqidədir. Qeyd etdiyimiz kimi, onların nə fiqhi hökmləri vardır, nə də əməli ibadətləri.

Qəribə burasıdır ki, Osmanlıların hakimiyyət dövründə Balkan yarımadasına mühacirət edən türklərin bir çoxu, Səfəviliklə əlaqəsinin kəsilməsinə baxmayaraq, indinin özünədək Şah İsmayıla xüsusi hörmətlə yanaşır və onun şerlərini öz məclislərində oxuyurlar. Bütün bunlar isə tarixi ayrılığa baxmayaraq, Balkan türklərinin Səfəvi sülaləsinə olan dərin sevgi və məhəbbətindən xəbər verir.

## *ANADOLU TÜRK MÜHACİRLƏRİ ŞEYX SƏFİ SÜLALƏSİNİN MÜRİDLƏRİ OLMUŞDUR*

Şübhəsiz ki, Anadolu türkləri Səfəvi dövlətinin təsis olunmasında böyük rol oynamışlar. Onlar bir neçə onillik ərzində Azərbaycana mühacirət etmiş və ondan da başlıcası Şeyx Cüneydin Anadoluya səfəri zamanı onunla yaxından tanış olmuş və Şeyx Səfi məktəbinin sadiq davamçılarına çevrilmişlər.

Həmin dövrdə Səfəvilər 1527-ci ildə qüdrəti ələ almış Azərbaycan Şah İsmayılın özü də irq və mədəniyyətinin bir hissəsinə çevrilmişdilər. Belə ki, Səfəvilərin əsas silahdaşlarını türklər, xüsusilə də Kiçik Asiya türkləri təşkil edirdi. Səfəvilər dövlətinin rəsmi saray dili də türk dili idi. Bu dil hətta Səfəvilər paytaxtı İsfahana köçürtdükdən sonra rəsmi saray dili kimi qalmaqda idi.

Lakin daha çox əhəmiyyət kəsb edən məsələ yeni dövlətin hər tərəfli türk quruluşuna malik olması idi. Çünki, Səfəvilər dövlətinin müridləri, ordu və dövlət adamları bir əsr ərzində Azərbaycanda məskunlaşmış müxtəlif türk tayfaları nümayəndələri olmuş və onların bir hissəsi Səfəvi dövləti təsis olmazdan əvvəl və bəziləri təsis olunduğu zaman İran ərazisinə daxil olmuşlar. Həmən dövrdə isə tacik və ya fars dilli millətlər əhalinin az bir hissəsini təşkil etmiş və yalnız sonralar yayılmağa başlamışlar.

Ümumiyyətlə, Şeyx Cüneyd Anadoluya getdikdən sonra Səfivilər sülaləsi ilə məntəqə türkləri arasındakı əlaqələr daha da güclənməyə başlamışdır. Şeyx Səfi sülaləsinin mənəvi rəhbərliyini öz üzərinə götürən Şeyx Cüneyd türklər arasında öz ideologiyasını yaymağa başlayır. Çox ehtimal vermək olar ki, Şeyx Cüneyd Anadoluya getməzdən əvvəl oranın əhalisi Ələvi şiələri olmuşdur. Bu səbəbdən də sufi təriqətinə arxalanan Şeyx Cüneyd[1] yavaş-yavaş şiəliyə üz tutur və beləliklə, şiəliklə sufilik arasında körpü yaratmağa başlayır. Bundan sonra Şeyx Səfi sülaləsi həzrət Əlinin (ə) şəxsiyyətinə və şiəliyə əvvəlkindən daha çox ehtiram bəsləməyə başlayır. Bu deyilənlər düz olarsa, onda Anadolunun türk şiələri bu əqidəni Şeyx Səfi sülaləsindən götürməmiş, əksinə, onlar özləri bu məzhəbi Səfəvilərə ötürmüşlər.

Regionda böyük nüfuza malik olan və ətrafına minlərlə mürid toplayan Şeyx Cüneyd Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənin bacıları ilə qohumluq əlaqələri yaradır və beləliklə, daha çox nüfuza malik olmağa başlayır.

Bir qədər sonra Şeyx Cüneyd öz müridləri ilə birgə Ərdəbilə qayıdır və daha sonra çərkəslərlə baş verən döyüşdə öldürülür və oğlu Heydər onun canişini təyin olunur. Bu, Şeyx Səfi sülaləsinin ən son inkişaf dövrü idi. Tədqiqatçılardan biri bu haqda yazır: «Beləliklə, məlum oldu ki, bu təriqətin başı Azərbaycanda, bədəni isə Anadoludadır».

Bu dövrdə Ərdəbil sülaləsinə bağlı olan çoxsaylı təbliğatçı Anadoluda xəlifə adını üzərinə götürmüş şəxslərin rəhbərliyi altında dini təbliğat aparırdı. Buradan müridlər kütləvi şəkildə Şeyxi görmək məqsədilə Ərdəbilə gəlirdi. Hətta onlardan bir çoxu orada qalıb daimi olaraq məskunlaşırdı da. Belə ki, sonralar şəhərin bir hissəsi türk məhəlləsinə çevrilərək Anadolu adlandırılmağa başlanır.

---

[1] Mustofinin yazdığına görə Şeyx Cüneydin babası Şeyx Səfi Şafei məzhəbinə mənsub olmuşdur.

## *ŞEYX SƏFİYƏDDİNDƏN ŞEYX CÜNEYDƏDƏK*

Şeyx Səfi sülaləsinin meydana gəldiyi andan Şah İsmayılın hakimiyyətə gəldiyi günədək keçdiyi mərhələni İranda təsis olunmuş yeni dövlətlə əlaqəli bir çox məsələlərin təcəllisi hesab etmək olar. Hakimiyyətə tayfa və qonşu qəbilələri birləşdirməklə gələn və tayfa quruluşu ilə idarə olunan sülalələrdən fərqli olaraq, bu dəfə keçmiş təcrübələrdən faydalanmaqla sülalənin içindən güclü bir dövlət meydana gəlir. Zahirdə olduqca sakit görünən və tərkidünyalığa qapılan cərəyanın siyasi keşməkeşlərdə qüdrətli bir dövlət yaratması sülalə üçün qeyri-adi bir dəyişiklik idi. Şeyx Səfiyyəddin Ərdəbili 1314-cü ildə öz işini sıfırdan başlayır və lazımi təlimlər keçdikdən sonra üçüncü onilliyin yarısında böyük həvəslə onu düzgün yola istiqamətləndirə biləcək mürşid axtarmağa başlayır. Nəhayət, öz istəyinə nail olur, Şeyx Zahid Gilanini tapıb 25 il onun yanında dini və əxlaqi təlim almağa başlayır. Məhz o illərdə də Şeyx Zahidin qızı Bibi Fatimə ilə evlənir və müəllimi dünyasını dəyişdikdən sonra mürşidliyi öz üzərinə götürüb onun yerinə keçir. Səfəvilərin neçə yüz illik tarixindən xəbər verən Şeyx Zahid məqbərəsi indinin özündə də Lahican yaxınlığında dağ ətəklərində yerləşir.

Şeyx Səfiyəddinin nüfuzu müxtəlif ölkələrə yayılır, mənəvi rəhbərliyi dövründə bir çox əmir, vəzir və şahların diqqətini cəlb edir. Belə ki, Elxanilərin tanınmış vəzirlərindən olan Rəşidəddin Fəzlullah onun üçün külli miqdarda bahalı və nəfis hədiyyələr göndərir. Fəzl ibni Ruzbəhan Əmini «Səfərnamə» adlı tarix kitabında yazır: «Şeyx Səfiyəddin hətta Olcaytu belə, Sultaniyyə şəhərinin təsis olunma mərasiminə dəvət edir, lakin o qoca olduğu üçün orada iştirak edə bilməyəcəyini bildirib üzürxahlıq edir».

Bu günlər müridlik cərəyanı dərk edib başa düşmək bizim üçün çox çətindir. Lakin o dövrlərdə belə bir quruluş insanların böyük bir hissəsinin şüur və təfəkkür tərzini bürümüşdü; o illərdə və hər bir firqə və təriqət ayrı-ayrı sülalə formalarında şeyxlər tərəfindən idarə olunurdu. Şeyx Səfiyəddin Şeyx Zahidin irsindən istifadə edərək Ərdəbili bir ucu Anadoluya, bir ucu isə Gilana çatan yeni quruluşun mərkəzinə çevirdi. Fəqih və müridlərin etdikləri saysız-hesabsız maliyyə yardımları sülalənin çoxsaylı yoxsul insanlara əl tutmasına imkan verirdi. Bütün bu işlər şeyxin təqva və

tərkidünyalığı ilə həyata keçir və bu da onun günü-gündən mənəvi nüfuzunun artmasına səbəb olurdu.

Şeyx Səfiyəddin Ərdəbili 1314-cü ilin məhərrəm ayının 12-də dünyasını dəyişir. Dəfn olunduqdan sonra qəbri üzərində oğlu tərəfindən bu günədək Ərdəbildə tarixi abidə və ziyarətgaha çevrilmiş məqbərə-günbəz tikilir.

Şeyx Səfiyyəddinin canişinliyi 1283-cü ildə dünyaya gələn oğlu Şeyx Sədrəddinə keçir. O da 90 il ömür sürdükdən sonra dünyasını dəyişir. Şeyx Sədrəddin 59 illik rəhbərlik dövründə mürşidlərinin hidayət olması və Ərdəbilin mövqeyinin daha da möhkəmləndirilməsi ilə məşğul olur və qeyd olunduğu kimi, Ərdəbildəki Şeyx Səfi günbəzi də məhz onun dövründə inşa olunur. Qeyd etmək lazımdır ki, Ərdəbildəki məqbərə ilə yanaşı, şəhərin üç kilometrliyində yerləşən Şeyx Səfiyyəddinin doğma kəndi olan Kəlxuran da sufilərin toplandıqları mühüm yerlərdən biri olmuşdur. Şeyx Səfiyəddinin babalarının məqbərəsi də məhz bu kənddə olmuşdur. Sufilərin toplandıqları yerlərin bəziləri indinin özünədək qalmaqdadır.

Ərdəbil sülaləsinin növbəti mürşidi Sədrəddin Siyahluşun oğlu Xacə Əli Siyahluş olmuşdur. O da uzun müddət atasının vəzifəsini icra etmiş və ömrünün sonunadək müridlərinin dini və əxlaqi təlimləri ilə məşğul olmuşdur. Onun dövründə, daha dəqiq desək, h.q 814-cü ildə Teymur Ərdəbil sülaləsinin görüşünə gəlir, Xacə Əlini orada ziyarət edir. Deyilənlərə görə, Xacə Əli Teymurdan türk əsirlərinin azad olunmasını istəmiş və bu da sonralar Ərdəbil sülaləsinin Anadoludakı nüfuzunun artmasına səbəb olmuşdur. Hətta deyilənlərə görə, Teymur böyük əraziləri Ərdəbil sülaləsinə vəqf etmiş və onların tam ixtiyarına qoymuşdur. Əlbəttə, onun Sufi və sülalə şeyxlərinə olan bu münasibəti əqidə və ya siyasət baxımından olmuşdur. Xacə Əli h.q. 832-ci ildə Həcc ziyarətindən qayıdarkən Beytul-müqəddəsdə vəfat edir.

Xacə Əlinin oğlu Şeyx İbrahim atasının canişini təyin olunur (vəfat tarixi 851 h.q.) və on doqquz il atasının yolunu davam etdirərək mürşidlik vəzifəsini öz üzərinə götürür.

## *CÜNEYD VƏ HEYDƏR*

### TƏRİQƏT VƏ SİYASƏTİN BİRLİYİ

Bu dövrədək Şeyx Səfi sülaləsi öz mənəvi vəzifəsini yerinə yetirir və siyasi məsələlərə qoşulmaqdan çəkinirdi. Bu dövrədək bir əsrdən çox sürən müddətdə gedən bu hərəkat Ərdəbil sülaləsinin nüfuzunu bütün Azərbaycanda, Gilan və Anadoluda daha da artırır. Şeyx İbrahimin (864

h.q.) oğlu Şeyx Cüneyd rəhbərliyi əldə etdikdən sonra Ərdəbil sülaləsinin rəhbərləri yavaş-yavaş siyasət və orduya meyl etməyə başlayır. Fəzl ibni Ruzbəhan yazır: «Vəzifə Şeyx Cüneydə həvalə olunduqdan sonra ata-babalarının getdikləri yolu dəyişib hakimiyyət və hökmranlıq xəyalına düşdü».

Atasının canişini təyin olunan cavan Şeyx Cüneyd Qaraqoyunlu Cahanşah tərəfindən təqva sahiblərinin təsiri altına düşərək Ərdəbildən zəbt olunmuş ərazilərə daxil olan sultanın istədiyi yerə girə biləcəyinə dair fərman alır. Ərdəbil ərazisində çoxsaylı mürid yaşadığı üçün türk sultanına qarşı silahlı üsyanın olunma təhlükəsi də var idi. Cahanşah Cüneydin əmisi Şeyx Cəfərdən onu Ərdəbildən uzaqlaşdırmasını istəyir. Şeyx Cüneyd atası vəfat etdikdən az sonra özünün saysız-hesabsız havadarları ilə Ərdəbildən çıxıb Anadoluya tərəf üz tutur. Onun bu hərəkəti Ərdəbil sülaləsinin bir növ siyasiləşməsinin başlanğıcı demək idi; bu da onların Qaraqoyunlu dövləti ilə qarşı-qarşıya durması demək idi. Şeyx Cüneyd bir neçə il Suriya və Anadolu ərazilərində qalır. Əvvəl Osmanlı sultanı Muraddan onu öz ərazisində qəbul etməsini istəyir, lakin olunan xahiş və göndərilən hədiyyələr geri qaytarılır, rədd cavabı alınır.

Bundan sonra Şeyx Cüneyd Kiçik Asiyada yerləşən, nisbətən müstəqil olan Qaraman məntəqəsinə gedir. Hələ çox-çox əvvəllər Ələvi şiələri burada böyük nüfuza malik olmuşlar. Səfəvi təriqətinin şiəliyə daha da yaxınlaşması da məhz burada olur. Həmən dövrdən etibarən bir vaxtlar öz məzhəbini aşkar edə bilməyən Şeyx Səfi sülaləsi artıq özünün şiə məzhəbinə mənsub olduğunu açıq-aşkar bəyan etməyə başlayır. Cüneyd Qaramanda sünni şeyxlərindən biri ilə mübahisəyə atılır və bundan sonra oradan Suriyaya gedir. Cüneyd orada da oranı tərk etməsinə səbəb olan müxaliflərlə qarşılaşır. O, öz tərəfdarları ilə h.q. 860-cı ildə ortodoks məsihi hökuməti olan Trabzona qoşun yürüdür və o, bunu kafirlərlə cihad adlandırır. Cüneyd şəhəri ələ keçirməyə nail olmur. Bunun üçün də həmən vaxtlar çox qüdrətli dövlətlə, daha dəqiq desək, Ağqoyunlu dövlətinin rəhbəri Uzun Həsənlə əlaqə yaratmaq qərarına gəlir. Yaradılan əlaqələr Şeyx Cüneydin Diyarbəkrə gəlməsi, orada üç ilə naz-nemət içində yaşaması və o illərdə Uzun Həsənin bacısı Xədicə Bəyimlə evlənməsi ilə nəticələnir.

Həmən dövrdə Trabzonla Diyarbəkr arasındakı əlaqələr günü-gündən genişlənməkdə idi. Əlaqələrin genişləndiyi bu dövrdə Uzun Həsən Trabzonun yunan hakimi Kaloya Anisin gözəl bacısı Kura Katrina ilə

evlənir. Bundan isə ən başlıca məqsəd iki məntəqəni Konstantinopolu[1] 857-ci ildə fəth etmiş Sultan Məhəmməd Fatehin hökmranlıq etdiyi Osmanlı dövlətinə qarşı birləşdirmək idi. Yaradılan qohumluq əlaqələrindən biri də Şeyx Cüneydin oğlu Heydərlə oldu. O da yunan qızlarından biri ilə evlənir və Şah İsmayıl da həmən qadından dünyaya gəlir.

Elə həmən vaxt Şeyx Cüneyd Ərdəbilə qayıdır, lakin əvvəlki səbəblərə görə orada qala bilmir. Belə olduqda o müvəfəqqiyyət yolunu on minlik silahlı havadarı ilə birlikdə Qafqaza yürüşdə, kafirlərlə mübarizədə görür. Şeyx Cüneyd bu yürüşdə bəzi müvəffəqiyyətlər əldə edir, lakin Şirvan hakimi Sultan Xəlillə qarşı-qarşıya gəlməli olur və h.q. 864-cü ilin Cəmadiəl-əvvəl ayında onunla apardığı döyüşdə öldürülür.

Şeyx Heydər atasının canişini təyin olunur. O, atasının ölümündən bir ay sonra dünyaya gəlir. Doqquz yaşınadək Uzun Həsənin himayəsində olur. Uzun Həsən Təbrizə gəldiyi zaman doqquz yaşlı Heydər Ərdəbilə gedib sülalənin rəhbərliyini öz üzərinə götürür. Sonradan baş verən əhvalatlardan belə qənaətə gəlmək olur ki, bütün bu müddət ərzində Ərdəbil vahid və möhkəm quruluşa yiyələnmiş və Şeyx Səfi sülaləsi ilə əlaqəli olan tayfa rəhbərləri onu himayə etmiş və maddi ehtiyaclarını tam şəkildə təmin etmişdilər.

H.q. 874-cü ildə Ağqoyunlu dövlətinin rəhbəri Uzun Həsən düşmənləri, yəni Qaraqoyunlu və Teymurilər dövləti üzərində tam şəkildə qələbə çalır və beləliklə, bütün Azərbaycanı ələ keçirir. Sonra Ərdəbilə gəlib Şeyx Heydəri sülaləyə rəhbər təyin edir. Beləliklə, sülalə fəaliyyəti bir daha ciddi şəkildə fəaliyyətə başlayır. Şeyx Heydər Uzun Həsənin Katrinadan dünyaya gələn Marta adlı qızı ilə evlənir və ondan Sultan Əli, İsmayıl və İbrahim adında üç oğlu dünyaya gəlir.

Şeyx Heydər hər bir cəhətdən atasının yolunu davam etdirir və bütün Ərdəbil Şeyx Səfi sülaləsinin adət-ənənələri ilə yaşayırdı. Şeyx Heydər tez bir zamanda təbliğat işlərini gücləndirir və atasının intiqamını almaq üçün Şirvana silahlı yürüş etməyə hazırlaşır. Bu vaxtlar müxtəlif məntəqələrdə «xəlifə» vəzifəsini icra edən şəxslər Şeyx Səfi sülaləsinin təbliğatını aparır və onları silahlı yürüş üçün Ərdəbilə dəvət edirdi.

Şeyx Heydərin atdığı ən mühüm addımlardan biri də qoşun üçün eyni geyim və xüsusi əlaməti olan papaq seçməsi olmuşdur. Heydər papağı kimi məşhur olan baş geyimləri qırmızı parçadan düzəlir və üzərinə on iki qat

[1] İstanbulun qədim adı

qoyulurdu. Məhz bunun üçün də Osmanlı dövləti onları «qızılbaş» və ya «qırmızı papaq» adlandırırdı. Sonralar bu ad Səfəvi dövlətinə verilir və bütün İslami şərq ölkələrində istifadə olunmağa başlanır.

Şeyx Heydər Şimali Qafqazda Çərkəz məsihilərinə qarşı bir neçə hərbi əməliyyat aparır. Lakin onun ən başlıca məqsədi Şirvan əmirindən atasının intiqamını almaq idi. Onun əraziləri genişləndirmək istəyi Uzun Həsənin canişini olan oğlu Sultan Yəqubun ona qarşı çıxmasına və Şirvanşahın köməyinə tələsməsinə səbəb oldu. Son dərəcə şücaətlə döyüşən Səfəvi ordusu Heydərin oxla vurulduğunu, sonra isə əsir götürülərək öldürüldüyünü (h.q. 893-cü il) görcək döyüş əhval-ruhiyyəsini itirmək əvəzinə, hələ o vaxtadək rəhbərini itirmiş heç bir orduda görünməyən şücaət göstərməyə başlayır.

Bu, Səfəvi sülaləsinin döyüş zamanı qarşılaşdıqları ikinci böyük faciə idi.

Baş verən dəyişikliklərin verdiyi ən mühüm nəticələrdən biri də Ərdəbil sülaləsinin sırf mənəvi mərkəzliyindən xaric olub tam ciddiliklə siyasi səhnəyə qədəm qoyması oldu. Bu isə Ərdəbil sufilərinin mövqeyinə olduqca mənfi təsir bağışladı. Çünki, «təqva səccadəsini yəhərə» dəyişmək «hidayət ələmi əvəzinə döyüş bayrağını götürmək» və «ibadət xirqəsini çıxarıb zirehini geymək» sufi şeyxində gözlənilməyən, daha dəqiq desək, ona yaraşmaz bir iş idi. Lakin müridlərin Şeyxə olan hörmət və ehtiramı o qədər güclü idi ki, bütün bu şüarlar onlara heç bir təsir qoya bilməzdi. Fəzl ibni Ruzbəhan Şeyx Cüneydə tənə vuraraq yazır: «Mənəvi saflığa səbəb olan dərk və təlimlər əvəzinə mənasız çıxışlar etdin, əlinə qələm və kitab götürmək əvəzinə qılıncla Ərdəbilə gəldin. Evində şamdan savayı bir şey olmadığı halda eşikdə qılınc siyirir və yol kəsməklə məşğul idin. Şeyxlər səhərlərini ibadətlə açdıqları bir halda o, özünə sipər hazırlayıb ox yonurdu».

Bütün bu ittihamların müqabilində sufilər yeganə hədəflərinin yalnız haqq olan Cəfəri məzhəbini yaymaq olduğunu bildirir və bununla özlərinə haqq qazandırırdılar. Şah İsmayıl Şeybək xana göndərdiyi məktubda yazır:

«Fani dünya işlərinə qoşulmaqdan ən başlıca məqsəd dövlət və müxaliflərin gizli saxladıqları yeganə nicat vasitəsi olan nuru, yəni pak şiə ehkamını aşkar edib onu yaşatmaqdan başqa bir şey deyildir. Yoxsa heç vaxt fani olan dünya işlərinə uyub məqamı olduqca uca olan Səfəvilik məsləkinə töhmət vura biləcək hər hansı bir şeyə yol verməzdik. Çünki, onu məqamı görülən bütün bu işlərdən daha ucadır».

## *SƏFƏVİ DÖVLƏTİNİN TƏSİS OLUNMASI*

### ŞEYX HEYDƏRDƏN ŞAH İSMAYIL SƏFƏVİYƏDƏK

Şeyx Heydər öldürüldükdən sonra həyat yoldaşı üç övladı ilə birlikdə İranın İstəxr adlı məntəqəsində həbs olunub dörd il yarım orada qalmalı oldular. Bu dövrdə sufilər gözlərini Ərdəbil sülaləsinin mürşidliyini öz üzərinə götürmək üçün Heydərin oğlu Sultan Əlinin yoluna dikmişdilər.

Dörd ildə bir qədər çox müddətdə Ağqoyunlu dövləti olduqca ağır şəraitlə qarşılaşmalı olur. Sultan Yəqub ölür və oğlu Baysənqər ilə nəvəsi Rüstəm arasında qarşıdurma yaranır və bu qarşıdurmada Rüstəm qalib gələrək h.q. 897-ci ildə Təbrizdə taxta oturur. Baysənqərin hədə-qorxularına ciddi yanaşan Rüstəm Ərdəbil sufilərindən istifadə edərək Sultan Əlini və qardaşını azad edir. Böyük təmtəraqla Təbrizə daxil olan Sultan Əli sufilərdən güclü bir ordu yaradıb Baysənqəri məğlub edə bilir. Onun atdığı bu addım sufilərin daha da güclənməsinə səbəb olur və Rüstəm bundan bərk nigarançılıq keçirməyə başlayır. Özünü təhlükədə görən Sultan Əli Ərdəbilə qaçır. Lakin Rüstəmin adamları yolun yarısında ona çatıb qətlə yetirirlər. Ölməzdən əvvəl iki qardaşını yaxın tərəfdarlarına həvalə edib onları Ərdəbilə çatdırmalarını xahiş edir.

Beləliklə, yeddi yaşlı İsmayıl bir müddət Ərdəbildə gizlənməli olur. Təhlükəsizliyi tam şəkildə təmin olunsun deyə, onu oradan Rəştə, oradan isə Lahicahana aparırlar. Şah İsmayıl getdiyi yerlərdə böyük ehtiram və hörmətlə qarşılanır və adlı-sanlı əmirlər onun görüşünə gəlirdi. Ərdəbil sülaləsi özünə Gilanda da nüfuz qazanmağa başlayır. Şah İsmayıl burada şəhər əmiri Karkiya Mirzənin yanında qalır. Ağqoyunlu əmiri İsmayılın ardınca düşsə də, Lahican əmiri müxtəlif hiylələrlə onu bu işdən çəkindirməyə nail olur. İşlətdiyi hiylələrdən biri də bu olur ki, İsmayılı səbətə qoyub kəndirlə ağacdan asır və əmir nümayəndələrinin qarşısında and içir ki, İsmayılın ayağı onun torpağında deyil. Beləliklə, nümayəndələr ondan əl çəkib geri dönürlər. Şah İsmayıl Səfəvi hicrətin 905-ci ilinədək Lahicahanda yazmaq, oxumaq, Quran və digər fənləri öyrənməklə məşğul olur. Ərdəbildə lazımi şərait yarandıqdan sonra isə oraya qayıdır.

## *TÜRK QƏBLİƏLƏRİ ŞAH İSMAYILIN QULLUĞUNDA*

Şah İsmayılın hərbi-siyasi fəaliyyətlərindən danışmazdan əvvəl Şeyx Səfi sülaləsində xidmət edən bəzi türk tayfaları barədə söhbət açmaq istəyirik. Tarix kitablarında Səfəvilərin hakimiyyət dövründə bu tayfaların ən görkəmli şəxsiyyətləri qızılbaş rəhbərləri kimi tanınmışlar.

Əksəriyyəti Anadoluda yaşayan türk qəbilələri bir neçə onillikdə Səfəvilər sülaləsi ilə əlaqədə olmuş və uzun müddət bu rabitəni qoruyub saxlaya bilmişlər. Onlar təkcə Ərdəbil sülaləsinin mənəvi rəhbərliyinə hörmətlə yanaşmır, siyasi fəaliyyətlərində də xüsusi canfəşanlıq göstərir və onlara hərtərəfli yardım edirdilər. Səfəvilərin hakimiyyət dövrünün ilk illərində qızılbaşların Səfəvi şahlarına itaət etmələri camaat arasında zərbül-məsələ çevrilmişdir.

Şah İsmayıl və onun övladlarına etdiyi dövlətə xidmət etmək istəyən otuz iki tayfanın daha çox tanınanları isə bunlardır:

**Rumlular:** Onlar Sivas, Tuqat və Amasiya əyalətlərində yaşamışlar; onların rəhbərlərindən bəziləri Şah İsmayılın hakimiyyət dövründə yüksək vəzifələrə yiyələnmişlər.

**Ustaclu:** Bu tayfanın adamları Şeyx Cüneyd və Şeyx Heydərin dövründə Ərdəbil sülaləsinin tam ixtiyarında olmuş, Şah İsmayılın hakimiyyət dövründə isə Məhəmməd xan Ustaclu Çaldıran döyüşündə ordunun sol cinahına rəhbərlik etmişdir.

**Təklu:** Bu tayfanın adamları Antaliyanın Təkə adlı məntəqəsindən olmuş və Şeyx Səfi sülaləsinin olduqca sadiq və qüdrətli tərəfdarlarından sayılmışlar. Belə ki, Şahqulu Baba bu tayfanın rəhbərlərindən biri olmuş və 916-cı ildə Ərdəbil sülaləsinin əqidələrini müdafiə etmək məqsədilə Osmanlı dövlətinə qarşı qiyam etmişdir. Bu qiyam çox çətinliklə yatırılmış 917-ci ildə özü də qətlə yetirilmişdir.

**Şamlı:** Şamlılar Suriyanın Hələb şəhərində məskunlaşmış türklərə verilən ad idi. Onların böyük bir hissəsi Şeyx Heydərin zamanında Ərdəbil sülaləsinin bir hissəsini təşkil etmiş və tayfanın rəhbərlərindən bəziləri Şah İsmayılın hakimiyyət dövründə müxtəlif şəhərlərə əmir təyin olunmuşlar.

**Zulqədr:** Tayfa Yüzqat və Maraş əyalətlərində məskunlaşmış və onun Əbdal bəy kimi rəhbərləri Şah İsmayılın ən yaxın adamlarından biri olmuş və onun hakimiyyət dövründə ən mühüm dövlət vəzifələrindən birini icra etmişlər.

Tarix kitablarında bu qəbilələrdən başqa Əfşar, Ərəbgirli, Sədli, Bozculu, Baharlı, Qırmanlı, Qacar və sair kiçik tayfalara da rast gəlmək olur ki, onlar hamılıqla «qızılbaşlar» adı ilə Səfəvi dövlətinin ən qabaqcıl himayədarlarından biri olmuşlar.

Qazi Əhməd Quminin verdiyi məlumata görə Şah İsmayıl ilk dəfə Ərdəbildən çıxdığı zaman xəbər çatır ki, Ustaclu tayfası kişili-qadınlı pərvanətək onun ətrafına toplaşıb Rum, Şam, Zulqədr tayfaları el-el, oba-oba ona tərəf gələrək şaha sadiq olduqlarını bildirirdilər.

Bu tayfaların səfəvilərin ilk döyüşlərində iştirak etmələrini qızılbaşların h.q. 916-cı ildə Şeybək xanla apardıqları mübarizədə müşahidə etmək olar. Bu döyüşdə qızılbaş rəhbərləri haqda deyilir: «Döyüşə Rumlu div Sultan Badımcan, Şamlı Zilxan və Talış Mirzə Məhəmməd xan rəhbərlik edirdi».

Qeyd olunduğu kimi, Səfəvi dövlətinin ən qatı tərəfdarları Kiçik Asiyanın şiə türkləri olmuşlar və iranlılar yalnız Şah İsmayıl hakimiyyətə gəldikdən sonra dövlət məmurlarının ətrafına toplanmağa başlamışlar. Başqa sözlə desək, ilk Səfəvi dövləti sonradan meydana gələn digər türk dövlətlərinin uzun müddət davam gətirməsi üçün bir növ təcrübə olmuşdur. Elə bir dövlət ki, müəyyən hədəf və məqsədə əsaslanırdı. İlk mərhələdə onun tərəfdarları qızılbaşlar olmuş və sonralar zaman keçdikcə taciklərdə onlara qoşulmuşlar.

## *İSMAYILDAN ŞAH İSMAYILADƏK*

Hicrətin 905-ci ilində məhərrəm ayının ortalarında İsmayıl Lahicandan çıxıb Ərdəbilə gəlir və orada Ərdəbil hakiminin kifayət qədər imkana malik olduğunu başa düşür. Bundan sonra ona yaxın olan şəxslərlə Ərdəbildən getmək barədə məsləhətləşir. Belə qərara gəlirlər ki, kafirlərlə müharibə etmək məqsədilə Gürcüstana yürüş etsinlər. Bu elə bir təcrübə idi ki, onu əvvəllər Şeyx Cüneyd və Şeyx Heydər də həyata keçirmişdi. Lakin Gürcüstana yürüş etmək üçün də kifayət qədər qüdrətə malik olmaq lazım idi və İsmayıl hələ belə bir qüdrətə malik deyildi. Bu xəbəri eşitdikdən sonra mürşidlər bir neçə ay ərzində Ərdəbilə üz tuturlar. Qazi Əhməd Quminin dediyinə görə, bu müddət ərzində çoxsaylı qasidlər ətraf məntəqələrə gedir, xalis sufilər və onların ardınca rəşadətli döyüşçülər dəstə-dəstə İsmayıla qoşulurdular.

Qəribə burasındadır ki, belə böyük bir orduya on üç yaşlı bir cavan rəhbərlik edirdi. Onun isə yeganə məqsəd və amalı İranda qüdrətli bir dövlət təsis etmək idi.

İsmayıl, tərəfdarları ilə birlikdə daha çox qüdrət əldə etmək üçün Anadoluya gəlir. Hara gedirdisə, dərhal müridləri ona qoşulurdu. Belə ki, Suriyada Ustaclu, Şamlı, Zulqədr, Əfşar, Qacar, Rəsaq və Qaracadağ tayfalarından yeddi min nəfər sufi və mürid İsmayılın ordusuna qoşulur. Hətta həmən gün İsmayılın sadiq tərəfdarlarından biri toy gecəsindən imtina edib onun silahdaşlarına qoşulur.

İsmayıl h.q. 906-cı ildə ətrafına yeddi min nəfər qızılbaş toplaya bilir və beləliklə, Zəncandan Şirvana doğru hərəkət edir. İyirmi altı minlik orduya malik Şirvan Hakimi Fərrux Yasir ilə İsmayıl arasında şiddətli müharibə gedir.

Şirvan ordusundan sayca üç dəfə az olmasına baxmayaraq, Səfəvi qoşunu böyük şücaət göstərərək döyüşdə qalib gəlir və Fərrux Yasir qızılbaş əsgərlərinin biri tərəfindən qətlə yetirilir. Beləliklə, İsmayıl atasının intiqamını alır və bu onun ilk qələbəsi olur.

Növbəti döyüş h.q. 907-ci ildə Ağqoyunlu hakimi Əlvənd Mirzəyə qarşı olur və bu döyüşdə də Səfəvi şeyxi qalib gələrək Ağqoyunlu əmirlərinin böyük bir hissəsini qətlə yetirir. Döyüşün verdiyi ən başlıca nəticə isə İsmayılın bütün Azərbaycan ərazisinə hakim olması olur. Bu hadisə sufilər, müridlər və Səfəvi sülaləsi üçün böyük bir qələbə idi. Beləliklə, on iki qatlı türk çalmalıları zəfər çalıb İranda vahid dövlət kimi fəaliyyət göstərməyə başlayır.

Şah İsmayıl Ağqoyunlu Əlvənd üzərində qələbə çaldıqdan sonra sözün əsl mənasında bütün Azərbaycana nəzarət etməyə başlayır və Ağqoyunluların taxt-tacının varisinə çevrilir. İsmayıl həmən vaxt hər baxımdan fərqli on beş yaşlı cəsur bir növcavan idi. Qızılbaşların qalibiyyətinə səbəb olan ən başlıca amillərdən biri də sufilərin Şeyxə bəslədikləri dərin hörmət və güclü inamı olmuşdur. Bütün bunlarla yanaşı, Şah İsmayılın özünün və tərəfdarlarının şücaət və zirəkliyi qələbəyə səbəb olan ən başlıca səbəblərdən biri idi. Beləliklə, Şah İsmayıl qızılbaşların nəzərində çox sevimli, hətta müqəddəs bir şəxsiyyətə çevrilir.

### *ATILAN İLK ADDIM ŞİƏ MƏZHƏBİNİN RƏSMİ MƏZHƏB ELAN OLUNMASI OLDU*

İsmayıl Mirzə Əlvənd üzərində qələbə çaldıqdan sonra həmən il, yəni 907-ci ildə Təbrizə gəlir. Rumlunun dediklərinə görə «Şah İsmayıl əvvəllər böyük şahların iqamətgahına gəlib oranı özünə iqamətgah seçir». Elə orada

şəhərin böyükləri tərəfindən təmtəraqla qarşılanır və ilk dəfə olaraq Səfəvi sülaləsinin nümayəndəsinin tacqoyma mərasimi keçirilir.

Şah İsmayıl şiə məzhəbini dövlətin rəsmi məzhəbi elan edir və bu onun hakimiyyət dövründə atdığı ilk addım olur. Ondan əvvəl isə şiə məzhəbi yalnız Şeyx Heydərin rəhbərlik dövründə Şeyx Səfi sülaləsinin rəsmi məzhəbi olmuşdur. Qeyd olunduğu kimi, Şeyx Heydər tərəfdarlarına on iki imamçı simvolu olan qırmızı parçadan on iki qatlı çalma qoymağı əmr edir. Şah İsmayıl hal-hazırda Türkiyədə mövcud olan Ələvi və Bektaş şiəliyinə oxşar şiə məzhəbinə görə hamıdan çox Anadolu türklərinə borcludur. Onun öz sülaləsi də İranın digər Sufi şeyxləri kimi on iki imama etiqad bəsləyirdilər. Hərçənd ki, fiqhi məsələlərdə bəzən Şafei kimi digər məzhəblərin göstərişlərinə də əməl edirdilər.

İran tarixi barədə yazdığımız üçüncü kitabda on iki imamçı sünni iranlıların, xüsusilə də sufilərə göstərdikləri nüfuz haqqında söhbət açmışdıq. On iki imamçı sünnilər şiə məzhəbinin İranda geniş vüsət tapmasına lazımi şərait yaratmışdır. Ümumiyyətlə, Şah İsmayıl şiə məzhəbini ilk dəfə rəsmi olaraq ölkə ərazisində elan etdiyi zaman elə bir çətinliklə qarşılaşmır və heç bir qruplaşma ilə onun arasında toqquşma olmur. Əlbəttə, Ağqoyunlularla döyüşdə ata-babasını itirmiş Şah İsmayıl qəlbində bu sülaləyə qarşı kin saxlayır və nəyin bahasına olursa-olsun onlardan intiqam almağa çalışırdı. Belə ki, h.q. 911-ci ildə Şeyx Heydərin ölümü ilə nəticələnən döyüşdə iştirak etmiş bütün şəxslərin tapıb öldürülməsinə dair göstəriş verir. Təbii ki, bütün bu məsələlərin şiəliklə heç bir əlaqəsi yox idi. Çünki, səfəvilərin ilk hakimiyyət illərində şiəliyin ölkə ərazisində rəsmən elan olunması ilə kimsə müxalif deyildi. Həmən vaxtlarda Təbriz əhalisinin böyük bir hissəsi sünni məzhəbində idi. Lakin şiəliyə təəssüblə etiqad bəsləyən Şah İsmayıl hətta camaatın etiraz edə biləcəyini ehtimal versə də, şiə məzhəbini rəsmən elan etməyə çalışırdı. O, əhaliyə hətta bəzi xəbərdarlıqlar da edirdi. Lakin lazımi şəraitin yaranması İranda şiə məzhəbinin geniş  şəkildə yayılmasını daha da asanlaşdırır. O dövrün Əmir Mahmud ibn Mir Xand adlı tarixçisi yazır:

«Şah İsmayıl qalib gələrək istəyinə nail olduqdan sonra məsum imamların pak və münəzzəh adlarını daha da zinətləndirdi və sünnilər üzərində qalib gəlməsi ilə uzun müddət gizli qalan şiəliyi üzə çıxardı. Bundan sonra isə əhli-sünnə məscidlərindəki mehrabların yerini dəyişməyi, azanda isə Kəlmeyi-şəhadətdən sonra (Əşhədu ənnə Əliyyən vəliyyullah – Şəhadət verirəm ki, Əli Allahın dostudur) cümləsini və bunun ardınca (yəni Həyyə

ələssəla - Namaza tələsin, Həyyə ələlfəlah – Nicat tapmağa tələsin) cümlələrindən sonra (Həyyə əla xəyril əməl – Xeyirli iş olan namaza tələsin, Məhəmməd və Əli insanların ən yaxşısıdır) cümləsini deməyi də əmr etdi. Azana dair verilən qəti hökm icra olunmağa başlanır və bundan belə kim imamiyyə məzhəbinin əksinə namaz qılsaydı başının bədənindən ayrılacağını bilməli idi».

Şah İsmayıl imamlara olan hörmət və ehtiramın artırılması ilə kifayətlənmir. Çünki, əhli-sünnənin böyük bir hissəsi bu məsələdə onunla bir əqidədə idi. Onun qarşısına qoyduğu ən başlıca məqsəd hər baxımdan üstün xüsusiyyətlərə malik olan şiəliyin əsasını qoymaq idi. Bu mənada ki, şiə məzhəbini qəbul etməklə Əhli-beyt düşmənlərinə qarşı olan nifrət və küdurət hissi dərhal büruzə verilməli idi. Fəzl ibni Ruzbəhan öz tarix kitabında yazır: «Belə qərara gəlinir ki, bütün azanlardan sonra Məhəmməd dininin düşmənlərinə lənət oxunub onlara qarşı olan dostluq və məhəbbət hissi açıq-aşkar büruzə verilsin. Carçılar küçə və bazarları gəzib dolanır, Əlidən əvvəlki üç xəlifəyə və ümumiyyətlə Əhli-beyt düşmənlərinə, onların qatillərinə və bu işdə onlara köməklik edənlərə lənətlər oxunurdu. Bundan boyun qaçıranlar isə dərhal əlisilahlılar tərəfindən qətlə yetirilirdi. Diqqət yetirilməli məsələlərdən biri də ifratçı Anadolu şiələrinin miras qoyduqları Ələvi şiəliyinin orta mövqe tutması olmuşdur. Orta mövqe dedikdə isə tək şiə məzhəbinin əqidə tarixi və ümumi baxışları deyil, onun hakimiyyət və dövlət idarəetmə məsələlərinində şiə fiqhi əsasında qoyulması nəzərdə tutulur. Belə ki, həmən dövrlərdə Ərdəbil sülaləsi heç bir fiqhi irsə malik deyildi. Şah İsmayıl şiə məzhəbini rəsmi dövlət məzhəbi elan etdikdən sonra isə artıq bu barədə düşünüb-daşınmaq və lazımi tədbirlər görmək lazım idi. Bir müddət keçdikdən və ifrat dərəcəyə çatdıqdan sonra «sufilik-şiəlik-ələvilik» adlarını öz üzərinə götürən bu məzhəb orta mövqe tutmağa başladı. Həmən dövrdə qızılbaşlar Şah İsmayıla həqiqi istək gözü ilə baxmış və hər şeydən çox sufi əqidəsinin təsiri altına düşmüşdü. Bu məqsədə nail olmaq üçün iki mühüm şeyə ehtiyac duyulurdu. Onlardan biri şiə fiqh kitabları, digəri isə şiə fiqh alimləri idi. Təbii ki, həmən dövrdə Təbrizdə bu iki şeyi əldə etmək bir o qədər də asan iş deyildi. Rumlu özünün «Əhsənul-təvarix» adlı kitabında yazır:

«Həmən dövrdə camaatın haqq olan Cəfəri məzhəbindən və on iki imamın qanun və həyat tərzindən xəbəri yox idi. Çünki, əldə imamiyyə fiqhi barədə bir cild də olsun kitab yox idi. Təlim olunan yeganə kitab var idisə, o da

Qazi Nəsrullah Zeytuninin şəriət kitabından götürülən Şeyx Cəmaluddin Mütəhhər Hillinin təlif etdiyi İslam qanunları kitabı olmuşdur».

Alim və fəqihlərə gəldikdə isə, zaman keçdikcə şiə İraq alimləri Səfəvi dövlətinə dəvət olunmuş və onlardan lazımi qaydada istifadə olunmuşdur. İranda şiə dövlətinin hakimiyyətə gəlməsi bir çox məsələlərin tam başqa istiqamətdə həll olunmasına səbəb oldu. Bir tərəfdən yeddi-səkkiz yüz il təqiyyə edərək əqidələrini gizli saxlayan şiələr sevinir və bunun ardınca ölkə ərazisində şiə dövləti təsis olunur, digər tərəfdən də İranın iki məntəqəsində fəaliyyət göstərən təəssübkeş sünni, xüsusilə də Osmanlı dövləti yeni şiə dövlətinə qarşı müxalif mövqe tutur və bir çox çətinliklər yaradırdı. Bu amil, yəni İranın şiə məzhəbini qəbul etməsi sonralar digər dövlətlərin də ona qarşı çıxmasına səbəb olur.

## *ŞAH İSMAYILIN İRANIN MƏRKƏZ ƏYALƏTLƏRİNDƏ GÖRDÜYÜ TƏDBİRLƏR*

Elxanilərin hakimiyyət dövründən başlayaraq, Təbriz mərkəzi hakimiyyət dairəsi kimi fəaliyyət göstərməyə və adət halını alaraq, İranın digər əyalətləri Təbrizin tabeçiliyinə düşməyə başlayır. Bu cərəyan türklərin hakimiyyət dövründə də davam edir. Bu səbəbdən də Şah İsmayılın hakimiyyətə gəlişindən sonra təbii olaraq hər şeydən əvvəl Ağqoyunluların mərkəzdən uzaqlaşdırılacaqlarını gözləmək olardı. Bundan ən başlıca məqsəd isə həm daxili düşmənlərin aradan qaldırılması, həm də digər dövlətlərdə olduğu kimi sair məntəqələri bir mərkəz kimi Təbrizin tabeçiliyinə salmaq idi. Həmən dövrdə İran Bəlxdən Diyarbəkrədək bir neçə dövlət arasında bölünmüş və ölkəyə tayfa quruluşu hakim olmuşdu. Rumlu h.q. 907-ci ilin hadisələri haqqında yazır: «Bu il İran üzərində müstəqillik iddiası edən bir neçə hakimin bayrağı sancılmışdı». Sonra onlardan ən məhşurlarına işarə edərək deyir: «Ölkəyə hakim olan ən məhşur hakimlər bunlar idi: Xorasanda Sultan Hüseyn Bəyqərad, Bəlxdə Bədiuzzaman Mirzə, Əcəm İraqında Sultan Murad, Semnanda Hüseyn Kiray Çəlavi, Yəzddə Murad bəy Bayandur, Azərbaycanda isə Şah İsmayıl».

Şücaət və cəsurluğu dilər əzbəri olan qızılbaşlar, onlar tərəfindən dəstəklənən Şah İsmayıl onların hamısından daha çox nüfuza malik idi. Onun isə yeganə məqsədi İranın daxili çətinliklərini həll etmək və mərkəzi dövlət yaratmaq idi.

Həmən dövrdə Əcəm İraqı daha çox üstünlüyə malik idi. Çünki, ora həm Azərbaycana yaxın idi, həm də Ağqoyunluların qalan hissəsinə Yəqubun oğlu Sultan Murad rəhbərlik edirdi. O, Ağqoyunlu dövlətinə sadiq qalan bütün insanları öz ətrafına toplamaq istəyirdi. Buna nail olduqdan sonra yetmiş minlik ordu ilə Delicandan çıxıb Həmədana doğru irəliləməyə başlayır. Xəbər Şah İsmayıla çatdıqda o da öz qoşunu ilə birlikdə Bicarın yaxınlığına gəlir. Baş verən şiddətli döyüşdə Şah İsmayıl Sultan Muradın ordusuna qalib gəlir və Sultan Murad döyüş meydanından fərar etdikdən sonra Əcəm İraqın bir hissəsi Şah İsmayılın nəzarəti altına düşür. İndi isə növbə türkmənlərin ixtiyarında olan Şirazın idi. Hərçənd ki, onların arasında da müəyyən ixtilaf və qarşıdurmalar var idi. Sultan Muradı tapmağa can atan Şah İsmayıl bir müddət Həmədanda qalır və sonra oradan fars əyalətinə qoşun yürüdür. Qızılbaşların şücaəti o qədər yayılmışdı ki, Sultan Murad onlara qarşı müqavimət göstərməyin faydasız olduğunu görüb Bağdada qaçır. Beləliklə, Şah İsmayıl Şirazın bir vaxtlar xoş və xürrəm günlər keçirən dövlətini öz ixtiyarına keçirir. Oradan isə Əcəm İraqına, daha dəqiq desək Qum şəhərinə yola düşür. Elə həmən dövrdə də müxtəlif məntəqələrin əmir və sultanları yeni dövləti qəbul etməyə hazırlaşırlar. Rumlu yazır: «Ətraf məntəqələrin hakim və rəhbərləri böyük ümidlə aləmlərin pənahına üz tutdu və hamılıqla bunu özlərinə iftixar hesab etdilər». Şah İsmayıl Qumda şəhərin qazi, alim və bir çox böyük şəxsiyyətləri tərəfindən böyük sevinclə qarşılandı. Qarşılıqlı olaraq, Şah İsmayıl tərəfindən əhaliyə xüsusi diqqət və qayğı göstərilirdi və o, bir neçə gün burada qalmalı oldu.

Əmir Hüseyn Çəlavi Semnana və Firuzkuh məntəqəsinə hakim olduğu gündən nəinki Şah İsmayıla təslim olmaq fikrində deyildi, hətta mübarizəyə can ataraq onun əmirlərindən birini hiylə ilə öldürə də bilmişdi. Bu hadisə hicrətin 909-cu ilin məhərrəm ayında Şah İsmayılın Qumu tərk edərək həmən məntəqəyə gəlməsinə səbəb olur. O, burada ilk növbədə Gülxəndan adlı məhşur qalanı fəth edir və orada Firuzkuha qoşun yürüdür. Firuzkuh qalası o qədər güclü müqavimət göstərir ki, qızılbaşlar oranı mühasirədə saxlayıb böyük tələfat vermələrinə baxmayaraq, ələ keçirə bilmirlər. Nəhayət, qızılbaşlar böyük şücaət göstərərək qalanı işğal edib sakinlərini özlərinə təslim edirlər. Əmir Hüseyn Çəlavi isə bir neçə gün sonra fəth olunacaq qalada idi. Beləliklə, Əmir Hüseyn və tərəfdarlarının böyük bir hissəsi qətlə yetirilir və İranın başqa bir hissəsi yenicə təsis olunmuş Səfəvi dövlətinin ixtiyarına keçir. Şah İsmayıl İranın şimalında ardıcıl nailiyyətlər

qazanıb Asta qalasını fəth etdiyi dövrlərdə qatı düşmənlərindən biri də Murad bəy idi.

Artıq növbə zahirdə asan görünən Yəzdin idi. Yəzdin ələ keçirilməsi ilk baxışda asan görünsə də, sonradan bəzi çətinliklər ortaya çıxdı. Şah İsmayılın hakimi Şueyb ağanın oraya gedib dövlət işlərini idarə etməsi müəyyənləşdirildikdən sonra Xacə Əhməd Saruyi öz adamları ilə birlikdə onu qətlə yetirir və az sonra onun özü də ondan əvvəl oranın hakimi olmuş Əbərqu tərəfindən qətlə yetirilir. Şah İsmayıl məsələni birdəfəlik həll etmək üçün özü Yəzdə yola düşür. Yəzdin işğalı uğrunda gedən mübarizə iki ay davam edir. Beləliklə, Yəzdi ələ keçirir və Məhəmməd Kərəni əsir götürərək az sonra İsfahanda qətlə yetirir.

Bundan sonra Şah İsmayıl Xorasanı fəth etmək fikrinə düşür. Bu məqsədlə Təbəsə tərəf yola düşür və orada Teymurilər tərəfindən təyin olunmuş Təbəs hakimi ilə döyüşdükdən sonra yenidən İsfahana qayıdır. İxtiyarında olan ərazi olduqca geniş və müstəqil dövlət kimi fəaliyyət göstərdiyi üçün İsmayıl burada tam başqa tədbirlərə əl atmalı idi. O, Təbəsdən İsfahana qayıdıb bir müddət burada qalır. Sonra isə Taroma, oradan da Rəştə gedir. Az sonra Şah İsmayılı Xoyda görürük və etdiyi digər səfərləri nəzərdən keçirdikdən sonra belə qənaətə gəlirik ki, müstəqillik iddiası edən əmir və sultanların üsyanlarının qarşısını alaraq, İran ərazisində sabitlik yaratmağa nail olur.

H.q. 914-cü ildə Bağdada gəlir və oranın hakimini tutduğu vəzifədən kənarlaşdırdıqdan sonra oraya özünün yeni hakimini təyin edir. Eyni zamanda oranın seyyidlərindən birini Nəcəf şəhərinə vali təyin edir. Sonra isə Huvəyzəyə, oradan da Dizfula gəlir.

X-X-X

## *ÖZBƏKLƏR XORASAN ÜÇÜN CİDDİ ÇƏTİNLİK YARADIRLAR*

Teymurilər sülaləsinin son nümayəndəsi özünün son günlərini Səfəvilərin hakimiyyətə gəldiyi dövrlərdə başa vururdu. Sultan Hüseyn Bayqəra Həratda uzun müddət hökmranlıq edir və hakimiyyətin son illərində onunla Bəlxə hakim olan oğlu Bədiuzzaman Mirzə arasında ardı-arası kəsilməyən qarşıdurmalar baş verirdi. Baş verən qarşıdurmalar tək Bəlxdə deyil, Xorasanın digər məntəqələrində də baş verməkdə idi. Hicrətin X əsrinin birinci onilliyində baş verən bu qarşıdurmalar Xorasanın ictimai vəziyyətini çətinləşdirir və mövcud şəraiti dözülməz həddə gətirib çıxarırdı. Lakin

həmin gərgin şəraitdə Xorasanda başqa bir qüdrətli düşmən meydana gəlir. Orta Asiyada meydana gələn və Teymurilər sülaləsini məğlub edərək hakimiyyəti tam şəkildə öz ixtiyarına keçirən Şeybanilər olur. Şeybanilər sülaləsi Çingiz xanın nəslindən olan Şeybək xan Özbəyin fəaliyyəti, daha dəqiq desək, hicrətin 906-cı ilində Səmərqəndi fəth etməklə başlayır. Şeybək xan bir neçə ardıcıl döyüşdə bir çox qüdrətli ordunu məğlub edib günü-gündən Xorasanda tabeçiliyində olan əraziləri genişləndirməyə çalışırdı. Buxara Şeybək xanın fəth etdiyi növbəti ərazi olur və qardaşı oraya hakim təyin olunur. O, özünün mərkəzi iqamətgahını Səmərqəndə köçürür və beləliklə, Türküstan və Orta Asiyada böyük əraziyə nəzarət etməyə başlayır.

Yaranmış belə bir şəraitdə Sultan Hüseyn Bayqəra iki böyük çətinliklə üzləşir. Belə ki, bir tərəfdən qərbdə oğlu Müzəffər Hüseyn Mirzənin üsyanlarını yatırmağa çalışır, digər tərəfdən isə şərqdə təzə meydana gəlmiş özbəklərlə mübarizə aparmalı olurdu. Təbii ki, Həratdakı Teymuri kimi qədim bir dövlət belə bir güclü hücumların qarşısını ala bilməzdi. Lakin buna baxmayaraq sülh və sazişlərlə ölkənin qərb hissəsində sabitlik yarada bilmişdi. Hicrətin 910-cu ilində özbəklər Soltan Hüseyn Bayqəranın oğlu Bədiuzzamanın ixtiyarında olan Bəlxi işğal etmək üçün oraya hücum edirlər. Üç aylıq mühasirəyə baxmayaraq heç bir nəticə əldə edə bilməyib yenidən Səmərqəndə qayıdırlar. Az sonra, yəni h.q. 911-ci ildə Qunduz və Faryab şəhərləri özbəklərin ixtiyarına keçir. Beləliklə, Teymurilər ordusu böyük məğlubiyyətə uğrayır və ömrünün son günlərini yaşayan Soltan Hüseyn qorxu və təşvişə düşür. Nəhayət, çox keçmədən h.q. 911-ci ildə Zilhiccə ayının 12-də dünyasını dəyişir. Bədiuzzaman və Müzəffər Hüseyn adlı oğlanları isə şərikli olaraq atalarının canişini təyin olunurlar.

Soltan Hüseyn Mirzənin ölümü Teymurilər dövlətinin ciddi zəifləməsinə səbəb olur. Onun ölümü h.q. 912-ci ildə Şeybək xana Xorasanı qarət etməyə əlverişli imkan yaradır. Məntəqənin ələ keçirilməsi ilk mərhələdə qarətlə başlanır. Kifayət qədər zərər vurduqdan, hərc-mərclik yaratdıqdan sonra məntəqəyə tam nəzarət etmək üçün lazımi şərait yaranır. Elə həmən vaxt Bəlxin Şeybək xan tərəfindən fəth etmə xəbəri Hərata çatır. Əlbəttə, çox narahatedici xəbər ola bilərdi.

Teymurilər ilə özbəklər arasında baş verən son döyüş isə h.q. 913-cü ildə baş verir və bu döyüşdə canlı qüvvə baxımından çoxluq təşkil edən Özbək qoşunu qalib gəlir. Teymurilərin sərkərdələrinin böyük bir hissəsi öldürülür, bir hissə də Qəndəhara, Məşhədə və digər məntəqələrə qaçmalı olur. Şeybək

xan Hərata gəlir və həmişə olduğu kimi şəhərin təhlükəsizliyi pozulmasın deyə, oranın alim və zadəganları tərəfindən təmtəraqla qarşılanır.

Əhli-sünnənin Hənəfi məzhəbinə mənsub olan özbəklər Orta Asiyanın digər məntəqələrində olduğu kimi, özünəməxsus təəssübkeşliyə malik idilər. Şiəliyə meyilli olan Semnanın sünni məzhəbli əhalisi özbəklər şəhərə daxil olduqları zaman adəti üzrə: «Allah, Məhəmməd və Əli köməyin olsun!» şüarını verməyə başlayırlar. Onlar bu şüarı eşitdikdə «Allah Məhəmməd və dörd dost (xəlifələr nəzərdə tutulur) köməyin olsun!» şüarını demələrini istəyirlər.

Artıq Xorasanın bir hissəsi Orta Asiyaya birləşərək təəssübkeş sünni məzhəbli Şeybək xanın ixtiyarında idi. Məlum məsələdir ki, yeni təsis olunmuş şiə məzhəbli Səfəvi dövləti isə təzə təsis sünni məzhəbli Şeybani dövləti arasında ciddi qarşıdurmalar baş verəcəkdi.

Xorasanın tarixinə nəzər salsaq görəcəyik ki, h.q. 913-cü ildə Səbzivaradək bütün məntəqələr özbəklərin ixtiyarında olmuş, Mərv və Məşhəd kimi böyük şəhərlər onların valiləri tərəfindən idarə olunmuşdur. Şeybanilər Xorsanda yerlərini möhkəmləndirməmiş Kerman və Əstərabada da qoşun yürüdüb oranı işğal edirlər. Kermanın işğalı isə h.q. 915-ci ildə baş verir. Əlbəttə onların Kabul da yerləşən Babər şahın dövləti ilə də ciddi çətinlikləri var idi. Həmçinin uzun müddət Xorasanda hakimiyyətdə olan Teymurilər tərəfindən ciddi müqavimətə rast gəlmiş və Qıpçaq səhrasında Soltan Qasımla qarşı-qarşıya gəlmiş və bu döyüşdə ona məğlub olmuşlar.

Sonuncu dəfə özbəklərin hücumuna Əstərabadda Bədiuzzaman məruz qalır. O yeganə çıxış yolunu oranı tərk edib Şah İsmayılın yanına gəlməkdə görür və burada da böyük təmtəraqla qarşılanır.

## *ŞAH İSMAYIL VƏ ÖZBƏKLƏR*

Özbəklər Teymurilər sülaləsinə qarşı mübarizə apardıqları zaman Şah İsmayıl İranı birləşdirib vahid dövlətə çevirməyə can atır və eyni zamanda Xorasanda baş verənləri də nəzarət altında saxlayırdı. O, özbəklərin Kermana, Astarabad və Xorasana etdikləri hücumları və Şeybanilərin təhlükə törədə biləcəklərini nəzərə alaraq ciddi tədbirlərə əl atmalı olduğunu başa düşür. Şeybək xanın Şah İsmayıla göndərdiyi məktubda da şer ilə hədəfinin tək İranın deyil, Məkkə və Mədinənin də işğal edəcəyi olduğu göstərilir.

Şerin məzmunu:

İstəyimiz viran olmuş İraq mülkü deyil
Məkkə ilə Mədinəni almasam hesab deyil.

(Şeybək xan İraq dedikdə təzə təsis olmuş Səfəvi dövlətinin ixtiyarında olan Əcəm İraqını nəzərdə tutmuşdur).

Hicrətin 916-cı ilində İranın mərkəzində artıq heç bir çətinlik qalmamışdı. Fəzl Ruzbəhan bu haqda yazır: «İraq, Fars, Kerman, Azərbaycan və Ərəb İraqında Şah İsmayıla çətinlik törədə biləcək və başını qata biləcək elə bir qarışıqlıq qalmamışdı». Nəhayət, Şah İsmayıl Şeybək xanın sorağına gəlir və təkəbbürə malik olan Şeybək xan Şah İsmayıla göndərdiyi məktublarda ünvanına xoşagəlməz sözlər deyir və onu «kiçik nəzarətçi» adlandırırdı. O, Şah İsmayıldan İranda onun adına sikkə vurub Orta Asiya camaatının Həcc ziyarətinə getməyinə imkan verməsini tələb edirdi. Göndərdiyi məktubların birində yazırdı: «Cümə məscidlərində bizim hər yanı tutmağımız haqqında xütbə oxu və özün də bizim yüksək məqamımıza diqqət yetir, yoxsa…»

Belə bir təhqiramiz məktub hər bir tanınmış əmir üçün dözülməz bir iş idi. O ki, qaldı İranın mərkəzini birləşdirməyə nail olan və heç bir məğlubiyyətlə qarşılaşmayan Şah İsmayıl kimi qüdrətli bir sərkərdəyə. Qızılbaşlar ordusu hərəkətə gəldiyi zaman Şeybani əmirləri də Daməğan və Əstərabaddan Hərata doğru yola düşürlər. Qızılbaşların hücum xəbəri Şeybanilərə çatdıqda qorxuya düşür, hətta Şeybək xan Həratı tərk edib Mərvə qaçmağa məcbur olur. Qızılbaşlar ordusu Məşhədə daxil olur, oradan isə Sərəxsə və Mərvə gəlirlər.

Şeybanilərin ön döyüş xətti yolun yarısında qızılbaşlarla qarşılaşır və həmən döyüşdə məğlub olurlar. Beləliklə, Şah İsmayıl Mərvə doğru irəliləyir və əsas döyüş də elə orada baş verir. «Bir həftə ərzində Mərv böyük bir qətlgaha çevrilir və əhalinin üzündə qəm və kədər görünürdü». Nəhayət, Şah İsmayıl müvəqqəti geri çəkilməklə düşməni Mərvdən çıxmağa məcbur edir. Burada uğurlu hərbi fənd işlədərək düşməni Siyahrud çayının kənarından keçib açıq döyüş meydanına gəlməyə vadar edir. Bundan sonra Şah İsmayıl baş verən ağır döyüşdə Şeybək xanın ordusunu məğlub edir. Ordu darmadağın olunur və Şeybək xanın özü əl-ayaq altında qalaraq həlak olur. Ordunun qalan hissəsi ya öldürülür, ya da əsir götürülür. Beləliklə, özbəklər ilk dəfə olaraq qızılbaşlardan məğlubiyyətin nə olduğunu dadmalı olurlar. Şah İsmayıl Şeybək xanın başını bədənindən ayırıb dərisini soyduqdan sonra onu samanla doldurtdurub Rum padşahı Sultan Bayazidə göndərməyi əmr edir.

Şeybək xanın canişini Ubeyd xan Mərv yaxınlığına çatdığı zaman artıq özbək ordusu tamamilə darmadağın edilmiş və Xorasan Şah İsmayılın ixtiyarına düşmüşdü. Belə bir şəraitdə Ubeyd xan Buxaraya qayıtmağa məcbur olur. Beləliklə, özbəklərin hay-küyü bir müddət yatır və işğalçılıq fikrindən daşınmalı olurlar. Şah İsmayıl isə hakim təyin edib özü Hərata qışlağa gəlir. Bir müddətdən sonra Orta Asiyaya-Mərəmənə şəhərinə gəlir və orada ona Şeybək xanın oğlu Buxara hakimi Ubeyd xandan və Səmərqənd hakimi Sultan Teymur tərəfindən külli miqdarda hədiyyələr göndərilir. Şah İsmayıl daha sonra İranın mərkəzinə qayıdır və bir müddət Qum və Savədə qalmalı olur. Həmişə olduğu kimi, Hərat iki hissəyə bölünmüşdü. Onların bir hissəsi şiə məzhəbinə, başqa bir hissəsi isə sünni məzhəbinə mənsub idi. Hərçənd oranın sünniləri də şiə məzhəbinə meyilli idilər. Şeybanilərin oraya hakim olduqları dövrdə şiə məzhəbinə mənsub olanların böyük hissəsinin qanı amansızcasına tökülmüş və səbəbsiz olaraq əhali qətliam olunmuşdu. İndi isə buraya artıq Şah İsmayıl hökmranlıq edir və Şeybanilərin intiqamını almaq məqsədilə şiələrin qətlində iştirak edən sünniləri bir-bir ələ keçirir və onları edam edirdi. Onlardan biri də uzun müddət həmən məntəqədə müftilik etmiş «Şeyxul İslam Hərati» olmuşdur. Az sonra Hərat yenidən özbəklərin əlinə düşdüyü üçün şiələrə olan münasibət yenidən gərginləşir və kütləvi soyqırımlar başlanır. H.q. 919-cu ildə Teymur, Şeybək xanın oğlunu məğlub etdikdən sonra Rumlunun dediyinə görə «Şiələrin böyük bir hissəsi qətlə yetirildi».

Şah İsmayıl özbəklərin Xorasanın gələcəyi üçün təhlükə törədə biləcəklərindən xəbərdar idi. Bunun üçün də Kabul hakimi Babər şahla sıx əlaqə yaradıb özbəkərin fəaliyyətlərini məhdudlaşdırmaq fikrinə düşür. Babər şah göstərdiyi şücaətlər nəticəsində Bədəxşana hakim olur və bununla da Şah İsmayılın diqqətini özünə daha da cəlb etməyə başlayır. O, Şah İsmayıldan ona kömək edəcəyi təqdirdə on iki imamın adına sikkə vurduracağını və xütbə oxuyacağını bildirir.

H.q. 918-ci ildə özbəklər ilə Nəcəf Sani kimi tanınan Əmir Yar Əhməd İsfahaninin rəhbərlik etdiyi qızılbaş ordusu arasında şiddətli döyüş baş verir. Döyüşdə Şah İsmayılın cəsur sərkərdəsi qətlə yetirilir. Tarixçilərin yazdıqlarına görə Özbəkistanın məğlub olmasına səbəb olan ən başlıca amil onun hədsiz qürur və təkəbbürü olur. O əvvəl Bəlxə hücum edərək oranı fəth edir və əhalisini amansızcasına qətlə yetirir. Hətta məscidə pənah gətirən seyidlərə belə rəhm etməyib qətlə yetirir. Sonra Buxaraya yola düşür və orada qızılbaşlarla döyüşdə məğlub olur və Nəcm Sani əsir götürülərək

Ubeyd xanın göstərişi ilə qətlə yetirilir. Bundan sonra isə özbəklər Hərata gəlir və oranı fəth edə bilməyib geri qayıdırlar.

Nəcm Saninin ölümü və özbəklərin yenidən Xorasana hakim olması Şah İsmayıla ağır gəlir. Bu səbəbdən də bir il sonra böyük bir qoşunla İsfahandan Xorasana yola düşür. Şah İsmayıl Məşhədə yaxınlaşdığı zaman Ubeyd xan Buxaraya, Sultan Teymur isə Səmərqəndə qaçır. Oradan isə Badğeylə gəlir və oranın əhalisinin onun döyüşdən qaçan əsgərlərini öldürdüklərindən xəbər tutub onların qətliam olunmalarını əmr edir. Beləliklə, Şah İsmayıl Xorasanı tamamilə ələ keçirir və öz adamlarını şəhərlərə vali təyin edib yenidən İsfahana qayıdır. İsfahan uzun müddət Səfəvi dövlətinin müvəqqəti paytaxtı olur və Şah İsmayılın oğlu Təhmasib h.q. 920-ci ildə həmən şəhərin Şəhabad adlı kəndində dünyaya gəlir. Ubeyd xan h.q. 927-ci ildə otuz minlik qoşunla yenidən Hərata hücum edir, oranı mühasirəyə alır və şəhəri ələ keçirə bilmədən Buxaraya qayıdır.

## *OSMANLI İMPERATORLUĞU*

Abbasilər xilafətinin kənarında zaman və məkan baxımından uzun müddət davam gətirən İslam xilafətinin adını çəkmək istəsək, gərək yalnız Osmanlı imperatorluğunun adını çəkək. Bu imperatorluq bir neçə əsr dini və mədəni baxımından böyük ərazini, o cümlədən bütün ərəb ölkələrini öz hakimiyyəti altında birləşdirmiş və İslam dininin yayılmasında olduqca böyük xidmətləri olmuşdur.

Osmanlı dövlətinin təsis və inkişafı kitabın mövzusu ilə əlaqəli olmasa da bir tərəfdən kəsb etdiyi əhəmiyyət, digər tərəfdən də İranla onun arasındakı münasibətlər baxımından onun necə meydana gəlib bir dövlət kimi fəaliyyət göstərməsinə işarə etmək istəyirik. Osmanlı xilafəti öz fəaliyyətini hicrətin 8-ci yüzilliyində Anadoludan başlayır və İ dünya müharibəsi ərəfəsində (1914-1918) hicrətin XVİİİ əsrinin dördüncü on illiyində aradan gedərək öz fəaliyyətini dayandırmalı olur. Osmanlı dövləti bir çox sabit əmirliklər kimi öz inkişafını Anadolunun qərbində məsihilərlə mübarizə aparan Osman və onun əcdadlarına borcludur. Bu əmirliklər mübarizəyə təzə qoşulmuş həm Rum Səlcuqlarının, həm də monqolların qalıqları, həm də məsihi kafirləri ilə cihad və öz ərazilərini genişləndirməyə çalışan fədailər idi. Osmanlı dövləti İzmir və Bursa əyalətlərinin kənarında meydana gəldi və tədricən hicrətin səkkizinci yüzilliyində öz qüdrətini ətraf məntəqələrdə də genişləndirə bilir. Hicrətin 760-cı ilində Osmanlılar Asiyadan kənara çıxıb

Avropanın sərhədlərinə yaxınlaşırlar. Bütün bu irəliləyişlər Osmanlıların üçüncü əmiri İ Muradın dövründə həyata keçir və beləliklə, Anadolu ərazisində qüdrətli bir dövlət meydana gəlir. Elə bir dövlət ki, nəinki məhəlli əmirlikləri, hətta Bizans məsihilərini belə özlərinə tabe edir.

Bundan belə Osmanlı dövləti iki istiqamətdə genişlənməyə başlayır.

1-Balkan yarımadası;

Bu məntəqədə bir çox Bizans şəhərləri biri digərinin ardınca osmanlıların nəzarəti altına düşür və ələ keçirdikləri ərazilər daha da genişlənir.

2-Şərq;

Osmanlılar h.q. 755-ci ildə Ankaranı ələ keçirirlər və oradan əvvəllər Rum səlcuqların və monqolların ixtiyarında olan ərazilərə qoşun yürüdürlər. Bütün bunlara baxmayaraq osmanlıların əsas fəaliyyət mərkəzi hələ Balkan yarımadasında idi. Elə bir yer ki, osmanlılar mümkün qədər çox şəhərlər ələ keçirməli və serb səlibçilərinin qarşısını almalı idilər.

Bizim üçün daha çox əhəmiyyət kəsb edən məsələ varsa, o da bu dövlətin şərq sərhədlərindəki fəaliyyət və aqibəti idi. Burada osmanlı Muradın canişini təyin olunan İ Bayazid hələ fəaliyyətini davam etdirən əmirliklərin bir çoxunu məhv edərək aradan götürə bilir. Həmən dövrdə isə Bəyazidin özü bir neçə cəbhədə düşmənlə mübarizə aparırdı. Onun qarşısına qoyduğu ən başlıca məqsədi isə məsihiləri birləşdirməyə can atan Konstantinopol imperatorluğunu ələ keçirmək idi. Bunun üçün də çox ciddi səlib yürüşünə tədarük görürdü. Digər tərəfdən də şərqdən ölkə ərazisinə daxil olmuş Teymurilər osmanlılar üçün ciddi çətinliklər törədirdilər. Belə ki, Teymurun hakimiyyət dövründə osmanlıların Anadoluya olan nəzarəti nəzər çarpacaq dərəcədə azalmışdı. Yalnız h.q. 807-ci ildə Teymurun ölümündən sonra osmanlılar yenidən məntəqəyə nəzarət etməyə başlayırlar. Osmanlı dövlətinin qarşılaşdığı başqa bir çətinlik Misirdə fəaliyyət göstərən və onun əsas rəqiblərindən birinə çevrilmiş Məmalik dövləti idi.

## *KONSTANTİNOPOLUN FƏTHİNƏ DOĞRU*

Bəyazidin hakimiyyət dövründə diqqəti cəlb edən mühüm məsələlərdən biri də oğlanları arasındakı ixtilaflara baxmayaraq, böyük bir imperatorluğun meydana gəlməsi idi. Möhkəm bünövrəyə malik olan bu imperatorluq onu süquta uğramaqdan qoruyurdu. Bu dövrdə osmanlıların fəaliyyətə başladığı əsas mərkəz Bursa şəhəri idi.

İkinci Murad (h.q. 824-855) taxta oturduqdan sonra Osmanlıların çətinlikləri hələ də davam edir və o, Anadoluda bəzi çətinliklərlə

qarşılaşdığı üçün Konstantinopolu ələ keçirə bilmir. Lakin bütün bunlara baxmayaraq Balkan yarımadasında irəliləmək üçün ciddi səylər olunurdu. Gedən döyüşlərdə Osmanlılar öz mövqelərini daha da gücləndirir və Konstantinopol mühasirə olunduqdan sonra oranın ələ keçirilməsi üçün münasib imkan yaranır.

İİ Muradın canişin oğlu Sultan Məhəmməd Fateh kimi tanınan İİ Məhəmməd müsəlmanların kömək və fədakarlıqları sayəsində Konstantinopolu ələ keçirir. O, ilk dəfə olaraq əsrlər boyu Bizans imperatorluğunun nəzarəti altında olan Konstantinopolu müsəlmanların ixtiyarına qoyur.

Müsəlmanların Bizans imperatorluğu ilə qarşı-qarşıyı durması isə hələ Peyğəmbərin (s) zamanında baş verən Mutə döyüşünə qayıdırdı. Rumluların nəzarəti altında olan Şam və İraq əraziləri ələ keçirildikdən sonra isə bu qarşıdurma daha da kəskinləşdi. Sonralar Müaviyənin hakimiyyət dövründə müsəlmanlar bu dövlətin mərkəzinə doğru irəliləməyə çalışırlar. Belə ki, onlar hətta şəhərin divar qapılarına qədər irəliləməyə nail olurlar. İslam ordusunun qabaqcıl sərkərdələrindən olan Əbu Əyyub Ənsari məhz burada dünyasını dəyişir və indinin özünədək onun dəfn olunduğu həmən məntəqə Əyyub adlanır. Lakin rumlular nəyin bahasına olursa-olsun müsəlmanların irəliləyişinə mane olmağa çalışırdılar. Bunun ardınca isə İslam ordusu Şimali Afrikadan Aralıq dənizinə daxil olub və oradan da İspaniyaya daxil olmağa çalışır; onlar buna nail olur, lakin hərəkətlərini elə oradaca dayandırmalı olurlar. Müsəlmanlar İspaniyanı itirdikləri ərəfələrdə məsihi ərazilərində genişlənməsinə nail olan Sultan Məhəmməd Fateh həmən günədək Konstantinopolu fəth edə bilir. Çünki, hələ o vaxtadək müsəlmanlar Balkan yarımadasınadək irəliləsəydilər də, Konstantinopolu fəth etməmişdilər və məlum məsələdir ki, oranın fəth olunmaması irəliləyişə ciddi maneçilik törədə bilərdi.

Əzəmətli Osmanlı ordusu dörd günlük mühasirədən sonra (hicrətin 857-ci ilin rəbiul-əvvəl ayının 20-dən 25-dək / 1455 may ayının 25-dən 29-dək) Konstantinopol şəhərini özünün tam nəzarəti altına keçirir. Bu, Sultan Məhəmməd Fatehin adını əbədiləşdirən İslam dünyasının əsrlər boyu əldə etdiyi ən böyük nailiyyət idi. Şəhərə yeni ad, yəni İstanbul adı verildi və müsəlmanlar oranı məsihilik əhval-ruhiyyəsindən azad edib İslam mədəniyyəti ilə zinətləndirməyə başlayırlar. İlkin mərhələdə şəhərə canlanma vermək üçün oranı tərk edən məsihilərin yerinə müsəlmanları gətirirlər. Osmanlı Sultanı da bir neçə bazar və bina tikdirir və bu binalardan

biri də indinin özünədək bu şəhərdə dövlət muzeyi kimi fəaliyyət göstərən Topqapı sarayı olur. Burada saysız-hesabsız məscidlər də tikilir ki, bu da sonralar bu şəhərə min məscidli şəhər adının verilməsinə səbəb olur.

Bildiyimiz kimi Konstantinopolun fəth olunması ilə əhalinin böyük əksəriyyəti Qərb mədəniyyətinin yeni inkişaf mərkəzinə çevrilən Qərbi Rum əyalətlərinə üz tuturlar. Şirkamiz yunan mədəniyyəti də məhz bundan sonra məsihi dininə daxil olur. Bunun üçün də 1453-cü ili qərbdə renosans dövrünün başlanğıcı hesab edirlər.

Artıq osmanlı dövləti nə qədər çox şöhrət tapmışdısa da, bir o qədər də özünə çox düşmən qazana bilmişdi. Şərqi Anadolu ərazilərində siyasi səhnəyə uzun Həsən çıxır və məsihilərin köməyi ilə Osmanlı dövləti üçün çətinliklər yaratmağa başlayır. Osmanlıların Uzun Həsən üzərində qalib gəlməsi onu İrana gəlməyə daha da vadar edir. Beləliklə, osmanlılar Uzun Həsəni öz ərazilərindən uzaqlaşdırıb ən azı onlara maneçilik törətməyə yol vermirlər.

## *OSMANLILARIN ÖZ ƏRAZİLƏRİNİ GENİŞLƏNDİRMƏK MƏQSƏDİLƏ MİSİR VƏ İRANA ETDİKLƏRİ YÜRÜŞLƏR*

Sultan Məhəmməd Fatehin ölümündən sonra canişinlər arasında ciddi ixtilaf meydana gəlir. H.q. 886-cı ildə İİ Bəyazid hakimiyyətə gəlir və 918-ci ilədək Osmanlı dövlətini idarə edir. Həmən dövrdə də Səfəvi dövləti meydana gəlir; Bəyazid də şiə məzhəbini himayə edən Şah İsmayılın müqabilində qatı təəssübkeşliklə sünni məzhəbini dəstəkləyirdi. İlk növbədə bu kimi məzhəb ixtilafı da təzə təsis olunmuş Səfəvi dövləti ilə qüdrətli Osmanlı imperatorluğu arasında ciddi qarşıdurmaların meydana gəlməsinə səbəb olur. Lakin ən mühüm məsələlərdən biri də Osmanlı dövlətinin bütün İslam dünyasına rəhbərlik iddiası etməsi idi. Bu səbəbdən də o, qarşısında duran, əmirlik və xilafət iddiası edən bütün dövlət və qruplaşmaları aradan qaldırmalı idi.

İslam dünyasına rəhbərlik iddiası edən dövlətlərdən biri də İslam bayrağını qaldıran Məmalik dövləti idi. H.q. 920-ci ildə Osmanlı Sultan Səlim Misirə hücum edərək Məmalik dövlətini darmadağın edir, onların ixtiyarında olan Misir, Suriya və Hicaz ərazilərini ələ keçirir. Bu hadisə Osmanlı dövlətinə Məkkə və Mədinədə də qüdrəti öz ixtiyarına almaq imkanını verir. Bundan belə Məkkə və Mədinə müftiləri də Osmanlı Sultanı tərəfindən təyin olunmalı idi. Qeyd etmək lazımdır ki, həmən dövrədək Abbasilər sülaləsinin ixtiyarında olan Abbasi xilafəti artıq türklərin

ixtiyarına keçir və beləliklə, xəlifənin Qureyş nəslindən olmasına dair verilən fiqhi hökm sünni fiqhindən çıxarılır.

Osmanlı dövlətinin başqa bir ciddi rəqibi isə Ağqoyunluların süqutundan sonra şərqi Anadoludan Xorasanadək hökmranlıq edən Səfəvi dövləti idi. Qeyd etmək lazımdır ki, Səfəvi dövlətindən əvvəl Anadolu sərhədlərində məskunlaşmış və daimi üsyanlarla Osmanlı dövlətinin avropalılarla apardığı mübarizəyə ciddi maneçilik törədən türkmən qəbilələri idi. Onlar bir vaxtlar Rum səlcuqlarının ərazilərində və monqolların qorxusundan (Osmanlılar və digər əmirliklər də onlara aid idilər) qərbə doğru tutan türkmən qəbilələri idilər. İndi artıq onlar İrana pənah gətirmiş və Osmanlı dövlətini zəiflətməyə çalışırdılar.

Ağqoyunlu və Qaraqoyunlu türkmən dövlətləri təsis olunduqdan sonra türkmənlərin onları himayə etmələri üçün münasib şərait yarandı. Onlar süquta uğradıqdan sonra isə Səfəvi dövləti onu əvəz etdi və onların böyük bir hissəsi Anadoluda Şeyx Səfi sülaləsinin müridlərinə çevrildilər. Qeyd olunduğu kimi, bir neçə onillikdə aparılan fəaliyyətlər nəticəsində Səfəvi dövləti təsis olunur. Osmanlıların bu tayfalara göstərdiyi təzyiqlər və onların şiə məzhəbinə olan meyli Səfəvi dövlətinin təsis olduğu ərəfədə kütləvi şəkildə Anadoludan Azərbaycana mühacirət etmələrinə səbəb olur. Yalnız Ərdəbil sülaləsinə ümid bəsləyən, sufi və digər ifratçı məzhəblərə mənsub olan qızılbaş ordusunu da məhz onlar təşkil edirdi. Bunun Osmanlı dövləti üçün nə qədər çətin olduğu göz qabağında idi. Osmanlı dövləti bunun şahidi olmalı idi ki, onun ərazisində yaşayan və ona maliyyə verən əhalinin böyük bir hissəsi yaşadıqları əraziləri tərk edir və İran ərazilərinə mühacirət edərək onun qatı düşmənlərinə çevrilir və əhli-sünnə məzhəbinə arxa çevirirdilər.

## *ÇALDIRAN DÖYÜŞÜ*

Həmən dövrlərdə Şərqi Anadolu hələ Osmanlı dövlətinin ixtiyarında deyildi və hələ ki, Səfəvi təbliğatçılarının fəaliyyət mərkəzi hesab olunurdu. Bəyazidin hakimiyyətdə olduğu dövrlərdə Anadoluda böhranlı vəziyyət yaranır və hətta qızılbaşlar belə Osmanlı dövlətinə qarşı üsyan edirdilər. Bütün bunlara baxmayaraq, Bəyazid Şah İsmayıla qarşı ciddi tədbirlərə əl atmır. Həsən xəlifənin oğlu şah Qulubaba Anadoluda Şeyx Səfi sülaləsinin tərəfdarlarına çevrildiyi andan Osmanlı dövlətinə qarşı mübarizə aparmağa başlayır və onları iki dəfə məğlub edə bilir. Bundan sonra döyüşlərin birində Osmanlı vəziri xadim Əlipaşa qətlə yetirilir və sufilər öz yeni rəhbərləri ilə birlikdə Şah İsmayılın yanına gəlirlər.

H.q. 918-ci ildə Şah İsmayıl onları Rumlu xəlifəsi Nur Əli ilə birlikdə onlara sadiq olan sufiləri yığmaq üçün Ruma göndərir. Məlum məsələ idi ki, bütün bu addımlar Osmanlı dövlətinin əks-əməlinə də səbəb olacaqdı. Bu səbəbdən də Şah İsmayıl Anadoluda daha çox nüfuz qazanmaq və Şeyx Səfi sülaləsini himayə edən sufiləri Azərbaycana gətirmək istəyirdi. Lakin osmanlı dövləti bunu başa düşüb əhalinin mühacirət etməsinin qarşısın alırdı.

H.q. 918-ci ildə Sultan Səlimin hakimiyyəti başlamaqla (h.q. 926-cı ilədək davam edir) iki istiqamətdə, yəni həm Şərqi Anadolu, həm də Misirdə müharibəyə başlayır. İlk baxışdan belə nəzərə çarpırdı ki, Sultan Səlimin başlıca düşməni Səfəvi dövləti idi. Çünki, bir tərəfdən Səfəvilərin Diyarbəkrdə hakim olduğunu, digər tərəfdən isə Nur Əli xəlifənin geniş fəaliyyətinin şahidi olur və bu da onlar üçün dözülməz bir hala çevrilirdi. Bu səbəbdən də öz ərazisində məskunlaşmış şiə məzhəbli Səfəvi tərəfdarlarını kütləvi şəkildə qətliam edir. Osmanlı dövlətinin özünün verdiyi məlumata görə həmən dövrdə öldürülənlərin sayı qırx min nəfərə çatmışdı.

Bundan sonra h.q. 920-ci ildə yüz iyirmi minlik qoşunla Azərbaycana tərəf gəlir. Camaatı döyüşə sövq etmək məqsədilə Şah İsmayıla qarşı əks təbliğat aparmağa başlayır və həmən məntəqənin alimlərinin bir hissəsini şiəlikdə ittiham edərək həbs edir. Yazdığı bütün məktublarda və döyüş barədə apardığı mübarizədən ən başlıca məqsədi sünni məzhəbini müdafiə, şiə məzhəbini aradan götürmək olmuşdur. Özünü sünni müsəlmanların xəlifəsi kimi qələmə verən Sultan Səlim tam ciddiyyətlə bu məzhəbi müdafiə edir və şiə məzhəbinin kökünü kəsmək istəyirdi.

Səfəvi və Osmanlı ordusu iki əsas fərqə malik idi. Osmanlı ordusu olduqca nizamlı ağır Avropa topları və mancanaqlarla təchiz olunmuşdu. Münəzzəm döyüş təcrübəsi və topxanası olmayan qızılbaş qoşunu isə yalnız özünün şücaətinə arxalanırdı. Döyüşdə qızılbaşlar qılınc, rumlular isə ağır toplarla mübarizə aparırdı. Rumlu, rum ordusunun göstərdiyi fədakarlıqlar haqqında yazır:

«Osmanlılar top, tüfəng və mancanaq atmaqda o qədər böyük məharətə malik idilər ki, uzaq məsafədən dəqiqliklə nişan alır və onu məhv edirdilər».

Şah İsmayıl isə qürur və qoşun gücünə güvənərək qızılbaş ordusunda nizam-intizam yaratmağa çalışırdı və o, həmən günədək məğlubiyyətin nə olduğunu bilmirdi. O, Sultan Səlimin dörd kəskin məktubuna yalnız bir mülayim cavab göndərir və döyüşdən əvvəl elə soyuqqanlılıq göstərirdi ki, sanki zəfər hökmən onun olacaqdı. Şah İsmayıl heç cür ümumi səfərbərlik

etmək istəmir və İsfahan və digər ətraf şəhərlərdə ixtiyarında olan qoşunla birgə Azərbaycana doğru hərəkət edir. Osmanlı ordusunun sayı yüz iyirmi minə çatdığı bir halda tarixçilər Şah İsmayılın cəmi otuz minlik qoşunla Azərbaycana gəldiyini qeyd etmişlər.

Tarixçilərin bəzilərinin yazdıqlarına görə qızılbaşlar top və tüfənglərdən xəbərsiz olduqları üçün deyil, sadəcə olaraq comərdlik hesab etmədikləri üçün bu kimi silahlardan istifadə etməmişdilər. Çaldıran döyüşü hicrətin 920-ci ilində Rəcəb ayının ikisində Təbriz yaxınlığında baş verir. Qızılbaşlar təpədən-dırnağadək silahlanmış Osmanlı ordusu ilə böyük şücaət göstərərək mübarizə aparırlar. Döyüşdə Şah İsmayıl şəxsən özü düşmənə hücum edərək onların böyük bir hissəsini həlak edir. Bir gün davam edən döyüşdə üç minə yaxın Osmanlı və iki minə yaxın qızılbaş əsgəri həlak olur. Qızılbaşlar qaş qaraldıqdan sonra müqavimətin faydasız olduğunu görüb döyüş meydanını tərk edirlər. Döyüş meydanınıda qalan əsir və qənimətləri ələ keçirən Osmanlı ordusu Təbrizə tərəf hərəkət etməyə başlayır və həmən ilin Rəcəb ayının 16-da şəhəri tamamilə işğal edir.

Böyük yol qət edərək Səfəvi dövləti ilə mübarizə aparan Sultan Səlimin ən başlıca məqsədi hər şeydən əvvəl qızılbaş qoşununa dərs vermək və onların Anadoluya göstərdikləri nüfuzun qarşısını almaq idi. Bunun üçün də belə bir vaxtda uzun müddət Təbrizdə qalmaq bir o qədər də məqsədə uyğun deyildi. Elə bir vaxtda ki, özünün yeniçəri adlı təcrübəli əsgərləri Osmanlı dövlətinə qarşı çıxır və ona öz etirazlarını bildirirdilər. Kafirlərlə uzun müddət mübarizə aparan Osmanlı dövləti indi artıq müsəlmanlarla, özü də belə bir geniş dairədə ölüm-dirim mübarizəsi aparırdı. Sultan Səlimin tabeçiliyində olan əsgərlərdən bəziləri oxla ona göndərdikləri anonim məktublarda müsəlmanların haqsız olaraq öldürülmələrini bidirirdilər. Həmən məktublarda deyilirdi:

«Əhli-sünnə tək beş vaxt Məhəmməd azanını verən, dəstəmaz alaraq namaz qılan, oruc tutub Quran oxuyan, həcc ziyarətini yerinə yetirərək la ilahə illəllah və Məhəmmədən Rəsulullah deyən bir milləti nə üçün öldürməliyik…? Biz iranlılarla din uğrunda vuruşmayacağıq. Yox, əgər var-dövlət uğrunda vuruşmağımızı əmr etsəniz, onda bilin ki, viran olmuş bu məmləkət uğrunda qan töküb onu işğal etməyə dəyməz».

Sultan Səlim Təbrizdə səkkiz gün qaldıqdan sonra oranı tərk edir və şəhər yenidən Şah İsmayılın ixtiyarına keçir.

Çaldıran döyüşündəki məğlubiyyət Səfəvi sufilərinin Anadoludakı nüfuzunun qarşısını alır; bundan sonra sülalə tərəfdarları Azərbaycana

yalnız oradan mühacirət edə bilərdi. Beləliklə, Osmanlılar Şərqi Anadoluda onlar üçün təhlükə yaradan Səfəvi dövlətinin qarşısını alıb onun geri çəkilməsinə nail olur. Çaldıran döyüşü başa çatsa və bu iki dövlət arasında dəfələrlə sülh sazişi imzalansa da, onlar biri-birinin daimi düşmənlərinə çevrilib heç vaxt qarşılıqlı əlaqələr yarada bilmirdilər. Çaldıran döyüşündə qızılbaşların sərkərdə və dövlət adamlarının böyük bir hissəsi, o cümlədən Rumlunun dediyi kimi, Səfəvi dövlətinin hüquq və məzhəbinin bir nömrəli təbliğatçısı Seyid Şərif Şirazi də qətlə yetirilir.

## *ŞAH İSMAYIL ÇALDIRAN DÖYÜŞÜNDƏN SONRA*

Çaldıran döyüşündən sonra Şah İsmayıl öz siyasi-hərbi fəaliyyətlərini tam şəkildə dayandırıb on beş illik şahlıq dövründə əldə etdiyi nailiyyətləri qoruyub saxlamağa qane olur. Eyni zamanda əmirlərin itaətsizliyinə yol vermir, baş qaldıran üsyanları dərhal yatırır və ölkə ərazisində nizam-intizamın pozulmasının qarşısını alır.

Döyüş başa çatdıqdan sonra Şah İsmayıl uzun müddət ilin bir hissəsini İsfahan və Qumda, bir hissəsini Təbrizdə keçirirdi. İsfahanda qalaraq günlərinin çoxunu ov və eyş-işrətdə keçirən Şah İsmayıl artıq Çaldıran döyüşündən əvvəl göstərdiyi siyasi-nizami fəaliyyəti göstərə bilmirdi. Qazi Əhməd Qumi, Mirzə Şah Hüseyn İsfahanini Quran qarilərini şərab içməyə və eyş-işrətə sövq etməkdə ittiham edir. On il ömrünü beləcə eyş-işrətdə keçirən Səfəvi dövləti qürur və möhtəşəmliyini tam şəkildə itirir, öz düşmən və müxaliflərini dəf etməyə belə diqqət yetirmirdi. Bunun səbəbini bəziləri Şah İsmayılın Çaldırandakı məğlubiyyəti ilə əlaqələndirirlər. H.q. 930-cu ilin rəcəb ayının 19-da Şah İsmayıl fani dünya ilə vidalaşır və cəsədinə qüsl verildikdən sonra Ərdəbilə aparılıb ata-babalarının kənarında dəfn olunur.

## *ŞAH İSMAYILIN İSFAHAN VƏ QUMDA GÖRDÜYÜ ABADLIQ İŞLƏRİ*

Şah İsmayılın İsfahan və Quma etdiyi çoxsaylı gediş-gəlişlər bu iki şəhərin abadlaşdırılma işlərinə xüsusi diqqət yetirməsinə səbəb olur. Belə ki, onlardan bəziləri indinin özünədək tarixi abidə kimi qorunub saxlanılmaqdadır. Həmən dövrdə yenidən təmir olunan müqəddəs məkanlardan biri də Qum şəhərindəki Həzrəti Məsumənin (İmam Rzanın (ə) bacısının) ziyarətgahı olur. Bu şəhər həm orada yerləşən ziyarətgah, həm də şiələrin məskunlaşdıqları əsas mərkəz olma baxımından daim Səfəvilərin diqqət mərkəzində olmuşdur. Bu ziyarətgah böyük əhəmiyyət kəsb

etdiyindən Səfi Şah, ikinci Şah Abbas, Süleyman və Səfəvi Sultan Hüseyn şah öz vəsiyyətləri ilə orada dəfn olunmuşlar. Ziyarətgahın tikilişində istifadə olunan qızıl və digər qiymətli kətibələr də məhz h.q. 925-ci ilə, yəni Şah İsmayılın hakimiyyət dövrünə aiddir. Onun hakimiyyət dövründə İsfahanda da tikilən məscid və imamzadələrin sayı az deyildir. H.q. 918-ci ildə İsfahanın Came məscidində aparılan əsaslı təmir işlərini buna misal çəkmək olar. Məscidin mehrabında özünəməxsus gözəlliklə üzərində (La ilahə illallah, Muhəmmədun Rəsullullah, Əliyyun vəliyyullah həqqən – Allahdan başqa Allah yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın haqq olaraq dostudur) yazılan kətibə və həzrət Əli (ə) haqda yazılan şer bir daha qızılbaşların şiəliyə olan eşq-məhəbbətindən xəbər verir.

Bu dövrdə üzərində əsaslı təmir işləri aparılan qədim tarixi binalardan biri də Haruniyyə və ya Harun Vilayətin məzarı kimi tanınan ziyarətgah olmuşdur. Binanın özü isə Şah İsmayılın səltənət vəkili Mirzə şah Hüseyn İsfani tərəfindən tikilmişdir. Hüseyn İsfahani şah İsmayılın hakimiyyət dövründə olduqca qüdrətli və böyük nüfuza malik olan şəxsiyyətlərdən biri olmuşdur.

Onun özü bu binanın bənnası olmuş və sonralar daha çox nüfuz qazanaraq belə bir yüksək vəzifəyə təyin olunmuşdur.

Şah İsmayılın hakimiyyət dövründə Haruniyyə binası ilə yanaşı İsfahandakı həzrət Əli məscidi də əsaslı təmir edilir və Şah İsmayılın adı onun qapısı üzərində həkk olunur.

Diqqət yetirmək lazımdır ki, aparılan təmir işləri adətən məhəlli hakimlərin vasitəsi, mərkəzi dövlətin, habelə dövlətlərin maddi yardımı ilə həyata keçirilir və adəti üzrə kətibələrdə şahın adı yazılırdı.

## *HƏRAT ALİMLƏRİNİN HƏRATA MÜHACİRƏTİ*

Xətt, rəsm (minyatür) və memarlıq kimi sahələrdə fəaliyyət göstərən Səfəvi mədəniyyəti İslamdan sonrakı doqquz yüz illik dövrdə yerli əhali ilə yanaşı, çoxsaylı Hərat sənətkarlarının Azərbaycana mühacirət etməsi ilə daha da rövnəq tapır. Onların Azərbaycana mühaciri səfəvilərdən əvvəl hələ Ağqoyunluların hakimiyyət dövründən başlamış və Teymurilərin süqutu ilə bu proses daha da güclənmişdir. Elə bir dövr ki, h.q. 916-cı ildə Şah İsmayıl Həratı ələ keçirmiş və yerli sənətkarların böyük bir hissəsini özü ilə Təbrizə gətirmişdir. Beləliklə, Hərat mədrəsəsi öz fəaliyyətini dayandırmaqla, İranın qərbində başqa bir yeni mədrəsə fəaliyyətə başlayır. Sonralar isə Qəzvinə və oradan da İsfahana köçürülür.

Şah İsmayılın Həratdan Təbrizə gətirdiyi məşhur nəqqaşlardan biri də Kəmaləddin Behzad (h.q. 870-942) olur. Təbrizə gəldikdən sonra Şah İsmayıl onu səltənətin kitabxana rəisi təyin edir. Şah göndərdiyi fərman məktubunda yazırdı: «Bundan belə kitabxananın maliyyəçiləri, kələntərləri, musiqiçiləri, katib və nəqqaşları, cədvəl çəkənlər və zərgərləri və sair sahələrdə fəaliyyət göstərən məmurlar Kəmaləddin Behzada tabe olmalıdır».

Həmən dövrün tarixini əks etdirən kitablara müraciət etsək, onlarda Hərat məktəbinin incəsənət üslubunu yaşadan bir çox xəttat və nəqqaşların adlarına rast gəlmək olar.

Lakin diqqət yetirmək lazımdır ki, Səfəvi dövləti hakimiyyətə gəlməklə alimlərin böyük bir hissəsi Osmanlı dövlətinin ərazilərində, Məkkə və Mədinədə, habelə Orta Asiyada pərakəndə şəkildə yayılmağa başlayırlar. Bu isə hər şeydən daha çox sünni məzhəbinə yaxşı münasibət bəsləməyən Şah İsmayılın dini siyasətinə qayıdırdı. Məzhəb və əqidəsini dəyişməyən şəxslər məcburi olaraq İran ərazisini tərk edirdi; bu isə ölkə ərazisində gedən məzhəbi dəyişikliyə münasib şərait yaradırdı.

### *ŞAH İSMAYILIN ŞƏXSİYYƏTİ*

Şah İsmayıl olduqca zirək və iti düşüncəyə malik olan bir cavan idi. Yaşının az olmasına baxmayaraq, uzun müddət qızılbaşları öz ətrafına toplayır və beləliklə, Səfəvi dövlətini təsis edir. Hakimiyyət dövründə gördüyü ən böyük işlərdən biri də böyüklü-kiçikli sülalələrin fəaliyyətini dayandırıb ölkə ərazisində vahid quruluş yaratmaq, başlıcası isə mükəmməl siyasi təfəkkür-tərzinin əsasını qoymaq olmuşdur. Təbii ki, müxtəlif qəbilələrin başçıları da ona bu işdə yaxından köməklik etmişlər. Əlbəttə, belə bir dövlətin təsis olunmasında olunan misilsiz fəthlər heç də səbəbsiz deyildi. Şah İsmayılın hakimiyyət dövründə həyata keçirdiyi ən mühüm məsələ İran ərazisinin böyük bir hissəsində on iki imamçı şiə məzhəbini sünni məzhəbi ilə əvəz etməsi olmuşdur. Qeyd etmək lazımdır ki, hələ o vaxtlar Gilan, Mazandaran, Səbzivar və Qum kimi şəhərlərin əhalisi şiə məzhəbinə mənsub olmuş, lakin Həmədan, Fars, Qəzvin və sair şəhərlərdə şiəlik bir o qədər də özünə yer etməmişdi. Şah İsmayıl İranda yeni məzhəb cərəyanının bünövrəsini qoymağa nail olur və sonralar onun canişinləri, xüsusilə də oğlu Təhmasib bu cərəyanın güclənməsində böyük rol oynayır.

Şah İsmayıla xas olan xüsusiyyətlərdən biri də onun şücaət və cəsurluğu olmuşdur. Belə ki, h.q. 914-cü ildə Bağdada gəldiyi zaman şəhər ətrafındakı

qamışlıqda bir şirin yuva saldığını eşidir. Tək başına oraya gedib bir nizə ilə şiri öldürür. Rumlu onun barəsində yazır: «Döyüş meydanında basılmaz cəngavər, şən məclislərdə isə gövhər bir bulud idi». Şah İsmayılın şairlik istedadı ona xas olan başqa bir xüsusiyyət olmuşdur. «On məktub» adı altında türk dilində yazdığı min dörd yüz beyt şer onun ədəbiyyata olan sıx əlaqəsindən xəbər verir. Şah İsmayıl türk dili ilə yanaşı fars dilini də çox gözəl bilmiş və bu dildə bir qəzəl və üç qəsidə də yazmışdır. Həmən qəzəllərdən birində deyilir:

*Bisutun nam zarəm çu şenid əz ca şod*
*Kərd fəryad ke Fərhad digər peyda şod.*
*Bisutun naləmi eşitdiyi zaman yerindən tərpəndi*
*Fəryad etdi ki, budur artıq tapıldı Fərhad.*

Başqa bir beytdə deyir:

*Əgər Məcnun təvanesti sər əz torbət birun kərdi*
*Neməsti Salha pişe mən və məşqe cunun kərdi*
*Məcnun əgər türbətdən baş çıxaransansa*
*Yanımda oturub məcnunluq məşqi etməyin gərək olar.*

Şah İsmayıl qızılbaşların nəzərində mənəvi müqəddəsliyə malik idi. O, Ərdəbil sülaləsinin rəisi Şeyx Səfiyyəddinin canişini idi. Təbii olaraq qızılbaşlar ona siyasi-hərbi rəhbər kimi deyil, əmrinə bir şeyx kimi tabe olurdular. Bunun üçün də qızılbaşların Şah İsmayıla olan tabeçilikləri əsgərlərin adi ordu başçısına tabe olmaqlarından daha ciddi hal almışdı. Sonralar bəzi sünni mənbələri belə bir iddia irəli sürmüşdülər ki, qızılbaşlar ifrata vararaq Şah İsmayılın məqamını ucaltmış, hətta onu ilahiləşdirməkdən belə çəkinməmişlər. Şiə qızılbaşları, hətta ifratçı şiələr barədə belə bir düşüncəyə yiyələnməyin özü tamamilə yanlış və əsassızdır. Düzdür, qızılbaşlar Şah İsmayılın məqamını ucaltmış və tam mənada əmrinə tabe olmuşlar, lakin heç vaxt ona tanrı gözü ilə nəzər salmamışlar. Belə ki, Şah İsmayıl onlara hər nə əmr etsəydi, böyük həvəslə qəbul edər və təxirə salmadan dərhal həyata keçirərdilər. Bəzi sadəlövh yazıçılar Şah İsmayılın türk dilində kinayə və təmsillərlə yazdığı şerləri dəlil gətirərək onun özünü məsum imam və peyğəmbər hesab etdiyini qeyd etmişlər. Bu kimi əsassız mülahizələr isə həmən şəxslərin şer irfandan tamamilə xəbərsiz olduqlarından xəbər verir. O, şerlərinin birində deyir:

*Mənsur ilə darda idim, qazilər din şahı mənəm.*

Göründüyü kimi Şah İsmayıl burada özünü İbrahim tək bir peyğəmbər hesab etmir, sadəcə olaraq hansı üslubdan istifadə etdiyini bildirmək istəyir.

## *ŞAH İSMAYILIN DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNİN TƏMƏLİNİN QOYULMASI*

Qeyd etdik ki, Səfəvi dövlətinin bünövrəsi Ərdəbildə Şeyx Səfi sülaləsinin sufiliyi adi haldan çıxarıb siyasiləşdirməyə sövq etməsindən sonra qoyulmuşdur. Belə ki, Şeyx Səfiyəddinin müridləri Kiçik Asiya ərazisində pərakəndə olub məntəqənin bir çox əmirlikləri kimi vahid qoşun təşkil edib məsihilərlə cihad edirdi. Elə bir dövr ki, Ərdəbil sülaləsi də onlar üçün bu şəraiti yaradır və beləliklə, Şeyx Səfi müridləri tez bir zamanda siyasi-sufi təşkilatına çevrilir. Bu artıq qəbilə ardıcıllığı deyildi. Onun əsasını sadiq sufilərin «Murad» adlandırdıqları rəhbərə olan sufiyanə baxışları təşkil edirdi. Murad isə şeyxin bütün məntəqələrdə xəlifə kimi fəaliyyət göstərən və müridlərlə sıx əlaqədə olan Şah İsmayılın özü idi. Onun rəhbərliyini qanuniləşdirən də elə bu idi.

Şah İsmayıl öz mövqeyini möhkəmləndirmək üçün digər üsullardan da istifadə edirdi. Bu üsullardan biri də onun öz seyidliyindən istifadə etməsi olmuşdur. Belə ki, o, seyidliyinə arxalanaraq özünü xilafətə hamıdan layiq hesab edirdi. Bu səbəbdən də özbək Şeybək xana göndərdiyi məktubda imamların ağır şəraitdə təqiyyə etmələrinə işarə edərək yazırdı: «Səfəvi dövləti nübuvvət və imamət gülzarında boy atmışdır. Və bu dövlət aləmə səadət bəxş edən peyğəmbər nəslidir». [1]

Bununla yanaşı özünü «Hər bir xalqın bir dövləti olur, bizim dövlət də zamanın son dövlətidir» - rəvayətinin nümunəsi hesab edirdi. Şerlərinin birində deyirdi:

*«Ali Əhməddən savayı ixtiyar sahibi kim ola bilər?*
*Bəkr və Ömərdən söz demək nədir?*
*Mənəm şahi mərdanın ciyərparasi*
*Şir ürəkli meydan oxuyan varsa, o da mənəm*
*Mənəm aləmin xanı, xaqanı*
*Sən cılız bir qarışqa, mən isə Süleymanam*
*Sənin zaman olsa da, mənim növbəm çatdı*
*Səhər getdi və səadət sübhü doğdu».*

[1] Xulasətut təvarix (Qazi Əhməd Qumi)

Siyasət və idarəetmə baxımından Səfəvi dövləti həmən dövrdə bir hərəkat kimi meydana gəlir və ilk mərhələdə hələ siyasi və idari quruculuğa malik deyildi. Bu səbəbdən də mövcud inqilabi vəziyyətə yalnız və yalnız özündən əvvəlki dövlətin, yəni türkmənlərin idarəetmə üsulları ilə nəzarət edir və beləcə dövləti idarə edirdi. Adəti üzrə Səfəvi dövləti elə həmən dövrdən iki təşkilatçılıq quruluşuna malik idi. Onlardan biri qızılbaşların nəzarəti altında idarə olunan və inqilabi şəraitin mövcud olduğundan işlərin idarə olunmasında böyük nüfuza malik olan ordu idi. Orduda ən yüksək mənsəb isə «Əmirul-uməra» (əmirlər əmiri) «Qızılbaş əmirlər» idi. Sülh şəraitində müxtəlif şəhər və əyalətlərə vali təyin olunur və bu səbəbdən də tayfalarının bir hissəsi onlarla birgə mühacirət etməli olurdu. Döyüş zamanı isə onlar öz qoşunu ilə birlikdə döyüş meydanlarına yola düşürdülər. İkincisi isə, müxtəlif adlar altında fəaliyyət göstərən idarə təşkilatları idi. Onlardan ən başlıcası isə demək olar ki, bütün idarə işlərini icra edən «vəzarət» adlı təşkilat idi. Mühüm dövlət idarələrindən birini də «Ali divan» təşkil edir və nəzarət üçün oraya bir nəfər şəxs təyin olunurdu.

Bu bölümdə fəaliyyət göstərən mühüm mənsəblərdən biri də «Sədarət» idi və bu işlə məşğul olan şəxslərə sədr deyilirdi. Onlar adətən İranın tanınmış alimləri və nüfuza malik olan seyidlər olurdu. Sədr kifayət qədər siyasi nüfuza malik olmaqla yanaşı, bütün dini, bəzi ictimai vəqf kimi məsələləri öz üzərinə götürürdü. Lakin sonralar tədriclə sədrin bəzi ixtiyarları Şeyxul-İslama verilir və bu mənsəbdə çalışanlar Səfəvi dövlətinin sonunadək vəqf, dini və bir sıra idari məsələləri icra edirlər.

## *QIZILBAŞLARA YAD OLAN ÜNSÜRLƏRİN SƏFƏVİ DÖVLƏTİNƏ DAXİL OLMASI*

Səfəvi dövlətinin özəyini Səfəvi silsiləsinin özü kimi türklər təşkil edirdi. Lakin İran ərazisində fəaliyyət göstərmiş digər türk dövlətləri kimi, Səfəvilər də tez bir zamanda maliyyə və bir sıra idari işləri iranlılara həvalə etdilər, siyasət və ordu kimi mühüm mənsəbləri isə öz ixtiyarlarında saxladılar.

«Səfəvi dövrünün mənsəb və məvacidi» adlı kitabda «vəzirlik» (nazirlik) mənsəbinin taciklərə həvalə olunmasının səbəbləri haqda deyilir: «Vəzirlik» (nazirlik) mənsəbi bir çox hallarda tacik və qələm əhlinə həvalə olunurdu. Onlardan qeyrisinə həvalə olunduqda isə dərhal böyük çatışmazlıqlar meydana gəlirdi. Bu isə qeyri-tacik millətin əksəriyyətinin zülmə, haqsızlığa

məruz qalmaları və onlardan böyük həcimli vergilərin alınması ilə nəticələnirdi. Bir sözlə, Səfəvi dövləti təsis olduqdan az sonra qeyri-qızılbaş ünsürlərin burada geniş fəaliyyət göstərdiyinin şahidi oluruq. Həmən şəxslər onlara qoyulan adlarla tanınırdılar. Belə ki, türklər bir çox hallarda onları «tacik», onlardan olan xidmətçiləri isə «tacikiyyə» adlandırmışlar. Onlardan bəziləri bir vaxtlar türkmən dövlətinə xidmət və nazirliklərdə fəaliyyət göstərmiş şəxslər idilər. Uzun müddət türkmən səltənətinə hakim olan Məlik Mahmudcan Deyləmini buna misal çəkmək olar. O, Şah İsmayılın diqqətini özünə cəlb etmiş və «Ali divan» nazirliyinə təyin olunmuşdu. Necə ki, başqa bir vaxt Şah bu mənsəbə Ağqoyunlu Əmir Şəmsəddin Zəkəriyyanı təyin edir. Uzun müddət Kaşan, Şiraz və Yəzddə hökmranlıq etmiş və yüzlərlə günahsız insanın qanını tökmüş və bu səbəbdən də qətlə yetirilən Qazi Məhəmməd Kaşini, Şah İsmayılın hakimiyyət dövründə bir müddət sədrlik mənsəbində çalışmış arif Əmir Nemətulla Rəbbanin oğlu Əmir Əbdül Baqi Yəzdini, ali divana rəhbərlik etmiş Mirzə Şah Hüseyn İsfahanini və Şah İsmayıl dünyasını dəyişdikdən sonra bədəninə qüsl verib onu dəfn edən sədrlik mənsəbində çalışan Əmir Cəmaləddin Məhəmməd Sədr Əstarabadini buna misal çəkmək olar. Onlara verilən ləqəblərdən bir daha belə məlum olur ki, Səfəvilərin hakimiyyət dövründə idarə işlərinə qeyri-türk ünsürlər təyin olunmuşlar. Bir sözlə, əgər Şah İsmayıl və oğlu Təhmasibin hakimiyyət dövrünün mənsəb tarixinə nəzər salarıqsa, hakimiyyətin böyük bir hissəsinin iranlılaşdığının şahidi olarıq.

Bu dövrdə bu qüvvələri təmin edən iki məntəqəyə xüsusi diqqət yetirmək lazımdır. Onlardan biri Qum, Fərahan və Kaşan, digəri isə Amul və Əstarabad olmuşdur. Hicrətin VİİI və IX əsrlərində əstarabadilərin böyük bir hissəsi İraqın dini mərkəzlərində təhsil aldığı kimi, amulilərin də bir hissəsi orada təhsil almış və alimlik dərəcəsinə çata bilmişlər. Mühəqqiq Kərəki ilə eyni vaxtda təhsil almış və sonralar Saridə məskunlaşmış İzəddin Amulini buna misal çəkmək olar. Bunu da qətiyyətlə deyə bilərik ki, əstarabadilərin bir qismi Səfəvi dövlətinin idari və elmi sahələrində böyük xidmətlər göstərmişlər.

Deyilənlərdən belə bir ümumi nəticəyə gələ bilərik ki, qızılbaşlar Kiçik Asiyadan Səfəvi dövlətini himayə etdiyi kimi, büsbütün onu qoruyub saxlaya da bilmiş və zaman keçdikcə türk dili Səfəvilər arasında geniş yayılaraq onun ana dilinə çevrilmişdi. Bütün bunlarla yanaşı taciklərin dövlətin geniş bir hissəsini təşkil etməsi tez bir zamanda onun öz mahiyyətini itirməsinə səbəb olur. Beləliklə, Səfəvi dövləti uzun müddət

parça-parça olan İranı yenidən vahid əraziyə və vahid dövlətə çevirə bilir. Ölkə ərazisində siyasi vəhdət əldə olunur. Elxanilərin zamanından İran adlanan bu ərazi həmən dövrdə bu adda daha fəal şəkildə fəaliyyət göstərir. Elə bir ad ki, əvvəllər bu ölkəyə qədim Sasani dövləti də deyilirdi.

| | |
|---|---|
| Birinci Şah İsmayıl | 905-930 h.q |
| Birinci Təhmasib şah | 930-984 h.q |
| İkinci Şah İsmayıl | 984-985 h.q |
| Soltan Mahmud Mirzə Şah | 985-996 h.q |
| Birinci şah Abbas | 996-1038 h.q |
| Şah Səfi | 1038-1052 h.q |
| İkinci Şah Abbas | 1052-1077 h.q |
| Süleyman şah | 1077-1105 h.q |
| Soltan Hüseyn şah | 1106-1135 h.q |
| İkinci Təhmasib şah | 1135-1144 h.q |
| İkinci şah Abbas | 1144-1148 h.q |
| Nadir şah | 1148-1160 h.q |

## *TƏHMASİBİN HAKİMİYYƏT DÖVRÜ VƏ YA SƏFƏVİ DÖVLƏTİNİN MÖHKƏMLƏNMƏSİ*

Əgər Şah İsmayılın hakimiyyət dövrünü Səfəvi dövlətini təsis olunduğu dövr hesab edəriksə, onda gərək Təhmasib şahın uzun müddətli hakimiyyət dövrünü də (h.q 930-984) bu dövlətin möhkəmlənmə dövrü hesab edək. Təhmasib on yaşında ikən Səfəvi dövlətinin taxt-tacına yiyələnir. Bu isə həmən dövrdə Səfəvi dövlətinin taxt-tacı ciddi şəkildə qızılbaşlar tərəfindən himayə olunurdu. Belə ki, on yaşlı bir uşağın canişin təyin olunması Səfəvilər ölkəsi kimi nəhəng bir dövlətə heç bir çətinlik yaratmırdı.

Məlum məsələ idi ki, on yaşlı Təhmasib dövləti idarə edə bilməzdi; əslində dövləti şahın vəkili adı altında Div Sultan Qumlu idarə edirdi. Onun bir çox rəqibi var idi və onların başında Köpək Soltan Ustaclu dururdu. Div Sultan işləri onun üzərinə qoyur, çox keçmədən şəhərin digər əmirlərini ona qarşı səfərbər edib Təbrizə qoşun yürüdür. Nəticədə Div Sultan vəziyyəti öz nəzarəti altına alıb müxaliflərini Təbrizdən uzaqlaşdırmağa nail olur. Məğlubiyyətə uğradıqdan sonra Ustaclu tayfası h.q. 932-ci ildə iki dəfə

mübarizə meydanına atılır və hər ikisində də Div Sultan tərəfindən dəf olunub şərait öz əvvəlki vəziyyətinə qaytarılır. Ustaclu Köpək Sultan Gilana qaçır və orada bir müddət qaldıqdan sonra yenidən Div Sultanla mübarizə aparmaq qərarına gəlir. Bu səbəbdən də qoşun toplayıb Ərdəbilə tərəf hərəkət edir. O, şəhərin müdafiəsini yara bilib oranı ələ keçirir və burada övliya Şeyx Səfiyyəddin İshaqı ziyarət edir. Oradan Təbrizə yola düşür. Təbriz bundan xəbər tutub ciddi mübarizəyə hazırlaşır və nəhayət iki qoşun arasında şiddətli döyüş baş verir. «Ustaclu öz şücaəti ilə Rüstəm və İsfəndiyarın dastanını xatirələrdən aparmasına baxmayaraq, döyüşdə məğlub olur və Ustaclu rəhbərlərinin bir çoxu qətlə yetirilir».

Bu qızılbaşlar arasında baş verən və onlardan bir çoxunun siyasi səhnədən uzaqlaşmasına səbəb olan ilk ciddi qarşıdurma idi.

Qeyd etmək lazımdır ki, həmən dövrdə Səfəvi sarayında gedən qızılbaşlaşma cərəyanı, türklərin dili ilə desək, tacikləşmə prosesi daha geniş vüsət almağa başlayır. Belə ki, əgər bir vaxtlar şah bir çox dövlət işlərini qızılbaşlara həvalə edirdisə, bu iş tədricən başqalarının ixtiyarına keçir. Bir çox üstün xüsusiyyətlərə yiyələnən və uzun müddət Şah Təhmasibin vəkili olmuş Mirzə Şərəf Qazinin (h.q. 912-968) sonralar Məsul bəy Səfəvi (h.q. 977) tərəfindən əvəz olunmasını buna misal çəkmək olar.

Şah Təhmasib ölümündən üç il əvvəl, yəni hicrətin 981-ci ilində «Ali divan» nazirliyini Həsən Fərahani və Xacə Cəmaləddin Əli Təbriziyə həvalə edir və Mirzə Şükrullah İsfahanini oranın baş icraçısı təyin edir. Səfəvi dövlətinin zühur etdiyi dövrlərdən fərqli olaraq, Şah Təhmasib daxili, xüsusilə də sərhədyanı ərazilərdə baş qaldıran üsyanları yatırmağa çalışırdı. Qeyd etdiyimiz kimi, zühur etdiyi ilk illərdə Səfəvi dövləti Xorasan və Anadolu ilə sərhədyanı ərazilərdə baş qaldıran üsyanları yatırır, Şah Təhmasib isə daxili sabitliyi bərqərar etməyə və bütün səylərini İranın birliyinin qorunub saxlanılmasına yönəldirdi. Bu səbəbdən də hakimiyyətinin ikinci onilliyində Şirvan, Astara və Kürdüstan ərazilərinə qoşun yürüdüb yenidən sabitliyi bərqərar edir. Bu kimi çətinliklər Səfəvi dövlətinə bir o qədər də etina etməyən və digər məntəqələrdən daha çox müstəqilliyə malik olan Gilanda da mövcud idi. Belə ki, uzun müddət oranın hakimi olmuş Əhməd Xan Gilani Şah Təhmasibə qarşı etinasızlıq etmiş və onun hakimiyyətinə tabe olmaqdan imtina etmişdir. Bu səbəbdən də Səfəvi ordusu h.q. 975-ci ildə Məsum bəy Səfəvinin rəhbərliyi altında Gilana böyük bir qoşun yürüdür. Əhməd xan Gilani əvvəl müqavimət göstərmək istəyir. Lakin Səfəvilər hücuma keçdikdən sonra Lahicana qaçır və bir

müddət orada qaldıqdan sonra yaxalanıb Şah Təhmasibin yanına gətirilir. Beləliklə, otuz iki il Gilana hökmranlıq edən Əhməd xan Şah Təhmasib tərəfindən yaxalanıb Xərsək qalasında həbs olunur. İİ İsmayıl hakimiyyətə gəldikdən sonra isə yenidən azad olunub Gilana qayıdır. Nəhayət, daha sonra Şah Abbasın əlindən qaçıb Osmanlı dövlətinə qoşulur.

Səfəvi dövlətinin birinci yüzilliyində ətraf əyalətlər məntəqədə tam ixtiyara malik olan məhəlli əmirlər və ya mərkəzdən göndərilmiş şəxslər tərəfindən idarə olunurdu. Onlardan bir çoxu ölkədəki siyasi sabitliyin pozulmasından istifadə edərək üsyan edir və vəziyyəti daha da gərginləşdirməyə çalışmışlar. Bu səbəbdən də mərkəzi dövlət həmən məntəqələrə qoşun yürütmək məcburiyyəti qarşısında olduğu ilk onillikdə ölkə ərazisindəki ictimai-siyasi vəziyyətə tam nəzarət etməyə nail olan Təhmasib səltənətinin son illərini tam əmin-amanlıqda başa vurur və hakimiyyətinin son on doqquz ilini Qəzvində keçirib oradan kənara çıxmır.

## *PAYTAXTIN QƏZVİNƏ KÖÇÜRÜLMƏSİ*

Azərbaycan iki əsr öz paytaxtlıq mövqeyini qoruyub saxlaya bilir. Belə ki, Elxanilər dövründən başlayaraq və onlardan sonra türkmənlərin hakimiyyət dövründə Təbriz paytaxt kimi İranın böyük hissəsinə nəzarət etmişdir. Ərdəbildən baş qaldıran Səfəvilər də həm bir neçə illik təcrübə, həm də Anadoludan əldə etdiyi ictimai güc baxımından dəfələrlə İsfahana gediş-gəliş edib oraya qeyri-rəsmi paytaxt adını versələr də, Təbriz hələ də paytaxt olaraq qalırdı. Təhmasib şah Osmanlı sultanı Süleymanla sülh sazişi imzaladıqdan sonra Anadoluda daha çox nüfuza malik olacağından məyus olub İranın mərkəz və şərq nahiyələrində diqqəti özünə cəlb etmək fikrinə düşür. Bu səbəbdən də diqqətini ətraf məntəqələrdə gücləndirmək məqsədilə paytaxtı Qəzvin şəhərinə köçürür. Şah Təbrizdə oğlu Mirzə İsmayılın toy mərasimindən sonra paytaxtı oradan Qəzvinə köçürmək fikrinə düşür. Qazi Əhməd Qumi h.q. 962-ci ilin hadisələri haqqında yazır:

«Məqamı uca olan naiblər aləmlərin şahzadəsinin toy mərasimindən sonra artıq Təbrizdə qalmağa heç bir səbəb görmədi. Çünki, İran ərazisində sülh və əmin-amanlıq hökm sürürdü. Bunun üçün də şah «Darul-səltənəti» bir qədər mərkəzə, yəni həm qışlaq üçün münasib, həm də digər şəhərlərə yaxın olan Qəzvin şəhərinə köçürmək qərarına gəlir. Rəiyyət hamılıqla həmən diyarda məskunlaşıb əhalinin rifah və təhlükəsizliyini təmin etməyə başladı».

Belə nəzərə çarpır ki, paytaxtın Qəzvinə köçürülmə məsələsi həmən tarixdən bir qədər əvvəl nəzərdə tutulmuş və bunun üçün də şah orada yeni dövlət binalarının tikilməsinə dair sərəncam vermişdir. Əvvəllər Səfəvilərin dilincə desək, «dövlətxananın» (yəni paytaxtın) tikilməsi Cəfərabadda və ya Təhmasib şah oranı Cənnətabad adlandırdığı yerdə nəzərdə tutulmuşdur. Elə bir yer ki, orada şah və bəzi dövlət adamları üçün bir neçə bağlar salınmış və imarətlər tikilmişdi. Həmən bağların ən məşhuru Səfəvilər dövlətinin ərazisində fəaliyyət göstərən səfirlərin şahla görüşdükləri Səadətabad bağı idi. Səadətabad bağı h.q. 951-ci ildə tikilmiş və h.q. 999-cu ilin Səfəvi tarixçisi Qazi Əhməd Quminin «Xülasətut-təvarix» adlı kitabında yazdığı kimi, bağ və oradakı imarətlər Səfəvi dövrünün ən gözəl tikililərindən biri olmuşdur.

Qəzvinin Təhmasib Şah tərəfindən paytaxt seçilməsinin başqa bir səbəbi də ola bilərdi. Belə ki, İranın mərkəzində yerləşən bu şəhərdə hələ çoxsaylı sünni məzhəbli insanlar yaşayırdı və şah bu istiqamətdə lazımi tədbirlərə əl atmalı idi. Paytaxtın bu şəhərə köçürülməsi əhli sünnətin asayişini tamamilə pozur. Qazi Məhəmməd Razinin bu haqda yazdığı şerin məzmununda deyilir:

*«Qəzvin məzhəbi pak bir məkan idi,*
*Amma bunu ruzigarın səhnəsindən silib atdılar*
*Ləqəbi babul-Cənnət (cənnət qapısı), adı Cəfərabad idi*
*Allah bəndələrini ondan didərgin saldılar.*
*Sünnilər ay işığında çürüyən kətan parçası idi».*

Paytaxtın Qəzvinə köçürülməsi ilə həmən dövrün bir çox adlı-sanlı alim və sənətkarları da oraya üz tutur və beləliklə, Qəzvin elmi nöqteyi-nəzərdən rövnəq tapmağa başlayır. Günlərin biri şah Şeyx Bəhainin atası Şeyx Hüseyn ibni Əbdüssəmədin (h.q. 984) İsfahana gəldiyini eşidir və dərhal onu Qəzvinə dəvət edir. Şeyx Hüseyn ibni Əbdüssəməd Qəzvinə gəldikdən sonra Şah tərəfindən oranın Şeyxul-İslamı təyin olunur və yeddi il həmin vəzifəni icra edir. Həmən dövrdə Şah Təhmasib Osmanlı dövlətindən arxayın olub Həratın daha çox əhəmiyyət kəsb etdiyini nəzərə alır və oğlu Mirzə İsmayılı Xorasana hakim təyin edir. Sonra isə oranı şahın böyük oğlu Mirzə Məhəmməd idarə edir və o da sonralar oradan Fars əyalətinə gedir.

## *ŞAH TƏHMASİBİN DÖVRÜNDƏ İRAN VƏ ÖZBƏKLƏRİN VƏZİYYƏTİ*

İran və Turan arasında gedən mübarizələr hələ də davam edirdi və həmən məntəqə İran üçün ciddi təhlükə yaradırdı. Şah İsmayıl hakimiyyət dövründən söhbət açarkən o mübarizələrdən bəzilərinə işarə etmişdik. Burada isə Şah Təhmasibin əlli illik hakimiyyət dövründə baş verən mübarizələrdən bəzilərinə toxunmaq istəyirik. Şah İsmayılın ölümündən sonra oğlu Təhmasibin onun canişini təyin olunması özbəkləri Xorasanı ələ keçirmək fikrinə salır. Belə ki, Şah İsmayılın vəfatından az sonra özbək Ubeyd xan h.q. 931-ci ildə Buxaradan Hərata böyük bir qoşun yürüdür. Qızılbaş rəhbərləri özbəklərə qarşı ciddi müqavimət göstərir və özbəklər heç bir nəticə əldə edə bilməyib geri dönməyə məcbur olurlar. Yaranmış ixtilaflar h.q. 932-ci ildə özbəkləri bir daha mübarizəyə atılmağa təhrik edir. Ubeyd xan böyük bir qoşunla Hərata gəlmədən Tus şəhərinə üz tutur və oranı mühasirəyə alır. Tus əhalisi bir neçə ay müqavimət göstərsə də, kömək gəlmədiyindən təslim olmağa məcbur olur. Şəhəri ələ keçirdikdən sonra Ubeyd xan Əstərabada hücum edir və oranı da ələ keçirməyə nail olur. Oraya hakim təyin etdikdən sonra h.q. 933-cü ildə yenidən Bəlxə qayıdır.

Təbrizdən yola düşmüş kömək qüvvəsi əvvəl Əstərabadı ələ keçirir və Bəstam adlı məntəqədə Ubeyd xanla qarşı-qarşıya gəlir. Lakin böyük fədakarlıq göstərsə də, döyüşdə özbəklərə məğlub olur və Əstarabad yenidən Ubeyd xanın ixtiyarına keçir. Səfəvi qoşununun qalan hissəsi Firuzkuha doğru geri çəkilir. Özbəklər hər qalibiyyətdən sonra adəti üzrə təəssübkeş alimlərinin fətvalarına əsaslanaraq, şiələrin qətliamına başlayırlar. Həratın şiə əhalisinin özbəklərə qarşı ciddi müqavimət göstərmələrinə səbəb olan da məhz onların məğlub olacaqları təqdirdə özbəklər tərəfindən qətliam olacaqlarını bilmələri olmuşdur.

Qalibiyyətdən məst olmuş Ubeyd xan bir daha Hərata hücum edir və oranı bir daha mühasirəyə alır. Şəhər yeddi ay mühasirədə qaldıqdan sonra Səfəvi ordusunun Damğana yetişdiyinə dair şayiələr yayılmağa başlanır. Ubeyd xan bu xəbəri eşitcək dərhal Həratı tərk edib Buxaraya qayıdır. Özbəklərin Xorasanı işğal etmələri əhalinin böyük bir hissəsinin oranı tərk edib ətraf məntəqələrə mühacirət etmələrinə səbəb olur. Uzun müddət qızılbaşların daxili ixtilaflarına düçar olan Səfəvi dövləti Xorasan üçün heç bir ciddi tədbirə əl ata bilmirdi. Yaranmış ixtilaflar başa çatdıqdan sonra Səfəvilər Təhmasib şahın sərkərdəliyi ilə h.q. 935-ci ildə Xorasana doğru hərəkət etməyə başlayır. Onlar Xorasana iki baxımdan əhəmiyyət verirdilər. Birinci

ona görə ki, səkkizinici imamın qəbri orada yerləşir və camaat şiə məzhəbli şahdan oranı özbəklərdən azad edəcəyini gözləyirdi. Eyni zamanda məntəqəyə layiqli şəxslər nəzarət etməli idi. Belə də olur; həmin şəxslərin adları tarixdə zəbt olaraq indinin özünədək qalmaqdadır. Bütün bunlarla yanaşı, Xorasan hələ qədim zamanlardan belə İranın mühüm əyalətlərindən biri olmuşdur. İndiki İranın müxtəlif əyalətləri birləşdirildiyi halda, Xorasanın diqqət mərkəzindən uzaq qalması məqsədə uyğun olmazdı. Səfəvilər Həratı Xorasanın mərkəzi hesab edirdilər. Bu səbəbdən də hakimiyyətlərinin bütün dövrlərində oraya arxalanmış və yad qüvvələrin nəzarət etməsinə yol verməmişlər. Bu da məlumdur ki, Nasirəddin şahın hakimiyyətinin yarısınadək Hərat İran ərazisinin bir hissəsini təşkil etmişdir.

İlkin qarşıdurmada Səfəvilər özbək hakimini Damğanda ələ keçirib qətlə yetirir və bunun ardınca ətraf məntəqələrdə məskunlaşmış özbəkləri qətliam edir. Sonra Məşhədə İmam Rzanın (ə) ziyarətinə gəlir və oradan da Cama yola düşürlər. Elə orada da qızılbaşlar ilə özbəklər arasında şiddətli döyüşlər baş verir.

O biri tərəfdə Orta Asiyanın bütün məntəqələrindən ibarət olan böyük bir qoşun dayanırdı. Rumlu bu haqda yazır: «Çingiz xanın zamanından bu vaxtadək hələ Orta Asiyadan belə bir böyük qoşun gəlməmişdi. Belə ki, bəzi tarixçilər özbəklərin qızılbaşlardan iyirmi dəfə çox olduqlarını qeyd etmişlər. Ağır döyüş başlanır və hər iki tərəf böyük itki verir. Nəticədə Ubeyd xan növbəti dəfə məğlub olub döyüş meydanını tərk edir».

Rumlu yazır: «Maraqlı hallardan biri də Ubeyd xanın döyüş meydanına dua etmələri üçün qırx alim gətirməsi olmuşdur. Lakin döyüşdə nəinki Ubeyd xan qalib gəlmir, hətta gətirdiyi alimlərin böyük bir hissəsi də həlak olur».

Bununla hər şey bitmir; şah Xorasandan qayıtdıqdan sonra Ubeyd xan yenidən Məşhədi işğal edir və oradan Hərata doğru hərəkət edib oranı da tutur. Bu Ubeyd xanın Səfəvilərin gedişindən sonra həyata keçirdiyi siyasət idi. O, Hərata hücum edərək şiələrin böyük bir hissəni qətlə yetirir. Hətta var-dövlətlərini ələ keçirmək üçün bəzi varlı sünnilər də şiəlikdə ittiham olunaraq qətlə yetirilir. Hilali şerlərinin birində həmən əhvalata işarə edərək deyir:

«Qarət edib müsəlmanın var-dövlətini aparırsan
Kafir olum, əgər müsəlmansansa».

Şair çox keçmədən bu beytlərin üstündə tutulur və şəhərin bazarında edam olunur. Baş verən bütün hadisələrdə Orta Asiya əhalisinin Özbəklərlə

həmrəylik etmələrinə səbəb olan yeganə amil sünni məzhəbini müdafiə etmək olmuşdur. Belə ki, sünnilər bu məntəqədə dərin köklərə malik olmuş və şiələr İranda qalib gəldikdən sonra onlar kütləvi şəkildə qızılbaşlara qarşı səfərbər olmuşlar. Bütün bunlarla yanaşı, qızılbaşların açıq-aşkar xəlifələrə lənət oxuması yerli əhalini qızılbaşlara qarşı daha kəskin mübarizəyə təhrik edirdi. Məlum məsələdir ki, Ubeyd xan da öz növbəsində bütün bunlardan lazımınca faydalanırdı. Qızılbaşlar böyük qüdrətə malik olmaqla yanaşı, öz əqidələrində də daim sadiq qalırdılar. Nə vaxtsa sayca azlıq təşkil etmiş olsaydılar belə, təəssübkeş özbək sünnilərə təslim olmaq fikrində deyildilər. Onlar o qədər böyük qüdrət və döyüş iradəsinə malik idilər ki, özbəklər onların Xorasana yola düşdüklərini eşitcək dərhal oranı tərk edib qaçmaq məcburiyyətində qalırdılar.

Bir qədər əvvəl qeyd etdik ki, Ubeyd xan Səfəvilərin İsfahandan Xorasana gəldiklərini eşitdikdən sonra Həratı tərk edib yerli camaatı səfərbər etmək üçün Mərvə gəlir. Lakin o, öz istəyinə nail olmur. Bu səbəbdən də Həratdan üz çevirib yenidən Buxaraya qayıdır və beləliklə, Xorasanı qızılbaşlara həvalə edir. O, h.q. 938-ci ildə yenidən Hərata qoşun yürüdür və bir il yarım oranı mühasirədə saxlayır. Təhmasib şah Həratın mühasirə olunduğunu eşidib Xorasana doğru hərəkət edir və Ubeyd xan həmişə olduğu kimi bu xəbəri eşitcək oranı tərk edib Buxaraya qaçır. Bir il sonra qızılbaş ordusu qəflətən Əstərabada hücum edir, orada yaşayan özbəkləri qətliam edir və beləliklə, bir daha şəhəri ələ keçirirlər.

H.q. 942-ci ildə özbəklərin pərakəndə hücumları davam edir. Qızılbaşlar isə onlara qarşı ciddi müqavimət göstərib Xorasana doğru irəliləməyə imkan vermirlər. Bütün bunlara baxmyaraq, Ubeyd xan həmən il bir daha Məşhədə hücum edir. Qızılbaşların Həratdan ona doğru hərəkət etdiklərini eşitdikdən sonra onlarla müharibəyə yola düşür. Bu döyüşdə qızılbaşlar məğlub olurlar və Hərat yenidən özbəklər tərəfindən işğal olunur. Rumlu yazır: «Ubeyd xan bu qələbədən sonra hər bir qızılbaşı, şiə məzhəbinə mənsub olan hər bir qazi və adi insanı dərhal qətlə yetirirdi».

«Hər gün xanın göstərişi ilə beş-altı nəfər şiəlikdə ittiham olunaraq edam olunurdu».

O illərdə özbəklərlə daxili əmirliklər, xüsusilə də Dəşt Qıpçaq arasında bir çox ixtilaflar meydana gəlir və bu səbəbdən də İrana geniş miqyaslı hücum hazırlaya bilmirlər.

Lakin özbəklər h.q. 957-ci ildə bir daha Hərata yürüş edirlər, amma oranı bir neçə ay mühasirədə saxlamalarına baxmayaraq, heç bir nəticə əldə edə

bilmirlər. Onlar Ubeyd xanın oğlu Əbdüləziz Sultanın ölüm xəbərini eşitcək dərhal Buxaraya qayıdırlar.

H.q. 967-ci ildə özbəklər Nişapuru qarət etmək məqsədilə bir daha Xorasana hücum etmək fikrinə düşürlər. Lakin bu dəfə də qızılbaşların güclü müqaviməti ilə qarşılaşıb böyük itki verməli olurlar. Bunun ardınca Təhmasib şah dördüncü dəfə Xorasana qoşun yürüdür və həmişə olduğu kimi bu dəfə də Ubeyd xan şahla qarşı-qarşıya gəlməyə razı olmayıb Buxaraya qaçır. Şah Hərata gəlir və oradan Səmərqəndi işğal etmək üçün qoşun göndərir. Həmişə olduğu kimi qızılbaşlar şəhəri işğal etdikdən sonra özbəklərdən qətlə yetirdikləri şiələrin intiqamını alırlar. Bu səfərdə özbəklərin işğalı zamanı şiə məzhəbinə əks təbliğat aparmış və şiələrin qətliam olunmasında fəal iştirak edən Xacə Kəlan Quryani Təhmasib şahın göstərişinə əsasən edam olunur. Necə ki, Şah Mahmud Kəncani özbəklərin Hərata hakim olduqları dövrdə ədavət və düşmənçilik kəmərini bağlayaraq şahın adamlarının bir çoxunu amansızcasına qılıncdan keçirmiş və onları qətliam etmişdi. İndisə o, qızılbaşların əlinə düşmüş və intiqam üçün əlverişli imkan yaranmışdı. Onlar belə də edirlər. Bədənini tikə-tikə edərək əmirlərə dərs olsun deyə, Həratın müxtəlif yerlərinə göndərirlər.

Ubeyd xan özünün son hərbi əməliyyatlarında Xarəzmi də işğal etmək fikrinə düşür. Lakin baş verən hadisələrdən az sonra h.q. 946-cı ildə dünyasını dəyişir və onun ölümü Xorasan üçün böyük qurtuluş olur.

Vaxtaşırı Xorasan və Əstarabada hücum edən özbəklər h.q. 955-ci ildə bir daha oraya, yəni Əstarabada hücum edirlər. Lakin qızılbaşlar böyük fədakarlıq göstərərək onların hücumunun qarşısını ala bilirlər.

## *ŞAH TƏHMASİB VƏ OSMANLI SULTANLARI*

Hakimiyyətinin ilk illərində Təhmasib şahla Osmanlı dövlət arasında heç bir qarşıdurma baş vermir. Bunun isə ən başlıca səbəbi Osmanlı dövlətinin Avropada müharibələr aparması olur. Belə ki, onlar Çaldıran döyüşündən və Şərqi Anadolunu tam işğal etdikdən sonra Səfəvi dövlətindən heç bir təhlükə görmür və özlərini tam asudə hiss etdilər. Əlbəttə, bu sakitliyin İran üçün çox davam gətirməyəcəyi də göz qabağında idi. İran iki təhlükəli düşmən ölkə ilə mühasirə olunurdu və onların hər ikisinin ən başlıca bəhanəsi şiəliyi aradan aparmaq idi. Bu səbəbdən də bu iki dövlət arasında sıx əlaqələr saxlanılır və səmimi münasibətlər yaradılırdı. İlk qarşıdurma h.q. 938-ci ildə baş verir. O vaxt ki, Azərbaycan hakimi səltənəti ələ keçirmək məqsədilə Osmanlı hakimi Sultan Süleymana pənah aparmış və

əlli minlik qoşunla geri qayıtmışdı. Hərçənd ki, belə bir böyük köməkdən də heç bir nəticə əldə edə bilmir.

H.q. 939-cu ildə Təhmasib şah Xorasana yola düşür və bundan istifadə edən bəzi qızılbaş üsyançılar h.q. 940-cı ildə Sultan Süleymanı Azərbaycana qoşun yürütməyə sövq edirlər. Bu səbəbdən də Təhmasib şah istiqamətini dəyişib Təbrizə doğru hərəkət etməyə başlayır. Lakin bütün bunlara baxmayaraq qızılbaşlar qorxu və hürkü içində idilər. Çünki, onlar Çaldıranda baş verənləri hələ də xatırlayır və Süleymanın hər an onlara tərəf böyük ordu ilə gələ biləcəyini çox gözəl bilirdilər. Belə də olur, lakin bu dəfə təbiət Səfəvi şahının köməyinə gəlir. Belə ki, səngiməк bilməyən qar Sultaniyyəyə qədər irəliləmiş Osmanlı qoşunu üçün böyük çətinlik yaradır. Külli miqdarda canlı qüvvə və minik heyvanları itirən osmanlılar məcburiyyət qarşısında Azərbaycanın işğalından vaz keçib Bağdada doğru hərəkət edirlər. Lətifi bu haqda yazdığı şerdə deyir:

«Çəmənin o biri tərəfinə Sultaniyyəyə sarı getdim
Və orada minlərlə kəfənsiz, qəbirsiz meyit gördüm
Dedim: Bu qədər osmanlını kim öldürmüşdür?
Səhər küləyi aradan qalxıb «Mən»-dedi».

Osmanlı Süleyman Bağdadı ələ keçirdikdən sonra h.q. 941-ci ildə bir daha Azərbaycanı işğal etmək qərarına gəlir. Baş vermiş ilk toqquşmada azsaylı qızılbaş ordusu osmanlılara güclü zərbə endirir və onların böyük bir hissəsini darmadağın edir. Bundan sonra Osmanlı Süleyman qızılbaşlarla döyüşməmək və geri qayıtmaq qərarına gəlir. Təhmasib şah Van qalasına tərəf hərəkət edib orada osmanlı ordusunun bir hissəsi ilə qarşılaşır və bir daha onlara ağır zərbə endirir. Süleyman kömək qüvvə göndərsə də, heç bir nəticə vermir və bu döyüşdə məğlub olurlar. Beləliklə, qızılbaşlar az da olsa, öz qərb sərhədlərinə nəzarəti ələ alırlar.

## *SƏFƏVİ ƏLQAS MİRZƏNİN QİYAMI VƏ OSMANLILARIN HÜCUMU*

Təhmasib şahın Osmanlı dövləti ilə başqa bir çətinliyi qardaşı Əlqas Mirzə tərəfindən yaranır. Belə ki, Təhmasib şah Şirvanşahlar sülaləsini süquta uğratdıqdan sonra qardaşını Şirvana hakim təyin edir. Lakin çox keçmədən o, müstəqillik fikrinə düşür. Təhmasibin hücum xəbərini eşitdikdən sonra anasını və oğlunu onun yanına göndərib üzürxahlıq istəyir və şah da onu bağışlayır. Onun tərəfindən meydana gəlmiş çətinliklər bununla bitmirdi. H.q. 954-cü ildə Osmanlı Süleyman Bəsrəni işğal edir. Elə həmin il

Təhmasib şahın qoşunu ilə qardaşı Əlqas arasında ağır qarşıdurma baş verir və bu qarşıdurmada Əlqasın ordusu məğlub olub adamlarının böyük bir hissəsi Təhmasibə qoşulur. Hər şeyi əldən verdiyini görən Əlqas yeganə çıxış yolunu İstanbula qaçmaqda görür. O, buraya gəlib Bab Alidə sığınacaq tapır. Təhmasib şahın oğlu Mirzə İsmayıl Şirvana hakim təyin olunur və az sonra İranla Osmanlılar arasında gedən döyüşdə Şirvan Səfəvilərin əlindən çıxır və yenidən Şirvanşahlar sülaləsinin ixtiyarına keçir.

İndi artıq Osmanlıların İranla düşmənçilik etməsinə kifayət qədər şərait yaranmışdı. Çünki, şahzadə onların ixtiyarında idi və onlar Təhmasibə qalib gəldikdən sonra onu şah təyin edə bilərdilər və beləliklə, milli və coğrafi hakimiyyət öz əhəmiyyətini itirmiş olardı. Əlqas Sultan Süleymana söz verir ki, əgər İran üzərində qalib gələrsə, yerli əhali onu böyük sevinc və həvəslə qarşılayacaqdır. Sultan Süleyman Əlqasdan belə bir mənəvi dayaq aldıqdan sonra h.q. 956-cı ildə Təbrizə qoşun yürüdür.

Təhmasib şah ordusunu səfərbər edib bütün yol və çeşmələri tutan çoxsaylı Osmanlı qoşununa qarşı hərəkət edir. Onlar bütün çeşmələri tutduqlarından qızılbaşlar içməyə belə su tapmayırlardılar. Baş verən ilk qarşıdurmada qızılbaşlar sayca qat-qat çox olan Osmanlı qoşununun qarşısında tab gətirə bilməyib kömək gözləmək ümidilə geriyə Əhərə doğru geri çəkilir. Beləliklə, Sultan Süleyman Təbrizi ələ keçirir və bir müddət Çərəndab adlı məntəqədə qalmalı olur.

Lakin hava şəraiti Osmanlılar üçün bir o qədər də münasib deyildi. Bütün bunlarla yanaşı, qızılbaşlar tez-tez onların düşərgələrinə hücum edir və əsgərlərini qətlə yetirirdilər. Vəziyyət get-gedə gərginləşir və qızılbaşların hücum xəbəri daha geniş yayılmağa başlayırdı. Gözlənilmədən Osmanlı ordusu geri çəkilmək qərarına gəlir. Bu xəbəri eşidən Təbrizin kiçik müqavimət dəstələri geri çəkilən Osmanlı ordusuna hücum edib onların böyük bir hissəsini qətlə yetirirlər. Sultan Süleyman o qədər qorxu və təşvişə düşür ki, bir gündə 24-25 kilometr yol getmək məcburiyyətində qalır.

Mirzə İsmayılın rəhbərlik etdiyi Səfəvi ordusu Osmanlıları təqib edərək ölkənin qərb sərhədlərinə, yəni Ərzəncanadək irəliləyir. Onlar keçdikləri ərazilərdə Osmanlılara satılmış şəxsləri ya öldürür, ya da ölkə ərazisindən çıxarırdılar. Səfəvi hökmdarlarının ölkənin qərb sərhədlərinə xüsusi diqqət yetirməsi Mirzə Əlqasın beşminlik qoşunla Kürdüstandan Həmədana və oradan da Qumadək irəliləməsinə səbəb olur. Bundan sonra o, Kaşana hücum etmək fikrinə düşür. İlk baxışda belə nəzərə çarpırdı ki, o, belə bir

addımı yerli əhalinin köməyi ilə atır. Mirzə Əlqas, Şah Təhmasibin hücum xəbərini eşitdikdən sonra İsfahana yola düşür. Lakin orada yerli əhalinin güclü müqaviməti ilə qarşılaşıb Təhmasib şahın gəlişilə oranı tərk edib Fars əyalətinə qaçır. Oradan isə Şuştər və Dizfula gəlir. Nəhayət, getdiyi yerlərin heç birində dəstəklənmədiyini görüb məcburiyyət qarşısında Bağdada gedir.

Mirzə Əlqasdan bərk narahat olan Sultan Süleyman onu bu yürüşdə müqəssir hesab edir və Bağdaddan İstanbula geri çağırır. Lakin Mirzə Əlqas İstanbula qayıtmır. Belə olduqda Sultan Süleyman onun ardınca qoşun göndərir və geri dönməsini tələb edir. Əlqas bu xəbəri eşitdikdən sonra oradan Kürdüstana qaçır və orada Şah Təhmasib tərəfindən oraya ezam olunmuş qoşun ilə qarşılaşır. Çox keçmədən Təhmasib şahın göstərişilə Azərbaycanın şimalında yerləşən Qəhqəhə qalasında yaxalanıb yanına gətirilir. Beləliklə, Mirzə Əlqas həbs olunur və üsyanın qarşısı alınır. Adı çəkilən qala Səfəvilərin hakimiyyət dövründə səltənətin xəzinəsinin saxlandığı və dövlətə qarşı üsyan etmiş şahzadə və əmirlərin həbs olunduqları yer olmuşdur. Beləliklə, h.q. 957-ci ildə Əlqas elə oradaca vəfat edir.

## *İRANLA OSMANLILAR ARASINDAKI İLK SÜLH SAZİŞİ*

Osmanlılarla Səfəvilər arasındakı düşmənçiliklər ilk baxışda başa çatmış görünürdü. Lakin Osmanlı əmiri İsgəndər sərhədyani şəhərlərə hücum edib qan tökür və dərhal geri qayıdırdı. Bu hücumların qarşısını almaq məqsədilə Təhmasib şah h.q. 959-cu ildə həmən məntəqələrə qoşun yürüdür. O, öz qoşununu kiçik dəstələrə bölüb Osmanlıların kiçik şəhər və məntəqələrinə göndərir və bu hücumlar nəticəsində həmən məntəqədə yerləşən bir çox qala və abidələrə böyük ziyan dəyir. Elə həmən vaxt Səfəvilər Mirzə İsmayılın rəhbərliyi ilə qızılbaşlara hücum etmiş və onların bir hissəsini qətlə yetirmiş Osmanlı İsgəndər paşanın ordusuna hücum edir. Şəhər divarlarından kənarda baş verən bu şiddətli döyüşdə Rumlunun yazdığına görə, hər iki tərəf 2576 nəfər itki verir və Mirzə İsmayıl döyüşdə qalib gəlir. Sultan Süleyman h.q. 961-ci ildə dördüncü dəfə olaraq, son dərəcə qüdrətli və təchiz olunmuş ordu ilə İrana yürüş edir. Göründüyü kimi, bütün bu döyüşlərin səbəbkarı Osmanlılar olmuşdur. Səfəvilərin apardıqları mübarizələr isə sırf müdafiə xarakteri daşımışdır. Bunu da nəzərdən qaçırmamalıyıq ki, ümumiyyətlə Səfəvilər Osmanlı dövləti ilə geniş hərbi əməliyyatlar aparmaq üçün elə bir böyük hərbi qüvvəyə malik olmamışdır. Diqqət yetirmək lazımdır ki, Osmanlılar dində rafizilik (yolunu azmış)

adlandırdıqları şiə məzhəbini aradan qaldırmağa çalışır və Azərbaycanı öz ərazilərinə birləşdirmək məqsədilə vaxtaşırı buraya qoşun yürüdürdü. Lakin qızılbaşlar Osmanlılar qarşısında elə bir güclü müqavimət göstərirlər ki, onlar nəinki bu əraziləri işğal edə bilmirlər, əksinə sülh sazişi ilə də razılaşmalı olurlar. Təhmasib şah Osmanlı Süleymana göndərdiyi məktubda yazır: «Onlara qarşı müharibə və təcavüz niyyətində olmamışlar. Yaranmış çətinliklər isə yalnız bir qrup dələduz və fitnə-fəsad törədən şəxslər tərəfindən olmuşdur». Süleyman isə Təhmasib şaha göndərdiyi cavab məktubunda yazırdı: «Hücumlardan ən başlıca məqsəd şiəlik və rafiziliyi aradan qaldırmaq olmuşdur. Təhmasib şah bu dəfə otuz yeddi səhifəlik böyük bir cavab məktubu yazır və orada İranla Osmanlı dövləti arasında gedən döyüşlərin dini, daha dəqiq desək, məzhəbi xarakter daşıdığını açıqlayır. O, burada öz məzhəbini tam qətiyyətlə müdafiə edir və sünni məzhəbinə qarşı olduqca kəskin mövqe tutur. Şiəliyi ittiham edən Sultan Süleymana göndərilən bu rədd cavabını həmən dövrün şiəliyinin baxışı kimi də qəbul etmək olar».[1]

Hər halda Osmanlıların hücumları nəticəsində müxtəlif məntəqələrdə irili-xırdalı qarşıdurmalar baş verir və bu qarşıdurmaların birində Soltan Süleymanın çox sevdiyi şəxslərdən biri olan Sənan bəy əsir düşür. Sülh sazişinə vədə verdiyi üçün Təhmasib şah onu Süleymanın yanına göndərib bu sözləri ona çatdırmasını istəyir. «Qəzəb və düşmənçilik ölkənin viran olunmasına, sülh və əmin-amanlıq isə rəiyyətin rifahına səbəb olur». Təhmasib şahın belə bir addım atması Soltan Süleymanın sülhə meyl etməsinə və tərəflər arasında qarşılıqlı razılaşmaya səbəb olur. Aparılan yazışmalarda heç bir tərəf özünün sülh tərəfdarı olduğunu açıq-aşkar tərzdə bildirməsə də, hər biri bunun arzusunda idi.

Nəhayət, h.q. 961-ci ildən etibarən İranla Osmanlı dövləti arasında sabit sülhün bünövrəsi qoyulmağa başlanır. Təhmasib şah Soltan Süleymana göndərdiyi tərif məktubunda bir daha dövlətlərarası sülhün bərqərar olunmasına israr edir. Sonra həcc ziyarətinə toxunaraq iranlıların həcc ziyarətini yerinə yetirmələrini yazılı şəkildə Osmanlı dövlətinin üzərinə qoyur. Məktubun sonunda iranlıların imamların qəbirlərinin ziyarətilə əlaqəli olduqlarına işarə edərək yazır: «Əgər vəzirlərinizdən biri ov itlərinizdən birini icazəsiz ova aparарsa, sözsüz ki, onun harada olduğunu və onu sizin sarayınızdan kim apardığını soruşacaqsınız. Deyəcəklər məsələn,

[1] Şah Təhmasib Səfəvi. Əbdül Hüseyn Nəvai, Tehran, 1350, s. 200-237

filan vəzir. Bu isə sizin xoşunuza gəlməyib qəzəbinizə səbəb olacaqdır. Biz də on dörd məsumun it və kölələriyik və bu günlər onların ziyarətinə getməyi yer üzərindəki hökmranlıqdan şərəfli hesab edirik. Onların köləsi olmaq əbədi, var-dövlət, dünya səltənəti isə fanidir».

ŞahTəhmasib öz xatirələrində İranla Osmanlı dövləti arasında gedən döyüşləri iki müsəlman və qardaş qrup arasındakı qanlı döyüş adlandırmış və müsəlman ümmətinə bunu rəva görməmişdir. Hətta atasının osmanlılarla apardığı mübarizələri ətrafındakıların onu bu işə sövq etmələri ilə əlaqələndirmiş və onları qətiyyətlə məhkum etmişdir.

O, öz xatirələrində yazır:

«Mən onun (Osmanlı sultanını nəzərdə tutur) cavabında yazdım… Axı iki müsəlman qoşununun biri-birinin qanını tökməyə və onları təhlükə ilə qarşı-qarşıya qoymağa necə fitva verə bilərəm? Atam atanızla müharibə etdiyi zaman ətrafındakı bütün əmir və əsgərlər məst olmuşlar. Onlar axşamdan səhərədək şərab içmiş və müharibə əhval-ruhiyyəsində olmuşlar…O gündən bəri Çaldıran döyüşü barədə söz düşdükdə atamı aldadıb müharibəyə təhrik etdiyi üçün Dərmiş xana lənət oxuyuram».

Beləliklə, Osmanlı Sultanı sülh sazişinə razı olur və Amasiyada düşərgə qurduğu zaman İran səfiri onun yanına gəlib Təhmasib şahın məktubunu təqdim edir. Rumlu yazır: «Məktubda Əli (ə) mədh olunsa da, əhli-sünnə məzhəbinə qarşı qərəzli mövqe tutmayıb çalışır ki, orada səhabələr haqda da xoş sözlər yazsın».

Osmanlı sultanı göstəriş verir ki, iranlılar sülh sazişini pozmayana qədər sərhəd qoşunları hərbi əməliyyat keçirməsinlər. Mirzə Zəki özünün «Osmanlı tarixi» adlı kitabında yazırdı: «Bu İranla Bab Ali (Osmanlı dövləti nəzərdə tutulur) arasında yazılan ilk rəsmi sülh sazişi idi. Çünki, əlli ildən bu tərəfə, yəni Şah İsmayılın Səfəvi sülaləsini təsis etdiyi zamandan bu günədək heç bir tərəfin qılıncı qınına girməmişdi».

Beləliklə, Təhmasib şahla Sultan Süleyman arasındakı münasibətlər yaxşılaşıb tərəflərarası yazışmalar başlanır. Münasibətlər o qədər yaxşılığa doğru gedir ki, h.q. 963-cü ildə İstanbulda Süleymaniyyə məscidi inşa olunduqdan sonra Təhmasib şah Sultan Süleymana göndərdiyi məktubda məscid üçün istənilən qədər xalça göndərə biləcəyini bildirir. Məlum olduğu kimi, Təhmasib şahın özü də rəssamlıqda xüsusi bacarığa malik olmuş və o dövrün bir çox məşhur rəssamlarından dərs almışdır. Sonrakı illər Təhmasib şah tərəfindən İstanbula bir neçə heyət göndərilir və onlar Osmanlı Sultanın taxta çıxması münasibətilə bahalı hədiyyələr təqdim edirlər.

H.q. 962-ci ildə yazılan sülh sazişindən sonra ortaya çıxan ciddi çətinliklərdən biri də Sultan Süleymanın oğlu Bəyazidin İranda sığınacaq tapması olur. O, az bir müddət Osmanlı dövlətinə hökmranlıq etmiş və özü ilə qardaşı Səlim arasında qarşıdurma yarandıqdan sonra h.q. 966-cı ildə oranı tərk edib İran ərazisində özünə sığınacaq tapır. O, h.q. 967-ci ilin ilk günlərində özünün bir neçə minlik tərəfdarı ilə Qəzvinə daxil olur və orada Təhmasib şah tərfindən səmimiyyətlə qarşılanır. Qeyd etmək lazımdır ki, Sultan Süleyman bundan qabaq başqa bir oğlu Mustafanı da dövlətə qarşı çıxmaqda ittiham edərək qətlə yetirmişdir.

Bəyazidin də geri qaytarılması Sultan Süleyman üçün böyük əhəmiyyət kəsb edirdi. Bunun üçün də o, bir çox tədbirlərə əl atır və həmən dövrdə Təhmasib şahla onun arasında uzun sürən məktub yazışmaları aparılır. Bəyazid İranda da istədiyinə nail ola bilmir. Belə ki, o, özünün qeyri-əxlaqi davranışı ilə şahı zəhərləməkdə ittiham olunub, tərəfdarlarının bir neçəsi ilə birlikdə elə oradaca həbs olunur.

H.q. 968-ci ildə Osmanlı dövlətinin yeddi yüz nəfərlik nümayəndəsi Bəyazidi geri aparmaq məqsədilə Qəzvinə gəlir. Hər iki tərəf arasında danışıqlar aparılır və nəhayət h.q. 969-cu ildə İranla Osmanlı dövləti arasında son sülh sazişi imzalanır və bu sazişə əsasən hər iki tərəf siyasi sığınacaq istəyən şəxslərin geri qaytarılmasına razılıq verir. Beləliklə, Bəyazid Osmanlı dövlətinə təhvil verilir və sultanın əmri ilə edam olunur. Əlbəttə, Bəyazid təhvil verildiyi zaman şah Osmanlılardan ona toxunmayacaqlarına dair söz alır, lakin onlar buna məhəl qoymayıb Bəyazidi öldürürlər. Qeyd etmək lazımdır ki, Bəyazid İranda olduğu müddətdə daim Təhmasib şaha qarşı məkirli tədbirlərə əl atmış, bütün bunlara baxmayaraq, şah onunla son dərəcə mülayim davranmışdır. Amma necə olursa-olsun Təhmasib şahın Bəyazidi Osmanlı dövlətinə təhvil verməsini comərdlik hesab etmək olmaz. Nəzərdən qaçırmaq olmaz ki, Təhmasib şahın atdığı bu addım İranın milli mənafeyinə yaxındanköməklik etmişdir. Çünki, Osmanlı Sultanı Şah Təhmasibə güzəşt etməyə də bilərdi və nəticədə səkkiz illik sülh sazişi ləğv olub dövlətlər arasında yeni müharibə başlaya bilərdi. Bundan sonra İranla Osmanlı dövləti arasındakı əlaqələr daha da güclənir. Vaxtaşırı bir-birlərinin nümayəndələrini qəbul edir və qiymətli hədiyyələr göndərirdilər. Belə ki, Osmanlı nümayəndəsi İlyas bəy h.q. 970-ci ildə Şah Təhmasibin görüşünə gəldiyi zaman özü ilə beş yüz min əşrəfi pul və qırx ərəb atı gətirir.

H.q. 975-ci ildə Sultan Süleymanın vəfatından sonra İİ Səlim onun canişini təyin olunur və sülh sazişi olduğu kimi qüvvədə qalır və bu vəziyyət h.q. 982-ci ilədək, yəni İİ Süleymanın ömrünün sonunadək beləcə davam edir.

Maraqlı hallardan biri də budur ki, Sultan Süleymanın vəfatı münasibəti ilə göndərilən məktubda Təhmasib şah fars və türk şerlərindən istifadə etmiş, orada Sultan Süleymanın Avropada qazandığı zəfərlərdən söz açaraq, öz sevinc hissini gizlətməmişdir. Həmçinin məktubda İİ Səlimin canişin təyin olunma münasibətilə İran paytaxtı Qəzvinin Səadətabad bağında böyük bayram keçirildiyinə də işarə edir. Məktubun sonunda deyilirdi: «Tərəflərarası yaradılan dostluq və qardaşlıq münasibətləri özünün ən son səviyyəsində müşahidə olunmaqdadır».

Olduqca böyük mətni olan bu məktub «Xuləsətut-təvarix» (h.q. 478-544) adlı kitabda yetmiş səhifədə dərc olunmuşdur.

## *İRANLA HİNDİSTAN ARASINDAKI SİYASİ ƏLAQƏLƏR*

Səfəvi dövləti ilə Hindistan arasında yaradılan ilk əlaqələri Topal Teymurun nəvəsi və Əmir Şeyx ibni Əbu Səidin oğlu Zuhəyrəddin Babər Qorqani ilə əlaqədəndirmək olar. O, bir vaxtlar Orta Asiyada hökmranlıq etmiş və özbəklərin qüdrət əldə etməsi ilə dəfələrlə amansız hücumlara məruz qalmışdır. Belə ki, özbəklər həmin dövrlərdə həm Xorasana, ham də Babirin nəzarəti altında olan məntəqələrə vaxtaşırı hücum edirdi. Şah İsmayıla məğlub olduqdan sonra isə onun Səfəvi dövləti ilə birləşməsinə münasib şərait yaranır. Şah İsmayıl ona kömək etməyə hazır olduğunu bildirir, bir şərtlə ki, şiə məzhəbini qəbul edib on iki imamın adına sikkə vurdurmuş olsun. Orta Asiyada bir o qədər də uğur qazana bilməyən Babir qızılbaşların himayəsi ilə Kabulda hakimiyyəti ələ keçirir və sonra Qəndəhar uğrunda mübarizə aparıb, oranı da işğal etməyə nail olur. Babir Şah İsmayılın hakimiyyətdə olduğu bütün dövrlərdə onunla əlaqələrini kəsmir. Tarixi mənbələrə əsaslanaraq qətiyyətlə deyə bilərik ki, Babir şiə məzhəbini qəbul etmiş, hətta qızılbaşların paltarını geyərək Səmərqənddə on iki imamın adına xütbə də oxumuşdur.

Babir şah Təhmasib şahın hakimiyyətinin ilk illərində Dehli və Akra şəhərlərini ələ keçirib özünü Hindistanın imperatoru elan edir. Bundan sonra dövlətlərarası əlaqə və nümayəndələrin gediş-gəlişləri daha da güclənir və Təhmasib şah özbəklərə qarşı mübarizəni gücləndirməkdən sonra əlaqələr daha da yaxşılığa doğru irəliləməyə başlayır. H.q. 937-ci ildə Babir vəfat

edir və oğlu Humayun taxta çıxır. Qardaşı Mirzə Kamran isə Kabula hakim olmaqla yanaşı, Hərata qədər nəzarət edirdi. Təhmasib oğlu Mirzə atasının icazəsi olmadan Qəndəhara hücum edir və orada məğlub olub yenidən Hərata qayıdır. Bunun ardınca Təhmasib şah Qəndəhara hücum edib oranı ələ keçirir və az sonra Mirzə Kamranın qayıdışı ilə Qəndəhar yenidən monqolların əlinə keçir. Qızılbaş dövlətinə və şiə məzhəbinə böyük hörmət və ehtiram bəsləyən Humayunun müdaxiləsi nəticəsində Qəndəhar yenidən İrana qaytarılır.

Sərşah Əfqaniyə məğlub olduqdan sonra isə hər şeyi əldən verir və sonra da dövlətin ikinci dərəcəli şəxsi olan Biramxan adlı şiə dostlarından birinin tövsiyəsi ilə h.q. 950-ci hicri ilində Təhmasib şahın sarayına gəlir. Şahın göstərişlə Humayın böyük təmtəraqla qarşılanır və bir sıra abadlıq işləri apardıqdan sonra paytaxta gətirilir. Çünki, belə bir şəxsiyyətin saraya gətirilməsi təbliğat nöqteyi-nəzərindən olduqca böyük əhəmiyyət kəsb edirdi. Humayun Qəzvinə gəlməzdən əvvəl Məşhədə İmam Rza (ə)-ın ziyarətinə getmək üçün şahdan icazə alır. Ziyarətini başa vurduqdan sonra h.q. 951-ci ildə Qəzvinə gəlir. Maraqlı hallardan biri də indinin özünədək Pakistanın yüksək rütbəli dövlət nümayəndələrinin İrana gəldikləri zaman Məşhədə İmam Rza (ə)-ın ziyarətinə getmələridir.

Humayun əvvəllər rəsmi olaraq şiə məzhəbini qəbul etmək fikrində deyildi. Lakin Təhmasib şah buna israr etdikdən sonra şiə məzhəbini qəbul edib itirdiyi məntəqələri və ixtiyarında olan canlı qüvvəni geri qaytara bilir.

On dörd min qızılbaş əsgəri Humayunun taxt-taca çıxmasını müşahidə edir və həmən qoşunla da o, Qəndəharı fəth edə bilir. Əvvəlki danışıqlara əsasən əldə etdiyi dövlət xəzinəsini Təhmasib şaha göndərir və bunun ardınca Kabul şəhərini də ələ keçirir. Beləliklə, hər iki tərəfin səfir və nümayəndələri biri-birlərinə gediş-gəliş edir və əlaqələr daha da güclənir. İran ordusuna verilməli olan Qəndəhar üzərində yaranan ixtilaflar isə Humayunun ömrünün sonunadək davam edir. Həm Babir şah, həm də oğlu Humayun şiə məzhəbini qəbul etsələr də, (hərçənd Humayun Dehliyə döndükdən sonra yenidən sünni məzhəbində olmuşdur) heç bir məzhəb təəssübünə yiyələnmirdilər və təbii ki, yiyələnə bilməzdilər. Şiə məzhəbli Humayunun müqabilində qardaşı Kamran Qəndəharın təəssübkeş sünnilərinin tərəfini tutur. Bu səbəbdən də Təhmasib şah Humayuna göndərdiyi məktubda qardaşı Kamranı danlaq atəşinə tutaraq yazır:

*«Deyirlər Kamran xaricidir*
*Xarici Kamran ola bilməz».*

Bir sözlə, məzhəb təəssübkeşliyinin olmaması bütün firqələrin dövlət tərkibində fəaliyyət göstərməsinə səbəb olur.

H.q. 963-cü ildə Humayun vəfat edir və oğlu Əkbər şah Dehlidə taxta oturur və onun hakimiyyət dövründə məzhəb təəssübkeşliyi digər dövrlərlə müqayisədə özünün ən yüksək zirvəsinə çatır. Əkbər şahın hakimiyyət dövründə Səfəvi dövlətinin nümayəndələri iki dəfə Dehliyə gəlir və onunla bəzi məsələlər ətrafında müzakirələr aparırlar.

## *SƏFƏVİ DÖVLƏTİ VƏ GÜRCÜSTAN*

İslam ölkələri ilə həmsərhəd və əhalisi məsihi olan Gürcüstan daim cihad əhval-ruhiyyəli müsəlmanların diqqət mərkəzində olmuşdur. Belə ki, iranlılarla osmanlılar arasında gedən müharibələrdə kafirlərə qarşı cihad şüarı ilə daim gürcülərə qarşı mübarizə aparılmışdır.

Təhmasib şah ölkənin qərb və şərq sərhədlərində əmin-amanlığın hökm sürdüyünü görüb Gürcüstana tərəf qoşun yürüdür. H.q. 947-ci ildə kafirlərlə cihad məqsədilə atılan bu addım dini, siyasi və iqtisadi baxımdan Səfəvilər dövləti üçün böyük üstünlük ola bilərdi. H.q. 953-cü ildə Gürcüstana ikinci dəfə yürüş olunur və bu da Təhmasib şahın İranda mövqeyinin möhkəmlənməsinə səbəb olur. Belə ki, Xəzər dənizinin şərqində yerləşən Qıpçaq əmirləri bundan sonra Səfəvi dövləti ilə öz əlaqələrini yenidən gücləndirməyə nail olurlar.

H.q. 958-ci ildə Təhmasib şah üçüncü dəfə Gürcüstana hücum edir. Oranın işğal olunması Səfəvi dövlətinin həmən məntəqədəki bir çox çətinliklərini həll edə bilərdi. Qeyd olunduğu kimi, Gürcüstana qoşun yürütməkdən ən başlıca məqsəd kafirlərə qarşı cihad idi. Bu isə Anadoludan Ermənistana və bu tərəfdən Gürcüstanadək əhatə olunan ərazilərin asanlıqla tanınması və dövlətin iftixar və başucalığı demək idi. Yürüş külli miqdarda qənimətin əldə olunması və yüzlərlə gürcü qadınlarının əsir alınaraq İrana gətirilməsi ilə nəticələndi. Rumlu yazır: «Öz gözəllikləri ilə şöhrət tapmış və pəri simalı gürcü qadınları baş verən hadisələrin qurbanına çevrildilər».

H.q. 961-ci ildə osmanlıların hücumu nəticəsində sülh üçün lazımi şərait yarada bilən Təhmasib şah növbəti dəfə Gürcüstana hücum etmək üçün qoşunu səfərbər edir. O, bu dəfə külli miqdarda qənimət əldə edib otuz min əsirlə İrana qayıdır. Bu qalibiyyətdən sonra Təhmasib şah əsirlərin müsəlmanlaşdırılmasına dair fərman verir və onların böyük bir hissəsi öz dinlərindən çıxıb İslamı qəbul edir. Bu hücumların sonrakı dövrlərdə baş verən hadisələrə göstərdiyi təsirlərdən biri də əsir gürcü kişi və qadınların

İrana gətirilməsi olur. Onlar əmir və zadəganların saraylarında xidmət edir və beləliklə, İranda yeni gürcü nəsli meydana gəlir. Bu haqda İ Şah Abbasın hakimiyyət dövrü barədə söz açarkən ətraflı söhbət edəcəyik.

Qeyd etdik ki, Səfəvilər dövləti gürcülərin müsəlmanlaşdırılması üçün bir çox səylər etmiş, bu işi gürcü şahzadələrdən başlamış və bu sahədə nəzərə çarpacaq uğurlar da əldə etmişdir. Hərçənd ki, onların bir qismi müsəlman olduqdan sonra dindən çıxaraq mürtəd olmuşlar. H.q. 967-ci ildə İslamı qəbul etmiş, lakin az sonra mürtəd və bu səbəbdən Ələmutda həbs olunan Gürcüstan hakimi İsa xanı buna misal çəkmək olar.

## *TƏHMASİB ŞAHIN HAKİMİYYƏT DÖVRÜNDƏ İDARƏÇİLİYİN TƏŞKİLİ*

Şahın yerinə dövlət işlərini idarə edən vəkil ilə yanaşı bu dövrdə Ali divanxanada vəzir və nazirlər də fəaliyyət göstərməyə başlayır. Qazi Cahan Qəzvini (h.q. 960) Təhmasib şah tərəfindən «Ali divanxana»ya baş nəzarətçi təyin edilir və bundan sonra o, uzun müddət həmən vəzifəni icra edir. Rumlu yazır: «Bu əzəmətli dövlətdə hələ onun kimi istedadlı və bacarıqlı vəzir olmamışdı». Paytaxt vəziri ilə yanaşı böyük şəhərlərdə də dövlət işlərini idarə edən digər vəzirlər fəaliyyət göstərirdi. Ordunu isə yalnız qızılbaş əmirləri idarə edir və ən yüksək rütbə «əmirul-umərə» idi ki, bu da adətən iki nəfərə həvalə olunurdu. Belə ki, h.q. 937-ci ildə bu vəzifəyə şahın bacısı oğlanları Hüseyn xan Şamlı və Abdullah xan Ustaclu təyin olunurlar.

Mərkəzi dövlət təşkilatçılıqları ilə yanaşı, şəhərlərdə də həm dövlət, həm də adət-ənənələrlə əlaqəli olan digər vəzifələr fəaliyyət göstərirdi. Onlardan hər biri cəmiyyətin gündəlik məsələlərini həll edən məsul şəxslər idilər. Onlardan bəzilərinə nəzər salaq:

Bəylərbəyi - əyalət valisi (indiki icra hakimləri).

Xüləfa – mürşid və sufilərin canişinləri

Sərdar – hərbi alayların məsul rəhbərləri

Xanlar-bir növ hökumət məmuru olan qəbilə və tayfa rəhbərləri

Mustovfi- maliyyə işləri üzrə məsul

Sabitlər – Maliyyə məmurları

Kutval – Yemək, yanacaq, silah, hətta mühüm dustaqların saxlanıldıqları qalaların nəzarətçiləri

Ağsaqqal və kəndxudalar – Qəbilə və kənd böyükləri

Kələntərlər – şəhərlərin nizam-intizamına nəzarət edən məsul işçilər

Yolçular –Yol qarətçiləri ilə mübarizə aparan dövlət məmurları

Zaman keçdikcə bu vəzifələrin sayı artır və yeni-yeni adlarla Səfəvi dövlətinin dövlətçilik quruluşu daha da genişlənirdi.

## *TƏHMASİB ŞAHIN HAKİMİYYƏT İLLƏRİNDƏ DİNİ TƏŞKİLATÇILIQ*

Səfəvi dövlətinin dini təşkilatçılığı Şeyx Səfi sülaləsində təcəlli edirdi. O, öz nüfuzunu qoruyub saxlayır və onun idarə olunması üçün sabiq üsullardan istifadə edərək əsas mürşidin, yəni şahın «xəlifətul-xuləfa» adlı nümayəndələr dövlətin nəzarəti altında olan ətraf məntəqələrə göndərilir və dini təbliğatla məşğul olurdular.

Necə olursa-olsun, dövlətçilik nə qədər güclənsə də, dini məsələlərin idarə olunması sufilərə deyil, alim və fəqihlərin ixtiyarına qoyulmalı idi.

Bunun üçün də cəmiyyətdə bu kimi işləri icra etmək üçün müəyyən vəzifələr təyin olunmalı idi. Səfəvi dövləti bu məsələni İran ərazisində əvvəllər fəaliyyət göstərmiş dövlətlərin təcrübələrindən istifadə etməklə həll edir.

Dini təşkilatçılıqda fəaliyyət göstərən iki mühüm mənsəbdən birinə, yəni sədirlik mənsəbinə Təhmasib şah Əmir Qivamuddin Hüseyn İsfahanini və Əmir Cəlaləddin Məhəmməd Əstərabadini təyin etmişdi. Sədr ümumilikdə bir çox dini-idari məsələlərə nəzarət və rəhbərlik edirdi. H.q. 931-ci ildə Əstərabadi vəfat edir. Rumlu onun haqqında yazır: «Əstərabadi haqq dərgahına qovuşduqdan sonra Xacə Nəsirəddin Məhəmməd Tusi haqq olan Cəfəri məzhəbinə və on iki imamçı camaata rəhbərlik etməyə, habelə günahkarların cəzalandırılması, hökmlərin icra olunması, cümə namazlarının vaxtının təyin olunması, namaz, oruc və sair şəri məsələlərə dair fitva vermək üçün başqa bir şəxsi bu mənsəbə təyin edə bilmirdi».

Deyilənlərdən belə məlum olur ki, yuxarıda adları çəkilən işlərin nəzarət və idarəçiliyi sədrin ixtiyarında olmuşdur. Əstərabadi vəfat etdikdən sonra Əmir Nemətulla Hilli (h.q. 940) Qivamuddin Hüseyn ilə birlikdə sədrlik mənsəbini idarə etməyə başlayır. Əmir Qivami Hüseyn vəfat etdikdən sonra isə Mirğayətuddin Şirazi (948-ci miladi ili) bu vəzifəni Hilli ilə müştərək olaraq icra etməyə başlayır. Hilli vəfat etdikdən sonra isə Mirğayətuddin müstəqil olaraq sədrlik vəzifəsini icra etməyə başlayır. Ondan sonra, yəni h.q. 939-cu ildə Mühəqqiq Kərəkinin şagirdlərindən olan Əmir Mazəddin Məhəmməd İsfahani (h.q. 952) sədr təyin olunur. O, fiqh elmində, xüsusilə də ibadi məsələlərdə böyük məharətə yiyələnmiş və bir çox fiqhi məsələləri o dövrün ən məhşur müctəhidi olan Kərəkidən öyrənmişdi.

Rumlu onun haqqında yazır: «Səkkiz il sədrlik etdi və dinin təbliğ və yayılmasında görünməz səylər göstərdi və onun kimi heç bir sədr qumarxana, fahişəxana, şərabxana və eyş-işrət məclislərinin dağıdılmasında bu qədər səy göstərmədi».

Mərkəzdə olduğu kimi, ətraf əyalətlərdə də vəzirlər fəaliyyət göstərirdi. Sədirliyə gəldikdə də hər bir əyalət üçün bir sədr seçilməyə başlanır. Belə ki, h.q. 970-ci ildə İraq, Fars və Xuzistan əyalətlərinə Əstərabad seyidlərindən olan Əmir Məhəmməd Yusif sədr təyin olunur. Necə ki, həmən dövrdə Şirvan, Xorasan və Azərbaycana Əsədullah Mərəşinin oğlu Əmir Zeyn Əli sədr təyin olunur.

Zaman keçdikcə sədrlərin üzərinə düşən vəzifələr azalmağa və dini məsələlərə nəzarət etmək üçün daha yüksək vəzifəyə ehtiyac duyulmağa başlanır. Bu səbəbdən də Təhmasib şahın hakimiyyətinin ilk onilliyində Osmanlı dövlətinin dini dövlət quruluşunda olduğu kimi, Şeyxul- İslam mənsəbi ortaya çıxır və şah alimlərdən birini Şeyxul-İslam təyin edir. Şeyxul-İslam bütün dini məsələlər ətrafında hökm çıxarmağa və fətva vermək səlahiyyətinə malik idi.

Şeyxul-İslam mənsəbinə təyin olunmuş ilk şəxs İraqda təhsil almış və milliyətcə ərəb olan tanınmış şiə alimi Mühəqqiq Kərəki (h.q. 940) ləqəbi ilə məhşur olan Şeyx Əli ibni Əbdülali olmuşdur. Çox ehtimala görə, Şah İsmayılın hakimiyyəti dövründə o, İrana dəvət olunmuş və Təhmasib şah atasının canişini təyin olunduqdan sonra onun yaxın adamlarından birinə çevrilmişdir. Mühəqqiq Kərəki 339-cu hicri ilində Təhmasib şah tərəfindən müctəhid təyin olunur və İranın Şeyxul-İslam vəzifəsini icra etməyə başlayır. Elə həmən dövrdən Şeyxul-İslam mənsəbinə «Müctəhiduz-zaman» adı da verilir. Bu isə İslamda dini alimə yüksək məqam verildiyindən xəbər verirdi.

Təhmasib şah Mühəqqiq Hilliyə böyük etimad bəsləmişdir. Mirzə Abdullah İsfahani özünün təlif etdiyi «Riyazul-uləmə» adlı kitabda Təhmasib şahın onun barədə verdiyi hökmü olduğu kimi təqdim edir. «Bağışlayan və mehriban Allahın adı ilə. İmam Sadiq (ə) buyurur: Öz aranızdan olan, hədislərimizi nəql edən, halal və haram etdiklərimizə diqqət yetirən şəxsə baxın. Mən onu sizin aranızda hakim qərar verdiyim kimi, siz də onu hakim qərar verin... Peyğəmbərin şəriətini qoruyan müctəhidlərin hökmü ilə müxalif olanlar sözsüz ki, müşriklərlə eyni dərəcədədirlər. Bir sözlə, müctəhidlərin sonuncusunun, peyğəmbərlərin, imamların və onların

naiblərinin hökmünə qarşı çıxan və onların fətvalarına tabe olmayan şəxslər dindən çıxmış məlunlardırlar».

Başqa bir məktubda Şah Mühəqqiq Kərkiyə bir çox səlahiyyətlər verdiyi və ölkə ərazisində bütün yüksək rütbəli dövlət adamlarını onun verdiyi hökmlərə tabe olmağa çağırdığı göstərilir. Bütün bunlarla yanaşı, dini sahələrdə çalışan bütün məmurların təyin və çıxarılmasını da ona həvalə edir. Dini sahələrə isə adətən qazilik, vəqf, dini elmlərin tədris olunması, mədrəsələr, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək daxil idi. Şah verdiyi bu hökmü İmam Zaman (ə)-ın zühur etməsi üçün müqəddimə hesab edərək yazırdı:

«Peyğəmbərlər ağasının dinini yaşatmaq, səhər tək aşkar olan məsum imamların təriqətini zahir etmək və müxaliflərin qubar və zülmətini aradan qaldırmaq ədalət günəşinin zühur etməsi üçün bir müqəddimədir. Dinin qorunması və onun öz nurunu hər yana saçması din alimlərinin davamçılarının vəzifəsidir».

Qazilik mühüm dini mənbələrdən olmuş və yalnız dini alimlərin ixtiyarında olmuşdur. Şahın hakimiyyət dövründə bu mənsəbi tutan ilk şəxs Mühəqqiq Kərəkinin qız nəvəsi Seyid Hüseyn Cəbəl Amili Kərəki olmuşdur. Şahın böyük etimadını qazanmış bu şəxs Cəbəl-Amildən[1] İrana gəlmiş və əhalinin dini-hüquqi məsələlərini həll etmişdir. Onlardan «əsgər qazisi» adını alan şəxslər isə orduda yaranmış hüquqi məsələlərin həllində çalışmışlar.

Həmən dövrdə İranda mövcud olan mənsəblərdən biri də sədr tərəfindən səlahiyyətli din aliminə həvalə olunmuş «Xitabət» mənsəbi olmuşdur. Bu isə həmən dövrdən Təbriz və Ərdəbildə cümə namazlarının qılınmasından xəbər verir.

İranda mövcud olan mühüm dini mənsəblərdən biri də Səfəvi Sultanları üçün böyük əhəmiyyət kəsb edən Məşhəd şəhərinə vali təyin etmək olmuşdur. Belə ki, bu mənsəb adətən nüfuzlu seyidlərdən biri və ya din alimi təyin olunur. Bu şəhərdə çoxsaylı alim və şeyxlərin yaşayıb fəaliyyət göstərməsinə baxmayaraq, xəlifə Seyid Əsədullah (h.q. 970) özünəməxsus mövqeyə malik olmuş və o dövrün məşhur alimləri bir çox məsələlərin həllində məhz ona müraciət etmişlər. Onun yaxın dostlarından olan Qazi Əhməd Qumi özünün «Xulasətut-təvarix» adlı kitabında həyat və zahidliyi haqqında ətraflı söhbət açır.

---

[1] İndiki Livan ərazisindən

## *ƏRƏB ALİMLƏRİNİN İRANA MÜHACİRƏTİ*

Osmanlı dövlətinin ölkə daxilində yaşayan şiələri sıxışdırması və Səfəvi dövlətinə bir o qədər də yaxşı münasibət bəsləməməsi şiə alimlərinin ərəb ölkələrindən onları qarşılamağa hazır olan İrana mühacirət etmələrinə səbəb olur. Kərəki barədə qeyd olundu ki: «Osmanlı dövləti ərəb İraqını ələ keçirdikdən sonra kişili-qadınlı hər bir şəxs öz el-obalarını tərk edib Əcəm diyarına üz tutdu».

Digər tərəfdən də Mirzə Abdullah İsfahaninin özünün «Riyazul-uləma» adlı kitabında qeyd etdiyi kimi, Kərəki vəfat etdikdən sonra Əbdül Həyy Əbdülvəhhab Əstərabadi şahdan «rəisul-üləma» (Şeyxul İslam) təyin etməsini istəyir. Şah isə cavabında deyir: «Mən Cəbəl-Amil müctəhidini istəyirəm.» Bu isə şahın şiə fiqhinin ərəb İraqında və Cəbəl-Amildə yerləşdiyindən agah olmasından xəbər verir. Bir halda ki, İran alimləri fəqih olmazdan əvvəl kəlam, məntiq və fəlsəfə alimləri olmuşlar. Bu kimi şəxslər isə nə Şeyxul-İslam ola bilərdi, nə də qazi.

Yaranmış belə bir şəraitdə İraqdan İrana fiqh alimlərinin gəlmələrinə böyük ehtiyac duyulurdu. Mühəqqiq Kərəki (h.q. 870-940) ləqəbi ilə şöhrət tapmış Əli ibn Əbdülali hicrətin onuncu əsrinin ikinci yarısında Şah İsmayılın yanına gəlmiş ilk ərəb alimi olur. Kərək-Nuh, Livanın qədim şəhərlərindən biri hesab olunur. Mühəqqiq Kərəki bir müddətdən sonra İraqa gəlir, lakin sonra yenidən Şah İsmayılın yanına qayıdıb onun etimadını qazana bilir. Səfəvi dövlətini dəstəkləyən Mühəqqiq Kərəki hətta Təhmasibin hakimiyyət dövründə belə dövlətlə sıx əməkdaşlıq edərək səfərlərin bəzilərində iştirak etmişdir. Qazi Əhməd Qumi yazır: «h.q. 936-cı ilin Xorasan səfərində Mühəqqiq Kərəki günün böyük bir hissəsini şahla birgə olmuşdur. Elə həmən dövrdə Nəcəfdə yaşayan Şeyx İbrahim Qutəyfi, Mühəqqiq Kərəkinin şahın yanına gəlişinə irad tutur və sonralar bu iki alim arasında mübahisələr gedir. Mühəqqiq Kərəkinin oğlu Əbdülali də o dövrün tanınmış fiqh alimlərindən biri olmuş və atası kimi İranda şəriət və sair dini elmlərdə fəaliyyət göstərmişdir. Həmçinin Əbdülalinin digər iki oğlu və Kərəkinin qız nəvəsi Seyid Hüseyn Kərəki sonralar Səfəvi dövlətində fəaliyyət göstərmiş və yüksək dini vəzifələrə təyin olunmuşlar. Bu din alimlərinin İrana etdikləri mühacirətin başlanğıcı idi. Sonralar azad şəraitdə yaşayıb fəaliyyət göstərmək üçün osmanlıların təzyiqinə məruz qalan Cəbəl-Amilin digər alimləri İrana mühacirət etməli olurlar. İrana mühacirət edən tanınmış alimlərdən biri də Şeyx Hüseyn ibni Əbdüssəməd Harisi (h.q. 984) olur. O da digər alimlər kimi osmanlıların təyziqinə məruz qalaraq h.q. 963-

cü ildə oğlu ilə birgə İrana mühacirət etməli olur. O, osmanlılar tərəfindən qətlə yetirilən görkəmli şiə alimi şəhid Saninin (h.q. 965) ən qabaqcıl şagirdlərindən biri olmuşdur. Belə ki, bir vaxtlar İstanbulda yaşamış və özünü şafei alimi kimi qələmə vermişdir. Şeyx Hüseyn İsfahanda böyük təmtəraqla qarşılanır və sonralar Qəzvin və Xorasanda Şeyxul-İslam vəzifəsində fəaliyyət göstərməyə başlayır. Bir neçə kitabın müəllifi olmuş və daha çox şöhrət tapmış kitabını «Ələqdut-Təhmasibi» adlandırmışdır. Şeyx Hüseynin bu kitabı əslində Təhmasibə verdiyi cavab olmuşdur.

O, yeddi il Qəzvində Şeyxul-İslam vəzifəsində fəaliyyət göstərir. Sonra Məşhədə, oradan Hərata gəlib elmi fəaliyyətə başlayır. Bir müddətdən sonra Şeyx Hüseyn İranı tərk edərək Bəhreynə gedir. Lakin oğlu Şeyx Bəhai İranda qalır və alimlik dərəcəsinə çatır, sonralar dövlətin dini işlərində fəaliyyət göstərməyə başlayır. Əldə etdikləri geniş imkanlara baxmayaraq, Şeyx Bəhai belə bir əqidədə idi ki, Cəbəl-Amilidə malik olduqları mövqe və mənəviyyatı itirmişlər.

Ərəb mədəniyyətli mühacirlər zaman keçdikcə fars dilini də mənimsəyirdilər. Şeyx Bəhaini buna misal çəkmək olar. O, atasından fərqli olaraq tam şəkildə ərəb-fars dillərini mənimsəmiş və şah Abbasın hakimiyyət dövründə paytaxtda ən yüksək dini-siyasi vəzifələri icra etmişdir.

Amili kimi şöhrət tapmış bu şəxslər uzun müddət İrana üz tutmuş və burada Şeyxul-islam, cümə namazlarının imamı, mudərris və bu kimi dini vəzifələri icra etmişdir. Hətta indinin özündə də İranda, xüsusilə də İsfahanda Amili soyadlı şəxslərə rast gəlmək olur. Qəribə hallardan biri də odur ki, Livanın Cizəyn adlı kəndindən İrana çoxsaylı alim mühacirət etdiyi üçün indinin özündə də İsfahanda Çiəzəyni soyadlı şəxslərə rast gəlmək olar. Orta Asiyada yerləşən Fərah adlı şəhərin Şeyxul-İslamı Şeyx İbrahim ibni Cəfər Kərəkini, Tus şəhərində yaşamış mühəddis və mudərris Şeyx İbrahim ibn Məhəmməd Hərfuşi Kərəkini, Tehranın Şeyxul-İslamı və qazisi Mirzə İbrahim Musəvi Kərəkini buna misal göstərmək olar. Qeyd olunduğu kimi, Səfəvilərin hakimiyyət dövründə yalnız Kərəki kəndindən İrana on səkkiz alim mühacirət etmiş və orada mühüm dini vəzifələri icra etmişlər.

Məsələn, Şeyx Bəhainin qayınatası milliyyətcə ərəb olan Şeyx Əli Minşar uzun müddət İsfahanın Şeyxul-İslamı olmuşdur. Böyük şöhrət tapmış bu şəxs bir müddət Hindistanda yaşayır və nəhayət, özünün dörd minlik böyük bir kitabxanası ilə birgə İrana gəlir və İsfahanda Təhmasib şah tərəfindən qarşılanaraq İsfahana Şeyxul-İslam və şahın halal gəlirlərinin mühasibi

vəzifəsinə təyin olunur. Minşar h.q. 984-cü ildə İsfahanda vəfat edir və İmamzadə İsmayıl ziyarətgahında dəfn olunur.

Şah Abbasın hakimiyyət dövründə şöhrət tapmış alimlərdən biri də Şeyx Lütfullah Meysa Amili (h.q. 1032) olmuşdur. Şah İsfahanda indinin özünədək İmam meydanında onun adına fəaliyyət göstərən gözəl məscid tikdirmiş və özü də oranın imamı olmuşdur.

Bu şəxslərin İranda buraxdıqları ən mühüm izlərdən biri də bir çox şəhərlərdə, xüsusilə də İsfahan, Qəzvin, Təbriz və Məşhəddə dini mədrəsələri gücləndirmək olmuşdur. Əslində onlar İraqın, xüsusilə də Hilə və Nəcəfin şiə fiqh alimlərinin davamçıları idilər.

İraqda məskunlaşmış İran alimləri və mühacirlərlə əlaqəli olan mühüm məsələlərdən bir də Səfəvi dövlətinin təsis olunması və şiə məzhəbinin İran ərazisində güclənməsi ilə diqqəti cəlb edən məsələlərdən biri də İrandan xaricdə şiə məzhəbinə dair ərəbcə yazılmış kitabların ölkə ərazisinə gətirilməsi olmuşdur. Məhz bu kitablar gətirildikdən sonra ölkə ərazisində səltənət, Şeyx Səfi və bu kimi böyük və mötəbər kitabxanalar təsis olunur.

Ərəb alimləri ilə yanaşı Nəcəfə təhsil almağa gedən İran alimləri də tez bir zamanda böyük nailiyyətlər əldə edir və şiə məzhəbinin elmi hərəkatına təkan verə bilirlər. Təhmasib şahın hakimiyyət dövründə yaşayıb-yaratmış və istər İranda olsun, istərsə də Nəcəfdə böyük alimlər yetişdirmiş Müqəddəs Ərdəbilini (h.q. 993) buna misal çəkmək olar.

## *MÜHƏQQİQ KƏRƏKİNİN SƏFƏVİ DÖVLƏTİNDƏ İFA ETDİYİ ROL*

Qeyd olunduğu kimi, Mühəqqiq Kərəki ərəb İraqını tərk edərək İran ərazisinə mühacirət etmiş ilk şəxslərdən biri olmuşdur. Onun və digər ərəb alimlərinin atdıqları ilk uğurlu və diqqətəlayiq addımlardan biri də şiə ictihad fiqhinin əsaslarını qoymaq olmuşdur. Mühəqqiq Kərəki öz fəaliyyətinə başladığı zaman Təhmasib şah tərəfindən himayə olunur və ilk dəfə olaraq Şeyxul-İslam ləqəbini alır. Geniş dini məlumatlara yiyələnən bu şəxs şiə fiqhinə dair «Camiul-Məqasid» adlı böyük bir kitab təlif edir və kitabın müqəddiməsində Təhmasib şahdan söz açaraq, onu gözəl ibarətlərlə vəsf edir. Mühəqqiq Kərəki sonralar xərac, cümə namazı və bu kimi mühüm fiqhi məsələlər haqqında bir neçə kitab təlif edir.

O, özünün «Cümə namazı» adlı kitabında cümə namazlarının şiə cəmiyyətində qılınması üçün lazımi şəraitin yarandığını göstərir və ondan sonra Şeyx Bəhainin atası Şeyx Hüseyn Əbdüssəməd bu haqda bir sıra mühüm mətləblərə toxunaraq İmam Zamanın (ə) qeyb dövründə cümə

namazlarının qılınmasının vacibliyinə dair fitva verir və şəxsən özü Qəzvin və Hərat şəhərlərində bunu icra edir.

Kərəki «Camiül-məqasid» adlı kitabının bir hissəsi olan «Cümə namazı» fəslində alimlərin məsum imamların canişinləri olduqları haqqında ətraflı söhbət açır və onların geniş ixtiyara malik olduqlarını qətiyyətlə müdafiə edir. Bütün bunlarla yanaşı, alimlərin ölkənin idarə olunmasında siyasi nüfuza malik olduqları haqda ətraflı izahatlar verir. Mühəqqiq Kərəki bir neçə əsr Hillə, Nəcəf və Cəbəl-Amildə özünə yer etmiş şiə istidlal fiqhini İranda da həyata keçirməyə başlayır.

Apardığı mübarizələrdən biri də camaat arasında xürafi dastanlar nəql edən şəxslərə qarşı olur. Həmən bu şəxslər camaat arasında çox-çox əvvəllərə qayıdan və heç bir tarixi əsası olmayan dastan və əfsanələr nəql edir və onlarda yanlış fikirlər yaradırdılar. Belə ki, camaatın diqqətini özlərinə cəlb etmək üçün İmam Əli (ə), Həmzə, Məhəmməd Hənəfiyyə, habelə Əbu Muslim Xorasani barədə ifratamiz dastanlar və hekayələr nəql edirdilər. Bütün bunların canlı şahidi olan Mühəqqiq Kərəki verdiyi fitvalardan birində əfsanə və dastan nəql etməyi haram edir. O, tam şəkildə bunun qarşısını ala bilməsə də, qismən də olsa bu kimi fəaliyyətlərin məhdudlaşdırılmasına nail olur. Lakin sonralar Səfəvilərin hakimiyyət dövründə onlar öz işlərini davam etdirir və beləcə camaatın diqqətini cəlb etməyə çalışırdılar.

Mühəqqiq Kərəkinin atdığı mühüm addımlardan biri də Sufilərə qarşı mübarizə ilə əlaqəli olur. Səfəvi dövləti sufilərin sayəsində qüdrət əldə etdikləri üçün onlar dövlətdə hələ də böyük nüfuza malik idilər. Hətta şahın özü belə sufilərin əsas mürşidi hesab olunurdu. Lakin şiə alimləri sufiliyi şiə fiqhi ilə tamamilə zidd hesab edir və onunla kəskin şəkildə mübarizə aparırdılar. Bu məzmunda yazılan ilk əsər Mühəqqiq Kərəkinin özü tərəfindən təlif olunur və sonralar bu istiqamətdə aparılan işlər davam etdirilir və beləliklə, İranda sufiliyin qarşısı nəzərə çarpacaq dərəcədə azalır.

Beləliklə, Mühəqqiq Kərəki Təhmasib şahın himayəsi ilə İranda bir sıra islahat işləri aparmağa nail olur. Eyni zamanda ona qarşı müxaliflərinin sayı artır və bəlkə də buna səbəb olan paxıllıq və ya digər amillər olmuşdur. Müxalifət o qədər güclənir ki, hətta ona qarşı sui-qəsd belə hazırlanır, lakin şahın güclü nəzarət və himayəsi nəticəsində bütün bunların qarşısı alınır. Mühəqqiq Kərəkiyə qarşı yaranmış müxalif cərəyan tək adi insanlar arasında deyil, hətta alimlər arasında belə müşahidə olunurdu. Belə ki, ona

qarşı məclislər qurulur və o bütün bu məclislərdə şah tərəfindən himayə olunurdu.

Kərəki milliyyətcə iranlı və əstərabadlı olan bir çox fəqihlər yetişdirir. Onlardan bəziləri yalnız fiqhi sahədə fəaliyyət göstərmiş, bəziləri isə özü kimi dövlət işlərində məsul vəzifələrdə çalışmışlar. Belə ki, Əmir Mazuddin İsfahani sədrlik vəzifəsinə təyin olunur. İraqdakı şagirdlərindən olan Mir Əsədullah Şuştəri isə ondan sonra şah Təhmasibin etimadını qazanıb sədirlik vəzifəsinə təyin olunur.

## *TƏHMASİB ŞAHIN DİNDARLIĞI VƏ DİNİ SİYASƏTİ*

Təhmasib şahın həyatına nəzər saldıqda onun digər Səfəvi şahlarla müqayisədə həm şəxsi əhval-ruhiyyə, həm də ictimai baxımdan dinə daha çox əhəmiyyət verdiyinin şahidi oluruq. Belə ki, iyirmi yaşında olarkən tövbə edir və ömrünün sonunadək tövbəsinə əməl edir. Təlif etdiyi «Təzkirə» adlı kitabında da bütün günahlardan, xüsusilə də şərabxorluqdan uzaqlaşdığına dair ətraflı izahatlar verir. O, tövbə etmək qərarına gəldikdə saray adamları ilə məşvərət edir. Onlardan bəziləri şaha bütün günahlardan uzaqlaşmağı, bəziləri isə şərab içməyin şahlara zəruri olduğunu bildirib bu işdən başqa bütün günahlardan çəkinməsini tövsiyə edir. Lakin Təhmasib onların tövsiyələrinə qulaq asmayıb şərab içməyi də qadağan edir.

Çox ehtimal ki, Təhmasib şah h.q. 939-cu ildə Mühəqqiq Kərəkinin təsiri altına düşərək bütün günahlardan çəkinərək birdəfəlik tövbə etmişdir. Bunun ardınca tabeçiliyində olan bütün ölkə ərazisində yaxşı işlərə dəvət və pis işlərdən çəkinməyə dair rəsmi hökm vermək istəyir. Hətta indinin özündə də İranın bəzi məscidlərinin giriş qapılarında Təhmasib şahın yaxşı işlərə dəvət və pis işlərdən çəkinməyə dair verdiyi hökm kətibə şəklində saxlanılmaqdadır. Rumlu bu haqda yazır:

«Bu ildən etibarən dinə pənah gətirmiş şah bütün günahlardan tövbə edir. O, hamının xeyirxah işlər görməyə qulaqlara tıxanmış qəflət pambıqlarını çıxarıb atmağa və nəhayət bütün günahlardan uzaq olmağa sövq edir. Hökmə tabe olmayan şərabxor və nəşəxorlar şəri qanunlara əsasən cəzalandırılacaq. Şəri qanunlara zidd mahnı oxuyanların səsi kəsiləcək və başları qırxılacaq. Şəri qanunlara zidd olan mahnı ifa edən ney çalanların nəfəsi kəsiləcək. Şəri qanunlara zidd təbil vuranların çubuqları toppuz tək başlarına vurulacaq. Məclislərdə boş, faydasız əyləncələrlə camaatın başını qatan şəxslər ulağına oturdulub şəhərdən çıxarılacaqlar. Qumarxana,

şərabxana və fahişəxanalardan əldə olunan gəlirlər bütünlüklə «beytul-lütf» dəftərindən çıxarılacaqdır».

Bunu da ehtimal vermək olar ki, iki-üç onillikdən sonra ölkə ərazisində bəlkə də sarayın özündə yenə də fitnə-fəsad və pozğunçuluq baş alıb getmiş və cəmiyyəti ciddi təhlükə ilə qarşı-qarşıya qoymuşdur. Belə ki, h.q. 963-cü ildə Təhmasib şah bir daha əyanlarına tövbə etmək əmrini verir. O, şərabxorluğun qarşısını almağa xüsusi diqqət yetirir və bu işə hər şeydən daha çox nifrət bəsləyirdi. Belə ki, bir vaxtlar ona qarşı üsyan etmiş və Osmanlı dövlətinə pənah aparmış qardaşı Əlqas yanına qayıtdıqda ona olan münasibətini bu sözlərlə ifadə edir. «Nə qədər ki, mənimlə dost idin, nə şərab içir, nə də günah edirdin; üsyankar olduqdan sonra isə günaha və fitnə-fəsada qərq oldun!» Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirməklə yanaşı, Təhmasib şahın həyata keçirdiyi dini siyasətdən biri də İran ərazisində şiəliyi gücləndirmək olmuşdur. Atası Şah İsmayıl bu ölkədə şiəliyin bünövrəsini qoysa da, onun möhkəmləndirilməsi Təhmasib şahın üzərinə düşür. O da asanlıqla bunun öhdəsindən gəlir. Təhmasib şah hər şeydən əvvəl dövlətin dini məzhəbi təşkilatlarını alim və fəqihlərin elmi təcrübələrindən istifadə etməklə genişləndirmək istəyir. Bu məqsədlə də Livandan İrana neçə-neçə alim dəvət edir və onlar İrana gəldikdən sonra Şeyxul-İslam camaat namazların, cümə namazların, cümə namazlarının imamı və bu kimi məsuliyyətli vəzifələrə təyin olunurlar. Təhmasib şah alimləri yüksək vəzifələrə təyin etməklə yanaşı onlara bir çox ixtiyarlar da verir. Belə ki, Mühəqqiq Kərəkini İmam Zamanın (ə), özünün isə onun naibi olduğunu bildirir. Şah Təhmasib şiə məzhəbini gücləndirmək məqsədilə fiqh alimlərinə bir çox səlahiyyətlər verir. Haqqında xoş sözlər deyilərkən tabeçiliyində olan dövlət xadimlərinə «mütəhhirat» (paklar) ləqəbi verilirdi. Rumlu yazır: «Təhmasib şah fitva verilmədən hər hansı bir işi başlamazdı». Təhmasib şahın şiəliyi gücləndirmək məqsədilə atdığı addımlardan biri də bir çox ərəb kitablarının fars dilinə tərcümə olunmasına dair göstəriş verməsi olmuşdur. Sonralar bu işlə daha ciddi məşğul olunsa da, belə bir addım ilk dəfə məhz Təhmasib şahın hakimiyyət dövründə atılır. Həmən dövrdə şiəliyi daha da gücləndirmək məqsədilə Təhmasib şahın göstərişi ilə İmamların həyatı fars dilinə tərcümə olunur. Eyni zamnda şiəliyin güclənməsinə böyük təsir göstərə biləcək bir neçə kitab da təlif olunur. H.q. 937-ci ildə bu məzmunda təlif olmuş ilk kitab Məhəmməd Həməvi Əbhərinin «Minhacul-fazilin fi mərifəti ümmətil kamilin» adlı əsəri olur. O kitabın müqəddiməsində Təhmasib şahı böyük bir qəsidə ilə mədh edir.

Həmən şəxs h.q. 938-ci ildə fars dilində «Ənisul-muminin» adlı başqa bir kitab təlif edir. Məhəmməd Həməvi, Mühəqqiq Kərəkinin şagirdlərindən biri olmuş və öz kitablarında onun dastan nəql edən şəxslər barədə verdiyi fitvalara işarə etmişdir.

Bunu da qeyd edək ki, heç bir tarixi sənəd və mənbələrdə Təhmasib şahın sünni məzhəbinə mənsub olan şəxsləri zorla şiəliyi qəbul etmələrinə vadar etməsi göstərilmir. Qazi Əhməd Quminin yazdığına görə əvvəlki dövrlərdən fərqli olaraq, paytaxt Qəzvin şəhərinə köçürüldükdən sonra belə, sünni məzhəbinə mənsub olan əhaliyə qarşı heç bir təzyiq göstərilmir.

Təhmasib şahın özünün hakimiyyət dövründə gördüyü tədbirlərdən biri də bir çox imamzadələrin üzərində gözəl məqbərələr tikməsi və beləliklə, əhali ilə ziyarətgahlar arasında sıx əlaqə yaratması olmuşdur. Bu vaxtadək sünni sufi olan iranlıların bir çoxu yalnız öz sufi şeyxlərinin ziyarətinə gedirdi. Lakin bundan belə imamzadələrin kütləvi ziyarəti başlanır. İndinin özündə də əgər İran ərazisindəki imamzadələrin üzərindəki kətibələrə nəzər salarıqsa, orada Təhmasib şahın adını görə bilərik. Əlbəttə, sufi şeyxlərinin də bəzilərinin ehtiramı gözlənilirdi. Belə ki, daha çox əhəmiyyət kəsb edən Şeyx Səfiyəddin Ərdəbilinin qəbri sufilər tərəfindən ziyarət olunurdu. Biz həmən dövrün tarixi abidələrinə nəzər saldıqda Şeyx Səfiyəddin Ərdəbilinin qəbri üzərində də gözəl məqbərənin ucaldığının şahidi oluruq.

İmamzadələrlə yanaşı, həmən dövrdə üzərində Təhmasib şahın adı həkk olunmuş bir çox gözəl məscidlər də tikilir. Şiəliyi yaymaq və gücləndirmək məqsədilə Təhmasib şahın gördüyü tədbirlərdən biri də şiəliyi daha tez qəbul etmiş və şiəliyin güclənməsində layiq olan şəhərlərdən maliyyə alınmaması olmuşdur. Bu barədə fərmanlar verilib şəhərin came məscidlərinin qarşısına vurulur və şəhər valilərinə əhalidən maliyyə götürməmək əmri verilir. Təhmasib şah almadığı hər ilin maliyyəsini imamlardan birinin ruhuna hədiyyə edirdi. Tarixçilərin yazdıqlarına görə, Təhmasib şah şəri nöqteyi-nəzərdən alınması qanuni olmayan maliyyələri şiələrə bağışlayır və onlardan alınmamasını əmr edir. H.q. 972-ci ildə günlərin biri yuxuda İmam Zamanın (ə) bidət halı almış bəzi məsələləri ləğv etməsini buyurduğunu görür. Səhəri gün yuxunu «Çehel sütun» (qırx sütun) sarayının eyvanında nəql edir və sonra yoxsul məntəqələrdən alınan otuz minə yaxın maliyyəni oranın əhalisinə bağışlamasını əmr edir.

Təhmasib şahın şiəliyə olan sıx bağlılığını onun yazdığı məktublardan da bilmək olur. Onun Osmanlı Sultanı Süleymana göndərdiyi məktubda Əhli-

beyt və məsum imamlara böyük hörmət və ehtiram bəsləməsi buna başqa bir misal ola bilər.

Təhmasib şah dini ehkamlara böyük hörmət bəslədiyi üçün həcc ziyarətinə xüsusi diqqət yetirmiş və istər Osmanlılarla bağladığı sazişdə, istərsə də sonrakı yazışmalarında onlardan yolu açmalarını və İranla və Orta Asiya zəvvarların təhlükəsizliyini təmin etmələrini istəyir. Tərəflərarası sülh sazişi imzalandıqdan sonra iranlı zəvvarların Məkkə və Mədinəni ziyarət etmələrinə şərait yaranır. Ziyarət məqsədilə olunan səfərlərdə Səfəvi dövlətinin bəzi dövlət məmurları da iştirak edir. H.q. 977-ci ildə Səfəvi Məsum bəyin Həcc karvanına qoşulduğunu, lakin ərəblər tərəfindən qətlə yetirildiyini buna misal çəkmək olar. İkinci Sultan Səlim törədilmiş sui-qəsdə görə öz səfirini Təhmasib şahın yanına göndərib ondan üzürxahlıq istəyir. Orta Asiya zəvvarları da Həcc ziyarətinə getmək üçün İran ərazisindən ötüb keçməli idilər. Onlar Qəzvində şəxsən Təhmasib şah tərəfindən qarşılanır və sonra Hicaza göndərilirdilər.

Bunu da inkar edə bilmərik ki, Təhmasib şahın İrana hakim olan dini-məzhəbi siyasəti bir tərəfdən şiəliyin burada güclənməsinə və bunun da İrana üstünlük verməsinə, digər tərəfdən isə həmən dini-məzhəbi siyasətin ölkəyə özünəməxsus təsir qoymasına səbəb olur. Siyasi baxımdan osmanlıların və özbəklərin Səfəvi dövləti ilə düşmənçilik etməsi ən azı zahirdə özünü belə göstərirdi. Mədəni baxımdan da müəyyən qədər olsa təklənib və həm ərəb, həm də İslam mədləniyyəti ilə əlaqəsini kəsməli olurdu. Şair, Təhmasib şahın şiəliyi yaymaq üçün etdiyi səylər haqqında yazdığı şerdə deyir:

*«On iki imamçı məzhəbinə o qədər yer verdim ki,*
*Fələkdən ötüb keçdi, dövrümdən sizlərə çatdı».*

İlahi İsfahani özünün «Xuldbərrin» adlı kitabında Təhmasib şahın gördüyü işlər haqqında ümumi məlumat verərək yazır:

«Hər cür tərifə layiq olan padşah Qəzvində olduğu müddətdə (şah on doqquz il Qəzvində olmuş və bu müddət ərzində oranı tərk etməmişdir) daim əhalinin nizam-intizamına, dinin inkişafına, habelə Peyğəmbər ağası Həzrəti Məhəmməd (s) və pak ailəsinin sünnətinin yaşadılmasına xüsusi diqqət yetirmişdir. Alim və seyidlərin məqamını uca tutur və elmin tərəqqisinə, habelə Məşhəd, Təbriz, Səbzivar, Qum və Ərdəbil seyidlərinə ayrıca pay ayırırdı. Bütün bunlarla yanaşı, adları çəkilən şəhərlərdə qırx oğlan və qırx yetim qız uşağını yemək və geyimlə hər tərəfli təmin edir və

onların təlim-tərbiyəsi ilə məşğul olmağa tərbiyəçilərin ayrılmasına dair göstəriş verir. Belə ki, onlar həddi-büluğ yaşına çatdıqdan sonra ailə qurmalarına köməklik olunmalı və yerlərinə növbəti qırx oğlan və qırx yetim qız uşağı təmin olunmalı idi… Ölkənin digər məhrum məntəqələrində də, xüsusilə şiələrin yaşadıqları ərazilərdə maliyyələrin alınmasında güzəşt olunur və onların mövcud şəraiti nəzərə alınırdı».

Bütün bunlarla yanaşı, şah şəxsi ehtiyaclarını aradan qaldırmaq üçün əldə olunan gəlirin halallığına da xüsusi diqqət yetirirdi. Bu məqsədlə bütün şəhərlərə halallıq vəkilləri təyin edirdi. Şiraza təyin olunan Seyid Muzəffərəddin Əli Əncəvi Şirazini və İsfahana təyin olunan Şeyx Bəhainin qayınatası Şeyx Əli Minşarı buna misal çəkmək olar. Bu adət-ənənə sonrakı Səfəvi hakimlərin dövrlərində də davam etdirilir. Bəzi mənbələrdə Səfəvi dövlətinin tərkibində halallıq vəkillərinin fəaliyyət göstərmələrindən də xəbər verilir.

## *HİCRƏTİN ONUNCU ƏSRİNDƏKİ ŞİƏ TƏFƏKKÜRÜ*

Bir qədər əvvəl onuncu əsrdə şiə tərzi-təfəkkürünün tanınmasında təsirli olan bəzi məsələlər haqda söhbət açmışdıq. Şiə məzhəbi haqqında təlif olunmuş kitabların ərəb dilindən fars dilinə tərcümə olunmasını, ərəb fiqh alimlərinin İraq və Cəbəl-amildən İrana gətirilmələrini və onların qazi, Şeyxul-İslam kimi mühüm mənsəblərə təyin olunmalarını buna misal çəkmək olar. Lakin burada hicrətin 10-cu əsrində şiə məzhəbinə hakim olan tərzi-təfəkkür haqda söhbət açmaq istəyirik. Amma hər şeydən əvvəl qeyd etməliyik ki, Səfəvi dövrü fiqhi-fəlsəfi təfəkkür, başqa sözlə desək, dini tanıma baxımdan üç əsas dövrə bölünmüşdür:

1. Səfəvilərdən əvvəl İran irsindən sonrakı dövrə keçid dövrü və yeni mərhələnin başlanması
2. Şeyx Bəhai, Mir Damad və Molla Sədranın Şeyxul-İslam kimi fəaliyyət göstərdikləri dövrlərdə İsfahanda olan ideoloji məktəbin formalaşma dövrü
3. Əllamə Məclisinin həyat və fəaliyyət göstərdiyi dövr (biz bu haqda ayrıca söhbət açacağıq).

Bütün dövrlərdə daha çox əhəmiyyət kəsb edən məsələlərdən biri də kəlami və fəlsəfi bəhslər olmuşdur.

## *ŞİƏ MƏZHƏBİNİN FƏLSƏFİ VƏ KƏLAMİ İDEOLOGİYASI*

Hicrətin 8-9-cu əsrlərində İranda şiə və sünni kəlam elmi Xacə Nəsirəddin Tusinin təlif etdiyi «Təcridul-etiqad» adlı kitabda öz əksini tapır.

Kitabda xas olan ən başlıca xüsusiyyətlərdən biri də indinin özünədək fəlsəfə kimi tanınan kəlam elmini fəlsəfəyə yaxınlaşdırmaq, başqa sözlə desək, fəlsəfəyə çevirməkdən ibarət olmuşdur. Şiə alimləri ilə sünni Əşəri alimləri arasında imamət və sair fəlsəfi mövzular ətrafında müəyyən ixtilafların mövcud olmasına baxmayaraq, 8-9-cu əsrlərdə hər iki tərəf adı çəkilən kitaba şərh və açıqlamalar vermişdir. Kitabın «Ümumi ilahiyyat» adı altında əhatə etdiyi əsas mövzular vücud və mahiyyət, səbəb və nəticə, vəhdət və kəsrət (çoxluq), zehn və müşahidə, fel və qüvvə ətrafında olmuş və kitabın ikinci hissəsində xüsusi ilahiyyat adı altında Allahın varlığı, Onun sifətləri və bu kimi sair mövzulara da toxunulmuşdur.

«Təcridul-etiqad»la yanaşı Səhrudinin təlif etdiyi «Hikmətul-işraq» və «Həyakilun-nur», Əsirəddin Əbhərinin «Əl-Hidayə», Əbu Əli Sinanın «İşarat» və «Şəfa», habelə İbni Ərəbinin əsərləri həmən dövrün kəlam alimlərinin diqqət mərkəzində olmuşdur. Elə həmən dövrdən etibarən İranda irfani və fəlsəfi əsərlər təlif olunmağa başlanır.

Bir sözlə, monqolların işğalından sonra 9-cu əsrin sonunda şiə və sünni alimləri yeganə məqsədlə səfəvilərin gəlişinədək İranın bir o qədər də dini olmayan fəlsəfə məktəbinə dini don geydirmələri olmuşdur. Belə ki, o vaxtadək özünü yalnız Şafei məzhəbinə mənsub bilən Şiraz məktəbinin fiqh alimləri göstərə bilirdi. Bu Səfəvi dövrünə daxil olan və sonralar tədricən İranın fəlsəfi və kəlami ideologiyasına təsir göstərən ilk irs idi.

Biz bu irsin Səfəvi dövrünə ötürülməsində mühüm rol oynayan bəzi şəxslər haqqında söhbət açmaq istəyirik.

Cəlaləddin ibni Əsəd Dəvani (h.q. 908) Kazrun əyalətinin Dəvan məntəqəsinə mənsub olan bu görkəmli şəxs Səfəvi dövlətinin təşkil olunmasından bir-iki il əvvəl Şirazda dünyasını dəyişir. O, ömrünün böyük bir hissəsini Şafei məzhəbində olmuş və deyilənlərə görə ömrünün son illərində şiə məzhəbində olmuşdur. Hərçənd ki, əvvəllər şiə məzhəbinə qarşı iki kitab da təlif etmişdir. Amma ehtimal vermək olar ki, o, bu əsərləri şiəliyi qəbul etməzdən əvvəl, yəni Şafei məzhəbində olduğu illərdə yazmışdır. Dəvani Nəsirəddin Tusinin «Təcridul-etiqad» adlı kitabına «Qədim» və «Yeni haşiyə» adlı iki haşiyə də yazmışdır. Deyilənlərə görə, bu haşiyənin üçüncüsü də olmuşdur. Yazdığı ikinci haşiyədə o, Nəsirddin Dəştəkinin etirazına cavab verir.

Dəvani Səhrudinin «Hərakilun-nur» adlı kitabına «Şəvakilun-nur» adlı başqa bir haşiyə də yazır. Dəvanidən sonra təlif etdiyi əsər və yetişdirdiyi

şagirdlər «Dəvani məktəbi» adlı yeni cərəyanın meydana gəlməsinə səbəb olur.

Onun müqabilində isə Dəştəki məktəbi fəaliyyət göstərməyə başlayır. Qeyd etmək lazımdır ki, hər iki məktəb sufi və irfan ideologiyasından qaynaqlanmış, Dəvani məktəbi isə Dəştəki məktəbi ilə müqayisədə Səhrudinin əsər və Şeyx İşraqın təlimlərindən daha çox bəhrələnməyə nail olmuşdur. Dəvani həmən dövrdə öyrənilən digər elmlərdə də bir neçə əsər təlif edir. Ölkə və şəhərlərin siyasətinə dair təlif etdiyi əsərləri buna misal çəkmək olar. O, şer və ədəbiyyatda da özünəməxsus bacarığa yiyələnmiş və Əbdürrəhman Cami ilə uzun müddət məktub yazışmaları aparmışdır.

**Sədrəddin Məhəmməd Dəştəki (h.q. 828-903).** O, Şirazın Dəştəki sülaləsinin seyidlərindən və həmən şəhərin məşhur filosof və kəlam alimlərindən biri olmuş və Səfəvilər hakimiyyətə gəlməzdən əvvəl türkmənlər tərəfindən qətlə yetirilmişdir. Onların seyid olduqlarını nəzərə alaraq şiə olmalarına daha çox ehtimal vermək olar. Xüsusilə də ona görə ki, həmən sülaləyə mənsub olan Ətaullah Dəştəki Hərat şəhəri şah İsmayıl tərəfindən fəth olunduqdan sonra minbərə çıxaraq şiə məzhəbinə tabe olmağın zəruriliyinə dair xütbə oxuyur.

O və Dəvani İran fəlsəfəsindən bəhrələnmələrinə baxmayaraq, müəyyən fikir ayrılıqlarına malik idilər. Bu səbəbdən də Dəştəki məktəbi Dəvani məktəbi ilə qarşı-qarşıya durur. Dəştəki Dəvaninin «Qədim» və «Yeni» haşiyələrinə rədd cavabı olaraq «Təcridul-etiqadın» müqabilində iki yeni kitab yazır. Oğlu Qiyasuddin Mənsur Dəştəki (h.q. 866-948) Təhmasibin hakimiyyət dövründə bir müddət sədrlik vəzifəsini icra edir. Lakin Mühəqqiq Kərəki ilə yaxşı münasibətdə olmadığı üçün tutduğu vəzifədən azad olunub Şiraza qayıdır. O, Şirazda Şah Çıraq ziyarətgahının yaxınlığında Mənsuriyyə mədrəsəsini təsis edir və sonalar ora Dəştəki ailəsinin dəfn olunduğu yerə çevrilir. O da atasının yolunu davam etdirərək Dəvaninin əsərlərini tənqid edən bir neçə kitab təlif edir.

Dəştəkilər 9-10-cu əsrlərdə, hətta sonralar da Şiraz seyidlərinin ən tanınmış sülalərindən biri olmuşdur. Onlar tədricən əhli-sünnə məzhəbindən üz çevirərək şiəliyə meyl etmiş və İranın fəlsəfi irsini Səfəvi dövrünə daxil etmişlər. Diqqət yetirsək, görəcəyik ki, İranın 11-ci əsrin məşhur filosoflarından olan Molla Sədra da Şiraz seyidlərindən olmuşdur. O, Şiraz məktəbinin təsiri altında olmuş, Dəvani və sair mütəfəkkirlərin əsərlərindən kifayət qədər bəhrələnə bilmişdi. Əslində Səfəvilərin hakimiyyət dövrünün

ortalarında Şiraz məktəbi İsfahan fəlsəfə məktəbinin təsis olunmasına səbəb olur. Biz bu haqda bir qədər sonra ətraflı söhbət açacağıq.

**Şəmsəddin Məhəmməd Xəfri (h.q. 930 və ya 957).** Şiraz məktəbinə mənsub olan bu şəxs Səfəvilərdən əvvəlki irsi sonrakı nəsillərə çatdırmışdır. «Təcriduletiqa»da şərh, «mütləq varlığın isbatı» və bu kimi əsərlərin müəllifi olmuşdur. Ömrünün son illərini Kaşanda keçirmiş və deyilənlərə görə Təhmasib şahın qazisi Mövla Feyzulla iki il Kaşanda onun yanında şagirdlik etmişdir. Fəlsəfə ilə yanaşı riyaziyyat elmində də xüsusi məharətə malik olmuş və bu sahədə bir neçə kitab təlif etmişdir.

Bu şəxslər ümumilikdə şiə mədəniyyətinə malik olmamış və təəssübsüz sünni məclislərində təlim görürdülər. Bir müddətdən sonra şiə alimləri də bu kimi mövzu ətrafında elmi əsərlər təlif etməyə başlayırlar. Müqəddəs Ərdəbilinin kəlam elmində «Mütləq varlığın isbatı»na dair təlif etdiyi əsəri buna misal çəkmək olar. O, Dəvaninin Yeni şərhinə və «Təcridül-etiqad»ın ilahiyyat bölümünə də haşiyələr yazır. Bütün bunlar isə onun Şiraz irsindən tam agah olduğundan və hərtərəfli bəhrələnə bildiyindən xəbər verir. İraq şiələri ümumilikdə Hillənin kəlam məktəbindən bəhrələnirdilər.

Şiə alimlərinin həmən dövrdə təlif etdikləri əsərlərin ən başlıca xüsusiyyəti onların imamət barədə geniş söhbət açmaları olmuşdur. Səfəvi dövləti özünün ictimai-siyasi fəaliyyəti ilə yanaşı şiə məzhəbinin təbliğ və genişlənməsinə də xüsusi diqqət yetirirdi. Belə ki, şiə alimləri Səfəvi dövləti tərəfindən hərtərəfli himayə olunur və beləliklə imamət barədə bir çox əsərlər təlif olunurdu.

## *FİQHİ TƏFƏKKÜR*

Bir qədər əvvəl şiə fiqhinin hicrətin beşinci əsrindən etibarən ictihad yolunu tutması haqqında söhbət açmışdıq və orada qeyd etmişdik ki, Şeyx Tusi, habelə bir çox şiə fiqh alimləri özlərinin təlif etdikləri əsərlərdə ictihad-istidlal fiqhinin genişlənməsində böyük səylər göstərmişlər. Bunu da qeyd etdik ki, Şeyx Tusidən sonra ən mühüm şiə fiqh məktəbi Mühəqqiq Hillinin (h.q. 676), Əllamə Hillinin (h.q. 726) rəhbərlik etdikləri Hillə məktəbi olmuşdur. Bu fiqhi hərəkat İraqda və az da olsa İranda da davam etdirilir.

Bir qədər əvvəl Səfəvi dövlətində böyük işlər görmüş Mühəqqiq Kərəki (h.q. 940) kimi tanınan Əli ibni Əbdülali haqqında ətraflı söhbət açdıq. O, özünün təlif etdiyi əsərlərində gətirdiyi dəlillərdə şiə fiqhinin əsaslarını və özünəməxsus fiqh məktəbinin bünövrəsini qoyur. Ondan sonra Səfəvi

dövrünün bir çox fiqh alimləri onun fiqh məktəbinin davamçılarından olmuşlar. Hüseyn ibni Əbdüssəməd Amulini (h.q. 948), Əbdül Ali ibni Əli ibni Əbdülalini (h.q. 993) buna misal çəkmək olar. Kərəkinin təlif etdiyi ən mühüm kitablardan biri də Əllamə Hillinin «Qəvaidul-Əhkam» adlı kitabına verdiyi şərh, yəni «Camiul-məqasid» adlı kitabıdır. Bununla yanaşı, o, Mühəqqiq Hilminin «Şərayiul-islam» və Əllamə Hillinin «İrşadul-əzhad» adlı kitablarına da şərhlər verir. Təlif etdiyi kitablardan biri də camaatın fiqhi suallarına verdiyi cavablar məcmuəsi olur. Bu kitab indinin özünədək qalmaqdadır. Ərəb dilində təlif etdiyi «Fiqhül-Cəfəriyyə» adlı kitabı da hicrətin onuncu əsrində dəfələrlə fars dilinə tərcümə olunur və Səfəvi dövründə ən çox istifadə olunan kitablardan birinə çevrilir. Bütün bunlarla yanaşı, şagirdəlri tərəfindən yuxarıda adları çəkilməyən sair kitablara da şərhlər verilir.

Mühəqqiq Hillinin fiqh elmində qoyduğu yeniliklərdən biri də dövlətlə əlaqəsi olan məsələləri açıqlaması olmuşdur. O, özünün cümə namazına, maliyyə və xəraca dair təlif etdiyi kitablarda ilk dəfə olaraq bu məsələlərə toxunmuş və şiə fiqhində dövlət məsələlərini aydınlaşdırmış və ictimai-siyasi məsələlərin həlli yolunu açıqlamışdır. O, «Cümə namazı» adlı kitabında təkidlə qeyd etmişdir ki, qeyb dövründə zamanı fəqihlər imamların canişinləri və şəri məsələlərin qanuni icraçısıdırlar. İrandan başqa İraq, Cəbəl-amil və Bəhreyndə də yüzlərlə fiqh alimi fiqhi məsələlərə dair bir çox qiymətli əsərlər təlif etmiş və özlərindən sonra gələcək nəslə yadigar qoymuşlar. Onlardan biri də Şəhid-Əvvəl (h.q. 786) kimi şöhrət tapmış Şəmsəddin Məhəmməd Məkkinin fiqh məktəbinin davamçısı olan Şəhid-Sani (h.q. 965) yəni Zeynəddin Əli Cəbəl-amili olmuşdur. Şəhid-Sani Osmanlı ərazilərində yaşamış və şiələrə qarşı təzyiq gücləndikdən sonra oranı tərk etmiş, bir müddətdən sonra Məkkədə yaxalanıb yenidən İstanbula gətirilmişdir. O, h.q. 965-ci ilin rəcəb ayında elə oradaca şəhid edilir. Təlif etdiyi əsərlərin bir çoxu uzun müddət İranda tədris olunur. Şəhid-Əvvəlin «Lumətil-Dəməşqiyyə» adlı kitabına yazdığı «Rövzətül-bəhiyyə» (Lumənin şərhi) əsəri isə indinin özünədək istər dini mədrəsələrdə, istərsə də universitetlərdə tədris olunmaqdadır.

Şəhid Sani bir çox şagirdlər yetişdirmişdir və biz onları bu günlər onlara verdiyi icazə və bizə gəlib çatan əsərlərlə tanıya bilərik. İcazə dedikdə şagirdlərinin elmi dərəcələrini yoxladıqdan sonra müəyyən kitabdan təlim etmələrinə dair verdiyi icazələr nəzərdə tutulur. Müxtəlif fiqhi məktəblər arasında əlaqə yaradan bu icazələrin bir çoxu isə indinin özünədək

qalmaqdadır. Bunu da qeyd edək ki, Şəhid Saninin yetişdirdiyi şagirdlərin bəziləri Səfəvi dövlətində də fəaliyyət göstərmiş və mühüm mənsəblərdən birini tutumuşlar.

Hicrətin 10-cu əsrində Nəcəfdə yaşayan iranlı fiqh alimlərindən biri də Müqəddəs Ərdəbili (h.q. 993) kimi şöhrət tapmış Əhməd ibni Məhəmməd olmuşdur. O da şiə fiqh məktəbinin görkəmli nümayəndələrindən biri olmuş və fiqh məktəbinin əsasını qoymuşdur.

Yüksək mənəvi xüsusiyyətləri ilə yanaşı, Müqəddəs Ərdəbili bəzi fiqhi məsələlərə dair yeni fitvalar da verir və özünün yeni məsələlər qarşısında tam azad mövqe tutduğunu əməli şəkildə büruzə verir. Əllamə Hillinin «İrşadul-əzhan» adlı kitabına verdiyi «Məcməul-fəvaid vəl burhan» adlı şərhi təlif etdiyi ən məhşur əsərlərdən biri hesab etmək olar. O da özündən sonra bir çox nümunəvi şagirdlər qoymuş və onlar fiqh sahəsində tanınmış şiə alimlərindən olmuşlar. Onlardan biri də Şəhid Saninin oğlu Həsən ibni Zeynəddindir (h.q. 1011). Onun təlif etdiyi «Məalimul-üsul» adlı kitab indinin özünədək şiə dini mədrəsələrində tədris olunur. Həmən dövrdə təlif olunan əsərlərdən biri də Müqəddəs Ərdəbilinin şagirdi olan Məhəmməd ibni Əli Musəvi Amulinin (h.q. 1009) «Mədarikul-əhkam» adlı kitabıdır.

Kitabların adlarından göründüyü kimi həmən dövrün fiqhi göstərişləri hicrətin 8-ci əsrində Hillə məktəbinə mənsub olan Əllamə Mühəqqiq Hillinin və Şəhid Əvvəlin baxışlarına əsaslanmışdır. Buna da diqqət yetirmək lazımdır ki, hicrətin 10-cu əsrindən indinin özünədək şiə fiqhi ictihad üzərində qurulub və hədisə üz tutmamışdır. Bu mərhələ isə sonrakı dövrə aiddir.

## *SƏFƏVİLƏRİN HAKİMİYYƏT DÖVRÜNÜN İLK İLLƏRİNDƏ VƏQFİN GENİŞ YAYILMASI*

Səfəvi dövründə atılan ən uğurlu addımlardan biri də İslam və İran tarixində dərin köklərə malik olan vəqfin geniş yayılması olmuşdur. Vəqflər adətən ön dörd məsumun ziyarətinə, məscid və dini mədrəsələrə ayrılırdı. Belə ki, heç bir məscid və mədrəsə vəqf ayrılmadan tikilmirdi. Çünki, belə olduqda onun maddi təminatı mümkün olmurdu. Hicrətin 950-ci ilində Təhmasib şahın hakimiyyət dövründə İsfahanda Əmir Qütbüddin Əli Bab Dəşti tərəfindən tikilən Qütbiyyə məscidini buna misal çəkmək olar. İndinin özünədək məscidin giriş qapısının kənarına vurulan vəqfnamədə məsciddən əldə olunan gəlirin əhalinin yoxsul təbəqəsi və bir nəfər Quran qarisinə verilməli olduğu göstərilir. Bu kimi vəqfnamələri indinin özündə də bir çox

məscidlərin giriş qapılarında görmək olar. Haqqında söhbət açılan vəqfnaməyə nəzər salaq:

«Allah, aciz bəndəsi Qütbüddin Baab Dəştiyə tövfiq ferdiyi üçün axirət gününə tədarük görüm deyə, bəxş etdiyi süfrədən ehsan vermək qərarına gəldi. Bunu etdim ki, ehtiyacı olanlar ondan bəhrələnə bilsinlər. Olunmuş vəqfdən dövlət işlərinə sərf olunmalı və bir ildən artıq icarəyə verilməməlidir. Bunları eşidib biləndən sonra dəyişənlərin günahı haqqı eşitdikdən sonra onu dəyişənlərin günahına bənzər. Allah hər şeyi eşidən və biləndir». Vəqfnamənin sonunda isə olunan vəqfdən vergi və maliyyənin alınmalı olmadığına işarə olunur. Lakin təəssüflər olsun ki, məscid və mədrəsələr üçün ayrılmış vəqflər zaman keçdikcə icra olunmayıb aradan gedirdi. Onlardan bəziləri valilərin tamahkarlıqları üzündən, bəziləri də yaranmış siyasi böhranlar nəticəsində qüvvədən düşürdü. Birinci şah Abbasın atası Soltan Məhəmməd Xudabəndənin vəziri Mirzə Salmanın etdiyi vəqfi buna misal çəkmək olar. Qazi Əhməd Quminin yazdığına görə, o, Şiraz və İsfahandakı əmlakını on dörd məsuma vəqf etmiş və oğlanlarını onların üzərində nəzarətçi təyin edərək on iki mötəbər vəqfnamə yazıb onların dəfn olunduqları yerlərə göndərmələrini vəsiyyət edir.

Mirzə Salman öldürüldükdən sonra qızılbaş əmirləri onun var-dövlətini qarət etməyə başlayırlar. Əhməd Qumi bu haqda yazır: «Mirzə Salmanın əmlakını vəqf etdikdən sonra vəqfnaməni tələb edib onu teştdə yuyub məhv etdilər». Əlbəttə, bu kimi işlər çox nadir hallarda baş verirdi və olunan vəqflər Səfəvilərin hakimiyyət dövründə bir çox hallarda sədrlərin nəzarəti ilə sərf olunurdu.

## *SƏFƏVİ QADINLARI VƏ VƏQF*

Şah və əyanlarla yanaşı vəqf kimi məsələlərdə qadınlar da böyük fəaliyyət göstərirdi. Bir vaxtlar Şah İsmayılın qızı Taclı bəyimin Reyin Həsənabad kəndini, daha dəqiq desək, oradan əldə olan məhsulun Mədinəyə və orada yaşayan seyidlərə vəqf etməsini buna misal çəkmək olar.

«Xülasətut-təvarix» adlı kitabda bu kimi hallardan başqa birsinə işarə olunaraq deyilir: Şah İsmayılın alimlik dərəcəsinə çatmış qızı Soltanəli, Şirvan, Ərəsbaran, Təbriz, Qəzvin, Savuc-bulağ, Şəhriyar, Rey, İsfahan, Gərmrud və Əstərabaddakı mülklərini on dörd məsuma vəqf etmiş və onlardan əldə olunan gəlirləri aləmlərin şahına (Şah İsmayılı nəzərdə tutur) və ondan sonra zəmanənin padşahına və himayəçisi olmayan on iki imamçı Fatimi seyidlərinin ixtiyarına qoyur. Həmçinin Təhmasib şahın həyat

yoldaşı və Soltan Məhəmməd şahın anası Soltan xanım Qəzvinin Xoşkrud adlı məntəqəsində böyük bir karvansara tikdirib onu əhalinin ixtiyarına qoyur.

Səfəvi dövlətində bu kimi xeyriyyəçi qadınlara çox rast gəlmək olar və biz gələcək bəhslərimizdə onlar haqqında ətraflı söhbət açacağıq.

### *SEYİDLƏRİN TUTDUQLARI MÖVQE*

Qeyd etmək lazımdır ki, Səfəvilər hakimiyyətdə olduqları bütün dövrlərdə seyid kimi tanınıb, şiəliyə böyük etiqad bəsləyən Peyğəmbərin sülaləsinə ailəsinə mənsub olan şəxslərə xüsusi qayğı göstərmişlər. Bu kimi şəxslər daim siyasi baxımdan yüksək mövqeyə malik olmuş və mühüm dövlət vəzifələrində çalışmışlar. Onlardan bəziləri "nəqib" adlı vəzifəyə təyin olunur və seyidlərlə əlaqəli olan məsələləri həll edir və onlara ayrılan ianələrin bölgüləri ilə məşğul olurdular. Təhmasib şahın verdiyi fərmana əsasən seyidlərin bir çoxu yüksək dövlət vəzifələrinə təyin olunur və sosial təminatı aşağı olan məntəqələrdə yaşayan seyidlərə o dövr üçün böyük məbləğ olan yüz tümən, bəzilərinə hətta beş yüz tümən məbləğində yardım edilirdi. Deyilənlərə görə bütün bunlarla yanaşı, onlara külli miqdarda vəqflər də müəyyən olunurdu.

«Abbasilərin səfərnamə» və «Xuldbərrin» adlı kitablarda Təhmasib şahın hakimiyyət dövründə yaşamış və böyük nüfuza malik olmuş seyidlərə ayrıca fəsl ayrılması bir daha onların Səfəvi dövlətində mühüm ictimai-siyasi mövqeyə malik olmalarından xəbər verir. Qeyd etmək lazımdır ki, həmən dövrdə təkcə İran seyidləri deyil, hətta İraq, Məkkə və Mədinə seyidləri də diqqət mərkəzində idilər.

### *ŞAH İSMAYIL VƏ TƏHMASİBİN DÖVRÜNDƏKİ FARS ƏDƏBİYYATI*

Səfəvi dövləti meydana gəldikdən sonra İranda yaranmış siyasi böhran, habelə istər daxili, istərsə də İraq və Qərb tərəfindən olunan xarici təzyiqlər və ölkə ərazisində gedən dini dəyişikliklərdən sonra İranın ədəbiyyat və mədəniyyətinə də ağır zərbə dəydi. Bütün bunlar sonralar bir çox İran alimlərinin Osmanlı dövlətinə və ya Hindistana mühacirət etmələrinə səbəb olur. Bir qədər sonra biz bu haqda ətraflı söhbət açacağıq.

Lakin burada diqqət yetirilməli məsələlərdən biri də iki-üç əsr ərzində fars dilinin türk-monqol dili ilə sıx yaxınlığı və onunla qatışmasıdır. Belə ki, həmən dövrün ədəbiyyat tarixinə nəzər saldıqda bunun şahidi oluruq ki,

Səfəvilər də digər türk və türkmən sülalələri kimi ana dillərinin türk dili olmasına baxmayaraq, fars dili ilə sıx ünsiyyətdə olmuş və şah İsmayıl özünə «Xətai» təxəllüsü götürərək türk dili ilə yanaşı fars dilində də gözəl şerlər yazmışdır. Lakin yaranmış siyasi böhran aradan qaldırılır və dövlət təsis olunduqdan sonra ədəbiyyata daha çox diqqət yetirilməyə başlanır. Şah İsmayıl özü bir çox fars şairlərini şer və ədəbiyyata sövq edir. Qazi Əlayi Kuhrudiyə (h.q. 931) olunan maddi yardımları və ondan sonra var-dövlətinin övladlarına çatmasını buna misal çəkmək olar. H.q. 917-ci ildə şah Xərgerddən qayıdarkən Abdullah Hatifinin bağının kənarından keçməli olur. Ağacla yuxarı qalxıb bağa düşür. Hatif onun gəlişindən xəbər tutub qarşılamağa gəlir. Rumlu yazır: «Bundan sonra ağamız şerlərindən bir neçəsini oxudu və Şah onu çox tərif edib etdiyi fəthlərin nəzarətçisi təyin etdi. O da əlini gözləri üstə qoyub şahın əmrini qəbul etdi».

Şah İsmayıl İsfahanda olduğu illərdə Əlif Əbdalı yanına çağırıb yazdığı şerləri oxumasını istəyir və elə həmən gün onu İsfahanda mühüm vəzifələrdən birinə təyin edir. Bunlar Şah İsmayılın fars dilli şairlərə yetirdiyi diqqətin bir nümunəsi idi.

Təhmasibin hakimiyyət dövründə isə fars dililə daha çox diqqət yetirilməyə başlanır və İran ədəbiyyatı fars dili qəlibində istər nəsr, istərsə də nəzmdə öz işini davam etdirməyə başlayır. Həmən dövrlərdə yazılan şerlərdə şahın şer və şairlərə yetirdiyi diqqət bir daha özünü büruzə verir. Bağdadda yaşayan Məhəmməd Füzuli özünü Qəzvində yaşayan Heyrəti Tuni ilə müqayisə edərkən belə bir məzmunda şer yazmışdı:

*«Mən ərəb torpağında Heyrəti Əcəm mülkündə*
*Hər ikimiz ürək oxşayan sözlər demək istədik*
*Mən iki nəfərin qəlbinə oxşadımsa*
*O, əcəm şahında qızıl aldı*
*Mən ərəb şahından quru bir baxış».*

Bir qədər əvvəl qeyd etdik ki, Təhmasib şah din və məzhəblə əlaqəli olan şerlərə xüsusi diqqət yetirmişdir. Lakin bu heç də onun digər şairlərə etinasız qalması demək deyildi. Tarixçilər yazırlar ki: «Qəzvin Soltanı (Təhmasib şah nəzərdə tutulur) Hindistandan qayıdarkan Bariyab hüzuruna gəlib vətəni Məşhəbdə baş vurmasını istəyir. Bariyab orada mühüm dövlət işlərini icra etməsinə baxmayaraq şah ona rüsxət verir». Başqa bir yerdə

yazırlar: «Əbdülhəmid Üskuyi onun məclisində öz adına bir qəsidə oxuyur və şahdan böyük ənam alır».

«Günlərin birində şahın məclisində Əmir Xosrov Dəhləvini tərifləyir. Təhmasib şah Zəmir İsfahaniyə işarə edərək deyir: Bizim də inci sözlər deyən Xosrovumuz var. Hərfi İsfahani Həsən Kaşinin yeddi bənd kimi şöhrət tapmış şerinin müqabilində başqa bir yeddi bənd şer yazır və şahdan əlli tümən ənam alır».

Xarici şərqşünaslardan biri yazır: «Səfəvilərin dövründə ədəbiyyat və şair baxımından böyük qıtlıq hiss olunurdu». Lakin bunun heç bir əsası yoxdur. Bu kimi şərqşünaslar belə təsəvvür etmişlər ki, İranda olan hər bir şəxs məsum imamların mədhinə şerlər deməli və kim Hindistana getmişsə, demək ayrı mövzularda şer yazmışdır. Tədqiqatçılardan biri bu haqda yazır: «Bütün bunlar yalan və iftiradan savayı bir şey deyildir. Çünki, o, Hindistana gedən şairlərin imamlar haqqında yazdıqları şer və mədhnamələrdən tamamilə xəbərsizdir».

Təhmasib şah iyirmi yaşında bütün günahlardan tövbə etdiyinə dair yazdığı şerə nəzər salaq:

«Bir neçə zümrüd və yaquta (dünya malını və onun əyləncələrini nəzərdə tutur) aludə olduq.

Hər nə idisə gördüklərimiz günah idi.

Tövbə suyu ilə yuyub asudə olduq».

Osmanlı soltanı Süleymanın göndərdiyi məktublara Təhmasib şahın fars dilində cavab verməsi bir daha Səfəvilərin bu dilə böyük diqqət və əhəmiyyət vermələrindən xəbər verir.

Səfəvi dövründəki şer ədəbiyyatı haqda söhbət açıldıqda kətibələrə xüsusi diqqət yetirmək lazımdır. Belə ki, həmən dövrlərdə inşa olunan binalarda yazılan kətibələr tarixi sənəd olmaqla yanaşı, dini və məzhəbi baxımından da böyük əhəmiyyət kəsb edir. Əbcəd hərfləri ilə inşa olunduğu tarix qeyd olunan bu binalarda bir çox hallarda şaha xas olan sifət və xüsusiyyətlərə də işarə olunurdu. Bu kimi kətibələr o qədər çox və o qədər müxtəlifdir ki, bu haqda ayrıca fəsl ayırmaq lazımdır.

Misal olaraq İsfahaninin «Zülfüqar» adlı məscidinin giriş qapısındakı kətibəyə işarə edirik.

«Milliyyətcə ərəb hər iki aləmin abır və həyasıdır.

Qapısının torpağı olmayan kəsin kül olsun başına.

Məsih kimi danışdığı eşitdim. Dilindən dür tökülür və ruhu oxşayan sözlər deyilirdi.

O, özü demişdir bunu: Mən elmin şəhəri Əli isə onun qapısıdır.
Əcəb gözəl sözlərdir, deyilən bu incilər».

Həmən dövrdə ədəbiyyatın başqa bir qolu ilə də qarşılaşırıq. Bu da Tarix kitablarının şer üslubunda yazılmalarıdır. Bu sahədə böyük işlər görmüş Əli nəqi Kumreinin adını xüsusilə qeyd etmək lazımdır.

Hələ iki-üç əsr bundan əvvəl istifadə olunan və Səfəvi dövründə daha çox yazılan bu əsərlərdə müəllif baş vermiş tarixi hadisələri açıqlamaqla yanaşı özünün şairlik məharətini də büruzə verirdi.

Bu haqda söhbət açmazdan əvvəl diqqətinizi Təhmasib şahın şəxsi xatirələrini yazdığı kitaba cəlb etmək istəyirik. Şahın hakimiyyət illərini əhatə edən bu kitab ədəbi baxımdan bir o qədər dəyərli olmasa da, onun fars dilinə yetirdiyi diqqət hələ o vaxtadək görünməyən bir işin, yəni şəxsi xatirənin yazılması baxımından böyük əhəmiyyət kəsb edir. Təhmasib şahın hakimiyyət dövründə yazılmış qiymətli əsərlərdən biri də Həsən Rumlunun «Əhsənut-təvarix» adlı əsəridir. Özündə tarixi hadisələri əks etdirən bu kitab yüksək ədəbi səpkidə yazılmışdır. Biz kitabın müxtəlif yerlərində onun ifadələrindən istifadə etmişik. Həmən dövrdə Şah İsmayıl və oğlu Təhmasibin həyatını əhatə edən digər tarixi dastanlar da təlif olunur. Tarixi əhvalatlarla yanaşı, müxtəlif dastan və əhvalatlar nəql olunan bu əsərlər adətən tarixə meyl göstərən şəxslər tərəfindən yazılırdı.

Həmən dövrə aid olan başqa bir fars dilli yazıçı «Ümumi tarix» adlı kitabının müəllifi Qazi Əhməd Qəffari idi. Onun təlif etdiyi olduqca qiymətli olan kitabda h.q. 972-ci ilədək baş verən hadisələr öz əksini tapırdı. Bu qəbildən olan başqa bir tarix kitabı qazi Əhməd ibni Qumi tərəfindən təlif olunur. «Xülasətut-təvarix» və sair kitablardan istifadə olunmuş və orada bir çox dəyərli tarixi məlumatlar verilmişdir. Digər kitablar kimi Əhməd Quminin bu əsəri də ədəbi baxımdan böyük əhəmiyyət kəsb edir.

Onuncu əsrdə yaşamış tarixçilərdən biri də Fəzlullah ibni Ruzbəhan Xunci (h.q. 927) idi. O, bir müddət İsfahanda, sonralar Osmanlı dövlətinin ərazisində yaşamış, ömrünün sonunu isə özbəklərin arasında başa vurmuşdur. Şiə məzhəbinə qarşı qərəzli mövqe tutmuş bu şəxs ən məhşur əsərlərini fars dilində yazmışdır. O, Ağqoyunlu sülaləsinin tarixinə dair yazdığı əsərini Səfəvilərin hakimiyyətinin ilk illərində təlif edir. Fəzlullah fars dilində qələmə aldığı ikinci əsərini İslamın siyasi fiqhinə dair yazır və ona «Sulukul-muluk» adını verir. O, tam ciddiyyətlə Osmanlıların və özbəkləri Səfəvi dövlətinə qarşı təhrik etmiş, şiələri kafirlikdə ittiham edərək onların İrana hücum etmələrinə can atmışdı.

Teymurilər dövrünün elmi irsini Səfəvilər dövrünə ötürən yazıçılar haqqında söz düşdükdə, olduqca gözəl kitabın müəllifi Zeynəddin Mahmud Vaqifinin adını xüsusi qeyd etmək lazımdır. «Bədaiul vəqaə» adlanan bu ədəbi-tarixi kitab olduqca gözəl üslubda təlif olunmuşdur.

Qəribə hallardan biri də fars dilinin osmanlı dövlətində geniş yayılması və çoxsaylı farsdilli məmurların dövlət işlərində çalışmaları olmuşdur. Əgər Osmanlı Soltan Səlimin min beş yüz beytlik şerini fars dilində yazdığını bilsəniz, yəqin ki, təəccüblənəcəksiniz. Hətta milliyyətcə iranlı olan Osmanlı yazıçıların bir çoxu Səfəvilərin hakimiyyətə gəlişindən sonra oranı özlərinə daim yaşayış yeri seçir.

Topqapı sarayının giriş qapısının üzərinə yazılmış bu beytlər indinin özünədək qalmaqdadır.

«La ilahə illəllah xatirinə bu dövlətin üzünə açıq olsun bu qapılar».

Farsdilli İran, Hind və Osmanlı yazıçılarının sayı o qədər çox olmuşdur ki, onlar haqqında ayrıca kitab təlif etmək olar.

Qeyd etmək lazımdır ki, həmən dövrdə yazılmış kitabların əsas mövzusu ədəbiyyat, sonra isə din olmuşdur. Lakin bu iki sahə ilə yanaşı, şahnamənin, habelə təlif olunmuş bir çox kitabların üzünün çıxarılmasına və məktubların köçürülməsinə böyük diqqət yetirilir və bu yeni sahəyə yüzlərlə alim, kitab və yazıçı cəlb olunur.

Təhmasib şahın Osmanlı Soltan Süleymana və ondan sonra Soltan Səlimə göndərdiyi məktubların mətninə nəzər saldıqda şer və ədəbiyyata böyük diqqət yetirdiyini və orada ədəbi ibarətlərdən istifadə olunduğunun şahidi oluruq.

Qazi Əhməd Qumi Təhmasib şahın Soltan Süleymana oğlu Səlimin vəfatı ilə əlaqədar göndərdiyi başsağlığı məktubu haqqında yazır: «Şah məktubu yazmağa səkkiz ay sərf etdi və məktubu öz zövqü ilə sona çatdırdı. Sarayda işləyən bütün tacik, ədib və şairlər məktubu dinlədi və orada istifadə olunan gözəl ibarətləri sonralar yazdıqları şerlərdə istifadə etməyə başladılar».

Onlarla, bəlkə də yüzlərlə beyt şeri əhatə edən və Quran ayələrindən istifadə olunan bu məktub «Xuləsətuttəvarix»də olduğu kimi dərc olunmuşdur.

## *ƏRƏB KİTABLARININ FARS DİLİNƏ TƏRCÜMƏSİNİN BAŞLANMASI*

Qeyd olunduğu kimi, həmən dövrdə təlif olunmuş əsərlərin böyük bir hissəsini dini ədəbiyyat təşkil etmişdir. Onların təlif olunmalarından ən başlıca məqsəd şiə məzhəbini yaymaq və möhkəmləndirmək olmuşdur. Təhmasib şahın hakimiyyət dövründə həmən əsərlərin bir çoxu onun göstərişi ilə fars dilinə tərcümə olunur. Atılan belə bir addımdan da ən başlıca məqsəd şiəliyi fars dilli əhali arasında yaymaq olmuşdur.

Bunu da qeyd etmək lazımdır ki, Təhmasib şahın hakimiyyət dövründən etibarən tərcümə hərəkatı adlandıra bildiyimiz yeni cərəyan fəaliyyət göstərməyə başlayır və həmən dövrdə fars dilinə külli miqdarda kitab tərcümə edən bir çox adlı-sanlı tərcüməçilər meydana gəlir. Şiə məzhəbi ilə əlaqəli olan bir çox kitabları ərəb dilindən fars dilinə tərcümə edən Mühəqqiq Kərəkinin qabaqcıl şagirdlərindən olan Əbül Həsən Əli ibni Həsən Zəvareinin adını xüsusilə qeyd etmək lazımdır. Məsum imamların şərhi-halı haqqında yazılmış «Kəşful-cummə» adlı kitabın «Tərcümətil-mənaqib» adı altında etdiyi tərcümə ona daha çox şöhrət gətirir. Tərcümə etdiyi mühüm kitablardan biri də «Asarul-əxyar» adlı imam Həsən Əsgərinin (ə) təfsirinin və İbn Fəhd Hillinin «Uddətud-dai» adlı kitabının «Miftahun-nicah» adı altında etdiyi tərcümə olur.

Zəvarei müxtəlif şəxslərin imamlar barədə etdikləri elmi mübahisələri də Təhmasib şahın göstərişi ilə fars dilinə tərcümə edir. O, «Təraf» adlı kitabın tərcüməsinin müqəddiməsində yazırdı: «Kitab fəsahətli ərəb dilində olduğundan fars dillilər üçün onu başa düşmək bir o qədər də asan deyildi. Fatir Əli ibni Həsən Zəvarei kitabı hamı oxuyub başa düşsün deyə, tərcümə etmək qərarına gəlir».

Zəvareinin özü h.q. 946-cı ildə «Tərcumətil-Xəvas» adı altında Qurana təfsir yazır. Lakin kitab «Zəvareinin təfsiri» kimi daha çox şöhrət tapır. Bir qədər sonra bu barədə söhbətimizi davam etdirəcəyik.

Verilən fasilədən sonra tərcümə ilə yanaşı yeni-yeni kitabların təlifinə başlanır və bu sahədə də böyük işlər görünür. Ərəb alimlərinin təlif etdikləri kitablarla yanaşı, tədriclə İran alimləri də fars dilində dini-ədəbi kitablar təlif etməyə başlayırlar. Həmən dövrün məşhur alimlərindən olan Hüseyn İlahi Ərdəbili (h.q. 937 və ya 940-cı il) fəaliyyət göstərdiyi illərdə fəlsəfə,

kəlam kimi sahələrdə bir çox kitab təlif edir və bütün bunlarla yanaşı Nəhcül-bəlağəyə şərh və Qurana təfsir yazır.

## *TƏHMASİB ŞAHIN DÖVRÜNDƏ YAZILMIŞ DİNİ ŞERLƏR*

Təhmasib şahın hakimiyyət dövründən etibarən sufiliyin nüfuzu kəskin şəkildə azalmağa, lakin onun müqabilində şiəliyə olan meyl və həmən məzmunda yazılan şerlərin sayı artmağa başlayır. Bütün bunlara səbəb olan ən başlıca amil isə Səfəvi hökmdarının onun haqqında yazılan mədhnamələri sevməməsi və şairləri imamların şəninə tərifəlayiq şerlər yazmağa sövq etməsi olmuşdur. Həmən dövrdə şöhrət tapmış şairlərdən biri də Qumun Nəraq kəndində dünyaya gəlmiş, lakin Kaşanda yaşayıb-yaratmış Möhtəşəm Kaşani idi (h.q. 996). O, ilk mərhələdə elm və təhsilə yiyələnmək fikrinə düşür, lakin sonralar şer sənəti ilə külli miqdarda var-dövlət əldə edir. Amma bütün bunlara baxmayaraq, ömrünün sonunda böyük çətinlik çəkir və maddi çatışmazlıqlarla qarşılaşır. Belə ki, o, öz ehtiyaclarını verilən zəkatlarla ödəməli olur. İsgəndər bəyin dediklərinə görə, Möhtəşəm Təhmasib şaha və qızı Pərixanıma mədhnamə yazır. Lakin Təhmasib şah cavabında ona yazır:

«İstəməzdim şairlər yazdıqları şerlərdə məni tərif və mədh etsinlər. İmamların şənində şerlər yazın və ilk növbədə onlardan və sonra bizdən bəxşiş gözləyin».

Bundan sonra Möhtəşəm, İmam Hüseyn (ə)-ın şəninə on iki bəndlik mədhnamə yazır. «Yenə nədir aləmdəki bu fəğan, bu oyanış?» misrası ilə başlanan bu şer o qədər gözəl yazılmışdır ki, indinin özünədək İmam Hüseyn (ə)-ın əzadarlıqlarında oxunur, məscid divarlarına və ya divarlara vurulan parçalara həkk olunur. Məhz həmən bu misralar Möhtəşəm Kaşaniyə böyük şöhrət gətirir. Belə ki, indinin özünədək Kaşandakı məqbərəsi istər yerli əhali, istərsə də gəlmələr tərəfindən ziyarət olunur və ruhuna dualar oxunur. Məsum imamların mədhnamələri ilə yanaşı Möhtəşəm Kaşani Təhmasib şahın və qızı Pərixanımın şəninə də şerlər yazır.

Kaşanda yaşayıb yaratmış şairlərdən biri də Heyrəti Tini idi. O, h.q. 961-ci ilin səfər ayının 24-ü həftənin üçüncü günü dünyasını dəyişir. İsgəndər bəyin yazdığına görə Heyrəti Təhmasib şahın yaxın həmsöhbətlərindən biri olmuşdur. Təhmasib şah şərabxorluğu qadağan etdiyi zaman yazdığı şerlərin birində bunu ona irad tutur. Şah Heyrətinin yazdığı həmən şeri oxuduqda

bərk qəzəblənir. Heyrəti isə qorxusundan Kaşanı tərk edib Mazandarana qaçır. Lakin sonralar yenidən şah onu əfv edir və şair Kaşana qayıdır.

Şairə xas olan xüsusiyyətlərdən biri də məzhəbinə qarşı möhkəm əqidəyə malik olması idi. Onunla yaxından dostluq edən Möhtəşəm Kaşani vəfat edərkən bu şeri yazır: «Qəlbində Əli sevgisindən savayı bir şey olmayan bir şəxs öldü.»

Təhmasib şahla Qəzvinə gəldiyi zaman əhli-təsənnünə qarşı pis münasibətdə olduğundan yazdığı şerlərin birində ondan sünni məzhəbinə xas olan bütün adət-ənənələrin kökünü kəsməsini istəyir. Heyrəti on min səkkiz yüz beytlik şeyr yazmış və orada Həsən Şii Səbzivarinin Peyğəmbər (s) və məsum imamların tarixinə dair yazdığı «Bəhcətul-məbahic» adlı kitabı nəzmə almışdır. O, «Kətibül-möcuzat» adlandırdığı bu kitabın müqəddiməsini Allaha həmd və səna etmək, Məhəmməd və Onun ailəsinə salam və salavat göndərməklə başlayır. O, kitabı hansı səbəblər üzündən yazdığını şərh edərkən qeyd edir ki, şer və ədəbiyyatda yüksək bacarığı olmuş və bu səbəbdən də belə bir uzun qəsidə yazmaq fikrinə düşmüşdür. Bu ərəfələrdə Şiraz katiblərindən biri onun yanına gəlib «Bəhcətul-Məbahic»i ona təqdim edir. Kitabı mütaliə etdikdən sonra onu nəzmə almaq qərarına gəlir və bu barədə Təhmasib Şahla məsləhətləşir. Şah da onun bu fikrini bəyənib tezliklə bu işi görməyə sövq edir.

Qeyd etmək lazımdır ki, bütün bunlara baxmayaraq, o dövrdə dərin köklərə malik olan qəzəl janrı da öz mövqeyini qoruyub saxlamaqda idi. Həmən dövrün tanınmış qəzəl ustadlarından biri də Şah İsmayıl və Təhmasib şahın dövrlərində yaşamış və Səfəvi soltanlarının şəninə şerlər yazmış Vəhşi Bafqi idi (h.q. 991).

Şair yazdığı ən məhşur şerlərindən birində deyir:

(İlahi, sinni dəh atəşi əfruz
Dəran sinne deli və an del həm suz
Hər an del ra ke suzi nist del nist
Del əfsorde ğeyr əzab və gel nist…)

Şerin məzmunu:

İlahi yandır yax qəlbimi
Sinəmdəki bu qəlbi bütünlüklə yandır-yax,
Yanıb alovlanmayan qəlb sudan savayı bir şey deyildir.

H.q. X əsrdə, xüsusilə də onuncu əsrin birinci yarısında fars dilli əhali sünni şairləri osmanlı dövlətinin ərazisində, Orta Asiyada, hətta Məkkə və Mədinə şəhərlərində belə yaşamışlar. Həmən dövrün ən məhşur şairlərindən

biri də «Futuhul-Hərəməyn» adlı kitabın müəllifi Məhya Lari (h.q. 933) olmuşdur. Təlif olunan kitabda təsvirlərlə yanaşı Məkkə və Mədinə şəhərləri olduqca gözəl ibarətlərlə vəsf olunmuş, və həccin irfanı və qayda-qanunları ürəyə yatan sözlərlə nəzmə alınmışdır.

İndiki şer və ədəbiyyatdan söz açıldı şer sənətinin inkişafında böyük rol oynayan dastan nəql edən şəxslər və məddahlar haqda da söhbət açmağı daha məqsədə uyğun görürük. Şiə ədəbiyyatında dərin köklərə malik olan məddahlar həmən dövrdə də böyük nüfuza malik olmuşlar. Belə ki, Təhmasib şah hər il onları qarşılayır və yaşatdıqları sənətə böyük ehtiramla yanaşırdı. İşi yalnız camaatın, hətta saray adamlarının başını qarışdırmaqdan ibarət olan dastan nəql edən şairlər bəzi fiqh alimlərini onlarla müxalif olmalarına baxmayaraq, öz nüfuzlarını qoruyub saxlaya bilirlər. İsgəndər bəy şahnaməyə yetirilən diqqət və məclislərdə onun oxunması haqqında yazır: «Tayı-bərabəri olmayan şahnaməçilərin sədası çox-çox uzaqlara çatırdı».

### *TƏHMASİB ŞAHIN DÖVRÜNDƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ*

Şah İsmayıl Səfəvi dövlətinin bünövrəsini qoyur və hakimiyyətdə olduğu illərdə ardı-arası kəsilməyən müharibələrdə iştirak etdiyi üçün ölkə ərazisində mədəni və abadlaşdırma işləri aparmağa fürsət olmur. Lakin bütün bunlara baxmayaraq, bir qədər əvvəl qeyd olunduğu kimi, Şah İsmayılın hakimiyyət dövründə İsfahan, Qum, Ərdəbil şəhərlərində bir neçə tarixi abidələr ucaldılır. Şah İsmayıl Əmir Qiyasəddin Mənsur Dəştəkinin vasitəsilə Marağa rəsədxanasında da bərpa işləri aparır. Lakin gözlənilməz ölüm ona bu işi sona çatdırmağa imkan vermir. Şah İsmayılın hakimiyyət dövründə atılan bu kimi addımlar bir daha onun mədəniyyət və abadlaşdırma işlərinə xüsusi diqqət yetirməsindən xəbər verir.

Təhmasib şahın hakimiyyət dövrünün ilk onilliyində yaranmış siyasi böhran ona da mədəniyyət və abadlaşdırma sahələrində geniş işlər görməyə mane olur. Lakin özbəklərin hücumu azaldıqdan və osmanlı dövləti ilə bağlanılan sülh sazişindən sonra bu kimi işlərə əlverişli imkan yaranır. Belə ki, Təhmasib şahın hakimiyyət dövrünün ən mühüm tikinti və abadlaşdırma işləri Qəzvin şəhərində aparılır. H.q. 962-ci ildən paytaxt adını almış bu şəhər hələ çox-çox əvvəllər qışlaq kimi istifadə olunur və bu səbəbdən də burada tikinti və abadlaşdırma işləri aparılırdı.

Bunu da qeyd etmək yerinə düşərdi ki, Səlcuqların hakimiyyət dövründən etibarən dövlət və istirahət mərkəzləri məqsədilə tikilən binaların bir çoxu

böyük bağların içində tikilirdi. Bu adət-ənənə Səfəvilərin də hakimiyyət dövründə davam etdirilir. Qazi Əhməd Qumi öz kitabında bu bağlar haqqında yazır: «Əgər bu günlər bu bağları əvvəlki bağlarla müqayisə etmək istəsək, deməliyik ki, h.q. 951-ci ilin zilhiccə ayında Şah İrəm və Firdovs bağlarından ürək oxşayan başqa bir bağ saldı və ən məşhur mühəndis və sənətkarları bağın salınmasına cəlb etdi. Kvadrat şəklində salınan bu bağa Səadətabad adı verildi. Bağın ortasında hündür bir saray inşa olundu və çıxış qapısına hündür darvaza qoyuldu. Sarayın bağa baxan eyvanına gözəl naxışlar vuruldu. Sarayın axırında göyərçin heykəli ucaldıldı. Bağın çəməni üçkünc, dördkünc və altıkünc hissələrə bölündü və orada gözəl güllər və ağaclar əkildi. Bağın ortasında axan çay ona xüsusi gözəllik bəxş edirdi».

Təhmasib şahın hakimiyyət dövründə yaşayıb yaradan görkəmli şair və tarixçilərdən biri də Əbdi Bəy Şirazi (h.q. 988) idi. O, şahın Qəzvində Cəfərabad adlı məhəlləsində tikdirdiyi binalara dair 1170 beytlik böyük bir məsnəvi yazır. «Dəuhətul-əzhar» adlı bu kitabda həmən dövrdə inşa olunan binalarda istifadə olunan memarlıq səpkiləri dolğun əksini tapır. Şirazi burada bağın yol və eyvanları, şərq və qərb imarətləri, şirvan evi və üst eyvan altındakı eyvan haqqında ayrıca söhbət açır. Eyni zamanda Fərhadla Şirinin Bisutundakı, Xosrovla Şirinin çeşmə başındakı, habelə Bəzm məclisinin, ov və çovqan oyununun, bağ və cavanların orada seyrə çıxmalarının, Yusif və Züleyxa məclisinin və Misir qadınlarının məclisdə əllərini kəsmələrinin təsvirlərini gözəl ibarətlərlə nəzmə almış və bununla öz şairlik bacarığını büruzə verməyə çalışmışdır. Bütün bunların ardınca bağdakı imarət haqqında söhbət açır və bir daha onun gözəlliyini vəsf etməyə başlayır.

Yazılan şerlərdən belə qənaətə gəlmək olur ki, vəsf olunan binalar tək şaha aid olmamış, dövlət işlərində çalışan əmir və zadəganların da şəxsi mülkləri olmuşdur.

Təhmasib şahın hakimiyyət dövründə zadəganlar tərəfindən ətraf məntəqələrdə inşa olunmuş və üzərində şahın adı həkk olunmuş digər binalarla da qarşılaşırıq.

İsfahanın Ətiq məscidində aparılan əsaslı təmir işlərinin və bir üzərində Təhmasib şahın adı həkk olunmuş çoxsaylı katibələri, habelə həmən şəhərdə yerləşən Qütbiyyə, Zülfüqar və Çubarə qapısı məscidlərini buna misal çəkmək olar. Təhmasib şah tək İsfahana deyil, Qum şəhərinə də xüsusi diqqət yetirirdi. Bu günün özünədək həzrət Məsumə xanımın ziyarətgahında

qalan kətibələr bir daha Təhmasib şahın buraya yetirdiyi diqqətdən xəbər verir. Bura müqəddəs ziyarətgah olduğundan Səfəvilərin hakimiyyət dövrünün ilk illərindən daim diqqət mərkəzində olmuş və bir çox şahzadə və soltanların dəfn olunduqları yerə çevrilmişdir. Burada dəfn olunan şəxslərdən biri də Təhmasib şahın bacısı Şahduxt Soltanım idi. Böyük şan-şöhrəti olan bu qadın Qumda dəfn olunduqdan sonra sümükləri oradan çıxarılıb Kərbəlaya gətirilir və yenidən orada dəfn olunur. Qeyd etmək lazımdır ki, ki, şiələr arasında cənazənin bir yerdən başqa yerə köçürülməsi Səfəvilərdən qabaq da dəbdə olmuş, Səfəvilərin hakimiyyət dövründə daha geniş vüsət almışdır.

Məhz o dövrlərdə Təhmasib şahın başqa bir bacısı Taclı bəyim bina tikdirməyə başlayır. Qumda Həzrəti Məsumənini ziyarətgahına olunan əlavələri və Şah İsmayılın məzarının kənarında Təhmasib şah üçün tikdirdiyi, lakin sona çatdıra bilmədiyi günbəzi buna misal çəkmək olar.

Həmən dövrə xas olan incəsənət nümunələrindən biri də xəttatlıq və nəqqaşlıq olmuşdur. Elə bir sahə ki, bir vaxtlar Şah İsmayılın diqqət mərkəzində olmuş və özü şəxsən bu sahədə fəaliyyət göstərmişdir. Xətt və xəttatlıq incəsənətin bir sahəsi olmaqla yanaşı, kitabların üzlərinin çıxarılması baxımından da böyük əhəmiyyət kəsb etmişdir. Həmən dövrə aid olan nəfis xətt nümunələrindən biri də hal-hazırda Sankt-Peterburq şəhərinin «Metropoliten» muzeyində saxlanılan Təhmasib şahın Şahnaməsidir.

Yazılan əsər gözəl xətt nümunələri ilə yanaşı, göz oxşayan naxış və təsvirlərlə də bəzədilirdi. Həmən dövrdə yazılan və Təhmasib şah üçün daha çox əhəmiyyət kəsb edən əsərlərdən biri də Şah Mahmud Nişapurinin yazdığı Nizaminin xəmsəsi olur. Özündə ön dörd gözəl təsvir əks etdirən bu kitab onuncu əsrin ən gözəl sənət əsəri hesab olunur.

Həmən dövrdə yazılan kitblarla yanaşı, nəqqaşlıq sənətindən binaların tikilişində də çox geniş istifadə olunurdu. Ayrı-ayrı sənətkarlardan dərs almış xəttat və nəqqaşlar haqda bir çox kitablarda kifayət qədər məlumatlar verilmişdir. İsgəndər bəy məşhur xəttat və nəqqaş Mövla Əbdülcəbbar Əstərabadi haqda yazır:

«Əstərabadinin şəxsi emalatxanası var idi. O, burada şagirdlərinə dərs verir və onları nəqqaşlıq sənətinin incəlikləri ilə tanış edirdi. Gününün bir çoxunu əmir və zadəganların məclislərində keçirər və özü sənətlə az məşğul olardı. Oğlu Xacə Nəsir də şagirdləri ilə birlikdə çalışırdı…»

Adətən nəqqaşların ayrı sənəti də olurdu Ağamız Əli Əsğər Kaşi də dülgərlik sənətinə yiyələnirdi. Onuncu əsrin elm və sənətini əvvəlki dövrlərlə müqayisə etdikdə bir çox fərqli xüsusiyyətlərlə qarşılaşırıq. İsgəndər bəy tibb və bu sahədə fəaliyyət göstərən həkimlər haqqında söz açarkən deyir: «Həmən dövrün tanınmış həkimlərindən biri də sözü hamı üçün qanun olan Qiyasəddin Əli Kaşi idi. Burada Kəmaləddin Hüseyn Şirazinin də adını çəkmək olar. Lakin o şərab içməyə icazə verdiyi üçün Təhmasib şah onun bacarığına etina etmirdi. Şahın şəxsi həkimlərindən biri də Əbu Nəsr Gilani idi. Lakin o da şaha xəyanətdə ittiham olunaraq Humayun dövlətxanasında xüsusi məmurlar tərəfindən edam olunur».

Şah İsmayılın hakimiyyət dövründən etibarən Teymurilərin zamanında adət halını almış işylərdən biri də səltənət kitabxanasının fəaliyyət göstərməsinin zəruriliyi idi. Kitabxana «Cəlilul-qədr kitabxanası» adlı mənsəbi daşıyan şəxs tərəfindən idarə olunurdu. Oranın idarə olunması üçün «Ali divandan» məvacib alınırdı. Bir vaxtlar Şeyx Səfiyəddinin də belə bir kitabxanası olmuş və Səfəvi şahları özlərinin ən qiymətli əsərlərini oraya vəqf etmişlər. Nüsxələri baha olduğundan isə adi camaat istədikləri kimi yazılmış kitablardan istifadə edə bilmirdilər. Şeyx Səfi türbəsi kitabxana ilə yanaşı mədrəsə kimi də fəaliyyət göstərir və dövlət tərəfindən təyin olunan müdərris adlı məmur tərəfindən idarə olunurdu. Təhmasib şahın dövründə orada müdərris kimi fəaliyyət göstərən Əzizullah Hüseynini buna misal çəkmək olar. O, müdərris olduğu illərdə türbədə tədris etməklə yanaşı, birinci Şah İsmayılın qızı Şahzadə Soltanbanu haqda ayrıca kitab təlif edir. Əvvəlki dövrlərdə olduğu kimi Səfəvilərin hakimiyyət dövründə də alimlərin maddi ehtiyacları bir neçə yolla təmin olunurdu: 1. Müəyyən mənsəbə malik olan şəxslərin «Ali divandan» aldığı aylıq məvacib;

2.Sonralar dövlət tərəfindən nəzarət olunan vəqflər. Bütün bunlarla yanaşı, şah hər hansı bir kəndin gəlirini alimlərin ixtiyarına qoyur və onları maliyyə verməkdən azad edərdi. Belə bir güzəştdən isə yalnız ordu sərkərdələri, vəzirlər, alimlər və şaha yaxın olan yüksək rütbəli seyidlər bəhrələnə bilərdi.

## *ŞAH İSMAYIL VƏ TƏHMASİBİN DÖVRÜNDƏ QƏRBLƏ YARADILAN ƏLAQƏLƏR*

Dövlətlər arasında yaradılan siyasi əlaqələr beynəlxalq əlaqələr tarixində ortaya çıxan yeni məsələ deyildir. Lakin əhəmiyyət kəsb edən şey varsa, o da onun yeni əsrdə genişləndirilməsi və siyasi münaqişələrin həllində, ticari əlaqələrin yaradılmasında və ölkənin daxili məsələlərində ifa etdiyi roldur.

Bu mənada ki, bu əlaqələrin başlanılmasını İranda Səfəvi sülaləsinin fəaliyyətə başlaması ilə əlaqələndirmiş olaq. O ki, qaldı İranın qərblə yaratdığı əlaqələrə, bunu iki istiqamətdə araşdırmlıyıq. Onlardan biri İranın Osmanlı dövləti ilə yaratdığı əlaqələr, digəri isə avropalıların ticarət məqsədilə Fars körfəzində, ölkənin mərkəz və şimalında göstərdikləri fəaliyyətlərdən ibarətdir.

Bunlardan birincisi haqda deməliyik ki, İranla qərb arasında yaradılan əlaqələr türkmənlərin hakimiyyət dövründən başlanmış və bu əlaqələrə səbəb olan Osmanlı dövlətinin Avropa dövlətləri ilə apardığı mübarizə və onlara göstərdiyi təyziqlər olmuşdur. Qərb ölkələri Osmanlı dövlətini mühasirəyə almaq məqsədilə onunla həmrəy olan bütün qərb və şərq qanunları arasında parçalanma yaratmağa çalışırdı. Səfəvilərin hakimiyyət dövründə qərb tərəfindən atılan bu addım daha geniş vüsət almağa başlayır. Çünki, Osmanlılar Bəyazidin hakimiyyət dövründən etibarən Balkan yarımadasına daha tez-tez hücum edir və ixtiyarında olan əraziləri genişləndirməyə çalışırdı. Bu səbəbdən də İranla sıx əlaqələr yaratmaq qərb dövlətləri üçün böyük əhəmiyyət kəsb edirdi.

Bu məqsədlə Osmanlı dövlətinin amansız hücumlarına məruz qalan Macarıstan kralı Şah İsmayıla göndərdiyi məktubda ona qarşılıqlı əlaqələr yaratmağı təklif edir. Macarıstan səfiri İrandan qayıtdığı zaman Şah İsmayıl onunla İspaniya padşahı beşinci Karla məktub göndərir. Məktubda Şah İsmayıl ondan Osmanlı dövlətinə qarşı birgə hücuma keçməyi istəyir. Bu kimi tədbirlərin həyata keçməsi isə demək olar ki, mümkün deyildi. Çünki, Şah İsmayılın beşinci Karla göndərdiyi məktub düz dörd ildən sonra ona çatır. Demək, birgə hücuma dair göndərdiyi məktubun tarixindən dörd il keçirdi. Cavab məktubu isə Səfəvi dövlətinə Şah İsmayılın vəfatından bir il sonra çatır. Lakin məktub gec çatsa da, orada Osmanlı dövlətinə qarşı birgə mübarizəyə təkid olunur. Hətta h.q. 936-cı ildə, yəni Şah İsmayılın ölümündən beş il sonra İrana göndərilən məktubda beşinci Karl onun ölümündən xəbərsiz olduğu üçün orada Şah İsmayıla xitab edir.

## *PORTUQALİYALILAR FARS KÖRFƏZİNDƏ*

İranla qərb dövlətləri arasında yaradılan əlaqələr macəranın yalnız bir tərəfi idi. İkinci tərəfi isə portuqaliyalıların əvvəl Hindistana, sonra isə Fars körfəzinə yol tapmaları olur. Bundan ən başlıca məqsəd isə hindistanın münbit torpaqlarından bəhrələnmək və osmanlıların nəzarəti altında olan ərazilərdə, xüsusilə də Şam və İraqda ticarəti gücləndirmək olmuşdur.

Portuqaliyalıların hindistan və Fars körfəzindəki fəal iştirakı onları İranla əlaqəli olan məsələlərlə yaxından tanış olmağa və İranın çətinliklərini aradan qaldırmaq üçün bu ölkə ilə sıx əlaqələr yaratmağa vadar edirdi. Qeyd etmək lazımdır ki, elə həmən dövrdən etibarən Osmanlı dövləti ilə mübarizə aparmaq məqsədilə İranla Avropa dövlətləri arasında danışıqlar aparılır, hətta qarşılıqlı sazişlər belə imzalanırdı.

H.q. 903-cü ildə portuqaliyalılar ilk dəfə olaraq Afrikanın qərb sahillərindən ötüb keçərək ticarət məqsədilə Hindistana ayaq basırlar. Yeddi il sonra Hindistan ərazisində məskunlaşan portuqaliyalılar tamamilə oranı ələ keçirirlər. Sonra Fars körfəzinə daxil olub mühüm ticarət mərkəzlərindən biri olan Hörmüz boğazında məskunlaşırlar. Bütün bu hadisələr hicrətin 913-cü ilində baş verir. Onlar döyüş gəmiləri ilə Fars körfəzinə yaxınlaşır və oranı zor gücünə özlərinə tabe etdikdən sonra gömrük haqqı ödəmədən öz mallarını ölkə ərazisinə daxil etməyə başlayırlar.

Osmanlı dövləti ilə mübarizə aparan Şah İsmayıl güclü müttəfiqə böyük ehtiyac duyurdu. Bu səbəbdən də öz səfirini portuqaliyalıların yanına göndərir. H.q. 918-ci ildə isə qarşılıqlı olaraq onların səfirini qəbul edir. Sonra Şah İsmayıl öz səfirini Hindistandakı Portuqaliya hakiminin yanına göndərir və ondan portuqaliyalıların Hörmüzdən geri çəkilmələrini istəyir. Elə həmən dövrdə Hörmüz hakimi portuqaliyalılara xərac verməkdən imtina etdiyi üçün onlar tərəfindən hücuma məruz qalır. Şah İsmayıl bunun ardınca Bəhreyni ələ keçirib portuqaliyalıların oraya nüfuz etmələrinin qarşısını alır. Lakin portuqaliyalılar bir daha Hörmüzü ələ keçirir və Şah İsmayılla saziş imzalayırlar. Aparılan müzakirə və imzalanan sazişlərdə əsas mövzu Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmaq olsa da, bu plan heç vaxt əməli həyata keçmir.

Şah İsmayılın hakimiyyətinin son illərində Səfəvi dövləti ilə portuqaliyalılar arasında Hörmüz və ticarət məqsədilə İranın şimal və cənub yollarından istifadə etməyə dair ixtilaflar yaranır. Bu məqsədlə Portuqaliya səfiri şahla danışıqlar aparmaq üçün Təbrizə, oradan isə Ərdəbilə gəlir. Lakin rəsmi danışıqlar aparılmazdan əvvəl Şah İsmayıl vəfat edir. Bundan sonra da Təhmasib şah qızılbaşlarla yaranmış daxili ixtilaflar, özbək və osmanlılarla ortaya çıxmış qarşıdurmalar üzündən portuqaliyalılarla əlaqə yarada bilmir.

H.q. 985-ci ildə Təhmasib şahın yanına qiymətli hədiyyələrlə birlikdə ilk Portuqaliya səfiri gəlir. Lakin Səfəvi şahı onu lazımınca qarşılamır. Az

sonra Osmanlılar Fars körfəzində qarşı-qarşıya gəlirlər, lakin heç bir nailiyyət əldə edə bilməyib Hörmüzdən geri çəkilirlər. Təhmasib şah da Osmanlıların təhlükəsinin dəf olunduğunu görüb portuqaliyalılarla səmimi əlaqə yaratmır. Hətta onların nümayəndələrini məscidlərdən birini və Quran nüsxəsini yandırdıqları üçün qarşılamaqdan imtina edir. Əmirlərindən bir neçəsinə də onları ədəbləndirməyi əmr edir. Əhməd Quminin verdiyi məlumata görə, bu hadisələr hicrətin 982-ci ilində baş verir. Mirzə Xəlil Mərəşi maraqlı hallardan birinə işarə edərək yazır: «Avropalılar İran ərazisinə hakim kəsildikdən sonra öz din və məzhəblərində güclü təəssübə malik olduqları üçün yerli əhalini öz dinlərinə dəvət edirdilər». Bir qədər sonra Avropa istismarçıları ilə birgə çiyin-çiyinə fəaliyyət göstərən missionerlər haqqında ətraflı söhbət açacağıq.

## *İNGİLİSLƏR İRANDA*

H.q. 969-cu ildə ilk dəfə olaraq Con Kenson adlı ingilis ticarət şirkətlərinin biri tərəfindən İngilis kraliçasının məktubu ilə birgə Rusiya ərazisindən keçərək İrana gəlir və orada Təhmasib şahla görüşür. İranla tanışlıq və bu ölkə ilə ticarət əlaqələri yaratmaq məqsədilə buraya səfər edən Kenson Təhmasib şahla görüşdüyü zaman məsihi dinində olduğunu bildirməklə onu bərk qəzəbləndirir. Şah qəzəbini gizlədə bilməyib tam qətiyyətlə deyir: Bizim kafirlərlə əlaqə yaratmağa heç bir ehtiyacımız yoxdur. İngilis şahın yanından çıxdıqdan sonra ətrafdakılardan biri pak etmək məqsədilə onun keçdiyi və oturduğu yerə torpaq tökür. Bəziləri Təhmasib şahın bu rəftarını səfirin şəxsiyyət və niyyətindən agah olduğu üçün bir siyasi addım kimi qiymətləndirmişlər. Həmən dövrdə Təhmasib şah Osmanlı dövləti ilə sülh sazişini imzalayır və avropalılarla heç bir əlaqə yaratmaq istəmir.

H.q. 976-cı ildə İrana başqa bir ingilis nümayəndəsi gəlir və Təhmasib şahla görüşdüyü zaman ondan ingilis mallarının Rusiyadan İrana gətirilməsinə icazə verməsini istəyir. Onlar cənubdan İran ərazisinə daxil olan Portuqaliya tacirlərinin ən böyük rəqiblərindən biri idilər. Beləliklə, Təhmasib şah ingilislərin xahişinə müsbət cavab verir və ingilislər gömrük haqqı vermədən İran ərazisinə mal gətirmək hüququnu qazanırlar.

## *SƏFƏVİ DÖVLƏTİNDƏ YARANMIŞ BÖHRAN*

**(İKİNCİ ŞAH İSMAYILDAN SOLTAN MƏHƏMMƏD ŞAHIN SƏLTƏNƏTİNƏDƏK)**

### Təhmasib şahın canişini təyin olunmasında yaranmış böhran və paytaxtdakı hərci-mərclik

Təhmasib şah əlli üç il altı aylıq hökmranlıqdan sonra h.q. 984-cü ilin səfər ayının on beşi həftənin dördüncü günü dünyasını dəyişir. Onun ölümündən sonra paytaxtda ictimai-siyasi vəziyyət son dərəcə gərginləşir, alimlər, əmirlər və ümumiyyətlə adi camaat qorxu və təşviş içinə düşür. Bütün bunların səbəbi isə Təhmasibin yerinə kimin canişin təyin olunacağı ilə əlaqəli idi. Bir neçə namizədin olmasına baxmayaraq, qızılbaşlar arasında ictimai və qarşıdurmaların baş vermə təhlükəsi də gözlənilirdi. Yaranmış belə bir şəraitdə alim və əmirlərin evləri bəzi fürsəttələb şəxslər tərəfindən qarət də oluna bilərdi. Belə ki, Təhmasib şah övladlarından heç birini qəti olaraq canişin təyin etmişdi; bu səbəbdən də oğlanlarından üçü atasının canişini ola bilərdi. Onlardan biri Qəzvində məskunlaşmış və Təhmasib şahın daha çox etimad etdiyi və həvalə olunan işlərdən məhz onun canişin təyin olunacağı ehtimal olunan olan Heydər Mirzə, ikincisi Qəhqəhə zindanında həbsdə olan və Heydərlə müqayisədə daha az nüfuza malik olan İsmayıl Mirzə, üçüncüsü isə Səfəvi sülaləsinin dördüncü hökmdarı olacaq Təhmasibin böyük oğlu Məhəmməd Mirzə olmuşdur. O, atasının zamanında vəliəhd (canişin) təyin olunsa da, tədriclə öz nüfuzunu itirmişdi. Təhmasib vəfat etdiyi zaman isə Fars əyalətində idi və kimsə onun canişin təyin olunacağını ehtimal belə etmirdi. Mühüm dövlət vəzifələrini tutan paytaxtdakı Ustəclu tayfasından olan qızılbaşlar Heydər Mirzəni, əfşarilər isə İsmayıl Mirzəni dəstəkləyirdilər. Təhmasib şah dünyasını dəyişməklə onların arasında ciddi qarşıdurma meydana gəlir və Səfəvi səltənətinin üzvləri də iki hissəyə ayrılıb onlardan birini dəstəkləməyə başlayır.

İsmayılın havadarları onun Qəhqəhə qalasından azad olunması üçün fəaliyyətə başlayır və buna nail olurlar. İsmayıl zindandan çıxdıqdan sonra qoşun yaratmaq fikrinə düşür. Bu məqsədlə də əvvəl Ərdəbilə, oradan isə Qəzvinə hərəkət edir.

Qəzvində isə iki dəstə arasında yaranmış siyasi qarşıdurma tədricən hərbi hərəkata çevrilir. İlk baxışdan hər şeyin Heydərin səltənəti üçün hazır olduğu nəzərə çarpsa da, o buna nail olmur. Belə ki, İsmayılın tərəfdarları

səltənət sarayına daxil olub onu qətlə yetirir və vəziyyəti ələ alırlar. Beləliklə, İsmayılın səltənəti üçün lazımi şərait yaranır. İsmayılın səltənəti ələ keçirməsinə, daha dəqiq desək, havadarlarının mübarizəyə sövq olunmalarına səbəb olan amillərdən biri də Təhmasibin qızı Pərixanımın İsmayıl Mirzəni dəstəkləməsi olmuşdur.

Təəccüblü hallardan biri də bu idi ki, bütün bu cərəyanlar baş verdiyi zaman Təhmasib şahın cənazəsi hələ dəfn olunmamışdı və baş verən qarşıdurmalarda cəsədin kənarında dayanmış Seyid Hüseyn Kərəki belə, amanda qalmayıb ox yarası alır. Atılan oxlar təkcə ona deyi, Təhmasib şahın da cənazəsinə sancılır. Beləliklə, Heydər Mirzə öldürülür və paytaxt İsmayıl Mirzənin gəlişini gözləyir.

## *İKİNCİ İSMAYILIN HAKİMİYYƏT DÖVRÜ*

Səfəvi sülaləsinin üçüncü nümayəndəsi olan Mirzə İsmayıl h.q. 943-cü ildə Mosulə tayfasından olan türkmən qadından dünyaya gəlir. O, həmən dövrdən h.q. 954-cü ilədək atasının yanında qalır və Şirvana hakim təyin olunduqdan sonra oraya gedir. İkinci İsmayıl orada döyüş qaydaları ilə yaxından tanış olur, sonralar atası ilə birlikdə bir neçə döyüşdə iştirak edir və öz döyüş bacarığını büruzə verə bilir. Belə ki, h.q. 959-cu ildə Ərzurumda İsgəndər paşa ilə Səfəvi ordusu arasında gedən döyüşdə qızılbaşlara sərkərdəlik edir və qaladan qıraqda gedən döyüşlərdə onun rəhbərlik etdiyi qoşun türkləri məğlub edir. Bu qələbədən sonra İsmayıl böyük nüfuz qazanmağa başlayır.

Bundan sonra belə nəzərə çarpırdı ki, Təhmasibdən sonra onun yerini tuta biləcək şəxslərdən biri də məhz İsmayılın özü olacaqdır. Xüsusilə də ona görə ki, onun toy mərasimi böyük təmtəraqla keçmiş və tarixçilər öz kitablarında bu haqda ətraflı məlumatlar vermişlər.

Mirzə İsmayıl bir yerdə qərar tutmayan bir şəxs idi. Bunun üçün də zahirdə hökmranlıq etmək üçün Təhmasib onu Hərata, oranın əmiri Məhəmməd xanın yanına göndərir. O vaxtadək orada Soltan Məhəmməd şahın qardaşı Məhəmməd Mirzə hökmranlıq edirdi.

Lakin Mirzə İsmayıl Həratda Məhəmmədlə yola getməyib tez-tez onun üçün çətinliklər meydana gətirirdi. Bu soyuq münasibətlər Təhmasib şahı bərk narahat edir. Bu səbəbdən də h.q. 964-cü ildə yenidən onu Qəzvinə çağırır. İsmayıl ilə bu səfərdə həmrəy və yol yoldaşı olan qızılbaşların bir qismi isə Təhmasib şahın göstərişi ilə öldürülür və ya həbs olunurdu. İsmayılın özü də Qəhqəhə qalasında həbs olunur və on doqquz il yarım

orada saxlanılır. Uzun müddətli həbs dövrü İsmayılın həyatına böyük təsir göstərir. O, bütün bu illəri səltənətdən uzaq qalmaqla yanaşı, tiryək və sair narkotik maddələr qəbul etməyə də adət edir.

## *İSMAYIL VƏ ŞAHZADƏLƏRİN ÖLDÜRÜLMƏSİ*

İkinci İsmayılın hakimiyyət dövrü rəhimsizlik və haqsız qanların tökülmə dövrüdür. Qəzvin onun hakimiyyəti ələ keçirdiyi ərəfədə qardaşı Mirzə Heydərin öldürüldüyünün şahidi olur. Qazi Əhməd Qumi Mirzə Heydər haqqında yazır: «Heydər mömin və təqvalı bir şəxs idi. O, həftənin bazar ertəsi və cümə axşamları günlərini oruc tutar və hər zaman alim və zahidlərlə ünsiyyətdə olardı. Heç vaxt soltanlar kimi sübh namazını qəza etməz və daim təharətli olardı».

Onun ölümü Səfəvi sülaləsinin sonrakı şahzadələrinin qətlə yetirilmələrinin başlanğıcı idi. Uzaq və əlçatmaz bir yerdə həbsdə olan İsmayıl son dərəcə qərəzli mövqe tutub hər şeyə və hamıya şəkk-şübhə ilə yanaşırdı. Bu səbəbdən də öz mövqeyini gücləndirmək məqsədilə bütün müxaliflərini və ya müxalif hesab etdiyi bütün şəxsləri öldürür, ya da həbs edirdi. Onun üçün heç bir fərqi yox idi ki, qətlə yetirdiyi şəxslər onun fədakar qızılbaş əsgərləridi, ya yad bir şəxs. İsmayılın diqqətini cəlb edən şəxslər qardaşı Mirzə Heydərin sadiq tərəfdarları olan qızılbaş Ustaclu tayfası olur. Özləri üçün böyük təhlükə hiss edən qızılbaşlar İsmayıldan əfv olunmalarını istəyirlər. Lakin İsmayıl onların xahişinə heç bir məhəl qoymayıb özlərini qətliam, var-dövlətlərinin isə qarət olunmasına dair göstəriş verir. Hətta Qəzvinə gəlməzdən əvvəl Heydərin səltənətinə can atan Soltan Ustaclunun nəvəsi Murad xanın gözlərini çıxarır. Mirzə İsmayıl ailə üzvlərindən olan digər iki qardaşı Mustafa və Süleymana da şübhə ilə yanaşıb onları da aradan götürmək qərarına gəlir. O, belə də edir. Belə ki, eyni gündə hər iki qardaşını qətlə yetirib Qəzvinin Hüseyn imamzadəsində dəfn edir.

Az sonra Qəzvində qanlı hadisə baş verir. Bu dəfə şah Azərbaycan və Anadoludan gəlmiş sufi mürşidlərinin böyük bir hissəsini qətliam edir. Əhvalat belə baş verir, Qəzvinə üz tutmuş bu şəxslərin bir hissəsini Diyarbəkr kürdləri təşkil edirdi. Onlar «Xəlifə evinin» yaxınlıqlarında oturaq qurub saylarının çoxluğuna güvənir ivə qarşılarına çıxan hər bir şəxsi döyür və əzab-əziyyət verirdilər. Günlərinə birində onlar bazarın nəzarətçisini döyürlər və şah aranı sakitləşdirmək üçün oraya qoşun göndərir. Beləliklə, baş verən toqquşmada beş yüzdən minə yaxın sufi qətlə

yetirilir. Lakin qəribə burasındadır ki, şah yaranmış vəziyyətdən istifadə edib şahzadələrin bu işdə əli olduqlarını bəhanə gətirir və onların da bir neçəsinin qətlə yetirilmələrini əmr edir. Beləliklə, şahın göstərişilə bir neçə şahzadə qətlə yetirilir. Qətlə yetirilən şəxslər bunlar idilər: Təhmasibin digər üç oğlu Mahmud Mirzə, Əhməd Mirzə, İmamqulu Mirzə, Təhmasibin qardaşı oğlu Soltan Hüseynin oğlu Məhəmməd Hüseyn Mirzə, İbrahim Mirzə və Bədiüzzaman Mirzə, Hərat və Qəndəhar hakimi Bədiuzzamanın yeddi yaşlı oğlu Bəhram Mirzə. Şah bəzilərinə də güzəştə gedib gözlərini çıxarır. Onlardan biri də Təhmasib şahın başqa bir oğlu Soltan Əli Mirzə və əmisi oğlu şahzadə Əli Mirzə olur. Bu şahzadələrin bir çoxu tarixçilər tərəfindən təriflənmiş və onların günahsız olduqlarına təkid olunmuşdur. Qazi Əhməd Qumi öz kitabında Soltan İbrahim və onun fəzilətləri haqında geniş söhbət açır. Soltan İbrahim türk və fars dillərində yazdığı iki-üç min beytlik şerin müəllifi olmuşdur. Qazi Əhməd Qumi bu haqda yazır: «Soltan İbrahimin qızı atasının şerlərini bir yerə toplayıb kitab halına salır və onu bütün ətraf məntəqələrdə, o cümlədən İran, Turan, Rum və Hindistanda yayır».

Məhəmməd Mirzənin oğlanlarından biri olan Hüseyn Mirzə Təhmasib şahın hakimiyyətinin son illərini Mazandaranda hökmranlıq edir. İkinci İsmayıl hakimiyyəti ələ keçirdikdən sonra Qəzvinə gəlmək üçün Tehrana yola düşür. Lakin şah ona Tehranda qalmağı əmr edir. Şahzadələrin qətlə yetirildikləri ərəfədə onun ardınca qasid göndərir və səhəri gün isə hiylə işlədərək hökmü ləğv etmək üçün başqa birisini göndərir. Qəribə hallardan biri də ikinci qasidin birinciyə çatıb şahzadəni ölümdən xilas etməsi olur. Bütün bunlara baxmayaraq, az sonra başqa bir fərman verilir və qulluqçulardan bir dəstə şəxs Tehrana gəlib hiylə ilə Həsən Mirzəni evindən çıxarıb qətlə yetirir.

İsmayıl, Mirzə Abbası (h.q. 977-ci il təvəllüdlü Birinci Şah Abbası) öldürmək üçüni Hərata başqa bir oğlu Soltan Məhəmməd Mirzəni göndərir. Lakin o tapşırılan əmri yerinə yetirməzdən əvvəl ikinci İsmayıl dünyasını dəyişir və onun ölüm xəbəri Hərata çatır. Beləliklə, İsmayıl Səfəvi tarixinin gələcəyinə böyük təsir qoymazdan əvvəl Mirzə Abbas canını ölümdən qurtara bilir.

## *İKİNCİ ŞAH İSMAYILIN SÜNNİ VƏ ŞİƏLƏRƏ OLAN MÜNASİBƏTİ*

Osmanlılara kin-küdurət bəslənməsinə baxmayaraq, ikinci Şah İsmayıl dövlətlər arası sülh və əmin-amanlığın bərqərar olunmasına narazı deyildi. O, müxtəlif səbəblər üzündən Təhmasibin sünni məzhəbinə qarşı həyata keçirdiyi siyasətdə müəyyən dəyişiklər aparmaq fikrinə düşür. Tarixçilərdən bəzilərinin yazdıqlarına görə tərbiyəçisi hələ uşaq ikən bu istiqamətdə onun üzərində bir çox işlər görmüş və onun əqidəsinə böyük təsir göstərə bilmişdi. Bəlkə də buna görədir ki, Qəzvinə qayıdarkən Soltaniyyə binasını görməyə gedir. Lakin orada Soltaniyyə günbəzinin yaxınlığında yerləşən şair Tacəddin Həsən Kaşinin məqbərəsini ziyarət etmir. Kaşi, Təhmasib şahın böyük ehtiram göstərdiyi şairlərdən biri idi. O, öz xatirələrində Kaşinin şerlərindən istifadə etmiş və məqbərəsində əsaslı təmir işləri aparmışdır. Əhli-beyt aşiqlərindən olan Kaşi bütün şerlərini məsum imamlara həsr etmişdir. Bəlkə də İkinci İsmayıl onun məqbərəsini buna görə ziyarət etmirdi.

Onun belə bir əhval-ruhiyyədə olmasına böyük təsir göstərən şəxslərdən biri də Qəzvində yaşayan və zahirdə özünü şiə kimi qələmə verən, əslində isə sünni məzhəbini yaymağa can atan Mir Məxdum Şərifi olmuşdur. O, Qəzvində ilk xütbəsini Şah İsmayılın adı ilə başlayır və bu vaxt hələ İsmayıl Qəzvinə daxil olmamışdı. İsmayıl ilə yaxın münasibətdə olduğu üçün şübhəsiz ki, onu sünni məzhəbinə sövq edən də məhz onun özü olmuşdur. Mirzə Məxdum İsmayıl ilə o qədər yaxınlaşa bilir ki, şah onu özünün ən yaxın müşavirlərindən biri seçir və sünni məzhəbindən olanlara maliyyə yardımı paylanılmasını məhz ona həvalə edir.

Tarixçilərdən biri yazır: «Mir Məxdum qızılbaş alimlərinin təyziqi nəticəsində h.q. 985-ci ilin Cəmadiə-əvvəl ayının 17-də cümə günü şahın qəzəbinə gələrək həbs olunur». Qazi Əhməd Qumi onun haqqında yazır: «İsmayılın ölümündən sonra fürsətdən istifadə edən qızılbaşlar Mirzə Məxdumu zindandan çıxarıb edam etmək fikrinə düşürlər. Lakin o, Pərixanımın himayəsi ilə ölümdən yaxa qurtarır və dərhal Osmanlı dövlətinə pənah aparır». Osmanlılar onu qazi təyin edir və h.q. 987-ci ildə şiə məzhəbinin əleyhinə «Ənə vaizun ələr-rəvafiz» adlı kitabını təlif edir.

İkinci İsmayıl qızılbaşların müxaliflərinə lənət oxumalarının qarşısını alır və bu barədə onların bəzi alimlərinə ciddi xəbərdarlıqlar edir. Şaha yaxın olan və qızılbaşların canişinlik uğrunda apardıqları mübarizədə Təhmasibin

cənazəsi üzərində dayanmış və bir neçə ox yarası almış Mühəqqiq Kərəkinin qız nəvəsi Seyid Hüseyn Kərəki (h.q. 1001) olur. Mirzə Abdullah İsfahaninin yazdığına görə, ikinci Şah İsmayıl Seyid Hüseynə qızılbaşları himayə etməkdən əl çəkməsinə dair xəbər göndərir. Lakin Seyid Hüseyn bununla heç cür razılaşmır.

İkinci Şah İsmayıl bu istiqamətdə bir sıra işlər görür, hətta dövriyyədə olan pulların üzərindən imamların adlarını götürməyə belə nail olur. O, belə bir addımı atsa da, Seyid Hüseyn kimi alimlərin ciddi müqaviməti ilə qarşılaşır. Göstərilən təzyiqlərdən sonra şah özünün yazdığı bu misraları pulların üzərinə vurulmasına razı olur: *«Ze məşriq ta məğrib gər imamət, Əli və ali u mara təmamət.» Yəni Şərqdən qərbədək imam olsa da, «Əli və ali Əli bizə kifayət edər».*

Məlum məsələdir ki, şahın belə bir siyasəti şiə məzhəbinə son dərəcə təəssübkeş olan və şahı sufilərin mürşidi hesab edən qızılbaşlara mənfi təsir göstərmişdir. Verilən məlumatlardan belə məlum olur ki, bəzi türkmən qəbilələri şahın sünni məzhəbinə meyilli olmasından hiddətlənmiş və ona qarşı üsyan etmək istəmişlər. Təkcə adi camaat deyil, alimlərin də böyük bir hissəsi şahdan üz çevirmiş və onu sünni məzhəbinə qarşı təhrik etmişlər. Rumlu yazır: «İkinci Şah İsmayıl Seyid və alimlərin payına düşənləri kəsib şafei məzhəbini qəbul edənlərə vermək istəyirdi. Bunun üçün də qızılbaş ordusu ondan üz çevirdi».

Bir sözlə, müvəqqəti olsa da İkinci Şah İsmayıl göstərilən təzyiqlərdən sonra həyata keçirdiyi siyasəti dayandırmalı olur. Lakin gözlənilməz ölüm nəzərdə tutulan siyasətin həyata keçməsinə birdəfəlik son qoyur.

Tarixçilərin bəziləri İkinci Şah İsmayılın həyata keçirdiyi siyasəti təhlil edərkən yazmışlar ki, o belə bir addımı iyirmi il Qəhqəhə qalasında dustaq olmasına səbəb olan ata və babasının siyasətinə müxalif olaraq atmışdır.

## *ŞAH İSMAYIL VƏ İDARƏÇİLİK*

İkinci şah İsmayılın qısa müddətli hakimiyyət dövrü və şəxsi hesablarının aparılması (əlbəttə əgər bunu hesab adlandırmaq mümkün olarsa), habelə iyirmi illik həbs dövründən sonra onlarla şahzadənin ölümü ilə nəticələnən qərəzli siyasəti dövlət işlərinin lazımi istiqamətdə aparılmasına imkan vermir. Çünki, etiraf etmək lazımdır ki, Təhmasibin ölümündən sonra həyata keçirdiyi qərəzli siyasət qızılbaşların üsyan etmələrinə və əmrə tabe olmamalarına gətirib çıxardı. Lakin o, vəziyyəti tam nəzarət altına alır və

onun hakimiyyət dövründə baş verən kiçik qarşıdurma yalnız Pələnqan qalasının fəthi zamanı baş verir.

Şah dövləti Qəzvinin Aliqapu sarayından idarə etdiyi dövrlərdə də dövlət işlərində çalışan məmurların, habelə ətraf məntəqələrə təyin etdiyi hakimlərin bir çoxunu başqaları ilə əvəz edir və bununla kifayətlənməyib xəlifənin yerinə canişin təyin olunmuş şəxsin hər iki gözünü çıxarıb yerinə başqa birisini təyin gətirir. Əhməd Quminin verdiyi məlumatlara görə, Səfəvi dövründə hakim təyin olunan şəxslərə qiymətli daşlar və qızılı iplərlə bəzədilmiş xirqə, əba, kəmər, tac təqdim olunurdu.

Yeni vəzifəyə təyin olunan şəxslərdən biri də kitabxanaçı mənsəbinə yəyələnmiş Əbdul Məsum Mirzə Musilu olur. O, kitabxanaçılıqla yanaşı, böyük nüfuza malik olan Pərixanımın da ixtiyarlarını məhdudlaşdırır və onu maddi çatışmazlıqlarla qarşı-qarşıya qoyur. Bunun isə əsas səbəbi İsmayılı müdafiə etməklə yanaşı, Təhmasibin başqa bir oğlu Süleyman Mirzəni də dəstəkləməsi olmuşdur. Hələ edam hökmü verilməzdən əvvəl Mirzə İbrahimə Ali divanın vəziri Mirzə Şükrullah ilə birlikdə həftədə iki gün Ədalət divanında oturub camaatın suallarına cavab verməsi əmr olunur. Qazi Əhməd Qumi bu haqda yazır: «O günlər o qədər əmin-amanlıq var idi ki, həm soltan, həm də dərvişlər divanxanaya gəlir və kimsə onlara rədd cavabı vermirdi».

Sədirlik İsfahan seyidlərindən olan Şah İnayətullah İsfahaniyə həvalə olunur. O, dini hökmlərin icrasına xüsusi diqqət yetirir, ayrılan vəqflərə nəzarət edir və övliyaların məqbərələrini təmir edirdi. Əvvəl Mirzə Şükrullaya həvalə olunan vəzirlik mənsəbi sonralar İsfahanın Cabiriyyə tayfasından olan və özünü Cabir ibni Abdullah Ənsarinin nəslindən hesab edən Mirzə Salmana tapşırılır. Əhməd Qumi yazır: «O, bu mənsəbə ona görə təyin olundu ki, dövlət işlərinə nəzarət edib din və dövlətlə əlaqəli olan məsələləri öz axarına salsın və yaranmış çətinlikləri aradan qaldırsın».

## *İKİNCİ ŞAH İSMAYILIN ÖLÜMÜ VƏ SOLTAN MƏHƏMMƏD MİRZƏNİN CANİŞİN TƏYİN OLUNMASI*

İkinci Şah İsmayıl h.q. 985-ci ilin Ramazan ayının on üçü Qəzvinin küçələrini gəzdikdən sonra bir qədər narkotik maddə qəbul edib yatağına girir və bir daha yataqdan ayağa qalxmır. İkinci Şah İsmayılın ölümü ilə bir çoxlarında belə bir fikir yaranmışdır ki, bu işdə Səfəvi sülaləsinin və ya qızılbaşlarla müxalif olan şəxslərin əli olmuşdur. Çünki onunla eyni zamanda narkotik maddə qəbul edən başqa bir şəxs ölüm ayağında ikən

özünü qapıya çatdırıb ölümdən yaxa qurtara bilir. Özünə gəldikdən sonra maddənin qutusuna onlardan əvvəl əl vurulduğuna təkid edir. Əlbəttə bu bir ehtimaldır. Həsən Rumlu özünün «Əhsənut-təvarix» adlı kitabında bu haqda söhbət açmış və şahın ölümü haqda deyilənlərin doğru-düzgün olduğunu bildirmişdir. Saraydakı əyan və əşraf hamılıqla şahın ölümündən sevincək olduqlarından bu barədə heç bir araşdırma aparmadan yeni bir şahı seçmək fikrinə düşürlər. Belə ki, tarix kitablarında ikinci İsmayılın hakimiyyət dövrü haqqında söz açıldıqda dərhal diqqəti kin-küdurət və yüzlərlə günahsız insanın işgəncə və qətliamı cəlb edir.

Qəribə burasındadır ki, bütün bunlara baxmayaraq, Qazi Əhməd Qumi öz kitabında yalnız onun ədaləti haqda bir səhifəyə yaxın söhbət açmışdır. Lakin sonda yazır: «Narkotik maddələrdən istifadə etdiyi üçün hamı şah İsmayıldan razı deyildi». İsgəndər bəy də onun haqqında yazır: «Camaatın əksəriyyəti Mirzə İsmayılın ədalətsizlik və pis davranışından cana gəlmişdi. Vəfat etdikdə isə üzlərdə heç bir qəm-qüssə görünmürdü və onun ölümündən sonra heç bir mühüm hadisə baş vermədi».

İkinci Şah İsmayılın ölümündən və şahzadələrin bir çoxunun qətliam olunduqlarından sonra yeni şahın seçilməsi asan nəzərə çarpırdı.

Bəziləri İkinci İsmayılın bir yaşlı oğlunun namizədliyini, digərləri isə Soltan Mirzə Həmzə haqda söhbət açsalar da, onların heç biri qızılbaşlar tərəfindən qəbul olunmur. Nəhayət daha çox Xudabəndə kimi tanınan Təhmasibin böyük oğlu Soltan Məhəmməd Mirzənin namizədliyi irəli sürülür. O, hələ Təhmasib şahın sağlığında vəliəhd təyin olunmuş, lakin İsmayıl və Mirzə Heydər böyüyüb boya-başa çatdıqdan sonra öz nüfuzunu itirmiş və şahın gözündən düşmüşdü.

Soltan Məhəmməd bir neçə il Həratda hökmranlıq etdikdən sonra Təhmasib şah onu Şiraza göndərir və elə o vaxtdan ikinci İsmayılın vəfatınadək orada hökmranlıq edir. Görmə qabiliyyəti zəif olsa da, o, Təhmasib şahın sülaləsindən hakimiyyətə layiq yeganə şəxs idi. Bununla yanaşı, ona dövlət işlərində köməklik edə biləcək və özündən sonra yerini tuta biləcək cəsur oğlanları da var idi. Ən başlıcası isə qızılbaşlar və dövlət adamları üçün onun görmə qabiliyyətinin zəif olması idi. Belə ki, onlar fürsətdən istifadə edib işlərin gedişatına öz təsirlərini də göstərə bilirdilər.

Nəhayət, qərar Qəzvində qəbul olunub Şiraza xəbər göndərilir. Mirzə Məhəmməd ilk dəfə olaraq bu xəbəri ona çatdıran şəxsə «Xoş xəbər xan» ləqəbini verir. Bunun isə əsas səbəbi həmin şəxsin mühüm mənsəblərdən birinə, yəni «xanlıq» vəzifəsinə təyin olunması ilə əlaqəli idi.

## *SOLTAN MƏHƏMMƏD XUDABƏNDİNİN HAKİMİYYƏT DÖVRÜ*

Soltan Məhəmmədin hakimiyyəti h.q. 985-ci ildən Şirazdan başlayır və elə orada təzə təyin olunmuş şahın ali divanının vəzir, nazir, sədirlik, qazilik və sair mənsəblərə dair verdiyi fərmanı alır. Təzə təyin olunmuş şahın kimsədən intiqam almaq fikri yox idi və onun yeganə məqsədi atası və qardaşının hakimiyyət dövrlərində həbsə alınmış və haqsızlıqlara məruz qalmış şəxsləri azadlığa buraxmaq və onların haqlarını özlərinə qaytarmaq idi.

Lakin elə hakimiyyətinin ilk illərindən onun bütün çətinliklərin öhdəsindən gələ bilmədiyi göz qabağında idi.

Çünki, istər dövlət adamları olsun, istərsə də nüfuza malik olan digər şəxslər onun qəbul etdiyi qərarlara təsir göstərə bilirdi. Məlum idi ki, bu kimi məsələlər bir çox ixtilaf və nifaqların meydana gəlməsinə səbəb ola bilərdi və bu belə də olur. Bu kimi ixtilaflar ilk dəfə olaraq Təhmasib şahın qızı Pərixanımla Soltan Məhəmməd şahın həyat yoldaşı Məhdulya arasında baş verir.

Həmən dövrlərdə Pərixanım Qəzvində böyük nüfuza malik olduğundan onunla hesablaşır, əmrinə tabe olurdular. O, xalası Şamxal Soltanxanımın vasitəsilə dövlət işlərinin idarə olunmasına birbaşa müdaxilə edirdi.

Təzə təyin olunmuş şahın həyat yoldaşı Məhdulya xanım da Şirazda qüdrəti ələ alıb İsgəndər bəyin dediyi kimi «Bütün işlərə nəzarət edir və heç bir iş onun nəzarəti olmadan həyata keçmirdi». Şah da ona xüsusi diqqət yetirir və dediklərini icra edirdi. Məhdulya xanımın hətta Mir Qivamuddin Hüseyn Şirazi adlı xüsusi vəziri də var idi. Onun şahdan istədiyi şeylərdən biri də neçə ilə əvvəl İstəxr qalasında həbs olunan Əhməd xan Gilaninin azad olunması idi. Şah isə onu nəinki azad edir, hətta sonralar onu öz kürəkəni belə edir. Qəzvində toy mərasimi başa çatdıqdan sonra Gilana qaytarılır və əvvəlki qüdrətini əldə edir. Onunla birgə Ələmutda həbsdə olan İsaxan da azadlığa buraxılıb Şəki əyalətinə hakim təyin olunur. Təsis olunmuş yeni dövlətdə İsmayılın vəziri Mirzə Salman kimi şəxslər öz mövqelərini qoruyub saxlaya bilirlər. Sonralar onlara «Ruknussəltənə» və «Etimadud-dövlə» ləqəbi verilir. Belə nəzərə çarpır ki, bu kimi qəqəblər ilk dəfə olaraq həmən dövrdə verilmiş və Səfəvilərin hakimiyyətinin sonunadək ondan istifadə olunmuşdur.

Qəzvində baş verən hadisələr Şiraza çatdıqda, xüsusilə də Mirzə Salmanın Qəzvindən Şiraza gətirdiyi xəbərlərdən sonra Məhdulya xanım və Şah, Pərixanımı öldürmək qərarına gəlirlər. Yaranmış ixtilaflar ciddi

qarşıdurmalara gətirib çıxarmazdan əvvəl Qəzvinin tanınmış alimlərindən olan Seyid Hüseyn Kərəkinin (h.q. 1001) müdaxiləsi ilə yenidən sabitlik bərqərar olunur.

Nəhayət, h.q. 985-ci ildə Şah Qəzvinə daxil olur və orada özünün ilk və sonra ikinci və üçüncü edam hökmünü verir. Qətlə yetirilən ilk şəxs Pərixanımın verdiyi göstərişlərin icraçısı Soltan Şamxal olur. Belə ki, o, hiylə ilə şəhərdən eşiyə çıxarıldıqdan sonra qətlə yetirilir. Onun ardınca Pərixanım da gecə ikən Xəlil xanın evinə aparılır və orada boğularaq qətlə yetirilir və var-dövləti Xəlil xana verilir.

Şah, ikinci İsmayılın bir yaşlı oğlu Şücanı da amansızcasına qətlə yetirir.

Beləliklə, böyük nüfuz əldə etmiş Məhdulya xanım qüdrəti bütünlüklə ələ keçirir və heç bir iş onun göstəriş və nəzarəti olmdan həyata keçmir. Bir vaxtlar Şirazda kiçik vəzifələrdən birini tutmuş Molla Əfzəl Münəccimbaşının onun göstərişi ilə Qəzvinin Müamilə divanının baş kələntəri təyin olunmasını buna misal çəkmək olar. Belə ki, onlardan bir çoxu əvvəllər Soltan Məhəmmədə, həyat yoldaşına və övladlarına xidmət etdikləri üçün, indi demək olar ki, artıq öz mükafatlarını alırdılar. Onlarla yanaşı, ikinci ismayılın qəzəbinə düçar olmuş şəxslər yenidən vəzifələrə təyin olunur və dövlət işlərində fəaliyyət göstərməyə başlayırdılar.

Bir sözlə, İran bütünlüklə müxtəlif türk və türkmən qəbilələri arasında bölünmüş və onlar tərəfindən idarə olunurdu. Böyük əyalətlərin ayrı-ayrı şəhərlərə bölünməsi isə qızılbaşlar arasındakı ixtilafların daha da artmasına səbəb olur. Bütün bunlarla yanaşı, onların gəlirləri azaldığı üçün məxariclərinin mərkəzdən ayrılmasına ehtiyac duyulurdu. Bu isə dövlətin iqtisadiyyatına zərbə demək idi. Sədirlik vəzifəsinə də Soltan Məhəmməd Həratdan Şiraza getdiyi zaman öz qəsəbəsində daha gözəl xidmət göstərmiş Kerman seyidlərindlən olan Mir Şəmsəddin Məhəmməd təyin olunur. Pərixanımın evi də Darul-sədarə elan olunur və Mir Şəmsəddin orada tutduğu vəzifəni icra etməyə başlayır.

Həmən dövrlərdə hələ də taciklər idarə işlərinə, qızılbaşlar isə yüksək vəzifələrə, daha dəqiq desək, «Əmirul-uməra» (əmirlər əmiri) vəzifələrinə təyin olunurdular. Belə ki, İsgəndər bəyin öz kitabında adını çəkdiyi bütün şəhərlərə yalnız qızılbaş tayfalarından olan hakimlər rəhbərlik edirdi.

## *QIZILBAŞLARIN ƏN BÖYÜK ÇƏTİNLİYİ DAXİLİ İXTİLAFLAR OLMUŞDUR*

Soltan Məhəmmədin hakimiyyəti ikinci İsmayılın hakimiyyət dövründən başlanmış bir sıra çətinliklərlə davam edir və bütün bunlara müxtəlif amillər səbəb olur. Səltənət sülaləsinin demək olar ki, kökünün kəsilməsi və bir çox qızılbaş rəhbərlərinin qətlə yetirilməsi dövlətin bünövrəsinə ağır zərbə vurur. Məhdulya xanımın nüfuzu, qızılbaşların istəklərinə qarşı çıxması və qızılbaşları şahın tabeçiliyindən çəkindirməsi yaranmış böhranı daha da gərginləşdirir və Səfəvi dövlətinin zəifləməsinə birbaşa təsir göstərirdi.

Bildiyimiz kimi, Səfəvilər dövlətinin əsasını qızılbaşların mürşidlərinə olan xalis itaətkarlıqları təşkil edirdi. Bu münasibətlər zəiflədikdə isə dövlət öz tərəfdarlarını itirir və bunun üçün də təbii olaraq azsaylı tacik və iranlılarla sabitliyi özbək və osmanlıların təhlükəsindən qoruyub saxlaya bilmirdi. Dövləti himayə edən var idisə, o da dövlətə son dərəcə sadiq qalan türk və türkmən tayfalarından olan sufi qızılbaşları idi. Səriştəsiz insanların üzərində heç bir nəzarət olmadan müxtəlif vəzifələrə təyin olunması qızılbaş dövlət məmurlarının işlərinə mütləq nəzarətsizlik təsis olunduğu ilk gündən Səfəvi dövlətini ciddi çətinliklərlə qarşı-qarşıya qoyurdu. İsgəndər bəy bu çətinliklərə işarə edərək yazır: «Yaranmış hərc-mərcliyə səbəb olan ən başlıca amil rüşvətxorluğun dövlət məmurları arasında geniş yayılması olmuşdur».

Yaranmış çətinliklərə səbəb olan başqa bir amil ölkənin bütünlüklə türk və türkmən tayfaları tərəfindən idarə olunması və dövlət büdcəsindən onların tələblərinə uyğun məbləğin ayrılması olmuşdur. Bu səbəbdən də dövlət büdcəsinin az bir müddətdə tamamilə boşalması yaranmış şəraiti daha da gərginləşdirmişdi. Bütün bunlarla yanaşı, qızılbaş rəhbərləri ölkə ərazisində heç bir nəzarət və nizam-intizamın hökm sürmədiyini görüb çətinliklərini rüşvət ilə həll edir və yeni-yeni çətinliklərin meydana gəlməsinə səbəb olurdular.

Yaranmış belə bir şəraitdə daim düşmən mövqeyində duran qonşu dövlətlər fürsətdən istifadə edib ölkə ərazisinə qoşun yürütmək fikrinə düşürlər. Bundan tək xarici dövlətlər deyil, ayrı-ayrı şəhərlərdəki daxili müxalif dəstələr də istifadə edirdi. İsgəndər bəy bu haqda yazır: «Fürsətdən istifadə edən zəmanənin padşah və müxalifləri şərq və qərbdən əcəm ölkəsinə üz tutdu. Soltan Murad (h.q. 983-1003) Azərbaycan və Şirvana qoşun yürüdüb illər boyu müstəqillik iddiasında olan və əllərini ətraf məntəqələrə uzadan düşmənlərinə tərəf gəldi».

Özbək və osmanlıların hücumları ilə yanaşı vaxtaşırı müxtəlif əyalətlərdə də üsyanlar baş qaldırır və böyük sülalələrə mənsub olan dəstələr öz ərazilərinə sahib olmaq üçün dövlətə qarşı çıxırdılar.

### *MƏHDULYANIN SÜQUTU*

Pərixanımın acınacıqlı əhvalatından sonra artıq növbə Məhdulya xanımın özünə çatmışdı. Bir qədər əvvəl Mirzə Məhəmmədin son dərəcə inadkar bu qadını haqqında söhbət açmışdıq. O, şahın bütün qüdrətini əlindən almış, qızılbaş əmir, vəzir və sədirləri tam mənada özünə tabe etmişdi. Nəyin bahasına olursa olsun, istədiyini onlara qəbul etdirdi. Məhz bu qadının yersiz müdaxiləsi ölkənin nüfuz və idarəçiliyinə ağır zərbə vurur. Mazandaranın Mərəşi sülaləsindən olan Məhdulya xanımın atası Mir Abdullah xan həmən məntəqənin hakimi olmuşdur. O, hakimiyyəti ələ aldıqdan sonra Mirzə xanın (əmisi oğlu Soltan Muradın) hakim təyin olunduğunu eşitcək dərhal öz irs və mülkü hesab etdiyi Mazandarana qoşun göndərir. Onun təkidi ilə qızılbaş ordusu Mazandarana yola düşür. Qızılbaşların sərkərdəsi öldürülməyəcəyinə and içib söz verdikdən sonra Mirzə xanı təslim olmağa vadar edir. Lakin paytaxtda bütün işlərə nəzarət edən Məhdulya xanım ordu Qəzvinə daxil olmazdan əvvəl öz adamlarını Mirzə xanın üzərinə göndərir və onu elə oradaca qətlə yetirir. Baş verənlər dövlət işlərində heç bir təcrübə və səriştəsi olmayan bir qadının birbaşa müdaxiləsindən baş verirdi. O, hakimiyyət və dövlətçilik işlərinə layiq olmadığı kimi, Soltan Məhəmməd də bir o qədər bu kimi işlərə layiq deyildi. Baş verən hadisələr hamının Məhdulya xanımdan cana doymasına və ona qarşı kin-küdurətin daha da artmasına səbəb olur. Bütün bunlardan narazı qalan İsgəndər bəy yazır: «Günahsız seyid övladı olan Mirzə xanın qətlə yetirilməsinə cahil və nadan əmirlərin şeytani vəsvəsəsi səbəb oldu. Hadisə h.q. 978-ci ildə baş verdi və on yeddi gündən sonra Məhdulya xanımın özü də qətlə yetirildi».

İsgəndər bəyin verdiyi məlumata görə, bunlardan sonra yenə də Mazandaranda əmin-amanlıq bərqərar olunmadı və mövcud gərginlik hələ də qalmaqda və Məhdulya xanıma qarşı kin-küdurət isə daha da güclənməkdə idi.

Məhdulya xanımın yersiz müdaxiləsi Həratın idarə olunmasında da özünü göstərir və təbii ki, bütün bunlar qızılbaşların narazılığına səbəb olurdu. Məlum olduğu kimi Hərat, Xorasan əyalətinin mərkəzi olmuş və oranın qorunub saxlanılması Səfəvilər üçün heç də asan olmamış və bütün

dövrlərdə hətta az yaşlı şahzadənin rəhbərliyi altında belə oranı qoruyub saxlamağa çalışmışlar. Təhmasib şahın hakimiyyətinin son illərində Soltan Məhəmməd Mirzənin oğlu Abbas Mirzə Həratda Əliquluxan Şamlının himayəsi altında yaşamışdır. Oğlu Mirzə Abbası görməyə israrlı olan Məhdulya h.q. 987-ci ildə Əliqulu xandan oğlunu Qəzvinə gətirməsini istəyir. Lakin o, Xorasanı Orta Asiyaya yaxın olduğunu və daim oranı təhlükə gözlədiyindən şahzadəsiz qalmalı olduğunu bəhanə gətirərək bu işi görməkdən imtina edir. O, Məhdulyaya göndərdiyi məktubda yazır: «Yüksək məqama malik olan şahzadəsiz ərazini qoruyub saxlamaq bizim üçün mümkün deyildir».

Yaranmış narazılıqlar yavaş-yavaş daha da ciddiləşməyə başlayır. Bir tərəfdən Məhdulya xanım Mirzə Abbasın gətirilməsinə israr edir, digər tərəfdən də Həratın hakimi daha da müxalif mövqe tuturaq Abbasın Qəzvinə getməsini özbəklərin ürəklənmələrinə səbəb olacağını bildirirdi. Hətta Qəzvində mühüm mənsəblərdən birini tutan Əliqulu xanın atası Hüseyn xanın Hərata gəlməsi buranın hakiminin gəldiyi qərar heç bir təsir göstərmir. Əlbəttə bu məsələdə o tək deyildi, belə ki, digər tayfalar da Abbasın Həratda qalmasına təkid edir və onun Qəzvinə getməsinə heç cür razı olmurdular.

Belə bir müxalifəti görən Məhdulya Hərat hakimi ilə arası yaxşı olmayan Məşhəd hakimi Murtəza Qulu xanı qarşı-qarşıya qoymaq qərarına gəlir. Hələ məsələ həll olmamışdı ki, paytaxt əmirləri, daha dəqiq desək, qəlbləri kin-küdurətlə dolu qızılbaş əmirləri onu qətlə yetirirlər. Beləliklə, Abbasın Həratda qalması dəqiqləşdirilir.

Qızılbaşların mürşid müqabilində dayanıb həyat yoldaşını qətlə yetirmələri bir daha Səfəvi dövlətini süstləşərək süquta uğramasından xəbər verirdi. Çünki, bu dövlətin əsasını mürşidlə müridlər arasındakı sıx əlaqələr təşkil edirdi.

Əmirlər bir tərəfdən Məhdulyanın tətbiq etdiyi zorakılıqlara dözmür, digər tərəfdən də onun hökmranlığı ilə heç cür irəli gedə bilməyəcəklərini görürdülər. Bunun üçün də Qəzvinin Səadətabad bağına toplanıb ona qarşı üsyan edirlər. Şaha göndərdikləri məktubda yazırdılar: «Zəif əql və şəxsi rəyə əsaslanan inadkar bir qadın dövlət işlərinə müdaxilə etməməlidir. Dövlət adamları ilə həmişə ziddiyyətdə olan Məhdulyanın naibləri də birdəfəlik ondan əl çəkməlidirlər. Demək istədiyimiz budur ki, onun hakimiyyətdə olması və dövlət işlərinə nəzarət etməsi qızılbaş tayfaları üçün böyük bir təhlükədir».

Qəzvində müqavimətlə qarşılaşan qızılbaş əmirlərinin bir neçəsi zor gücünə olsa da h.q. 987-ci il Cəmadiyəs-sani ayının biri şahın sarayına daxil olub Məhdulya xanımı qətlə yetirirlər. Atılan belə bir addım əslində taciklərin nüfuzunun alınmasına, Qazi Əhməd Quminin dediyi kimi, «Dövlət Bəyimə» qarşı yönəlirdi. Beləliklə, bu əhvalatdan sonra taciklərin də bir çoxunun evləri qarət, var-dövlətləri isə əmirlər tərəfindən müsadirə olundu. Həmən gün günortadan sonra qətlə yetirilənlərin cənazələri bir yerə toplanıb dəfn olundu. Qızılbaşlar şaha itaət etdiklərinə israr edib baş verənlərdə özlərini əsla müqəssir hesab etmirdilər. Onlar alim və müctəhidlərin qarşısında əlli bir and içib bir daha şaha vəfadar olduqlarını bildirirdilər. Beləliklə, sabitliyin bərqərar olunması üçün çarəsiz qalan Soltan belə bir addımı atmalı olur.

## *ŞAH MƏHƏMMƏD MİRZƏNİN SƏLTƏNƏT DÖVRÜNDƏ ÖZBƏK VƏ XORASANIN VƏZİYYƏTİ*

Neçə illər idi ki, Xorasan özbəklərin hücumundan amanda idi. Həm Səfəvi dövlətinin qüdrətli olması, həm də özbəklərlə müxtəlif Orta Asiya tayfaları arasındakı qarşıdurmalar əməli olaraq Xorasana olunan hücumların qarşısını alırdı. İranın qarşılaşdığı belə bir ağır şəraitdə özbəklər Xorasana hücum edib yerli əhalinin var-dövlətini qarət etmək, onlarda qorxu və həyəcan yaratmaq fikrinə düşürlər. Bu məqsədlə h.q. 986-cı ildə özbək Calal xan Vələd böyük bir qoşunla Əsfərəynə, Nişapur və Səbzivara hücum çəkir, yerli əhalinin külli miqdarda mal-qarasını qarət edir və oradan Məşhədə yola düşür. Bunun ardınca Məşhəd hakimi Soltan Murtəzaqulu qoşunu səfərbər edib Cama tərəf irəliləməkdə olan özbəkləri təqib etməyə başlayır. Kifayət qədər qoşuna malik olmadığından və kömək qüvvəsi gəlmədiyindən məcburiyyət qarşısında qalıb özbəklərlə mübarizəyə atılır, iki günlük ağır döyüşdən sonra çətinliklə olsa da onları məğlub etməyə nail olur. Döyüşdə min beş yüz özbək qətlə yetirilir və Calal xanın özü də əsir alınır. Qazi Əhməd Qumi yazır: «Qaliblər Məşhədə gəlib orada özbəklərin başlarından minarə tikdilər».

O zaman Hərat Xorasanın mərkəzi, oranın hakimi isə (sonrakı Şah Abbas) Mirzə Abbas idi. Lakin işlərin icraçısı Əliqulu xan idi. Qeyd etdik ki, Məhdulya Mirzə Abbasın Qəzvinə qayıtmasını istəmiş, lakin Hərat hakimi buna yol verməmiş və onun Həratda qalması yalnız Məhdulyanın qətlə yetirilməsindən sonra qəti olaraq müəyyən olunmuşdur.

## *XORASANDA BAŞ VERƏN DƏYİŞİKLƏR VƏ QIZILBAŞLAR ARASINDAKI İXTİLAFLAR*

Yeni şahın hakimiyyət dövründə Hərat və Məşhəddə baş verən hadisələr Məşhəd hakimi Murtəzaqulu xan ilə Hərat hakimi arasında qarşıdurmanın meydana gəlməsinə səbəb olur. Məlum məsələ idi ki, Osmanlıların İranın şimali-qərbini işğal etdikləri bir vaxtda Xorasanda qarşıdurmaların meydana gəlməsi özbəklərin şərqdən ölkə ərazisinə hücuma keçməsi ilə nəticələnəcəkdi. Bundan xəbərdar olan Hərat hakimi Mirzə Abbasın ixtiyarında olması ilə Murtəza Qulu xanı inadkarlıqdan əl çəkməsinə çalışır. Lakin Murtəzaqulu xan təkəbbürlü bir insan olduğu üçün sülhə sadiq qalacağına təkid edib Əliqulu xanı şaha müxalif kimi qələmə verir.

Hərat və Məşhəddə müharibə şəraiti yaranır və Hərat ordusu Məşhədə doğru irəliləməyə başlayır. Şəhərin kənarında baş verən ilk döyüşdə Məşhəd ordusu məğlub olur və Murtəzaqulu xan şəhərdə özünə sığınacaq tapmaq məcburiyyətində qalır. Şəhər dörd ay mühasirədə qaldıqdan sonra Hərat qoşunu oranı fəth edə bilir və az sonra Nişapur və Türbəti Cam şəhərləri də ələ keçirilir. Artıq bundan sonra Hərat ordusu geriyə qayıdır.

İranın şimal-qərbi işğal olunduqdan, Məhdulya xanımın ölümündən, nəhayət Xorasanda baş verən daxili qarşıdurmalardan sonra h.q. 988-ci il Səfəvi dövlətinin nə qədər zəiflədiyini müşahidə etmək olardı.

Baş verən hadisələr paytaxtda Şamlı və Ustaclu tayfalarının şaha qarşı çıxdıqları kimi işıqlandırılırdı. Əslində, şahın zəifləməsi qızılbaşların bir-birlərinə qarşı iki ziddiyyətli mövqe tutmalarına gətirib çıxardı. Məsələni ilk mərhələdə taciklərlə birgə Məhdulya və vəzir Mirzə Salmanı qətlə yetirməklə həll etdilər. Sonra isə öz aralarında Şamlı və Ustaclu tayfaları bir tərəfdə, türkmən və təklular da digər tərəfdən bir-biriləri ilə qarşı-qarşıya dururlar. Belə ki, ilk iki dəstə Mirzə Abbasın vəliəhdliyini, ikinci iki dəstə isə Mirzə həmzəni dəstəkləyirdi.

Bu səbəbdən də paytaxt qızılbaşlarının bir hissəsi Əliqulu xan Şamlının atası Hüseyn xanı bədnam etməklə yanaşı, Mirzə Həmzənin dayəsi olan həyat yoldaşının da saraydan çıxarılmasını təkid edir. Beləliklə, mərkəzdəki daxili vəziyyət yenidən öz axarına düşür. Yaranmış gərgin şəraitdə bu qadının özü və Hərat hakiminin atası olan həyat yoldaşı da qətlə yetirilir. Paytaxta nəzarət isə şahın ixtiyarına keçməzdən əvvəl qızılbaş əmirlərinin nəzarəti altına düşür.

Hərat və Məşhəddə baş verənlər Əliqulu xanın səltənətindən əl çəkib h.q. 989-cu ildə Mirzə Abbası taxt-taca çatanadək davam edir. Bir qədər sonra bu haqda ətraflı söhbət açacağıq.

Baş verən hadisələrlə yanaşı Qəyluyə məntəqəsində saxta ikinci İsmayıl tərəfindən həyata keçirilən üsyan mövcud vəziyyəti daha da gərginləşdirir. İsmayıla bənzəyən bu quldurun üsyanı yatırıldıqdan sonra başqaları da bu fəndən istifadə edərək ayrı-ayrı məntəqələrdə üsyan edirlər. Hərçənd ki, Mirzə İsmayılın dövrü hər yerdə özünü göstərməkdə idi. Bu üsyanların yatırılması Səfəvi dövlətinə baha başa gəlir. Qazi Əhməd Qumi bu haqda yazır: «Hələ çox-çox sonralar Mirzə İsmayılın hakimiyyət illəri bir çoxlarının dilindən düşmürdü».

## *OSMANLI DÖVLƏTİNİN GÜRCÜSTAN VƏ ŞİRVANI ƏLƏ KEÇİRMƏSİ*

İranla Osmanlı dövləti arasında yaradılan əlaqələrdə yadda qalan ən mühüm hadisələrdən biri də iyirmi illik sülh sazişinin öz qüvvəsini itirib yeni müharibə dövrünün başlanması olmuşdur. Belə ki, ilk qarşıdurma Azərbaycanla Van gölünün arasında məskunlaşmış kürd tayfaları arasında baş verir. İran ərazisində yaranmış gərgin vəziyyəti görən kürdlər Osmanlı dövlətinin qeyri-rəsmi himayəsi ilə Xoy və Salmas şəhərlərinə hücum edir və oranın hakimini və dörd yüz nəfərlik qoşununu qətlə yetirib qız-qadınlarını əsir götürürlər. Bununla kifayətlənməyən üsyançılar döyüşdə qətlə yetirilənlərin başlarını Osmanlı Soltanı Üçüncü Murada (h.q. 982-1003) göndərirlər. Şübhəsiz ki, bütün bunlar Osmanlıların təhriki ilə həyata keçmişdir və bunu h.q. 969-cu ildə Təhmasiblə Süleyman arasında bağlanılan sülh sazişinin açıq-aşkar pozulması hesab etmək olardı. Qızılbaşlar sonralar nə qədər səy göstərsələr də itirilmiş əraziləri geri qaytara bilmirlər. Kürd və Osmanlıların geniş işğalçı fəaliyyətini görən digər tayfalar da fürsətdən səmərəli istifadə edib yenidən baş qaldırıb və öz etirazlarını açıq-aşkar bildirməyə başlayırlar. Məkri tayfası da üsyançılara qoşulub Marağanın ətraf məntəqələrini ələ keçirirlər və onların ardınca Şirvan camaatı yenidən baş qaldırıb bu işdə həm Osmanlılardan kömək istəyir, həm də onların gələcək hücumlarına münasib şərait yaradırdı. Nəhayət, üçüncü Murad rəsmi olaraq İranla bağlanmış sülh sazişinin öz qüvvəsindən düşdüyünü elan edir və bundan sonra Şirvan və onun ətraf məntəqələrinə Gürcüstanadək qoşun yürüdür. O məntəqələr ki, bir vaxtlar

Təhmasib şah oranı böyük zəhmətlə öz ərazilərinə birləşdirməyə nail olmuşdu.

Lillah Paşanın min nəfərlik ordusu İstanbuldan hərəkət edərək Gürcüstan və Şirvana doğru üz tutur. İran dövləti ilkin mərhələdə Osmanlı dövlətinə dostluq məktubu yazıb ondan sülh sazişinin pozulma səbəblərini açıqlamasını istəyir. Lakin məktub İstanbula çatmazdan əvvəl Osmanlı ordusu ölkə sərhədlərini keçib Gürcüstan və Şirvana yaxınlaşır. Sərhədin bu tərəfində toplaşan nizamsız qızılbaş ordusu isə Azərbaycan ərazisində yerləşən digər tayfaların bir yerə toplaşmasını gözləmədən hücuma keçirlər. İlk döyüşlərdə zəfər çalsalar da, sonrakı döyüşlərdə ağır məğlubiyyətə uğrayıb böyük itkilər verirlər. Qazi Əhməd Qumi bu haqda yazır: «Azərbaycan ordusu məğlub edildi, neçə illər boyu topladığı var-dövlət qarət və tar-mar oldu». Osmanlılar yolda qarşılarına çıxan qalaları fəth edir, Tiflisə doğru irəliləyirdilər. Gürcüstanı işğal etdikdən sonra Şirvana doğru irəliləyib oranı da ələ keçirdilər. Yerli əhali könüllü olaraq Osmanlı ordusuna tabe olur və onlar elə bir ciddi itki vermədən hər şeyi öz nəzarətləri altına alırlar. Hücumlar zamanı tatarlar da Xəzərin Şimalından irəliləyib qızılbaşların var-dövlətlərinin ələ keçirilməsində yaxından iştirak edirlər. Bu tatarların İran dövlətinə qarşı gedən müharibələrdə ilk iştirakı idi.

Qayıdarkən Osmanlı ordusu bir daha qızılbaşların hücumuna məruz qalır və ilk toqquşmalarda məğlub olurlar. Lakin sonrakı döyüşlərdə qızılbaşların böyük bir hissəsini darmadağın edib onları ağır məğlubiyyətə uğradır və Ərzurumda özlərinə yer edirlər.

Ölkənin şimali-qərb hissəsində hər şeyi əldən verən Səfəvi dövləti Mirzə Həmzənin rəhbərlik etdiyi qoşunu oraya göndərir. Məhdulya xanımın iştirak etdiyi bu yürüşdə tatraların sərkərdəsi əsir götürülür və qarət olunmuş var-dövlət və əsir alınmış uşaq və qadınlar geri alınır. Beləliklə, Şirvan yenidən qızılbaşların ixtiyarına keçir. Lakin Məhdulya xanım ilə qızılbaş əmirləri arasında meydana gəlmiş ixtilaflar orduda irəliləyişin qarşısının alınmasına səbəb olur. Məhdulya xanım qətlə yetirildikdən sonra İran ordusu bir daha Xoy, Səlmas və Marağanı işğal etmiş kürdlərə qarşı mübarizə aparır və Şirvandan Təbrizədək itirdiyi ərazilərdə sabitlik bərqərar etməyə başlayır. Həmən dövrlərdə orduya hələ də Mirzə Həmzə rəhbərlik edirdi. Ordu Təbrizdə yerləşdirildikdən sonra tatarlar yenidən Şirvandan Təbrizə doğru hücuma keçirlər. Bu hücumlarda Dərbənd qalasında və Ərzurumda yerləşdirilən Osmanlı ordusu tatarlara yaxından köməklik edir. Onlar

Şirvana və Qarabağa hücum edir və orada qızılbaşları məğlub etdikdən sonra yenidən Tatarıstana qayıdırlar. Qızılbaşlar arasında meydana gələn ixtilaflar az qala daxili müharibəyə gətirib çıxaracaqdı. Lakin onlar son mərhələdə razılığa gəlib Mirzə Həmzəyə birləşirlər.

### *BİRTƏRƏFLİ SÜLH DANIŞIQLARI*

Baş verən hadisələrdən sonra osmanlı vəziri İran hakimi Mirzə Salmana təhdid və hədə qorxu ilə dolu bir məktub göndərir və orada sülhün bərqərar olunmasının mümkünlüyünü yalnız İran ordusunun Osmanlı dövlətinin ixtiyarında olan ərazilərə girməyə haqqı olmadığını qəbul etməsindlən sonra bildirir. Həm mübarizəyə qüdrəti çatmayan, həm də daxili ixtilaflara düçar olan qızılbaş ordusu Osmanlı dövlətinə kəskin cavab məktubu göndərir və orada Şirvanın qızılbaşların ixtiyarında olduğu və osmanlı dövlətinin oranı ələ keçirməli olduğuna təkid olunur. Lakin bütün bunlara baxmayaraq, şəhər qalası Osmanlıların ixtiyarında idi və qızılbaşlar onun ətrafında məskunlaşıb yalnız şəhərə gediş-gəliş edə bilmirdi.

Osmanlıların göndərdiyi növbəti məktub bir qədər mülayim tərzdə yazılır, lakin pərdə arxasında fəaliyyət göstərən həm Osmanlı, həm də tatar qoşunu mübarizəyə ciddi şəkildə hazırlaşırdı. Danışıqlar getdiyi ərəfədə tatarlar Şirvanda qızılbaşlara hücum edərək onları tar-mar edirlər. Beləliklə, İmadud-dövlə Mirzə Salmanın osmanlıları və onların müttəhidləri olan tatarları məğlub etmək üçün əl atdığı növbəti tədbir heç bir nəticə vermir və azuqənin azlığından Şirvanı tərk edib Qarabağa qayıdır. Qarabağa qayıdarkən Ustaclu rəhbəri Məhəmməd xan vəfat edir və bunun ardınca baş verən hərbi-siyasi hadisələrdə mühüm rol oynayan digər tayfalarla rəqabət aparan bu dəstə nəzərə çarpacaq dərəcədə zəifləyir.[1]

Şirvan Osmanlı dövlətinin ixtiyarında olan Dərbənd və Badukubə qalası üçün bir qapı idi. Bu səbəbdən də Osmanlı dövləti ilə yeni danışıqlar mərhələsi başlanır. Əldə olunan razılaşmalara əsasən Şirvan hər il Məkkə və Mədinədə sərf olunması üçün Osmanlı dövlətinə bir tona yaxın ipək verməli idi. Bu məqsədlə Səfəvi nümayəndəsi Osmanlı dövlətinə gəlir. Lakin bu səfər heç nəyi dəyişmir və osmanlılar yenidən döyüş hazırlığına gəlib başqa bir neçə məntəqəni də işğal edirlər. Qızılbaşların ixtiyarında qalan isə yalnız Qarabağ idi və burada Bəylərbəyi Quluxan hökmranlıq edirdi. Şirvan bütünlüklə Osmanlıların ixtiyarında olsa da, məntəqədə qızılbaş qoşununa da rast gəlmək olardı. İlin sonunda artıq Osmanlıların

---

[1] Bu hadisələr 988-ci ildə baş verir.

əsas müttəhidləri olan Dağıstan tatarları Qazi Gəray xanın rəhbərliyi ilə məntəqəyə qoşun yürüdürlər və əvvəlki hücumlarda adəti üzrə qalib gəldikləri üçün bu dəfə də qürurla Şirvan qızılbaşlarına hücum edirlər. Lakin bu dəfə tatarlar məğlub olur və sərkərdələri qızılbaşlara əsir düşür. Amma mərkəzi dövlətin zəifləməsi və daxili ixtilaflar çox keçmədən Şirvanın tamamilə qızılbaşların nəzarəti altından çıxıb osmanlı dövlətinin ixtiyarına keçməsinə səbəb olur. Həratda Əliqulu xanın üsyanı gücləndikcə qızılbaş ordusu İmadud-dövlə Mirzə Salmanın təkidi ilə şah və şahzadə ilə birgə Xorasana doğru hərəkət edir. Elə həmən vaxt osmanlıların Şirvana təyin olunan valisi Osman Paşa Osmanlı Soltanından İran şahının Xorasanda olmasından istifadə edib oraya qoşun göndərməsini istəyir. Osmanlı dövləti belə də edir. Onlar Fərhad paşanın rəhbərlik etdiyi qoşunu məntəqəyə göndərib İrəvanı da qızılbaşların nəzarəti altından çıxarıb özləri oraya hakim olurlar.

### *MİR ABBASIN ŞAH TƏYİN OLUNMASI VƏ XORASANA QOŞUN YÜRÜDÜLMƏSİ*

Qeyd etdik ki, Əliqulu xan Şamlı mərkəzi dövlətin Məşhəd hakimi Murtəzaqulu xanı dəstəklədiyi üçün mürşid Quluxan Ustaclu ilə birgə müqavimət göstərib məğlub etmək üçün əlavə qüvvə göndərir.

Bundan sonra Səfəvi şahı ilə sülh yaratmaq və onu Xorasana hakim təyin etmək fikrinə düşür. Bu, Mirzənin səltənətinə göz dikən başqa bir qızılbaş dəstənin istəyinin qarşısında atılan bir addım idi. Bu əhvalatlar h.q. 989-cu ildə baş verir və Mirzə Abbas Şah Abbas adlandırıldıqdan sonra Xorasan Mirzə Məhəmmədin səltənəti altında olan Əcəm İraqının qarşısında durub Mirzə Həmzənin vəliəhdliyini tələb edir.

Belə bir addım Şah Soltan Məhəmməd üçün tamamilə dözülməz idi. Bu səbəbdən də Azərbaycanda Osmanlılar tərəfindən bəzi çətinliklərin meydana gəlməsinə baxmayaraq o, ölkə ərazisində fəaliyyət göstərən ordunun böyük bir hissəsi ilə Mirzə Abbasın bayrağı altında qiyamçı hərəkatı yatırmaq üçün Xorasana yola düşür. Qızılbaş ordusu hələ o vaxtadək misli görünməyən hazırlıq vəziyyətinə gətirilir. Məlum məsələ idi ki, mübarizəyə hazırlaşan tərəf müqabilində əsgərlərini qızılbaşlar təşkil edəcəkdi. Bu isə qızılbaşlar arasında ixtilaf və düşmənçiliklərin daha da güclənməsindən savayı bir şey deyildi.

Qızılbaş ordusu Xorasana yaxınlaşdığı zaman Quluxanın mürşidi Türbət Camda sığınacaq tapır. Əliqulu xan isə Hərata gedir, şəhər divarlarından

kənarda məskunlaşır. Qızılbaşlar altı ay Türbət Cam qalasını mühasirədə saxlasalar da, oranı ələ keçirməyə nail olmurlar. Nəhayət, danışıqlar aparmağa razı olub Mürşid Quluxanı arxayın etməklə onu təslim edirlər. İndi artıq növbə Həratın idi.

Həratdan kənara çıxmış və Quriyan adlı məntəqənin yaxınlığında özünə yer edən şah Əliqulu xan gözlənilmədən Xorasan ordusundan on dəfə çox olan Əcəm İraq ordusunun hücumunun şahidi olur. Bunun üçün də Hərata qayıtmağa fürsət tapmır və İraq ordusu ilə qarşı-qarşıya durur. Baş verən qarşıdurmada qızılbaşlar biri-birini öldürmək istəməsələr də, Təkli türkmənləri qılınclarını Şamlı və Ustaclu tayfalarının üzərinə siyirib onların böyük bir hissəsini qətlə yetirirlər. Sonra isə fərar etmiş qoşunun yerdə qalan mallarını qarət edirlər.

Döyüşdə Xorasanın qeyri-rəsmi sərkərdələrinin qətlə yetirilmələrinə baxmayaraq, Əliqulu xan və Mirzə Abbas özlərini ayrı-ayrılıqda Hərata çatdırır və şəhər qalasını möhkəmləndirməyə başlayır. İraq ordusu şəhərə çatdıqda isə şəhər darvazası artıq möhkəm bağlanmışdı.

O biri tərəfdə isə ağlını itirmiş Mirzə Salman əsirlərin bir çoxunu qətlə yetirilməsinə dair fərman verir və bunun üçün də qızılbaşların nifrətin qazanır. Bu Mirzə Salmanın iqtidarının ən yüksək zirvəsi və övladlarının bir çox mühüm vəzifələri tutduqları bir dövr idi. Elə bir dövr ki, İraq ordusu Həratı mühasirə etmiş və Mirzə Salman əmirləri ittiham etməklə onlarda özünə qarşı nifrət hissini daha da artırmışdı. Bu da qızılbaş əmirlərinin hamılıqla onu qətlə yetirməyə dair qəti qərara gəlmələrinə səbəb olur. Mirzə Salman törədilən ilk sui-qəsdlərdən yaxa qurtara bilsə də az sonra qızılbaşlar hamılıqla ona qarşı baş qaldırır və onu həm dövləti yıxmaqda, həm də qızılbaşlarla düşmən olmaqda ittiham edirlər. Qızılbaşlar Mirzə Salmanı tacik hesab etidikləri üçün onun dövlətin hərbi işlərinə müdaxilə etmək ixtiyarı yox idi. Bunun üçün də o, yalnız dövlətin müamilə, alış-veriş və bu kimi sahələrində fəaliyyət göstərməli idi. Lakin Mirzə Salmanın qətlə yetirilməsi ilə bütün bunlara son qoyulur. Dərin şüur və düşüncəyə malik olan İsgəndər bəy öz təəssüratlarını gizlədə bilməyib onun haqqında yazırdı:

«Subhanallah! İnsanın xeyir hesab etdiyi bir şey, şər nəticə verir. Bütün səyləri ilə arzular bağına qovuşmaq istəsə də, tikanlı səhraya çataraq orada xar və rəzil olur».

Həm baş verən hadisələr, həm də Osmanlıların Azərbaycana hücum etməsi qızılbaşları təşvişə salır. Əlaqələr pozulsa da yenidən Əliqulu xanla sülh sazişi imzalanır. Bəzi nikbin və fədakar insanların sayəsində qızılbaş

sərkərdələrinin arasında da barışıq əldə olunur və Şah Əliqulu xana yeni ləqəb verib Məşhəd və Xorasanın digər şəhərlərinə yeni hakim təyin etdikdən sonra ordu ilə birlikdə paytaxta qayıdır. Beləliklə, Mirzə Abbasın da şahlığı bir qədər təxirə düşür. Lakin belə bir təxir heç də Əliqulu xanın həmən fikirdən yayınmaq mənasında deyildi. Əksinə, Əliqulu xanın mürşidi onunla möhkəm dost və Mirzə Abbasın səltənətinin möhkəm tərəfdarlarından biri idi. O, Məşhədə gəlib tədriclə buranı ələ keçirir və oranın hakimini şirin dillə şəhərdən çıxmağa vadar edir. Şəhərə hakim olduqdan sonra ətraf qəbilələrin və şəhər böyüklərinin diqqətini özünə cəlb edib mövqeyini daha da möhkəmləndirə bilir. Məşhəd Mirzə Abbasın tərəfdarları ilə ələ keçirildikdən sonra onun burada hökmranlıq etməsi üçün münasib şərait yaranır.

## *MİRZƏ MƏHƏMMƏDİN HAKİMİYYƏTİNİN SON İLLƏRİNDƏ BAŞ VERƏN HADİSƏLƏR*

Mirzə Məhəmməd Qəzvinə Məhdulyasız qayıdarkən öz vəzirini də Xorasanda itirmiş və Mirzə Abbasın səltənətini tələb edən bu məntəqədə heç bir dəyişiklik olunmamışdı. Əksinə olaraq, Azərbaycan və sair əyalətlərdə bir hissəsi itirilmişdi. Şahzadə Mirzə Həmzə həmən il, yəni h.q. 992-ci ildə Qəzvində güzəranını əyləncə və eyş-işrətdə keçirirdi. Belə bir ağır şəraitdə Azərbaycan hakimi ondan İranı təhlükədən qurtarmaq üçün lazımi tədbir görməsini istəyir. Şah kömək məqsədilə Azərbaycana yola düşür və əvvəldə Ərdəbilə, oradan isə Təbrizə gəlir. Şah qızılbaşların əlində bir alət olduğu və heç bir ixtiyara malik olmadığı üçün bir daha Təbrizdə oranın hakimi olan Əmirxan adlı əmirlərdən birinin əleyhinə üsyan olunur. Şah onu tutduğu vəzifədən kənarlaşdırır. O, özünün qalaya bənzər evinə qayıdıb dövlət işlərinə son qoyur.

Nə baş veriləcəyi artıq məlum idi. «Bütün qızılbaş tayfalarının nümayəndəlirinə və təbrizlilərə döyüşə hazırlıq əmri verilmişdi». Nəticədə Əmir xan öz məşuqəsi ilə birlikdə təslim olub Qəhqəhə qalasında həbs olunur. Az sonra Əmir xanın tərəfdarı olan türkmənlərin qiyam xəbəri Təbrizə çatır. Lakin buna baxmayaraq Əmir xanın edam olunmasına dair hökm çıxarılır. Bu isə bir tərəfdən qızılbaşlar, Ustaclu və Şamlı, digər tərəfdən isə Türkmən və Təkli tayfaları arasında yaranmış ixtilafların daha da güclənməsinə səbəb olur. Təkli və Türkmən tayfaları arasındakı ixtilaflar qanlı-qadalı müharibələrin meydana gəlməsinədək davam edir. Qızılbaşlar arasındakı ixtilaflar hələ də davam edirdi. Əgər bir tərəfdə sülh və əmin-

amanlıq yaradılırdısa, başqa bir yerdə yeni qarşıdurmalar meydana gəlirdi. Hətta Xorasan Şamlı və Ustaclu tayfaları belə Mirzə Abbasın səltənətinə göz dikirdi. Yaranmış ixtilaflar Məşhəd hakimi Mürşid Quluxanla Xorasan bəylərbəyi Əliqulu xan və Mirzə Lillah Abbas arasında Xorasanın Susefid adlı məntəqədə qarşıdurmaya gətirib çıxarır. Qazi Əhməd Qumi yazır: «Tərəflər qılınc və qalxana əl atdıqları zaman Mürşid Quluxanın tərəfdarları fürsətdən istifadə edib Mirzə Abbası qoşundan ayırıb Mürşid Quluxanın ordusuna, ordan isə Məşhədə aparırlar. Beləliklə, illər boyu Mirzə Abbasın səltənətinə göz dikən Əliqulu xan əliboş Hərata qayıdır və mürşid Quluxanın müqabilində onun yerini Mirzə Abbas tutur. İsgəndər bəy öz kitabında olduqca gözəl və fəsahətli ibarətlə Mirzə Həmzənin cavan yaşlarında törətdiyi fitnə-fəsadlar haqqında söhbət açır. Sonra isə şahın ağır məğlubiyyətlərinə işarə edərək böyük məharətlə məğlubiyyətlərin səbəb və amillərini təhlil edir. Əlbəttə, o, şah Abbasın tərəfdarı olan tarixçi olmuşdur və bunun üçün də şahın tutduğu dəyər və mövqeni açıqlamq üçün ondan əvvəlki dövrlər haqqında da ətraf söhbət açır.

## *TƏBRİZ CAMAATININ OSMANLILAR TƏRƏFİNDƏN QƏTLƏ YETİRİLMƏSİ*

İranın və şahın zəifləməsindən və qızılbaşlar arasında yaranmış ixtilaflardan tam agah olan Osmanlılar Təbrizi ələ keçirmək fikrinə düşürlər. İrana hücum etməyə israrlı olan Osman paşa h.q. 993-cü ildə böyük bir qoşunla Təbrizə hücum edir. İranı düşmən caynağından qurtarmağa gələn şah hətta şəhəri müdafiə edə bilmir. O, əl-ayağa düşüb bütün şəhərlərə məktub göndərir və onlardan düçar olduqları kiçik ixtilaflara göz yumub təəssüblə din və məzhəbin keşiyində durmağa çağırır. Göndərilən məktublarda Təbrizin qızılbaşların İrandakı yüz illik səltənət mərkəzinin olduğuna və təkidlə şəhərin müdafiəsinə çağırılsa da, türkmən və təkli qızılbaşları şahın Əmirxana olan münasibətini görüb Səfəvi ordusuna qoşulmqdan imtina edirlər. Qazi Əhməd Qumi yazır: «Fars, Kerman və İraq tayfalarından kimsə Humayun ordusuna qoşulmadı».

Şəhərin müdafiəsi üçün iki təklif irəli sürüldü. Onlardan biri Təhmasibin hakimiyyət dövründə də həyata keçirilən şəhərin tamamilə boşaldılıb azuqəsiz düşmənin ixtiyarına qoyulması, digəri isə şəhərdə qalıb oranı qızılbaşların himayəsi ilə müdafiə etmək idi. İsgəndər bəyin fikrincə, bir o qədər də düzgün olmayan ikinci təklif qəbul olunur və belə qərara gəlinir ki, bütün küçələrdə maneələr qurulub düşmənlə mübarizə aparılsın. Həmən

dövrdə yüz minlik orduya malik olan Təbriz özünün çiçəklənən dövrünü yaşayırdı. Buna isə səbəb olan Təhmasibin buraya yetirdiyi xüsusi diqqət idi. Belə ki, o şəhər əhalisini maliyyə verməkdən azad etmiş və əhali bunun sayəsində xeyli inkişaf edə bilmişdi.

H.q. 994-cü ildə sayı-hesabı bilinməyən Osmanlı ordusu Təbrizə hücum edir. «Osmanlılar ağır toplarla küçələrdə qurulmuş postları vurub dağıdaraq şəhəri ələ keçirirlər». Bu isə şəhər müdafiəsinin Osmanlıların hücumunun qarşısında tab gətirə bilmədiyindən xəbər verirdi. Məğlubiyyətin ardınca Osmanlı soltanının ümumi əfv fərmanını verməsinə baxmayaraq, camaat var-dövlətini gizlədib şəhəri tərk etmək qərarına gəlir. Çünki, bilirdilər ki, Osmanlılar onlara qarşı nə qədər kin-küdurət bəsləyirlər və məzhəblərini dəyişdikləri üçün onları bağışlamayacaqdır. Belə bir təsəvvür tamamilə doğru idi. Belə ki, osmanlılar şəhərin mərkəzi dövlətxanasında istehkamlı qala tikdirir və oraya xeyli azuqə yığdıqdan sonra əhalini qətliam olunmasına dair fərman verirlər. Bütün bunlar isə Təbriz camaatının osmanlılara vaxtaşırı zərbə vurduqlarından sonra baş verir.

Qazi Əhməd Qumi Osmanlıların şəhərə daxil olmaları haqqında yazır: «Məscid və minarələr orada səhabələrin ünvanına xoşagəlməz sözlər deyildiyi üçün od vurub yandırılır. Alim və xəttatların təlif etdikləri minlərlə kəlam və hədis kitabları da od-alov içində qalaraq məhv olub aradan getdi».

Məlum məsələ idi ki, Osmanlılar Təbrizdə qala bilməzdilər. Bunun üçün də şəhəri qorumaq məqsədilə orada istehkamlı qala tikirlər. Qızılbaşlar şəhərdən kənarda mübarizə apardıqları zaman Osmanlılar Təbrizdə qala tikməklə məşğul idilər. Qızılbaş sərkərdələrindən bəziləri şahdan hücumu Osmanlıların gedişinədək bir qədər təxirə salmasını və onlara şəhəri tərk etdiklərindən sonra hücum etmələrini istəyirlər. Lakin şah mübarizəyə can atırdı. Bunun üçün də qızılbaşların ilk hücumu çox böyük dəqiqliklə həyata keçirilir. Hücum zamanı Osmanlıların qoşununa ağrı zərbə endirilir. İkinci hücumda şəxsən şahın özü də iştirak edir və bu dəfə osmanlılar məğlub edilməklə yanaşı sərkərdələrindən biri əsir götürülür, digəri isə qətlə yetirilir. Həmən günlərdə Osman paşa ruhi xəstəliyə düçar olur və Ramazan ayında Təbriz camaatının qətliamına dair fərman verir.

Qazi Əhməd Qumi bu haqda yazır: «Yeddi-səkkiz min insan qətlə yetirildi, yüzlərlə yaşlı qadın ağır qılınc yarası aldı və bir neçə seyid və alim şəhadət şərbətini içdi. Südəmər uşaqlar ayaqlar altına atılıb axirət dünyasına qovuşduruldu. Yeddi-səkkiz minə yaxın gözəl simalı, huri gözlü qız-

gəlinlər, azyaşlı uşaqlar əsir götürülərək Osmanlı əsgərləri arasında paylandı və onlarla alış-veriş olundu».

Şerlərdən birində deyilir:

«Təbriz ah-naləli Kərbəla idi; fərq var idisə, o da Hüseyn müsibətinin Məhərrəmdə, Hüseyn aşiqlərinin bu müsibəti Ramazanda alması idi».

Baş verən qanlı hadisələrin şahidi İsgəndər bəy şəhərə daxil olduqdan sonra orada gördüklərini belə vəsf edir: Qızıl və lazur ilə bəzədilən evlər viran olunmuş, gözəl naxışlarla bəzədilən qapı-pəncərələr yanğınlar nəticəsində külə dönmüşdü. Bağ-bağatlar kəsilib hər yer xarabalığa çevrilmişdi. Şəhərə o qədər ziyan dəymişdi ki, hətta min evdən biri belə yaşamaq üçün yararlı deyildi. Bütün dükan, iki mərtəbəli ev və hamamlar viran olmuşdu. Təbrizlilərin cəsədləri ev, küçə və bazarlarda eləcə qalmışdı. Hər zaman şad və xürrəmlik hiss olunan şəhərdə qəm-qüssə və kədərdən savayı bir şey görmək olmurdu. Və bütün bunlar daş ürəkli işğalçıların rəhmsizlik və insaniyyət hissindən məhrum olmalarından xəbər verirdi».

Bu qorxunc səhnənin şahidi olan şair Füruği şerlərinin birində yazırdı:

«Kərbəla hadisəsi dərdimə təskinlik verir, qəlbim Təbriz həsrətində və Təbrizdən daha viran.»

Qızılbaşlar üçüncü dəfə Osmanlılara hücum etmək istədikdə, Osman paşanın ölüm xəbərini eşidirlər. Həmən günün səhəri Osmanlı ordusunun sərkərdəsi Çoğal oğlu orduya geri qayıtmaq əmrini verir. Təbriz qalasının tikilişi də başa çatır. Lakin Cəfər paşa hələ də bir neçə osmanlı ilə orada qalmaqda idi. Qızılbaşlar ordusu Osmanlıları təqib edir və onlara çatdıqları məntəqələrdə mübarizəyə atılırdılar. Lakin qızılbaşların həm zəifliyi, həm də qənimət hərisliyi Səfəvilərə osmanlıları tamamilə məğlub etməyə imkan vermir. İsgəndər bəy qızılbaşların ən böyük faciəsini daxili çəkişmələrdə görürdü. Belə ki, birisi zəfər əldə edə bilməsin deyə başqa birisi onun məğlubiyyəti üçün lazımi şəraiti yaradırdı. Beləliklə, Osmanlılar bir daha Təbrizin işğal və itirilməsini xiffət və rüsvayçılıqla təcrübədən keçirdilər. Onlar başa düşdülər ki, təbrizlilər onların «həzrət» adlandırdıqları soltanlara heç vaxt baş əyməyəcək və onun əmrinə tabe olmayacaqlar. Baş verən hadisələrdə osmanlılar hələ də Təbriz qalasında qalmaqda idilər. Bu isə Səfəvilər üçün böyük rüsvayçılıq demək idi.

## *OSMANLILARIN TƏBRİZ QALASINDAKI HÖKMRANLIĞI VƏ QIZILBAŞ SƏRKƏRDƏLƏRİ ARASINDA YARANMIŞ İXTİLAFLAR*

İndisə növbə Təbrizin mərkəzində yerləşən Osmanlı qalasının fəthi idi. Elə bir möhtəşəm yer ki, qızılbaşlar yüz il əvvəl oranı inşa etmiş və oradan dövləti idarə etmişlər. Şah qızılbaşlara ehtiyatla hərəkət etməyi tövsiyə etsə də, Şahrux xan özbaşına qalaya hücum edir və nəzarətçilər tərəfindən əsir götürülür. Düzəldilmiş toplar da hələ də istifadəyə hazır olmadıqları üçün atəş açarkən ətrafdakılara ciddi xəsarət yetirir. Bu qızılbaşların əhval-ruhiyyələrinin daha da soyumasına səbəb olur. Lakin qızılbaşların ən böyük çətinliyi daxili ixtilafların yenidən meydana gəlməsi idi. Belə ki, Humayun naiblərinin intiqamından qorxan Qulubəy Gurçubaşı qalaya daxil olub rumlulara (osmanlılara) birləşir. Qazi Əhməd bu haqda yazır: «Osmanlılar bu hadisədən sonra aləmə haray salıb toy-bayram etdilər».

### *SƏFƏVİ DÖVRÜNDƏKİ OSMANLI SULTANLARI*

| | |
|---|---|
| İkinci Sultan Bayəzid xan | 886-918 |
| Birinci Səlim xan | 918-926 |
| Qanuni Soltan Səlim xan | 926-974 |
| İkinci Soltan Səlim xan | 974-982 |
| Üçüncü Soltan Murad xan | 982-1003 |
| Üçüncü Soltan Məhəmməd xan | 1003-1012 |
| Birinci Soltan Əhməd xan | 1012-1026 |
| Birinci Soltan Mustafa xan | 1026-1027 |
| İkinci Soltan Osman xan | 1027-1031 |
| (İkinci dəfə) Birinci Soltan Mustafa xan | 1031-1032 |
| Dördüncü Soltan Murad xan | 1032-1049 |
| Soltan İbrahim xan | 1049-1058 |
| Dördüncü Soltan Məhəmməd xan | 1058-1099 |
| İkinci Soltan Süleyman xan | 1099-1102 |
| İkinci Soltan Əhməd xan | 1102-1106 |
| İkinci Soltan Mustafa xan | 1106-1115 |
| Üçüncü Soltan Əhməd xan | 1115-1143 |
| Birinci Soltan Mahmud xan | 1143-1168 |

Qum, Savə və Kaşanın ətraf məntəqələrində məskunlaşmış Təkli tayfaları zahirdə şaha kömək etmə, əslində isə Təbrizdəki ictimai-siyasi vəziyyətə nəzarət etmək və Şamlı, Ustaclu tayfalarını aradan götürmək məqsədilə Təbrizə yola düşürlər. Bir çoxlarına məlum idi ki, belə bir böyük kütlənin Təbrizə gəlməsi heç də kömək məqsədilə olmamışdır. Onların yeganə məqsədi olmuşsa, o da ictimai-siyasi vəziyyəti daha da gərginləşdirmək və fitnə-fəsad törətməklə mərkəzi dövlət üçün çətinliklər yaratmaq olmuşdur. Belə ki, onlarla şah arasında aparılan məktub yazışmalarında şahdan Şamlı, Ustaclu tayfalarının nüfuzunun qarşısını almaq və onların Xorasanda dövlət üçün bir çox çətinliklər törədəcəklərinə təkid olunmuşdur. Lakin müzakirələr heç bir nəticə vermir və üsyançılar Təbrizə doğru irəliləyirlər. Təbrizin Təkli və Türkmən tayfalarının qaçaraq onlara birləşdiklərindən sonra vəziyyət daha da gərginləşir. Bu dəfə üsyançılara Zulqədə tayfası birləşir və onlar Təbriz hakimi Əmir xanın qatilini tələb edirdilər. Onlar təkidlə bildirirdilər ki, əgər Ustaclu Əliquluxan Əmirxanın qatilidirsə, onun müqabilində qətlə yetirilməli və bununla asayişə nail olmaq lazımdır. Təbrizin nüfuza malik olan alimlərindən olan Mir Əbulvəli Əncəv bu istiqamətdə nə qədər vasitəçilik etsə də heç bir nəticə vermir. Əvəzində gürcülər arasında olan Təbriz qızılbaşlarının bir qismi vəziyyəti daha da ağır görürdülər. Bu səbəbdən də vəziyyəti sakitləşdirib şəhərə daxil olduqdan sonra qalanı osmanlılardan almaq məqsədilə Əliqulu Xan Ustaclunu və tərəfdarlarını qətlə yetirmək qərarına gəlirlər. Nəhayət, üsyançılar şəhərə daxil olub şahın iqamətgahına hücum edərək öz tələblərini elan etdilər. Lakin üsyan şahın Əliqulu xanı himayəsi ilə tez bir zamanda yatırdılır və vəziyyət az da olsa sabitləşir. Hadisələrin baş verdiyi ərəfədə hələ də qızılbaşların sufiliyə rəğbət bəsləmələri yolu ilə birləşdirilməsinə can atılırdı. Tarixçilər bu haqda yazırlar: «Müxtəlif tayfa və oymaqların[1] sufi və ağsaqqalları şahın məclisinə toplandı. Müzakirə və müşavirədən sonra şah onlara üz tutub dedi: Mürşidin istək və iradəsilə müxalif olan şəxsin cəzası nədir? Mürşidin istək və iradəsinə müxalif olan şəxsin ətini çiy-çiy yiyərik. Bunu deyib Allah! Allah! Şüarı verərək məclisi tərk edirlər. Lakin bütün bunlarla da heç bir nəticə əldə etmək olmur».

Beləliklə, şəhərdən kənarda olan üsyançıların tələbləri həll olmayıb meydana gələn çətinlik başqa bir daha ciddi çətinliklə əvəz olunur. Çünki Təhmasibi şahın iqamətgahından oğurlayıb öz yanlarına apara bilirlər. İndi

[1] Birlikdə onlar 32 tayfa və qəbilədən ibarət idilər.

artıq onlar şahzadənin vəliəhdlik məsələsi haqda söhbət apara və əcəm İraqında öz nəzarətlərini daha da gücləndirə bilərdilər. Bu məqsədlə onlar əcəm İraqına qayıdıb Qəzvində məskunlaşmaq qərarına gəlirlər. Baş verən hadisələrdən sonra qoşun qalanı mühasirə etmək üçün Təbrizdə qalır və Mirzə Həmzə h.q. 995-ci ilin novruzunda iraq üsyançılarını yatırmaq üçün oraya yola düşür. Beləliklə, şahzadə Mirzə Həmzənin rəhbərliyi ilə böyük bir ordu səfərbər olub üsyançılara qarşı döyüşə hazırlıq vəziyyətinə gətirilir. Baş verən şiddətli döyüşdə təkli və türkmən tayfaları tüfənglə Mirzə Həmzəninin qoşununua ağır zərbələr endirib böyük bir hissəsini həlak edir və bir çoxunu da döyüş meydanını tərk etməyə vadar edirlər. Lakin bütün bunlara baxmayaraq, Mirzə Həmzə müqavimət göstərir və fəryad edərək deyirdi: «Kim şəhadət şərbətini içmək istəyirsə, mənim rəfiqimdir. Rahatlıq axtaranlar isə qoy getsinlər, Allah amanında!» Bundan sonra qoşunun böyük bir hissəsi yenidən döyüş meydanına qayıdıb üsyançılara hücuma keçirlər. Şahzadənin kənarında olan İsgəndər bəy qoşunun yenidən döyüş meydanına qayıtmasını xariquladə bir hərəkət adlandıraraq həmən səhnəni belə vəsf etmişdir: «Mirzə Həmzənini qoşunu azsaylı döyüşçü ilə düşmənlə mübarizə aparırdı. Elə bu vaxt Allah tərəfindən onlara kömək gəldi və düşmən məğlub oldu. Təbriz ordusu qalib gəldikdən sonra Ustaclu və Şamlı tayfaları müxaliflərini təqib edib çatdıqlarını qılıncdan keçirirdilər. Şahzadə camaatı qətliam etməyi qadağan etdi və beləliklə, vəziyyət yenidən sakitləşdi».

## *OSMANLILARIN TƏBRİZDƏ QALMALARI VƏ MİRZƏ HƏMZƏNİN QƏTLİ*

Qəzvin üsyanı yatırıldıqdan sonra tam yarısını itirmiş qızılbaş ordusu Təbrizdə tikdikləri qalanı ələ keçirmək üçün buraya qayıdırlar. Toplar hazır vəziyyətə gətirildikdən və hücum üçün lazımi tədbirlər görüldükdən sonra Fərhad paşa qalanın alınmasına mane olmq üçün bir daha Təbrizə qoşun göndərir. «Tüfənglərlə silahlanan qala müdafiəçiləri qızılbaşlara müqavimət göstərib başlarının üzərinə od yağdırırlar».

Hər şeyi Allahın qəza-qədəri ilə əlaqələndirən İsgəndər bəy bu haqda yazır: «Qalanı yalnız şah Abbasın zamanında almaq mümkün olur və bunun üçün olunan bütün səylər heç bir nəticə vermir».

Neçə illik təcrübələr osmanlıların gəlişilə əlaqədar şəhərin tamamilə boşalmasını tələb edirdi və bu belə də olur. Osmanlılar şəhərə daxil olurlar. Onlar qala mühafizəçilərini yeniləri ilə əvəz etməklə yanaşı onları illik azuqə ilə də təmin edib dərhal geri qayıdırlar.

Bir sözlə, qalanın məsələsi hələ də həll olunmamış qalırdı. Həmən dövrdə Fərhad paşa Osmanlı dövləti tərəfindən İran şahına belə bir peyğam göndərir: «Sizinlə bu şərtlə sülh müqaviləsi bağlayırıq ki, osmanlı dövlətinin ixtiyarında olan ərazilərin geri qaytarılmasını bir daha tələb etməyəsiniz». Hər il beləcə ərazilərin itirilidiyini görən saray adamları sülh sazişinə öz razılıqlarını bildirir. Bir şərtlə ki, Osmanlı dövləti Təbrizdən geri çəkilmiş olsun. Belə qərara gəlinir ki, bir Səfəvi şahzadəsi Osmanlı sarayına getsin və bununla da İran dövləti onların qızılbaşların yüz illik evini tərk etdiyinə əmin olsun. Elə həmən vaxt şahzadə Mirzə Həmzə istirahət və eyş-işrət üçün dünyanın ən gözəl guşələrindən biri olan İsfahana gəlir. Lakin günlərin biri məst halında yatağına girərkən naməlum səbəblər üzündən illər boyu ona xidmət etmiş qulluqçularından biri (h.q. 994-cü ilin zilhiccə ayının 24-ü) xəncər ilə onu qətlə yetirir. Beləliklə, Səfəvi dövlətindəki qeyri-sabit vəziyyət yenidən gərginləşir. Çünki, öldürülən şəxs o vaxtlar bütün işlərin icraçısı olan yeganə vəliəhd idi. Mirzə Məhəmməd, Mirzə Abbasın böyük oğlu olmasına baxmayaraq ondan sonra başqa bir oğlu Mirzə Əbu Talibi vəliəhd seçir. Təbii ki, paytaxt qızılbaşları başda Ustaclu Əliquluxan oğlu və İsmayıl Quluxan olmaqla Məşhəd mürşidinin ixtiyarında olan Mirzə Abbasın səltənətinə razı deyildilər. Çünki, belə olduqda işlərin idarə olunması ixtiyarından xaric olacaqdı.

Mirzə Məhəmməd və oğlu Mirzə Həmzənin hakimiyyət illərində (h.q. 985-996-cı illər) İranın şimal ərazilərinin itirilməsi istisna olmaqla, ölkə qızılbaşları arasındakı ciddi ixtilaf və qarşıdurmaları təcrübədən keçirdi. Bunun isə ən başlıca səbəbi şahın zəifləməsi və qızılbaşların qürur və təkəbbürlüyü idi. Bu İran ərazisində baş verən siyasi qarşıdurmalar, ardı-arası kəsilməyən üsyanlar və ölkənin öz siyasi axarından çıxaraq hərci-mərcliyə düçar olduğu bir dövr idi. Əgər bu belə davam etsəydi sözsüz ki, Səfəvi dövləti birdəfəlik süquta uğrayıb öz fəaliyyətini bir dəfəlik dayandırımalı olardı. Lakin Mirzə Abbasın hakimiyyətə gəlişilə ölkədə nəinki bütün çətinliklər aradan qaldırılır, hətta öz qüdrət və iqtidarını bir daha özünə qaytarır.

## *BİRİNCİ ŞAH ABBASIN HAKİMİYYƏT DÖVRÜ*

Bu vaxtadək Mirzə Məhəmmədin oğlu Mirzə Abbasın uşaqlıq dövrü haqqında ümumi məlumatlar vermişdik. Qeyd etdik ki, ikinci İsmayıl bütün Səfəvi şahzadələrini qətlə yetirmiş və onlardan sağ qalanı yalnız Mirzə Məhəmməd və oğlu Mirzə Abbas olmuşdur. İsmayıl onun oğlanlarını da

öldürmək qərarına gəlir, lakin Soltan Mirzə Həsəni Tehranda qətlə yetirdikdən və onun ölümünə dair fərman verib Hərata adam göndərdikdən sonra özü də dünyasını dəyişir və hökm icra olunmaz qalır.

Bundan sonra Xorasanın bəylərbəyi Əliqulu xan Şamlı öz mövqeyini gücləndirmək üçün Mirzə Abbasın vəliəhdlik məsələsini ortaya atır. O, mürşid Quluxanla yol yoldaşı olmağa da nail olur və mərkəzi dövlətə qarşı mübarizə aparmağa başlayır. Bunun da qeyd etdik ki, mərkəzi dövlət onun müxalifətinin qarşısını ala bilməyir və heç bir nəticə əldə edə bilmədən əliboş Xorasana qayıdır. Lakin az sonra Mürşid Quluxanla Əliqulu xan arasında qarşıdurma baş verir. Bu dəfə Əliqulu xan məğlub olur və Mirzə Abbas Məşhədə gətirilir və Xorasana nəzarət mürşid Quluxanın ixtiyarına keçir. Mirzə Məhəmmədin rəsmi vəliəhdi Mirzə Həmzə qətlə yetirildikdən sonra şah qızılbaş rəhbərlərinin istək və tələblərini nəzərə alaraq Mirzə Əbu Talibi özünə vəliəhd seçir. Şahın zəifləməsi və qızılbaşlar arasında davam edən ixtilaflar və qarşıdurmalar müxaliflərinin bir çoxunun Mürşid Quluxana birləşib Mirzə Abbasın vəliəhdliyini qəbul etmələrinə səbəb olur. Böyük nüfuza malik olan müxaliflərdən biri də bir vaxtlar Əliqulu xan Şamlı ilə birlikdə mərkəzi dövləti müdafiə edən Murtəza Quluxan idi. Türkmənlər ona sadiq olduqlarını bildirdikləri və kömək qüvvəsi İraqa doğru hərəkət etdiyi bir halda Mirzə Abbasın hamisi Məşhəd hakiminə xəbər göndərir. Bu Xorasan ordusuna İranın mərkəzinə gəlmək üçün olunan ilk çağırış idi. Əlbəttə Murtəza Quluxan Mürşid Quluxanın gəlişindən əvvəl vəfat edir. Maraqlı hallardan biri də budur ki, özünü zor gücünə Kaşana hakim təyin edən türkmən Vəlican xan özünü Abbasi adlandırıb Xorasana xəbər göndərir. Bundan belə kim Səfəvi dövlətlərinə qarşı çıxsaydı, Abbasilərin birinə çevrilərək Xorasan üsyanına qoşulmuş olurdu. Mirzə Həmzənin qətlindən sonra İranın ictimai-siyasi vəziyyəti o qədər gərginləşir ki, müxtəlif məntəqələrin əmirləri müstəqillik fikrinə düşüb mərkəzi dövlətə tabe olmaqdan imtina etməyə başlayırlar. Demək olar ki, belə bir əhval-ruhiyyə İranın bütün əyalət və məntəqələrinə hakim olub daxili qarşıdurmalar daha geniş vüsət almağa başlayır. Şah Abbasın havadarlarından olan İsgəndər bəy onu öz əsərində qeyb aləmindən İrana gələn nicat verici qəhrəman kimi vəsf edir. Qeyb barədə deyilənləri kənara qoysaq, onun haqda deyilənləri həqiqətə uyğun hesab etmək olar. O, Fars, Azərbaycan və Əcəm İraqında yaranmış hərci-mərcliklər haqqında söhbət açdıqdan sonra yazır: «Azərbaycan, Fars, Kerman, İraq, Xuzistan əhalisinin əhval-ruhiyyəsi zəifləmiş və qoşun üzərinə hakim olduğundan öz

heysiyyətini itirib köləlik həddinə gəlib çatmışdır. Ordu və əhali başlı-başına qalıb qeyb aləmindən gələcək xilaskarın intizarında idi. H.q. 995-ci ilin axırlarında belə bir xilaskar baş qaldırıb azadlıq bayrağını ucaltdı və öz kölgəsini İran ərazisinə saldı».

Mirzə Məhəmmədin hakimiyyət dövrünün son illərində baş verən hadisələr onun dövlət işlərinə heç bir müdaxiləsi olmadığından xəbər verir. Belə ki, bütün ixtiyar qızılbaşların əlində olmuş və Humayun ordusunu istədikləri yerə sürükləyə bilmişlər. Onlar təkcə başqalarına deyil, bir-birlərinə də nifrət bəsləmiş və daim qorxu və hürkü içində olub heç nə əldə edə bilmirdilər. Camaatda vaxtaşırı şəhəri ələ keçirərək üsyan edən əmirlərin əlindən təngə gəlmişdi. Var-dövlətlərinin müsadirə olunması və artıq maliyyələrin alınması onları dözülməz vəziyyətə gətirib çıxarmışdı. Qüvvələr İsfahanda toplandıqdan sonra hər şeydən əl çəkib Qəzvinə qayıtmalarını tələb edən iki mühüm xəbər eşidirlər. Onlardan biri özbəklərin Hərata hücum edib oranı ələ keçirmələri, digəri isə Mürşid Quluxanın Qəzvinə tərəf gəlməsi olur.

## *MİRZƏ ABBAS VƏ MÜRŞİDQULU XANIN QƏZVİNƏ GƏLİŞİ*

H.q. 966-cı ildə Mürşidqulu xan əcəm İraqına yola düşür. Onun belə bir qərara gəlməsinə isə iki əsas səbəbi var idi. Onlardan biri Səfəvi dövlətinin tamamilə parçalanıb və İranın Mirzə Abbasın hakimiyyətini qəbul etməsi olmuşdur. Belə ki, o, Mirzə Abbasın adından qızılbaş əmirlərinə məktub[1] göndərir və belə məlum olur ki, hələ çox-çox əvvəllər səltənət fikrində olmuş və bundan əvvəl yanına humayun naiblərindən böyük olduğu üçün böyük qardaşı  Mirzə Həmzəni Azərbaycan, Şirvan və İraqa hakim təyin edir. Göndərdiyi məktubda buna da söz verir ki, Xorasanda vəziyyət sabitləşdirdikdən sonra yenidən Qəzvinə qayıdacaqlar.

İkinci əsas amil isə özbək Abdullah xanın Hərat və Məşhədi ələ keçirmək fikrində olması və tam ciddiyyətlə hücuma hazırlaşması olmuşdur. Mürşidqulu xan çox gözəl bilirdi ki, qızılbaş ordusunun köməyi olmadan Məşhədi müdafiə edə bilməyəcəkdir. Bu səbəbdən də mümkün qədər tez İraqa getmək qərarına gəlir. O, İraqa o zaman yola düşür ki, artıq Qəzvində kimsə qalmamış və Səfəvi paytaxtınadək bütün maneələr aradan götürülmüşdü. Çünki Səfəvi şahının ordusu bu zaman İsfahanda idi və o, buradan cənub əyalətlərdəki vəziyyəti sabitləşdirmək üçün Yəzd və Kermana getməyə hazırlaşırdı. Beləliklə, şah Əcəm İraqına yola düşür və

[1] Əhsənuttəvarixdə məktubun tam mətni dərc olunmuşdur.

Damğanda türkmən Murtəza Quluxanın yaxın qohumlarından bir çoxu onu tayfasının adlamlarına qoşulur. Elə bir vaxt ki, artıq Semnan da onların üzünə açılmış və növbə Qəzvinə çatırdı. Tarixçilər yazırlar: «Şəhərin zadəganları Mirzə Abbasa qoşulmaq istəməsəlr də qara camaat böyük həvəslə qoşunun qarşısına çıxıb şaha və onun ordusuna şüarlar verirdilər. Məşhəd qoşunu heç bir çətinlik çəkmədən Qəzvinə daxil olur. Beləliklə, Mürşidqulu xan Ali divana nəzarəti tamamilə öz üzərinə götürür və səltənətin bütün işləri yeni istiqamətdə aparılmağa başlanır. Qeyd etmək lazımdır ki, bu dövrdə aparılan siyasi səylərdə daha çox əhəmiyyət kəsb edən iş var idisə, o da müxtəlif qollara bölünən ayrı-ayrı tayfa rəhbərlərinin irəli sürdükləri istək və tələblərin həyata keçirilməsi idi. Daha çox əhəmiyyət kəsb edən isə Xorasan və Əcəm İraqının ətraf məntəqələrində məskunlaşmış tayfaların qızılbaş əmirlərinin istəklərini qəbul etmək istəmələri və bunun üçün də Mirzə Abbası siyasi səhnəyə daxil edib onu himayə etmələri olmuşdur.

Humayun ordusu İsfahandan çıxarkən Mirzə Abbasın Qəzvinə daxil olduğunu eşidir. Bu səbəbdən də əl-ayağına düşüb Zulqədr tayfasından olan Qum hakimi Əliqulu xan şəhər qalasını onların üzünə bağlayıb deyir: «Qurğulu tayfası mənim gəlişimə mane olub Mirzə Abbasın tərəfini saxlamağa başladı».

Ailəsi Qəzvində olan qoşunun böyük bir hissəsi şahla birgə belə bir vəziyyəti görcək sərkərdələrdən icazə almadan Qəzvinə yola düşürlər. Əliqulu xan və İsmayılquluxanın qoşunu arasında yaranan ixtilaflar vəziyyətin daha da gərginləşməsinə səbəb olur. Bunun üçün də razılığa gələ bilmirlər. Belə ki, irəli sürülən təkliflərdən biri ordunun müvəqqəti olaraq Həmədana göndərilməsi və bununla da Mürşid Qulxanın gördüyü tədbirlərə son qoymaq olmuşdur. Başqa bir təklif isə ordunun böyük bir hissəsinin ev və ailələrinin Qəzvində yerləşdirilməsi və Həmədana getdikləri təqdirdə Qəzvin qoşunundan üz çevirib oraya qaçacaqları ilə əlaqəli olmuşdur.

Düzgün qərar qəbul olunmazdan əvvəl Mürşidqulu xanın İsmayılquluxan Şamlıya dəvət və dostluq məktubu çatır və ondan Şamlıların nümayəndəsi kimi gələcək dövlətdə iştirak etməsini istəyir. Ustaclu Əliqulu xanın tayfası çox gözəl bilirdi ki, bir tayfadan iki nəfər eyni zamanda gələcək dövlətdə mühüm vəzifələrdən birini tuta bilməz.

Qızılbaş ordusunun bir çoxuna məlum olan işlərdən biri də Mürşidqulu xanın on il müddətində özbək və Osmanlılar tərfindən işğal olunmuş ərazilərin geri qaytarılması idi. Belə olduqda bütün qızılbaşların yeni

hakimiyyətin, yəni Mirzə Abbasın ətrafında toplanmağa qeyri-mümkün idi. O, belə bir təqdirdə, şahın, daha dəqiq desək, İsmayıl Əli Qulu xan və Əliqulu xan tərəfindən təyin olunan nümayəndələrin vasitəsilə mehribanlıqla rəftar edəcəyini bildirir.

Belə bir birliyə çağırış hamı üçün qəbul oluna bilərdi. Çünki, xarici qüvvələrin hücum etmələrinə hamı ehtimal verirdi. Bu elə bir sabit prinsipdir ki, xarici təyziqlər aradan qaldırıldıqda daxili ixtilaflar meydana gəlmiş və ya əksinə, xaricdən təzyiq göstərildikdə daxili tayfa və dəstələr arasında sıx birlik və həmrəylik meydana gəlmiş və böyük bir ordunun yaradılması ilə xarici təcavüzkarın qarşısı alınmışdır. Mürşidqulu xan bu xəbərləri öz müxaliflərinə Təhmasib şahın dövründən təkcə Qəzvində deyil, İranın bütün nahiyələrində ən nüfuzlu və görkəmli alimlərdən olan Seyid Hüseyn Kərəkini vasitəsilə göndərir.

Lakin çox keçmədən qızılbaş ordusu tamamilə parçalanır və təkcə qoşun deyil, ümumiyyətlə hamı Qəzvinə doğru hərəkət etməyə başlayır. Ordu rəhbərləri, o cümlədən Əliqulu xan və İsmayılquluxan Qəzvinə gəlir və beləliklə Mürşidqulu xan heç bir çətinlik çəkmədən və bir nəfərin də olsun, qanını tökmədən dövlət çevrilişi edərək hakimiyyəti tam başqa bir istiqamətdə yönəldir.

## *ŞAH ABBASIN HAKİMİYYƏT DÖVRÜ*

Şah və onun rəsmi vəliəhdi Mirzə Əbu Talib h.q. 995-ci ilin son günlərində Qəzvinə daxil olduqları gün Mirzə Abbasın görüşünə gedib bir neçə ildən sonra bir-birlərini möhkəm qucaqlayıb öpürlər. Şahın çarəsizlik üzündən hakimiyyətdən uzaqlaşması göz qabağında idi. Tarixçilərin yazdıqlarına gbörə, şah bir o qədər əmin-amanlıq olmayan bir dövrdə hakimiyyətdən uzaqlaşmış və öz şahlıq tacını Mirzə Abbasın başına qoymuşdur. Beləliklə, Mirzə Abbas şah təyin olunur və bundan belə ona Mirzə Abbas deyil, şah Abbas deyilməyə başlanır. Onun hakimiyyət dövrünü Səfəvilərin ən mühüm mədəniyyət və memarlığının çiçəkləndiyi bir dövr hesab etmək olar. Şah Abbas on illik hakimiyyət dövründən sonra özbəkləri Xorasandan və Osmanlıları Azərbaycandan çıxarmağa başlayır və bununla da dərhal milli qəhrəmana çevrilir. Növbəti mərhələdə üsyançı qızılbaş əmirlərini aradan götürdükdən, daha dəqiq desək, kütləvi qırğınlar keçirdikdən sonra ölkənin ağıl və düşüncə ilə idarə olunmasına çalışır.

Bu dövr bir də ona görə əhəmiyyət kəsb edir ki, əvvəlki on illikdə ölkə ərazisində baş alıb gedən hərci-mərclik özünün ən son həddinə çatır və

mərkəzi dövlət öz ərazisinin böyük bir hissəsindən əl çəkmək məcburiyyətində qalır. Hətta şah Abbasdan sonra da ölkə əvvəlki əzəmətini əldə edə bilmir. Onun həyat və tarixi barədə verilən ən dəqiq məlumatlar xüsusi katibi olan türkmən İsgəndər bəyin təlif etdiyi «Abbasinin səfərnaməsi» adlı əsərində öz əksini tapmışdır. Bununla yanaşı, Abbasın tarixi haqqında kitabın təlif olunmasında istifadə olunan digər əsərlərə də müraciət etmək olar. Tarixçilərin verdikləri məlumata görə Şah Abbasın hakimiyyət dövrü başlamaqla şairlərin çoxu onun şəninə təriflər deməyə başlamışdır. Qazi Əhməd Qumi də öz kitabında həmən şerlərin bəzilərinə işarə etmişdir.

Şah Abbas hakim təyin olduqdan qırx gün sonra qızılbaşların sabiq şah və şahzadələrdən sui-istifadə edəcəklərini və paytaxtda olmaqla bir çox çətinliklər törədəcəklərini ehtimal verən Mürşidqulu xan onları Mirzə Təhmasibin həbsdə olduğu Ələmut qalasına göndərir.

Hələ bir o qədər də müstəqil qüdrətə malik olmayan şah işini daim aparıcı rol oynayan qızılbaşlar və mühüm vəzifələri tutan taciklərlə başlayır. Mürşidqulu xan «Ali divan»da səltənət vəkili vəzifəsini icra etməyə başlayır. Sədirlik isə illər boyu sədr müavini olan Mirzə Əbulvəli Əncəvə həvalə olunur və o, şahın qızlarından biri ilə evlənib Qəzvində böyük bir toy mərasimi keçirir.

### *QIZILBAŞLARIN ŞAH ABBAS TƏRƏFİNDƏN QARƏT VƏ TAR-MAR OLUNMASI*

Qeyd etdik ki, mühüm dövlət vəzifələrini ələ keçirmək üçün qızılbaşlar arasında meydana gələn ixtilaf və qarşıdurmalar Səfəvi dövlətinə nizam-intizamsızlıq və hərci-mərclikdən savayı bir şey gətirməmişdi. H.q. 978-ci ilin Ramazan ayının ilk günü dünyaya gəlmiş Şah Abbas ömrünün on səkkizinci ilində Qəzvində taxt-taca çıxır. O vaxtadək hələ də qızılbaşlar Hərat və Məşhədə nəzarət edirdilər və şah Abbas məhz onların köməyi ilə belə bir yüksək məqama nail ola bilmişdi. Son dərəcə zirək və dərin düşüncəyə malik olan şah Abbas təbii olraqa qızılbaşların yüksək dövlət vəzifələrini tutmalarını ölkə ərazsində nizam-intizamın bərqərar olunması və dövləti müstəqil olaraq idarə etməsi üçün məqsədə uyğun hesab etmirdi. Çünki, əvvəlki onillikdə onların bir-birlərinə qarşı tutduqları qərəzli mövqe və daxili ixtilaflar nəticəsində bir-birlərinə qatı düşmən kəsilmələrinin canlı şahidi idi. Onlardan biri də Ustaclu tayfasından olan və bütün dövlət işlərinə nəzarət edən səltənət vəkili Mürşidqulu xan idi. Məlum məsələ idi ki, şah

belə bir vəziyyətdə ehtiyatı əldən verməməli və özünəməxsus siyasət həyata keçirib öz düşmənlərini bir-bir aradan götürməli idi.

Şah və Mürşidqulu xanın bu istiqamətdə atdıqları ilk addım Qəzvin qızılbaşlarını, xüsusilə də İsmayılquluxan və Əliqulu xanı aradan götürməkdən ibarət idi. Belə bir addım Mirzə Həmzənin intiqamını almaq adı altında həyata keçirilir və birbaşa şahdan göstəriş alan sufilər qızılbaş əmirlərinin bir neçəsini qətlə yetirirlər. Onların qətlə yetirilməsi ilə həm Mürşidqulu xan özündə rahatlıq hiss etməyə başlayır, həm də şah qızılbaşalara qarşı apardığı mübarizəni daha da gücləndirir və beləliklə, qarşısına qoyduğu hədəfə daha da yaxınlaşır.

Mürşidqulu xanın heyrətamiz qüdrətini müşahidə edən digər qızılbaş rəhbərləri onun olduğu bir halda qüdrət əldə etməyi təsəvvür belə etmirdilər. Bunun üçün də onu öldürmək qərarına gəlirlər. Lakin Mürşidqulu xan onların hazırladıqları sui-qəsddən agah olub bu haqda şaha xəbər verir. Beləliklə, qızılbaşların şah tərfindən qətliamı üçün lazımi şərait yaranır. O, səltənət vəkilinə sui-qəsdin hazırlandığını bəhanə gətirərək dəstə halında Qəzvindəki «Qırx sütun» sarayına daxil olan üsyançılarla qarşı-qarşıya gəlib mübarizəyə atılır.

Kütlə onları görcək Səfəvi şahlarının qədim adət-ənənələrindən istifadə edir, təhlükə yarandığı üçün qarşılaşdıqda şahın fədailərini küçə və bazarlardan yığıb onların köməyi ilə lazımi tədbirlərə əl atırlar. Əlləri hər yerdən üzülən üsyançılar öz nümayəndələrini şahın yanına göndərirlər və şah apardığı danışıqlardan sonra üsyançıları sabitliyi qorumağa çağırır. Lakin nümayəndə şahın qarşısında tələblər irəli sürdüyündən onun qəzəbinə gəlir və dərhal edam olunur. Bunun ardınca şah yenicə təyin etdiyi qızılbaş əmirlərinə Qurxəlis xanın evində toplanan və mühüm mənsəb sahibləri olan əmirlərin qətlə yetirilməsinə dair fərman verir. Nələrin baş verəcəyi artıq məlum idi. Köhnə mənsəb sahiblərinin bir qismi qətlə yetirildi, başqa bir qismi isə ölkə ərazisini tərk etmək məcburiyyətində qaldı.

İndi növbə şahın nəzərində ən günahkar şəxs olan Mürşidqulu xan Ustaclunun idi. O, Susefid döyüşündə uşaqlığından öz evində tərbiyə edən Hərat hakimi Əliqulu xan Şamlını qoşundan ayırdığı üçün şahın qəzəbinə gəlir və onu qətlə yetirmək üçün münasib fürsət axtarır. Həratın süqutu haqda söhbət açıldısa, yaxşı olardı ki, Əliqulu xan və Mürşidqulu xanın aqibətinə nəzər salaq.

## *HƏRATIN SÜQUTU VƏ MÜRŞİDQULU XANIN QƏTLİ*

Şah Abbasın hakimiyyət dövründə baş verən ən mühüm hadisələrdən biri də Həratın özbəklər tərəfindən işğal olunması idi. Bu hadisə zamanı oranın hakimi olan Əliqulu Xan Susefid döyüşündə Mirzə Abbası itirən Əliqulu xanı Hərata qaytarmaq məcburiyyətində qalır. Belə ki, Mirzə Abbas və Mürşidqulu xan hələ Məşhəddə olduqları zaman özbəklərin Hərata hücum etmə xəbərini eşidir və bu səbəbdən də Mürşidqulu xan Məhşədi tərk edir. Çünki, həm Əliqulu xana kömək etməli idi, həm də Məşhədin süqutundan qorxurdu. Abdullah xanın rəhbərlik etdiyi özbək qoşunu Həratı mühasirə etdi. Elə bir vaxtda ki, əcəm İraqı qızılbaşları tərəfindən azacıq da olsun kömək gözləmək mümkün deyildi. Belə bir şəraitdə Mürşidqulu xan Məşhədi tərk edib Qəzvinə doğru hərəkət edir.

Şah Abbas Qəzvində taxt-taca oturduğu zaman Hərat və onu ətraf məntəqələri özbəklər tərəfindən tar-mar olunur və kimsə oranın müdafiə olunması haqqında düşünüb-daşınmırdı. Şah Abbas dəfələrlə Mürşidqulu xandan Həratın müdafiəsinə getməsini istəsə də, özünü yeni hakimiyyətin bütün işlərinin icraçısı hesab etdiyi üçün Əliqulu xanı xilas etməyi özünə sərfəli bilməyib şahın göstərişlərinə heç bir məhəl qoymurdu.

Həratın mühasirəsi səkkiz ay davam edir və qızılbaşlardan oraya köməyə gələn olmur. Nəhayət, h.q. 996-cı ilin rəbiul əvvəl ayında Hərat qalası özbəklər tərəfindən işğal olunur və Əliqulu xan uzun sürən müqavimətdən sonra bir neçə yerdən ox yarası alaraq həlak olur. Özbəklərin Hərat və şiələrin başına nə gətirdikləri artıq məlum idi. Onlar əhalinin böyük bir hissəsini qətlə yetirib uşaq və qadınları əsir götürürlər. Belə ki, hətta sünni məzhəbli taciklər belə özbəklərin hücumundan amanda qalmayıb qətlə yetirilirlər. İsgəndər bəy bu haqda yazır:

«Vaxtaşırı rafizi (şiələri nəzərdə tutur) öldürmək bu məmləkətdə adət halını almışdı. Kiminləsə köhnə ədavəti olan bir şəxs tərəf müqabilini rafiziliyə mənsub edər və bu işdə iki nadan və cahil şahid gətirərdi. Hənəfi məzhəbli qazi də heç bir araşdırma aparmadan dərhal onu yandırmaq və başqa bir yolla edam olunmasına dair fitva verirdi».

Özbək Abdullah xan Həratı ələ keçirdikdən sonra Məşhədə gəlir. Lakin qızılbaş ordusunun gəlmə xəbərini eşitcək dərhal Bəlxə qayıdır. Həmən səfər zamanı Məşhəd və özbək alimləri arasında yazılı elmi mübahisələr aparılır və bu yazışmalar indinin özündə də həmən dövrə aid olan mühüm sənədlərdən biri hesab olunur. Məktubun mətni «Abbasinin səfərnaməsi» və Səfəvi dövrü haqqında yazılmış bir çox başqa kitablarda da dərc

olunmuşdur. Yazılan birinci məktubda ərazilərin ziyarətgah və seyidələrə vəqf olunması şiə məzhəbinə irad tutulmuş və və şiə alimləri öz məktublarında onlara əsaslı cavablar vermişlər. Şiə alimlərinin rəcəb ayında müharibə etməyin haramlığı göstərilən məktubun cavabında Orta Asiya alimləri hökmün nəsx olunduğunu bildirmişlər. Tutulan iradlara Mövla Məhəmməd Muşəkkək Rüstəmdari məntiqi cavab verərək şiə əqidəsini müdafiə edir.

Necə olursa-olsun, Əliqulu xan Şamlının qətlə yetirilməsi Şah Abbas üçün çox çətin idi. Çünki, istər uşaqlıq dövrünə görə, istərsə də cavanlıq illərində çəkdiyi zəhmətlərə görə məhz ona borclu idi. O, dəfələrlə Mürşidqulu xandan Həratın köməyinə getməyi istəyir, lakin hər dəfə ondan rədd cavabı eşitdiyi üçün həm özünə, həm də səltənətinə qarşı kin-küdurət bəsləyirdi. Mürşidqlu xan da öz növbəsində ilk fürsətdə Şah Abbası aradan götürüb yerinə ona daha müti olan başqa bir şahzadə qoymaq istəyirdi.

Şah Abbas Mürşidqulu xanın rəftar və davranışlarının daha da pisləşdiyini gördükdə onunla müxalif olan qızılbaşları qətlə yetirmələrinə sövq edir. Onlar Səfəvi ordusu Xorasana yola düşdüyü zaman gözlənilmədən səltənət vəkilinin üzərinə hücum edib Şahrud adlı məntəqədə onu qətlə yetirilirlər. Bunun ardınca Şah Abbas onun yaxın adamlarından bir neçəsini də qətlə yetirir və onların var-dövlətini Mürşidqulu xanın qətlə yetirdiyi şəxslərin varislərinə verir. Şah Abbas bununla kifayətlənməyib dəfələrlə qızılbaşlar arasında ixtilaf və qarşıdurmalara səbəb olan türkmən Məhəmməd xanı da öldürür ki, əgər bu tərəfdən bir kimsə qətlə yetirilmişsə, türkmənlərdən də biri qətlə yetirilmiş və beləliklə, bərabərlik bərqərar olmuşdur. Qazi Əhməd Qumi yazır: "Bunun üçün də Ustaclılar bu hadisədən sevincək olub şahın ədalətinə daha da ümidvar olmağa başladılar."

Şah Abbasın qızılbaşların nüfuzunu aradan qaldırmaq üçün atdığı addımlardan biri də şahın yerinə fərman verən vəkilləri tutduqları vəzifədən kənarlaşdırıb bu mənsəbi bir dəfəlik ixtisara salması olmuşdur. "Səfəvi dövrünün ləqəb və mənsəbləri" adlı kitabda deyilir: «Şah Abbas Mürşidqulu xan Ustaclıdan sonra vəkillik mənsəbini dondurub bir daha kimsəni bu mənsəbə təyin etmədi.»

Şah Abbasdan sonra bu mənsəb kimsəyə həvalə olunmadı və bu ikinci Təhmasibin hakimiyyət dövrünədək (h.q. 1135-1144) davam etdi. Yuxarıda adı çəkilən kitabda deyilir: «Vəkillik mənsəbi ixtisara düşdükdən sonra vəzirlərin qüdrət və nüfuzu daha da gücləndi». Bunun isə əsas səbəbi vəzirlərin qızılbaşlar arasından seçilmələri və onların daha çox qüdrət əldə

etmələri olmuşdur. Bununla yanaşı şah Abbas vəzirlik mənsəbinə yaxın olan və Azərbaycanın nüfuzunu daha da artıran «məclis yazma» mənsəbini də təsis edir.

Bir sözlə, şah Abbasın bu cürə addımları atmaqda başlıca məqsədi qızılbaşlar arasında yaranmış ixtilafları aradan qaldırmaq olmuşdur. İsgəndər bəy bu haqda yazır:

«Şahın yeganə amal və məqsədi oymaqlardakı fitnə-fəsada son qoyub qızılbaşlar arasındakı ixtilafları aradan qaldırmaq idi. O, istəyirdi ki, qızılbaş tayfaları arasında heç bir tayfa təəssübkeşliyi qalmasın və hamı bir nəfər kimi onun ətrafında toplanıb əmrinə tabe olsun».

Şah Abbasdan əlli il sonra İrana gəlmiş fransız tarixçisi Şarden gördükləri haqqında yazırdı: «Qızılbaşlar şah Abbasın hakimiyyət dövrünün son illərinədək İran ordusunun ən qabaqcıl hissəsini təşkil etmişdir. Lakin şah Abbas hakimiyyətə gəldikdən sonra onlar tədricən öz qüdrət və nüfuzlarını itirməyə başlamışlar».

## *OSMANLILARLA SÜLH SAZİŞİ*

Şah Abbas hər şeydən əvvəl üç əsas çətinliyi həll etməli idi. Birincisi, ölkənin qərb və şimali qərb ərazilərini işğal etmiş Osmanlıların yaratdıqları təhlükəni dəf etmək, ikincisi isə Həratı işğal etmiş və ətraf məntəqələri ələ keçirmək istəyən özbəklərin hücumunun qarşısını almaq, üçüncüsü isə taxta oturmazdan əvvəl geniş vüsət almış və hələ də qarşısını ala bilmədiyi daxili üsyanları yatırmaq idi.

Yəzdəki Bektaş xanı, Şirazdakı Zülqədərləri və Gildiya dağındakı Ərməli əmirlərini və Gilanda baş qaldıran üsyanları buna misal çəkmək olar. Adları çəkilən məntəqələr hələ Təhmasib şah dünyasını dəyişdiyi ildən etibarən müstəqillik fikrinə düşüb mərkəzi hakimiyyətə tabe olmaqdan imtina edirdi. İsgəndər bəy yazır: «Tayfa və əmirliklərin hər biri məskunlaşdıqları məntəqələrdə öz bayrağını ucaldıb müstəqillik şüarı verirdi».

İlk addımı Xorasana qoşun çəkməklə atan Şah Abbas Mürşidqulu Xanı aradan götürdükdən sonra ixtiyarında olan qoşunla Məşhədə daxil olur. Ölkənin mərkəz və qərb məntəqələrinin şahın nəzarətindən xaric olduğunu görən Osmanlı sultanı bu dəfə şimali-qərbə qoşun yürüdüb Qarabağı və Gəncəni ələ keçirir və orada böyük bir qala tikdikdən sonra yenidən Ərzuruma qayıdır.

Hadisələrin baş verdiyi ərəfədə Bağdad hakimi Sənan paşa da ərəb və kürd əsgərlərindən istifadə edərək İranın qərb məntəqələrini işğal edib Həmədan

və Lorestana qədər irəliləyə bilir və Nəhavəndin yaxınlığında böyük bir qala inşa edir.

Tarixçilər yazırlar: Əksəriyyəti şiə məzhəbli olan və osmanlılar bir o qədər də yaxşı münasibətdə olmayan Nəhavənd rəiyyətləri öz ev və əkin sahələrini viran edib ətraf məntəqələrdə məskunlaşdılar.

Sülh zamanı Nəhavənd osmanlıların ixtiyarında olmasın deyə, şah Abbas qalanı fəth etmək üçün öz adamlarını oraya göndərdiyi zaman yenə də özbəklərin Məşhədə hücum etdiklərini eşidir. Bunun üçün də qalanın fəthini təxirə salır. Hücumlar zamanı bundan əvvəl Mirzə Həmzəyə məğlub olmuş Təkli tayfasının bir qismi İranı tərk edib Osmanlılara köməklik etməyə başlayırlar. Həmədan hakimi Gürxəmis xan həbs olunduqdan sonra isə vəziyyət daha da gərginləşir və İranın qərb məntəqələrinin aqibəti beləcə qaranlıq olaraq qalır.

Xorasanda müxtəlif dövlət işləri ilə məşğul olan Şah Abbas Həratı ələ keçirməyə ümid bəsləmədiyi üçün yavaşca Kerman və Yəzdə tərəf hərəkət etməyə başlayır və oradan da Brucerd, Həmədan və Azərbaycana səfər edir. Ordudakı nizam-intizamsızlıq və azuqənin azlığı şahı bir daha Qəzvinə qayıtmağa vadar edir. Üç müxtəlif cəbhədə hərbi əməliyyatlar aparmaq şah üçün qeyri-mümkün idi. Bu səbəbdən də Mirzə Həmzənin qətlindən əvvəl sülh sazişinə dair əldə olunmuş razılaşmaya xüsusi diqqət yetirməyə başlayır. Danışıqlar aparmaq üçün Mehdiqulu xan Çavuşlu İstanbula göndərilir. Şahzadə Mirzə Heydər də osmanlıların yanında girov qoyulsun deyə, Mehdiqulu xana tapşırılır. H.q. 1006-cı ildə o, osmanlı sarayında vəfat edir və bu da Şah Abbası osmanlı dövlətinin ona qarşı heç bir tədbirə əl atmayacağına arxayın edir. Səfir külli miqdarda hədiyyələrlə osmanlı sarayına daxil olur və dövlət məmurları onun qarşısına çıxır. Yazılan sülh sazişinin ən mühüm bəndi bu vaxtadək osmanlı dövlətinin işğal etdikləri ərazilərin, o cümlədən Təbriz və Nəhavənd qalasının onların ixtiyarında qalması ilə əlaqəli idi. Lakin sülh sazişi yazılmazdan əvvəl Səfəvilərin hakimiyyət dövrünün ilk illərindən Qarbağda bütün işlərə nəzarət edən Elqacar Gəncə qalasına hücum edir ki, sülh sazişi imzalanmazdan əvvəl oranı osmanlıların əlindən ala bilsin. Təbii ki, bu addım osmanlıların etirazına səbəb olur və Şah Abbas Qacar tayfasının başçısından dövlətin mənafeyinə uyğun addım atmasını və mühasirəyə son qoymasını istəyir. Dövlətin sadiq tərəfdarlarından Məhəmməd xan Ziyad oğlu şahın istəyini qəbul edir və bunun ardınca Qacarilər parçalanmaya düçar olurlar. Beləliklə,

h.q. 1014-cü ildə həmən məntəqə bir daha Səfəvilərin nəzarəti altına keçir və Məhəmməd xan oraya hakim təyin olunur.

Sülh sazişinə əsasən İran dövləti osmanlıların işğal etdikləri ərazilərin onların ixtiyarında qalacağını qəbul edir və bununla yanaşı, ölkə ərazisində səhabələrə lənət oxunmasının qarşısını alacağına öhdəlik götürür. Ərazilərinin böyük bir hissəsini itirdiyi üçün üçüncü Muradın hakimiyyət dövrü İran dövləti üçün olduqca ağır bir dövr hesab olunurdu. Bundan acınacaqlısı isə əsir götürülən şiə məzhəbli iranlıların kölə kimi satılması idi. İsgəndər bəy yazır: «Əvvəlki sultanların hakimiyyət dövründə müsəlman şiə qadın və uşaqları əsir götürülüb satmırdılar. Lakin üçüncü Muradın hakimiyyət dövründən etibarən bu məsələ geniş yayılmağa başlayır. Onlar Azərbaycan və Şirvanda müsəlman qadın və uşaqları əsir götürür və yəhudilərə, ya da nəsranilərə satırdılar».

Sülh sazişi yazıldıqdan sonra və Üçüncü Murad öldükdən sonra İranın nümayəndə heyəti Soltan Mahmudun hüzuruna gəlir və böyük hörmət və ehtiramla qarşılanır.

### *MƏŞHƏDİN ÖZBƏKLƏR TƏRƏFİNDƏN SÜQUTU*

Şah Abbas hələ Məşhədi tərk etməmişdi ki, iki ciddi çətinliklə qarşılaşır. Onlardan biri şahın kiçik oğlu Sultan Həsənin dayəsi olan Budaq xanın şahzadəni bəhanə gətirərək ətraf məntəqələrdə məskunlaşmış tərəfdarlarını bir yerə yığaraq üsyan etməsi olur. Bu bir vaxtlar Şah Abbasın hakimiyyətə çatması üçün istifadə olunan üsul idi. Əlbəttə, Budaq xan az sonra özbək əmirlərinin biri tərəfindən məğlub olur və oğlunu şah Abbasın yanına göndərib peşmançılığını bildirir. İkincisi isə özbək Abdullah xanın oğlu Əbdülmumin xanın qüdrətli bir qoşunla Məşhədə tərəf irəliləməsi olur. H.q. 997-ci ildə şəhər tamamilə mühasirə olunur. Şah Abbas bu vaxt Qəzvində osmanlılarla sülh sazişi yazmağa və ya onları ölkənin qərb hissəsindən çıxarmağa can atırdı. Lakin Məşhəd böyük əhəmiyyət kəsb etdiyi üçün hər şeyi yarımçıq qoyub oraya qoşun yürüdür.

Özbək qoşunu ilk növbədə Nişapura tərəf gəlir və oranı mühasirə edir. Şəhər hakimi Əbdülmumin xana göndərdiyi məktubda yazır:

«Nişapur Məşhədə tabedir. Əgər oranı ala bilsəniz şəhəri döyüşsüz sizin ixtiyarınıza buraxacağam». Bundan sonra özbəklər Məşhədi mühasirə etməyə hazırlaşırlar. Məşhədin mühasirəsini eşidən şah Abbas daha sürətlə hərəkət etməyə başlayır. Lakin ağır xəstəlik onu dörd ay irəliləməyə imkan vermir və mühasirdə qalan Məşhəd heç cür kömək ala bilmir. Nəhayət h.q.

997-ci ilin zilqidə ayının iyirmisində Məşhəd mühasirəyə davam gətirə bilməyib özbəklərin əlinə keçir. Məlum məsələ idi ki, şəhəri dörd ay mühasirədə saxlayan özbəklər qənimət əldə etməyə nə qədər çox can atırdı. Onlar şəhəri ələ keçirdikdən sonra yerli şiə əhalisinə olan yüz illik kin və düşmənçiliklərini büruzə verməyə başlayırlar. Onlar alim və nüfuza malik olan şəxsləri, habelə İmam Rzanın (ə) məscidində sığınacaq tapan əhalini oradan çıxarır və amansızcasına qətlə yetirirlər. İsgəndər bəy bu haqda yazır:

«Yazıq yerli əhali özbək qoşununun şəhərə daxil olduğunu görcək o müqəddəs məkana pənah apardılar. Lakin özbəklər kimsəyə rəhm etmədən onları bir-bir oradan çıxarıb şəhid edirdilər… Həmən günlər şəhər matəm, kədər və qəm-qüssə içində idi. Həmən gün aşura gününü, məscidin həyəti isə Kərbəlanı xatırladırdı... Özbəklər bununla kifayətlənməyib məsciddəki qiymətli şamdan, çilçıraq və sair qızıl-gümüş əşyalarını, habelə xəttat və məsum imamların xətti ilə yazılmış gözəl nüsxələri qarət edib öz aralarında ya bölür, ya da dəyər-dəyməzinə satırdılar.»

Qazi Əhməd Qummi yazır: «Dinsizlər bir həftəyə yaxın oranı qarət və tar-mar etdilər. Mötəbər şəxslərin dediklərinə görə, 5700 nəfər məscidin daxil və ətrafında qətlə yetirildi».

Hücumlar zamanı əsir götürülən və sonra şəhid edilən şəxslərdən biri də Mövla Abdullah Şuştəri idi. O, Şuştərdə dünyaya gəlsə də, Şiraz məktəbində təhsil almış və uzun müddət Cəbəl-Amil alimlərinin yanında fiqh dərslərini oxuduqdan sonra tədris üçün Məşhədə gəlmişdi. O, heç bir işıqlığı olmayan çıraqxana adlanan evdə gizlənərkən özbəklərin əlinə düşür. Bəlxə aparılarkən orada təqiyyə edərək şafei məzhəbinə mənsub olduğunu bildirir. Lakin özbəklər ona inanmır və şəhərin mərkəzi meydanlarının birində od vurub yandırırlar. Şəhadət şərbətini içən alimlərdən biri də bir qədər əvvəl haqqında söhbət açdığımız Mövla Muşəkkək Rüstəmdarı olmuşdur. Lakin Məşhədin Şeyxul-İslamı Şeyx Tacəddin Həsən qaçaraq özbəklərin əlindən yaxa qurtara bilir. Məşhəddə baş verənlər və sünni məzhəbli özbəklərin şəhəri ələ keçirməsi İran şiələri üçün dözülməz bir hal idi. Artıq Məşhəd və Əstərabad demək olar ki, Damğana qədərki ətraf məntəqələr özbəklərin nəzarəti altında idi. Belə bir şəraitdə Məşhədə getmək heç nəyi dəyişməyəcəkdi. Bunun üçün də şah geriyə, Qəzvinə dönmək qərarına gəlir.

## *DAXİLİ ÇƏTİNLİKLƏRİN HƏLLİ*

Hicrətin mininci ilində Şah Abbas hələ daxili çətinlikləri həll edə bilməmişdi. Belə ki, iki böyük düşmən, yəni özbək və osmanlılar istədikləri yerə qədər irəliləyib ölkə ərazisinin böyük bir hissəsini işğal etmişdi.

Daxili çətinliklərdən biri də Yəzd, Kerman və Fars əmirlərinin müstəqillik şüarını verib daxili çəkişmələrə səbəb olmaları idi. Yaqub xan adlı Fars əmirlərindən biri yerli əmirlərin bir çoxunu, o cümlədən Yəzd hakimi Bektaş xanı aradan götürdükdən sonra Fars, Yəzd və Kerman əyalətlərini özünə tabe edir və onun belə bir özbaşınalığı şahı onun barəsində ciddi tədbirlərə əl atmağa vadar edir. Müstəqillik şüarları İsfahana da təsir edib oradan da ucalmağa başlayır. Belə ki, oranın hakimi Yaqub bəy şahın İsfahana gəldiyini eşidib şəhərin Təbərək qalasını möhkəmləndirməyə başlayır. Lakin Fars və Yəzddə baş verənləri eşidib müqavimətin mənasız olduğunu başa düşür və şaha qoşulur. Lakin şah şəhərə gəldikdən sonra yenə də qalaya qayıdır və şahın müzakirə üçün göndərdiyi bütün adamları qalada saxlayır. Şah qalanın alınmasını əmr edir və Yaqub bəy çox keçmədən təslim olur. Sonralar yenidən itaətsizliyi üzündən Kermana aparılır və orada edam olunur. Qeyd etmək lazımdır ki, İsfahan şah İsmayılın hakimiyyət dövründən Səfəvi şahların iqamətgahı olmuş və ərazinin böyük bir hissəsi şaha məxsus olmuşdur. Onlardan biri öldükdən sonra bu ərazilər digərinə çatardı. Şah bir müddət burada qaldıqdan sonra h.q. 999-cu ildə Fars əyalətinə gəlir. Şahın etimadud-dövlə ləqəbli vəziri Mirzə Lütfulla Şirazi də bu səfərdə onunla birgə olur. Şah Qəzvinə qayıtdıqdan sonra öz yerini Xacə Nəsirəddin Tusinin nəvəsi Hatəm bəy Ordubadiyə verir. Deyilənlərə görə o uzun müddət şahın qüdrətli vəzirlərindən biri olmuşdur. Fars hakimi Yaqub xan şahın gəlişindən nigaran olub İstəxr qalasında sığınacaq tapır və beləliklə şah Şiraza daxil olur.

Şahın çağırışı ilə Şiraza gələn Yaqub xanın havadarlarından bir çoxu şahın göstərişi ilə qətlə yetirilir və beləliklə, şah müstəqillik iddiasında olan müxaliflərindən birini də aradan götürür. Sonra şah Kermana da qoşun göndərib oranı da üsyançılardan təmizləyə bilir. Beləliklə Fars, Kerman və Yəzd əyalətlərində yaranmış gərgin vəziyyət aradan qaldırılır. Şah Farsdan Yəzdə gəlir və az sonra oradan İsfahana qayıdır. Orada şaha qarşı mübarizəyə hazırlaşan Təbərək qalası da yerlə-yeksan olunur.

Lakin şaha çətinlik yaradan ən başlıca məsələ bir vaxtlar Ələmut, sonralar Vəramində, indi isə onunla birlikdə olan sabiq şah və şahzadələr idilər.

Bunun üçün də şah onları həbs etmək qərarına gəlir. Gərginliyə səbəb olan amillərdən biri də üsyançıların şahzadələrdən birini ələ keçirib yenidən baş qaldırmaları idi. Belə ki, hər hansı bir şahzadənin qızılbaş əmirinin kənarında olması qızılbaşların bir çoxlarının onlara cəzb olunmalarına səbəb ola bilərdi. Şah Abbas şahzadələrin qayıtmalarına mane olsun deyə, məsələnin həllini onların gözlərinin çıxarılmasında və Ələmut qalasında həbs olunmalarında görür.

Şah Abbas belə bir addımı siyasi nöqteyi-nəzərdən atır və sonralar da belə bir cəza üsulundan istifadə etdiyi üçün öz şan-şöhrətinə böyük zərbə vurmuş olur. Aradan götürmək istədiyi şəxslərin gözlərini çıxartmaqla öz etimadını itirir.

Bundan sonra şah Qəzvinə qayıdır. Qeyd etmək lazımdır ki, belə bir addım Səfəvilərin şahənşahlıq hakimiyyət üsulunda da adi hal olmuşdur. Belə ki, h.q. 1003-cü ildə Soltan Mahmud atası üçüncü Muradın yerinə taxt-taca keçərkən atasını dəfn etdikdən sonra onun on dörd oğlunu qətlə yetirir. Şah Abbasın əldə etdiyi nailiyyətlərdən biri də Əhməd xan Gilani tərəfindən himayə olunan və Gilana qaçmış fərariləri geri qayıtmağa məcbur etdikdən sonra bir nəfər kimi hamısını qətlə yetirməsi olur. Qızılbaşların qətliamı hicrətin mininci ilində daxili sabitliyə nail olanadək beləcə davam edir.

Şaha çətinlik yaradan yerlərdən biri də Gilan idi. Bir qədər əvvəl bir neçə dəfə Əhməd xan Gilani haqqında söhbət açmışdıq. Şah ona belə bir xəbər göndərir ki, arxayınlıq üçün ya gərək oğlunu saraya göndərsin, ya da mübarizəyə hazır olsun. Təslim olmaq istəməyən Əhməd xan mübarizəyə hazırlaşır. Lakin qoşunun məğlubiyyət xəbərini eşitdikdən sonra ailə və külli miqdar var-dövlət ilə birlikdə dəniz yolu ilə ölkəni tərk edib Osmanlılara qoşulur. Beləliklə, Gilan bütünlüklə şah Abbasın ixtiyarına keçir.

## *YENİ ORDUNUN TƏŞKİLİ*

Qızılbaşların kütləvi qətliamı haqqında söhbət açdıqdan sonra başqa bir mühüm mətləbə işarə etmək istəyirik. O da şah Abbasın yeni siyasət həyata keçirərək qızılbaşların ordudakı nüfuzunu azaldıb yeni ordu yaratması olmuşdur. Təzə təsis olunmuş ordunun əsgərlərini şimal məntəqələrindən, xüsusilə Qafqazdan götürülmüş əsirlər təşkil etməli idi. Onlar əsir götürüldükdən sonra tədricən İslamı qəbul etmiş və beləliklə, ordu sıralarında özlərinə yer etmişdilər. Tir, kaman, bəzən də tüfənglə təchiz olunmuş bu şəxslər «Güllərbaşı» adlanırdı. Yeni qüvvələrin orduya cəlb

olunması ilə yanaşı qızılbaşlar ordu sıralarından çıxarılır, bu da Səfəvi dövlətinə ciddi zərbə vururdu.

Ordu təsis olunduqdan sonra onun qabaqcıl əsgərlərinə bəylərbəyi və sərkərdə kimi yüksək rütbələr verildi. Onlardan biri də milliyyətcə erməni olan və əvvəllər «Güllər ağası» rütbəsini daşıyan bəylərbəyi Allahverdi olur. Onun oğlu İmamqulu da ordunun və Səfəvi dövlətinin mühüm simalarından biri olmuşdur. Bunu da qeyd edək ki, gürcülərin bir hissəsi hələ Təhmasib şahın hakimiyyət dövründən orduda iştirak etmişlər.

Bütün bunlarla yanaşı, şah Abbas Robert Şirlinin köməyi ilə bir çox qalanın fəthində istifadə etdiyi İsfahan, Xorasan və mazandaranlılardan ibarət tüfənglə təchiz olunmuş başqa bir ordu da təsis edir. Tüfəngçi ağasının nəzarəti altında olan bu ordu əslində qızılbaşları zəiflətmək məqsədilə təsis olunur. İtalyan səyyahı Delavali şah Abbasın ordusu haqqında yazır: «Tüfəngçilər ətraf şəhər və kəndlərdə məskunlaşmış iranlılar idilər. Bütün il boyu dövlətdən məvacib aldıqları üçün onlara ehtiyac duyulduğu hər zaman orduda olmaq məcburiyyətində idilər. Nəcib insanlar, yəni qızılbaşlar isə orduda iştirak etmirdilər. Əslində ordunu rəiyyətlər təşkil edirdi».

Lakin diqqət yetirmək lazımdır ki, ordu tərkibində gürcülərin sayı Təhmasib şahın zamanında min beş yüz nəfər idisə, şah Abbasın zamanında bu rəqəm on iki minə yaxın artmışdı. Ordunun əsas hissəsini təşkil edən bu şəxslər gedən döyüşlərdə aparıcı rollardan birini oynamışlar.

Belə nəzərə çarpır ki, şah Abbasın hakimiyyətinin son illərində «baş komandan» (sepahsalar) adlı rütbə meydana gəlmiş və orduya tam nəzarət etməyə başlamışdır. Belə bir rütbəyə yalnız şah Abbasdan sonra təlif olunmuş tarix kitablarında rast gəlmək olur və gərək ki, bu rütbə Səfəvilərin hakimiyyət dövrünün ilk illərində fəaliyyət göstərən «Əmirul-umərə» rütbəsi olmuşdur.

## *ŞAH ABBAS VƏ ÖZBƏKLƏR*

Şah Abbas daxili çətinlikləri aradan qaldırdıqdan sonra hər şeydən əvvəl gərək Məşhəd və Xorasanın azad olunması haqqında düşünüb-daşınayadı. O, belə də edir. Fərhad xanın rəhbərlik etdiyi qoşunu məntəqəyə göndərir. Xəbər Bəlxə çatdıqdan sonra özbəklər Əbdülmumin xanın rəhbərliyi altında Xorasana üz tutur və orada yeni-yeni məntəqələri işğal edirlər. Bu tərəfdən də nəhəng özbək ordusu ilə mübarizə aparmaq qüdrətinə malik olmayan qızılbaşlar Qəzvinə qayıdırlar. Özbək ordusu on dörd ay «Əsfərayən»

qalasını mühasirədə saxlayır. Və yalnız on dörd aydan sonra böyük itki verərək oranı fəth edə bilirlər. Bundan sonra onlar Səbzivarı, Məzinan və Cacərəmi də ələ keçirir və oraya hakim təyin etdikdən sonra yenidən Bəlxə qaydırılar. Şah Abbas qızılbaş əmirlərinin özbaşınalıqlarının qarşısını qismən də olsa aldıqdan sonra Xorasana qoşun yürütmək fikrinə düşür. Belə ki, h.q. 1001-ci ildə bütün qızılbaş qüvvələrini bir yerə toplayıb oraya yola düşür. Bu zaman Abdullah xan Mərvi işğal etmək və oranı Xarəzmin ixtiyarında olan ərazilərə birləşdirməyə can atırdılar. O, qızılbaş ordusunun gəlişindən xəbər tutub Buxaraya qayıdır. Oğlu Əbdülmumin xan şah Abbasa məktub göndərir və oradan türkmənlərin vaxtında olduğu kimi Xorasana göz yummasını və əcəm İraqı ilə kifayətlənməsini istəyir. Çünki, o zamanlar Xorasanda Teymurilər hökmranlıq edirdilər.

Lakin şah Abbasın qərarı dəyişməz idi. Bunun üçün də Əbdülmumin xan Bəlxə qaçmağı Xorasanda qalmaqdan üstün tutur. Səbzivarın özbək hakimi qətlə yetirildikdən sonra qərbi Xorasanın digər şəhərlərinin hakimləri Orta Asiyaya qaçmaq məcburiyyətində qalırlar. Bundan sonra Nişapur fəth olunur və qalanın müdafiə olunması üçün oraya üç yüz tüfəngli nəzarətçi qoyulur. Özbəklər hamılıqla Məşhədə toplanırlar. Qış fəsli olduğundan qızılbaşların da orada qalması qeyri-mümkün idi. Bunun üçün də onlar Qəzvinə qayıdırlar. Şah qışı öz adamları ilə birlikdə İsfahanda keçirir. Qəzvinə qayıtdıqdan sonra qoşun Gilanda baş qaldırmış üsyanı yatırmaq üçün oraya yola düşür. Məlum məsələ idi ki, şah üçün daxili üsyanları yatırmaq özbək və osmanlıların hücumunun qarşısını almaqdan daha çox əhəmiyyət kəsb edirdi. Gilanda sabitlik bərqərar olunduqdan sonra Lorestan hakimi vaxtaşırı osmanlılarla saziş bağladığı üçün oraya qoşun göndərir. Gilandakı üsyanlar sonralar yenə də davam edir və h.q. 1003-cü ildə orada başqa bir mühüm hadisə baş verir. Baş verənlərin canlı şahidi olan İsgəndər bəy yerli əhalini xəyanət və vəfasızlıqda ittiham edir. Üsyanların yatırılması qızılbaş ordusuna baha başa gəlir.

Kermandan Tus və Təbəsə yola düşən qızılbaş ordusu Həratdakı çoxsaylı özbək ordusunu məğlub edib Tus (indiki Firdovs) şəhərini ələ keçirib özbəklərin Xorasanın cənubundakı nüfuzuna son qoya bilir.

H.q. 1002-ci ildə Abdullah xan Xarəzmə və oğlu Əbdülmumin xan Xorasana hücum edir. Xarəzm və Urgəncin hakimi olan Hacı Məhəmməd xan hücumların qarşısını ala bilməyib məğlub olur. Çıxış yolunu qayıtmaqda görür və burada şah Abbas tərəfindən qarşılanır. Özbək ordusu Nişapura hücum edir və dörd ay oranı mühasirədə saxlayır. Hətta bir dəfə

qala divarlarının bir hissəsi partladılır və üç yüz nəfər özbək oraya daxil ola bilir. Lakin qızılbaşların ciddi müqaviməti ilə qarşılaşıb məğlub olurlar. Döyüş davam etdirilir. Müqavimətin heç bir nəticə verməyəcəyini görən şah qalanın müdafiəçilərinə sülh yolu ilə Nişapuru düşmənə təhvil verib əcəm İraqına gəlmələrini istəyir və onlara söz verir ki, yaranmış ilk fürsətdə yenidən Nişapura qoşun göndərəcək və oranı düşmən əlindən geri alacaqdır. Onlar belə də edirlər. Buna oxşar vəziyyət Səbzivarda da yaranır, lakin ora özbəklər üçün təhlükəsiz yer olmadığı üçün heç bir şey əldə edə bilmirlər.

## *NƏQTƏVİLƏRİN ÜSYANI VƏ ONLARIN YATIRILMASI*

İslamın zühur etdiyi ilk illərdən bu günlərədək dünyada, xüsusilə də şiələr arasında meydana gələn ifrati cərəyanların dərin tarixi kökləri olmuşdur. İmamların həyatında meydana gəlmiş ifrati qulatların, onlardan sonra Türkiyə və Suriya ərazilərində Ələvi və Hürufilərin, habelə Nəqtəvilərin və onlardan sonra Babiyyə, Qacarilərin hakimiyyət dövründə meydana gələn Şeyxiyyə ifratçı cərəyanlarını buna misal çəkmək olar. Bunlarla yanaşı, ayrı-ayrılıqda fəaliyyət göstərən, lakin müstəqil firqə hesab olunmayan digər cərəyanlar da olmuşdur. Səfəvilər ifrati bir cərəyan kimi anadoludan baş qaldırmış və beləcə fəaliyyət göstərməyə başlamışdır. Lakin İranq və Cəbəl-amildən mühacirət etmiş şiə alimlərinin iş başına gələrək dövlət işlərinə nəzarət etmələrindən sonra onlar ifratçılıqdan əl çəkməli olmuşdur. Belə ki, bir vaxtlar yazdığı şerlərdə ifratçılığa varan Şah İsmayıl onun kimi ifrata varan Xuzistan məşşailərilə mübarizə aparmış və onları bundan əl çəkməyə vadar etmişdir.

Təhmasib şahın hakimiyyət dövründən bu tərəfə təlif olunmuş tarix kitablarında bu kimi cərəyanların meydana gəlməsindən xəbər verilir. Məsələn, h.q. 982-ci ildə Ələmut İsmailiyyələrin məkanı olduqdan sonra Əncudan və Kaşan əhalisinin bir qismi dindən çıxaraq küframiz əqidəyə yiyələnməyə başlayırlar; həmən il Təhmasib şah oraya iki qızılbaş qoşunu göndərib onları bir nəfər kimi məhv edir. Bu tarixi hadisədə Mahmud Pəsixaninin[1] davamçısı kimi tanınmış Muradın da adı çəkilmişdir. Fəmdəminin (h.q. 982-ci il) yazdığı şerələrə müraciət etməklə yenə belə bir qənaətə gəlmək olar ki, həmən dövrdə Kaşanın «Fin» adlı məntəqəsində belə bir küframiz cərəyan meydana gəlmişdir.

---

[1] Onun özü də Hürurfi təriqətinin rəhbəri Fəzlullah Nəimi Əstərabadinin davamçısı olmuşdur.

Lakin daha çox əhəmiyyət kəsb edən mövzu hicrətin 9-cu əsrində Hürufi təriqətinin davamçıları olan Nəqtəvilərin meydana gəlməsidir. Onların yaranma tarixinə nəzər salaq. Təhmasib şahın hakimiyyət dövründə Qəzvində dərviş Xosrov Qəzvini adlı bir şəxs sufiliyə üz tutur və beləliklə, dərvişlik adını öz üzərinə götürür. O, məsciddə oturub bir neçə adam toplayır və onun bu hərəkəti alimlərin etirazına səbəb olur. Təhmasib şah onu yanına çağırıb bir qədər sorğu-sual etdikdən sonra onun İslam qanunlarından və şiə məzhəbinin əsaslarından heç bir məlumatı olmadığını başa düşür. Lakin heç bir günahı olmadığı üçün onu azad edir. Amma o, mövcud şəraitdən istifadə edərək evinin yaxınlığında kiçik koma tikdirib türk və tacik müridlərini öz ətrafına toplayır. Şah Abbas şəhərin məhəllələrini gəzərkən onun da komasına baş vurardı. Xosrov dərviş narkotik maddələrdən istifadə etməsinə baxmayaraq, havadarları onun qeyri-adi xüsusiyyətlərə malik olduğunu iddia etmişlər. Onun sadiq tərəfdarlarından biri də h.q. 1002-ci ildə şahın Lorestana getməsi ilə tutulan Yusif Tərkəşdu olur. Münəccimlərin rəisi Cəlaləddin Məhəmməd Yəzd yaxınlığında şahın öləcəyindən xəbər verir. Şah bu xəbəri eşitdikdən sonra Ttərkəşdunu küfrə yol verdiyi üçün, bu onun özbaşına gəlsin deyə, taxtına oturdulmasına əmr edir və sonra sanki taxtdan salınır və bununla da onun hökmranlığına son qoyulur. Bundan sonra şah onun edam olunmasını əmr edir. Bunun ardınca dərvişin Dərviş Kiçik Qələndər, Mövla Süleyman, Təbib Savəci və Seyid Əhməd Kaşi kimi sadiq davamçıları həbs, sonra isə edam olunurlar. Onların son nümayəndəsi isə Kaşanda şəxsən şahın özü tərəfindən qətlə yetirilir. Firqənin İsfahanlı davamçılarının kütləvi qırğını h.q. 1010-cu ildə Xorasan yolunda da davam edir. Belə bir şəraitdə Nəqtəvi firqəsinin bir çox tanınmış rəhbərləri Hindistana gedir və orda öz təriqətlərinin bəzi ayinlərini qoruyub saxlaya bilirlər. Burada onlara əmin və uməna deyilirdi.

Nəqtəvilərin əqidə və etiqadları haqqında deyilənləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, onlar İsmaili firqəsinin davamçıları olmuş və deyilən hər bir sözə və kəlməyə saysız-hesabsız mənalar vermiş və cəfəngiyyatla dolu fikirlər irəli sürmüşlər. Şah Abbasın hakimiyyət dövründə Məhdəviyyə adlı başqa bir cərəyan da meydana gəlir. H.q. 1029-cu ildə Gilanda Şeyx Səfi sülaləsindən olan Şeyxavənd tayfasının tanınmış şəxsiyyətlərindən biri, yəni Seyid Məhəmməd İmam Mehdi olduğunu iddia edir. Şah hiylə ilə onu Mazandarana aparıb orada qətlə yetirir. O, üsyan etməklə şahı aradan götürüb onun ədalətsizliklərinə son qoymaq istəyirdi.

Üsyan yatırıldıqdan sonra şah daxili vəziyyəti sabitləşdirməyə davam edir. Bundan sonra Gilanda bir neçə başqa təriqətlər meydana gəlir və dövlət çevrilişlərinə can atılır. Lakin qızılbaşlar bir neçə ayın ərzində onların hamısının öhdəsindən gələ bili və bütün iğtişaşları yatırırlar.

### *ÖZBƏK VƏ DAXİLİ ÜSYANÇILARA QARŞI APARILAN MÜBARİZƏNİN DAVAMI*

H.q. 1004-cü ildə qızılbaş ordusu şah Abbasın rəhbərliyi ilə Xorasana yola düşür. Bu zaman Əsfəryan hələ də özbəklərin mühasirəsində idi. Şah Əbdülmumin xana məktub göndərir və orada təkidlə bildirilir ki, qızılbaş ordusu hər dəfə Xorasana gəldikdə heç nədən utanıb çəkinmədən oranı tərk edib qaçırsınız. İndi də adamlarımın bir neçəsi ilə sizi görməyə gəlirik. Sonra məktubda deyilirdi: «İndi sizinlə mübarizə aparmaq iqtidarındayıq. Comərdlik sabitqədəm olub mübarizə meydanına atılmağı tələb edir». Əbdülmumin xan hücumun doğruluğunu bilmək üçün üç yüz nəfərlik kəşviyyat dəstəsini məntəqəyə göndərir. Tərəflər təsadüf üzündən bir-birilə qarşılaşmalı olur və çox az adam istisna olmaqla özbək ordusunun bütün əsgərləri həlak olur. Şah sağ qalanlardan birini Əbdülmumin xanın yanına göndərib mübarizəyə hazır olmasını tələb edir. Lakin özbəklər həmişə olduğu kimi Əsfərayini tərk edib Məşhədə qaçırlar.

Heç qızılbaş ordusu da irəliləmək fikrində deyildi. Bunun üçün də bir neçə gündən sonra əsgərlərə geri qayıtmağa icazə verilir. Çox keçmədən Əbdülmumin xanın yenidən Səbzivara hücum və yerli əhalini qətliam etməsi xəbəri şaha çatır. Qızılbaşlar hər şeyi təxirə salıb şəhər qalasında mühasirədə olan Səbzivar camaatının köməyinə tələsirlər. Lakin özbəklərin törətdikləri cinayətləri sadalamaqla qurtarmaz. Baş verənləri öz gözləri ilə görən İsgəndər bəy yazır: «Özbəklər hətta südəmər körpələrə belə rəhm etməyib onları analarının sinələri üzərinə qoyub iki yerə bölürdülər. Qızılbaşların köməyə tələsdiyini eşidən Əbdülmumin xan bu dəfə də Məşhədə qaçmağa üstünlük verir. Qızılbaşlar qış başlamazdan qabaq Məşhədi tərk etməli idilər. Gilan üsyançılarının da bəziləri şahın olmadığından istifadə edib yenə də daxili vəziyyəti gərginləşdirməyə çalışırdılar. Lakin şahın gəlişi ilə bu dəfə də ağır məğlubiyyətə uğrayıb heç bir şey əldə edə bilmirlər. H.q. 1005-ci ildə Mazandaran əmirləri yenidən müstəqillik iddiasına düşüb dövlətə heç bir məhəl qoymadan bir daha daxili sabitliyi pozurlar. Onlar Mərəşi seyidlərinin böyüklərinə belə hörmət qoymurlar. Qızılbaş ordusuna o vaxtlar bir çox yürüşlərdə Fərhad xan

rəhbərlik edirdi. O, şahın göstərişi ilə Mazandarana hücum edir və orada mərkəzi dövlətə tabe olmayan və eyni zamanda yerli əhalini qızılbaşlara qarşı təhrik edən seyid Müzəffər və Məlik Bəhməni məğlub edir. Mazandaranın mərkəzi dövlətə tabe olmayan əmirlərdən təmizlənməsi tam bir il davam edir. Beləliklə, Səfəvi dövləti məntəqədəki qüdrətini gücləndirir. Bunun ardınca h.q. 1006-cı ildə Mazandaranla Gilanı bir-birindən ayıran Rüstəmdar və Kəqur adlı məntəqələri də öz nəzarəti altına alır. Aparılan mübarizələr bununla bitməyib mərkəzi dövlətə tabe olmayan qızılbaş əmirlərinə qarşı da aparılırdı. Bu dəfə (h.q. 1005-ci il) qabaqkıların əvəzini çıxmaq bəhanəsi ilə əslində qızılbaşları hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə Təkli tayfasına hücum olunur və onlar amansızcasına qətliam edilir. Üsyançılara qarşı apardığı mübarizədə şah h.q. 1006-cı ildə bir daha Lorestana qoşun yürüdür və oranın hakimi Şahverdi xanı tutub edam və onun yerinə başqa birisini təyin edir.

Lakin özbəklərin məsələsi hələ də həll olunmamış qalırdı. Belə ki, şimaldan cənubadək hələ Məşhədin böyük bir hissəsi onların ixtiyarında idi. Hətta h.q. 1005-ci ildə üç min özbək özündə cürət tapıb Xorasanın cənubundan Yəzdə qədər irəliləyə bilir. Baş verən döyüşdə özbəklər müqavimət göstərə bilməyib məğlub olurlar. Döyüş meydanını tərk edən özbəklərin qalan hissəsi yolda başqa bir qızılbaş ordusu ilə qarşılaşır və bu dəfə onlardan kimsə sağ qalmır.

H.q. 1006-cı ildə özbəklər bir daha Xorasana geniş miqyaslı hücuma keçirlər və bununla qızılbaşların oradan çıxarılmasına israrlı olduqlarını bildirirlər. Onlar iki istiqamətdən hücuma keçib səhranın ortasından Bidqol və Kaşana qədər irəliləyə bilirlər.

### *ÖZBƏKLƏRİN XORASANDAN ÇIXARILMASI*

Hicrətin 1006-1007-ci illəri şah Abbas üçün uğurlu illər idi. Çünki o, bu illərdə Xorasanı, xüsusilə də ölkəyə zinət verən Məşhəd şəhərini özbəklərdən azad etməklə oduqca ciddi təhlükələrdən birini aradan qaldıra bilir.

Belə ki, bu vaxtadək Abdullah xan Orta Asiyada Buxara şəhərində hökmranlıq edirdi. Bəlxin mərkəzinə nəzarət edən oğlu Əbdülmumin xan isə Xorasana hücum edirdi. Elə həmən dövrdə Abdullah xanla oğlu Əbdülmumin xan arasında ixtilaf meydana gəlir və fürsətdən istifadə edən şah Abbas öz səfirini Abdullah xanın yanına göndərir. Hərhansı bir tədbirə əl atmazdan əvvəl Abdullah xan vəfat edir və oğlu Əbdülmumin xan onun

yerinə keçir. «Daşürəkli qan içən» adını almış bu şəxsin hətta öz yaxın adamları arasında belə bir çox düşmənləri var idi. Bu öz nəticəsini verir. Belə ki, günlərin biri xan gecənin istisində gəzməyə çıxarkən onunla müxalif olan iki nəfər şəxs qərarlaşaraq ona hücum edir və başını bədənindən ayırıb Buxaraya qaçırlar.

Xanın sülaləsindən səltənəti idarə etməyə kimsə namizəd olmadığı üçün Əbdülmumin xanın zamanında bütün siyasi fəaliyyətlərdən kənarlaşdırılan Abdullah xanın əmirlərindən biri Məhəmməd xan Buxarada soltan seçilir. Bu isə Bəlx camaatı üçün dözülməz bir hal idi. Çünki, Buxara əmirlərinin niyyət və hədəfləri tam başqa idi.

Xorasanda hökmranlıq edən Yetim Sultan adlı başqa bir əmir isə Əbdülmumin xana nifrət bəslədiyindən Həratı ələ keçirmək qərarına gəlir. Əbdülmumin xanın ölüm xəbəri çatdıqdan sonra Hərat əhalisi ona meyl etməyə başlayır. Beləliklə o, Hərata hakim seçilir və adını dəyişərək Din Məhəmməd xan qoyur. Bu vaxt şah Abbas qızılbaş ordusu ilə birlikdə Xorasana yola düşür. Məşhəddə məskunlaşmış özbəklər qızılbaşların gəlişi ilə onlardan kiminsə sağ qalmayacağını başa düşüb orada qalmağı tamamilə mənasız hesab edirdilər. Bunun üçün də şəhəri tərk etmək qərarına gəlirlər. Beləliklə, qızılbaş ordusu heç bir müqavimətlə qarşılaşmadan on ildən sonra Məşhəd şəhərinə daxil olur. Din Məhəmməd xan isə əbəs yerə Məşhəd və Xorasanın ətraf məntəqələrini özbəklərin nəzarəti altında olmasına çalışırdı. Fürsətin əldən verildiyi artıq göz qabağında idi. Lakin o, özbəklərlə apardığı müzakirələrdən sonra qızılbaşlarla mübarizə aparmaq qərarına gəlir.

Şah Abbas Məşhədə daxil olduqdan sonra Fərhad xanın rəhbərlik etdiyi qoşunu Hərata göndərir və onların ardınca başqa bir qoşun da yola düşür. Həratdan kənarda düşərgə qurmuş özbək qoşunu da məntəqəyə nəzarəti əldən verməmək üçün tam ciddiyyətlə mübarizəyə hazırlaşırdı. Tərəflər qarşı-qarşıya gəlir və qızılbaşların göstərdiyi fədakarlıqlar nəticəsində özbəklər məğlub edilir və həm əsgərlərinin, həm də sərkərdələrinin böyük bir hissəsi döyüş meydanında qətlə yetirilir. Belə ki, tarixçilər özbəklərin dörd minə yaxın adam itirdikləri barədə xəbər vermişlər. Döyüşdə yaralanan Din Məhəmməd xan da yolda həlak olur. Şah Abbasın gördüyü ən xoşagəlməz və səbəbi kimsəyə bəlli olmayan işlərdən biri də illər boyu ona sədaqətlə xidmət etmiş qızılbaş sərkərdəsi Fərhad xanı öldürməsi olmuşdur. Belə ki, hətta onun özü də sonralar tutduğu işdən peşman olmuşdur.

Beləliklə, Hərat özbəklərin nəzarəti altından xaric olur və qızılbaşlar bir daha Xorasan və onun ətraf məntəqələrində hökmranlıq etməyə başlayırlar.

Digər tərəfdən də əvvəllər Mərvin hakimi Nur Məhəmməd xan və ondan əvvəl Xarəzmin valisi olan Hacı Məhəmməd xan özbəklərin işğalından sonra İrana pənah gətirmiş və qızılbaşların köməyi ilə yenidən öz yerlərinə qayıdıb hökmranlıq etməyə başlamışdır. Bütün bunlarla yanaşı, Buxara hakimi Pir Məhəmməd xan tərəfindən də dostluq xəbəri göndərilir. Hərçənd ki, az sonra Din Məhəmməd xanın qardaşı Bqi xan əvvəl Səmərqəndə, sonra isə Buxara və Orta Asiyanın digər məntəqələrinə hücum edərək hakimiyyəti ələ alır. Şah Əstərabada qayıdarkən Mazandarana gedir. Beləliklə, uzun illər ölkə ərazisində hökm sürən düşmənçilik və fitnə-fəsada son qoyulur, hər yerdə sabitlik və əmin-amanlıq bərqərar olunur. H.q. 1008-1009-cu illərdə hələ də Xorasan şah Abbasın diqqət mərkəzində idi. O, dəfələrlə İmam Rzanın (ə) hərəmini ziyarət etməklə yanaşı, burada qızılbaş dövlətini gücləndirməyə çalışırdı. Bu məqsədlə h.q. 1009-cu ildə Xorasanın şimalına, daha dəqiq desək, Nur Məhəmməd xanın nəzarəti altında olan Mərv, Əbyurd və Nəsa adlı məntəqələrə baş vurur və orada qızılbaş dövlətinin mövqeyini möhkəmləndirdikdən sonra İsfahana qayıdır.

Bir sözlə, Xorasanın özbəklərin işğalından azad olunması yalnız şahın onların Orta Asiyadakı qüdrət və nüfuzunu məhdudlaşdırması ilə mümkün idi. Bu məqsədlə h.q. 1011-ci ildə bir daha Xorasana yola düşür və orada bəlxə qoşun yürüdür. Şəhərin yaxınlığında baş verən döyüşdə özbəklər məğlub olur. Lakin orduda yoluxucu xəstəlik yayıldığından qızılbaş ordusu da Məşhəddə qala bilməyib geri qayıdır.

Döyüşdə diqqəti cəlb edən məsələlərdən biri də qızılbaşların əvvəlki döyüşlərdə osmanlı və özbəklərin əsir götürdükləri müsəlman qadın və uşaqların əvəzinə yerli əhalinin bir çoxunu əsir götürülməsi olur. İsgəndər bəy bu haqda yazır: «Əsir götürülənlərin sayı-hesabı bilinmirdi. Minlərlə şiə və iman əli olan qadın və uşaq haqq olaraq öz şüarını verirdilər».

Şah Abbasın Əbdülmumin xana göndərdiyi məktubun mətninə nəzər saldıqda onun özbəkləri müsəlman hesab etdiyi dərhal özünü büruzə verir. Məktubda deyilirdi: «Hakimiyyət uğrunda bir-biri ilə mübarizə aparan həm Humayun, həm də özbək ordusunun əsgərləri «Allahdan başqa Allah yoxdur və Məhəmməd Onun elçisidir» deyirlər. Hər iki qoşun mübarizə meydanına atılacaq və yalnız Allahın kömək etdiyi qoşun qalib gələcəkdir. Qoy kim qalib gələcəksə gəlsin və minlərlə günahsız Allah bəndəsi məhv olub aradan getməsin».

Ağır məğlubiyyətdən sonra özbəklər uzun müddət Xorasana hücum edə bilmirlər. Lakin h.q. 1015-ci ildə Şah Abbasın başı Şirvan qalasını fəth

etməyə qarışdığı zaman onlar fürsətdən istifadə edib Xorasana hücum edirlər, bu dəfə də ağır məğlubiyyətə uğrayıb geri qayıdırlar.

## *TƏBRİZ, NAXÇIVAN VƏ İRƏVANIN AZAD OLUNMASI*

H.q. 1012-ci ildə İranla osmanlı dövləti arasında yeni qarşıdurmalar meydana gəlir və ilk döyüş osmanlıların Nəhavənddə tikdirdikləri qalada baş verir. Qarşıdurmaların meydana gəlməsi ilə Osmanlı tərəfdarları ilə müxalifləri arasında ciddi ixtilaf yaranır və nəticədə qala müxaliflərin əlinə düşür. Yaranmış belə bir şəraitdə vəziyyəti sakitləşdirmək üçün Bağdaddan nümayəndə heyəti gəlir, lakin onların irəli sürdükləri təkliflər qəbul olunmur. Onlar da çarəsizlik üzündən İran ərazisinə üz tutur və burada qoşun onların köməyinə gəlir. Qala fəth olunduqdan sonra osmanlı dövlətinin müxalif və tərəfdarları oranı tərk edir və beləliklə, qala Osmanlıların ixtiyarına keçir. Bunun ardınca osmanlılarla sərhəd ərazilərdə baş qaldıran üsyançıların bir neçə məntəqəni ələ keçirmələrindən istifadə edən şah bu istiqamətdə ciddi tədbirlərə əl atmaq qərarına gəlir. O, h.q. 1012-ci ilin Rəbiul-əvvəl ayının 12-də İsfahandan xaric olur və on bir gündən sonra Təbrizə çatır. Qoşun o qədər tez hərəkət edir ki, Təbrizdə məskunlaşmış Osmanlılar onların gəlişindən xəbər tutmur. Təbrizin ətraf məntəqələrində məskunlaşmış əhali qızılbaşların şəhərə doğru hərəkət etdiyini görüb uzun illər boyu qorxudan gizlətdikləri on iki qatlı əmmamələrini başlarına qoyub şüar verə-verə şahın pişvazına çıxır. Qızılbaşların «Allah, Allah» şüarları hər yanı bürüyür. Beləliklə, iyirmi illik işğaldan sonra qızılbaşlar yenidən Təbrizə daxil olurlar. Bu vaxtadək təqiyyə[1] ilə yaşayan Təbriz camaatı artıq öz əqidəsini aşkarcasına büruzə verə bilirdi. Lakin Təbrizin fəthi bir o qədər də mühüm deyildi. Çünki, hər şeydən daha çox əhəmiyyət kəsb edən osmanlılarda olan Təbriz qalası idi. Osmanlıların bəylərbəyi hesab olunan Əli paşa isə bu vaxt Mərənddən Təbrizə tərəf gəlirdi. Fürsətdən istifadə edən qızılbaşlar şəhərdən bir neçə kilometr kənarda düşərgə qurub osmanlıların gəlişini gözləyirlər. Baş verən qarşıdurmada osmanlılar məğlub olur və Əli paşa əsir götürülür. Məlum məsələ idi ki, qalanın müdafiəçiləri müqavimət göstərə bilməyəcəkdi. Bu səbəbdən də kiçik danışıqlardan sonra sülhə razı olub qalanı qızılbaşların ixtiyarına qoyurlar. Qalanın Təbrizdə olması ciddi çətinliklərə səbəb ola bilərdi. Bu səbəbdən də şah ağsaqqallarla məsləhətləşdikdən sonra onun uçurulmasını əmr edir. Lakin bu heç də düzgün addım deyildi. Bunun üçün

[1] Təqiyyə-təhlükə olduğu təqdirdə əqidənin gizli saxlanılması

də çox keçmədən şah peşman olub qalanın yenidən tikilməsini əmr edir. Qəribə burasındadır ki, şah bununla kifayətlənməyib Rəşidəddin Fəzlullah tərəfindən abadlaşdırılmış Rəbi Rəşidi adlı məntəqədə başqa bir qalanın inşa olunmasını da əmr edir. Şah ona yaraşmayan bir tədbirə də əl atır. O, külli miqdarda vəqfləri olan dərviş məbədlərindən və mədrəsələrdən ibarət olan Şənb Qazaniyyə imarətlərini uçurub oranın tikinti materiallarından qalanın tikilişində istifadə edir. Növbə artıq əhalisi hamılıqla qızılbaşları himayə edən Naxçıvan və İrəvanın idi. Lakin şəhər qalaları iyirmi il burada hökmranlıq edən Osmanlıların ixtiyarında idi. Qızılbaşların gəlişi ilə Naxçıvan qalasında məskunlaşmış osmanlılar da sülhə razı olub qalanı qızılbaşların ixtiyarına qoyurlar. Qızılbaşlar İrəvan qalasına yaxınlaşdıqda isə yerli əhalinin qala uğrunda mübarizə apardığının şahidi olurlar.

Qalanın müdafiəsi son dərəcə güclü olduğundan oranın fəthi asan olmur. Bunun üçün də şah İrəvanın mərkəzində top düzəltdirir və Təbrizdən də doxsan kiloya yaxın daş ata bilən mancanaqlar gətirir. Bunun üçün də qalanın mühasirəsi çox çəkir və havanın soyuq olmasına baxmayaraq, qızılbaşlar bütün qışı qalanın fəthinə hazırlaşırlar. Qalanın mühasirəsi zamanı qızılbaşlara qoşulan Gürcüstan qoşunu da işlərin gedişatına böyük təsir göstərir.

İllər boyu İranın ayrılmaz hissəsi olan İrəvanın fəthi Şah Abbas üçün Təbriz qədər əhəmiyyət kəsb edirdi. Şah qalanın fəth olunmasına o qədər böyük diqqət yetirirdi ki, şəxsən özü dəfələrlə onun ətrafına dövr edib oraya nüfuz etməyə yol axtarırdı. Nəhayət, h.q. 1012-ci ilin Zilhiccə ayının 28-i səhərə yaxın qalaya hücum edilir, sağ və sol cinahlarda yerləşdirilən topların ildırım sədası ətrafı bürüyür. Qala fəth olunub qızılbaşların ixtiyarına keçdiyi zaman Şərif Paşa sülh təklifini irəli sürür. Belə bir addım əslində sülh təklifi deyil, köməyə gələn osmanlı qoşununun gəlib çatması üçün bir növ fürsət, daha dəqiq desək, vaxt udmaq idi. İsgəndər bəy yazır: «Aşura gecəsi yerli əhali İmam Hüseynin (ə) əzadarlıq mərasimini keçirirdi. Yaranmış səs-küydən qızılbaşların hücum etdiklərini güman edib təşvişə düşən osmanlılar dərhal sülh sazişinə hazır olduqlarını bildirdilər».

Maraqlı hallardan biri də İrəvan qalasının sərkərdəsi Şərif Paşanın əslən İsfahanlı olub, uşaqlığından Osmanlı ərazisində yaşaması olmuşdur. Yaranmış belə bir vəziyyətdə Osmanlı ərazisinə qayıtmaqdan imtina edir və hər şeydən üz çevirərək şiəliyi qəbul edir. Sonra isə yüz nəfər tərəfdarı ilə birlikdə Məşhəddə məskunlaşır. Beləliklə, İrəvan qalası da yenidən İran ərazisinə birləşir.

H.q. 1013-cü ildə Çuğaloğlunun rəhbərlik etdiyi Osmanlı ordusunun Azərbaycanı, xüsusilə də Naxçıvanı ələ keçirmək cəhdi də heç bir nəticə vermir.

İrəvan mühasirədə olduğu zaman Bağdad hakimi Osmanlılara qarşı üsyan edir və şahı köməyə çağırır; Fars hakimi Allahverdi xan cənub ordusu ilə birlikdə Bağdada doğru hərəkət edir. Lakin qoşun Bağdada yaxınlaşdıqda Uzun Əhməd verdiyi sözə əməl etmir. Qızılbaş ordusu Osmanlılara qalib gəlmələrinə əmələ edərək Bağdadı mühasirə etmədən geri qayıdır. Daha sonra Uzun Əhməd Xuzistana qoşun yürüdür. Nəticədə qızılbaşlara məğlub olub Uzun Əhməd əsir götürülərək şahın hüzuruna göndərilir. Uzun Həsən verdiyi sözə əməl etməməsinə və bununla yanaşı Xuzistana qoşun yürütməsinə baxmayaraq, şah onu yenidən Bağdada hakim təyin edir. Hərçənd ki, qayıdarkən Zəncan şəhərində ağır xəstəliyə düçar olub dünyasını dəyişir.

### *QIZILBAŞLARIN OSMANLILARLA APARDIĞI MÜBARİZƏNİN DAVAMI*

Təbriz, Naxçıvan və İrəvan fəth olunduqdan sonra hələ də Səfəvi Soltan Məhəmmədin hakimiyyət dövründə işğal olunmuş bir çox ərazilər Osmanlıların nəzarəti altında idi. Şah Abbas bu əraziləri azad etməyi özünün ən başlıca vəzifəsi hesab edirdi.

O, bir neçə kiçik döyüşdən sonra yenidən Təbrizə qayıdır. Bu zaman Osmanlılar özlərini qüdrətli düşmənin qarşısında görürdülər. Bu səbəbdən də onlar hər iki tərəfin ixtiyarında olan əraziləri olduğu kimi saxlamaqla sülh sazişinin təzələnməsini təklif edir. Lakin ölkənin işğal altında olan digər ərazilərini də azad etmək fikrində olan şah sülh sazişinə razı olmur. Osmanlılar Mərəndə hücum etmək üçün qoşunun bir hissəsini Azərbaycana yola salır. Xəbər qızılbaş ordusuna çatdıqda onların qarşısına çıxıb geri çəkilməyə məcbur edirlər. Şah kürdlərin təcavüzünün qarşısını almaq üçün bir müddət Xoy və Makuda qalmalı olur.

Digər tərəfdən Gürcüstan ordusu Kastandil xanın rəhbərliyi ilə Şirvanı işğal etmək üçün oraya hücum edir. Uşaqlığında Səfəvi sarayında böyüyüb boya-başa çatmış bu şəxs hadisələrin baş verdiyi ərəfədə Gürcüstana qayıdır və Şirvanı ələ keçirmək üçün ata və qardaşından nə qədər kömək istəyirsə onlar buna razı olmurlar. Onlardan rədd cavabını eşitdikdən sonra qızılbaşlardan kömək alıb ata və qardaşına qarşı çıxır və hər ikisini qətlə yetirir.

Beləliklə, Gürcüstana nəzarət Kastandil xanın ixtiyarına keçir. İranda tərbiyə almış bu şəxs Səfəvi qayda-qanunları və adət-ənənələri ilə yaxından tanış idi. Şirvana göndərilən Gürcüstan qoşunu Osmanlıları məğlub edib külli miqdarda qənimət əldə edir. Lakin onun bəxti tam gətirmir. Belə ki, gürcülər onun müsəlman olduğunu bəhanə gətirərək, xristian hakim tələb edir və onu tək qoyurlar. Sonralar Gürcüstandakı əraziləri ələ keçirmək üçün yola düşür, amma bu dəfə qətlə yetirilir. Bütün bu müddət ərzində osmanlılar Çoğaloğlunun rəhbərliyi ilə Van gölünün ətrafında düşərgə qurub Azərbaycan üçün ciddi təhlükə yaradırdı. Şah bu dəfə osmanlıların hücumunu gözləmir və Allahverdi xanın rəhbərliyi ilə Van gölünə otuz minlik qoşun göndərir. Qızılbaş ordusu bu dəfə osmanlıların böyük bir hissəsini qətlə yetirməklə yanaşı, onlara qalada sığınacaq tapmağa imkan vermir. Bundan sonra Səfəvilər geri qayıdırlar və bir müddət sonra Osmanlılar böyük bir qoşunla yenidən Təbrizə hücum edirlər. Baş verən olduqca ağır döyüşdə osmanlılar böyük itki verdikdən sonra ağır məğlubiyyətə uğrayıb geri qayıtmağa məcbur olurlar. Çoğal oğlu bu dəfə elə bir məğlubiyyətə uğrayır ki, hətta Van gölünün ətrafında belə düşərgə qurmayıb birbaşa Diyarbəkrə qaçır.

Bütün bu hadisələr h.q. 1014-cü ilədək baş verir. Qarabağ və Şirvan hələ də Osmanlıların ixtiyarında qalmaqda idi. Səfəvi ordusu Çoğaloğlunu məğlub etdikdən sonra h.q. 1015-ci ilin ilk aylarında Qarabağa yola düşür və orada Gəncə qalasını mühasirə edir. Qala dörd ay mühasirədə saxlanılır və oraya heç bir kömək gəlmədiyindən oranın sakinləri təslim olmaq məcburiyyətində qalırlar. Bunun ardınca məntəqədə yerləşən digər mühüm qalalar da fəth olunur və orada məskunlaşmış osmanlılar təslim olurlar. Səfəvi ordusu şahla birlikdə Şirvana yola düşür. O yolda Ordubaddan keçir və əhalinin böyük bir hissəsi Nəsrəddin Tusinin nəslindən olduqları üçün onlara xüsusi qayğı göstərir. Qeyd etmək yerinə düşərdi ki, şahın vəziri Hatəm bəy də bu tayfadan olmuşdur. Bunun üçün də İsgəndər bəy öz kitabında onlar barədə ətraflı söhbət açmışdır. Qış mövsümü yaxınlaşdığı üçün qızılbaşlar özlərini Şirvanın mühüm qalalarından biri olan Şamaxı qalasına çatdırırlar. Mühasirə bir neçə ay çəkir və qızılbaşlar yalnız məntəqəyə h.q. 1016-cı ildə etdikləri yürüş zamanı qalaya daxil ola bilirlər. Bir neçə günlük qarşıdurmadan sonra osmanlılar məğlub olurlar və qalanın sərkərdəsi Əhməd paşa özünü qızılbaşlara təslim edir. Bir neçə müddətdən sonra şah Məşhədə yola düşür, İmam Rzanın (ə) qəbrini ziyarət etdikdən sonra İsfahana qayıdır və orada böyük bayram şənliyi qurur. Qeyd etmək

lazımdır ki, hələ bir neçə il əvvəl Osmanlı dövlətinin daxilində bir sonra üsyanlar baş qaldırmış və bu üsyanlara Cəlali adlı bir şəxs rəhbərlik etmişdi. İlkin mərhələdə bu iğtişaşlara bir o qədər də ciddi yanaşmayan osmanlı dövləti çox keçmədən Cəlalilərin böyük təhlükə törədəcəyini hiss edir. Onlar bir neçə il davam edən mübarizədən sonra məğlub olur və h.q. 1016-cı ildə on üç minlik böyük bir dəstə ilə Azərbaycana gəlir və burada Səfəvilər tərəfindən böyük hörmətlə qarşılandıqdan sonra İsfahana yola düşürlər. Bir neçə ay sonra şah onları özlərindən olan Məhəmməd paşanın rəhbərliyi ilə qızılbaşlarla birlikdə Kürdüstana göndərir. Beləliklə, Cəlalilər Səfəvilərin bir hissəsini təşkil etməyə başlayırlar. Hərçənd ki, onlar zaman keçdikcə pərakəndə şəkildə Səfəvilərdən ayrılaraq Osmanlı dövlətinin ərazisinə qayıdırlar.

## *SƏFƏVİLƏR DÖVLƏTİNİN OSMANLILARLA YARATDIQLARI ƏLAQƏLƏRİN DAVAMI*

H.q. 1018-ci ildə osmanlı paşası Murad tərəfindən şah Abbasın yanına səfir göndərilir və sülhün zəruriliyi barədə onunla danışıqlar aparılır. Danışıqlar zamanı qeyd olunur ki, müsəlmanlar arasında gedən qarşıdurmalar qeyri-müsəlman hakimlərin sevincinə səbəb olur. Şah Abbas da sülhün Təhmasib şahın zamanında Soltan Murad tərəfindən pozulduğuna işarə edərək gileylənir və bu işdə yalnız osmanlı dövlətini müqəssir hesab edir.

H.q. 1019-cu ildə osmanlı səfiri Xeyrəddin Çavuş İran səfiri Məhəmməd bəylə birlikdə şahın dostluq məktubu ilə osmanlı dövlətinin ərazisinə qayıdır. Təəccüblü olsa da bu arada şaha Murad paşanın hücum xəbərini çatdırırlar. Qızılbaşlar dərhal mübarizə meydanına atılıb bu dəfə də osmanlıları darmadağın edirlər. Baş ucalığını itirən Murad Paşa yenidən danışıqların aparılması üçün Azərbaycana böyük bir qoşun göndərir. Lakin bu dəfə elə bir ciddi qarşıdurma baş vermir və osmanlılar bu dəfə də böyük tələfat verərək geri çəkilməyə məcbur olurlar. Osmanlılar bu dəfə də qızılbaşları inandırmağa çalışırlar ki, onların gəlişindən məqsəd yalnız sülhün bərqərar olunmasıdır. H.q. 1019-cu ildə İran səfiri osmanlı soltanı ilə görüşür və belə qərara gəlinir ki, Murad paşa sərhədlərin təyin olunması üçün öz nümayəndəsini göndərsin. Həmən il şah Abbasın vəziri Hatəm bəy etimadud-dövlə də vəfat edir.

H.q. 1020-ci ildə şah Abbas sülh danışıqlarını aparmaq üçün İstanbula bir neçə yüksək rütbəli dövlət məmuru və tanınmış din alimi göndərir. O,

Soltan Əhmədlə yanaşı, bir neçə din aliminə də məktub göndərir və orada onları kin-küdurətə son qoymağa, İslam bayrağını ucaldıb onun gücləndirməyə və küfrə qarşı birgə mübarizə aparmağa çağırır. Bütün bunlar isə şah Abbasın osmanlıları kafir hesab etməməsindən və firənglərə (avropalılarla) qarşı birgə mübarizə aparmaq istəməsindən xəbər verir. Danışıqlar başa çatdıqdan sonra İran dövlətinin nümayəndə heyəti vətənə qayıdır və belə qərara gəlinir ki, hər iki tərəfdən nümayəndə seçilsin və Təhmasib şahın hakimiyyət dövründə təyin olunmuş sərhədlərin yenidən müəyyən olunması üçün lazımi işlər görülsün. Beləliklə, sərhədləri müəyyən edən sənəd tərtib olunur və osmanlı səfiri ilə birlikdə İstanbula göndərilir. Lakin osmanlı soltanının qətlə yetirilməsi və başqa birisinin Sultan seçilməsi bu razılaşmanın icra olunmasına imkan vermir. Bir gün İsfahana xəbər çatır ki, Osmanlı ordusu yenidən səfərbər olunaraq Azərbaycana doğru hərəkət etməkdədir. Eyni zamanda gürcülər və kürdlər də üsyan edərək mərkəzi dövlətə qarşı mübarizəyə başlayıblar. Bundan əlavə Xorasanda sabitlik pozulub, özbəklər Mərvə hücum ediblər. Bununla da qızılbaşların ölkə ərazisində yaratdıqları nizam-intizam yenidən pozulur. İlk növbədə bir dəstə kürd Vanın bəylərbəyi ilə birlikdə qızılbaşlarla qarşı-qarşıya gəlir. Bundan sonra osmanlı soltanı Məhəmməd Paşa h.q. 1025-ci ildə bu vaxtadək misli görünməyən say və təchizata malik olan qoşunla hücum edib İrəvan qalasını mühasirə edir. Şah Abbas təcrübəli qoşununu, xüsusilə də İsfahan tüfəngçilərini oraya göndərir. Bu tərəfdən də Fars əyalətinin bəylərbəyi İmamqulu xan öz ordusu ilə birlikdə döyüşə hazırlıq görür. Osmanlılar rum və avropa toplarından istifadə edərək gecə-gündüz qalaya atəş açsalar da, İrəvan qalasını ələ keçirə bilmirlər. Hücumlar zamanı osmanlıların zəifliyini görən Məhəmməd paşa yenidən sülh danışıqlarını davam etdirməyi təklif edir və beləliklə, tərəflər arası danışıqların yeni mərhələsi başlanır. Bütün bu hadisələr Şah Abbas hakimiyyətinin otuzuncu ilində baş verir və həmən il qızılbaşlar osmanlılar üzərində ən böyük qələbə və uğur qazanırlar.

Sülh danışıqları bu dəfə də baş tutmur. Osmanlı ordusu döyüşlərdə və qışın soyuğunda qırx min itki verdikdən sonra geri qayıdır. Soltan Mustafa (h.q. 1026-1027) və ondan sonra Soltan Əhmədin oğlu Soltan Osman (h.q. 1027-1031) hakimiyyətə gəldikdən sonra h.q. 1027-ci ildə osmanlı ordusu yenidən Aəzərbaycana qoşun yürüdür. Xəbər Təbrizə çatmaqla əhali dərhal şəhəri tərk edir. Beləliklə, osmanlılar rahatlıqla şəhərə daxil olur və bir neçə gündən sonra şəhərin kənarında düşərgə qururlar. Osmanlı səfiri qoşunun

sülh üçün gəldiyini bidirir. Lakin onun bu sözü şahı bərk qəzəbləndirir. Maraqlı hallardan biri də yürüşdə tatarların da osmanlılarla birgə iştirak etməsi olur.

Nəhayət, tərəflər qarşı-qarşıya gəlir və qızılbaşlar sol və sağ cinahlardan ağır zərbə vurmaqla osmanlıları qaçmağa vadar edirlər. Döyüş zamanı Ərzurumun bəylərbəyi həlak olur. Vanın bəylərbəyi isə bir neçə əmirlə birlikdə qızılbaşlara əsir düşür. Son dərəcə ehtiyatla hərəkət edən şah Abbas həqiqi mənada sülh tərəfdarı idi. Bunun üçün də döyüş meydanını tərk edən osmanlıları təqib etməyə icazə vermir. Döyüşdə məğlub olmuş və geri çəkilməyə məcbur olan osmanlı ordusu yenidən sülh sazişini ortaya atır. Beləliklə, əvvəlki danışıqlar əsasında osmanlı etimadud-dövlə ilə şah Abbasın səfiri Mirzə Məhəmməd Hüseyn arasında sülh sazişi imzalanır. Osmanlı dövləti İrandan geri çəkildikdən sonra Avropa düşmənləri ilə qarşı-qarşıya gəlir. Bu xəbər şah Abbas və sair müsəlmanlara böyük sevinc bəxş edir. İsgəndər bəy yazır: «Şah Abbas öz səfirini Osmanlı soltanının yanına göndərir və ondan İslam ordusunda baş verənlər haqda məlumat verməsini istəyir. Bununla yanaşı, h.q. 1031-ci ildə Portuqaliyalıların Hörmüz boğazını ələ keçirdikləri haqda xəbər verir».

Hadisələr baş verdiyi günlərdə Şah Həratda olduğu zaman osmanlıların üsyanı nəticəsində Soltanın ölüm xəbərini eşidir. Osmanlı dövlətinin ərazisində, xüsusilə də ərəb İraqında vəziyyət gərginləşir, yerli əhali osmanlılara və ya qızılbaşlara tabe olmaqdan boyun qaçırır.

H.q. 1032-ci ildə Şah Abbas Bağdada yola düşür. Qoşun şəhər divarlarına yaxınlaşdıqda üsyançıların rəhbəri verdiyi vədənin əksinə olaraq şahla mübarizəyə atılır. Şah şəhəri ələ keçirmək qərarına gəlir və bunun üçün də oraya qoşun göndərir. Baş verən qarşıdurmada üsyançılar məğlub edilir və qala qızılbaşların ixtiyarına keçir. Şah şəhərə daxil olduqdan sonra Mir Cəmaləddin Kaşi imamlıq etdiyi Abbasi məscidində on iki imamın şəninə xütbə oxuyub şah Abbası mədh edir. Bu İraq məscidində bir neçə ildən sonra on iki imamın fəziləti haqqında oxunan ilk xütbə idi. Şah Abbas İraqda olduğu müddətdə Nəcəf, Kərbəla və Samirə şəhərlərində olur, orada dəfn olunmuş imamların qəbirlərini ziyarət edir və sonra Mosul və Kərkükü ələ keçirmək üçün oraya qoşun göndərir.

H.q. 1034-cü ildə osmanlılar qızılbaşların ixtiyarında olan Bağdadı mühasirəyə alır və mühasirə altı ay davam edir. Bağdadı Humayun sülaləsinin qanuni irsi hesab edən şah Abbas böyük bir qoşunla oraya hərəkət edir. O, əlində əsas tutur ki, əgər Məkkə və Mədinə şəhərləri

osmanlıların ixtiyarındadırsa, gərək İraq ərazisində olan ziyarətgahlar da qızılbaşların ixtiyarında olsun. Baş verən kiçik qarşıdurmadan sonra osmanlılar müqavimə göstərə bilməyib sülh təklifini irəli sürürlər və h.q. 1035-ci ildə böyük rüsvayçılıqla geri qayıdırlar.

## *ŞAH ABBAS VƏ GÜRCÜSTAN*

Bura qədər İranla Gürcüstan arasındakı əlaqələr haqda pərakəndə olsa da söhbət açmışdıq. Əhalisi yalnız məsihilərdən ibarət olan Gürcüstan Səfəvilər hakimiyyətinin ilk illərindən daim diqqət mərkəzində olmuş, bir növ muxtar əyalət sayılaraq İranın ayrılmaz bir hissəsi hesab olunmuşdur. Səfəvilər İslamın yayılması üçün burada bir çox fəaliyyətlər göstərsələr də, çox az şey əldə edə bilirlər. Əvəzində yürüşlər zamanı əsir götürülmüş minlərlə kişi və qadın İran ərazisinə gətirilir və zaman keçdikcə burada ayrıca tayfa kimi fəaliyyət göstərməyə başlayırlar.

Bütün bunlara baxmayaraq, Gürcüstan Muxtar dövlət olaraq qalmaqda idi. Lakin hər neçə ildən bir Səfəvi şahlarının elə bir çətinliyi olmadıqda buraya qoşun yürüdür və tarixçilərin dedikləri kimi, gürcülərə qulaq burması verilirdi. Gürcülər də İranla osmanlılar arasında meydana gələn qarşıdurmalarda son dərəcə ehtiyatla hərəkət edirdi. Qızılbaşlar qələbəyə yaxın olduqda əlavə qüvvə göndərərək onlara kömək edirdilər. Ümumiyyətlə, gürcülər İran dövlətinə yaxın olmuş və onları osmanlı dövlətindən daha təhlükəsiz hesab etmişlər. Şah Abbas buraya dəfələrlə qoşun yürüdür. Bu yürüşlərin ən yadda qalanı hicrətin 1023-1024-cü illərində baş verir. Belə ki, şah Abbas bu dəfə müsəlman olmuş şahzadələrdən birini Gürcüstana hakim təyin edir. Bununla yanaşı, o, Gürcüstanın İslam dini haqqında heç bir məlumatı olmayan məntəqələrinə qoşun yürüdərək kilsələrdə azan verilməsini əmr edir. Şah Abbas Osmanlı soltanına göndərdiyi məktubda qeyd edir ki, onlar Avropada kafirlərə qarşı mübarizə apardıqları kimi, Humayun ordusu da Gürcüstanda kafirlərə qarşı cihad edir.

Lakin şah Gürcüstandan qayıtdıqdan və İranla Osmanlı dövləti arasında əldə olunmuş sülh sazişi pozulduqdan sonra gürcülər müsəlman hakimini istəmədikləri üçün yenidən qiyama başlayırlar. Qızılbaşların məğlubiyyəti və orada məskunlaşmış müsəlmanların böyük bir hissəsinin qətlə yetirilməsi şahın yenidən oraya qoşun göndərməsinə səbəb olur. Geniş miqyaslı bu hücumda ölənlərin sayı altmış minə çatırdı.

İsgəndər bəy bu haqda yazır:

«Minlərlə insan qətlə yetirildi və otuz minə yaxın huri gözlü qız-gəlinlər əsir götürüldü». O, Gürcüstana olunan yürüşlər haqqında söhbət açdığı zaman gürcü qadınlarının gözəllikləri və yaşadıqları məntəqənin gözəl ab-havası haqqında ətraflı məlumatlar verir. İran ordusunda və ailələrdə xidmət edən gürcüləri sayı o qədər çox idi ki, italyan səyyahı Deloveli xatirələrində bunu gələcəkdə ciddi təhlükə törədə biləcəyini ehtimal vermişdir. Çünki, onlar Şah Abbasdan sonra intiqam almaq məqsədilə İran üçün ciddi çətinliklər yarada bilərdilər. Lakin bu proqnozlar özünü doğrultmur və Səfəvilər dövləti öz fəaliyyətini dayandırdıqdan sonra gürcülər Rusiyaya pənah aparırlar.

## *ŞAH ABBASIN ÖLÜMÜ VƏ CANİŞİNLİK MƏSƏLƏSİNİN ORTAYA ÇIXMASI*

Şahın rəsmi vəliəhdi Mirzə Səfi kimi tanınan böyük oğlu Mirzə Məhəmməd Baqir idi. H.q. 1022-ci ilədək o, şahın rəsmi vəliəhdi hesab olunurdu. Lakin növbəti ildə şahın öz oğluna qarşı bədgüman olmasına səbəb olan bir neçə hadisə baş verir. Bunun üçün də şah çərkəs qulamlarından birinə Mirzə Səfini öldürməyi əmr edir. O da şahın əmrinə əsasən Mirzə Səfini hamamdan qayıdarkən qətlə yetirir. Şeyx Bəhayi şahın icazəsini aldıqdan sonra Mirzə Səfinin bir neçə saat gil içində qalan cəsədini oradan çıxarır və sədirlik vəzifəsini icra edən Mirzə Rəzi ona qüsl verib dəfn edir. Bütün bunlar h.q. 1023-cü ildə Rəştdə baş verir. Tutduğu işə görə Şah Abbas peşman olur. O, Mirzə Səfinin həyat yoldaşı tərəfindən danlaq atəşinə tutulur və xəcalətindən otağından bayıra çıxmır. Bundan sonra Şah Abbas bir il oğluna yas saxlayır, bər-bəzəkli paltarlar geyinmir və hamıya Mirzə Səfi barədə bir söz danışmağı qadağan edir. Oğlu Mirzə Səfini qətlə yetirdikdən sonra Şah Abbasın h.q. 1030-cu ildə gördüyü xoşagəlməz işlərdən biri də başqa bir oğlu Mirzə Məhəmmədin gözünü çıxartması olur. Bunun isə əsas səbəbi şahın İsfahanda olmadığından istifadə edərək günlərini eyş-işrətdə keçirməsi və atasından sonra hakimiyyət intizarında olması olmuşdur. Beləliklə, vəliəhdlik şahın başqa bir oğlu İmamqulu xana çatır. Lakin şah buna da dözə bilməyib h.q. 1036-cı ildə yəni ölümündən iki il əvvəl onun da gözlərini çıxarır. İsgəndər bəy şahı bu işdə müdafiə edərək bunu ordu, rəiyyət və ata ilə oğul arasında müəyyən həddi-hüdudun saxlanılması ilə əlaqələndirir.

H.q. 1038-ci ildə, ömrünün son günlərini yaşayan şah Abbas Mazandaranda şahlıq edən Mirzə Səfinin oğlu Mirzə Samı vəliəhd təyin

etmək qərarına gəlir. Lakin ondan da nigaran olub ona özünü idarə edə bilməyəcək qədər tiryək vermələrini əmr edir. Lakin bütün bunlara baxmayaraq, Mirzə Sam şah Abbasdan sonra şah Səfi adı ilə taxta çıxır və babasının qurub getdiyi hər nə var idisə viran, alt-üst edir.

Şah Abbasın hakimiyyətə olan bağlılığı və daş ürəkliyindən irəli gələn bu kimi işlər siyasi baxımdan dövlətin möhkəmlənməsinə müsbət təsir göstərsə də, Səfəvi dövlətinin gələcəyini sual altına aparırdı. Şah Abbas bütün dövlət mənsəblərini öz yaxın qohumlarına həvalə etməklə özündə bir növ arxayınlıq hiss etmək istəyirdi. Belə ki, gürcü paşa mənsəbini qızı Zubeyd bəyimin həyat yoldaşı İsa xana, vəzirliyi başqa bir kürəkəni Soltan xəlifəyə, sədirliyi də digər kürəkənlərinə həvalə edir. Şah Abbas h.q. 1038-ci ilin Cəmadiyə-əvvəl ayının 24-ü dördüncü günün gecəsi Mazandaranda dünyasını dəyişir, Kaşandakı imamzadə Musa ziyarətgahında dəfn olunur.

Şah Abbasın gördüyü ən mühüm işlərdən biri də Səfəvi dövlətinin şan-şöhrətini özünə qaytarması olur. Belə ki, onun hakimiyyət dövründə Səfəvi dövləti hətta Təhmasib şahın hakimiyyət dövründən də, daha çox şan-şöhrət əldə edə bilir. Bu dövrdə Səfəvi dövlətinin ərazisi şimaldan cənuba Gürcüstandan Bəhreynə, qərbdən şərqədək isə Bağdaddan Qəndəharadək genişlənir. Daxildə də böyük nüfuza malik olub bütün əyalətləri müstəqil olaraq idarə etməyə başlayır.

Burada yaxşı olardı ki, nüfuz və qüdrəti bəlli olan və şan-şöhrəti o vaxtki avropanın bürüyən şah Abbas haqqında bir neçə kəlmə danışa. H.q. 1026-cı ildən h.q. 1030-cu ilədək, daha dəqiq desək, şah Abbas hakimiyyəti özünün son zirvəsinə çatdığı bir dövrdə onunla bütün səfərlərdə iştirak edən italyan səyyahı Deloveli yazır:

«İran şahı qarabuğdayı, ortaboy, nə çox arıq, nə də çox kök idi. Burnu qartal dimdiyi kimi əyri idi. Qara və sıx qaşları, parlaq gözləri var idi. Uzun və yuxarı burulan bığları var idi. O, bığların ucunu düzəldib onlara bəzək-düzək verməyi qürur və təkəbbürlük hesab edirdi. Şah heç vaxt, heç yerdə öz şahlıq vüqarını itirməyən bir hökmdar idi».

Bir müddət İsfahanda qalmış Pol Simon şah Abbas haqqında yazır: «O əsəbi, cəngavər, qüdrətli, eyni zamanda sağlam, iradəli, tədbirli və güclü hafizəyə malik olan bir şəxs idi… Onunla müzakirə olunan hər bir şeyi yaxşıca dərk edir, kinayə ilə deyilən hər bir sözü dərhal başa düşürdü. Yerinə yetirmək istədiyi hər bir işi uğurla başa vururdu. Nə özünə bəzək-düzək verməyi sevərdi, nə də başqalarının bu işi görmələrini xoşlayardı». Şahın şəxsi katibi İsgəndər bəyin dediklərindən də belə məlum olur ki, Şah

Abbas iki müxtəlif xüsusiyyətə malik olmuşdur. İsgəndər bəy onun haqqında yazır: «Şah Abbas dövrün insanlarından fərqli olaraq odla suyu bir yerə birləşdirir, iki zidd şeyi bir-biri ilə əlaqələndirirdi. O, qətiyyətlilik, xoştəbiətlilik kimi xüsusiyyətləri özündə birləşdirərək, öz vüqar və böyüklüyünü qoruyub saxlaya bilirdi. Böyüklərlə, alim və şan-şöhrət sahibləri ilə qardaş kimi davranır və tərəf müqabili özündə heç bir yadlıq hiss etmirdi. Hətta qəzəbləndiyi zaman belə ünsiyyətdə olduğu şəxslərlə bunu büruzə verməz və azacıq da olsun onlara qarşı hörmətsizlik etməzdi».

### *İSFAHAN ŞAH ABBASIN DÖVRÜNDƏ PAYTAXTIN İSFAHANA KÖÇÜRÜLMƏSİ*

Səfəvilərin uzun müddətli hakimiyyət dövründə İsfahan Səfəvi şahlarının əsas iqamətgahı olmuşdur. Hətta paytaxt olmazdan əvvəl də bu şəhər bir çox Səfəvi şahlarının şəxsi əmlakı olmuşdur. Şah Abbas da hakimiyyətinin ilk illərindən fürsət tapdıqda gəzmək və istirahət üçün buraya gələr, hətta paytaxtı da Qəzvindən Zayəndərud çayının kənarında yerləşən və gözəl ab-havası olan bu şəhərə köçürmək istəyirdi. H.q. 1006-cı ildə paytaxtın İsfahana köçürülməsinə dair qəti qərara gəlinir. Bunun üçün Şah şəxsən özü gələcək paytaxtın salınacaq yerə yəni şəhərin «Nəqşi cahan» adlanan ən gözəl məhəlləsinə gəlir və orada inşa olunacaq bağ və sarayların tikilişinə nəzarət etməyə başlayır. Həmən gündən etibarən memar və mühəndislər şəhərdə inşa olunacaq meydan, Qeysəriyyə bazarının dörd bağ və ətrafdakı sarayların layihəsini hazırlamağa başlayırlar.

Səfəvilərədək «nəqşi cahan» adlanan meydanın şərq tərəfində dövlət binaları və ya o vaxtın dili ilə desək, dövlətxanalar, məscid və mədrəsələr fəaliyyət göstərmişdir. Hətta şəhərin mərkəzi bazarı belə, Səfəvilərdən əvvəl inşa olunmuşdur. Şəhərin memarlığında nəzərə çarpacaq yenilik var idisə, o da şah Abbasın «nəqşi cahan» meydanının qərb tərəfində öz əsas layihəsini tərtib etməsi olmuşdur.

Əslində şah şəhərin qədim məhəlləsindən bir qədər kənara çıxıb o vaxtlar şəhər ərazi hesab olunan yerlərdə yeni tikililər inşa etmək istəyirdi. Həmən dövrdə inşa olunan yeni bazar «nəqşi cahan» meydanının şimalında tikilən Qeysəriyyə bazarı idi ki, onun da layihəsi şah Abbas tərəfindən tərtib olunmuşdu.

Şah Abbas, Təhmasib şahın dövründə nə kimi işlər görülmüşdüsə, hətta kimlərisə hansı mənsəblərə təyin etmişsə, təkrar olaraq eynilə həyata keçirir.

Həmən vaxtlar İsfahanda olan, lakin xatirələrini h.q. 1026-cı ildə kitab halına salan İsgəndər bəy bu haqda yazır:

«Nəqşi cahanda inşa olunan imarətlərin bahar çağı gəlib çatdı… Çayın kənarından şəhərin cənubundakı dağın ətəyinədək xiyabanlar salındı. Onun kənarları əmir və dövlət məmurları arasında bölündü. Belə ki, onların hər birinə böyük bir bağ və içində eyvanlı hündür imarət verildi. Evin balaxanası gözəl naxışlarla bəzədilmişdi, orada qızıl və sair qiymətli daş-qaşlardan belə istifadə olunmuşdu. Meydanın sonunda padşahlara xas olan böyük bir bağ salınmışdı. Bu bağa Abbasabad bağı deyilirdi. Çayın ortasında isə qırx axarı olan Allahverdi xan körpüsü salındı. Zayəndərud çayı üzərində salınan bu körpü iki böyük meydanı bir-biri ilə birləşdirir və Abbasabadadək bir meydan hesab olunur. Qeyd edək ki, «Siosepol» adlanan körpüyə bir vaxtlar Fars əyalətinin sərkərdəsi olmuş «Allahverdi xanın» da (h.q. 1022) adı verilmişdir.

İsfahanın paytaxt olacağından xəbər verən cərəyanlardan biri də şəhərin qısa müddət ərzində nəzərə çarpacaq dərəcədə genişlənməsi, yerli əhalinin ölkənin ətraf məntəqələrindən bura üz tutması olmuşdur. Mühacirətlərə səbəb olan ən başlıca amil isə ticarət olmuşdur. Sonralar isə burada böyük mədrəsələr tikilmiş və ölkənin müxtəlif şəhər və kəndlərindən tələbələr təhsil üçün buraya üz tutmuşdular.

Şəhərin genişləndirilməsində maraqlı olan şah Abbas o vaxtadək Azərbaycanda fəaliyyət göstərən mühəndis, memar, zərgər və digər sahələrdə məharəti olan sənətkarları özü ilə İsfahana gətirir. Hətta onların məskunlaşması üçün indinin özünədək qalan Abbasabad məhəlləsində xüsusi yer ayırır. Tarixi mənbələrdə Təbrizdən gəlmiş bu şəxslərə «Təbarəzə» (yəni təbrizlilər) adı verildiyi göstərilir. Bu mühacirətlər İsfahanın nəzərə çarpacaq dərəcədə böyüməsinə və sonralar da bir çoxlarının buraya cəzb olunmasına səbəb olur.

İsgəndər bəyin verdiyi məlumatlara görə, h.q. 1013-cü ildə İranla Osmanlı dövləti arasında gedən müharibələrin daha da qızışmasına səbəb olan Naxçıvan ermənilərinin böyük bir hissəsinin İsfahana gəlib Zayəndərud çayının kənarında məskunlaşması olur. O, əlavə edərək yazır: «Hal-hazırda üç minə yaxın Çulahlı Zayəndərud çayının kənarında məskunlaşmış və bu yerlərin vəsf olunmaz gözəlliyi əvvəlki yurd-yuvalarını onlara unutdurmuşdu.

Onlar Culfadan İsfahana gəlmiş ermənilərin yanına köçürülür və şahın fərmanı ilə onlara ayrıca yer verilir. Nəzərdə tutulan bağ, saray, bina,

xiyaban və məhəllələrin salınıb inşa olunması beləcə davam edir. İnşa olunan yerlərin gözünü isə indinin özünədək öz gözəllik və cazibəliyi ilə hər bir insanı valeh edən «nəqşi cahan» meydanı təşkil edirdi. Birinci şah Abbas və ondan sonra canişinlər tərəfindən davam etdirilən bu iş İsfahanı İranın, bəlkə də dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

Şah Abbasın ölümündən iki il əvvəl İsfahana gələn Tomas Herber adlı xarici səyyah bu şəhəri belə vəsf edir:

«Şəhərin bağları Asiyanın şəhərlərində salınan bağlarla müqayisəolunmaz gözəlliyə malikdir. Şəhərə çatmağa az qalmış bağlar buraya gələn müsafirlərə kiçik ormanları bənzədir. Bağlar o qədər böyük və o qədər gözəl qoxular verir ki, buranı behiştə bənzətsək ifrata varmarıq. İsfahan meydanının kənarından ötüb keçdikdən sonra uzunluğu Londonun Holborn meydanı ilə bərabər olan üç kilometr iki yüz metrlik başqa bir meydana daxil oluruq. Hər iki tərəfdən ucaldılan divarlar isə buraya xüsusi görünüş verirdi. Min hektar sahəsi olan bu meydanda müxtəlif meyvə ağacları əkilmiş və bağın ortasında hər dörd tərəfdən fəvvarə vuran çarhovuz bağın gözəlliyini daha da artırırdı. Bəli, buranı şah Abbasın cənnəti də adlandıra bilərik».

Şah Abbas Qeysəriyyə bazarı və digər imarətlərlə yanaşı, «Nəqşi cahan» meydanında da digər böyük binalar inşa etdirir. Abbasi məscidini, Şeyx Lütfullah məscidini və Aliqapu sarayını buna misal çəkmək olar. Qeyd edək ki, Şah Abbas İsfahanla yanaşı, Mazandaranda da bir sıra abadlıq işləri aparmış və h.q. 1020-ci ildən sonra məntəqədə Fərəhabad və Əşrəf (Behşəhr) adlı iki yeni şəhər salır. Bununla yanaşı, orada minlərlə mühacirin məskunlaşması üçün lazımi şərait yaradır. Şah Abbas hakimiyyətinin son iki onilliyində istirahət üçün tez-tez bu iki şəhərə gələr və aylarla orada qalırdı. Fərəhabad son dövrlərdə kazakların hücumu nəticəsində tamamilə məhv olub aradan gedir.

## *ABBASİ MƏSCİDİ*

### *(İMAM MƏSCİDİ)*

Bu günlər «imam məscidi» adlanan böyük Abbasi məscidi və ya şah məscidi Səfəvilər dövründən qalmış ən gözəl, hətta demək olar ki, ən mühüm tikililərdən biri hesab olunur. Bu məscid Şeyx Lütfullah məscidindən sonra inşa olunur. Xatunabadinin «Vəqaiul əvam vəssinin» adlı kitabında verdiyi məlumata görə, Abbasi məscidinin inşası h.q. 1019-cu ildə meydanın cənubunda başlanır. Məscidin inşası altı il davam edir və h.q.

1025-ci ildə əsas tikinti işləri başa çatdırılır. Hərçənd ki, binanın son tamamlanma işləri şah Abbasın canişinlərinin hakimiyyət dövründə bir neçə il uzanır.

Məscid əvvəllər yerində karvansara olan məhəllədə inşa olunur və onun tikintisində ən tanınmış mühəndis və memarlar cəlb olunurlar, və onlar da öz bacarıqlarını ən yüksək səviyyədə nümayiş etdirirlər. Məscidin baş memarının, yəni Əliəkbər İsfahaninin isə adı məscidin divarlarında həkk olunur. Deyilənlərə görə məscidin inşasında Şeyx Bəhainin də təklif və nəzərlərindən istifadə olunmuşdur.

Məscidin giriş qapısının üzərində xəttat Əlirza Abbasinin xətti ilə yazılan katibələrdən məlum olur ki, Şah məscidi şəxsi var-dövləti ilə tikdirmiş və onun savabını babası Təhmasib şahın ruhuna hədiyyə etmişdir. Şah məscidin qorunması üçün oraya əlavə ərazilər də vəqf edir və məscidin divarına həkk etdiyi vəqfnamə sonralar qoparılaraq məhv olunur. Hakimiyyətinin son ilində şah Abbas məscidə verilən maliyyələrin miqdarını müəyyən edən yeni fərman verir. İndinin özünədək qorunub saxlanılan fərman məscidin giriş qapısına həkk olunur. Məscidin divarları isə o dövrün ən məhşur xəttatlarından olan Əlirza Təbrizi Abbasi, onun şagirdi Məhəmməd Rza İmami və Əbdülbaqi Təbrizinin xətləri ilə bəzədilir.

Göy kaşilər üzərinə yazılan katibələrdə ya Quran ayələrindən, hədislərdən və ya fars şerlərindən istifadə olunmuşdur ki, bu da Səfəvilərin dinə böyük əhəmiyyət verməsindən xəbər verir. Məsələn, günbəzin içəri tərəfində süls xətti ilə kaşi və kərpicin üzərinə Əhməd ibni Hənbəlin «məsnədindən» nəql olunmuş «Qədir Xum» hədisi yazılmışdır. Qeyd edək ki, şah Abbasdan sonra yazılmış katibələrin böyük bir hissəsi şah Səfinin və ikinci şah Abbasfın hakimiyyət dövrlərinə aid olunur.

## *ŞEYX LÜTFULLAH MƏSCİDİ*

Birinci şah Abbasın zamanında tikilən əzəmətli məscidlərdən biri də «Nəqşi cahan» meydanındakı Şeyx Lütfullah məscididir. Məscidin bəzədilməsində istifadə olunan füruzeyi kaşilər və onların üzərindəki naxışları yalnız bu məsciddə görmək olar. Şeyx Lütfullah İsfahani Şah Abbasın böyük ehtiram göstərdiyi Cəbəl-amil alimlərindən olmuşdur. O, bir müddət Məşhəddə yaşayır. Lakin özbəklər oranı ələ keçirdikdən sonra Qəzvinə gəlir. Şah İsfahana gəldiyi zaman Şeyx Lütfullahdan da onunla birlikdə oraya getməyini istəyir və o da şahın təklifini qəbul edir. İsgəndər bəy yazır: «Şah mübarək dövlətxananı, yəni Aliqapunu tikdirdikdən sonra

Şeyx Lütfullaha da orada yer verir və şeyx məscidin imamı təyin olunur. İmamlıqla yanaşı Şeyx orada həm tədris edir, həm də məscidə ayrılan vəqflərə nəzarət edirdi. Məscidin giriş qapısının üzərində binanın tikilmə tarixi (h.q. 1012-1028) və memarın, yəni Ustad Hüseyn bənna İsfahaninin oğlu Ustad Məhəmməd Rzanın da adı həkk olunmuşdur.

Qeyd etmək lazımdır ki, məscidin göz oxşayan katibələri Əlirza Abbasi tərəfindən yazılmışdır. Şeyx Lütfullah cümə namazını vacib hesab etmişdir və hər həftə imamlıq etdiyi məsciddə cümə namazını qılırdı. Etikaf[1] məsələsinə də xüsusi diqqət yetirər, Qəzvin və İsfahan şəhərlərində camaat arasında bunu geniş surətdə təbliğ edərdi.

Məscidin kənarında bir mədərəsə də tikilir və bu mədrəsə bir vaxtlar Xacə mülk məscidi, sonralar isə Şeyx Lütfullah mədrəsəsi adlanır. Mədrəsə Qacarilərin dövrünədək fəaliyyət göstərir və bundan sonra onun adı heç bir yerdə çəkilmir. Bəzilərinin fikrincə, mədrəsə Molla Abdullah Şuştəri tərəfindən yenidən fəaliyyət göstərməyə başlamışdır. Mədrəsənin yetişdirdiyi şəxsiyyətlərdən biri də Səfəvi Süleyman şahın zamanında yaşayıb yaratmış Ağa Hüseyn Xansari (h.q. 1098) olmuşdur.

Şahla yanaşı meydanda digər saray adamları da bir neçə məscid, saray və imarətlər tikmişlər. H.q. 1010-cu ildə Şah Abbasın naziri tərəfindən tikilən Maqsud bəy məscidini, h.q. 1014-cu ildə tikilən süfrəçi məscidini və ya camaat arasında məşhur olan Qırmızı məscidi, h.q. 1019-cu ildə Məlik Soltan Çarçı tərəfindən İsfahan bazarında tikilən Çarçı məscidini,[2] habelə inşası h.q. 1033-cü ildən xəbər verən Hacı Baqi məscidlərini buna misal çəkmək olar. Bütün bu məscidlərin inşası Səfi şahın hakimiyyət dövründə başa çatdırılır.

## *ALİQAPU*

Şeyx Lütfullah məscidi ilə eyni zamanda inşa olunan bu bina şahın əsas iqamətgahı olmuş, xarici səfir və nümayəndələrin qəbul olunması üçün nəzərdə tutulmuşdu. İstanbuldakı «Bab ali» sarayı Osmanlı soltanları üçün nə qədər böyük əhəmiyyət kəsb edirdisə, İsfahanda inşa olunan bu imarət də Səfəvi şahı üçün bir o qədər böyük əhəmiyyət kəsb edirdi. Deyilənlərə görə, binanın birinci və ikinci mərtəbələri Səfəvilərdən də əvvəl mövcud olmuş və şah sonradan onun üzərində beş mərtəbə də tikdirmişdir.

---

[1] Zəruri hallar istisna olmaqla məsciddən eşiyə çıxmadan yerinə yetirilən üç günlük ibadətə deyilir.

[2] Məscidin giriş qapısında həm şahın, həm də bənnanın adı həkk olunmuşdur.

Binanın tikilişi başa çatdıqdan sonra orada aparılan gözəllik işləri dörd əsr ərzində məhv olub aradan gedir. Lakin nə qədər aradan getsə də bina hələ də öz gözəlliyini qoruyub saxlamaqdadır. Binanın hər mərtəbəsi dövlət məmurlarından birinə aid olmuşdur. Məsələn, «divan bəyi» adlanan baş hakim və sədirlər binanın birinci mərtəbəsində fəaliyyət göstərər, altıncı mərtəbədə isə şah öz rəsmi qonaqlarını qarşılayardı və burada hətta müğənni və musiqiçiləri belə görmək olardı.

Maraqlı hallardan biri də budur ki, Şah Abbas binaya müqəddəslik vermək üçün Məşhəddə İmam Rza (ə)-ın məscidində əvəz olunan qapılardan birini İsfahana gətirir və onun binanın giriş qapısına qoyulmasını əmr edir. İkinci şah Abbasın hakimiyyət dövründə isə «Aliqapuya» bir neçə başqa binada əlavə olunur.

## *MÖVLA ABDULLAH ŞUŞTƏRİ MƏDRƏSƏSİ*

Şah Abbasın «Nəqşi cahan» meydanında tikdirdiyi gözəl binalardan biri də Mövla Abdullah Şuştəri mədrəsəsi olur. Mədrəsə Şah Abbasın göstərişi ilə meydanın şimali-qərbində onun o zamanda yaşayan tanınmış alimlərdən birinin, yəni Abdullah Şuştərinin adına tikdirilir. Molla Abdullah Nəcəfdə təhsil almış və Müqəddəs Ərdəbilinin qabaqcıl şagirdlərindən biri olmuşdur. İsgəndər bəy onun haqqında yazır: «Otuz il Nəcəf və Kərbəla şəhərlərində qalıb təhsilini davam etdirir. Sonra İsfahana gəlib burada elmi fəaliyyətə başlayır». Valeh İsfahaninin verdiyi məlumtlara görə, molla Abdullahın özü Şeyx Lütfullah məscidinin kənarında başqa bir mədərəsə də təsis edir və burada Şeyx Lütfullah da tədrislə məşğul olur. Bütün bunlarla yanaşı, Molla Abdullah Şuştəri Şah Abbasın on dörd məsuma ayırdığı vəqflərin əsasını qoyur.

İki mərtəbəli, lakin çoxsaylı hücrələrə malik olan bu mədrəsə keçən əsrədək dini elmlərə yiyələnən tələbələrin ixtiyarında olmuşdur. Zayəndərud çayının bir qolunun mədrəsənin həyatindən keçməsi oranın ab-havasına xüsusi gözəllik bəxş edirdi. Həmən dövrdə inşa olunan mədrəsələrdən biri də İsfahan bazarında Nurəddin Məhəmməd tərəfindən tikilən «Nuriyyə mədrəsəsi»dir. Məscid şah Abbasın hakimiyyətinin son ilində «Ətiq camesi»nin yaxınlığında inşa olunmuş və indinin özünədək istifadə olunmaqdadır. Katibələrdə məscidini h.q. 1039-1043-cü illərdə inşa olunduğu göstərilsə də sonradan üzərinə vurulmuş kaşilərdə binanın h.q. 1064-cü ildə inşa olunduğu göstərilir. Məscidin divarlarına həkk olunmuş

vəqfnamə və Molla Məhəmməd Təqi Məclisinin xatirəsi də indinin özünədək qalmaqddır.

## *ŞAH ABBASIN DİN VƏ MƏZHƏBƏ OLAN ƏLAQƏSİ*

Şah Abbas din və məzhəbə qarşı möhkəm əqidəyə əsaslanmışdır. Heç bir tarixi mənbədə istər dinə, istərsə də məzhəbə danışıq və rəftarında azacıq da olsun, səhlənkarlığa yol verdiyi göstərilməmişdir. Lakin onun barəd bunu da qeyd etmək lazımdır ki, təcrübəli siyasətçi olmaqla yanaşı, öz siyasi rəftar və davranışlarına bütünlüklə nəzarət edə bilmişdir. Bunun üçün də məsihi dövlətlərinin nümayəndələri ilə görüşdüyü zaman onlar az qala şahın məsihi dininə meyl etdiyini hiss edərdilər. Bir halda ki, Şah gürcülərin və ölkə ərazisində yaşayan məsihilərin müsəlmanlaşdırılmasında bir çox işlər görmüş və bütün bunlar öz bəhrəsini də vermişdir. Belə ki, öz hakimiyyət dövründə Əbul Məali Nətənzini əhalisinin sayı beş minə yaxın olan Fereydən adlı məntəqəyə göndərir və tez bir zamanda onları İslama yönəltməyə nail olur. İsgəndər bəy bu haqda yazır: «Qadın və uşaqlar öz nəsrani dinlərini tərk edib böyük həvəslə İslamı qəbul edir və şəhadət gətirmək üçün bir-birlərini qabaqlamağa çalışırdılar».

Lakin şah Abbas şərab içməkdən əl çəkmir; bu məsələyə yalnız Təhmasib şahın və Şah Abbasdan sonra Soltan Hüseynin zamanında riayət olunurdu. Şah Abbas şərab içməyi şahlara xas olan bir xüsusiyyət hesab edir və xarici səfirlərlə şərab içdiyi zaman bəzən ifrata belə varırdı. Nəsrabadi bu haqda yazır: «Günlərin biri Həmədan əmirlərindən biri Mir Əqil şah Abbasın məclisində iştirak edir. Şah xidmətçilərindən birinə ona qədəh verməlırini işarə edir. Şərabı içdikdən sonra mənə də verməlırini işarə etdi. Mir Əqil deyir: And olsun Əli ibni Əbu Talibin başına içmərəm. Şah isə deyir. And verirəm canıma al iç. Mir Əqil qəzəblənərək deyir: Səni Əli ibni Əbu Talibin canından çox istəyəcəyəm? Bu söz şaha xoş gəlir və Mir Əqilə bir qədr pul verməlırini əmr edir».

Lakin bununla yanaşı şah başqalarının şərab içməsinə qəti qadağa qoyur və qəhvəxanalarda şərab verilməsini qadağan edir. Qəribə burasındadır ki, bu qanun «Dörd bağ» meydanınadkı qəhvəxana üçün istisna hal daşıyırdı. Ümumiyyətlə, şərabxorluq hakim təbəqəni və xüsusilə də alimlər istisna olmaqla, orta təbəqəni özünə aludə edən olduqca ciddi bir məsələ idi. Xarici müsafirlərdən biri Səfəvilərlə Osmanlı cəmiyyətini müqayisə etdikdən sonra belə bir qənaətə gəlir: «Zahirdə olsa da, türklər məstedici içkilər içməkdən imtina edirdilər». Pünhani isə yazır: «Səfəvi dövrünün iranlıları İslamdan

əvvəlki dövrlərdə olduğu kimi şərab içməkdə ifrata varırdı». Şah digər məsələlərdə də şəri qanunlara tabe olmayan şəxslərə pis münasibət bəsləyirdi. Namaz və oruca bir o qədər də çox əhəmiyyət verməyən Mazandaran hakimi Nəcuru tənqid atəşinə tutmasını buna misal çəkmək olar. Uzun illər şah Abbasın sarayına gediş-gəliş edən xarici səyyahlar Piter və Delaveli yazır: «Şah Abbas istər şəxsi məsələlərdə olsun, istərsə də ölkə daxili məsələlərdə İslami dəyərlərə xüsusi diqqət yetirirdi. Onun məsihi dinini qəbul etməsi üçün möcüzə baş verməli idi. O, dininə qarşı olduqca təəssübkeş və İslamın daha da güclənməsi uğrunda öz şəxsi var-dövlətindən belə keçməyə hazır olan bir şəxs idi».

Əlavə etmək olar ki, Şah Abbas şiə məzhəbinin gücləndirilməsi üçün bir çox əməli və elmi işlər görmüşdü. Amma bu istiqamətdə aparılan işlər Təhmasib şahın zamanında olduğu kimi aparılmamışdır. O, şiə məzhəbli əhalini vergi verməkdən azad edər, lakin bu qanunu sünni məzhəbli əhaliyə şamil etməzdi. İndinin özünədək Nətənzin cümə məscidinin divarlarına həkk olunan bu fərmanı buna misal çəkmək olar. Buna oxşar başqa bir fərman Semnan əhalisi üçün də verilir. Bundan əlavə o, şah sünni məzhəbinə meyilli olanlara qarşı qərəzli mövqe tutub heç vaxt onları öz ətrafında görmək istəməzdi. Deyilənlərə görə dövrün məşhur xəttatlarından olan Mir İmad Qəzvini sünni məzhəbini qəbul etdiyi üçün şahın göstərişi ilə Maqsud bəy Misgərin vasitəsilə qətlə yetirilir. Bəzilərinin dediklərinə görə isə qətlə səbəb olan Mir İmada olan paxıllıq və onun şah barədə yazdığı bir neçə beyt şer olmuşdur. Lakin əhalisi sünni və ya həm sünni, həm də şiə olan şəhərlərə qarşı heç bir qərəzli mövqe tutmazdı. Belə ki, Xorasanda Əndəxud qalası mühasirdə olduğu zaman oranın əhalisinə göndərdiyi məktubda yazırdı: «…Bizim kiminsə məzhəb və milliyyəti ilə işimiz yoxdur. Mərv, Nəsa, Əbyurd əhalisi bunu təsdiqləyə bilər ki, bu ərazilər Səfəvi dövlətinin ixtiyarına keçdikdən sonra şiə və sünni məscidlərində hərə öz əqidəsinə uyğun xütbələr oxumuş və onların narahatçılığına səbəb olacaq heç nəyə yol verilməmişdir».

Qeyd etdik ki, şah bəzən əvəz çıxmaq, bəzən də kimlərisə nəyəsə sövq etmək məqsədilə tarix kitablarında qeyd olunan müxtəlif tədbirlərə əl atmışdır.

Şah Abbas, Məsum imamlara böyük hörmət və ehtiramla yanaşmış və öz şəxsi möhürünün üzərinə «Əli qapısının iti və vilayət şahının nökəri» sözlərini həkk etdirmişdir. Bəlkə də kimsə onun bu işini aldadıcı bir addım

hesab etmiş olsun. Lakin onun belə bir əhval-ruhiyyədə olduğunu heç bir tarixi mənbə göstərmir.

Şah Xorasan və Xarəzmdə şiəliyin yayılması üçün bir çox işlər görür. Tarixi mənbələrin verdikləri məlumatlara görə o, h.q. 1009-cu ildə Mərvə gəlir və şəhərin mərkəzi məscidində on iki imamın adına xütbə oxuyur. Şah Mərv əhalisinin sünni məzhəb olduğunu da nəzərə alaraq kimsənin onlarla işi olmayacağını bildirir. Bundan sonra Məşhədə, oradan isə İsfahana gəlir. Şah dəfələrlə Məşhədə İmam Rzanın (ə) ziyarətinə gəlmiş, bununla da Əhli-beytə olan sədaqətini sübuta yetirmək istəmişdir. H.q. 1009-cu ildə nəzir edərək Məşhədə piyada getməsi indinin özünədək hər bir iranlının zehnində həkk olunmuşdur. Səfər iyirmi səkkiz gün çəkir və şah bütün yolu piyada qət edir. Mşhədə gəldiyi zaman aylarla orada qalar və günlərini ibadətdə keçirərdi. Cümə, Qədr, Məbəs və sair gecələrdə gecənin əvvəlindən sübhədək məsciddə qalar və orada təmizlik işləri aparan xidmətçilərlə birgə çalışardı. Əlbəttə o, bu kimi rəftar və davranışları ilə İranın şiə məzhəbli əhalisi arsında böyük rəğbət qazana bilirdi.

Şah Abbas h.q. 1022-ci ildə Məşhədə yola düşür və bu səfərdə ziyarətgahın iç və giriş qapılarını genişləndirməyi nəzərdə tutr. Bütün bunlarla yanaşı, şəhərə yeni su kanalı da çəkir. Məscidi təmir etməklə yanaşı, Nişapurda İmam Rza (ə)-ın qədəmgahının üzərində böyük bir ziyarətgah tikdirir. İsgəndər bəy bu haqda yazır: «Məscid o qədər gözəl bəzədilmişdi ki, onu dillə vəsf etmək mümkün deyil».

Tarixi mənbələrdə şahın buraya ziyarətə gəlməklə yanaşı külli miqdarda vəqflər etdiyi haqda da məlumatlar verilir. H.q. 1009-cu ildə bir dəstə özbək şahzadəsi şahın görüşünə gəldiyi zaman hücumlar zamanı özbəklərin oradan qarət etdikləri almazı yenidən geri qayrtarırlar. İsgəndər bəy bu haqda yazır: «Şah onu mənimsəmədən alimlərin ixtiyarına qoydu. Alimlər də onun satılıb məscidin təmir və tikilişinə sərf olunmasını məsləhət gördülər».

## *ŞAH ABBAS VƏ QƏDİMİ BAYRAMLAR*

Əslində bu hissənin adını «Səfəvi şahları və qədimi bayramlar» qoymaq lazımdır. Həmin dövrün tarixi mənbələrindən məlum olur ki, novruz bayramı keçmişdə olduğu kimi bu dövrdə də böyük təmtəraqla keçirilib və müxtəlif tarixi mənbələr onun hər il Şah Təhmasib tərəfindən keçirilməsindən xəbər verir. Təhmasibdən sonra ikinci İsmayıl və digər Səfəvi şahları novruza çox hörmətlə yanaşıblar və bu ənənə təkcə İranda

deyil, Osmanlı ərazilərində və Türküstanda (Mavəraun-nəhr) və sonralar Hindistanda da keçirilib.

Şah Abbas novruzu bir milli bayram kimi çox təntənə ilə keçirirdi. O, bayram günlərində hüzuruna daxil olmaq üçün ümumi icazə verərdi və əyanlar, əmirlər və vilayətlərin hakimlərinin çoxu Şaha çox qiymətli hədiyyələr təqdim edərdilər və beləliklə də şahın xəzinəsi yenidən rövnəqlənərdi.

Deyilənlərə görə Şah Abbas İsfahanda novruzdan əlavə qədim İran şahları arasında yayılmış digər bir bayramı - «Abpaşan» bayramını da keçirib. Təbriz istiqamətində hərəkətdə olan Şah, qoşunu Sultaniyyə çəmənliyində qoyaraq, öz həmsöhbət və xas adamlarının bir neçəsi ilə İsfahana gəlir və İsgəndər bəyin nəqlinə əsasən «Fars şahları arasında ənənə olan Abpaşan bayramı münasibəti ilə Çaharbağda möhtəşəm bir bayram şənliyi keçirir. Qeyd olunur ki, bu tədbir camaatın sevincinin artmasına səbəb olub».

«Abbasnamə»nin yazdığına əsasən, ikinci Şah Abbas da İsfahanda qədim adətlərdən və keçmişlərin ənənəsi olan «Üzərlik» bayramını keçirib:

**Hər il günəş təqvimi aylarından olan İsfənd ayının əvvəlində, bazarların girişlərini bağlayaraq aydın gündüzə bənzər vüsal gecəsi təşkil edir və dükanların hər birində kef və şadlıq süfrələri açırlar. Huri kimi gözəl cənnət sifətlilər və ay üzlü pəri xasiyyətlilər süd yolundakı ulduzlar və mədəndəki ləl-yaqut kimi atalarının yerinə dükanlarda oturaraq aşiqlərə könül verərək aşiqlərin diqqət və məhəbbətlərini özlərinə cəlb etməklə məşğul olurlar…..**

Novruz bayramı, eləcə də bu qəbildən olan bayramların keçirilməsi şiəliyə müxalif olan sünnilər tərəfindən tənqidlə qarşılanırdı. Qeyd etmək lazımdır ki, nəql edilmiş bəzi rəvayətlərə əsasən novruz bayramı hələ həmin dövrdən neçə əsr qabaqdan dini rəng almışdı. Hərçənd ki, həmin rəvayətlərin özlərində də tərəddüdlər mövcud idi. Amma digər bayramların sırf qədimi bir bayram olmaları və onlarda heç bir dini çaların olmaması məlum idi.

Burada bəzi illərdə (h.q. 1022-1075) İranda olmuş və h.q. 1070-ci ildə İran barəsində «İran 1660-cı ildə» adlı kitab yazmış Rafail Dumanın novruz bayramının keçirilməsi barəsindəki sözlərini nəql etmək yerinə düşərdi. O yazır:

Bayram günü camaatın hamısı – kiçikdən böyüyə kimi öz bədənlərini təzə paltarlarla bəzəyirlər. Fəhlələr özləri və uşaqları üçün paltar və digər lazımı şeyləri ala bilmək üçün pul toplamaq ümidi ilə bayramdan bir neçə ay əvvəldən öz xərclərini azaldır və işlərini çoxaldırlar ki, bayram günü

paltarları köhnə və yamaqlı olmasın. Novruzdan 10-15 gün qabaq kitabın qiyməti düşməyə başlayır. Çünki yoxsul tələbələr təzə əba-qəba almaq üçün kitablarının hamısını və ya bir hissəsini satmaq məcburiyyətində qalırdı.

## *ŞAH ABBAS VƏ VƏQF*

Səfəvilər dövründə vəqf işlərinin genişlənməsi barəsindəki söhbətimizin davamında, bundan əvvəl Təhmasibin zamanından danışdığımız kimi, Şah Abbas Səfəvinin də vəqf işlərini qeyd etməliyik. O özbəklər və osmanlılarla döyüşlərdə qələbə çaldıqdan sonra, h.q. 1016-cı ildə Molla Abdullah Şüştərinin təklifi ilə öz mülk və əmlakını on dörd məsum əleyhimissəlama vəqf etmək qərarına gəldi. O təkcə yerlərini deyil, hətta digər var-dövlətini də vəqf etdi. İsgəndər bəy yazır:

O özünün çox gözəl ev və qəsrlərini, İsfahanın «Nəqşi-cahan» meydanının ətrafındakı dörd bazarı və hamamlarını, müqəddəs on dörd məsum əleyhimussəlama vəqf etdi.

Mətnini Şeyx Bəhainin yazdığı vəqfnaməyə əsasən, həmin vəqf olunmuş əmlakın gəlirləri Şahın özünün, ondan sonra isə digər şahların qəyyumluğu ilə hər məhəllənin xidmətçi, qonşu, zəvvar, fəzilət və kamal sahibləri, saleh və təqvalı insanları və tələbələrinə xərclənməli və onun savabı on dörd məsumun müqəddəs ruhuna hədiyyə edilməlidi.» Vəqf edilmiş bu mülklərin idarəçiliyi sədr Mirzə Rəziyə həvalə edildi. Ondan sonra şahın vəqflərinin idarəçiliyi xüsusi sədr vəzifəsini tutan şəxsin ixtiyarında oldu. Şah Abbasın özü belə deyirdi:

Mənim bütün əmlakım və vergi şamil olan hər bir şeyim, hətta əlimdəki bu iki üzük vəqfdir.

Bu vəqf onun ixtiyarında olan kitab və Quranlara da aid idi. O kitablarının bir hissəsini imam Riza əleyhissalamın kitabxanasına, bir hissəsini isə digər əşyaları ilə birlikdə çox istədiyi Şeyx Səfi məqbərəsinə vəqf etdi.

Mübarək kitabxanasındakı Quranları və ərəb dilində olan və elmi, fiqh, təfsir, hədis və sairə kitablarını hamısını imam Riza əleyhissalama vəqf etdi və onları o həzrətin müqəddəs hərəminin kitabxanasına göndərdi. Fars dilində olan tarix və tibb kitablarını, eləcə də xarici müəlliflərin kitablarını isə böyük farfor sini, əla növ saxsı qab-qacaq, mis kasalar və digər nəfis çaydan və çinilərdən ibarət bütün əşyaları Şeyx Səfi məqbərəsinə vəqf etdi.

Qeyd etmək lazımdır ki, Şah Abbasın Şeyx Səfi məqbərəsinə vəqf etdiyi kitabların çoxu İran-Rus müharibəsində Azərbaycanın ruslar tərəfindən

işğalı zamanı qarət edilib və hal-hazırda Sankt-Peterburqun bəzi kitabxanalarında saxlanılır.

### *İMAM HÜSEYNİN AŞURA MƏRASİMİNİN KEÇİRİLMƏSİ*

Həmin dövrün dini təzahürlərindən biri də İmam Hüseynin (ə) Aşura mərasiminin keçirilməsidir. Aşura mərasimi bütün şiə şəhərlərində və hətta sünni şəhərlərində də keçirilirdi. Bu barədə qeyd edilməsi lazım olan məsələ budur ki, Aşura matəm mərasimləri İranda Səfəvilərdən qabaq, xüsusilə Teymurilər dövründə Xorasanda geniş şəkildə keçirilirdi və Molla Hüseyn Kaşifinin (h.q. 910) «Rövzətuş-şühəda» kitabı Xorasanın rövzə mərasimlərində oxunmaq üçün yazılmışdı. Bu, elə bir vaxt idi ki, Şah İsmayıl hələ Xorasana gəlib çatmamışdı, qızılbaş şiələr ora getməmişdilər və orada nüfuza malik deyildilər. «Rövzətuş-şühəda» kitabı və həmin dövrün digər tarixi əsərlərindən məlum olur ki, həmin mərasimlərdə camaat tarixi kökü olan və bəzən də əfsanə xarakterli çoxlu əhvalatlara qulaq asır və zaman keçdikcə Kərbəla hadisəsinə xüsusi diqqət göstərirdilər. Xorasanda Səfəvilərdən əvvəl şiələrin mövcud olmaları və altıncı əsrdən sonra fars dilli şairlərin Kərbəla barəsindəki şerləri, matəm mərasimlərinin keçirilməsində xüsusi təsirə malik idi. Tam qəti məsələlərdən biri budur ki, Xorasanda Səfəvilərdən qabaq rövzə məclisləri keçirilib və Səfəvi əsrini görməmiş Molla Hüseyn Kaşifi öz kitabının müqəddiməsində bu kitabı matəm mərasimlərinin keçirilməsində istifadə üçün yazdığını deyir.

Səfəvilərin hakimiyyətə gəlmələri ilə həmin mərasimlər bütün şiə şəhərlərində daha da genişləndi və onun əhatə dairəsi zaman keçdikcə artdı. Çünki qızılbaş dövləti elə əvvəldən şiəliyə əsaslanırdı və imam Hüseynə (ə) xüsusi ehtiram qail idi. Buna görə də rövzə məclisləri genişlənir, şəhər və kəndlərdə onun keçirilmə qayda-qanunları gün-gündən artırdı. Səfəvilər dövründə rövzə məclislərinin genişləndirilməsinin digər bir səbəbi, onun nəzərə çarpacaq dərəcədə əfsanələşdirilməsinin qarşısını alması idi.

Həmin rövzə məclislərinə hakim olan baxış «Rövzətuş-şühəda» kitabından götürülmüş bir baxış idi. Bu baxışda qətiyyən siyasi bir rəng yox idi, hətta onlar bu hadisəyə ancaq sufilik nöqteyi-nəzərindən yanaşırdılar və hadisələri bir növ cəbr və təqdir əsasında təhlil edirdilər. Əslində çox dəyərli bu beyt Kərbəla hadisəsinin izahı, hətta peyğəmbərlər, imamlar və övliyaların qatlaşdıqları bütün müsibət və çətinliklərin təhlili üçün yetərlidir.

*Hər ke dər in bəzm müqərrəbtər əst*
*Came-bəla biştəraş midəhənd*

**Yəni: Bu məclisdə kim daha yaxındırsa, ona daha çox bəla badəsi verirlər.**

Buna görə də əzadarlıq mərasimlərinin İranda Səfəvilər tərəfindən yayılması fikri tarixi baxımdan tamamilə əsassızdır. Bu hadisə və Kərbəla şəhidləri üçün matəm mərasimlərinin keçirilməsi əsasən əmr be məruf və nəhy əz münkər ünsürü olmaqla yanaşı, Səfəvilərdən əsrlərlə qabaq xüsusi baxışa malik dini bir mərasim kimi şiə cəmiyyətlərində və eləcə də şiələrdən təsirlənmiş sünnilər arasında keçirilib. Bu baxışın ən mühüm nöqtələrindən biri də bu idi ki, matəm mərasimlərinin keçirilməsi və ağlamağın özü qiyamətdə əhəmiyyətli mükafata səbəb ola bilər. İsgəndər bəy Təbrizin Həsənşah məscidində matəm mərasiminin keçirilməsinə toxunaraq yazır:

Aşura günü padşah, bütün əyanlar və qoşun başçıları Seyyiduş-Şühədanın və Kərbəla qurbanlarının əzasını keçirirdilər; onlar əzadarlıq və göz yaşı tökmək zamanı əlahəzrətin hüzurunda olardılar.

**H.q. 1020-ci ildə Məhərrəm ayının altısı iranlıların novruz bayramı ilə eyni vaxta təsadüf etdi. Buna görə də novruz mərasimi keçirilmədi və bir neçə gün imam Hüseynin əza məclisinin keçirilməsi ilə məşğul olundu. Həmin günlər qurtardıqdan sonra çox yüksək səviyyəli bayram tədarükü görüldü; qızıl naxışlı çadırlar, atlaz kölgəliklər quruldu və Xətai ipəklər sərib cənnətə bənzər məclislər keçirdilər. Hər bir məclisin qarşısında maraqlı üsullarla dörd sütun bəzəyərək onları işıqlandırdılar».**

Şah Abbas və ondan sonrakı dövrlərdə Məhərrəmlik mərasimlərinin keçirilməsi barədə avropalı səyyahlar tərəfindən çoxlu xatirələr mövcuddur və onlarda həmin mərasimlərin hətta xırdalıqları belə açıqlanıb.

H.q. 1026-cı ildən 1030-cu ilə kimi İranda məskunlaşmış italiyalı səyyah Dilavalenin Aşura mərasimləri barəsindəki vəsfi bugünki mərasimlərdən çox az yerləri istisna olmaqla, fərqlənmir.

Aşura günü İsfahanın bütün məhəllə və yerlərindən böyük dəstələr yola düşürlər və özləri ilə bayraq və ələmlər aparırlar. Onların atlarının üstündə müxtəlif silahlar və bir neçə əmmamə olur; həmin dəstələrlə birlikdə bir neçə dəvə gətirilir. Həmin dəvələrin üstündə kəcavələr olur və hər bir

kəcavənin içində şəhid Hüseynin əsir düşmüş uşaqlarının simvolu olaraq üç-dörd uşaq oturur.

Küçələrdə hərəkət edən dəstələrdən əlavə evlərdə və bəzi ümumi məkanlarda da matəm mərasimləri keçirilirdi ki, onlar çoxlu çıraq, hüzn əlamətləri və qara bayraqlarla seçilirdilər. Matəm dəstələrinin küçələrə çıxması təkcə Aşura günlərinə aid deyildi. Həmin dövrdə yaşamış şahidlərdən birinin nəql etdiyi sözlərə əsasən, h.q. 1026-cı ildən başlayaraq matəm dəstələri İsfahanın küçələrində hərəkət edirmişlər və Şah Abbas da həmin dəstələrin birinin içində gedirmiş.

Səfəvilər dövründə matəm məclislərindən əlavə mərsiyə və rövzə məclisləri də çox inkişaf etdi və onların nümunələrini həmin dövrün xarici səyyahlarının səfər təəssüratlarında görmək olar.

## *ŞAH ABBAS VƏ ALİMLƏR*

Səfəvilər dövrü maarifçilik və şəriət alimlərinə xüsusi diqqət göstərilməsi ilə məşhurdur. Şah İsmayılın zamanından sonra Səfəvi şahlarının alimlərə xüsusi diqqət və qayğısı ilə onlar İranda yüksək məqam əldə etdilər. Bu, Səfəvi dövrü tənqidçilərinin etiraz etdikləri məsələlərdəndir və onlar Səfəvi şahlarını buna görə məzəmmət edirlər.

Bununla belə, ümumilikdə belə bir təsəvvür var ki, Şah Abbas bütün siyasi və hərbi işlərə birbaşa müdaxilə etmək və işləri özünə arxalanaraq özündən razı üsulla idarə etməkdən əlavə, alimlərin qüdrət dairəsi barəsində də kifayət qədər səxavətli olmayıb və onlara elə də meydan verməyib. Ən azı Şah Təhmasibin əsri ilə Şah Abbasdan sonra baş verən hadisələri müqayisə edəndə bu sözü müəyyən qədər düzgün hesab etmək olar.

Dini-idari işlər barəsində ən yüksək məqam Şeyxul-İslamlıq və sədirlik məqamı idi. Həmin dövrün Şeyxul-İslamlıq məqamı barəsində ümumi tarixi mənbələrdə elə bir xəbər yoxdur. Çünki həmin kitablar daha çox siyasi və hərbi xəbərləri nəql ediblər. Əlbəttə məlumdur ki, həmin məqam bir neçə il Şeyx Bəhainin öhdəsində olub. Şeyx Bəhaiyə gələnə qədərə həmin məqam çərçivəsində dövrün məşhur alimi siyasi xadimi Şeyx Hüseyn Kərəkinin Şeyxül-İslamlıq mənsəbində bir sıra mühüm işlər görülüb. O, h.q. 1012-ci ildə vəfat edib. İsgəndər bəy onun barəsində belə yazıb: «O, səlis danışıq qabiliyyəti və bəyanının fəsahətliliyi baxımından ərəb və əcəm alimləri arasında məşhur olub və ictihadının sorağı əcəm vilayətlərində ad çıxarıb. Haqq imamiyyə məzhəbinin əsas və qolları barəsində çox dolğun kitablar yazıb.» O həmçinin yazır: «Vəfatına kimi onu xatəmul-müctəhidin ləqəbi ilə

çağırırdılar». Şah Abbasın göstərişi ilə onun cənazəsini Nəcəf, Kərbəla və Kazimeyn ziyarətgahlarına apardılar və müqəddəs məkanlarda dəfn etdilər. Xuld Berinin yazdığına əsasən o üç dil ərəb-fars və türk dillərini kamil bilirmiş.

Mühüm rola malik olan və etimadud-dövlənin kənarında idarə işləri baxımından ölkənin ikinci şəxsi olmuş sədr barəsində də əldə çox məlumat yoxdur. Biz müxtəlif yerlərdə Şah Abbasın sədirləri barəsində danışdıq. Onların arasında Qəzvin seyidlərindən olan Qazi xan Seyfi Hüseyni məşhur sədirlərdən olub. O, on iki il sədirlik edib və Şah Abbasın səfiri kimi İstanbula göndərilib. Ondan başqa şahın alim sədirlərindən digər biri Xəlifə Sultan İsfahani (h.q. 1034) kimi məşhurlaşmış Mir Rəfiuddindir ki, o, əslən Mazandaranlı olub və sonralar İsfahana köçüb. O, h.q. 1026-cı ildə sədr vəzifəsinə təyin edilib.

H.q. 1033-cü ildə Salman xanın ölümündən sonra Ali Divan Vəzirliyi Rəfiuddinin oğlu Xəlifə Sultan kimi məşhurlaşmış Hüseynə həvalə edildi və həmin vaxt onun otuz üç yaşı var idi. Xəlifə Sultan şəriət alimlərindən və ruhanilərdən olub. İsgəndər bəyin dili ilə desək o, dinin əsasları və qolları barədə olan elmlərin toplusu, əqli və nəqli elmlər külliyyatı və eyni zamanda Birinci Şah Abbasın kürəkəni olub. O, h.q. 1039-cu ilə kimi vəzir vəzifəsində olub və həmin ildə Şah Səfi onun övladlarının gözlərini kor etdikdən sonra Quma sürgün edilib. O, bir müddətdən sonra İsfahana qayıdıb və həmin müddət ərzində elmi işlərlə məşğul olub. H.q. 1055-ci ildə o, bir daha İkinci Abbasın vəziri olub və h.q. 1064-cü ildə vəfat edib. Xəlifə Sultanın, əksəriyyəti şərh və haşiyə olan fiqh, kəlam və hədis elmləri barəsindəki çoxlu əsərlərini nəzərə alaraq, onun elmi məqamını başa düşmək və onun dövrün görkəmli alimlərindən biri olmasını dərk etmək olar. Vəliqulu Şamlı «Qisəsul-Xaqani» kitabında ədəbi ibarələrlə onun kitablarının adlarını dərc edib.

Ümumi sədirlərdən əlavə, Şah Abbas özü üçün şəxsi vəqflərinin idarəçiliyi üçün də bir sədr seçirdi. Həmin vaxt kənar şəhərlərin seyidlərindən olan Mirzə Rəzi həmin məqamı daşıyırdı. İsgəndər bəyin «on dörd məsum əleyhimussalam həzrətlərinin mübarək imzalarının möhürlənməsi» adlandırdığı bu sədirlik ondan sonra onun oğlu, eyni zamanda şahın qız nəvəsi olan Mir Sədrəddin Məhəmmədə həvalə edilib.

Bu şəxslərdən əlavə şah zahid və dindar alimlərlə get-gəlini qorumağa çalışırdı. O Ramazan ayında əksər gecələrdə iftar süfrəsini alimlərin hüzurunda sərərdi və bundan əlavə Şeyx Bəhayi, Mirdamad, Molla

Abdullah Şuştəri və Şeyx Lütfullah Amili kimi alimlərə xüsusi məhəbbət göstərər və onların bəzilərini özü ilə səfərə aparardı. Bu barədə bəzən maraqlı hekayətlər də nəql edirlər.

### *ŞAH ABBASIN ZAMANINDA DİNİ TƏFƏKKÜRLƏR*

Mühacir ərəb alimlərinin gördükləri bir sıra elmi-fiqhi işlərdən sonra iranlıların arasında onların məktəbində təhsil almış, amma İran mühitində yetişmiş bir nəsil formalaşdı. Hətta Cəbəl-amildən olan ərdəbilli alimlərin ikinci nəsli Səfəvilərin orta dövrlərində fars dilini öyrənmiş və İran ədəbiyyatının təsiri altına düşmüşdülər. Məsələn, uşaqlığında atası ilə birlikdə İrana gəlmiş Şeyx Bəhai sonralar ikidilli alimə çevrilmişdi və ərəb dilində gözəl şer yazdığı kimi, fars dilində də gözəl şerlər yazırdı. On birinci hicri əsrinin əvvəllərinə kimi yaşamış Seyyid Hüseyn Kərəki də ərəb, fars və türk dillərini gözəl bilirdi.

Onların kənarında İraqda qətiyyən təhsil almamalarına baxmayaraq, hicrət etmiş ərəb alimlərinin yanında təhsil alıb yüksək elmi dərəcələrə çatmış iranlı alim nəsli də yetişdi.

Əvvəldə qeyd etdik ki, Səfəvi dövründə İran təfəkkür tarixi üç dövrdən ibarətdir. Birinci dövr Səfəvilərdən qabaqkı irsin Səfəvilərə keçməsi dövrüdür ki, əslində bunu keçid dövrü hesab etmək olar. İkincisi, Şeyx Bəhai və Mirdamad dövrü, yəni əslində təfəkkürün daxildə formalaşma dövrüdür. Üçüncü dövr isə böyük alim Əllamə Məclisinin hədisə əsaslanan baxışlarla ensiklopedik işlər əsridir. Burada həmin dövrün mühüm məsələləri və tanınmış simaları barəsində bəzi şərhlər vermək lazımdır.

Bu dövrdə diqqəti cəlb edən məsələlərdən biri budur ki, şiə ərəb mədəniyyəti İslamdan və İranda inkişaf etməkdə olan fəlsəfə və hikmətdən, eləcə də məntəqənin xüsusi ruhiyyəsindən doğan fars ədəbiyyatından qaynaqlanan xüsusi iranlı mədəniyyəti ilə qarışdı. Bu təsirlənmə özünü üç cəhətdə göstərdi və şiəlik nöqteyi-nəzərindən İslam elmlərinin inkişafına təsir göstərdi.

1-Cəbəl-amil və İraqdan gəlmiş ərəb alimlərinin elmləri demək olar ki, yalnız fiqh elmi və daha sonra isə kəlam elmindən ibarət idi. Özü də bu, o kəlam elmi idi ki, İraqda şiə dairələrinə məxsus idi və Xacə Nəsirəddin və Əllamə Hillidən sonra onda heç bir yenilik və dəyişiklik olmamışdı. Bu elmin İranda – bundan əvvəl şərh etdiyimiz Şiraz məktəbində və tarixçəsi indiyə kimi naməlum olan Əstarabad məktəbində - mövcud olması şiə kəlamının daha geniş çərçivədə təqdim edilməsinə səbəb oldu. Bu

təsirlənmənin nəticəsi Mirdamad və onun şagirdi Molla Sədranın, ümumiyətlə İsfahan məktəbinin özünü göstərdiyi yeni fəlsəfi məktəbin yaranmasına səbəb oldu və bu, fəlsəfə elminin İrandakı sonrakı hərəkət xəttini müəyyənləşdirdi. Bu barədə daha geniş izah verəcəyik.

2-İkinci nöqtə budur ki, İraqdan İrana gəlmiş şiə elminin sufiliklə arası elə də yaxşı deyildi və elə əvvəldə şiə alimləri ilə sufilər arasında qarşıdurma yarandı. Təbiidir ki, fiqhə əsaslanan İslamla Sufiliyə əsaslanan İslam arasında ziddiyyət arası olmalıdır və lap qədim zamanlardan bunların arasında düşmənçilik mövcud olub. Bütün bunlara baxmayaraq, zaman keçdikcə küçə-bazara və məxsus dəstəyə xas sufilik öz nüfuzunu itirdi, amma onun bəzi arifanə təlimləri Səfəvilərin orta nəsl alimləri arasında özünə yer tapa bildi. Bunlar Əhli-beyt əleyhimussəlamdan nəql edilmiş bəzi rəvayətlərlə uyğun gələn təlimlər idi. Deməli, sufiləri pisləmələrinə baxmayaraq, bu nəslin alim və fəqihləri arasında bir növ irfani düşüncələr mövcud idi və onların ən yaxşı nümunəsi yenə həmin Şeyx Bəhayi, Mir Damad və Molla Sədradır. Bunlar nə keçmişdəki kimi xalis fiqh alimləridirlər və nə də sufi şeyxləri; onlar irfan alimləridirlər ki, nurani düşüncələrə məhəbbət bəsləyirlər. Eyni zamanda şəriət məsələlərində çox ciddidirlər və bəziləri Şeyxul-İslam məqamına malikdir.

3-Səfəvilərdən qabaqkı İslamın, yerli iranlı adət-ənənələrinin, folklorun, xüsusilə fars şerinin bütün cəhətlərinin və İraqdan gəlmiş İslam-şiə elminin sintezi olan yerli mədəniyyətin təsiri həmin dövrün çoxtərkibli mədəniyyətinin nümunələrindən biridir. Məsələnin əsasını təşkil edən Hafiz, Sədi, Firdovsi və Cəlaləddin Ruminin nüfuzu və şerləri, qəzəl və sufilik üslubunda olan yüzlərlə digər şairin şerlərinin yayılması xüsusi bir mədəniyyətin yaranmasına səbəb oldu. Şeyx Bəhainin «Kəşkül» kitabına nəzər salsaq görərik ki, Cəbəl-amildən olan bu alim, nə qədər fars şerinin təsiri altına düşüb və kitabın müxtəlif yerlərində ondan istifadə edib. Bu təsiri sonrakı nəsildən və Molla Sədranın şagirdlərindən olmuş Feyz Kaşanidə daha yaxşı görmək mümkündür. Misal üçün qeyd etmək istərdik ki, onun əsərlərindən biri Mövlananın Məsnəvisinin xülasəsidir.

İndi yuxarıda qeyd edilən məqamlara aydınlıq gətirmək və həmin dövrün məşhur alimlərini daha yaxşı tanımaq üçün Şah Abbas və ondan bir az sonrakı dövrün bir neçə alimi barəsində məlumatlar təqdim edirik.

## *ŞEYX BƏHAİ*

Hüseyn ibn Əbdüssəmədin (h.q. 984) oğlu Bəhaəddin Məhəmməd Amili (h.q. 953-1030) Səfəvi dövrünün ən məşhur və görkəmli alimlərindəndir. Onun bu məşhurluğu həm mühüm əsərlər yazması və həm də çoxlu şagird yetişdirməsi səbəbindəndir. Bundan əlavə, onun Şah Abbasa təsiri də çox olub. Əslində şah ilə Şeyx bir növ bir-birlərinə oxşayırlar və o da budur ki, onların hər ikisi tarixi çöhrə olmaqdan əlavə, İran tarixində əfsanəvi şəxsiyyətə malikdirlər və adları həmişə xalqın dilində, xüsusilə isfahanlılar arasında əzbər olub. Buna görə də gərək onun barəsində daha geniş danışılsın.

Şeyx Bəhai təkcə bir fiqh alimi deyil, həm də həmin dövrün və ondan sonrakı dövrlərin dini və elmi ədəbiyyatına təsir göstərmiş bir ədib, riyaziyyatçı, astronom, memar və bariz mədəni-siyasi xadimdir. O, h.q. 953-cü ildə Livanın Bəlbək şəhərində anadan olub və h.q. 1030-cu ildə İsfahan şəhərində vəfat edib. Şeyx Bəhainin Şəhid Saninin şagirdi olmuş atası h.q. 961-ci ildə «azğın və münafiqlərdən» qaçmaq və «iman və birlik dövlətinə» birləşmək məqsədi ilə, sonralar yeganə qızı Şeyx Bəhainin həyat yoldaşı olmuş Şeyx Əli Minşarın dəvəti ilə İsfahana gəlib və Şah Təhmasibin səltəni dövründə Qəzvin və Hərat şəhərlərinin Şeyxul-İslamı olub. Amma h.q. 983-cü ildə Şah Təhmasibin icazəsi ilə İranı tərk edərək Bəhreynə gedib. Təhmasib onun oğlu Şeyx Bəhaiyə isə İranı tərk etmək icazəsi vermir. Onun İrandan getməsi əslində siyasi fəzadan mənəvi bir mühitə səfər idi. O, oradan oğluna yazır ki, əgər dünyanı istəyirsə Hindistana getsin, axirət istəyirsə Bəhreynə gəlsin və əgər heç birini istəmirsə İranda qalsın. Şeyx Bəhainin özü də sonralar deyirmiş ki, bizim atalarımız Cəbəl-amildə tamamilə elm və ibadətlə məşğul olurdular, amma elə ki, əcəm suyu içdik bunların hamısı bizdən alındı.

Şeyx Hüseyn çoxlu əsərlər yazıb və onların bəzilərini Şah Təhmasibə hədiyyə edib. O, Qəzvində olarkən ustadı Şəhid Sani kimi «vacibi-eyni» hesab etdiyi cümə namazını bərqərar edərdi. Valeh İsfahani Hüseyn Əbdüssəməd barəsində belə yazıb:

Bir müddət idi ki, müsəlmanlar arasında cümə namazının qılınması, alimlər arasında qılınmasının vacib olub-olmaması barəsindəki ixtilaf səbəbindən bu mühüm əməl tərk edilmişdi və qılınmırdı. Möhtərəm Şeyx onun qılınması istiqamətində lazımı əzmkarlıq göstərdi və iman əhli arasında onun qılınmasını təsbit etdi. Və nə qədər ki, əlahəzrətin yanında

məskunlaşmışdı, cümə və camaat namazlarının vaxtını bir dəqiqə belə keçirməzdi.

Şeyx Bəhainin ilk ustadı atası olub. Şeyx öz əsərlərinin çoxunda onu ehtiramla yad edir və öz ustadı adlandırır. Atası Həratda olanda o da bir müddət orada yaşayıb və sonra İsfahana qayıdıb. Bir müddət sonra Qəzvinə gedib və Məhəmməd Mirzə Xudabəndənin böhranlı səltənəti dövründə bu şəhərdə olub. O öz əsərlərinin bir neçəsini Xudabəndənin və onun vəliəhdi Həmzə Mirzənin adına yazıb.

O, atasının vəfatından sonra h.q. 984-cü ildə İranın Təbriz və İsfahan kimi müxtəlif şəhərlərində olub və h.q. 991-ci ildə Həcc ziyarətinə nail olub ki, onun barəsində «Kəşkül» kitabında qısa məlumat verib. Şeyx həmin səfər zamanı Məkkədən Misirə gedib və orada bəzi tanınmış alimlərin elmlərindən bəhrələnib və hətta onlardan hədis rəvayət etmək icazəsi alıb. Ondan sonra Qüds və Şama gedib. Şeyx Bəhayi bu səfərlərin hamısında bir əcəm alimi kimi səfər edib. O, Dəməşqdə bir müddət oranın qədim şiə məhəllələrindən olan və bu günə kimi də qalan Xaraba məhəlləsində olub. Sonra Kərək, Nuh və daha sonra Hələb şəhərinə gedib və ondan sonra h.q. 992-ci ilin Ramazan ayında İrana qayıdıb. Şeyx Bəhaidən qabaq Şəhid Sani və Şeyxin atasının da etdiyi bu elmi və ziyarət səfəri onun üçün sünni dairələri ilə tanışlıq baxımından çox maraqlı olub. Onun iki il yarımlıq bu səfərindən sonra əhli-sünnətdən olan şərhçilərin çoxu ad-san və elmi üstünlüklərinə görə onun tərcümeyi-halını öz kitablarında yazıblar. Həmin şərhçilər Şeyx İrana qayıtdıqdan sonra da onun nüfuzundan xəbərdar olublar və Şah Abbas hökumətindəki etibar və əhəmiyyətindən danışıblar.

Bu tarixdən sonra o bəzən İsfahanda, bəzən Qəzvində və bəzən Nəcəf, Kərbəla və Kazimeyndə, bəzən də Qumda olub. Əlbəttə, həmin illərdə İranın vəziyyəti də özbək və osmanlı hücumlarına və daxili çətinliklərə görə çox böhranlı olub.

Şeyx Bəhai təqribən h.q. 1004-cü ildən rəsmi şəkildə Şah Abbasla yaxın ünsiyyətdə olub və bəzi səfərlərdə, o cümlədən Məşhədin fəthi səfərində onu müşayiət edib. Həmçinin Şah Abbasın h.q. 1008-ci ildə piyada Məşhədə etdiyi səfərdə Şeyx Bəhai Şahın yanında olub. Çox ehtimal ki, həmin ildən etibarən Şeyxül-İslam vəzifəsinə təyin edilib. Onun Şah ilə birlikdə olması və görülmüş işlər barəsində tarixi mənbələrdə pərakəndə məlumatlar var. Şeyx h.q. 1017-ci ildə Şahın vəfat etmiş bibisinin evinə, daha dəqiq desək, sarayına köçdü. Bundan sonra o, ömrünün sonuna (h.q. 1030-cu il) kimi İranın məşhur və tanınmış alimi olub. Vəfatından və cənazəsinin İsfahanda

çox təmtəraqlı yola salma mərasimindən sonra onun cəsədi Məşhədə aparılıb və imam Riza əleyhissalamın hərəmində dəfn edilib. Şeyx Bəhainin Şeyxül-İslam vəzifəsini daşıması onun tamamilə Şah Abbasın qulluğunda və tabeçiliyndə olması demək deyil. O çox yüksək savadlı alim və təqvalı fəqih olub və hətta Şah Abbas onunla yaxın münasibətinin olmasına görə fəxr edirmiş. Şeyx də imkan daxilində öz nüfuzundan istifadə edərək vəziyyəti yaxşılaşdırmaq üçün müəyyən addımlar atarmış. Mütləqiyyətçi ruhiyyədə olan Şah Abbasdan bu şəkildə istifadə etməyin özü də böyük və çətin bir iş idi. Şah bir dəfə Məhərrəmlik günlərində göstəriş vermişdi ki, hər tərəfdə çıraqlar yandırılsın və tonqal qalansın. Şeyx Şahın bu əməlinə öz etirazını bildirmişdi. Şeyx Bəhai öz «Kəşkül» kitabında keçmişlərin bu sözünü nəql edib ki: Alimlərin ən pisi şahlara yaxınlaşan alimdir və şahların ən yaxşısı alimlərə yaxınlaşan şahdır.

Şeyx Bəhainin özündən sonra çox dəyərli əsərləri qalıb ki, biz onların bəzilərinə işarə edirik. Şeyxin yazılarının bir hissəsi fiqhi məsələlər barəsindədir. O cümlədən onun təharət, namaz, zəkat, oruc və həcc barəsində beş risaləsi var ki, onların hər biri on iki fəsildən ibarətdir və «isna əşəriyyat» adı ilə məşhurdur. Onun bu mövzuda olan digər bir kitabı «Came-Abbas» kitabıdır ki, fars dilində kamil bir fiqh kitabıdır. Şeyx onu Şah Abbasın adına yazıb və həmin kitabı Şeyxdən sonra onun şagirdlərindən biri təkmilləşdirib. Şah Süleymanın zamanında İranda olmuş Kompfer yazır: «Böyük Şah Abbas ümumi kütlənin işlərinin asanlaşması və istifadəsi üçün Şeyx Bəhaəddin Məhəmmədə dini əqidənin əsaslarını kamil bir kitabda toplamasını göstəriş verdi. Bu kitab hamının əlində görünür və mən oxucuları onun latın dilinə tərcüməsinə müraciət etməyə dəvət edirəm.»

Şeyx dua barəsində də bir sıra işlər görüb və Səhifeyi-Səccadiyyənin müxtəlif dualarının şərhi barəsində bir neçə risalə yazıb. Bunlardan əlavə, h.q. 1015-ci ildə böyük həcimli «Miftahul-fəlah» kitabını yazıb ki, o gündəlik dualar və onların şərhi barəsindədir. Onun üç cilddə olan «Kəşkül» kitabı da Şeyxin müxtəlif sahələrdəki pərakəndə yazı və iqtibaslarından ibarətdir. Riyaziyyat sahəsində «Xülasətul-hesab» kitabını yazıb ki, son zamanlara kimi tədris olunan riyaziyyat dərsliklərindən biri olub.

Həmçinin astronomiya elmi sahəsində «Təşrihul-əflak» və astronomik bucaqölçən alətin qaydaları barəsində «Tuhəfe-Hatəmi» kitabını yazıb. (Çox ehtimal ki, Şeyx bu kitabı Şah Abbasın etimadud-dövləsi Hatəm bəyin adına yazıb.) O fars ədəbiyyatında da çox bacarıqlı olub. Onun bəzi məşhur

qəsidələrinin nümunəsi olan «Nan və halva» və «Tutinamə» əsərlərinə işarə etmək olar. Şeyx Bəhai ərəb ədəbiyyatında da çox güclü olub və hətta bu dildə çoxlu şerləri vardır ki, onların hamısı «Külliyyati Şeyx Bəhai» adı ilə çap edilib. Onun irfani meyilləri həmin şerlərdə özünü çox yaxşı göstərir. Amma eyni zamanda bəzən sufilərə də hücum edib. Onun fars dilindəki şerlərinin çoxu təmsil üslublu hekayələrdir ki, onlarda əxlaqi məsələlərə toxunub.

Şeyx Bəhai və ondan sonra Mir Damadın ən mühüm elmi təsirlərindən biri, şiə mədrəsələrində fəlsəfənin yenidən rəvac tapmasıdır. Fəlsəfə oxumamış tələbə onların yanında heç bir dəyərə malik deyildi. Şeyx Bəhayi «Nan və pənir» məsnəvisində fəlsəfəyə hücum edənləri tənqid edərək yazır:

*Ey ke ruzo-şəb zəni əz elmo laf* *Hiç bər cəhlət nədari etiraf*
*Bər zəvahir gəşte qail çun əvam* *Gah zəmme hekməto gahi kəlam*
*Gəh tənidən bər Ərstalis, gah* *Bər Fəlatun tən kərdən biqonah*
*To çe əz hekmət be dəst avərdei* *Haş lillah ər təsəvvor kərdei*
*Çist hekmət taire qodsi şodən* *Seyr kərdən dər vücude xiştən*

**Yəni: Ey gecə-gündüz elmdən danışan şəxs ki, öz nadanlığından heç xəbərin yoxdur; avam adamlar kimi məsələlərin zahirinə qail olub gah fəlsəfəni və gah kəlamı pisləyirsən; gah Ərəstuna hücum edir, gah da nahaq yerə Əflatuna tənə vurursan; sən fəlsəfədən nə əldə etmisən, haşa ki, heç nə əldə etməmiş yalnız gümana qapılmısan; fəlsəfə nədir?- müqəddəsliyə doğru uçuş, öz vücudunda seyr etmək!**

Həmçinin o, irfani meyillərə malik olmasına baxmayaraq, bazar açan sufilərə də hücum edir:

*Nano həlva çist in əmale to* *Cübbeye pəşmin ridavo şale to*
*İn məqame fəqre xurşid iqtibas* *Key şəvəd hasel kəsira dər libas*
*Zin ridavo cübbeət ey kəc nihad* *İn do beyt əz məsnəvi aməd be yad*
*«Zaherət çun qure kafer por heləl* *Vəz dərun qəhre Xoda əzzo vəcəll*
*Əz burun təne zəni bər Bayəzid* *Vəz dərunət nəng midarəd Yəzid»*

**Yəni: Halva çörək nədir?- bu sənin əməlin, sənin yun cübbən[1] əba və şalındır; günəşdən alınmış bu yoxsul məqam libas ilə nə vaxt kiməsə**

[1] Uzun ətəkli enli üst paltarı

**qismət ola bilər?; ey zatı pis, sənin bu yun qumaş və əban mənim yadıma məsnəvinin bu iki beytini saldı ki: «zahirin kafirin goru kimi çox bər-bəzəkli, batinin isə Allah-təalanın qəzəbinə layiqdir; zəhirdə Bayəzidə tənə vurursan, batinindən isə Yezid utanır.»**

Şeyx Bəhayi özü Şeyxül-İslam məqamını daşımasına baxmayaraq, şerlərində mənəviyytasızlıqdan şahların qarşısında əyilən alimləri belə məzəmmət edir:

*Heyf başəd əz to ey saheb süluk* — *Ken həme nazi be təzime muluk*
*Qürbe şahan afəte cane to şod* — *Paybənde rahe imane to şod*
*Hər zəman ke şah quyəd şeyxəna* — *Şeyxəna mədhuş gərdəd zin nida*
*Məsto mədhuş əz xetabe şəh şəvəd* — *Hər dəmi dər pişe şəh səcde rəvəd*
*Mipərəstəd quya u şahra* — *Hiç nəarəd yad an Allahra*
*Allah, Allah in çe islaməsto din* — *Şerk başəd in be Rəbbil-aləmin*
*Din furuşi əz peye nane həram* — *Məkre hile bəhre təsxire əvam*
*Xordəne male şəhan ba zərqo-şəyd* — *Gah xəbse Əmr, gahi xəbse Zeyd*
*Vin ədalət ba vücude in sifat* — *Həst daim bərqəraro ba sobat*
*Bər sərəş daxel nəgərdəd la və leys* — *İn ədalət həst kuhe Əbu Qubeys*

**Yəni: Heyf səndən ey seyr-süluk sahibi ki, şahlara təzim etməyə görə bu qədər öyünürsən; şahlara yaxınlaşmaq sənin canının bəlası və iman yolunda sənin ayağının zənciri oldu; şah nə vaxt «şeyxəna» desə, şeyxəna bu nidadan məst olar; o şahın xitabından məst və bihuş olar və hər an şahın qarşısında səcdə edər; o sanki şaha ibadət edir və Allahı heç yadına belə salmır; Allah, Allah bu nə İslam və dindir? Bu aləmlərin Rəbbinə şərik qoşmaqdır! Haram çörəyə görə dini satar, avamı ələ almağa görə hiylə-kələk; riyakarlıq və ikiüzlülüklə şahların mallarını yemək, gah Əmri, gah da Zeydi alçaltmaq; bu sifətlərlə yanaşı ədalət daim bərqərar və sabitdir; başına «la və leysə» girməz, bu ədalət Əbu-Qubeys dağıdır.**

İsfahan əhalisinin zehnində Şeyx Bəhai şəxsiyyəti şəriət elmlərindən əlavə, həm də bir növ xüsusi təbiət elmləri ilə məşhurdur. Suyu illərlə bir şamla qızan hamamın tikilməsinin ona nisbət verilməsi, həmçinin günəş saatının düzəldilməsi, «Came Abbas» kitabının müəmması, Zayəndərud çayının suyunun bölünməsi layihəsi, İmam Əlinin (ə) məqbərəsinin tikilməsinin müəmması və….bütün bunlar Şeyx barəsində elmi və əfsanəvi bir şəxsiyyət formalaşdırıb.

Onun tanımış şagirdlərindən Məhəmmədtəqi Məclisi, Molla Sədra, Feyz Kaşani, Nizaməddin Savəci və Şeyx Zeynəddin Əli Bəhrani kimi alimlərin adını çəkmək olar.

Şeyx Bəhaidən söz açdıqsa, gərək digər məşhur bir filosofdan da söhbət edək. Düzdür, bu filosofun bizə elə də çox kitabı gəlib çatmayıb, amma onun çoxlu şagirdləri olub və o müstəqil məktəb sahibi olub. O Əstərabadlı Əbulqasim Mirfendrskidir (h.q. 970-1050) ki, işraqi filosoflardandır və bir müddət Hindistanda yaşayıb. Qeyd etmək lazımdır ki, o Şah Səfinin ehtiram göstərdiyi şəxsiyyətlərdən olub. Nəsrabadi onun barəsində belə yazır:

Bir müddət Hindistanda olub və orada çox böyük hörmət qazanıb. Yeri Cənnət olan Şah Səfinin zamanında İsfahana təşrif buyurub. Hər şeyin qədir-qiymətini bilən Şah onun görüşünə gedib. Ona bu qədər qiymət verilməsinə baxmayaraq onun halında bir dəyişiklik baş verməyib. O, bundan sonra da həmin sadəlik və heç bir şeyə bağlanmamaq aləmində seyrdə olub və nəhayət əzəmətli ruhu əbədi Cənnətdə yerləşib.

Onun məşhur şagirdlərindən biri Ağahüseyn Xansari (h.q. 1098) və digəri Mühəqqiq Səbzivaridir (h.q. 1090) ki, biz onların hər ikisi barəsində danışacağıq. Onun məzarı İsfahanın «Təxtfulad» adlanan məkanın Mir təkyəsində[1] qalmaqdadır. Həmin təkyədə onunla Şeyx Bəhainin şəkili vardır.

Qeyd etmək lazımdır ki, Mirzə Abdullah Əfəndinin nəqlinə əsasən, Şeyx Bəhainin, əvvəldə dediyimiz kimi, Şeyx Əli Minşarın qızı olan həyat yoldaşı da İsfahanda qadınların müəllimısi olub.

## *MİR DAMAD*

Məhəmmədbaqir Damad[2] (h.q. 969-1041) Seyyid Məhəmməd Hüseyni Əstərabadinin oğludur. Onun atası Mühəqqiq Kərəkinin kürəkəni olduğu üçün o Damad ləqəbi ilə məşhurlaşmışdı və sonralar Mirdamad ləqəbi onun oğluna da deyildi. Onun əsli qədim şiə şəhərlərindən olan Əstərabaddandır və orada fəlsəfi, irfani və hürufi fikirlər geniş yayılmışdı. Qeyd etmək lazımdır ki, bu şəhərin tanınmış alim və simaları Səfəvi dövlətinin güclənməsində mühüm rola malik olublar.

Şübhəsiz, Ərəstun və Farabidən sonra «üçüncü müəllim» adı ilə yad edilən Mirdamad Səfəvi dövlətinin ən görkəmli alimlərindən olub. Onun Şah Abbasın sarayı ilə də əlaqəsi olub və xüsusilə elmi cəhətdən onun fikir və

[1] müxtəlif dini mərasimlərin keçirildiyi yer

[2] Damad kəlməsinin fars dilində mənası kürəkəndir

düşüncələri rəsmi mədrəsə elmlərinə yüksək təsir göstərib. Elə həmin səbəbdəndir ki, zirək Şah Abbas Şeyx Bəhaini və onu öz həmsöhbətlərindən edib və özü üçün tarixdə belə bir iftixar qazanıb.

Mirdamad uşaqlığında Məşhədə gedib və İsgəndər bəyin yazdığına görə, kiçik yaşlarından müqəddəs Məşhəddə fəzilətli müəllimlərin hüzurunda elm kəsb etmək feyzinə nail olub və az bir zamanda yüksək elmi məqam əldə edib. İsgəndər şöhrətli naiblərin (Təhmasibin) zamanında yenilməz orduya gəlib və şərəfli sarayın alimləri ilə həmsöhbət olub.

Hər halda belə məlum olur ki, o, Məşhəd və Qəzvin mədrəsələrinin orta və bəzən də çox yüksək savad və məqamlı ustadlarından bəhrələnib. Bu arada gərək ki, o Şeyx Bəhainin atası Şeyx Hüseyn ibn Əbdüssəməddən də dərs almış olsun.

Mirdamad əsas etibarı ilə iki elm- fəlsəfə və kəlamda, həmçinin hədis elmində mütəxəssis olub. Onun qələminin ağırlığı və məsələləri qeyri-adi tərzdə irəli sürməsi onun fikir və düşüncələri ilə dəqiq tanışlığı çətinləşdirir. O riyaziyyat və həndəsə elmində də yüksək məharət əldə edib və bu barədə ondan bir sıra yazılar da yadigar qalmaqdadır. O dini mədrəsənin yayılmış elmləri, yəni fiqh və üsul barədə kitablar yazıb ki, onların bir çoxu bu günə qədər elmi ocaqlarda tədris olunur.

Mirdamad özündən sonrakı düşüncələrə iki tərəfdən təsir göstərib. Birinci cəhət onun yazı və kitablarıdır ki, əlbəttə bu az miqyasda olan bir təsirdir. İkincə təsir cəhəti isə yetişdirdiyi çoxlu və məşhur şagirdlərdir ki, onun bu təsir dairəsi həddən artıq genişdir və həmin şagirdlərin hər biri özlərindən sonra dəyərli əsərlər qoyub gediblər ki, onlardan biri də Molla Sədradır. Molla Sədra özündən sonrakı fikirlərə böyük təsir göstərib.

Onun ən məşhur kitablarından biri h.q. 1034-cü ildə yazdığı «Qəbəsat» əsəridir ki, bu kitab ən mühüm fəlsəfi mövzuların birindən, yəni dünyanın «hadis, yoxsa qədim» olmasından danışır. Onun şagirdlərindən bəziləri bu kitaba şərhlər yazıblar. Onun «Əl-icazat» kitabı «cəbr və ixtiyar» barəsindədir. O, məşhur rical[1] kitablarından olan «Ricali-Kaşi» kitabına da şərh yazıb və onun bu kitabı çap edilib. Onun «Təqvimul-iman» kitabı da Allahın varlığının isbatı  və Onun bəzi sifətləri barəsindədir. Mirdamadın «Təvəlla və təbərra» adlı risaləsi də var ki, Səfəvi dövründə xarakterik yazıların davamı olaraq, onun şiə meyillərinin istiqamətini göstərir. Mirdamad özündən qabaqkı alimlərin fəlsəfə, fiqh və hədis kitablarına,

[1] hədis ravilərinin şəxsiyyəti və tərcümeyi-halını araşdıran elm

məsələn «Təcridul-etiqad»a, İbn Sinanın «Şifa» kitabına, Əllamə Hillinin «Qəvaidul-ehkam»ına, «Kafi»yə, «İstibsar»a və «Mən la yəhzuruhul-fəqih»ə və bir sıra digər əsərlərə şərhlər yazıb. Onun digər bir kitabı da «Xəlsətul- mələkutiyyə»dir ki, bu kitabı h.q. 1020-ci ildə yazıb və bu əsər Şahın və etimadud-dövlə Hatəm bəyin iştirakı ilə keçirilən məclisdə Şaha təqdim edilib.

Mirdamadın fəlsəfə və kəlam elminə diqqət və marağı onun Əhli-beyt əleyhimussəlamın hədisləri ilə məşğul olmasına mane olmamışdır. O ilk dəfə olaraq Əhli-beyt əleyhimussəlamın hədislərinə və onların şərhlərinə əsaslanaraq, mədrəsələrdə geniş yayılmış elmlərdə Əhli-beyt maarifindən daha çox istifadə olunmasına çalışmışdır. Mirdamadın hədis barəsindəki bəzi əsərlərindən məlum olur ki, o, hədis elmində də mütəxəssis olmuşdur. Eyni zamanda diqqət etmək lazımdır ki, ilk baxışdan onu «əxbari» hesab etsək də, onu fəlsəfə və kəlam elmi əleyhinə olan əxbarilərlə qatışdırmaq olmaz. Əslində, bu dövrdən sonra əxbariliyin fəlsəfə və kəlam ilə tam bağlı olan bir forması meydana çıxır. Buna görə də Mirdamad «Kafi» kitabının şərhi olaraq «ər-Rəvaşihus-səmaviyyə» adlı kitab yazıb. Bu elə bir üsul idi ki, ondan sonra Molla Sədra və həmçinin Məhəmmədtəqi Məclisi kimi digər şəxslər də onu davam etdiriblər.

Hər halda Mirdamadın İslam fəlsəfəsində çoxlu yenilik və ixtiraları vardır. Amma onun qələmi ağır olduğu və şagirdi Molla Sədra bu sahədə yüksələrək fəlsəfənin hərəkət xəttini nəzərə çarpacaq dərəcədə dəyişdirdiyi üçün Mirdamadın adı az səsləndi.

Mirdamad dəlil-sübuta əsaslanmaqdan əlavə, irfani meyillərə də malik olub. Onun özü barəsində nəql etdiyi bəzi xatirələr və irfani hallardan məlum olur ki, onun bu kimi məsələlərə də diqqəti olub.

O, bu barədə belə yazır:

**Mənə lütf edilmiş feyzlərdən biri belə olub ki: H.q. 1011-ci ildə günlərin birində Peyğəmbər Əhli-beytinin əmin-amanlıq məkanında, yəni möminlər evi Qumda üzü qibləyə oturub əsr namazından sonrakı duaları oxumaqla məşğul idim. Birdən mənə irfani hal olan xəlsəyə bənzər bir mürgü gəldi. Həmin halda qaraltıya bənzər insan surətində parlaq bir nur gördüm ki, sağ tərəfi üstə yatmışdı. Başqa bir nur isə çox vüqarla, parıltılı gözəlliklə və ətrafa işıq saçaraq yatanın arxa tərəfində oturmuşdu. Bilmirəm kimsə mənə dedi, yoxsa ki, özüm başa düşdüm ki, o yatmış şəxs mövlamız Əmirəl-möminindir (salavatullah əleyh) və o oturmuş şəxs, Allahın peyğəmbəridir (səlləllahu əleyhi və alih). Mən iki**

**dizim üstə yatmış şəxslə üz-üzə, onun mübarək sinəsinin müqabilində oturdum. O həzrət mənə təbəssüm etdi və mübarək əlini mənim alnıma, üzümə və saqqalıma çəkdi və sanki mənim fikrimdən kədəri uzaqlaşdırırdı….**

Mirdamad özündən sonra görkəmli şagirdlər qoyub gedib. Onlardan biri onun kürəkəni olan Seyyid Əhməd Ələvi Amilidir ki, ondan da çoxlu əsərlər qalıb. Mirdamadın digər bir şagirdi Molla Xəlil Qəzvinidir (h.q. 1001-1089) ki, onun ən mühüm əsəri Kuleyninin Kafi kitabına ərəb və fars dillərində yazdığı şərhdir. Onun digər bir şagirdi isə Şəmsi Gilanidir ki, o da bir neçə əsərin müəllifidir.

Mirdamad Şah Abbasın hakimiyyəti zamanı sevimli simalardan olub və ondan sonra da Şah Səfi ilə əlaqəsi olub, onun taxta çıxma xütbəsini İsfahanın cümə məscidində oxuyub və Şah Səfi ilə birlikdə Nəcəf, Kərbəla və Kazimeyn şəhərlərindəki müqəddəs ziyarətgahlara gedib. Mirdamad h.q. 1041-ci ildə Şahla olan həmin ziyarət səfəri zamanı Nəcəf ilə Kərbəla şəhərləri arasında vəfat edib. Tarixi mənbələrdə olan maraqlı məsələlərdən biri də budur ki, Şah Abbas Mirdamaddan qorxurmuş və onda Mirdamadın onu devirməsi fikrində olması təsəvvürü var imiş. Bu məsələnin doğruluğu barəsində isə bir dəlil nəql edilməyib.

Molla Sədranın kürəkəni və Mirdamadın elm bulağından doyunca su içən olmuş Əbdürrəzzaq Lahicinin Mirdamadın mədhi barəsində bir qəsidəsi var ki, onun bəzi beytləri belədir:

*Şəbe siyahe məra rəşg ruze roşən kərd*
*Furuğe nasiyeye Seyyide bozorq nəjad*
*Sepehre milləto din aftabe şəre mubin*
*Sütune qəsre yəqin baqere ulumu rəşad*
*Be səy, fetrəte abaye fəzlra fərzənd*
*Be zure təb, əruse kamalra damad*
*Ze tost keşvəre İran xulaseye aləm*
*Ze tost şəhre Sifahan be rotbe xeyre-bilad*
*Be bağe xatere mən qonçehaye moşkelra*
*Nəsime fekrəte u ta vəzid, comlə qoşad*
*Təbarəkallah əz in qolşəne beheşt ayin*
*Ke midəhəd be səfa əz beheşte rizvan yad*

**Yəni: Nəsəbi böyük olan Seyidin alnının nuru mənim qara gecəmi işıqlı gündüzə çevirdi; millət və dinin səması və aydın şəriətin günəşi, yəqin sarayının sütunu və doğru yolun elmlərini açandır; səy ilə fəzilətli atalarına oğuldur və təbiətinin gücü ilə kamal gəlininə bəydir; İranın dünyanın ən seçilmiş yeri olması səndəndir, İsfahan şəhərinin xeyirli şəhərlər rütbəsinə qalxması səndəndir; mənim zehn bağımın çətin açılan qönçələrinə onun fikir mehi əsən kimi onların hamısının düyünü açıldı; əhsən bu cənnət bəzəkli çiçəkliyə ki, öz saflığı ilə behişti xatırladır.**

Şair Əlinağı Kumreyi[1] (h.q. 1029-1031) Mirdamadın Siratəl-müstəqim əsərinin yazılma tarixi münasibəti ilə bəzi şerlər yazıb ki, onlar onun şerlər külliyyatında çap edilib.

## *MOLLA SƏDRA*

Sədrəddin Məhəmməd ibn İbrahim Qəvami Şirazi Səfəvi hakimiyyətinin orta dövrlərinin məşhur və müstəqil məktəb sahibi olmuş filosoflarındandır ki, Molla Sədra və Sədrül-Mütəəllihin adı ilə məşhurdur. O h.q. 979-cu ildə dünyaya göz açıb və h.q. 1050-ci ildə vəfat edib.

O, Şirazın qeyri-ruhani, amma çox tanınmış ailələrindən birində dünyaya göz açıb. İbtidai təhsilini Şirazda başa vurduqdan sonra Kaşan şəhərinə gedib və təhsilini orada davam etdirib. Molla Sədra və Kaşanda onunla tələbə yoldaşı olan Şahmürtəza – Feyz Kaşaninin atası – ustadlarının qızları ilə ailə qururlar. Molla Sədra daha sonra təhsilini davam etdirmək və Şeyx Bəhai və Mirdamadın məhzərindən bəhrələnmək üçün İsfahana gedib və bir neçə il həmin iki ustadın elmindən faydalanıb. Molla Sədra hamıdan çox özünü Mirdamada borclu bilirmiş və şerlərindən birində onu mədh edir.

*Xod cahanivo cahanra sərvəri*
*Məhze irfanivo irfanra dəri*
*Ey zəmirət ayəti əz Kirdgar*
*Vəy zəbanət həmçu seyfe Zülfiqar*
*Nure tohid əz delət cuşəd bəsi*
*Came vəhdət çun to key nuşəd kəsi*

**Yəni: Sən özün bir dünyasan və dünyanın başçısısan, sırf irfansan və irfana bir qapısan; ey o kəs ki, sənin batinin Allahın bir nişanəsidir və**

---
[1] Bu şəxs fəqih və qazı olmuş Əlinağı deyil

**ey dilin Zülfüqar qılıncı kimi olan!; qəlbindən çoxlu tövhid nuru qaynayar, sənin kimi vəhdət camını kim və nə vaxt içə bilər?**

Bilmək lazımdır ki, alimlərdən dərs almaq və bəhrələnməkdən əlavə keçmişlərin əsərlərindən faydalanmaq da insanın fikir və düşüncəsinin istiqamətini gücləndirə və hətta dəyişdirə bilər. Molla Sədranın kitabxanasında olan kitabların siyahısı çap olunduqdan sonra onun doqquz və onuncu əsrlərdə təqribən «Təcridul-etiqad» ilə yaxın zamanlarda yazılmış əsərlərlə nə qədər tanış olduğunu başa düşmək olur. O öz əsərlərində Şiraz məktəbinin təsiri altında olmasını, xüsusilə bundan əvvəl, barəsində danışdığımız Sədrəddin Dəştəkinin yazılarına xüsusi bağlı olmasını göstərib.

Molla Sədra ali elmi dərəcəyə çatdıqdan sonra öz ruhiyyəsinə uyğun olaraq, cəmiyyətdən təcrid olaraq kitab yazmağa başlayıb. O, zəmanənin tələbinə və müasirlərinin qəzavət və siyasi işlərə meyl göstərmələrinə baxmayaraq, o, ancaq elmi işlərlə məşğul olub. O, öz zəmanəsini alçaq və yaltaqlar yetişdirən zəmanə kimi vəsf edib və bundan qurtulmaq üçün guşənişinlik yolunu tutub. İsfahanda olduqdan sonra Qumun Kəhək kəndinə gedib və yeddi və ya on beş il orada kitab yazmaq və seyri-sülukla məşğul olub. Hal-hazırda həmin şəhərdə «Molla Sədranın evi» adı ilə məşhurlaşmış bir ev vardır. Bundan sonra Fars vilayətinin hakiminin dəvəti ilə Şiraza qayıdıb və Xan mədrəsəsi adı ilə onun üçün tikilmiş mədrəsədə tədrislə məşğul olub.

Bundan əvvəl də işarə etdik ki, o dövürdə şəriətə etina etməyib öz aralarında yayılmış bidətlərin arxasınca gedən saxta sufilik aradan getməkdə idi. Molla Sədra ərəb dilində yazdığı «Kəsru əsnamil-cahiliyyə» kitabında zahirdə şəriətə etina etməyən bu kimi sufiləri bərk məzəmmət edib.

O dövürdə saxta sufiliyə qarşı hücumlar edilməsi ilə yanaşı işraqi və irfani düşüncələr də tədricən möhkəmlənirdi və Şeyx Bəhai və Mirdamad kimi mühüm şəxsiyyətlər onun tərəfdarı idilər. Buna baxmayaraq onların hər ikisi fiqhdə də məşhur olduqları üçün ictimai baxımdan yaxşı mövqe qazanmışdılar. Bundan əlavə, tarix göstərib ki, fiqh alimlərinin ictimai mövqeyi həmişə yüksək olub. Amma filosoflar öz elmi məşğuliyyətlərinin növünə görə nə özləri cəmiyyətə daxil olmağa meyilli olublar və nə də cəmiyyətin zahirdə onlara ehtiyacı olub. Molla Sədra fiqhdən uzaq olduğu və fəlsəfəyə çox daxil olduğu üçün ona elə də etina olunmayıb və o özünün «Cəbr və təfviz» risaləsinin əvvəlində deyir ki, bu risaləni ilahi elmlərin

kəsb edilməsi ar, onunla mübarizə etmək isə iftixar olduğu bir zamanda yazmışam.

Molla Sədra öz düşüncə tərzinə uyğun olaraq işraqi və irfani məsələləri fəlsəfəyə, ümumiyyətlə öz zəmanəsinin dinşünaslığına daxil etmək istiqamətində çox çalışıb. Molla Sədranın zamanına kimi fəlsəfə iki istiqamətə malik idi. Onlardan biri İbn Sinanın yolu olan və sırf deduksiyaya əsaslanan Məşşai fəlsəfəsi, ikincisi isə sırf əqli deduksiyadan uzaq olan işraqi və irfani fəlsəfə idi ki, bu da Şəhabəddin Söhrəvərdinin (h.q. 549-587) və Mühyiddin Ərəbinin (h.q. 560-636) yolu idi. İrfana möhkəm bağlı olan, eyni zamanda Məşşaa fəlsəfəsi ustadlarının dərslərində iştirak edib onların sırf fəlsəfi dəlillərindən bəhrələnmiş Molla Sədra bu iki yolu bir yerə toplayaraq orta yol seçmək istədi. Şiraz məktəbində bu barədə məhdud iş görülmüşdü. Lakin Molla Sədra özünün Əsfar kitabında onu sırf elmi və hərtərəfli şəkildə təqdim etdi. O bu yeni fəlsəfənin adını «əl-Hikmə əl-mütəaliyyə» qoydu. Onun əsərlərində həm Ərəstun və İbn Sina fəlsəfəsinin, həm də Əflatunun və bəzi İslam mütəfəkkirlərinin işraqi-irfani fəlsəfələrinin izlərini görmək mümkündür. Belə görünür ki, o, İbn Sina fəlsəfəsindən çox irfani düşüncələrin vurğunudur. Molla Sədra külliyyatında çap olunmuş bir şerində belə deyir:

*Elme rəsmi comle avaz əsto bəs*
*Elme kəşfi comle pərvaz əsto bəs*
*Həst əz avaz ta pərvaz fərq*
*Gərçe delha gəşte əndər cəhl qərq*
*Elme rəsmi dər rəveş həmçun dəvab*
*Elme kəşfi dər pəridən çun üqab*
*Paye istidlal əgər çe xoşrəg əst*
*Bər buraqe mərifət key həmtək əst*

**Yəni: rəsmi elm başdan-başa avaz və sözdür, irfan elmi isə başdan-başa mənəvi uçuşdur; avaz ilə uçuş arasında çox fasilə var, hərçənd ki, ürəklər nadanlıqda qərq olublar; rəsmi elm yerişində dördayaqlı kimidir, irfan elmi isə uçuşda qartal kimi; dəlil gətirmək və deduksiyanın görkəmi xoş olsa da, mərifət miniyi üstündə kim irfana rəqib ola bilər?!**

Molla Sədra bu yolda özünü saxta sufilikdən uzaqda saxlamağı münasib görür və hətta sufi məsləkində ittiham olunmamaq üçün onlara hücum da

edir. Digər tərəfdən özü kimi batin əhli olan filosofların müqabilində zahir əhli kimi fəqihlərlə də çəkişir və onlardan uzaq olduğunu bildirir. O şerlərindən birində belə deyir:

*An ke quşeş nist coz rahe bədən*
*Bəhre u zin nəğmevo dəstan məzən*
*İnçenin yaran be nerxe kah bad*
*Can fədaye yare mənaxah bad*
*Mərde zaherbinbin bovəd duno dəğa*
*Bihəyavo mübrəmo şuxo gəda*
*Mərde batenbin bovəd nərmo həzin*
*Xazevo xaşe lətifo şərmgin*
*An yeki əz dərso fetva həstiş*
*Vin degər əz zöhdo təqva məstiş*
*An yeki be qorbe soltan mottəkist*
*Etimadəş bər ətaye kerməkist*

**Yəni: O şəxsin ki, bədəndə olan qulaqdan başqa bir qulağı yoxdur, onun bu nəğmə və dastandan olan payından danışma; bu cür dostlar saman qiymətinədir, can məna əhli olan dostlara fəda olsun; zahirpərəst şəxs rəzil, xəbis, həyasız, qaba, utanmaz və dilənçi olar; batinpərəst şəxs isə mülayim, hüznlü, təvazökar, lətif və utancaq olar; o biri dərs və fitva ilə var, bu biri isə zahidlik və təqvadan məstdir; o biri sultana yaxın olmasına arxalanır, etimadı həşəratın ətasınadır.**

Molla Sədra fəlsəfi meyillərə malik olduğu, zahirpərəst və fiqh alimlərinin əksəriyyəti isə dinin əsas məsələlərində təqlid ilə kifayətlənərək əqli bəhslərlə yaxşı münasibətdə olmadıqları üçün onları kəskin tənqid edib.

*Ey be təqlidi şode qane ze din*
*Yek qədəm bərtər nəh ey ba kibro kin*
*Hər ke ra təqlid daməngir şod*
*Bər dele u çun ğollo zəncir şod*
*Yek rəh əz təqlid birun nəh qədəm*
*Ta bebini surəte hər bişo kəm*
*To bər işan lənət ari hər zaman*
*Ken çenin qoftənd işan ya çenan*

**Yəni: Ey dindən yalnız təqlid ilə kifayətlənən kəs, bir addım qabağa qoy ey kibr və kin sahibi; kim təqlidə düçar olsa təqlid onun qəlbinə əsarət zənciri kimi bağlanar; təqliddən bir addım kənara qoy ki, hər bir çox və azın surətini görəsən; sən həmişə ona lənət oxuyursan ki, onlar elə dedilər, belə dedilər.**

Molla Sədra bu barədə fars dilində «Risaleye se əsl» adlı bir kitab da yazıb. O, bu iki yol, yəni Məşşa və İşraq yolunu bir-birinə sintez etməklə yanaşı Qurana yazdığı təfsirdə və «Kafi» kitabına yazdığı şərhdə həmin irfani və işraqi məfhumları önə çəkməyə çalışır. O məşşa fəlsəfəsi baxımından isbat olunmayası şəxsi fikirlərini açıqlayıb. Onun öz təfsirində dediyi mətləblərin çoxu irfan və yozum yolunu qəbul etmədən izah olunmur.

Molla Sədra irfan meylli olmasına baxmayaraq dərin fəlsəfi məsələlərdə İbn Sina üslubu ilə maraqlı ixtira və yeniliklər müəllifidir. Molla Sədra ən mühüm bəhslərindən birində «vacibəl-vücud» mözusunda Allahın varlığını sübut etmək üçün yeni yollar təklif etməyə çalışır. Bu bəhs İslam fəlsəfəsində «bürhani-siddiqin» adı ilə məşhurlaşıb və Molla Sədradan sonra onun davamçısı olan filosoflar tərəfindən həmin bəhsə müxtəlif təfsirlər verilib. Molla Sədranın fəlsəfədəki digər yeni bəhsi «hərəkəte cövhəri» bəhsidir. Molla Sədraya kimi hərəkət yalnız forma və zahirdə təsəvvür edilirdi. Lakin o əşyaların cövhərlərinin də hərəkətdə olmasını göstərməyə çalışdı. Həmçinin «vücud və mahiyyət» mövzusunda əsilliliyin əşyaların mahiyyətinə deyil, vücudlarına aid olmasını göstərməyə çalışdı. Yəni əslində əşyaların mahiyyətini onun vücudu müəyyənləşdirir və şey mövcud olmadan onun mahiyyəti ola bilməz. Bundan əlavə, o, vücud məfhumunun mərtəbələrə malik olması və hər bir şeyin vücudun məxsus bir mərtəbəsində olması, beləliklə də, vücudun «şiddətli və zəif» olması fikrini irəli sürdü.

Əlbəttə, maraqlananlar bu bəhsləri daha yaxşı dərk etmək üçün uyğun mövzuda yazılmış fəlsəfi əsərlərə müraciət etməlidirlər.

Molla Sədranın özündən sonra dəyərli əsərləri qalıb. Onların bəziləri çox məşhurdur. Əsərlərin ən mühümü «əl-Əsfar əl-ərbəə» kitabıdır. Bu kitab kamil bir İslam fəlsəfəsi kitabıdır və onun mətni çox yüksək fəlsəfə dərsliyi kimi yuxarı səthlərdə tədris edilir. Onun digər mühüm kitabları kimi «əl-Məbdə vəl-məad», «əl-Məşair», «əl-Varidatul- qəlbiyyə» kitablarını, eləcə də Qurana yazdığı təfsiri, «Üsuli-Kafi» kitabına yazdığı şərhi və bir sıra digər kitablarını yada salmaq olar.

Molla Sədra yeni fəlsəfi məktəbin təməlini qoymaqla yanaşı özündən sonrakı fəlsəfə yolunu də dəyişdi. O bir sıra şagirdlər də yetişdirmişdir. Onların bəziləri çox görkəmli və məşhurdur. Şagirdlərindən ikisi Molla Sədranın həm də kürəkənləri olmuş Molla Möhsin Feyz Kaşani (h.q. 1091)və Əbdürrəzzaq Lahicidir (h.q. 1072). Bu iki şəxsiyyətin hər birinin məşhur əsrləri var.

Ümumiyyətlə, Molla Sədranın əsərləri «İsfahan məktəbi» və «şiə fəlsəfəsi» ləqəbi almışdır. Əlbəttə, fəlsəfə təkcə Molla Sədranın əsərləri ilə də yekunlaşmır. Çünki bu şəhərdə onun fikirləri ilə müxalif olan fəlsəfi cərəyanlar mövcud olub. Sədradan sonra onun dediklərinə bəzi haşiyə və əlavələr də yazılmışdır.

## *ŞİƏLİKDƏ «ƏXBARİ»LİK CƏRƏYANININ İNKİŞAFI*

H.q. 1000-ci il ərəfəsində şiəliyin elmi və ideoloji dairələrində cərəyan edən hadisələrdən biri Əxbariliyin inkişafı olub. Biz bundan əvvəl demişdik ki, iki və üçüncü əsrlərdə şiəlikdə bir-birindən fərqli iki cərəyan mövcud idi. Onlardan biri hədisə daha çox meyl və diqqət göstərən Qum məktəbi, digəri isə əqli məsələlərə daha çox meylli olan Bağdad məktəbi idi. Bu iki cərəyan Şeyx Müfid (h.q. 413) və Şeyx Tusinin (h.q. 460) zamanında bir-biri ilə birləşdi. Sonralar bu cərəyanın «üsuli şiə» adlandırılan qanadı İraqda şiə mədrəsələrinə hakim oldu. Onun fiqhi yönümündə tədricən əqli və ictihadi fiqh yarandı və hədis əsərlərinə az diqqət yetirildi. Bütün bunlara baxmayaraq bəzi dairələrdə hətta zəif də olsa hədisə diqqət yetirilirdi. Bu, cərəyan şiənin bir sıra hədis əsərlərinin əsrlər boyu arxa plana keçməsinə səbəb oldu.

Bununla əlaqədar Səfəvi hakimiyyətinin orta dövrlərində xüsusi bir dəyişiklik baş verdi. Həmin hadisə bundan ibarət idi ki, Səfəvilərin orta dövrlərindən sonra hədisə bir o qədər də diqqət yetirməyən və daha çox əqli və ictihadi fiqhə meyilli ərəb İraq alimlərinin əksinə olaraq, şiə alimləri yavaş-yavaş hədis mətnlərinə üz tutdular. Mirdamadın hədis elminə diqqəti və ondan çox istifadə etməsi, həmçinin Şeyx Bəhainin hədisə diqqəti, xüsusilə onun Əllamə Məclisi kimi şagirdlərinin bu barədə göstərdikləri həssaslı şiənin münasib maddi şərait əldə etdikdən və öz köhnə kitablarının üzünü köçürüb onları yaydıqdan sonra hədislərə daha çox maraq göstərməsindən və bir növ Əxbarilik baxışlarına tərəf getməsindən xəbər verir. Bunun digər bir səbəbi də var idi. Həmin səbəb bundan ibarət idi ki, şiə dağınıq olduğu dövrlərdə sünni şəhərlərində gəzir və onların əsərlərindən

istifadə edirdi. Amma Səfəvi dövlətinin təşkilindən sonra şiə cəmiyyətində bir növ özünəinam yarandı və onlar tədricən öz mənbələrinə əsaslanmağa başladılar.

Qeyd etmək lazımdır ki, bu hərəkət geniş şəkildə əsli Astrabaddan olan, amma Mədinə və Məkkədə məskunlaşmış bir şiə alimi tərəfindən yarandı. Onun adı Mövla Məhəmmədəmin Astrabadidir. O, bir neçə il Mədinədə, sonra isə Məkkədə yaşayıb. 1036-cı hicri ilində elə həmin şəhərdə vəfat edib. O «əl-Fəvaid ən-mədəniyyə» adlı kitabında əxbarilik nəzəriyyəsinin fiqhi ictihaddakı elmi əsaslarını açıq şəkildə bəyan edib. Həmin kitab yazıldıqdan dərhal sonra İran mədrəsələrinə çatdı və öz təsirini göstərdi. Həmin kitabın ən kiçik təsiri bu oldu ki, o, şiə alimlərini hədis mənbələrini yenidən araşdırmaq fikrinə saldı. Həmin müəllif Kuleyninin «Kafi» və Şeyx Tusinin «əl-İstibsar» və «Təhzibul-ehkam» kitablarına da şərhlər yazıb. »Əl-Fəvaid ən-mədəniyyə» kitabı o qədər güclü idi ki, sonralar üsul alimləri öz əsərlərində Astrabadinin dəlillərinə cavab verməyə məcbur olublar. Məhəmmədtəqi Məclisi kimi bəzi alimlər də Astrabadini mədh edirdilər.

Əxbarilik cərəyanı zaman keçdikcə genişlənirdi. Səfəvilər dövrünün axırlarında h.q. on ikinci əsrə qədər İran və İraqda şiənin elmi təfəkkürünün mühüm hissəsini məhz bu cərəyan öz əlinə almışdı.

## *BİRİNCİ ŞAH ABBASIN ZAMANINDA ŞER VƏ ŞAİRLİK*

Hərat Teymurilərinin süqutundan sonra Səfəvi silsiləsinin İranda zahir olması ilə bir vaxtda bir özbəklərlə İran, digər tərəfdən iranlılarla Osmanlılar arasında düşmənçilik və müharibə nəticəsində İranın vəziyyəti iyirmi-otuz il qeyri-sabit oldu. Məlumdur ki, belə bir fəza mədəniyyətin inkişafı üçün xeyirli ola bilməzdi. Həmin vaxt mühacirət etmək imkanı olan elm və ədəb adamları, necə olur-olsun öz işləri üçün sakit yer seçirdilər. Şah İsmayıldan sonra Şah Təhmasib də bir müddət bu böhranlara düçar oldu. Nəhayət, vəziyyət sakitləşdi. Amma onun vəfatından sonra, h.q. 984-cü ildə İran daxili ixtilaflar, özbəklərin Xorasana hücumu və Osmanlılar Azərbaycanı ələ keçirməsi səbəbindən iyirmi illik böhranlı bir dövr yaşadı. Şah Abbasın hakimiyyətinin son otuz ilində vəziyyət yenidən sakitləşdi.

Bundan əvvəl biz Şah İsmayıl və Şah Təhmasibin fars ədəbiyyatındakı rolundan danışmışdıq. İndi isə ikinci İsmayıla və Şah Sultan Məhəmməd Xudabəndəyə işarə edək. Əldə olan sənədlərdən məlum olur ki, onlar da qismən şer söyləmiş, şairləri himayə etmişlər. Yazırlar ki, «Fiqari Cuveyni

ondan (Xudabəndədən) çox hörmət görüb və İmam Rza əleyhis-salamın hərəmində məqama nail olub.»

Səltənətinin birinci yarısı ora-bura qoşun çəkməklə keçirmiş Şah Abbas da nisbi sakitlik yarandıqdan sonra, hakimiyyətinin ikinci yarısında şairlərə xüsusi diqqət yetirirdi. Bu barədə bir çox tarixi faktlar mövcuddur. Yazırlar ki: «Əqdəsi Məşhədi şahın taxta çıxmasının əvvəlində Qəzvinə getdi. Şah onun şəhərdə olmasından xəbər tutub öz hüzuruna çağırdı.Şerlərindən bəzi parçaları dinləyib öz şəxsi dəftəri üçün bir beyt seçdi və lütf edib ehtiram göstərdi.» Həmçinin yazırlar: «Həkim Rükna Məsih Kaşi Hindistana səfər edənə kimi şahın ən yaxın adamlarından olub.» Tarixi mənbələrdə deyilir: «Ustad şairlərdən olmuş Nizaməddin Əhməd Şərmi Qəzvinini dərzi dükanından çıxardı və İsfahana aparıb, ona maaş müəyyənləşdirdi.» Həmçinin «İsfahanda Səncər Kaşinin tərifini eşitdi və onun saraya gəlməsi üçün İbrahim Adilşah Bicapuriyə şahın fərmanını göndərdi.» Eləcə də «onun əmri ilə təzkirətuş-şüəra[1] yazmaqla məşğul olan Mirəbülbəqa Təfərrüşü, Mirsədrəddin Məhəmməd ibn Şərəfcahan Qəzvini və Nazim Təbriziyə hər il böyük məbləğdə pul verirdilər.»

Sonradan Hindistanda məşhurlaşmış «şairləri qızıla tutmaq» ifadəsi, yəni onlara çəkiləri qədər qızılın verilməsi Şah Abbasdan başlanıb. O ilk dəfə Məlaşaniyə Əmirəl-mömin əleyhis-salam barəsində dediyi bu beytə görə öz çəkisi qədər qızıl verilməsi göstərişini verib. Həmin beyt budur:

*Əgər doşmən keşəd sağər və gər dust*
*Be tağe əbruye mərdaneye ust*

*Yəni: Əgər düşmən və dost başına piyalə çəksə, onun mərdanə qaşının tağına görədir.*

Bu hadisəni eşidən Gülpayiqanlı Yusifi Cərfadiqani də tamahlanaraq bir qəsidə hazırlayır və bir gün şah tövlədə olanda həmin qəsidəni oxumaq fürsəti tapır. Şah deyir: «Məlaşani şerini oxuyanda biz xəzinədə idik və onu qızıla tutduq, sənsə tövləyə gəlmisən, sənə nə edək?»

Təkcə səfəvi şahları deyil, hətta onların əmirlərinin çoxu, eləcə də onların sarayda olan oğlan və qız övladları da şairlərin himayəsində çox fəal olublar. Bütün bunlar həmin dövr şairlərinin hallarının şərhində deyilib. Bunu da unutmaq olmaz ki, Səfəvilərin saraylarının yalnız bir hissəsi fars

[1] şairlərin qısa tərcümeyi-halı və əsərlərindən nümunələr verilən ədəbi əsər

dilli taciklərin əlində idi. Sarayın digər hissəsinə fars dilini cüzi bilən türkmənlər nəzarət edirdi. Ümumiyyətlə onlar edə fars dilindən istifadə etmirdilər. Bu məsələ təbii olaraq Səfəvilərin hakimiyyətlərinin xüsusilə birinci yarısında fars dilinə hərtərəfli diqqətsizliyə öz təsirini göstərmişdir. Əlbəttə, Səfəvi hakimiyyətinin ikinci yarısında həmin türk tayfalarından da şairlər olmuşdur. Onların bəzilərinin tərcümeyi-hallı Vəliqulu Şamlının «Qisəs əl-Xaqani» kitabında verilmişdir.

## *İRANLI ŞAİRLƏRİN HİNDİSTANA MÜHACİRƏTİ*

Səfəvi əsri fars ədəbiyyatı tarixinin qəti gerçəkliklərindən biri budur ki, həmin dövrdə müxtəlif səbəblərdən bir sıra iranlı şəxsiyyətlər, yazıçılar, şairlər və hünər sahibləri Hindistana yollanıblar. Həmin şəxsiyyətlərin çoxu görkəmli şairlər olmuşdur. Onlar fars dilinin Hindistanda yayılaraq genişlənməsində mühüm rol oynamış. Bu gün Hindistan və Pakistanın kitabxanalarında saxlanılan minlərlə farsca əlyazma keçən beş yüz ildə Hindistanda yazılmış nüsxələrdir. Ümumilikdə Səfəvilərin dövründə Hindistana səfər etmiş şairlərin sayı 750-yə yaxındır. Bunun özü diqqəti cəlb edən bir rəqəmdir. Hindistanın fars dilli şairlərinin ilk nəsilləri barəsində düşünülməsi nöqtələrdən biri budur ki, həmin şairlər İranda şair kimi yetişir, sonra Hindistana yola düşürdülər.

Bu mühacirətlərin səbəbi kimi İranda Səfəvi dövlətinin qurulması ilə yaranmış məzhəb böhranı və ictimai böhranı, Səfəvilərdən əvvəlki dövrlərdə şairlər üzən məzhəb təzyiqlərini, Şah İsmayıl zamanının çətinliklərini, şairləri himayə edən şahzadələrin öldürülməsini, özbəklərin Xorasandakı geniş fitnələrini, Osmanlıların İranın qərbinə saysız hücumlarını, Hindistan şahlarının şairləri dəvət etməsini, Şah Abbas hakimiyyətinin ilk dövrlərində olan çətinlikləri və qızılbaş başçılarının öldürülməsini və onlara bağlı şəxslərin bir dəstəsinin İrandan qaçmalasını, bəzi şairlərin dərvişlik yolunu tutub səfərlərə üz tutmasını, səyahət, ticarət, əyyaşlıq, şimali və cənubi Hindistan şahlarının saraylarından bəhrələnmə istəyini göstərmək olar.

Hər halda Hindistan torpağının gözəlliyi və orada olan sərvət İranda dillər əzbəri olmuşdu. Hər bir şair, ədib və vəzir ora getmək həvəsində idi. «Təzkireye meyxanə» əsərinin müəllifi yazır:

Dünyada bu məsəl məşhurdur ki, kimin yolu bir dəfə Hindistana düşsə və o, bu feyz dolu torpaqdan bəhrələnsə, İrana qayıdanda bu diyarın yol və şəhərlərində ölməsə də, həmin torpağın arzusu ilə öləcək.

Bu məşhurluq səbəbsiz deyildi. Hindistanda sərvət və əmin-amanlıq vardı. Yazırlar ki, «Hindistanda fərdi həyat şəraiti daha rahat idi. Xüsusilə mühüm cəhətlərdən biri bu idi ki, kimsəyə sataşan yox idi.» Amma İranda Səfəvi sarayı çox vaxt öz sərhədlərini qorumaq üçün şərq və qərbdə müharibə aparırdı və nisbətən quru, otsuz-susuz ərazilərə malik olduğu üçün elə də rifah və asayiş imkanına malik deyildi. Belə olan halda məlumdur ki, iranlı şairin fikri ona sərvət və şöhrət bəxş edə bilən Hindistanda yanında idi. Elə bu gün də xaricə mühacirətin eyni səbəblərinə şahidik. Hər halda bir şair də belə deyib:

*Həbbəza Hend Kəbeye hacat*
*Xassə yarane afiyətcu ra*
*Hər ke şod mustətie fəzlo honər*
*Rəftəne Hend vacebəst u ra*

**Yəni: Bəh-bəh, Hindistan istəklər Kəbəsidir, məxsusən can sağlığı axtaran dostlar üçün; kimdə bir fəzilət və məharət varsa ona Hindistana getmək vacibdir.**

Əlbəttə, bəzən Hindistana gedənlərə tənə vurulurdu, o cümlədən:

*Dər keşvəre Hind şadiyo ğəm məlum*
*Dər aləme ğəm xatere xorrəm məlum*
*Cayi ke be yek rupiye adəm bexərənd*
*Adəm məlumo qədre adəm məlum*

**Yəni: Hindistanda sevinclə qəm məlumdur, qəm aləmində sevinən qəlblər məlumdur; bir rupiyə adam alınan yerdə insan və onun qədir-qiyməti məlumdur.**

Qeyd etmək lazımdır ki, Hindistanın Dəkən (Bicapur, Gülkundə və Əhmədingər) sarayları, həmçinin oradakı monqol saraylarında məqam əldə etmiş böyük iranlı şəxsiyyətlərin çoxu yeni gələn iranlı şairləri himayə edir və onlara sığınacaq verirdilər. Buna görə də mühacirəti təkcə şairlərə aid etmək olmaz. Bəlkə mühüm cəhət bu idi ki, qitədə mədəni hegemonluğa malik vəzir yetişdirən İran torpağı həmin dövrdə o diyarı idarəçilik bacarığı

olan qüvvələrlə təmin edirdi. Buna görə də, bir yerdə İran «Hindistanın məktəbxanası» adlandırılır. Misal olaraq Mirməhəmməd Əmini göstərmək olar. Onun əsli İsfahan seyidlərindəndir. Onun əmisi bir zamanlar sədr vəzifəsini daşımış Mirzə Rəzidir. O, Dəkəndə, Qolkəndədə Qütbşahın vəziri olub və orada sərvət və imkan əldə edib. O, Məhəmmədqulu Qütbşahın ölümündən sonra onun canişini ilə yola getməyib və «vətən sevgisi, İrana qayıtmaq və İsfahanda keçmiş xoş günlərin arzusu ilə»ölkəsinə qayıdıb və Şah Abbasın hüzuruna gedib. Burada bir məqam əldə edə bilmədiyi üçün yenidən Hindistana qayıtmaq fikrinə düşüb. Bu cür vəzirlərdən istər monqol, istər Kəşmir, istər Dəkən dairəsində çox tapmaq olar.

## *SƏFƏVİLƏR VƏ HİNDİSTANA ŞİƏ MƏDƏNİYYƏTİNİN ÖTÜRÜLMƏSİ*

Bundan sonra İranın Hindistanın monqol dövləti ilə siyasi əlaqələrindən danışacağıq. Bundan öncə şair və ədiblərin Hindistana səfərlərindən danışdıq. Burada diqqət edilməsi lazım olan məsələ İrandan şiə mədəniyyətinin Hindistana ötürülməsidir.

Bu barədə qeyd etdik ki, Hindistanın monqol silsiləsinin iki ən böyük şəxsinin Səfəvi şahlarının tövsiyəsi ilə şiəliyi qəbul etmələrinə baxmayaraq, onlarda məzhəb təəssübkeşliyi yox idi. Buna görə də onların sarayları müxtəlif fikirli iranlı şəxsiyyətlərin get-gəl yeri idi. Hətta Əkbərşahın nəinki məzhəb təəssübkeşliyi, heç dini təəsübkeşliyi də yox idi və o, bütün dinlərin davamçılarına bir gözlə baxmağa çalışırdı. Bu davranış tərzinin özü şiələrin azad fəaliyyətlərinə və onların həmin diyarda məzhəb təbliğatı aparmalarına şərait yaradırdı.

Başqa sözlə, bu tərəfdə çoxlu mədəniyyət xadimləri şiə mədəniyyəti ilə tərbiyə olunaraq daha yaxşı maddi həyat ümidi ilə Hindistana yollandılar və tədricən həmin diyarda şiəliyi yaydılar. Bu səbəbdən də Səfəvilər dövründə Hindistanda İranın dini adət ənənələrinin, xüsusilə şiə əqidə və düşüncələrinin sürətlə yayılmasının və geniş söhbətə ehtiyacı olan ədəbiyyatdan əlavə İranla o diyarın şiələri arasında bir növ əlaqə yaranmasının şahidiyik. Tam aydın məsələlərdən biri budur ki, Hindistana getmiş iranlı mühacirlərin sayı həddindən artıq çox idi və onlar zaman-zaman orada şiə mədəniyyəti və fars ədəbiyyatını yaymışlar.

Hindistanda şiəlik, Səfəvi İranının Hindistanın cənubu ilə mədəni əlaqələrinin nəticəsidir. Monqollar Əfqanıstan vasitəsi ilə Hindistanın şimalına gələrək Dehlidə Monqol səltənəti qurmamışdan bir əsr yarım öncə

Hindistanın cənubunda Dəkən[1] məntəqəsində Bəhməni dövləti hakim idi. Bu sülaləni h.q. 748-ci ildə Əlaəddin Həsən Qonquy qurub. O öz nəsəbinin İranın əfsanəvi şahı İsfəndiyarın oğlu Bəhmənə yetişdiyini dediyi üçün bu sülalə Bəhməni adı ilə məşhurlaşdı. Bu sülalə h.q. 887-ci ilə kimi tam qüdrətlə hakimiyyətdə olub. Lakin sonradan onun müxtəlif bölgələrdəki bəzi əmirləri mərkəzi hökumətin zəifliyi səbəbindən öz müstəqilliyini elan edib. Bu parçalanma bir neçə müstəqil sülalənin, o cümlədən Adilşahlar, Nizamşahlar və Qütbşahlar sülalələrinin təşkil edilməsi ilə nəticələndi. Qütbşahlar sülaləsini Qütbülməlik Həmdani h.q. 918-ci ildə Gülkundə şəhərində yaradıb.

Bu sülalənin Hindistanın cənubunda mövcud olması və onun İranla sıx əlaqələri, Səfəvi dövlətindən sonra oranın bir çox iranlıların get-gəl yerlərindən olmasına səbəb oldu. Dəkənin həmin dövrdəki şəxsiyyətləri arasında Gilani, İsfahani, Şirazi, Astrabadi, Mazandarani və….ləqəbli çoxlu vəzir, əmir və mədəniyyət xadimlərinə rast gəlmək mümkündür.

Bu sülalə ilə ilk siyasi əlaqələri Şah İsmayıl qurub və bəhmənli şahı üçün çoxlu hədiyyələrlə birgə ora səfir göndərib. Tədqiqatçılardan biri şiə Bəhmənilər sülaləsi barəsində belə yazır:

*Bicapur adilşahları və Gülkundə qütbşahları cağatay monqollarının Hindistana daxil olmalarından qabaq şiə idilər və Əhmədəngər nizamşahlıları h.q. 944-cü ildə Əkbər Dəkənə hücum siyasətini icra etməmişdən yarım əsr qabaq şiəliyi qəbul etmişdilər.*

Nizamşah, Şahtahir Hüseyni adlı bir şəxsin vasitəsi ilə şiəliyi qəbul etdi. Hindistanın cənubunda şiəliyin yayılmasından mühüm bir amilə çevrildi. Şahtahir Şah İsmayılın zamanında, barəsində pis güman yarandığı üçün Dəkənə qaçır. Hətta Şah İsmayıl və ondan sonra Şah Təhmasib onu İrana qayıtmağa dəvət etsələr də İrana qayıtmağa razı olmur.

Humayundan sonra monqollar Bicapur, Gülkundə və Əhmədəngərin mərkəzliyi ilə Hindistanın cənubunu da ələ keçirməyə çalışdılar.Bu səylər Əkbərşahın zamanında da davam etdi və o hakimiyyətinin sonlarında Dəkəni öz nüfuzu altına ala bildi. Həmin diyarın yerli hakimləri Şah Abbasdan onların arasında vasitəçilik edərək monqolların həmin diyara daha çox təzyiq göstərmələrinin qarşısını almasını istədilər. Şah Abbas da Cahangirə məktub yazaraq ondan cənuba təzyiqlərin azaldılmasını istədi. Hətta belə təklif irəli sürdü ki, onun əvəzində İranın bir hissəsini ona həvalə

[1] Dəkən sanskrit dilində cənub deməkdir

etsin. Hər halda monqolların təzyiqlərinə və cənubu ələ keçirmələrinə baxmayaraq Şah Abbasın vasitəçiliyi qəbul edildi və cənub dövlətləri yarı müstəqil şəkildə həyatların davam etdirdilər.

Beləliklə Hindistanın cənubu, orada şiəlik geniş nüfuza malik olduğu üçün Cəbəl Amil, İran, Qətif, Ehsa və Bəhreyndən çoxlu alimlər qəbul edirdi.

Qütbşahların arasında şiəliyi möhkəmləndirən şəxslərdən biri də şair və fəqih Mirməhəmməd Mömin Astrabadidir. O, həcc əməllərini yerinə yetirmək məqsədi ilə Qəzvindən Məkkəyə getmiş və ziyarətdən qayıtdıqdan sonra h.q. 989-cu ildə Gülkundədə qalmışdı. O, sürətlə yüksəliş mərhələlərini adlayıb qütbşahlar hakimini şiə etdi. O Aşurxana adlı böyük bir imarət tikdi və h.q. 1001-ci ildə ilk dəfə olaraq orada İmam Hüseyn (ə) ələmi sancıldı. O Gülkundə şəhərinin kənarındakı Heydərabadın şəhər memarlığın çox mühüm təsir göstərib və orada bir məhəllə salıb ki, indi də Mirmömin adı ilə məşhurdur. O, şahı aşura gününün qeyd edilməsindən əlavə İslam və şiə bayramlarının çoxunda bayram keçirməyə və həmin günləri rəsmiləşdirməyə vadar etdi.

Qeyd etdiyimiz kimi qütbşahlar və Dəkənin digər əmirlərinin Səfəvilərlə əlaqələri çox yaxşı idi və bəzən qütbşah sultanları İrandan həmin diyara getmiş iranlı alimləri Səfəvi saraylarına səfir kimi göndərirdilər. Həmin şəxslərdən biri Məhəmməd ibn Xatun Amili idi. O, Məşhəd şəhərində yaşayırdı və özbəklərin hücumu zamanı Xorasanda vəziyyət qarışanda Dəkənə getmişdi. O h.q. 1027-ci ildə Sultan Məhəmməd Qütbşahın Səfəvi sarayındakı nümayəndələrindən idi. Məhəmməd Qəzvində Şah Abbasın hüzuruna yetişdi. O, Şeyx Bəhainin «Ərbəin» kitabını fars dilinə tərcümə edib. Şeyx Bəhai h.q. 1029-cu ildə həmin kitabı təsdiqləyib. Onun bir çox digər əsərləri də var.

Şiə mədəniyyəti və onun İrandan Hindistana ötürülməsindən danışarkən İrandan Hindistana getmiş və şiəliyin təkcə həmin diyarda yayılmasında yox, ümumiyyətlə şiə mədəniyyətinin bütövlüyündə dərin təsirə malik olmuş əzəmətli şəxsiyyət Şəhid Seyid Qazi Nurullah Şüştərinin adının çəkməmək olmaz. Onun ailəsi bir neçə əsr əvvəl Amoldan Hindistana mühacirət edib və sonralar Şüştərdə məskunlaşıb. O h.q. 956-cı ildə Şüştərdə dünyaya gəlib və ibtidai təhsildən sonra daha çox elm əldə etmək üçün Məşhədə gedib. Özbəklərin hücumlarının Məşhədin vəziyyətini çətinləşdirməsi, onu h.q. 992-ci ildə Hindistana mühacirət etməyə vadar edib. O digər şiə alimləri kimi şiə mərkəzi olan Dəkənə deyil, monqolların hakimiyyəti altında olan ərazilərə gedir və ilk əvvəllərdə Əkbərşahın adına

İmam Əli əleyhis-salamın fəzilətləri barəsində bir kitab yazır. Həmçinin öncə barəsində danışdığımız Bayramxanın oğlu Əbdürrəhimin adına da digər bir kitab yazır. O tədricən Əkbərşahın yaxın səhabələri zümrəsinə daxil oldu. Bir az sonra isə Əkbərşah qazı Nurullahı baş qazı vəzifəsinə təyin edir və belə qərara alınır ki, o, öz ictihadı əsasında davransın. O, bu müddət ərzində öz şiəliyini tam aşkar edir və çox güzəştə gedən adam olan Əkbərşah, qazılıq imkanları baxımından onu bu vəzifəyə təyin edir.

Qazı Nurullah Hindistanda şiə düşüncəsinin əsas müdafiəçilərindən biri olub və tam ciddiyyətlə şiənin müxaliflərinin iradlarına cavab verib. Onuncu hicri ilinin əvvəllərində şiəyə zidd yazıçılardan biri Fəzlullah ibn Ruzbehan Xunci olmuşdur. H.q. (927). O, Əllamə Hilliyə cavab olaraq bir kitab yazıb və həmin kitabda şiəliyə kəskin hücum edib. Qazı Nurullah h.q. 1014-cü ildə həmin kitaba cavab olaraq «İhqaqul-həqq» kitabını yazıb. Bu kitab çox dəyərli əsərlərdəndir. Həmçinin ikinci İsmayılın zamanında Mirməxdum Şirazi sünniliyi qəbul edib Osmanlı şahlarının yanına qaçaraq orada Sultan Murad Osmanlının (h.q. 982-1003) adına şiəliyə qarşı «ən-Nəvaqis ələr-Rəvafiz» adlı kitab yazdır. Sonra Qazı Nurullah onun iddialarının rəddi və cavab məqsədi ilə «Məsaibun-nəvasib» kitabını yazıb. Eləcə də onuncu əsrdə Məkkə şəhərində İbn Həcər Hitəmi şiəliyə qarşı «əs-Səvaiqul-mühriqə» kitabını yazır və Qazı Nurullah onun cavabında «əs-Səvarimul-muhriqə» kitabını yazır və şiə məktəbinin ciddi müdafiəçilərindən olduğunu göstərir.

O, h.q. 998-1010-cu illərdə şiə üçün «Məcalisul-möminin» adlı çox gözəl bir ensiklopediya yazıb. Bu əsərdə şiəlik barəsində çox geniş tarixi və ədəbi məlumatlar toplanıb. Qazı Nurullah bu kitabda bəzən çox güclü və bəzən də zəif tarixi dəlillər gətirməklə öz zamanlarında təqiyyə ilə yaşamış bir çox müsəlman şəxsiyyətlər, şairlər və sufilərin şiə olduqlarını üzə çıxarmağa çalışıb. Həmçinin qazı Nurulahdan dostlarının elmi suallarının cavablandırıldığı xeyli məktub qalıb.

Qazının kitabların üzərində adının yazılmamasına çalışmasına baxmayaraq həmin əsərlərin müəllifinin Qazı olması bütün Hindistanda bəlli olmuşdu. Həmin əsərlərin yazılması o diyarın sünnilərini qəzəbləndirib ona qarşı birləşdirə bilərdi. Bu düşmənçiliklər Əkbərşahın onun barəsindəki nəzərinin dəyişməsinə və ona hətta İrana getmək icazəsi verməməsinə səbəb oldu. Seyyid Şəhid özünün Şeyx Bəhaiyə məktublarının birində yazır:

*Bir müddətdir ki, bəxt məndən üz döndərib. Alçaq və bədbəxt Hindistan məni dözülməz çətinliklərə düçar edib. Əkbərşah nəinki məndən öz xeyirxah*

*himayə və nəzərlərini çəkib bəlkə Xorasan və İrana getmək qapılarını mənim üzümə bağlayıb. Mənə qarşı zülm və haqsızlıq artanda və qəm-qüssəm çoxalanda məndə bir anlıq belə təsəvvür yarandı ki, bu Hind Əbu Süfyanın arvadı və Müaviyənin anası olmuş və əziz əmim Həmzənin ciyərini yemiş həmin o Hinddir.*

«İhqaqul-həqq» kitabı yazıldıqdan sonra düşmənçiliklər daha da artdı və nəhayət sünni alimlərinin Qazı barəsindəki etirazlarının monqol hökumətinə sel kimi axmasına səbəb oldu.Əkbərşahın ölməsi və Cahangirin gəlməsi ilə iş daha da çətinləşdi. H.q. 1019-cu ildə Qazını həbs edib tutdular və ona o qədər şallaq vurdular ki, şəhid oldu. Amma buna baxmayaraq Hindistanda şiəlik yaşadı və Hindistana mühacirət edən iranlıların çoxu orada şiə ədəbiyyatını saxlaya bildilər. Qeyd etmək lazımdır ki, şəhid Qazı Hindistanda «üçüncü şəhid» adı ilə məşhurdur.

Deyilənlərdən məlum olur ki, həmin mühit dini elmlərin bütün sahələrində dərin düşüncə baxımından heç vaxt Səfəvi İranında və hətta İraqda olan alimləri yetişdirə bilməmişdir. Əslində Səfəvi dövrünün Hindistanı alimlərə deyil, şairlərə ehtiram göstərən bir yer olmuşdur. Amma İranda alimlər daha çox hörmət və dəyərə malik idilər və həmin səbəbdən şairlərə nisbətən az diqqət yetirilirdi.

Məzhəb baxımından İranla Hindistan arasında olan digər bir fərq budur ki, həmin yerlərdə şiəlik İran və İraqa nisbətdə daha ifratçı şəkil almışdı. Bəlkə də Hindistanın adət-ənələr diyarı olması və həmçinin şiəlik müxalifləri ilə rəqabət aparılması səbəbindən şiələr də ifrata yol vermişlər və bu indi də qalmaqdadır.

## *ŞAH ABBASIN ZAMANINDA İRANIN XARİCİ ƏLAQƏLƏRİ*

Əslində İranın xarici siyasəti iki mühüm məntəqəni nəzərə almaqla proqramlaşdırılırdı. Onlardan biri tarixi İran-Turan əngəllərini xatırladan özbəklər, ikincisi qüdrətli Osmanlı dövləti idi. Bu iki məsələ təqribən Səfəvilərin bütün dövrlərində İranın xarici siyasətinin əsas çətinliyi olub. Elə sonda da Səfəvi dövləti İranın şərqində Qəndəhar nahiyəsindən son zərbəni alıb dağıldı. Demək lazımdır ki, özbəklərin Səfəvilərdən qabaq Xorasanın Türkmənlərin deyil Teymurilərin ixtiyarında olmasını dəlil gətirərək ələ keçirmək istəmələrindən, eləcə də Osmanlıların İranın şimal qərbini ələ keçirmək istəmələrindən əlavə arada məzhəb problemi vardı. Həmin problem qızılbaşların şiə, qeyd olunan dövlətlərin sünni dövlətləri olmasından ibarət idi. Biz bu əlaqələrin izahını geniş şəkildə başqa yerdə

bəyan etmişik. İndi əvvəlcə İranla Hindistan arasındakı siyasi əlaqələrin birinci Şah Abbasın zamanında davamından danışacaq, sonra isə qısa şəkildə İranın avropa ölkələri ilə əlaqələrinə toxunacağıq.

### *ŞAH ABBASIN ZAMANINDA İRANLA HİNDİSTANIN SİYASİ ƏLAQƏLƏRİ*

Bundan öncə iki ölkə arasında Şah İsmayıl və Şah Təhmasibin zamanında mövcud olmuş əlaqələr barəsində qısa məlumat verdik və qeyd etdik ki, h.q. 963-cü ildə Humayunun ölümündən sonra Əkbərşah Dehlidə taxta çıxdı. Əkbərşah Şah Təhmasib Qəndəharı ələ keçirən vaxtdan Səfvilərə görə narahat idi və hətta Şah Təhmasib öləndə İrana nümayəndə göndərmədi.

Xudabəndə kimi məşhurlaşmış Şah Sultanməhəmməd İranda hakimiyyətdə olan zaman hər yerdə qarışıqlıq hökm sürürdü və özbəklər bir daha (h.q. 995-ci ildə) Xorasanı işğal edib Hindistanın monqol hökuməti ilə həmsərhəd oldular. Özbək Abdullahxan Əkbərşahın sarayına qasid göndərərək şiəliyi aradan qaldırmaq məqsədi ilə Səfəvilərə qarşı müqəddəs bir müharibəyə başlamaq və Məkkə yolunu açmaq istəyirdi. Lakin Əkbər onun bu proqramı ilə razılaşmadı. Buna baxmayaraq onların arasında əldə edilən razılaşmaya əsasən Qəndəhar və Kabul İranın ixtiyarından çıxaraq monqolların ixtiyarına keçdi və özbəklər də Əkbər tərəfindən heç bir problemlə qarşılaşmadan Xorasanı işğal etdilər. Qəndəhar Mirzəhüseyn ibn Bəhrammirzə ibn Şah İsmayılın oğulları Rüstəmmirzə və Müzəffərmirzənin ixtiyarında idi və onların Əkbərşahın yanına getmələri[1] ilə bu məntəqə monqolların əlinə keçdi.

Şah Abbas, Səfəvilərlə Hindistan monqolları arasındakı əlaqələr kəsildikdən sonra ilk addımda «sufi təbiətli, saf əqidəli, iş bilən və yağlı dilli şəxs» Yadigar Sultan Rumlunu səfir kimi Əkbərşahın yanına göndərdi. Səfir orada elə də yaxşı qarşılanmadı və yeddi il orada saxlanıldı. Bu işin səbəbi Əkbərşahın Qəndəharın da işini sona çatdırmaq və Səfəvilərin bu barədə danışmağa bir sözlərinin olmamasını istəməsi idi.

Bu hadisədən sonra Əkbərşah h.q. 1005-ci ildə Şah Abbasın yanına bir nümayəndə göndərdi, Qəndəharla bağlı bütün hadisələri və Şah Təhmasibin ölümünə görə başsağlığına nümayəndə göndərməməsini ora-bura yozmağa başladı. Şah da onun əvəzində Hindistana səfir göndərmədi. Həmçinin Şah Abbas Həratı fəth etdikdən bir az sonra h.q. 1006-cı ildə oradan Həratın fəth edilməsi xəbərini çatdırmaq üçün Dehliyə bir nümayəndə göndərdi. Əkbər

---

[1] birincisi 999-cu ildə, ikincisi isə 1004-cü ildə getmişdi

bu səfiri düz dörd il saxladı. Bu münasibət İran sarayına etinasızlıq nişanəsi idi. Axır ki, Əkbərşahın nümayəndəsi h.q. 1011-ci ildə İrana yollandı. Şah Abbas İrəvanı mühasirədə saxladığı vaxt bir neçə ay məəttəlçilikdən sonra etinasızcasına həmin nümayəndəni qəbul etdi. Əkbərşahın nümayəndəsi Əkbərşah ölən il, yəni h.q. 1014-cü ildə Hindistana qayıtdı.

Əkbərşahın canişini oğlu Cahangir idi. O, səltənətdən on il qabaqdan Şah Abbasla yaxşı əlaqələrə malik idi. Onun hakimiyyətinin sonrakı ili Həratda məskunlaşmış qızılbaşlar Qəndəhara hücum etdilər. Lakin monqolların yardımçı qüvvələrinin gəlib çatması ilə geri çəkildilər. Şah Abbas Cahangirə məktub göndərərək bu məsələdən xəbərsiz oldğunu yazdı. Şah Abbasın nümayəndəsi h.q. 1018-ci ildə Hindistana getdi və Cahangir tərəfindən çox yaxşı qarşılandı.

Bu əlaqələrdə olan maraqlı nöqtələrdən biri Cahangirin İrandan aldığı şeylərdir. O, həmin şeylərin alınıb gətirilməsini bəzi tacirlərə tapşırmasa da, Şah Abbas onları özü hazırlayıb göndərdi. Cahangirə göndərilən şeylərdən biri də Ələğbəy Teymurinin əsl rəsədxana aləti idi.

Şah Abbasla əlaqələri artıq çox yaxın və ali səviyyədə olan Cahangir çox maraqlı bir addım ataraq öz sarayının görkəmli simalarından olan Xan Aləm Mirzə Bərxurdarı çoxlu xidmətçi, nökər, mal və hədiyyələrlə birlikdə böyük bir karvanla İrana göndərdi. O İrana çatanda ətrafında yeddi-səkkiz yüz adam var idi. İsgəndərbəy yazır:

*«Xan Aləm Qəzvinə daxil olan zaman bu sətirlərin müəllifi şəhərdə qaldı və onun zahiri təm-taraqını müşahidə etdi. Dünya görmüş adamlardan eşitdi ki, bu nəslin hakimiyyətinin əvvəlindən indiyə kimi Hindistandan, hətta heç Rumdan İrana belə dəbdəbəli, təmtəraqlı, nökər-*qululqçulu *karvan gəlməyib.»*

Şah Abbas da h.q. 1027-1029-cu illər arası İranda olan bu nümayəndəyə Can Aləm ləqəbi verdi və onu özünə qardaş adlandırdı. Xan ilə birlikdə İrana gəlmiş rəssam Şah ilə Cahangirin birlikdə şəkillərin çəkdi və Cahangir həmin şəkili çox bəyəndi.

Bu heyətə cavab olaraq Şah Abbas öz saray adamlarından Zeynalbəy adlı birini çoxlu hədiyyələrlə Hindistana göndərdi və o da Hindistanda çox yaxşı qarşılandı. Bu səfərdə təzə olan məsələ Qəndəhar məsələsi idi. Şah Abbas onu öz hakimiyyəti altına qaytarmaq istəyirdi. Cahangir Zeynalbəyin istəyini qəbul etmədi. Digər tərəfdən Şah Abbas h.q. 1031-ci ildə Qəndəharı ələ keçirmək üçün öz ciddi hərbi planını gerçəkləşdirdi. Cahangir bu addımın müqabilində heç nə etməyə qadir deyildi. O Şah Abbasın Qəndəhar

barəsindəki məktubunun cavabında yalnız bu məsələyə işarə etdi ki, Qəndəharın Səfəvilərə qaytarılması barəsində onunla heç nə danışılmayıb. O, məktubunda bu məsələyə də təkid etdi ki, hətta Qəndəhar alınsa belə özünün Şah Abbasla əqaqələrini pozmayacaqdır. 1035-ci ildə İranın yeni nümayəndəsi Lahurda Cahangirin hüzuruna getdi və yaxşı qarşılanaraq çoxlu hədiyyələrlə geri qaytarıldı.

Səfəvilərlə eyni zamanda Dəkəndə olmuş monqol şahları:

| | |
|---|---|
| Zəhirəddin Babir | 932-937 |
| Humayunşah | 937-963 |
| Cəlaləddin Məhəmməd Əkbərşah | 963-1014 |
| Cahangirşah | 1014-1037 |
| Şahcahan | 1037-1068 |
| Orəng Zib | 1068-1119 |
| Birinci Şahaləm | 1119-1124 |
| Cahandar | 1124-1124 |
| Fərruxsir | 1124-1131 |
| Şəmsəddin Rəfiuddərəcat | 1131-1131 |
| İkinci Şahcahan | 1131-1132 |

947-962-ci illər arasında qüdrət Humayunun əlində olmayıb.

## *BİRİNCİ ŞAH ABBASIN ZAMANINDA İRANLA AVROPANIN ƏLAQƏLƏRİ*

### İRAN VƏ PORTUQALİYA

Bundan öncə qeyd etdik ki, Fars körfəzi və Hürmüzdə yerləşmiş ilk xarici qüvvə portuqaliyalılar olublar. Portuqaliyanın bəzi səfirlərinin Şah Təhmasiblə görüşləri barəsində danışaraq dedik ki, ikinci Şah İsmayılın zamanında da portuqallar tərəfindən Qəzvinə səfirlər gəlmişdilər.

Şah Abbas öz daxili çətinliklərini həll etdikdən və özbəkləri Xorasandan geri oturtduqdan sonra, bir daha portuqallarla əlaqələr məsələsi gündəmə gəldi. İlk məsələ bu idi ki, portuqallar Hürmüz ilə kifayətlənməyərək tədricən nüfuzlarını Bəhreyndə də gücləndirirdilər. Portuqalların komandanı Hürmüzün hakimini oyuncağa çevirməklə yanaşı, Bəhreynə də müdaxilə etmişdi. Hörmüz əmirinin Bəhreyndəki kargüzarı onların nüfuzunun qarşısını almaq üçün farsın bəylərbəyi Allahverdixandan kömək istədi. O da

bir qoşun göndərdi və h.q. 1009-cu ildə Bəhreyni tam alaraq Səfəvi dövlətinin ixtiyarına verdi. Bu xəbər Hürmüzə çatanda portuqalların kapitanı qızılbaşları Bəhreyndən qovub çıxarmaq üçün qüvvə göndərdi. Amma onlar bir iş görə bilmədilər və «heç bir nailiyyət əldə etməmiş geri qayıtdılar».

Allahverdixan sonra Bəndər Cərunu – sonrakı Qəmbərun və ya Bəndər Abbası mühasirəyə aldı. Amma sonra Hindistandan portuqalların döyüş gəmilərinin körfəzə gəlməsi xəbəri çatanda şah göstəriş verdi ki, qızılbaş qüvvələri Bəndər Cərununun mühasirəsindən əl çəksinlər.

Bu macaradan sonra Antoniyo Do Quvuhanın başçılığı altında bir neçə portuqallı xristian keşişi h.q. 1011-ci ildə Məşhəddə şah ilə görüşdülər və Səfəvi sarayının nümayəndələri tərəfindən qəbul olundular. Onlar ilk növbədə xristianlığın yayılması üçün dini təbliğat icazəsi, həm də Bəhreyn hadisələrindən sonra iki ölkə arasındakı əlaqələrin möhkəmləndirilməsini istəyirdilər.

Maraqlıdır ki, bundan az sonra papa tərəfindən göndərilmiş digər bir heyət də İrana gəldi. Onlar İspaniya padşahı Filipdən bir məktub gətirmişdilər. Mövcud vəziyyətdə bu heyətlər arasında fikir ayrılığı yarandı və onlar bir-birləri ilə dava-dalaşa başladılar. Şah onlara dedi: «İndi İranda dini fəaliyyət göstərmək imkanı yoxdur, çünki müsəlmanlar bundan qıcıqlanaraq xristianları öldürə bilərlər. Yaxşısı budur ki, siz qayıdıb dövlətlərinizi türklərlə müharibəyə hazırlayasınız. Qələbədən sonra dini fəaliyyət göstərmək mümkün olacaq!» Bildiyimiz kimi, həmin vaxt Şah Abbasın ən mühüm çətinliyi Təbrizin və ölkənin şimal qərbinin osmanlılar tərəfindən işğal edilməsi idi.

İspaniya səfir və nümayəndələrinin İrana get-gəlləri davam edirdi. Onların h.q. 1013-cü ildə İrana gəlmiş heyətlərindən birinin işi İranla osmanlılar aasındakı sülhə mane olmaq idi. Onlar çalışırdılar ki, Şah Abbası osmanlılarla müharibəyə vadar etsinlər. İspaniya hələ də özünün Fars körfəzindəki nüfuzu haqqında düşünürdü. Hörmüz məntəqəsini qorumaq üçün bölgəyə döyüş gəmiləri göndərildi. Osmanlıları Təbriz, İrəvan və Naxçıvandan qovub çıxardıqdan sonra avropalılardan istifadə etmək fikrində olmayan və digər tərəfdən Fars körfəzini avropalıların caynağından qurtarmaq barəsində düşünən Şah Abbas İspan səfirlərinə etina göstərmədi. H.q. 1022-ci ildə Cərun limanı İmamqulu xanın əlinə keçdi. H.q. 1027-ci ildə İranla osmanlılar arasında sülh qətiləşdikdən sonra İranla İspaniyanın əlaqələri yenə sərinləşdi. Çünki Şahın artıq portuqal və ispanların köməyinə

ehtiyacı yox idi. Digər tərəfdən şah Fars körfəzində portuqalların kökünü kəsmək niyyətində idi.

Bu macarada Şah məntəqəyə yeni gəlmiş və portuqallarla rəqabətdə olan ingilislərdən də istifadə edə bildi. Beləliklə Şah Fars körfəzində qızılbaş qüvvələrindən əlavə ingilislərin qüvvələrinə də ümid bəsləyə bilərdi.

İranın milli qəhrəmanlarından olan, portuqallarla mübarizə qəhrəmanı, Farsın bəylərbəyi İmamqulu xan h.q. 1031-ci ildə portuqalları qovub çıxarmaq üçün Hürmüzə bir qoşun göndərdi. Bu məsələ o vaxt baş verdi ki, «avropalılardan dəfələrlə itaətsizlik və uyuşmazlıq nişanələri zahir olmuş və onlar üsyankar müsəlmanlarla pis davranmışdılar». Bundan əlavə onlar qala tikərək Hürmüz məntəqəsinin şirin su mənbəyi olan Qişm adasını öz əllərinə almışdılar. Bundan öncə portuqalların rəqibləri olan İran və ingilis qüvvələri arasında portuqalları birlikdə Fars körfəzindən qovub çıxarmaq barəsində müqavilə imzalanmışdı. Buna görə də hücuma iranlı qüvvələr qurudan, ingilislər isə dənizdən girişdilər.

Bu hücumda əvvəlcə Qişm adası qızılbaşların əlinə keçdi. Həmin ilin Rəbiul-əvvəl ayında Hörmüz mühasirəyə alındı. Portuqallılar əvvəlcə müqavimət göstərdilər. Lakin qızılbaş qüvvələrinin möhkəm iradəsi qarşısında tab gətirə bilmədilər.

İran və ingilis qüvvələri birlikdə portuqallara hücum etdilər. Müqavimət göstərməyin faydasız olduğunu görən portuqallılar təslim oldular, mal və avadanlıqlarını gəmiyə yığaraq bölgəni tərk etdilər. Portuqalların avropanın misilsiz toplarından olan bir neçə topu müharibə qəniməti qismində şaha göndərildi. Yazırlar ki, Nəqşi-cahan meydanında irili-xırdalı səksən top nümayiş etdirildi. Şah Süleymanın (h.q. 1077-1105) dövründə toplar həmin meydanda saxlanılırdı. Hürmüz qalası da İmamqulunun əlinə keçdi. Lakin şəhərin yarısı ingilislərin ixtiyarına verildi ki, orada məskunlaşaraq ticarətlə məşğul olsunlar. Sonralar da Hürmüzü ələ keçirməyə çalışıb bir şeyə nail ola bilməyən portuqallar Səfəvi dövləti ilə münasibətlərini yaxşılaşdırmağa çalışdılar. Bundan sonra ticarət etmək icazəsi alaraq Ləngə linmanının yaxınlığındakı Küng limanında qala və ticarət yeri tikdilər.

## *ŞAH ABBAS VƏ İNGİLİSLƏR*

Şah Təhmasibin vaxtında bir neçə ingilis heyəti Rusiya yolu ilə İrana gəlmişdi. Şah Abbasın səltənəti dövründə, h.q. 1006-cı ildə ilk ingilis heyəti Məşhəddə Şah ilə görüşdü. Bu heyətin tanınmış üzvləri Şerli qardaşları – Antoni və Rabert idi. Onlar İrana ticarət və səyahət məqsədi ilə gəlmişdilər.

Onlar bir neçə il İranda qaldıqdan sonra Antoni Şerli bir qızılbaş iranlı heyətində on iki çatlı heydəri papağı ilə Şahın səfiri kimi Avropaya getdi. Bu iki qardaşın öz heyətləri ilə olan səfər təəssüratları «Şerli qardaşlarının səfərnamələri» adı ilə qələmə alınıb. Kitabda İran, iranlıların xasiyyətləri və həmçinin həmin dövrdə iranın ictimai vəziyyəti barəsində çoxlu mətləblər var. Əlbəttə onda əsası olmayan mətləblər də çoxdur.

Dəfələrlə demişik ki, İran həmin illərdə Osmanlı dövlətinin işğalı altında olduğu üçün Şah Abbas osmanlılara qarşı çox qəzəbli idi. Onları iyirmi il işğal altında saxladıqları Təbrizdən qovub çıxarmaq üçün avropalılardan kömək almaq istəyirdi. Buna görə də oranın şahlarına dostluq məktubları göndərir və onları osmanlılara qarşı müharibəyə təhrik edirdi. Bəzən də onlarla olan şəxsi məclislərdə qətiyyən səmimi olmayan və yalnız siyasi məqsədlər daşıyan sözlər deyirdi. Misal üçün həmin Şerli deyir ki, Şah ona deyib ki, «bir xristianın ayaqqabısının nalı mənim nəzərimdə osmanlıların ən yaxşı şəxsindən də üstündür». Biz bundan öncə demişdik ki, şah osmanlılarla sülh şəraitində olan zaman dəfələrlə onların avropa kafirləri ilə müharibə etmələrindən razı və məmnun olduğunu bildirmişdi. Bu münasibətin digər Səfəvi şahları barəsində də təkrarlandığını görəcəyik.

Şerli qardaşlarının iddialarından biri budur ki, İran qoşunlarının texniki təchizatına onlar çox böyük kömək göstəriblər. Onlar öz köməklərindən elə danışırlar ki, sanki onların gəlişindən qabaq qızılbaş ordusu top və ondan istifadə ilə qətiyyən tanış olmayıb. Bu iddia tamamilə səhvdir. Çünki tarixi mənbələrdə Şah İsmayılın zamanından, xüsusilə Şah Təhmasibin zamanından bu tərəfə top, topçu və bu kimi şeylərdən çox danışılıb və onlardan bəzilərini biz də bu kitabda yada salmışıq. Məlumdur ki, həmin vaxt bu iki qardaş və onlarla olan şəxslərin iştirakı ilə topxana bölməsi üzərində ciddi işlər görülüb və həmin bölmə genişləndirilib.

Şah, Antoni Şerliyə o qədər inanırdı ki, onu Hüseynəlibəylə birlikdə öz nümayəndəsi kimi avropaya göndərdi. İranın osmanlılar tərəfindən işğalı zamanı edilən bu səfərdə məqsəd avropalıları bir-birləri ilə birləşərək osmanlı türklərinə qarşı müharibəyə dəvət etmək idi.

Bu heyət öz səfərini Rusiyadan başladı. Sonra Almaniyaya getdi və oranın şahı Rudolf tərəfindən qarşılandı. Həmin dövrdə bəzi avropa ölkələri osmanlı dövləti ilə danışıqlar aparırdı və ümumiyyətlə avropalılar osmanlı dövlətindən çox qorxurdular. Buna görə də İran şahının təklifi elə də qəbul olunacaq bir təklif kimi görünmürdü. Bundan əlavə, avropa ölkələrinin bir-birləri ilə ixtilafları o qədər dərin idi ki, onları bu sadəliklə aradan qaldırmaq

və müştərək düşmənlərinə, yəni osmanlılara qarşı birləşdirmək mümükün deyildi.

Antoni Şerli digər iranlılarla birlikdə Romaya yollandı. Orada Şerli ilə Hüseynqulubəy arasında fikir ayrılığı yarandı və bundan sonra Şerli həmin heyətdən ayrıldı. Hüseynqulubəy heyətlə birlikdə İspaniyaya getdi. Oradan qayıdarkən hələ həmin ölkənin sərhədləri daxilində bir xristian keşişi onlarla birgə olan ruhanini bıçaqlayaraq öldürdü. Bu problemi daha da qabardan digər bir cəhət heyət üzvlərindən üç nəfərin xristian olması idi. Axır ki, bu nümayəndə avropadan əliboş qayıtdı.

Bu macaradan sonra Şah Abbas Antonyonun qardaşı Roberti nümayəndə kimi göndərdi və o bir neçə avropa ölkəsinə səfər etdi. Bu uzun-uzadı səfər on iki ilə yaxın (h.q. 1011-1023) çəkdi. Bu səfər zamanı Şahın avropanın müxtəlif şahlarına hədiyyə və sifarişləri çatdırıldı. Robert Şerli bundan sonra da İran Şahı tərəfindən başqa bir məmuriyyəti yerinə yetirir. O, İngiltərədə İranla bu ölkə arasındakı müqavilənin təsdiqlənməsi istiqamətində danışıqlar aparır. Guya İrandan gələn digər bir nümayəndə onunla əsassız müxalifət edir. Sonda İngitərə Şahı göstəriş verir ki, onların hər ikisini İrana qaytarısınlar.

Portuqallara qarşı mübarizədə İranın ingilislərin şərqi Hindistan şirkəti ilə birləşməsi ingilislərin ayaqlarını İrana açdı. İpək ticarəti ilə məşğul olan ingilislər vergilərdən azad olmaq barəsində bəzi imtiyazlar əldə etdilər və İrana get-gəlləri çoxaldı.

Bu dəfə ingilislərin Şah Abbas zamanındakı nümayəndəsi Katun (h.q. 1037-ci ildə) İrana gəldi. Danışıqların əsas mövzusu ticarət, xüsusilə İrandan ipək apararaq əvəzində ingiltərədən qalın yun parça idxal etmək idi. Keçirilən görüşlərdə Şah Abbas yenə də xristianların osmanlılara qarşı birləşməsindən danışdı. Dedi ki, on beş döyüşdə osmanlılara nanəcib olduqlarını, iranlıların isə çox güclü və şücaətli olduğunu göstərib. İpək ticarətini tam şəkildə öz əlində inhisarlaşdırmış Şah ildə İngiltərəyə bir miqdar ipək verib əvəzində qalın ingilis yun parçası almaq barədə razılıq əldə etdi.

Həmin nümayəndənin qeydlərindən məlum olur ki, Şah onlarla yalnız bir dəfədə görüşüb və bundan sonra heç kəs onların görüşünə gəlməyib. Həm Şerli və həm də Katun İranda ölüblər. Katun Qəzvinin erməni qəbristanlığında dəfn edilib, Şerlinin cəsədi isə onun həyat yoldaşının vasitəsi ilə h.q. 1039-cu ildə İrandan çıxarılaraq Romaya aparılıb. Onun

həyat yoldaşı çərkəs xristianlarından olub və müsəlmançılığı qəbul edib. Sonra yenidən xristian olub və Şerliyə ərə gedib.

Şah Abbasın zamanından sonra İran təkcə İngiltərə ilə deyil, digər avropa ölkələri ilə də əlaqə qurmağa başladı. Bu ölkələr Almaniya, Hollandiya, Polşa və İtaliyadan ibarət idi. Onların əhalisinin bir hissəsi yeni əsrin əvvəllərində dünyanın müxtəlif nöqtələrinə, o cümlədən İrana gəliblər. Səfəvi əsrində İrana gəlmiş avropalı turistlərin qeydiyyatlarından məlum olur ki, ümumilikdə onların böyük bir hissəsi Şah Abbasın zamanında İsfahanda olublar. Şah Abbasın onlarla xoş davranması, bu xoş davranışı sonralar da davam etdirməsi, onların ticarət sahəsində əldə etdikləri imtiyazlar onların bir çoxunda İrana get-gəl etməyə maraq yaradıb.

## *XRİSTİAN MİSSİONERLƏRİN İRANA GƏLİŞİNİN BAŞLANĞICI*

Şah Abbas sarayının Avropa ilə əlaqələri, Fars körfəzində olan portuqallar və ingilislərlə əlaqələri çıxandan sonra, ən çox Vatikanla olub. Bu əlaqənin əsasını Vatikanın xristianlığı təbliğ etmək və təkcə İrana deyil, bəlkə Asiya və afrikanın mümkün olan hər yerinə təbliğatçı missioner dəstələr göndərmək təlaşları təşkil edirdi. Əslində avropalıların yeni ticarət məntəqələri və öz malları üçün bazar axtarışları, daha doğrusu, müstəmləkəçilik hərəkatlarının başlanması ilə eyni zamanda katolik kilsəsi və ondan sonra protestantlar xristianlığı yaymağa başladılar.

Həmin dövrdə keşişlər cəmiyyətin savadlı və görkəmli şəxsiyyətləri olduğundan xristianlığın təbliğatı üçün İrana gələn şəxslər, adətən, həm də siyasi işlər görürdülər. Əlbəttə, bu kütləvi hal almırdı və tacir olan digər şəxslərin siyasi işlər görmələri də mümkün idi. Lakin mühüm məsələ bu idi ki, müstəmləkəçiliklə təbliğat işi çiyin-çiyinə birlikdə başlandı və avropalıların siyasi nümayəndə heyətlərinin çoxu ya bir keşişin başçılığı altında olurdu, ya da həmin heyətlərdə bir neçə keşiş olurdu. Həmçinin bağlanılan müqavilələrdə ticari məsələlərlə yanaşı təbliğat işlərinə də toxunulurdu.

Hər halda bu məsələ Şah Abbasın Vatikanın vəziyyəti və papanın mövqeyi barəsində bir sıra məlumatlar əldə etməsinə şərait yaratdı. Tədricən iki tərəf arasında məktublaşmalar başladı. Bu məktubların çoxu indi də qalmaqdadır və hətta onların bəziləri «Aləm araye Abbasi» adı iəl İran tarixində yer alıb. Onların məzmununu çox vaxt Vatikanın İran şahından keşişlərə öz dini vəzifələrinə əməl etmək üçün şərait yaratması istəyi təşkil edirdi. Həmin

vəzifələr ilk növbədə İsfahan ermənilərinin katolikləşdirilməsi, ondan sonra isə xristianlığın digər insanlar arasında yayılmasına şərait yaradılması idi.

Ümumilikdə demək olar ki, Şah Abbas və ondan sonrakı Səfəvi şahları həm Culfada yaşayan ermənilər, həm də avropalı nümayəndə və keşişlərin qarşısında bir növ yumşaqlıqla davranırdılar. Bu cür davranış Şahın rəiyyəti olan və çoxu Şah üçün ticarət edən tacirlərdən ibarət Culfa erməniləri üçün çox sərfəli idi. Hətta o yerə kimi ki, onların kilsələlərinin tikilməsinə şah özü nəzarət edirdi və onlara lazım olan imkanı yaradır, fərmanlar imzalayırdı.

Bu rəftar siyasi məqsədlər daşımaqla yanaşı, zimmə əhli ilə davranış barəsindəki islami baxışlardan qaynaqlanırdı. Onun bir səbəbi də Şahın şəxsi xarakteri və həmçinin iranlıların ruhiyyələri idi. Onlar xaricilərə daha çox ehtiram göstərirdilər. Bunun müqabilində osmanlı türkləri avropalılara qətiyyən ehtiram göstərmirdilər. Səbəb onların Avropa ölkələri ilə birbaşa müharibə halında olmaları idi. Şah isə onlara o qədər ehtiram göstərirdi ki, orada olan keşiş Şahın xristian olmaq istəyini düşünürdü. Əlbəttə, bu çox sadəlövh bir güman idi. Şah Abbas əslində «İran torpağında hər bir kəs öz dinində azaddır; Şah din və məzhəbindən asılı olmayaraq öz rəiyyətlərinin hamısını bərabər sevir» siyasəti ilə tanınmaq üçün bu işə meyl göstərirdi. Həmçinin Şah müqəddəs kitaba və hətta xaça maraq göstərmək və onlarda müsbət səciyyələrin olmasını bildirməkdən də çəkinmirdi. Bir dəfə keşişlərin birinə deyir ki, müqəddəs kitabın Zəbur hissəsini fars dilinə tərcümə etsin. Şah Zəburun fars dilinə tərcüməsinin daha yaxşı çıxması üçün həmin keşişə üç iranlı ruhani və bir yəhudi mollası da qoşur.

Şahı hər şey ilə maraqlanan və dini sayasətdə Hindistandakı Əkbərşahdan təsirlənmiş hesab etmək də olar. Hərçənd ki, hətta bu cəhətdən də bu iki şəxs arasında çox fərq var. Çünki Şah öz məzhəb təəssübkeşliyini şəxsi və bəzən ümumi mülahizələrə görə heç cür gizlətmirdi.

Digər tərəfdən Şah xristian keşişlərinə görə heç cür narahatçılıq keçirmirdi. Həmin dövrdə əslində belə bir nigarançılığa əsas da yox idi. Xristian keşişlər nəinki müsəlmanları hətta erməniləri ram edərək onları katolik və ya protestan etməkdə heç cür müvəffəqiyyət əldə etmədilər. Əqli məsələlər və cavab yazmaqla tanış olan iranlılar yeni fikirlərlə qarşılaşanda ondan baş çıxararaq onunla dərindən tanış olmağa çalışırdılar. Buna görə də xarici icmalçılar bildiriblər ki, iranlılar dini məsələlər barəsidə mübahisə etməkdən əsla çəkinmirlər.

Xristian keşişlərin İrandakı təbliğatları bir az genişlənəndə və onların Hindistanda İslam əleyhinə yazdıqlrı bəzi əsərlər iranlı alimlərin əlinə düşün zaman alimlər arasında həmin əsərlərə qarşı etiraz dalğası yarandı. Bunun arxasınca İranda şiə alimləri xristianlığa qarşı kitablar yazdılar.

Xristian düşüncəsinə qarşı fars dilində yazılmış ilk əsərlərdən birinin müəllifi Şah Abbas əsrinin çox böyük alimi Mir Damadın kürəkəni Seyyid Əhməd Ələvi Amilidir. O, bu məqsədlə «Ləvami Rəbbani dər rədde şubəhe nəsrani», «Məsqəle səfa dər rədd bər ayine həqqnəma» və «Ləməate mələkutiyyə» adlı üç kitab yazmışdı. Bu kitablar o qədər təsirli olmuşdu ki, həmin dövrün keşişlərini onlara cavab yazmağa vadar etmişdi.

## *İRANIN RUSİYA İLƏ ƏLAQƏLƏRİ*

İranın çar Rusiyası ilə əlaqələri Şah Abbasın zamanından başlanıb. Bu əlaqələrə şərait yaradan səbəblərdən biri Şah Abbasın Gilanda qarşılaşdığı çətinliklər, yəni Xan Əhmədin Gilanda olması və ruslarla əlaqədə olması idi. Axır ki, Şah Abbasın çara məktub aparan ilk elçisi h.q. 1000-ci ildə Rusiyaya yollandı. Şahın məktub və çoxlu hədiyyələrlə göndərdiyi Hacı Xosrov adlı ikinci nümayəndəsi isə h.q. 1002-ci ildə qarşılandı. Onun məqsədi Rusiyadan zireh almaq barəsində danışıqlar aparmaq və Rusiyadan Osmanlılarla müharibədə istifadə etmək idi.

Sonrakı il ruslar Şah Abbasın məktubunun cavabını gətirən bir heyət göndərdilər. Şah Abbas bu heyətə həddindən artıq ehtiram göstərdəi və çarın nümayəndəsini dəfələrlə qəbul edib müxtəlif məclislərə qoşdu. İsgəndərbəy çarın bu nümayəndə heyətinin İranda olması və şahın onları qarşılaması barəsində danışıb. O yazır ki, rusun nümayəndəsi qayıdarkən Qurçu Türkmən hədiyyələrlə İranın nümayəndəsi kimi rusların heyəti ilə birlikdə Moskvaya göndərildi.

H.q. 1006-cı ildə Rusiyadan İrana digər bir heyət gəldi. Həmin heyəti təşkil edən 75-nəfərdən yalnız 37 nəfəri Qəzvinə salamat çata bildi. Daha maraqlısı budur ki, qayıdanda da onun üzvlərinin hamısı öldü və onlardan Rusiyaya yalnız iki nəfər salamat qayıtdı. H.q. 1009-cu ildə İrana digər bir heyət göndərildi. Onu yeni çar Qudonov göndərmişdi. O bu heyəti göndərməklə daha ciddi və geniş əlaqələr qurulmasını istəyirdi. Qeyd etmək lazımdır ki, Rusiyada ilk islahat işləri bu çarın zamanında başladı.

Az bir müddətdən sonra Rusiyada vəziyyət qarışdı və h.q. 1022-ci ildə Rusiyanın son çarı Romanovlar sülaləsi iş başına gələnə kimi sakitlik bərqərar olmadı. Lakin ondan sonra Rusiyanın nümayəndəsi h.q. 1023-ci

ildə İrana gəldi və ikitərəfli əlaqələr barəsində çox geniş danışıqlar aparıldı. Bu əlaqələr məhdud şəkildə davam etdi. Danışıqların mövzusu qarşılıqlı dostluğu bildirmək və rusların gürcülər üçün vasitəçilik etməsindən başqa bir şey deyildi. İsgəndərbəyin yazdığına əsasən h.q. 1027-ci ildə Rusiyadan gəlmiş heyət Qəzvinin Səadətabad meydanında Şah Abbasın hüzuruna daxil oldu. Onlar «rus çarından hədiyyələr və Moskva sovqatları» gətirmişdilər. İsgəndər bəyin yazdığına əsasən «onlar doğrudan da qəribə töhfələr və gözəl hədiyyələr idi».

Aydındır ki, Rusiyaya yaxınlığa görə bu əlaqələr ən tez vaxtda genişləndirilməli idi və belə də oldu.

## ŞAH SƏFİ VƏ İKİNCİ ŞAH ABBASIN DÖVRÜ

### *ŞAH SƏFİ ŞAHLIQ TAXTINDA*

Səfi Mirzənin oğlu Sam Mirzə Şah Abbasın oğul nəslindən qalmış yeganə şəxs idi. Şah yalnız onun səltənətinə ümid bağlaya bilərdi. Atasının qatilinin babası Şah Abbasın nahaq istəklərdə olduğunu düşünən bu gənc səltənətə gəldikdən sonra özünə atasının adını götürdü və «Şah Səfi» ləqəbi ilə məşhurlaşdı. On səkkiz yaş astanasında olan Şah Səfi on dörd ilə yaxın İranın idarəçiliyini əlində saxladı. Səltənətinin başlanğıcı h.q. 1038-ci ilin cəmadiyus-sani ayına, şahın ölümü isə h.q. 1052-ci ilin səfər ayına (Kaşanda) təsadüf etdi. Ölümündən sonra onun qəbrinin gizli qalması üçün üç cəsədi müxtəlif yerlərə birini Nəcəfə, birini Məşhədə və birini də Quma göndərdilər.

### *ŞAH SƏFİNİN SƏFƏVİ SÜLALƏSİNƏ MÜNASİBƏTDƏ CİNAYƏTLƏRİ*

Şah Səfi öz ailə üzvlərinə qarşı yol verdiyi cinayətlərə görə tarixin ən daşürəkli şahlarından birinə çevrildi. Bu xasiyyət ona bir miqdar ikinci İsmayılın davranışından, həmçinin elə Şah Abbasın özündən keçmişdi. O özünün on üç il yarımlıq hakimiyyəti dövründə demək olar ki, Səfəvi nəslinin bütün üzvlərini, əmirlərin çoxunu, hətta öz arvadını və qızını öldürdü, bu sülalənin adına elə bir ləkə yaxdı ki, onu təmizləmək qeyri-mümkündür.

O göstəriş verdi ki, Ələmutda yaşayan Məhəmmədmirzə və İmamqulu adlı iki kor əmisini qalanın başından atsınlar. Onun dəlili bu idi ki, «kor olduqları üçün vücudları faydasızdır». Bunlardan əlavə İmamqulu Mirzənin oğlu Nəcəfqulu Mirzə, eləcə də Süleyman Mirzə Şah Səfinin göstərişi ilə öldürüldülər.Həmçinin Mirzə Möhsün Rəzəvinin oğlu və Şah Abbasın qız nəvəsi Əbülqasim Mirzə h.q. 1041-ci ildə Şah Səfinin göstərişi ilə kor edildi. Eləcə də Şah Abbasın digər bir qız nəvəsi Şahın göstərişi ilə Məşhədin hakimi Mənuçehrin vasitəsi ilə kor edildi.

Şah Abbasın cəbbəxana rəisi İsaxanın həyat yoldaşı olan digər bir qızı Zübeydəxanımın üç uşağı h.q. 1041-ci ildə Şah Səfinin göstərişi ilə öldürüldü. Şah sonradan onun ərini də öldürdü. Həmçinin Şah Abbasın öz zamanda etimadud-dövlə olmuş digər kürəkəni Xəlifə Sultanın dörd uşağının gözü Şah Səfinin göstərişi ilə kor edildi. Şah Abbasın sədrlərindən

olmuş digər bir kürəkəni, qızı Hurabəyimin əri Mirzə Rəzinin də dörd uşağının gözü elə həmin il kor edildi.

Şah Abbas zamanının ən böyük əmirlərindən biri Allahverdixanının oğlu İmamqulu xan olub. Fars sahillərinin Fars körfəzinə kimi olan məntəqələrinin hakimiyyəti illərlə bu ata-balanı əlində olub. Onlar hakimiyyətdə olduqları illərdə Səfəvi sülaləsinə çox xidmətlər göstəriblər və çoxlu sərvət toplayıblar. Əvvəlcə Qarabağın hakimi İmamqulu xanan qardaşı Davudxan müxalifət etməyə başladı və ondan sonra Gürcüstanın hakimi ilə birləşərək Şah Səfiyə qarşı qiyam qaldırmaq istədi. Onun ümidi qardaşı İmamqulu xana idi. İmamqulu xanın Səfiqulu xan adlı bir oğlu da var idi. Deyilənlərə görə bu oğlan Şah Abbasın oğlu olub. Belə ki, onun anası Şah Abbasın kənizi olub və Şah onu İmamqulu xana bağışlayıb. Altı aydan sonra isə Səfiqulu dünyaya gəlib.

Bütün Səfəvi şahzadələrini öldürmüş Şah Səfi bu şəxsin sultan kimi təqdim olunmasından qorxaraq Farsın bəylərbəyi olan İmamqulu xanı öldürmək qərarına gəldi. O İmamqulunu paytaxta çağırtdırdı. Özünü heç bir məsələdə günahkar hesab etməyən İmamqulu xan üç oğlu ilə birgə Şah Səfinin yanına gəldi. Şahın göstərişi ilə əvvəlcə onun üç oğlunun başını kəsib atalarının yanına gətirdilər və sonra xanın özünü öldürdülər.

Bu qətllər Səfəvi dövlətinin digər əyanlarına qarşı da davam edirdi. Şah Abbas zamanının görkəmli etimadud-dövləsi və Hatəmbəyin oğlu Talibxan Şah Səfiyə üç ildən artıq vəzirlik etdikdən sonra onun göstərişi ilə öldürüldü. Astrabadinin yazdığına əsasən «Qazı Muizz İsfahaninin oğlu Qazı Möhsinin düşmənçiliyi faş olduğu üçün gözünü çıxartdı və əllərini kəsdi.» Həmçinin cəbbəxana rəisi Çıraqxanın həyat çırağı Şah Səfinin göstərişi ilə söndürüldü. Deyilənlər Şah Səfinin cinayətlərinin bir hissəsidir.

## *ŞAH SƏFİNİN ÖLKƏDAXİLİ ÇƏTİNLİKLƏRİ*

Həmin çətinliklərdən biri çox vaxt yerli torpaq sahibləri tərəfindən təşkil edilən və hədəfi məntəqədə siyasi qüdrəti ələ almaq, hətta müstəqillik və səltənət təbili çalmaq olan daxil üsyanlar idi. Əlbəttə, ola bilər ki, mərkəzi dövlətə bağlı yerli hakimlərin zülmləri də, üsyan bürümüş bölgədə xalqın həmin üsyanları himayə etməsinə təsirsiz olmayıb.

Səfəvi dövrünün üsyan bürümüş məntəqələri arasında Gilan və Mazandaran da vardı. Coğrafi mövqeyi, qədim sülalələri və böyük mülkədarları olması səbəbindən orada bu qisim üsyanlar həmişə mövcud olub. Şah Səfinin səltənətinin lap əvvəllərində Qəribşah adlı bir şəxs qiyam

etdi və üsyan yatırıldıqdan sonra onu «Nəqşicahan meydanında dar ağacından asdılar». Az sonra onun qardaşı olduğunu iddia edən digər bir şəxs də üsyan qaldırdı və onun üsyanı da yatırıldı.

H.q. 1041-ci ildə Qəzvin şəhərinin dərvişlərindən biri Dərviş Rza şəhərin «Kafurabad» məhəlləsində ona kəramət verilməsi və həqiqətlərin ilham olunması iddiası ilə «Sahibəz-Zamanın canişini olduğunu bildirdi.» Əhalinin bir dəstəsi ona tərəfdar, bir dəstəsi isə müxalif olub, bir-birinə qılınc çəkdi və nəticədə hər iki tərəfdən çoxlu sayda adam öldü. Dərvişin özü də qətlə yetirildi və onun başı Şaha göndərildi.

Şah Səfi rəhmsizlikləri barəsindəki xəbərlərin kənarında azacıq da olsa layiqli bir addım atmamışdır. Astrabadi onun barəsində deyir: «O imarət və binaların təmiri istiqamətində gözəl səy göstərib.» İsfahandakı «Ali qapı»nın bəzi hissələrinin təkmilləşdirilməsi, Qəzvində bir imarətin tikilməsi və həmçinin Rəşt şəhərində atasının qəbrinin üzərində Şəhidiyyə adlı bir məqbərənin tikilməsi onun gördüyü işlərdəndir.

## *ŞAH SƏFİNİN XARİCİ ÇƏTİNLİKLƏRİ.*

Şah Abbasın ələ keçirmiş olduğu Bağdad uğrunda vuruşmalar bu dövrə də sirayət etdi. Səfinin səltənətinin birinci ilinin axırlarında Osmanlı dövlətinin baş vəziri Xosrovpaşa bir qoşunla İranın qərbinə yollandı. İran qoşunu da öz qoşun başçısı Zeynal xanla oraya üz tutdu. Həmədan yaxınlığında baş verən yüngül döyüşdən sonra qızılbaşlar Osmanlılara qalib gəldilər. Həmin halda «inadçılardan bir dəstəsi əsilzadə təbiətliləri Zeynalxandan döndərərək» onun qətli göstərişini verdilər. Axır ki, Bağdad Osmanlıların mühasirəsinə düşdü. Qızılbaş qoşunu osmanlılara hücum edərək onların böyük bir hissəsini öldürdü. Osmanlı qoşunu heç bir müvəffəqiyyət əldə etmədən geri döndü. Onlar Hilləyə gedib orada bir qala tikdilər. Amma qızılbaş qoşunu Hillə qalasını iki aydan çox mühasirədə saxladıqdan sonra osmanlıları oradan qaçıra bildi və qaçarkən onların çoxu öldürüldü. Bu hadisələr h.q. 1040-cı ildə baş verdi.

Şah Səfi bir müddət Kərbəla və Nəcəfdə qaldı və orada «müqəddəs ziyarətgahlarda süpürgəçilik və xidmətlə məşğul oldu». Həmçinin Nəcəf qalasının möhkəmləndirilməsi üçün də bir sıra işlər görüldü. Bundan sonra İsfahana qayıtdı və birtərəfli olaraq osmanlıların iki minə yaxın əsirini azad etdi. Onun bu addımı osmanlı dövlətinin Şah Səfiyə təşəkkür etməsinə və dostluq məktubu göndərməsinə səbəb oldu.

Osmanlıların sonrakı hücumları h.q. 1042-ci ildə Van gölü istiqamətində oldu. Orada iki qoşun bir müddət bir biri ilə vuruşdu və nəhayət, döyüş osmanlıların qaçması ilə nəticələndi. Bir daha qızılbaşların Osamanlı qoşunundan üstün olduğu üzə çıxdı.

Dördüncü Sultan Murad baş vəziri ilə birlikdə h.q. 1044-cü ildə İrəvana hücum edərək şəhərn qalasını ələ keçirə bildi. Lakin onlar Təbrizə tərəf gəlmədilər və elə oradan qayıtdılar. «Bu xəbəri eşidən cəmiyyət hiddətləndi, xoşbəxt hökmdar qəzəbləndi» və İrəvan qalasını almaq məqsədi ilə həmin bölgəyə yollandı. Şəhərin mühasirəsi uzun çəkdi. Amma qızılbaşlar «ya Əli deyə-deyə yandırıcı ildırım kimi hücum edib qalanın bürc, sədd və hasarını yerlə yeksan etdilər».

Osmanlı qoşunu bir daha h.q. 1047-ci ildə Bağdada yollandı və bu dəfə Bağdad qalasını ala bildi. Böyük qələbə əldə etmiş osmanlılar dərhal sülh təklif etdilər və həmin şəraitdə onu qəbul etməkdən başqa bir çarə qalmamışdı. Bu sülh müqaviləsi h.q. 1049-cu ildə Zihabda imzalandı və elə buna görə də Zihab əhdnaməsi adı ilə məşhurlaşdı.

Bu qarmaqarışıqlığın digər bir amili Mavəraun-nəhr, daha doğrusu özbəklər idi. Onlar da osmanlılarla yanaşı əvvəldən Səfəvi dövlətinin ən mühüm xarici çətinliklərindən hesab edilirdilər. H.q. 1041-ci ildə bir tərəfdən Mərv şəhəri mühasirəyə alındı, digər tərəfdən Bəlx hakimi Nədrməhəmmədxanın qoşunu İran sərhədlərinə tərəf yollandı. Təhlükənin ciddi olduğunu görən Şah qızılbaş qoşununu göndərdi və özü də Xorasana tərəf hərəkət etdi. Təsadüfdən Səfəvi əmirlərindən biri özbəklərə əsir düşmüşdü və İmamqulu xan ilə qohum olduğu üçün Mavəraun-Nəhrin Şahı onu Mərvə hücumdan saxladı. Hətta həmin şəxsin tövsiyəsi ilə Nədrməhəmmədxan da öz qoşununu qaytardı. Beləliklə, deyilən çətinlik bu cür asanlıqla həll edildi. Amma Mavəraun-nəhr problemi asanlıqla həll ediləsi məsələ deyildi. H.q. 1043-cü ildə özbəklər bir daha hücum etdilər və məğlub olaraq geri çəkildilər. Həmçinin h.q. 1046-cı ildə özbəklərin bir dəstəsi Cama gəldilər və Səfəvi qoşunları məğlub olub qayıtdılar.

İranın çətinliklərindən biri də, onun Qəndəhara görə Hindistanla, əlaqələri idi. Həmin vaxt Dehli hökmdarı Şahcahan idi. O 1046-cı ildə Sultan Murad Osmanlıya məktub yazaraq ondan üç tərəfdən – Osmanlı torpaqlarından, özbəklər tərəfindən və Hindistandan eyni zamanda İrana hücum etmələrini istədi. Qəndəharın iranlı hakimi Əlimərdanxan idi. O, əvvəlcə müxalifət etsə də sonra Şahcahanın istəyi ilə razılaşdı və monqol qoşunları h.q. 1047-ci ildə Qəndəhara daxil oldular. Bu hadisə və ondan bir müddət sonra baş

verən hadisə, yəni Bağdadın da osmanlıların əlinə keçməsi həmin zamanda Səfəvilərə dəymiş çox ağır bir zərbə idi. Şah Səfi Qəndəharı ələ keçirmək üçün Xorasana doğru hərəkət edərkən yolda, Kaşan şəhərində vəfat edir.

Həmin dövrdə avropa ölkələri ilə də az-çox əlaqələr olub. Onun nümunələrindən biri Şah Səfinin ingiltərənin padşahı birinci Şarla yazdığı məktubudur ki, Şah Səfi ondan kömək istəyib və müxtəlif ixtisaslı müəllimlərin göndərilməsini xahiş edib.

*İkincisi, tam sədaqətlə xəbərdar etmək tələb edir ki, şərəflilərə xas cənabınızda hər bir peşə sahəsində mahir, işbilən və bacarıqlı ustadlar vardır. Bir nəfər mina düzəldən, bir nəfər saatsaz, bir nəfər briliant yonan, bir nəfər güclü zərgər, bir nəfər tüfəng düzəldən, bir nəfər bacarıqlı rəssam və bir nəfər od yağdıran topçu olsun. Şərafətli cənabınıza lazımdır ki, məhəbbət göstərib uca məqamlı vəkillərə əmr edəsiniz ki, həmin sənətkarları özlərinin inanılmış şagirdləri, ləvazımaqları və yoldaşları ilə birlikdə göndərsinlər. (səh: 296)*

## *ŞAH SƏFİNİN ZAMANINDAN SƏDRLİK VƏ VƏZİRLİK*

Şah Abbasın kürəkəni və həm də vəziri olmuş xəlifə Sultanın oğullarının öldürülməsi ilə Şah Səfi vəzirlik vəzifəsini iyirmi il Şah Abbasın baş vəziri işləmiş Hatəmbəyin oğlu Talibxana həvalə etdi. Lakin onun sədrliyindən çox keçməmişdi ki, h.q. 1043-cü ildə o Şahın göstərişi ilə öldürüldü. Ondan sonra vəzirlik vəzifəsi Səfəvi dövrünün məşhur simalarından olmuş Sarı Tağı adı ilə tanınan Mirzətağıya tapşırıldı. O, Təbriz çörəkçilərindən birinin oğludur. Əvvəlcə Şah Sultanməhəmmədin qoşununa daxil olub. Sonra ləyaqətinə görə birinci Şah Abbas tərəfindən Mazandaran hökümətinə təyin edilib. Bundan sonra uzun illər Şah Səfinin, daha sonra ikinci Abbasın zamanında vəzirolub.

Sədr vəzifəsi Seyid Hüseyn Kərəki Amilinin oğlu Mirzə Həbibullah Sədrə həvalə edildi. Mirzə Abdullah İsfahaninin yazdığına əsasən, o, alimlərin sırasında olsa da nəinki kifayət qədər elmə malik olmayıb, hətta xalq arasında onun savadsızlığı barəsində dastanlar məşhur olub. Amma buna baxmayaraq onun sədrliyi ömrünün sonuna, yəni 1060-cı ilə kimi davam etdi və bəzi yerlərdə onun adı hörmətlə çəkilir.

Deyəsən Şah Səfi alimlərə elə də etibar və dəyər qail olmayıb. Bu mətləbin dəlili həmin zamanda Şirazın qazısı olmuş Şeyx Əlinəqi Kəmreyinin (h.q. 1060) bir kitab yazaraq onda Şah Səfinin alimlərdən uzaqlaşmasından narahatçılığını bildirməsidir. O Şahdan şiəliyin yayılması

istiqamətində çalışmış ataları kimi «din alimləri, fəqihlər, hədis alimləri, müctəhidlər və məsum imamlardan əleyhimis-salam rəvayət nəql edən ravilərlə» oturub durmasını istəyir. Deyəsən Mirzə Həbibullah da bu dövrdə İran və İraqda heç bir müctəhidin olmaması fikrində olub. Amma çoz ehtimal ki, bu fikir Şah Səfinin hökumətində şeyxul-islam vəzifəsinə heç kəsin təyin edilməməsinin yozumudur.

Həmin dövrdə çoxlu alimlər yaşayıblar ki, biz onların tərcümeyi hallarından danışacağıq.

## *İKİNCİ ŞAH ABBAS SƏLTƏNƏT TAXTINDA*

İkinci Şah Abbas 1043-cü ilin Cəmadius-sani ayında dünyaya gəlib və on yaşı tamam olmamış atası Şah Səfi vəfat edib. O, qızılbaşların və sarayda olan vəzifə sahiblərinin himayəsi ilə h.q. 1052-ci ildə atasının vəfatından düz dörd gün sonra səltənət və şahlıq taxtına çıxıb. İkinci Abbas h.q. 1076-cı ildə Mazandarana yollanır və oradan Xorasana gedir. O, Damğanın Xosrovabad deyilən yerinə çatanda xəstəliyi ağırlaşır və elə orada vəfat edir. O, h.q. 1077-ci ilin pəbiül-əvvəl ayının 25-i çərşənbə axşamı dünyasının dəyişib. O, İranda iyirmi beş il hakimiyyətdə olub.

Demək lazımdır ki, onun müasirlərindən olan Məhəmmədtahir Vəhid Qəzvini onun barəsində «Abbasnamə» adlı bir kitab yazıb və yaltaqcasına onun barəsində bir sıra məlumatlar verib. Bu kitabın müəllifi Xəlifə Sultanın vəzirliyi zamanı həmin dövrün mühüm məqamlarından sayılan «məktub və məclis katibliyi» vəzifəsində çalışıb və h.q. 1101 ci ildən h.q. 1110-cu ilə qədər Şah Süleymanın etimadud-dövləsi olub. Həmçinin bu şahın müasirlərindən olmuş Vəliqulu Şamlının «Qisəsul-Xaqani» kitabında da onun zamanında baş vermiş tarixi hadisələr, eləcə də həmin dövrün alim və şairləri haqqında məlumat verilib.

Şah taxta çıxanda məktəb yaşında idi və buna görə də Kaşandan Quma və sonra Qəzvinə, yəni Səfəvi «şahlarının cahanşümul dairə mərkəzinə» getdi. Orada Mirmürtəza İsfahani adlı bir müəllimin nəzarəti altında yazıb-oxumağa başladı. Bunun kənarında kaman atmaq və digər hərbi fənləri öyrənməyə başladı. Həmin dövrün çovqan kimi geniş yayılmış idman növlərini öyrəndi. Beləliklə Şah Abbas hökmdarlıq işlərini ələ almağa hazır oldu. Çox ehtimal ki, həmin dövrdə Səfəvi dövlətinin işlərini etimad-dövlə vəzifəsində olan Sarıtağı aparıb. Onun kənarında sərkərdə Rüstəmxan da yüksək mövqeyə malik olub.

## *İKİNCİ ŞAH ABBAS VƏ DAXİLİ MƏSƏLƏLƏR*

Şah İsfahana daxil olduqdan sonra, bəlkə də Qəzvində olan zaman qarşıya çıxan ilk xoşagəlməz hadisə sərkərdə Rüstəmxanın öldürülməsi oldu. O Məşhəddə olurdu. İşlərə daha çox nəzarət etmək üçün Şahdan paytaxta qayıtmaq icazəsi istədi. Vəhid Qəzvininin yazdığına əsasən onun hədəfi bu idi ki, «əgər xilafət taxtının sütunlarının kənarında olsa, böyük və kiçik işlərin ələ alınmasında əsas rol oynaya bilər.» Qüdrətli dövlətin əsas sütunları, yəni onun gəlməsinə razı olmayan etimadud-dövlə və cəbbəxana rəisi Şahı sərkərdənin qətlinə hökm verməyə vadar etdi. Şah da belə etdi.

Bu, saraydakı vəzifə çəkişmələrinin ilk səmərəsi oldu. Onlar işlərə daha çox müdaxilə etmək üçün Şahın yaşının azlığından istifadə edir, bir-birləri ilə mübarizə aparırdılar. İkinci qarşıdurma Sarıtağı ilə saray vəziri Heydərbəyin arasında oldu və h.q. 1053-cü ildə Heydərbəyin vəzifəsindən kənarlaşdırılması ilə nəticələndi. Üçüncü qurban tüfəngçibaşı Mirfəttah (Ağatahir) İsfahani oldu. Onun qalalara hücumda Səfəvi dövlətinə çox xidmətləri olmuşdu. O da Şah Səfinin səltənətinin axırlarından etimadud-dövlə, yəni Sarıtağı ilə ziddiyyətə düçar oldu və Mirfəttah, etdiyi bir sıra sərtliklərə görə, daha doğrusu Sarıtağının araqarışdırma və xəbərçiliklərinə görə onun qətl fərmanı verildi.

Belə bir vəziyyət etimadud-dövlənin özü üçün də təhlükəli idi. Belə ki, sonrakı ildə yəni 1055-ci ildə onun özü də Şah Səfinin və ondan sonrakı şahların hakimiyyətləri illərində qazandığı çox böyük qüdrət və şan-şöhrətinə baxmayaraq bəzi əmirlərin qəzəbinə düçar oldu. Həmin əmirlərin başçısı cəbbəxana rəisi Canıxan idi. O digər bir neçə əmirlə həmin ilin Şəban ayının iyirmisində «bu ərbab sərkərdənin həyat dəftərini qılınc tufanı vasitəsi ilə bağladılar». Bu işin nəticəsinin nə olması məlum idi. Başda cəbbəxana rəisi olmaqla qatillərdən qisas alındı. «Qisəsul-Xaqani» kitabının müəllifi Sarıtağını yoxsulların xidmətçisi kimi xatırlayır və ölümündən sonra onu «misilsiz vəzir» adlandırır. Əlbəttə, bir yerdə də onun məzəmməti barəsində bir beyt yazıb:

*Sarutəqi ke hala iraniyan mədar əst*
*Yaran həzər nəmayid əlamse kəlledar əst*

**Yəni: Dostlar! İranlılar üçün indi mərkəz oxu olan Sarıtağıdan çəkinin ki, o, başlı almazdır.**

Sarıtağının ölümündən sonra vəzirlik, birinci Şah Abbasın kürəkəni Xəlifə Sultana həvalə edildi. O, bundan əvvəl də birinci Şah Abbasın hakimiyyəti dövründə və Şah Səfinin hakimiyyətinin ilk illərində həmin vəzifədə olmuşdu. Xəlifə Sultan çox təqvalı fəqih və ad-sanlı bir alim idi. Onun üç oğlu şah Səfinin əmri ilə kor edilmişdi. O, Səfəvi dövrünün görkəmli vəzirləri arasında bəlkə də yeganə adam idi ki, fəqih və ruhani olmaqla yanaşı belə bir vəzifə daşıyırdı. O, özünün guşənişinlik illərində «həmişə öz nuru ilə tələbələrin qəlblərindəki şəkk-şübhə zülmətini aradan aparmaqla məşğul olub və vaxtını mötəbər kitablara şərh və haşiyə yazmağa sərf edib.» O, əvvəlcə ikinci Şah Abbasın ona vəzir olmaqı dəvətini əvvəlcə qəbul etmək istəməyib. Amma necə olubsa bu vəzifəni ona qəbul etdiriblər.

Sultan Xəlifə icra işlərində çox yüksək qüdrətə malik olub və işləri təkbaşına həll edir, öz yoluna qoyurdu. İkinci Şah Abbas da onu çox istəyirdi. Şah yuxuda görür ki, Xəlifə Sultanla birlikdə Əmirəl-möminin əleyhis-salamın qapısına gedib və «Sultana içəri daxil olması əmr olunub, əlahəzrət şah isə o müqəddəs evin qapısında» gözləyib. Elə həmin yuxuda Əmirəl-möminin (ə) ona buyurub ki, Qəndəharın hakimi şiələrin kökünü kəsmək istəyir, get Qəndəharı ələ keçir.

Hər halda Xəlifə Sultanın qüdrət və təcrübəsini nəzərə alaraq ikinci Şah Abbasın hakimiyyətinin ilk illərində olan irəliləyişləri onun zəhmətlərinin nəticəsi hesab etmək lazımdır. Xəlifə Sultan h.q. 1064-cü ildə vəfat edib.

Həmin vaxtlar sədrlik də alimlərin yolu ilə gedən Mirzə Həbibullahın ixtiyarında idi. Biz bundan əvvəl onun barəsində danışmışıq. Təqribən 1060-cı illərdə o vəfat etdi və sədrlik vəzifəsi oğlu Mirzə Məhəmmədmehdiyə tapşırıldı. Bu şəxs h.q. 1071-ci ildə etimadud-dövlə vəzifəsində olan Məhəmmədbəyin məqamından kənarlaşdırılması ilə ölkənin ən böyük vəzirliyi vəzifəsini ələ aldı. Bunun müqabilində sədrlik vəzifəsi Xəlifə Sultanın qardaşı Mirzə Qivaməddin Məhəmmədə həvalə edildi.

Həmin dövrdə şeyxul-islamlıq vəzifəsi əsrin fəzilətli alimlərindən olmuş Mirzə Qazının öhdəsində idi. Onunla alimlərdən biri arasında qarşıdurma yarandı və «məsələ mübahisədən tutuşmaya keçdi». İxtilaf gərginləşib Şahın qulağına çatanda Şah onu şeyxul-islamlıq vəzifəsindən uzaqlaşdırdı və onun yerinə bundan əvvəl Şirazın və həmçinin bir müddət İsfahanın qazısı olmuş Əlinağı Kəmreyini (h.q. 1060) təyin etdi. Kəmreyi həmin dövrün məşhur alimlərindən biri olub və biz bundan əvvəl onun barəsində danışmışıq. H.q. 1075-ci ildə Ərdəbildə vəfat etmiş Mirzə Tağı fiqh və hədis elmlərində

mütəxəssis olmaqla yanaşı riyaziyyat və musiqi barəsində də bir sıra kitablar yazıb. Misal üçün onun «Dəfe şubheye tufrə be bərahine həndəsi», «Elme ədvar və qanune musiqi» və «Came-cəm» kitablarını göstərmək olar.

Əlbəttə Şah Abbasın qeyri-rəsmi şəkildə bir çox alimlərlə əlaqəsi olub. Onlardan biri Feyz Kaşani və digəri Mühəqqiq Xorasanidir. Şahın onlarla çox səmimi münasibətləri olub və biz Şah Süleyman Səfəvinin hakimiyyəti dövrünün hadisələri barəsində danışanda onların haqqında geniş söz açacağıq. Həmin alimlərdən digər biri Nəcəf alimlərindən olmuş və «hədis və fiqh elmində yüksək məharət və bacarığı olan» Əhməd ibn Sələmədir. O, h.q. 1072-ci ildə ikinci Şah Abbas tərəfindən nümayəndə kimi Hindistan şahının sarayına göndərilib və orada o yerin alimləri ilə dini məsələlərdə bir sıra mübahisələri olub.

İkinci Şah Abbasın daxildə elə bir problemi olmayıb və illərin çoxunu ölkənin müxtəlif bölgələrinə, xüsusilə Məşhədə, Mazandarana və Qəzvinə səfər etməklə keçirib. O, babası birinci Abbas kimi ov əhli olub. Onun saray tarixçiləri onun müxtəlif bölgələrdə olan ov əhvalatlarını geniş şəkildə şərh ediblər.

O, işlərin idarəçiliyi barəsində də bəzən özündən yeni ixtiralar edirdi. Məsələn İsfahanda olarkən üç gün özü şəxsən ədalət məhkəməsində oturub, şikayətçi və məzlumlarla söhbət edib. Hansısa bir hakim tərəfindən kiməsə bir zülm edilməsini bilən kimi məsələyə birbaşa qarışır və onu həll edirdi. Bu da mümkün idi ki, imkansız adamlar bəzən saraya yığışaraq etiraz bildirsinlər. İsfahanda bahaçılıq gün-gündən artan zaman «kişi və qadınlardan ibarət yoxsul və kasıblar sarayın qapısına toplaşdılar» və Şah məsələnin çox tez həll edilməsi barədə göstəriş verdi. Şah Abbasın camaatın işlərinin həll edilməsi üçün keçirdiyi həftəlik iclas çox vaxt etimadud-dövlə, cəbbəxana rəisi, qullarağası, divan bəyi, evlər nəzarətçisi və hesabdar, hətta iki hakim və iki münəccimin iştirakı ilə keçirilirdi. Orada «mühüm şəxslər özləri əhəmiyyətli məsələlərin həlli, müraciət edənlərin şikayətlərinə baxılması, bəxşiş, hədiyyə və ənamların verilməsi ilə məşğul olurdular.» Saib ikinci Şah Abbasın ədalətini, zəif və məhrumlara diqqətini etməsini çox tərifləyib. Amma bu qorxu da var ki, o, bu məsələləri yalnız şer və şairlik çərçivəsində demiş ola.

*Xane bər duşi be ğeyr əz coğd nəmanəd*
*Bəs ke şod məmur əz memariye ədləş diyar*
*Ahuvan seyre çerağan mikonənd əz çeşme şir*
*Ba hüzure xater, əz ədləş dele şəbhaye tar*
*Qorq dər əyyame ədləş çun səge Əshabe-Kəhf*
*Bərnəmiayəd ze bime qusfənd əz konce ğar*

**Yəni: Diyar onun ədaləti sayəsində o qədər abad oldu ki, aləmdə bayquşun çiynindən başqa bir ev qalmadı, zülmət gecədə ceyranlar onun ədaləti ilə şirlərin gözlərində çıraqları seyr edirlər; onun ədaləti dövründə canavarlar qoyunun qorxusundan Əshabi-Kəhfin iti kimi mağaranın küncündən çölə çıxmırlar.**

Digər bir məsələ onun paytaxt yəhudilərinin barəsində gördüyü iş idi. «Yəhudilər onları müsəlmanlardan fərqləndirən bir paltar geyinmirdilər və bu, müsəlmanların onlardan uzaq gəzməmələri və onların murdarlıqlarının müsəlmanlara keçməsi ilə nəticələnirdi.» Şah Abbas göstəriş verdi ki, əgər onlar öz dinlərində qalmaq fikrindədirlərsə onda şəhərin kənarında onlara «əlahəzrətin» yerlərindən bir yer verilsin və «onlar müsəlmanlardan fərqlənən bir paltar geyinsinlər». Amma əgər İslamı qəbul etsələr onlara əlahəzrətin hesabından iki tümən pul verilsin. «Abbasnamədə» yazıldığına əsasən «həmin yəhudi camaat hamılıqla yığışıb tam razılıqla İslamı qəbul etdilər... Digər ölkələrin yəhudiləri də bu böyük bəxşiş xəbərini eşidəndən sonra bu gözəl işə meyl göstərdilər və onlardan təqribən iyirmi min ailə İslamı qəbul etmək şərəfinə nail oldu».

Bu, saray yazıçısının verdiyi məlumat idi. Amma digər məlumatlarda deyilir ki, yəhudilərin müsəlmanlaşdırılmaları istiqamətində sərt siyasətdən istifadə edildi və xüsusilə Kaşan şəhərində onların böyük bir dəstəsini məcburi şəkildə müsəlman etdilər. Yəhudilərin bu barədəki səs-küyləri bir yerə çatmadı və nəhayət onlar Kaşanın böyük alimi Molla Möhsin Feyzi vasitəçi saldılar. Feyz Kaşaninin vasitəçiliyi yəhudilərə göstərilən təzyiqin aradan qaldırılmasına səbəb oldu.

## *MƏSƏLƏLƏRİN HƏLLİNƏ KÖMƏK MƏQSƏDİ İLƏ ALİMLƏRİN FİQHİ ŞURASININ YARADILMASI*

Bundan əvvəl ikinci Şah Abbasın alimlərlə münasibətinin çox ali və ehtiram əsasında olan geniş bir münasibət olmasını dedik. Bu dövrdə alimlərin sayı da çox olub və bütün sahələrdə İsfahan, Qum və Kaşanda çoxlu alimlər olub.

Bu arada diqqəti çəkən nöqtələrdən biri mühüm bir məsələnin həlli üçün fiqhi şuranın yaradılmasıdır. Buna səbəb İsfahanda çoxlu hindistanlının ticrətlə məşğul olması idi. Onlar öz adət-ənənələrinə görə and içəndə «əllərini qaynar yağa qoyub» and içməli idilər. Bu çətin bir iş olduğu üçün onlara qarşı iddia ilə çıxış edənlər çoxalmışdı. Onlar da bu formada and içə bilmədikləri üçün ziyana düşmək məcburiyyətində idilər. Bir dəfə bir nəfər iddia etdi ki, mənim şərikim öləndə dedi: «Filan hindistanlıya min tümən pul verimişəm. Həmin hindistanlı qaynar yağa əl basıb and içə bilmədiyi üçün məhkəmədə həmin məbləği ödəmək məcburiyyətində qaldı.»

Bu hadisədən sonra hindistanlılar Şaha şikayət etdilər və Şah bu məsələnin həlli üçün ən böyük alimlərdən ibarət fiqhi bir şuranın yaradılması göstərişini verdi. Vəhid Qəzvininin yazdığı şərhdə deyilir:

*Allahın kölgəsi olan hökmdar onun şəri hökmünün araşdırılması və Allahın zimmə əhli və qeyriləri barəsində buyurduqlarına müvafiq olanın icra edilməsini istədi. Buna görə də qüdrətli dövlətin sütunlarına tapşırdı ki, nurani şəriətin dayaqları, yəni Mirzərəfia Naini, Molla Məhəmmədbaqir Xorasani və Ağahüseyn Xansari ilə şah sarayının keşikxanasında oturub tərəflərin danışıqlarını araşdıraraq ona təqdim etsinlər. Şəni böyük olan əmirlər Allahın kölgəsi əlahəzrətin göstərişinə əsasən tərəfləri dinləmə və araşdırma iclasını keçirib təqdim etdilər. Nəzərdə tutulan ilkin işlər təqdim edildikdən sonra, Şahın işlərin düyüyünü açan düşüncəsi bir daha belə qərara aldı ki, həmin üç alimin hər biri, eləcə də Mövlana Məhəmmədmösin Kaşani məsələnin əslini müfəssəl şəkildə qələmə alsınlar və sətirləri yazana buyurdular ki, əzəmətli alimlər fitvanı təqdim etdikdən sonra onu Şahın mübarək nəzərinə çatdırsın. Fitva təqdim edildikdən və o, nəzərdən keçdikdən sonra belə qərara alınır ki, əlahəzrət şah mübarək Ramazan ayının axşamlarının birində alim, fazil və saleh şəxslərlə birlikdə iftar etsin. Hörmətli alimlər bu böyük nemətə nail olduqları axşam Şah şifahi olaraq onların hər birindən məsələnin həqiqətini soruşdu və ixtilafa səbəb olan*

*həmin yazıların mənşəyinin dəlillərini aydınlaşdırdı. Alınmış məbləğin şəri qanuna uyğun olmaması məlum olduqdan sonra onun qaytarılması barəsində hökm verdi.*

## *İKİNCİ ŞAH ABBAS VƏ XARİCİ MÜNASİBƏTLƏR*

### *MAVƏRAUN-NƏHR*

Yeni Şahın Mavəraun-nəhr ilə bağlı ilk xoşbəxtliyi bu idi ki, Mavəraun-nəhrin hakimi İmamqulu xan səltənətdən əl çəkərək şahlığı qardaşı Nədrməhəmmədxana həvalə edib yoldaşlarından min nəfərlə birlikdə 1052-ci ildə Həcc əməllərini yerinə yetirmək məqsədi ilə İrana yollandı ki, Şah ilə görüşdükdən sonra Həccə yola düşsün.

Qarşılama mərasimi Xorasandan başlanda və «Xorasanda böyük bəylərbəyi və əmirlərdən olan sərkərdə Rüstəmxan» həmin xanı qarşıladı. Ondan sonra Qəzvində Şahın görüşünə getdi və «sədr, etimadud-dövlə, cəbbəxana rəisi, saray işləri vəziri və evlər nəzarətçisi» onu, müəyyənləşdirilmiş mənzilə kimi müşayət etdilər. İmamqulu xan bir neçə gündən sonra Məkkəyə yola düşdü və bu səfərdən qayıdarkən yolda vəfat etdi.

Bəlx 1056-cı ildə Hindistan monqolları tərəfindən ələ keçirildikdən sonra Nədrməhəmmədxan İrana pənah gətirdi, amma bir xeyir əldə edə bilmədi. Bundan sonra Bəlxi bir daha ələ keçirdi və oğlu Əbdüləzizxanın vasitəsi ilə 1060-cı ildə vəzifəsindən uzaqlaşdırılana kimi orada hakimiyyətdə oldu. Əbdüləzizin İranla münasibətləri düşmənçilik münasibətləri deyildi və hindistan monqolları İranın müqabilində onunla dostlaşa bilmədilər. Mavəraun-nəhr hacılarının həmin dövrdə çox artmış get-gəlləri iranla turan arasında münasibətlərin yaxşılaşdırılmasına gözəl şərait yaradırdı.

### *İKİNCİ ABBAS VƏ GÜRCÜSTAN*

Mavəraun-nəhrdən əlavə Şahın digər bir məsələsi Gürcüstana aid idi. Həmin bölgənin Şahın təsdiqlədiyi hakimi, yəni Rüstəmxan ilə digər bir iddiaçı Təhmurəs arasında çəkişmə baş verdi və Şah Adəmsultanın başçılığı altında ora qüvvə göndərdi ki, həmin üsyançı kafir dəstəni darmadağın edib öldürsünlər, əsir götürsünlər və qarət etsinlər. Gürcüstan barəsində bundan sonra da bir sıra işlər görüldü və bu ölkə yarım müstəqil vilayət kimi İran

dövlətinə bac verirdi. İkinci Abbas oranın hakimini müsəlman etməklə İslamın genişlənməsi üçün daha bir addım atdı. Əlbəttə, İslamın orada yayılması elə də asan bir iş deyildi. H.q.1070-ci ildə onların bir dəstəsi İslamı qəbul etdilər və Şah onların böyüyü Zal Orstav üçün «şəxsən kəlmeyi-şəhadəti təlqin etdi və o, İslamı qəbul etmək şərəfinə nail oldu. Digər gürcülər də bu səadətə nail olaraq xoşbəxt oldular.»

Gürcüstanın vəziyyətinin böhranlı olması ikinci Şah Abbası Azərbaycanın Cavanşir, Bəyat və digər obalarından on beş min ailənin Gürcüstana köçürülməsi göstərişini verməyə məcbur etdi. Onlar Gürcüstanda üç güclü qala tikməli və mühacirlər arasında bölüşdürülmüş ərazilərə əkinçilik etməklə bölgənin təhlükəsizliyinə kömək etməli idilər.

## *HİNDİSTANLA ƏLAQƏLƏR VƏ QƏNDƏHAR MƏSƏLƏSİ*

Qəndəhar problemi də İranın Dehlinin monqol hökuməti ilə əlaqələrinə aid bir məsələ idi. Bundan əvvəl dedik ki, Şah Səfinin hakimiyyəti dövründə Şahcahan Qəndəharı ələ keçirmişdi və Səfəvi dövləti oranın İrana qaytarılmasını gözləyirdi. Şahcahan h.q.1056-cı ildə öz genişləndirmə siyasətini Mavəraun-nəhrə çatdıraraq Bəlxi də ələ keçirdi. Oranın hakimi Nədrməhəmməd İsfahana pənah gətirdi və orada gözəl qarşılandı. Belə bir vəziyyətdə İranla Turan Hindistan dövlətinə qarşı birləşməli idi. Lakin keçmiş məsələlərə görə birliyə elə də münasib şərait yox idi. Bəlxi saxlamaq qüdrəti olmayan Hindistan dövləti Kabula qayıtdı və Nədrməhəmmədxan yenidən Bəlxə getdi.

Səfəvi dövlətinin Qəndəharı almaq niyyəti h.q.1058-ci ildə gerçəkləşdi. Şah h.q.1057-ci ilin sonlarında İranın hər yerindən toplanmış ucsuz-bucaqsız bir qoşun ilə Xorasana yollandı və yolda «Çəmən Bəstam»da düşərgə saldı. Oradan Şahcahana dostcasına bir məktub yazdı və işarə ilə ondan dostcasına olan əlaqələri qorumaqla Qəndəhar barəsindəki inadkarlığından əl götürüb onu İrana qaytarmasını istədi». Vəliqulu Şamlı bu gözəl məktubun mətnini «Qisəsul-Xaqani» kitabında nəql edib. Hindistan dövlətinin etinasızlığı Şahın düşünmədən və hətta qış fəsli olmasına əhəmiyyət vermədən Qəndəhara tərəf hərəkət etməsinə səbəb oldu. İran qoşununun bu fəsildə hücum etməsi ehtimalını verməyən Hindistanın monqol dövləti iki aylıq mühasirədən sonra Qəndəharı tərk edərək onu İranın ixtiyarında qoydu. İkinci Şah Abbasın nümayəndəsi Hindistana getdi və Şahın tərəfindən qondarma bir bəhanə ilə dedi ki, Şah Qəndəhara

gəzməyə gəlmişdi, amma şəhərin hakimi ora girmək icazəsi vermədiyi üçün Şah ona qulaqburması verməyə məcbur oldu.

Monqolların şəhəri geri almaq üçün 1059 və 1062-ci illərdəki hücumları heç bir nəticə vermədi. Şahcahan özbəklər və osmanlıları İrana qarşı səfərbər etməyə çox çalışdı, amma bu addımdan onun özü də bir xeyir görmədi. İranla Hindistanın əlaqələri barəsindəki ən müfəssəl xəbərlər ədəbi nəsr şəklində Qisəsul-Xaqani kitabındadır. Qeyd etmək lazımdır ki, ikinci Şah Abbasın sarayının şairlər-şairi Saib Təbrizi də Qəndəharın fəth edilməsi barəsində «Qəndəharnamə» yazıb və bu, onun divanında mövcuddur. Onun bir beyti belədir:

*Dər Hend gəşt xotbeye isna-əşər bolənd*
*Şod kamilul-əyar zər əz name həşto çar*

**Yəni: Hindistanda şiəlik xütbəsi ucaldı; qızıl, səkkiz və dördün adı ilə kamil əyarlı oldu.**

Qəndəhar məsələsini bir cəhətdən də çox ciddi mülahizə etmək lazımdır. Bu şəhərin əhalisinin çoxu sünni və çox təəssübkeş idi. Qızılbaş şiə dövlətinə qatlaşmaq onlar üçün çox ağır idi. Bu məsələ getdikcə şəhərdə bir məzhəb böhranı yaratdı. Biz onun nəticələrini bu şəhərin əfqanlılarının İrana hücumlarında və h.q. 1134-1135-ci illərdə Səfəvi silsiləsinin süqutunda görəcəyik.

Şahcahanın şahlıq taxtından kənara qoyulması ilə bir müddət onun canişinləri Daraşükuh ilə Orəngzib arasında çəkişmə yarandı. Nəhayət Orəngzib şahlıq taxtına çıxdı. Bu vaxta kimi Daraşükuhu himayə edən Şah Abbas gerçəkliyi qəbul etdi və h.q. 1070-ci ildə Hindistana səfir göndərdi. O h.q. 1071-ci ildə Hindistana daxil oldu və çox gözəl qarşılandı. H.q. 1074-cü ildə Hindistanın səfiri çox qiymətli hədiyyələrlə Şah Abbasın hüzuruna gəldi. İlk müsbət qarşılamaya baxmayaraq Şah yavaş-yavaş səfirə qarşı davranışını dəyişdirdi və h.q. 1076-cı ildə onu Hindistana qaytaranda Hindistanın monqol şahına Orəngzibi zəiflikdə günahlandıran və hətta hücum ilə hədələyən bir məktub göndərdi. Bu məsələ Hindistan monqollarının çox böyük qəzəbinə səbəb oldu və onlar öz sərhədlərini qorumaq üçün qoşun tədarükü görməyə başladılar. Bir il sonra ikinci Şah Abbas vəfat etdi və beləliklə Hindistana qarşı olan hədələr sona çatdı.

Hindistanla əlaqə ancaq monqollarla əlaqədə məhdudlaşmırdı. Bəlkə Dəkəninin yerli əmirləri ilə də əlaqələr var idi. İki dövlət arasında səfirlər və

nümayəndələr get-gəl edirdilər. O cümlədən h.q. 1069-cu ildə Mirzəmüqim Kitabdar Şahın səfiri kimi Dəkənə getdi. Bu əlaqələr adətən səmimi və hətta mədəni əlaqələr idi.

Bunu da artırmaq lazımdır ki, Hindistanda yaşayan və yüksək məqamlar əldə etmiş çoxsaylı iranlıların müqabilində İsfahan və Kaşanda, eləcə də digər şəhərlərdə çoxlu sayda hindistanlı var idi və onlar bu şəhərlərdə ticarətlə məşğul idilər. Bir dəfə də hindlilər onların işlərinə bir azlıq kimi baxılmasını istədilər və Şah Abbas bu məslənin alimlərin məsləhətələşmələri ilə həll edilməsi göstərişini verdi. Bir çox hindlilər də Kaşanda yaşayırdılar və onlar orada çoxlu var-dövlət əldə etmişdilər. Bəzi tarixi mənbələrdə bildirilir ki, onlar bu şəhərdə sələmçiliklə məşğul olur və bu səbəbdən şəhərin məhrum və imkansız kütlələrini incidirdilər.

## *OSMANLILARLA MÜNASİBƏT*

Bundan əvvəl dedik ki, Bağdad osmanlılar tərəfindən alındıqdan sonra iki ölkə arasında sülh bağlandı. Bu sülh müqaviləsi öz qüvvəsində qalmaqda davam edirdi və onun möhkəmləndirilməsi üçün iki ölkə arasında səfirlər get-gəl edirdilər. Qərb sərhədlərindən heç bir narahatçılığı olmayan Şah Abbas h.q. 1058-ci ildə Qəndəharı ələ keçirə bildi. Elə həmin bu səfər zamanı osmanlı sultanı Sultan İbrahim Xandeqarın səfiri «çoxlu hədiyyə və töhfələrlə» birliklə Şah Abbasa dostcaçına bir məktub göndərdi. Şah da onun əvəzində ürəyəyatan bir məktubla birlikdə osmanlı sultanına «bir neçə fil boyunluğu» hədiyyə etdi.

Ərəb İraqın osmanlılar tərəfindən alınmasından sonra iki dövlət arasında sakitçilik bərqərar oldu və hətta Bəsrənin hakimi Şaha bu şəhəri ona təslim etməyə hazır olduğunu bildirsə də ikinci Şah Abbas bunu qəbul etmədi. O, h.q. 1066-cı ildə Kəlbəli Sultanı dostluq səfiri kimi İstanbula göndərdi. Qayıdanda onunla birlikdə osmanlıların səfiri də İrana gəldi və orada qarşılandı.

## *DİGƏR ÖLKƏLƏRLƏ ƏLAQƏLƏR*

İranla yaxın münasibətləri olan ölkələrdən əlavə digər ölkələrlə də əlaqələr qurulmuşdu. Bəlkə də İran tarixində bu ölkə İslamı qəbul etdikdən sonra ilk dəfə idi ki, h.q. 1073-cü idə Həbəşistan və Yəmən dövlətindən İrana «dostluğun təməlini qoymaq istiqamətində sədaqətlərini göstərmək üçün» səfirlər gəldi.

Tarixi mənbələrdə rus səfirinin də ikinci Şah Abbasın sarayına daxil olması barəsində məlumatlar mövcuddur. Onlar Şahın yanına «layiqli peşkeşlər»lə gəlirdilər.Şah Abbas rus çarına göndərdiyi cavabda belə yazıb: «Dostluq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə göndərilmiş məhəbbət sonluqlu məktub» «cənnət kimi olan Mazandaranın səfalı yerlərini seyr edən zaman» Şahın əlinə çatdı və qarşılıqlı olaraq o da, Qulusultanı «köhnə dostluğu və yeni dostluq münasibətlərini möhkəmləndirmək üçün göndərib. İranın rus ilə əlaqələrində yaranmış çətinliklərdən biri rusların öz ərazilərini genişləndirmək üçün «ölkələrinin ərazilərindən olan və nəzarətlərində olan türk torpaqları ətrafında» bir neçə qala tikmələri idi. Bu iş İrana müxalif olan bəzi gürcülərin təhriki ilə baş verdi və həmin qalanın tikilməsi ilə çərkəzlərin İrana get-gəl etdikləri yol bağlandı. Şah Abbas Şirvanın bəylərbəyinə həmin qalaları viran etmək göstərişi verdi. Təbii ki, həmin qalaların viran edilməsi üçün döyüş də baş verməli idi və belə də oldu. «Mənsurun qoşunu həmin qalaların hamısını viran edib geri döndü.» İranla rusun əlaqələri tarixində bu məsələ iki cəhətdən əhəmiyyət daşıyır. Həmin cəhətlərdən biri rusların İranın sərhədlərinə yaxınlaşmaları, ikincisi iranlılarla ruslar arasında ilk toqquşmanın baş verməsi idi. Son iki əsrdə tədricən onların irəliləyişi və İran qüvvələrinin geri çəkilməsinin şahidiyik.

Rusiyanın cənub şərqində, daha doğrusu İranın şimal sərhədlərində ilk dəfə bir qrup qazax İrana hücum etdi və onlar bir dəfə Mazandarının bir hissəsini yandırdılar. Bu məsələ də bu yöndə yaranmış ilk problem idi.

## *AVROPALILAR İRANDA*

Bu dövr avropalıların İrana get-gəllərinin ən parlaq vaxtı olub. Avropalı səfirlərin başçılığı altında gələn izdihamlı heyətlərin, həmçinin səyyah və tacirlərin, bunların hamısından daha çox isə keşişlərin sayı İsfahanda həddindən artıq çox olub. Bu, alimlərin də etiraz etdikləri məsələlərdən biri olub. Lakin saray və şəxsən ikinci Şah Abbas özü bu etirazlara çox az etina edirdi. Həmin dövrün məşhur alimlərindən olan Məhəmmədtağı Məclisi zimmə əhli barəsində bir kitabça yazdı və Şahdan İslamın zimmə əhli barəsindəki hökmlərinin icra edilməsini istədi. Lakin baş verənlər həmin tövsiyələrin ciddi qəbul olunmamasından xəbər verir.

İkinci Şah Abbasdan qalmış çoxlu fərmanlardan, onun İrana gələn müxtəlif tayfalara xüsusi məhəbbətinin olmasını başa düşmək olur. Onların bir hissəsi ticarətin genişləndirilməsində əhəmiyyətli ola bilərdi. Amma

məsələnin böyük bir hissəsi Şahın ruhiyyəsi ilə bağlı idi. Bu, müəyyən qədər bütün iranlıların arasında görünən bir ruhiyyədir. Bu, xaricilərə xüsusi ehtiram göstərmək ruhiyyəsidir və bir növ özünü aşağı tutmaq hissindən yaranır.

Şah Abbasdan qalmış fərmanlardan məlum olur ki, «Şahın tabeçiliyndə olan bütün möhtərəm hakimlərdən, əziz əmirlərdən, dargalardan və məmurlardan» həmin xarici keşişlərə getdikləri hər bir yerdə böyük ehtiram göstərilməsi və onların hər yerdən salamat keçirilmələri tələb edilib. Digər bir fərmanda qeyd olunub ki, papa tərəfindən İsfahana gəlmiş bütün keşişlər «xüsusi şərəfli» qonaqlardırlar və onlarla ehtiramla davranılması lazımdır. Digər bir fərmanda deyilir ki, İsfahanın saray məmurları əvvəlki göstərişlərə uyğun olaraq xarici keşişlərə ayaqyalın, «məbədlərində ibadətlə məşğul olmaq» icazəsi versinlər və «heç kəs onlara mane olmasın».

Avropalılar arasında ilk olaraq Fransa, dördüncü Luyi iş başına gəldikdən sonra şərqlə ticarət əlaqələri qurmaq qərarına gəldi. Bu, ingilislər və hollandlar kimi bir şirkət yaradılmasını tələb edirdi və Fransa da belə bir şirkət yaratdı. Bu şirkətin ilk nümayəndələri 1072-ci ildə ikinci Şah Abbasın zamanında İrana gəldilər və ticarət etmək üçün bir sıra imtiyazlar əldə etdilər. Lakin onların işi əməli olaraq gerçəkləşmədi. Həmin dövrdə Şah tərəfindən fəxri rütbə almış Şvaliye Şarden və Taverniye adlı digər bir nəfər İrana gəldi və onların hər ikisi səfərnamə yazdılar. Digər yerdə dediyimiz kimi Şardenin işində səhvlərin olmasına baxmayaraq onun işi İranın Səfəvilərin orta dövrlərini tanımaq üçün böyük bir mənbədir. Fransalılar bir sıra çətinliklərlə qarşılaşdıqları üçün Fransa dövləti ilə İran arasındakı ticari əlaqələr Şah Sultan Hüseynin zamanına saxlanıldı.

## *İKİNCİ ŞAH ABBASIN ZAMANINDA ABADLIQ İŞLƏRİ*

Şah Abbas İsfahana gələn kimi h.q. 1053-cü ildə «Aliqapı»nın binasına bir neçə mərtəbənin də artırılması göstərişini verdi. Bu işin vasitəçisi həmin dövrdə etimadud-dövlə işində çalışan Sarıtağı kimi məşhurlaşmış Mirzə Təqiyyəddin Məhəmməd idi. O, çox az bir müddət ərzində bu işi sona çatdırdı. Saib Aliqapının işinin sona çatdırılma tarixi (h.q. 1054) barəsində və ikinci Şah Abbasın mədhində bir qəsidə deyib:

*Cavidan bada ke tarixe boland iqbale ust*
*Məsnəde iqbale in talar bada cavidan*

**Yəni: Əbədi yaşasın ki, uca tarix ona üz tutub; bu talvarın bəxt taxtı əbədi yaşasın.**

Şah Səfinin və bir müddət ikinci Şah Abbasın vəziri olmuş Sarıtağı İsfahanda öz sərvəti ilə bir sıra binalar tikdirib ki, onların bəziləri indi də onun adını daşıyır. O cümlədən bazar, məscid, karvansara və kiçik bir məsciddən ibarət bir kompleks var. Onların hamısı Sarıtağı adı ilə tanınır. Sarıtağının adını daşıyan böyük məsciddə olan kitabədən məlum olur ki, bu məscid 1053-cü hicri ilində tikilib. Onun kiçik məscidinin kitabəsində isə məscidin tikilmə tarixi h.q. 1056-cı il, yəni Sarıtağının öldürülməsindən bir il sonra kimi qeyd edilib. Sarıtağının gözəl bir sarayı da olub ki, ölümündən illərlə sonra onun adı ilə tanınıb.

Qeyd etmək lazımdır ki, ikinci Şah Abbasın zamanı on dörd illik durğunluqdan sonra böyük binaların tikilməsi və doğrudan da İsfahan şəhərinin genişləndirilərək inkişaf etdirilməsi dövrü olub. Onu da qeyd etmək lazımdır ki, İsfahan mərkəz olduğu üçün memarlıq işlərinin əsas hisəssi bu şəhərdə aparılıb.

H.q. 1056-cı ildə Şahın fərmanı ilə «dünyanı əks etdirən ürəkaçan bağda Şahın naiblərinə layiq bir məhkəmə binası»nın tikilməsi qərara alındı və bina tikildi. Həmin dövrün məşhur şairi Saib Təbrizi də həmin binanın vəsfində bir şer deyib ki, onun tarixi maddəsi[1] hesab edilir: «**Qebleqahe tacdaran bad daem in məkan**». Yəni: Bu məkan daim dünya şahlarının qibləgahı olsun.

İkinci Şah Abbasın zamanının tarixi binalarından biri də «Çehel sütun» binasıdır. Bu bina Şahın ümumi qəbul sarayı olub. Tikilməsi bəlkə də ondan qabaq planlaşdırılmış bu bina, onun şahlığı dövründə, h.q. 1057-ci ildə tikildi. Bu imarətin tikilmə xəbərini Vəhid Qəzvini «Abbasnamə»də göstərib və onun tarixi maddəsini h.q. 1057-ci ili göstərən bu cümlə hesab edib: «Mobarəktərin benahaye donya» Yəni: dünyanın binalarının ən mübarəki. O yazır: «Ağıl bu gözəl imarətə tamaşa edəndə heyrətə qərq olur ki, görəsən göy yerə gəlib, yoxsa yer göyə qalxıb?»

Bu binanın böyük eyvandan ibarət xarici görünüşündə iyirmi sütun var. Onların əksi binanın qabağında olan hovuza düşəndə sütunların sayı qırx olur. Bu bina hər cəhətdən çox gözəl olub və onda çoxlu bəzək və nəqşlər işlənib. Binanın daxilində də çoxlu nəqşlər olub. İndi də onların çoxu qalır və son illərdə üzərlərində bərpa işləri aparılıb. Həmin nəqşlərdən biri ikinci

---

[1] bir şeyin tarixi maddəsi o deməkdir ki, həmin münasibətlə deyilmiş beyt və ya misranın hərflərinin hamısını əbcəd hesabı ilə bir yerə toplayanda həmin tikilmə tarixi alınır

Şah Abbasın Türküstanın hakimi Vəliməhəmmədxanın qarşılanması münasibəti ilə keçirilən ziyafət məclisini əks etdirir. Həmçinin bu binanın xəzinəsi olan otaqda birinci Şah Abbasın xüsusi bir tac ilə çəkilmiş rəsmini görmək olar. Sonralar Şah Sultan Hüseynin dövründə bu kompleksə bəzi tikililər də artırıldı və bu münasibətlə də bir sıra şerlər yazıldı və onlar gips lövhələrdə orada qalmaqdadar. Bu bina h.q. 1118-ci ildə od tutub yanıb və yenidən tikilərək bərpa edilib.

Şah Abbasın İsfahanda imarəttikmə işləri doğrudan da çox geniş olub və o, hər neçə müddətdən bir yeni binanın tikilməsi göstərişini verirdi. O cümlədən Vəhid Qəzvini «Mübarək xəlvətxana imarəti», sonra isə «Tavusxanə»nin tikilməsini h.q. 1069-cu ilin hadisələri sırasında bəyan edib və həmçinin «Feyz» təkyəsi, «Şəhər binası»nın şərhi və Zayəndərud çayının kənarında «Mübarək Səadətabad imarəti»nin tikilməsini h.q. 1070-ci ilin hadisələri sırasında göstərib.

Şahın gördüyü işlərdən digər biri Zayəndərud çayının üzərində sədd qurulması və onun arxa tərəfində süni gölün yaradılmasıdır. O bu işi 1056-cı ildə görüb. Həmçinin ikinci Şah Abbasın zamanında tikilmiş İsfahanın tarixi tikililərindən digər biri də «Xacu» körpüsüdür. Bu körpü həmin zamanda «Şah» körpüsü adı ilə məşhurlaşmışdı. Bu körpüdə kaşı ilə çoxlu zinət işləri görülüb. Onların bir hissəsi indi də qalmaqdadır. Bu körpünün açılışında bir sıra şairlər qəsidələr deyib.

Saib bu körpünün açılışında (1060-cı ildə) aşağıdakı başlıqla başlayan bir qəsidə deyib ki, Qisəsul-Xaqani onu nəql edib:

*İsfəhan yekdel roşən be çerağan şode əst*
*Pol ze arəstegi təxte Süleyman şode əst*
*Bade çun seyl ze hər çeşme rəvan gərdide əst*
*Kəmərе pol ze meye ləl bədəxşan şode əst*

**Yəni: İsfahan başdan-başa çırağa bürünüb, körpü bəzəyinin çoxluğundan Süleymanın taxtına dönüb; badə sel kimi bütün çeşmələrdən axır, körpünün kəməri ləlin meyindən Bədəxşan olub.**

İkinci Şah Abbasın hakimiyyəti dövründə İsfahanda deyilənlərdən əlavə çoxlu bağlar da salınıb və demək olar ki, onların hamısı sonrakı dövrlərdə aradan gedib. Bu bağlar güllі-çiçəkli böyük bir ərazi şəklində olub və onun ortasında bina olub. Ora xüsusi vaxtlarda saray qonaqlarının ixtiyarına verilirdi və oradan bəzi bayramlarda da istifadə edilirdi. «Siyosepol»

körpüsü ilə «Xacu» körpüsünün arasında, Zayəndərud çayının cənub və şimal ətrafında böyük bir bağ olub və onları çayın üzərindəki kiçik bir körpü bir-birinə birləşdirib. Cənub hissəni «Səadətabad» bağı, şimali hissəni isə «Dəryaçə» bağı adlandırırdılar. Səadətabad bağında çoxlu saraylar, o cümlədən çox gözəl və ali talvarı olan «Ayinəxana» imarəti olub. Bu imarət «Çehel sütun»a bənzər bir imarət olub və sonralar Qacarın zamanında dağıdılıb. «Həft dəst» imarəti də «Ayinəxana» talvarının kənarında olub. Bu binaların bəzilərinin Qacar zamanına aid rəsm və ya şəkilləri həmin dövrdə bu binadakı təmir işlərindən xəbər verir.

İkinci Abbasın zamanında İsfahan şəhərinin müxtəlif yerlərində tikilmiş məscidlər bu şəhərin müsəlman əhalisinin məscidə çox bağlı olmasından və imkanlı şəxslərin məscid tikməyə çox rəğbət göstərmələrindən xəbər verir. Süleymanbəy məscidi, Hacı Yunus məscidi, Misri məscidi, Həkim məscidi və digər məscidlərin hamısının tikilmə tarixi var və onlardan məlum olur ki, bu məscidlərin hamısı bu dövrdə tikilib. Əlbəttə, həmin məscidlərin bəzisi əvvəldən olub və sonra bərpa edilib.

## *VƏQFİN GENİŞLƏNMƏSİ VƏ MƏDRƏSƏ TİKİLMƏSİ*

Səfəvi dövrü, xüsusilə ikinci Şah Abbasın zamanından qalmış tarixi abidələrin bir hissəsi saray əhli və bəzi əmirlər tərəfindən tikilmiş məscidlər və mədrəsələrdir. Adətən, hər bir mədərəsə üçün kənd və dükanlar da vəqf edirdilər. Onların gəliri mədrəsə tələbələrinin təqaüdü, işıqlandırılması, təmir işləri və bayram şənliklərinin keçirilməsi kimi xərclərinə sərf edilsin.

Mədrəsələr barəsində bu məsələyə diqqət etmək lazımdır ki, ümumiyyətlə tələbələrin yaşayış xərclərinin tam şəkildə təmin edilməsi vəqf edilmiş şeylərlə ödənilirdi. Buna görə bir mədrəsə tikiləndə onun xərclərinin təmin edilməsi üçün bəzən bir neçə kənd və onlarla dükanın gəliri nəzərdə tutulurdu. Xülasə bu dövrdə təlim işlərinin xərci vəqf edilmiş şeylərin öhdəsində olub. Əlbəttə, saray adamları mədərəsə tikmək və vəqf etməkdən əlavə də kömək göstərirdilər və bu, zahirdə onların şəxsi mallarından ödənilirdi. İkinci Şah Abbasın zamanında tikilmiş iki mühüm mədrəsəni saray qadınlarından ikisi tikib. Onlardan biri «Cəddə bozorq» və digəri «Cəddə kuçək» mədrəsələridir. İsfahanın bazarında yerləşən və ortasından böyük bir çay keçən «Cəddə bozorq» mədrəsəsi iki mərtəbədir və mərtəbələrin hər ikisində tələbələrin yaşaması üçün otaqlar tikilib. Bu mədrəsə, üzərində həmin dövrün məşhur xəttatı Məhəmmədrza İmaminin xətti ilə yazılmış kitabəyə əsasən h.q. 1058-ci ildə ikinci Şah Abbasın nənəsi

tərəfindən tikilib. O, ehtimal ki, birinci Şah Abbasın qətlə yetirilmiş böyük oğlu Səfi Mirzənin həyat yoldaşı Huri xanım olub.

İsfahan bazarının qollarının birində «Qəhvəkaşiha» bazarında tikilmiş «Cəddə kuçək» mədrəsə isə birinci Şah Abbasın həyat yoldaşı və qətlə yetirilmiş Səfi Mirzənin anası, Şah Abbasın nənəsi Dilaram xanım tərəfindən tikilib. Bu məscidin giriş qapısının kənarında da İmaminin xətti ilə yazılmış və onun tikilmə tarixinin h.q. 1056-cı il olmasını göstərən bir kitabə asılıb.

Hər iki məscidin vəqfnamələri qalır və onlarda vəqfi təşkil edən yerlərin haralar olması və onların hara sərf olunması göstərilib. «Cəddə kuçək»in mədrəsəsinin vəqfnaməsində yazılıb ki, o xanım özünün «Narsatanlar» adı ilə məşhur olan Xan ətrafındakı xalis malından nəfis bir mədrəsə tikdirib və tikilib qurtardıqdan sonra nicat əhli olan on iki imamçı məzhəbin yəqini və əməli elmlərinin alimlərinə əbədi vəqf» edib. Bundan sonra kənd və qəssab dükanı, quru meyvə dükanı, tənbəki dükanı, ətir dükanı, qəlyan dükanı, təndir emalatxanası və çoxlu yerlərin adını da mədrəsəyə vəqf edib. Vəqf edilmiş bu yerlərin gəlirləri mədrəsənin qorunmasından əlavə «onun müəllim, tələbə, azançı və xadiməsinin istifadəsinə» sərf edilməlidir. Bu vəqfnamədə çoxlu kitabın da adı çəkilib. Vəqf edən şəxs onları da mədrəsəyə vəqf edib.

İkinci Abbasın dövrünün mədrəsələrindən digər biri də Şəfiiyyə mədrəsəsidir. Mədrəsə h.q. 1067-ci ildə Məhəmməd Şəfi İsfahani tərəfindən Dərdəşt məhəlləsində tikilib. Bu mədrəsənin vəqfnaməsi də kitabə şəklində məscidin içində asılıb. Həmin vəqfnaməyə əsasən bu mədrəsəyə bir çox kəndlər də vəqf edilib. Həmin dövrün mədrəsələrindən bəziləri də zaman keçdikcə dağılıb aradan gedib. Onlardan biri də Ağakafur mədrəsəsidir. O, ikinci Şah Abbas sarayının böyük şəxslərindən və xəzinədar olub. Həmin mədrəsədən qapısı üzərindəki lövhədən başqa bir şey qalmayıb.

Qeyd etmək lazımdır ki, vəqf işi yalnız mədrəsə və məscid işlərinə sərf olunmaqla məhdudlaşmırdı. Əksinə, çox vaxt imam Hüseyn əleyhis-salamın matəm mərasimlərinin keçirilməsi üçün və hətta müqəddəs ziyarətgahlara gedən zəvvarların səfər xərclərinin təmin edilməsi, eləcə də Məkkə və Mədinədəki müqəddəs hərəmlərin və mübarək gecələrin keçirilməsinin xərclərinin təmin edilməsi üçün də vəqflər edilirdi. Bundan əvvəl dedik ki, birinci Şah Abbas imamlar əleyhimissəlamın adlarına çoxlu vəqflər etmişdi və onlara nəzarət işini dövrün şahına həvalə etmişdi. İkinci Şah Abbas onların işinə yenidən baxılması göstərişi verdi və onun gəlirinin bir hissəsini

Mədinənin imam Hüseyn əleyhis-salamın nəslindən olan seyidlərinə göndərdi. Mədinənin seyidləri və böyük şəxsiyyətlərinin bəziləri Səfəvi dövründə İsfahana get-gəl edir və Səfəvi saraylarının köməklərindən bəhrələnirdilər.

## *İKİNCİ ŞAH ABBAS ZAMANINDAKI DİN ALİMLƏRİNİN İDEOLOJİ MÖVQELƏRİ*

Əksəriyyəti Molla Abdullah Şüştərinin, Şeyx Bəhainin, Mirdamadın və Mirfendirskinin şagirdlərindən ibarət alimlər nəsli, ikinci Abbasın zamanında çox böyük və nüfuzlu alimlərdən sayılırdılar. Onların çoxunun Şah Abbas ilə əlaqəsi var idi və Şah onlara çox hörmət göstərirdi. Burada onların çox mühüm olanlarının, öz zamanlarında və ondan sonra çox təsir göstərimiş bir neçəsinin tərcümeyi-halını bəyan edirik.

Həmin şəxslərin hallarının bəyan edilməsindən qabaq qeyd etmək lazımdır ki, həmin dövrdə bir tərəfdən hikmət və fəlsəfə çox güclü olub, alimləri özünə məşğul edib. Digər tərəfdən onun müxalifləri də tədricən özlərini hazırlayaraq birlikdə sufilik və fəlsəfəyə qarşı addım atmağa çalışıb. Fəlsəfəyə qarşı müxalifət elə də təsirli olmayıb və həmin dövrdə, qabaqkı zamanların fəlsəfi mətnlərinə saysız şərh və haşiyələr yazılıb.

Bu arada sufilərin daha ciddi düşmənləri var idi. Alimlər tərəfindən onların əleyhinə çoxlu yazılar yazılırdı. Bütün bunlara baxmayaraq irfanın, xüsusilə şiə ürfanı adlandırılamalı olan və əhli-beyt əleyhimissəlamın hədis və rəvayətləri ilə bir növ bağlı olan ürfanın özünəməxsus tərəfdarları var idi. Əllamə Məclisinin atası bu cür ürfanın tərəfdarlarından olub və bu səbəbdən sufiliyə zidd bəzi alimlərlə qarşıdurması olub. Həmin alimlərdən biri Qum şəhərinin imam cüməsi və şeyxul-islamı olmuş Molla Məhəmmədtahir Qummidir. O, sufilərin əleyhinə kitablar yazıb və Məhəmmədtağı Məclisi və Molla Möhsün Feyz Kaşani ilə bu barədə elmi toqquşmaları olub. Hər halda bu sahədə çoxlu kitablar yazıldı. Onların ən fəal şəxsi Məhəmmədtahir Qummidən əlavə Mirlohi adlı bir nəfər olub. O, məcazi Mütəhhər ibn Məhəmməd Miqdadi adı altında sufilərin əleyhinə kitablar yazırdı. Onun yazılarının bəziləri indi də qalmaqdadır. Lakin onların çox az hissəsi istisna olmaqla qalanları çap edilməyib.

Bir çox alimlər də fiqh ilə məşğul olurdular. Onların bəziləri Mühəqqiq Kərəkinin ictihad məktəbinin yolu ilə gedir, bəziləri isə Müqəddəs Ərdəbilinin məktəbini himayə edirdilər. Bir dəstə də tədricən fiqhi əxbariliyə üz tutdu. Qeyd etmək lazımdır ki, zaman keçdikcə fiqhi ictihad

zəifləsə də heç vaxt aradan qalxmadı. Səfəvi əsrinin sonuna kimi İsfahan şəhərində güclü üsul müctəhidləri yaşayırdılar. Düzdür, adı çəkilən alimlərdən başqa, onların heç biri yaradıcılıq və yenilik gətirməyiblər. Amma elə onların əxbarilik hərəkatlarının təzyiqləri müqabilində müqavimət göstərmələri mühümdür. Bu, fiqhin ictihad məktəbinin sonrakı nəsillərinə ötürülməsinə səbəb olub. Bütün bunlara baxmayaraq şiə elmi dairlərində bu zamandan sonra hədisə diqqət artır və «Üsuli-Kafi»yə və Səduqun əsələrinə onlarla şərh, hətta fəlsəfi və ürfani zövqlə açıqlama yazılır. Bunun nümunəsi Molla Sədra, Molla Xəlil Qəzvini, Mola Həsən Gilani, Şəhid Saninin nəvəsi Şeyx Əli və bir çox digər alimlərin Kafiyə yazdıqları şərhlərdir.

Bu dövrün elmi qalmaqallarından biri də cümə namazı məsələsi üstündə idi. Bu barədə də çoxlu kitabçalar yazılıb. Səfəvilərin əsrində, xüsusilə onların orta dövrlərindən sonra çox az məşhur alim tapmaq olardı ki, bu barədə kitab yazmamış olsun. Cümə namazı məsələsi barəsində əxbarilik meyllərinə malik şəxslərin çoxu imam Zaman əleyhis-salam qeybdə olan zamanda cümə namazının qılınmasını vacib sayırdılar. Müctəhidlər arasında, qeyb zamanında müctəhidi imam Zaman əleyhis-salamın naibi hesab edənlər cümə namazının qılınmasının vacibliyinə istər «eyni», istərsə də «təxyiri vacib» qail idilər. Müctəhidlərin bəziləri və əxbarilərin çox az bir hissəsi isə qeyb əsrində cümə namazının qılınmasına müxalif idilər. Ümumilikdə bu mövzuda yüzdən çox kitab yazıldı. 57 kitab onun eyni vacib olmasını, 23 kitab onun eyni vacib olmasını, 17 kitab isə qeyb əsrində cümə namazının qılınmasının haram olmasını isbat etmək istiqamətində yazılıb. Adları qalmış bir neçə kitab da var ki, onların mövzuları naməlumdur.

Qeyd etmək lazımdır ki, bu hadisələrin heç birində Səfəvi dövlətinin sütunları, Şahdan tutmuş digər əmirlərə kimi heç biri az da olsun iştirak etmirdilər. Yəni dövlət xüsusi dini siyasət yeritmirdi. Şah nüfuzlu böyük alimləri himayə edir və nüfuzlarına görə və ya öz etiqadına əsasən onlarla əlaqə yaradırdı. Əlbəttə, Əlirza Təcəlli Şirazi və ya Fazil Hindi kimi cümə namazının haram olması əqidəsində olan şəxslər şəhərin imam cüməsi ola bilməzdilər. Alimlərin Səfəvi dövləti ilə əməkdaşlıq barəsindəki siyasi-ideoloji nəzərləri barəsində indiyə kimi dediklərimizdən əlavə də danışacağıq.

Belə bir əlaqə bəzi Sufi başçıları ilə də bərqərar idi və bunun səbəbi həmin tayfanın xalq arasında nüfuza malik olması idi. H.q. 1070-ci ildə Şah Abbas «seyr-süluk əhlinin başçısı və Mütəəllihin fəlsəfi mərasimlərini dirçəldən

Molla Rəcəbəli Təbrizinin (h.q. 1080) və xeyir-şəri rəmzlə bilən dərviş Məhəmmədsaleh Lənbaninin evinə» gedib və «hər birinə zahiri hədiyyələr və batini feyzlərlə zənginlik sərmayəsi bağışlayıb.» Həmçinin başqa bir vaxt Həkim Məhəmmədhüseyn və Həkim Məhəmmədsəidin evlərinə gedib və «bir iki dəfə Məcnun dərvişi, eləcə də Molla Rəcəbəli və Məhəmmədsaleh dərvişi çağırtdırıb» onlara hədiyyə və bəxşişlər verib.Bu ənam həmin o ənamdır ki, Nəsrabadi özünün «Təzkirə» kitabında Molla Rəcəbəlinin şərhində xatırladır ki «cənnətlik ikinci Şah Abbas ona olan məhəbbəti səbəbindən İsfahanın hasarlarından kənarda olan Şəmsabad məhəlləsində (ona) bir ev aldı».

Abbasnamədə olan digər bir xəbər Şah Abbasın 1073-cü ildə bir daha Molla Rəcəbəli və Dərviş Saleh Lənbaninin diyarına getməsini nəql edir.

İndi həmin dövrün bir neçə nüfuzlu alimi haqqında məlumat verəcək, Süleyman Səfəvinin zamanına kimi yaşamış alimlərin vəziyyətləri barəsindəki açıqlamanı isə həmin dövr barəsindəki yerə saxlayacağıq.

## *MƏHƏMMƏDTAĞI MƏCLİSİ*

Həmin dövrün görkəmli alimlərindən biri Əllamə Məclisinin (h.q. 1110) atası axund Molla Məhəmmədtağı Məclisidir (h.q. 1003-1070). Onların əsilləri Ərdistandan olub və sonradan İsfahana mühacirət ediblər. O Şeyx Bəhainin görkəmli şagirdlərindən olub və öz əsərlərində ustadını çox ehtiramla xatırlayır. Axund kimi məşhurlaşmış birinci Məclisi dini elmlər və zəmanəsinin rəsmi elmlərində güclü nüfuza malik olub. O öz əsərlərində malik olduğu məxsus dini meyllərini göstərib. Onun əhli-beyt əleyhimissəlamın hədislərinə xüsusi rəğbəti olub və o, əsərlərinin çoxunu hədislərin şərh və təfsirinə həsr edib. O yazır ki, Əllamənin «Qəvaidul-ehkam» kitabını Molla Abdullah Şüştərinin yanında oxuyub.

Onun ən mühüm işlərindən biri «Mən la yəhzuruhul fəqih» kitabını tərcümə və şərh etməsidir. O, hədisləri bir-bir tərcümə və şərh edib, onun adını «Ləvamiu sahibqirani» qoyub. Vəhid Qəzvini yazır ki, «mübarək fərman ağamız Məhəmmədtağı Məclisinin adına verildi ki, «Mən la yəhzuruhul-fəqih» kitabını qayda ilə şərh etsin.» Yəni o bu işə Şahın göstərişi ilə başlayıb.

Birinci Məclisi aralarında yaxşı münasibət olan ikinci Abbasın dövrünü (h.q. 1052-1077) «nurani dinin alimlərinin Şahın diqqəti sayəsində parlaq şəriətin təbliğ» edilməsi istiqamətində çalışa bildikləri bir dövr hesab edir. O

həmçinin yazır ki, «bu qədir-qiymətsizin[1]payı da bu oldu ki, mən Peyğəmbər əhli-beytinin ilahi elmlərin nur mənbəyi, hikmət xəzinəsi və Quranın sirləri olan» və uzun illər «zalım sultanlar və yolunu azmış rəhbərlərin hakimiyyətdə olmaları nəticəsində kənara qoyulmuş mübarək açıqlamaq istiqamətində» bir neçə addım ata bildim. Belə ki, ondan sonra «zəmanənin alimlərinin çoxu onun yayılması və təhsilinə diqqət yetirirlər». Onun digər məşhur bir kitabı «Rozətul-müttəqin»dir.

Bundan əlavə, o bir çox kitab və risalələr də yazıb. Onların çoxu fars dilindədir. O «Mən la yəhzuruhul-fəqih» kitabına ərəb dilindən əlavə fars dilində də şərh yazmasının səbəbini belə açıqlayır: Bu diyarın sakinləri fars dilində danışırlar və onların hər birinin ərəb dilində araşdırma aparmaq və onu öyrənmək imkanı yoxdur. Bu səbəbdən onların çoxu hədis kitabları və işarə olunun şərhi mütaliə etməkdən məhrumdurlar». «Hökm və itaəti keçən» və «şahlığın üfüqü» (yəni Şah Abbas) tərəfindən də deyildi ki, «bu bəndə həmin kitabı fars dilinə tərcümə etsin». «Ümumi məqsəd ondan hamının bəhrələnməsi olduğu üçün onun dilini hamının başa düşəcəyi tərzdə yazdım və çətin başa düşülən ibarələrə və qəliz məcazlara üz tutmadım.»

Məhəmmədtağı Məclisi öz məşhur ustadı kimi ürfani meyllərə də malik olub. O da Səfəvi dövrünün alimlərinin əksəriyyəti kimi cümə namazının qılınmasının vacibliyi əqidəsində olub. Bundan öncə demişdik ki, Səfəvi dövründə cümə namazı barəsində yüzdən çox kitab yazılıb və onların çoxu imam Zaman əleyhis-salamın qeybi əsrində cümə namazını qılınmasının vacibliyinin isbatı barəsində olub.

Qeyd etmək lazımdır ki, birinci Məclisi İranda üç əsrdən çox din alimi kimi fəaliyyət göstərmiş Məclisi sülaləsinin böyüyüdür. Onların ən seçilmişi gələn söhbətlərdə barəsində danışacağımız Əllamə Məclisidir.

## *MOLLA MƏHƏMMƏDXƏLİL QƏZVİNİ*

Molla Məhəmmədxəlil Qəzvini (h.q. 1001-1089) ikinci Şah Abbas dövrünün alimlərindəndir ki, Üsuli Kafiyə yazdığı böyük şərhə görə məşhurlaşıb. O cavanlığında Xəlifə Sultanla bir yerdə dərs oxuyub və onun nüfuzlu vaxtlarında bir müddət Rey şəhərində Həzrət Əbdüləzimin ziyarətgahının başçısı və oradakı mədrəsinin müəllimi olub. Ondan sonra həmin vəzifədən uzaqlaşdırılıb, bir müddət Məkkədə məskunlaşıb və daha sonra Qəzvinə qayıdıb.

---

[1] Təvazökarlıqəlaməti olaraq özünü belə adlandırır

Vəhid Qəzvinin «Abbasnamə»də yazdığına görə ikinci Şah Abbas özünün Qəzvinə olan səfərində «əsrin alimlərinin məşhur və möhtərəmlərindən olan Xəlilullah Qəzvinini digər alim və tələbələrlə birlikdə» iftar məclisinə dəvət etdi «və həmin məclisdə buyurdu ki, Kuleyninin möhkəm dinin əsası və İslamın abadlıq amili olan kitabını sakinlərinin əksəriyyəti fars dilində danışan bu diyarın əhalisi üçün fars dilində şərh etsinlər, ondan hamı bəhrələnə bilsin.» «Abbasnamə»nin sonrakı ibarələrindən belə məlum olur ki, o, şərhi əvvəlcə ərəb dilində yazıb və sonra fars dilinə tərcümə edib.

Bu alim İmami-Zamanın qeybi əsrində cümə namazının qılınmasını haram hesab etməsinə baxmayaraq əxbari baxışlara malik olub və fiqhi ictihad, fəlsəfə və sufiliklə bərk müxalif olub. O özünəməxsus nəzərləri ilə məşhur olub.

### *ƏBDÜRRƏZZAQ LAHİCİ*

Təxəllüsü Fəyyaz olan Əbdürrəzzaq Lahici (h.q. 1072) on birinci hicri əsrinin tanınmış filosoflarındandır ki, Nəsrabadinin yazdığına əsasən «onun əsli Lahicandandır, lakin Qumda çox olduğu üçün Qummi kimi məşhurdur». O Molla Sədranın kürəkəni olub və fəlsəfədən əlavə irfani zövqə və çox yüksək səviyyədə şairlik qabiliyyətinə malik olub. Fəyyaz Molla Sədraya çox məhəbbət bəsləyib və şerlər toplusunda onun Molla Sədranın mədhində yazdığı çoxlu şerləri də var. Lahiciyə Fəyyaz ləqəbini Molla Sədra verib. Molla Sədra digər kürəkəni Molla Möhsin Feyz Kaşaniyə Feyz ləqəbi verib. Bu səbəbdən Fəyyaz bir şerində belə deyir:

*Feyz Kaşi ra be Fəyyaz ər koni ehsan rəvast*
*Zan ke u həm əz kəmərbəndane peymane şomast*

Yəni: Əgər Feyz Kaşanini Fəyyaza ehsan etsən rəvadır, çünki o da sizində əhd-peymana sadiqlərdəndir.

Vəliqulu Şamlı da onu «fəlsəfə sahəsində ikinci Şah Abbasın zamanının ən böyük filosoflarından» hesab edib. Onun iki kitabı daha məşhurdur. Onlardan birincisi Xacə Nəsirin «Təcridul-etiqad» kitabına şərh kimi yazılmış «Şəvariqul-əlham» kitabı, digəri isə fars dilində əqidənin əsaslarından bəhs edən «Gövhəre-murad» kitabıdır. Kitablar ikinci Şah Abbasa təqdim edilib. Əslində Fəyyazı da hikməte-mütəaliyə məktəbinin ağıl, eşq, fəlsəfə və irfanının bir yerə topladığı üzvlərindən hesab etmək

lazımdır və o, sufiliyin müxalifləri tərəfindən sufilik yolu ilə getməklə məşhurdur.

Fəyyaz çox görkəmli şair olub və onun şerlər külliyyatı çap edilib. Onun şerləri çox lətif və gözəldir. O, bəzi alimlər və Səfəvi əmirlərinin vəsfində də şerlər deyib. Biz başqa yerdə onun mədhiyyə şerləri barəsində danışacağıq.

## *ŞAH ABBAS VƏ ŞƏRABIN QADAĞAN OLUNMASI FƏRMANI*

Bundan əvvəl demişdik ki, Şah Təhmasib h.q. 940-cı ildə tövbə etdikdən sonra əmr be məruf və nəhy əz münkər barəsində bir sıra fərmanlar imzalamışdı və özünün uzun sürən bütün hakimiyyət illəri ərzində bu barədə çox ciddi davrandı. Ondan sonra bu məsələlərə ciddi yanaşılmadı. Hətta birinci Şah Abbas da bir neçə məqamı çıxmaqla özündən bir həssaslıq və ciddilik göstərmədi.

İkinci Şah Abbasın sarayında alimlər çox olduğu üçün, xüsusilə vəzirlik vəzifəsi Xəlifə Sultanın ixtiyarında olduğu üçün bir daha əmr be məruf və nəhy əz münkərin icrasında məxsusən əxlaqi fəsadların qarşısının alınması istiqamətində bir sıra fərmanlar verildi. Bu işlər Xəlifə Sultanın vəzirliyinin ilk illərində, yəni h.q. 1055-ci ildə və ya ondan bir az sonra görüldü. Qeyd etmək lazımdır ki, Xəlifə Sultandan əvvəlki vəzir Sarıtağı da əxlaqi fəsadların qarşısının alınması istiqamətində çayxanalarda ciddi qanunlar icra edib.

Vəhid Abbasnamədə ədəbi qələmi ilə Xəlifə Sultanın vəzirliyinin əvvəlində şərabın qadağan edilməsini belə nəql edir:

*Vəzirlik məqamının alimlərin sultanının canişininin vücudu ilə zinətləndiyi bu günlərdə, diqqət xüsusi olaraq ona yönəlib ki, nurani şəriətin mülk evi, heç nədən çəkinməyən yolkəsənlərdən qorunsun, Allaha itaət zülalı və pərhizkarlıq toz-torpağa bulaşmasın. Bu uca niyyətin kamal zinəti geyindiyi bu günlərdə əlahəzrət Şahın bu fərmanı cari oldu ki, özbaşınalıq və atasızlıqdan yaxşı-pis, gözəl-çirkin ilə birbaşa əlaqəsi olan meynənin qızı ayağını ətəyinə yığaraq cürət edib üzümün zifaf otağından küpün kef məclisinə, billur şüşübəndə, piyalənin kəcavəsinə və şərab kuzəsi küçəsinə qədəm basmasın və nəzakətsiz içki əhlinin geniş arzu dişlərini sirkə alınlılıq və turş üzlülüklə kütləşdirsin.*

Söhbətinin davamında şərab içilməsinin əxlaqi fəsadlar da gətirməsinə işarə edən Vəhid Qəzvini bu qəbildən olan fəsadların da qadağan edilməsi barəsində belə yazır:

*Şərab içənlər və mey çəkənlərin əyyaşlıq dəstələri adətən bazarın zülflərə tamaşa edən əhlinin və qarmaqarışıqlıq və fəsad dairələrinin izdiham yaradanlarının köməyi ilə bəzəndiyi üçün pozğunçuluq da bu yolla tamam yayılıb. Onlar evlərdə, məhəllələrdə həmin işlə və Adəm övladının yaradılışın əvvəlindən düşməni olan iblislərə aşkarcasına kömək etməklə məşğuldurlar. Heyvani nəfs ağıl qüvvəsinə qalib gəldiyi üçün və şeytanın təhriki ilə doğru yoldan çıxarlar. Çoxlu sayda adam bir yerə toplaşıb və onların hər biri divana malın izahı adı ilə təhlükəli bir məbləğ çatdırırdılar. Allahın kölgəsi əlahəzrətin yüksək himməti, ümumilikdə böyük məbləğ olan həmin məbləğləri yüngül və əhəmiyyətsiz sayaraq əmr buyurdu ki, həmin pis əməl sahiblərini o işdən çəkindirsinlər və bundan sonra çirkin işlə məşğul olmağa qoymasınlar. Pak və müqəddəs şəriətin yayılması artdığı üçün ermənilərə də dəri tikib onu müsəlmanlara satmaq kimi işləri qadağan etdilər. Qadağalara görə əlahəzrətə çoxlu məbləğ çatdırmalarına baxmayaraq, onların istəkləri rəva edilmədi. Ümid var ki nurani şəriətin sütunları və millət, tayı-bərabəri olmayan bu Şahın mətanətli rəyini gücləndirməklə həmişə yüksək və möhkəm olsun.*

İkinci Şah Abbasın hakimiyyətinin son illəri və Şah Süleymanın şahlığı dövründə İranda olmuş bir xarici müşahidəçi də bu barədə belə yazıb:

Keçmiş zamanlarda çayxanalar fəsad mərkəzlərindən biri idi. Çünki onların xidmətçilərinin əksəriyyəti on yaşından on altı yaşına kimi olan yeniyetmə və gözəl gürcü uşaqları idi ki, öz saçlarını cavan qızların saçları kimi hörürdülər və müştərilərin diqqətini daha çox cəlb etmək və onları təhrik etmək üçün dar şalvar geyinirdilər. Vəziyyətin belə davam etməsi təqvalı və fəzilətli şəxslərin təəssüf və narahatçılığına səbəb olurdu. Nəhayət ikinci Şah Abbasın vəziri Xəlifə Sultan zərif hiylələrlə bu cür xoşagəlməz və qadağan olunmuş işlərdə qərq olmuş Şahı bu fəsad mərkəzlərini bağlamaq fikri ilə razı saldı və çayxanaların vəziyyəti yaxşılaşdı, onlarda çirkin və rüsvayçı işlər görünmədi.

Şah Abbasın şərab içilməsini qadağan etməsi h.q. 1058-ci ildə Qəndəhar alındıqdan sonra pozuldu. Çünki Şah ətrafındakıların təsiri altına düşərək Hirmənd çayının kənarında böyük bayram şənliyi mərasimi keçirdi və özü orada şərab içdi. Şahın məclislərini qələmə alan Vəhid onu müdafiə edərək yazır ki, «əgər o səhərdən axşama və axşamdan səhərə kimi fasiləsiz, arası kəsilmədən şərab içməklə məşğul olsa, onun çöhrəsində məstlik əlaməti görünməz». Əlbəttə qədimdə şahlıq mədəniyyətində şərab içmək elə də cinayət sayılmayıb.

Bəzi mənbələrin nəql etdikləri xəbərlərə əsasən h.q. 1064-cü ildə bir daha şərabın qadağan olması barəsində ümumi fərman verilib və şairlər bu barədə şerlər söyləyib. Vəliqulu Şamlı yazıb ki, Şah elə ki, ölümü hiss etdi «sabit və qəti etiqadla şərabdan tövbə qıldı». Onun digər işi də Məşhəd yoxsullarına sədəqə göndərmək idi. Bu, Xatunabadinin yazdığı həmin o xəbərdir ki, Şah Mühəqqiq Səbzivariyə beş yüz tümən nağd qızıl verdi ki, «axund onu Məşhədə aparıb orada sədəqə versin».

## *İKİNCİ ŞAH ABBASIN ZAMANINDA FARS DİLİ ƏDƏBİYYATI*

Bundan qabaq Səfəvilərin dövründə olan nəsr və mənzum mətnlər barəsində bəzi mətləblər deyilib. İndi həmin mətləbləri bu dövrün şair və yazıçıları barəsində davam etdirəcəyik. Şairlərin tərcümeyi-halı barəsində yazılmış Təzkirə kitablarına nəzər salanda, birinci Şah Abbasın zamanından sonra fars dilli şairlərin saylarının artdığını görmək olar. Onların arasında bəzən Saib Təbrizi kimi çöhrələrə rast gəlmək mümkündür. Şübhəsiz onları ən böyük fars dilli şairlərdən hesab etmək lazımdır. Özü də arif şair olmuş və İsfahanın Lənban məhəlləsində yaşamış Nəsrabadinin Təzkirə kitabı İsfahanın, digər şəhərlərin və ümumiyyətlə ölkənin həmin dövrdəki ən yaxşı şairlərini tanımaq üçün çox gözəl mənbədir. Bundan əlavə «Qisəsul-Xaqani» kitabının geniş bir hissəsi də ikinci Şah Abbasın dövründəki şairlərin tərcümeyi halına həsr edilib.

Hindistan karvanı bu zamanda da davam edib və şairlər İranla Hindistan arasında get-gəldə olublar. Onların çoxunun əli Hindistanda çörəyə çatsa da, vətən havası ilə İrana qayıdırdılar. Nümunə üçün Same təxəllüslü Mirzəməhəmməd Salehi göstərmək olar ki, o Abdullah Qütbşahın sarayında olub və «Əmirul-məlik» ləqəbini daşıyıb. Lakin sonra «cənnət nümunəsi olan İranın havası beyninə dolub» və h.q. 1075-ci ildə İrana qayıdıb. O ikinci Şah Abbasın mədhində çoxlu qəsidələr deyib. Molla Rüşdi Kəcvəri də Hindistanda əmir olub. Amma «bir təqsiri səbəbindən qəzəbə düçar olub» və İrana qayıdaraq şairliklə məşğul olub.

Çox təəssüflə demək lazımdır ki, bu şairlərin çoxunun şer divanları əlyazma şəklində qalmaqda olsa da çap olunmayıb və onların çoxundan zehnlərdə yalnız bir neçə beyt qalıb.

Digər bir nöqtə budur ki, həmin dövrdə ikidilli şairlər də olublar ki, fars və türk dillərində şerlər yazıblar. Nümunə üçün Təbrizin alim, fəqih və şeyxul-islamı olmuş Mirzə Salehi göstərmək olar. Vəliqulu Şamlı onun barəsində yazır: «O fars dilli comərdlərdəndir ki, bəyan dadını şəkər olan türk

kəlmələri ilə» qarışdırıb və «onun fars və türk dillərində olan şerləri cənnət cilvəsi olan İranda məşhurdur».

Həmçinin bu dövrün şer üslublarını barəsində də çoxlu mətləblər deyilib. Məlumdur ki, Səfəvi əsrinin ilk dövrlərinin şairləri ilə Səfəvilərin orta və son dövrlərinin şairləri arasında bir sıra fərqlər mövcuddur. Necə ki, Hindistana mühacirət etmiş şairlərlə tədricən fars dilli şair olmuş hindlilər arsında fərqlər vardır. Eyni zamanda son dövrlərin şairlərinin İraq üslubunun müqabilində hind üslubuna malik olmaları barəsindəki sözlər indi tərəddüd doğurur və əgər belə bir ifadə doğru olmuş olsa o, yalnız Səfəvilərin son dövrlərində olmuş fars dilli hind şairləri barəsində özünün doğruldacaqdır.

## *HƏMİN DÖVRÜN ƏN GÖZƏL QƏZƏL USTADI-SAİB TƏBRİZİ*

Səfəvi dövrünün şairlərinin çoxu təbii olaraq həm şerin mahiyyəti baxımından, həm də həmin əsrdə yayılmış sufi tərbiyəsi baxımından ürfani təbiətə malik olublar. Bu səbəbdən də həmin dövrün şairlərinin şerləri İranda olan qəzəl demək ənənəsi və onun hindistandakı yeni təcrübələrinə tabe olaraq məzmun baxımından ürfani, kəlmələri və məfhumları baxımından keçmişlərin eşq və məhəbbət qəzəlləri çərçivəsində olub. Demək olar ki, həmin qəzəllərdə istifadə edilən ibarə və mənaların hamısı şairin məcazi mənada istifadə etdiyi və daim yaradıcılıq halında olan maddi və dünyəvi ibarələrdir. Bu üslubda olan şer həm ürfan məsləkli şəxslərin arifanə ruhlarını təmin edirdi və həm də onlarda maddi ibarələrdən istifadə edildiyi üçün avaraçılıq və şəriətə zidd ruhiyyələri genişləndirirdi. Belə ki, məsələn Saib Təbrizi kimi dindar bir şair ümum arasında istəmədiyi və qəsdində olmadığı bir təsir buraxıb. Saibin bu kimi şerləri bizi belə bir çətinliyin olması ilə tanış edə bilər.

*Gərdune sədəf qohəre yekdaneye eşqəst*
*Xurşide cahantab neginxaneye eşqəst*
*Həm Kəbeye İslam və həm atəşkədeye kofr*
*Viranşodeye celveye məstaneye eşqəst*
*Saeb ke muqime hərəme Kəbeye din bud*
*Emruz kəmərbəsteye botxaneye eşqəst*

**Yəni: Sədəfin asimanı eşqin bir incisidir; dünyaya saçan günəş eşq üzüyünün qaşıdır; həm İslamın Kəbəsi və həm də küfr atəşgahı eşqin**

**məstcəsinə cilvəsi nəticəsində viran olmuşdur; din Kəbəsinin sakini olan Saib bu gün eşq bütxanasının yolçusudur.**

Saib şerlərinə münasibətdə yanlış təsəvvürlərdən xəbərdar idi və ona görə də digər bir yerdə deyir:

*İn nakəsan ke fəxr be əcdad mikonənd*
*Çun səg be ostoxan dele xod şad mikonənd*
*Eşqe məcaz əbcəde eşqe həqiqət əst*
*Dər aləmi ke əhle-del irşad mikonənd*

**Yəni: Öz əcdadları ilə öyünən bu insaniyyətsizlər it kimi sümüklə öz qəlblərini şad edirlər; qəlb əhlinin doğru yol göstərdikləri aləmdə məcazi eşq həqiqi eşq üçün ibtidai bilikdir**

Hər halda bu əsrin bütün şairlərinin xüsusiyyəti eşq, vüsal, ayrılıq, ümid, arzu və bu kimi məfhumların kənarında minlərlə yeni ibarə və ifadələr gətirmək və insanı hisslərin sonsuz dalğalarına batırıb çıxarmaqdır.

Saib kimi məşhurlaşmış Mirzə Məhəmmədəli Mirzə Əbdürrəhim oğlu təbrizli bir ailədə dünyaya gəlib. Onun atası tacir olub və onlar birinci Şah Abbasın zamanında İsfahana köçüb oranın Abbasabad məhəlləsində yaşayıblar. O gəncliyinin bir neçə ilini Hindistanda keçirib və orada şan-şöhrət qazanıb. Sonra İsfahana qayıdıb və məskunlaşıb. O, şerdə böyük məqam əldə edib və Səfəvi dövrünün ən məşhur qəzəl şairi və yeni məktəbin banisi adını özünə məxsus edib. Saib h.q. 1087-ci ildə İsfahanda vəfat edib və öz inanc yeri olan Dərviş Saleh təkyəsində dəfn edilib.

Saib əsasən qəzəl şairidir və onun şerlər külliyyatının böyük hissəsini qəzəllər təşkil edir. O, siyasət və şücaət barəsində çox az şer yazıb. Amma bununla belə həyatı boyu şahlarla qarşılaşanda onların mədhi və matəmində müxtəlif şerlər yazıb və həmin şerlərində onların şəxsiyyətlərini mədh edib. Onun şerlərinin bir hissəsini məcaz və təşbih üzərində qurulmuş əsassız xəyali təriflər təşkil edir. O, Səfəvi şahlarından üçü - Səfi, ikinci Abbas və Süleyman ilə müasir olub və onların hər üçünü mədh edib. Bəzilərinin ölümü barəsində mərsiyyələr deyib. Tarixi mənbələrdə Saib ikinci Şah Abbasın zamanının «məliküş-şüəra»sı, yəni «şairlər başçısı» adlandırılıb.

Saibin şerlər külliyyatı elə həmin zamandan İrandan əlavə Hindistanın ucqar nöqtələrinə kim gedib çıxıb və həmin diyarın şair və söz ustaları onun üslubunda şerlər deyib, külliyyatını tərifləyiblər. O, qəzəllərinin birinin sonunda belə deyir:

*Be caye lәlo-qohәr әz zәmine İsfahan Saib*
*Be mulke Hend xahәd bord in әşar rәngin ra*

**Yәni: Saib İsfahan torpağından lәl-cәvahir yerinә Hindistan mülkünә bu rәngarәng şerlәri aparacaq.**

Dediyimiz kimi Saib qәzәl şairi kimi mәşhurdur vә bu barәdә xәyalpәrәstlikdәn әlavә әxlaqi, ürfani vә ictimai mәnalara da toxunduğu üçün daha çox mәhәbbәt qazanıb. Onun beytlәrinin bәzilәri misala çevrilib. Bu, onun xalq kütlәsi arasında nüfuza malik olmasını göstәrir. Bunlardan әlavә onun qәzәllәrindә dediklәrimizdәn başqa Saibin dindarlığı vә insanları tәvәkkülә vә Allaha tәslim olmağa, dinin möhkәm ipindәn yapışmağa, Allaha vә axirәtә dәvәt etmәsi dә onun şerlәrindә çox görünәn mәsәlәlәrdәndir.

*Dәr hәvaye kare donya mifeşani can çera*
*Mikoni dәr rahe bot seyde hәrәm qurban çera*
*Del be donyaye dәni dadәn nә kare aqelәst*
*Midәhi Yusuf be sim qәlb ey nadan çera*
*Әz bәsirәt nist qohәr ra bәdәl kәrdәn be xak*
*Abiruye xiş mirizi bәraye nan çera*

**Yәni: nәyә görә dünya işi üçün canını sıxırsan, nәyә görә büt yolunda hәrәm ovunu qurban verirsәn; alçaq dünyaya könül vermәk ağıllı adamın işi deyil, nә üçün Yusifi saxta gümüş pula verirsәn, ey nadan; cәvahiri torpaqla dәyişmәk uzaqgörәnlik deyil, nә üçün çörәyә görә abrını tökürsәn?**

Digәr bir yerdә Saibin dünyanın yaxşı vә pisi ilә davranmaq barәsindәki әxlaqi tövsiyyәsi belәdir:

*Fareğ ze bәde nike cahane qozәran baş*
*Bi daiye çun dideye heyrәtzәdeqan baş*
*Әz rahe tәvazo be fәlәk rәft Mәsiha*
*Pa dәr rәhe mәnzel kon-o xurşid mәkan baş*
*Dәr hoqqeye sәrbәstә qozarәnd soxәn ra*
*Xamuş neşin, mәhrәme әsrare nihan baş*
*Ayineye xurşid bovәd dideye bidar*

*Çun şəbnəme qol ta dəme axər negəran baş*
*Şod məxzəne qohər sədəf əz pak dəhani*
*Yek çənd dər in bəhr to həm pak dəhan baş*
*Sərrişteye mizane ədalət məde əz dəst*
*Zinhar ke ra hər ke geranəst geran baş*
*Cayi ke be kirdar şəvəd qiymə̄te mərdom*
*Saib ke tora qoft ke çun tiğzəban baş*

**Yəni: Fani dünyanın pis və yaxşısından vaz keç, heç bir iddia və arzun olmadan mat qalanların gözü kimi ol; İsa Məsih təvazökarlıqla asimana getdi, məqam yoluna qədəm qoy və günəş məkanlı ol; sözü başıbağlı qaba qoyarlar, susub otur və gizli sirlərin sirdaşı ol; oyaq göz günəşin aynası olar, gülün şehi kimi son ana kimi nigaran ol; sədəf ağızının paklığından cəvahir xəzinəsi oldu, bu dənizdə sən də bir müddət pak ağızlı ol; ədalət meyarının kələfinin ucunu əldən çıxarma, amandar ağır olanla sən də ağır ol; insanların qiymə̄ti əməl ilə olan yerdə Saib sənə nə vaxt dedi ki, itidilli ol.**

Saib qəzəl deməkdən əlavə Səfəvi şahlarını mədh etməkdə, eləcə də onların ölümündə mərsiyə deməkdə də çox məharətli olub. O öz şerlərində onların dövlətlərini möhkəmləndirməyə çalışırdı və müxtəlif şəkillərdə onları himayə edirdi. Şübhəsiz, bu qəbil şairlərin şerlərinin hakimlərin hökumətlərinin qanuni və şəri qəbul ediməsi və xalq tərəfindən sevilməsində çox təsiri olub. Saib Şah Süleymanın mədhində dediyi şerlərin birində deyir:

*Xudaya şahe mara sehhəte kamel kəramət kon*
*Be ğeyr əz dərde din əz dərdha u ra hemayət kon*

**Yəni: Xudaya bizim şahımıza kamil sağlamlıq əta et və onu din dərdindən başqa digər dərdlər müqabilində himayə et**

Digər bir yerdə deyir:

*Nəmandə əst be coz «dərde din» degər dərdi*
*Ze esteqaməte dövrane an Məsihe zaman*

**Yəni:zəmanə Msihinin mətanəti sayəsində «din dərdi»ndən başqa digər bir dərd qalmayıb.**

O, başqa bir yerdə Şah Səfi və onun vəziri Mirzə Təqiyyəddin Məhəmmədi şiə məzhəbinin bayraqdarı hesab edir:

*Sahebe livaye məzhəbe isna əşər Səfi*
*Ke emruz əz ust sikkeye din, Cəfəri əyar*
*Xake rəhe əimmeye isna əşər Təqi*
*Ke əz kilke rast xaneye cahan ra dəhəd qərar*

**Yəni: On iki imamçı şiə məzhəbinin bayraqdarı Səfidir ki, bu gün dinin pulunun əyarının Cəfəri olması ondandır; On iki imamın ayağının torpağı Təqidir ki, düz qamış qələm ilə dünya evini bərqərar edər.**

Saib ikinci Şah Abbasın zamanında Qəndəhar alınanda Hindistanda şiəliyin genişlənməsi barəsində belə deyir:

*Dər Hend gəşt xotbeye isna əşər bolənd*
*Şod kamelul-əyar zər əz name həşt-o çar*

**Yəni: Hindistanda on iki imamçılıq xütbəsi ucaldı və qızılın əyarı səkkiz və dördün (yəni on iki imamın) adı ilə kamilləşdi.**

Saib Məkkənin də ikinci Şah Abbasın əli ilə fəth olunmasını gözləyirdi:

*Nafe aləm ra be name u boridə əst asiman*
*Məkke ra təsxir xahəd kərd an aləm mədar*

**Yəni: Asiman dünyanın göbəyini onun adına kəsib, dünya mehvərli o Şah Məkkəni ələ keçirəcəkdir.**

Saib özünün bir çox şerlərində Səfəvi şahlarını Allahın kölgəsi adlandırır:

*An sayeye Xoda ke cəhan roşən əst əz u*
*Avərəd ru be borce şərəf aftabvar*

**Yəni: Dünyaya işıq saçan Allahın o kölgəsi, günəş kimi şərəf bürcünə üz tutacaqdır.**

O ikinci Şah Abbası şəriətə tabe bir şəxs kimi mədh edərək deyir:

*Gər çe bər fərmanrəvayane cahan fərmandehi*
*Sər nemipiçi ze fərmane Xoda dər hiç kar*

**Yəni: Dünyanın hökmdarlarının hökmdarı olmağına baxmayaraq heç bir işdə Allahın əmrindən boyun qaçırmırsan.**

## *ƏBDÜRRƏZZAQ LAHİCİ VƏ MƏDHİYYƏ ŞERİ*

Səfəvi dövləti yüz əlli il müddətində məsum şəxsiyyətlər barəsindəki mədhiyyə şerlərini himayə etdikləri üçün bu barədə şer söyləmək adi bir işə və sanki hər bir şairin külliyyatının duzuna çevrilmişdi. Bu dövrdə çox az məşhur şair tapmaq olar ki, məsumların – əleyhimissəlam – hər biri üçün xüsusi bir qəsidə deməmiş olsun. Əlbəttə Səfəvi şahları və onların sədr, vəzir və əmirlərinin eləcə də alim və ustadların mədhi də yavaş-yavaş dəbə düşmüşdü və fars şerində mədhiyyə ədəbiyyatı rövnəqlənmişdi. Vəliqulu Şamlı öz əsərində məsumlar – səlavatullahi əleyhim əcməin- barəsində on iki min beyt şer demiş Mirseyidəli Qaneinin adını çəkib.

Şübhəsiz şairlərin bu barədəki şerlərinin nümunələrinə hətta ötəri nəzər salmaq çox çətin və həm də bu kitabın imkan dairəsindən xaricdir. Lakin nümunə üçün bu dövrün görkəmli şairlərindən birinin şerlərinə nəzər salacağıq ki, o imamların mədhi və Səfəvi şah və əmirlərinin, eləcə də həmin dövrün alim və ustadlarının tərifində özündən sonra gözəl şerlər qoyub gedib. O, elmi şəxsiyyəti barəsində söhbət etdiyimiz Molla Əbdürrəzzaq Lahicidir (h.q. 1072) ki, Fəyyaz ləqəbi ilə məşhur olub və Molla Sədranın kürəkənlərindən biridir.

Onun külliyyatı tövhid barəsindəki iki qəsidə və həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih – vəsfində olan üç qəsidə ilə başlayır və sonra Əmirəl-möminin mədhində altı qəsidə təqdim edir. Davamında Fatimeyi-Zəhra – səlamullah əleyha – barəsində bir qəsidə və imamların hər biri barəsində bir qəsidə, on ikinci imam barəsində isə iki qəsidə deyib. Bu şerlərdə Fəyyazın fikirləri və fəlsəfi-ürfani düşüncələrini görə bilərik ki, o onları şer zövqü ilə bir-birinə qatıb. O Peyğəmbərin vəsfində belə deyir:

*Kare yek ənqoşte ecazət bovəd şəqqul-qəmər*
*Şəmmeyi əz kare meracet bovəd gərdun dəri*
*Xərqe gərdun momtəne danəd əgər nadan çe bak*
*Momtəne bayəd ke yabəd kare möcez bərtəri*
*Mən be borhan mikonəm isbat in mətləb dorost*
*Ta nəpəndarəd kəsi kin həst məhz şaeri*
*Ya rəsuləllahi xeyrul-mursəlin xətme* rusul
*Ey ke dər vəsfe to heyran mişəvəd əqle həriyy*
*Dustdare əhle-beyt-o etrəte pake toəm*
*Digəri layeq nədanəm dər səri-o sərvəri*
*Hər ke u bi mehre itrət lafe iman mizənəd*
*Pişe mən fərqi nədarəd əz cuhude Xeybəri*

**Yəni: Sənin bir barmağının möcüzəsi ayı parçalamaqdır, merac işinin cüzi bir hissəsi asimanı dəlməkdir; əgər nadan asimanın dəlilməsini qeyri-mümkün hesab etsə eybi yoxdur, inkar edən gərək daha üstün möcüzə olan bir iş tapsın; mən dəlil-sübutla bu məsələnin doğruluğunu isbat edərəm ki, kimsə bu işi sıraf şairlik sanmasın; ey Allahın Peyğəmbəri, peyğəmbərlərin ən xeyirlisi və sonuncusu, ey o kəs ki, ən layiqli ağıl sənin vəsfində sərgərdandır; mən sənin pak əhli-beytinin aşiqiyəm, böyüklük və başçılığa başqasını layiq bilmərəm; əhli-beytə məhəbbəti olmadan iman iddiasında olan kəs mənim yanımda Xeybər yəhudilərindən fərqlənmir.**

Digər bir yerdə Peyğəmbər - səlləllahu əleyhi və alih - və onun səhabələrini filosoflarla müqayisə edərək deyir:

*Ze Səlmaneş həme elme Fəlatun ra zəbun yabi*
*Ze Meqdadeş həme adabe yunan ra ziyan bini*
*Be dövraneş hezaran çun Ərəstu bi əməl yabi*
*Be dərgaheş hezaran çun Sekəndər pasiban bini*
*To ra ba nure Qorani, çe hacət elme yunani*
*To ataş dər nəzər darivo tabeş əz duxan dari*
*Kəsi ba Mustafa quyəd Ərstalis-o Əflatun*
*Tulue aftab əngəh to nur əz firqədan bini*
*Fəlatun əql milafəd Məhəmməd eşq mibafəd*

*To poştekare in bengər ke ruye kare an bini*
*Tora dər eşq mordən beh bovəd əz zistən dər əql*
*Ke in zenqare del yabiyo an pərdaze can bini*

**Yəni: (Peyğəmbərin) Salmanının yanında Əflatunun bütün elmini naqis görərsən, Miqdadının yanında yunanın bütün qaydalarını zərərli görərsən; onun ətrafında minlərlə əməlsiz Ərəstun kimisini taparsan, hüzurunda minlərlə İskəndər kimi gözətçi görərsən; Quran nuru ola-ola sənin yunan elminə nə ehtiyacın?! Gözünün qarşısında od ola-ola, tüstüdən işıq istəyirsən; Mustafa olan halda kimsə Ərstalis və Əflatundan danışar? Günəş doğduğu halda sən nuru ikiqardaş ulduzdan bilirsən; Əflatun ağıl uydurur, Məhəmməd eşq toxuyur; sən bunun işinin arxasına bax ki, onun işinin üzünü görəsən; sənin üçün eşqdə ölmək ağılda yaşamaqdan daha yaxşıdır ki, ikincidə qəlb pas tapar, birincidə isə can və ruhun cilalanmasını görərsən.**

Fəyyaz imam Əli əleyhis-salamın mədhində dediyi şerdə məşhur məcaz və ibarələrdən istifadə etməklə yanaşı o həzrətin İslamın irəliləməsindəki roluna da toxunub:

*Ey ləl gerefte ze təkəllüm be qohər bər*
*Vin kane nəmək ra ze təbəssom be şəkər bər*
*Ba həmleye u kuh çe başəd ke nəbəndəd*
*Kəs selseleye muy be kuh-o be kəmər bər*
*İn celve ke dər dəste dəre Xeybər əz u did*
*Moşkel ke be kəf celve konəd corme sepər bər*
*Damad-o pesər-o əmm-o bəradər be coz u kist*
*Salare rusul ra be kamalat-o honər bər*
*Bər caye nəbi u nəneşinəd ke neşinəd?*
*Layeq nəbovəd məsnəde xor coz be qəmər bər*
*Piş əz həme gərdide be İslam muşərrəf*
*Biş əz həme dər ceybe kamalat bəşər bər*
*Həm xişiyo həm pişiyo bişi be kamalat*
*Ba in həme mənsus be Qoran-o xəbər bər*

Fəyyaz bu tərtiblə digər imamların mədhində də qəsidələrini davam etdirir və bir yerdə gəlib neçə il hərəminin kənarında yaşadığı həzrət Məsuməni – salamullah əleyha – mədh edərək deyir:

*Çu əz həvadise dövran pənah dade məra*
*Be astaneye Məsume həzrət zul-mənn*
*Rəva mədar ke əz in roze dur manəm dur*
*Ke əz ğubare dərəş gəşte dideəm roşən*
*Çe astane behişti ke binəd əz rizvan*
*Çenan ğubare dəre u begirədəş damən*

**Yəni: Əta və bəxşiş sahibi olan Allah dövranın hadisələrindən mənə həzrət Məsumənin kandarında sığınacaq verdi; mənim bu behişt bağından uzaq qalmağımı rəva bilmə ki, gözlərim qapısının toz-torpağı ilə işıq tapıb;**

Bundan sonra o Səfəvi sultanların və əmirlərini mədh edir. Onun Şah Səfinin (h.q. 1038-1052) mədhində iki qəsidəsi və ikinci Şah Abbasın mədhində iki qəsidəsi vardır. Onun qəsidələrinin bir neçəsi də zəmanənin sədri, yəni Mirzə Həbibullah Amiliyə aiddir. Bunlarla yanaşı o Molla Sədranın matəmi və Mir Damadın mədhində şerlər deyib. Biz bundan qabaq Mir Damadın tərcümeyi halından danışarkən Lahicinin bir neçə beytinə toxunduq. Burada onun Molla Sədranın matəmi münasibəti ilə dediyi şerdən bir neçə beyti yada salırıq:

*Bər canəm əz musibəte ustade mən resid*
*Dərdi ke bər dele Əli əz fuqdane Mustəfast*
*Xali nəbudəm ər çe dəmi əz musibəti*
*Anha codavo in qəme dəndan şekən codast*
*Ustade mən ke həm ab-o həm rəbbe mənəvist*
*Ta həşr əgər pərəsteşe xakəş konəm rəvast*
*Məşşaiyan piyadevo u dər miyan səvar*
*Əşraqiyan fətadəvo u dər miyan bepast*
*Dər rahe Kəbe hökme qəzayət be sər resid*
*Hecrət çu bude suye Xoda əcr bər Xodast*
*Dər rahe Kəbe mordevo asudə dər Nəcəf*
*Ey mən fədaye xaketo in mərtəbət kerast*

**Yəni: Ustadın ölümündən mənim canıma Əlinin qəlbinə Mustafanı itrməkdən gələn dərdə oxşar bir dərd gəldi; müsibətdən heç vaxt azad olmamağıma baxmayaraq onlar ayrıdır, bel sındıran bu qəm ayrı; həm su və həm də mənəvi tərbiyəçi olan mənim ustadım (elə bir şəxsiyyət idi) ki, əgər qiyamətə kimi onun torpağına pərəstiş etsəm o, buna layiqdir; məşşailər piyadadırlar o, minikdədir, işraqilər yıxılıblar, o ayaq üstədədir; Kəbə yolunda qəzavü-qədər gəlib yetişdi, hicrət Allaha tərəf olduğu üçün mükafat da Allahın öhdəsinədir; Kəbə yolunda ölüb Nəcəfdə uyuyub, ey mən sənin torpağına fəda olum, kimin belə bir məqamı var?!**

Fəyyazın bu şerindən belə məlum olur ki, Molla Sədranın qəbri Nəcəfdədir və onun Bəsrədə dəfn edilməsi barəsində yayılmış məlumatlar səhvdir.

Qeyd etmək lazımdır ki, Fəyyazın külliyyatının yarısından çoxu qəzəllərdir. Sanki qəzəl deməyən kəsə şair deyilmirmiş. O qəzəl deməkdə çox bacarıqlı olduğu üçün onun qəzəlləri arasından nümunə seçmək çətindir. Nümunə üçün bu qəzələ diqqət yetirin:

*Ahe cegəre mast ke atəş şerəre ust*
*Mojqane təre mast ke səd əbre təre ust*
*Zolfe to ke çun rahzənan quşeə gereftəst*
*Hər fitne ke dər şəhr şəvəd zire səre ust*
*Bolbol be qəfəs daştən emruz rəva nist*
*Səd qol be çəmən quş bər avaze por ust*
*An bot ke nə də  dar-o nə dər xanə kodaməst*
*Ke in naleye biçareye ma dərbedəre ust*
*Dər eşq ze bəs naleye Fəyyaz zəifəst*
*Əz sineye suye ləbe rəh dore səfər ust*

## *ŞAHNAMƏLƏRİN[1] DEYİLMƏSİ*

Səfəvi dövrü ədəbiyyatında nəsr şəklində gözəl və ədəbi fəthnamələrin yazılması adi bir iş idi və tədricən hərbi zəfərlər üçün müharibənamələrin də yazılması adi hal aldı. Bu şer üslubu ikinci Şah Abbasın zamanında nəzərə çarpacaq dərəcədə genişləndi və baş vermiş hadisələrin çoxu barəsində

[1] hökmdarların tərcümeyi-halına və tarixinə həsr edilmiş mənzum əsər

şerlər söyləndi. Onlarda hadisənin əvvəlindən axırına kimi baş verənlərin hamısı nəql edilirdi. «Qisəsul-Xaqani» kitabında bu şerlərin çoxlu nümunələrinin şahidiyik. Həm Saib Təbrizi, həm «Qisəsul-Xaqani» kitabının müəllifi Vəliqulu Şamlı və həm də Vəhid Qəzvini öz külliyyatlarında şerlərinin bu qəbildən olan nümunələrini gətiriblər.

Məsələn, Vəhid Qəzvini ikinci Şah Abbasın h.q. 1057-ci ildə Qəndəhar səfərini qəhrəmanlıq məzmunlu şerlərdən sonra belə gətirir:

*Fetadəş xiyale səfər dər zəmir*
*Brun aməd əz ca çu mehre munir*
*Ze şəhre Sefahan suye Qəndəhar*
*Sipəh gərme rəftar şod çun şərar*
*Şomare sipəh ra nədanest kəs*
*Həva qəhət bud əz bəraye nəfəs*
*Nemudi sipəhe səadət liva*
*Qolestani əz pərçəme nizeha*

O Abbasnamə kitabında ikinci Şah Abbasın Qəndəharı ələ keçirmək üçün etdiyi səfər barəsində yazdığı çoxlu şerləri nəql etmişdir. Bunlardan əlavə bəzən bəzi məxsus şairlərə şah və zəmanənin hadisələri barəsində uzun bir məsnəvi yazmaq əmr olunurdu. Qisəsul-Xaqanidə deyilir ki, Mürtəza Qulubəy Suruşiyə Abbasi şahnaməsi tənzimləmək əmr olunmuşdu. Bu kitabda onun şerlərindən nümunələr də gətirilmişdir:

*Yeki namə fərmud çun bustan*
*Bexubi suye şahe Hindustan*
*Nevisəndeye nameye delpəzir*
*Çun ayine arast ruye hərir*
*Məravo to ra padşahi əz ust*
*Ze dad-o dəheş hər çe xahi əz ust*
*Yeki dastanist əndər cahan*
*Rəvan bər zəban kəhan-o məhan*
*Ke angəh ke an karəş oftadə bud*
*Humayun be Təhmasib şəh dadə bud*
*Pəs əz əhde fərxundə Təhmasib şah*
*Keşidənd şahane to sər ze dad*

Gördüyümüz kimi bu şerdə Humayun Təhmasib şaha sığınan zamandan İranla Hindistan arasındakı əlaqələrdən danışır. O Səfəvi şahının köməyi ilə şahlıq taxtını yenidən geri ala bilmişdi və sonra iki dövlət arasındakı münasibətlər yenidən pisləşmişdi. Bu dövrdə İranda və Hindistanda sülalə şahlarının tarixini qəhrəmanlıq lirikası ilə şer dilində bəyan edən və bir növ şahnamədən təqlid olan əsərlərin nümunələrini görmək mümkündür. Bu növ şerin ən bariz nümunəsi Əbutalib Kəlimdəndir (h.q. 1061. O, Teymurun dastanını özünün müasirləri monqol şahlarına kimi «Şahənşahnamə» adlı əsərində nəzmə çəkmişdir. Həmiçnin onun oxşarı Kişmnamədir ki, İmamqulu xanın portuqallarla Qişmdəki döyüşünü nəzmə çəkib:

*Rəvan gəşt angəh be bərre ərəb*
*be cənge fərəngi be qəhro qəzəb*
*Dər an caygəh cəngi əndaxtənd*
*Be mərdanəgi karha saxtənd*
*Sepahe ərəb kərd digər hucum*
*Şekəst avəridənd be gibrane şum*
*Çenan cəngi an ruz aməd pədid*
*To quyi ke ruz qiyamət resid*
*Kəpitane təmr çun çenan hal did*
*Xəlasi xod ra be zinhar did*
*Ferestad pişe sepəhdar kəs*
*Ke ma ra be to həst yek moltəmis*
*Mən in qəle ra miseparəm to ra*
*Səre cəng-o kine nədarəm be to*

## ***FARS NƏSRİ***

Bu dövrdə fars nəsri iki qəlibdə, ədəbi, sadə və rəvan dini nəsr şəklində təqdim edilirdi. Ədəbi nəsrlər qismində ən mühüm mətnlər İran şahları ilə Hindistan şahları arasında, ümumiyyətlə İran sarayının Osmanlı, Hind və özbək şahlarına yazdıqları məktublar idi. Bu işin iki əsas dəlili var idi. Onlardan biri katiblərin şahlara xoş gəlmək üçün özlərindən nümayiş etdirdikləri ədəbi ustalıq idi. Digəri isə müxatəbi ifrat həddə tərifləməkdə məcazi dildən istifadə etmək, eləcə də nəzərdə tutulan bəzi mətləblərin qaranlıq və məchul şəkildə çatdırılması idi. Həmin dövrün həddindən artıq çətin ədəbi birləşmələr, məcaz və metaforalardan ibarət bu məktublarının

çoxu tarixi mətnlərdə nəql edilib. Nəsr şəklində olan fəthnamələri də bu növ mətnlərdən hesab etmək lazımdır.

Qeyd etmək lazımdır ki, bu məktub, daha dəqiq desək məktubun bu hissəsi digər yerlərlə müqayisədə sözbazlıqdan daha uzaqdır. Lakin bununla yanaşı bu qəbil məktublarda əxlaq, din və fikirin çatdırılması baxımından çox güclü ruhun hakim olmasını inkar etmək olmaz. Onların çətinliyi onları hamının başa düşə bilməməsidir. Amma həmin yazılar məktubların göndərildiyi kəslər üçün başa düşüləsi idi. Əlbəttə bəzən onlar üçün də çətin idi. Bir dəfə katiblərdən biri, zabitlərdən biri Şah Süleymanın vəziri Şeyx Əlixan üçün belə bir məktub göndərmişdi. Vəzir məktubun çətin və ədəbi cümlələrinin içindən çox çətinliklə onun məqsədini başa düşə bildi. Sonra həmin katibin dalınca adam göndərib onu çağırtdırdı və ona şallaq vurdurdu və dedi ki, əgər bir də belə məktub yazsan əlini kəsdirəcəyəm. Məgər mənim işim-gücüm yoxdur ki, oturub bu cür ədəbi məktubları oxuyum?!

Təkcə məktubların yazılması deyil, bu dövrün tarixinin yazılması da bu cür çətin kəlmələrə düçardır. Bəzən görürsən ki, bir səhifə yazıda yalnız üç sətr faydalı mətləb vardır və qalan ibarələr ancaq və ancaq ədəbi oyundur. «Abbasnamə»nin mətni çox qəliz ədəbi dillə yazılıb. Əlbəttə əgər hədəf ədəbi bir mətnin hazırlanması olsaydı onda bir irad olmazdı, hətta çox gözəl olardı. Amma tarixi bir yazı üçün bu üslubda olan nəsr çox yararsızdır. Bunun da səbəbi odur ki, bir çox başqa dövrlərdə olduğu kimi bu dövrdə də tarixi mətnlərin yazılması katiblər tərəfindən həyata keçirilib. Bu mətnlərin arasında «Aləm araye Abbasi» kitabının katibi İskəndər bəy Türkmən olmasına baxmayaraq, kitab çox lətif nəsrə malik olmaqla yanaşı müəyyən qədər öz sadəliyini qoruyub saxlamışdır.

Bu mətnlərin müqabilində dini mətnlər çox sadə yazılıb. Lakin iki əsr müddətində şiə alimləri şiənin ərəb dilində olan mətnlərini fars dili qəlibinə tökməyə çalışdıqları üçün iki yeni iş baş verib: Onlardan biri fars dilində ərəb kəlmələrinin artması, digəri isə fars dili qrammatika qaydalarının bir-birinə qarışması ki, bu da ərəb dilindən fars dilinə tərcümələrin genişlənməsinin nəticəsi idi. Başqa sözlə desək hərfi tərcümənin edilməsi fars dili nəsrinin tərtib və üsulunu pozub. Biz burada nisbətən yaxşı bir nümunəni nəql edəcəyik ki, mərhum axund Molla Məhəmmədtağı Məclisinin «Ləvamiu Sahibqirani» kitabındandır. O, bu ifadələrdə fiqhi hökmlərin əldə edilməsinin hədis və rəvayətlər əsasında olmasını sübut etməyə çalışıb.

**Şübhəsiz Peyğəmbərin zamanından «böyük qeybət» dövrünə kimi şiənin istinad nöqtəsi belə idi ki, onlar hədisləri Peyğəmbərdən və məsum imamlardan – onların hamısına Allahın salamı olsun – eşidir, öz şəhərlərinə gedib nəql edirdilər və şiələr onlara əməl edirdilər. Həmin zamanların başçıları çox vaxt zalım hökmdarlar olduğu üçün onlar səltənətlərinin dağılması qorxusundan öz məzhəblərini aşkar etmir və əməllərini onları «əmr sahibləri» hesab edən zəmanə alimlərinin nəzərlərinə müvafiq şəkildə yerinə yetirirdilər... Buna görə məsum imamlar – salavatullahi əleyhim – adətən ümumi kütlənin yanında təqiyyə edirdilər. Amma onların səhabələrinin sayı-hesabı yox idi və onların məzhəbini və təqiyyə edilməsini bilirdilər. Nəhayət onun zühurunun zamanı bitdi və həzrət Sahibəz-zamanın – əleyhissəlam – böyük qeybəti başladı. Artıq müraciət etməyə bir kəs yox idi. Həzrətdən eşitdikləri hədislər kitablarında idi. Onlara müraciət etdilər. Mütəvatir hədislərə əməl edir, nadir hədisləri kənara qoyurdular. Nəhayət zalım hökmdarların hakimiyyətə gəlməsi, onların kitablarını yandırması və suya tökülməsi nəticəsində həmin kitabların çoxu məhv oldu. Onların əllərində olan kitablarda olan hədislərin çoxu da mütəvatirlik həddini itirdi və sünni məzhəbləri artmağa başladı. Hansı hədisin təqiyyə əsasında, hansının haqqa əsaslanan olmasını bilmək seçimi də əldən çıxdı və bir sıra xoşagəlməz işlər baş verdi. Şiələrin arasında ixtilaf yarandı və onların hər biri Quran və hədisdən özləri başa düşdükləri kimi əməl etdilər. Təqlid edənlər də onlara tabe olurdular. Nəhayət, təqribən otuz il bundan əvvəl Məhəmmədəmin Astrabadi – Allah ona rəhmət etsin – adlı bir fəzilət sahibi məsum imamların hədislərini bir-biri ilə tutuşdurmağa və araşdırmağa başladı, nəzərlər arasındakı fərqləri təhqiq etdi və məsum imamların səhabələrinin yolunu öyrəndi. Nəcəf və digər müqəddəs ziyarət şəhərlərinin əhalisinin çoxu onun bu yol və üsulunu bəyənib hədislərə müraciət etdilər. Doğrudan da Məhəmmədəminin dediklərinin çoxu haqdır. Ümumilikdə bu zəifin yolu ifratla təfrit arasında orta yoldur.**

## ***SƏFƏRNAMƏ ƏDƏBİYYATI***

İslam dünyasında səfərnamə yazmağın tarixi çox qədimdir və üçüncü hicri ilindən üzü bəri çoxlu səfərnamələr qalmaqdadır ki, islam dünyasının coğrafi vəziyyəti və şəhərləin ictimai , mədəni və məzhəbi xüsusiyyətlərini bəyan etmək məqsədi ilə yazılıblar. Bu səfərnamələrin əsas hissəsi Məkkə

və Mədinə ziyarətləri barəsində yazılmış səfərnamələrdir. Bu səfərnamələrin ən məşhurlarından biri Nasir Xosrovun və Mərakeşli İbn Bətutənin səfərnaməsidir. Səfəvilərin dövründə də Məkkəyə və ya Hindistana səfər edən iranlılar səfərnamələr yazırdılar və onların bəzisi məşhurdur. Səfəvi dövrünün dəyərli səfərnamələrindən biri Mirzə Xəlil Rəqəmnevis kimi tanıdığımız şəxsin həyat yoldaşı olmuş çox ədəbli bir xanımın «Səfərnameye mənzume həcc» adlı səfərnaməsidir. O, Səfəvilərin son dövrlərində Kaşan, Qum, Savə, Zəncan, Miyanə, Naxçıvan, Ordubad, Osmanlı, Hələb, Dəməşq, Mədinə və Məkkə yolu ilə səfər edib və səfərini nəzmə çəkib. Şəhərlərin hər biri barəsində və yolun çətinlikləri barəsində danışıb. O Hələbə çatanda bu şəhər onun vətəni İsfahana oxşadığı üçün belə deyir:

*Şəbihe İsfahan didəm Hələb ra* *Be İran touəman didəm Hələb ra*
*Be dukkan-o be bazar-o be meydan* *Həme çizəş mühəyya çun Sefahan*
*Ze hər noi dər anca mive budi* *Ke tən ra quvvət-o rahət fzudi*
*Ze ənciraş bexor həbbe nəbat əst* *Ğələt qoftəm ğələt abe həyat əst*
*Koni gər vəsf əncire Hələb ra* *Ze şirini məki ta həşr ləb ra*
*Budi əhləş ze xahər mehribantər* *Çe xahər bəl zemadər canfəşantər*
*Çu touəm didəm an ra ba Sifahan* *Rəvan şod əşke xuninəm ze çeşman*
*Vətən aməd be yade mən dər an ruz* *Keşidəm əz cegər ahe cahansuz*
*Zefərzəndan-o xişan yad kərdəm* *Çu ney nalidəm-o fəryad kərdəm*

**Yəni: Hələbi İsfahana oxşar gördüm, Hələbi İrana tay gördüm; dükan, bazar və meydanlarında İsfahan kimi hər şey hazırdır; orada hər növ meyvə var ki, canını gücləndirib rahatlandırasan; Hələbin əncirindən ye ki, nabat parçasıdır; səhv dedim, səhv! Həyat suyudur! əgər Hələb əncirini vəsf etsən gərək şirinlikdən qiyamətə kimi dodağını sovurasan; əhalisi adama bacıdan da mehribandır, bacı nədir, bəlkə anadan da canfəşan; oranı İsfahana oxşar görəndə gözlərimdən qanlı yaş axdı; həmin gün yadıma vətən düşdü, ciyərimdən dünyanı yandıran bir ah çəkdim; övladlarımı qohumlarımı yada saldım, ney kimi nalə edib fəryad qopardım.**

Uzun yol qət edib Məkkəyə çatdıqdan sonra orada müqəddəs ziyarət hərəminin hal-havasını belə yad edir:

*Şode axer şəbe hicrane canan* *Ze vəsle yar roşən gəşte çeşman*
*Həme şoste ze del vəsvase Şeytan* *Brun kərde ze sine mehr yaran*
*Be səngistane Kəbe ru nəhadənd* *Ğəmo-ənduh ra yeksu nəhadənd*
*Ze bode çar fərsəx pəncome mah* *Nəmayan gəşt çun məh Kəbətullah*
*Be əbtəh ximeha bərpa nemudənd* *Be şokre izədi ləbha qoşudənd*
*Çu bər məqsude xod axər residəm* *Çenin ruzi be çeşme xod didəm*
*Be yad aməd məra in beyte nami* *Ke başəd qohəre dərce Nizami*
*Çe xoş başəd ke bəd əz entezari* *Be umidi resəd umidvari*
*Çenan dovlət be mən çun şod müyəssər* *Ze şovqe vəsl huşəm rəft əz sər*
*Nə nitqi ta konəm şokre Xodavənd* *Nə əqli ta şəvəm xəndano xorsənd*
*Nə əz bəhre təvafe Kəbe qodrət* *Nə bər səye Səfavo Mərve qodrət*
*Besan surəte divar xamuş* *Sitadəe bi məqalo gəşte mədhuş*
*Çu surət lal budəm ta zəmani* *Bedin minval budəm ta zəmani*
*Ze bəde saəti baz amədəm be huş* *Vəli gərdide bəd nitqəm fəramuş*
*Ke ta axər soxən aməd be yadəm* *Gereh ra əz zəbane xod qoşadəm*
*Nemudəm səcde qoftəm ya ilaha* *Toyi məbude bi həmtaye dana*
*Ze lotfe bi kəranət şərmsarəm* *Çequne şokre in nemət qozarəm*
*Dəre tofiq bər ruyəm qoşadi* *Be mən həm malo həm can hər do dadi*

**Yəni: Canandan ayrılığın son gecəsi çatıb, gözlər yara qovuşmaq səbəbindən aydın olub; hamı qəlbindən şeytanın vəsvəsəsini yuyub, sinədən yarların məhəbbətini çıxarıb; Kəbənin daşlıqlarına üz tutub qəm-kədəri bir kənara qoyublar; ayın beşi dörd fərsəx məsafədən Allahın Kəbəsi ay kimi göründü; Əbtəhdə[1] çadırları qurdular, dodaqlar Allahın şükrünə başladı; axır ki, öz məqsədimə çatdım, belə bir günü öz gözlərimlə gördüm; mənim yadıma Nizaminin ləl-cəvahir sandıqçasının gövhəri olan bu beyti düşdü ki: bir şeyə ümid bağlayan şəxsin intizardan sonra ümidinə çatması necə də xoşdur; mənə belə bir dövlət nəsib olduğu üçün şövqdən ağlım başımdan çıxdı; nə nitqim qaldı ki, Allaha şükr edim, nə ağılım ki, gülüb sevinəm; nə Kəbənin təvafına qüdrətim, nə Səfa və Mərvədə səy etməyə gücüm; divar kimi sakit durub danışmadan bihuş oldum; bir müddət lal kimi oldum və bir zaman bu minvalla keçdi; bir saatdan sonra yenidən huşa gəldim amma nitqim yadımdan çıxmışdı; axır ki, yadıma söz düşdü və dilimdən düyünü açdım; səcdə edib dedim ki, ilahi Sənsən bilən və misilsiz**

[1] Məkkə ilə Minanın arasında yer adıdır

**məbud; Sənin saysız-hesabsız lütflərindən xəcalətliyəm, bu nemətin şükrünü necə yerinə yetirim; üzümə lütf qapısı açıb mənə həm mal, həm can bunların hər ikisini vermisən.**

O, Allahın evinin vəsfində belə deyir:

*Ze vəsfe xaneye yəzdan çe quyəm*
*Ke balatər bovəd əz ançe quyəm*
*Bila təşbih quya nocəvani*
*Be qamət bovəd çun sərve rəvani*
*Qəbaye məhməle meşkin be bər daşt*
*Kəmər ra bəste əz zərrin kəmər daşt*
*Həcər dər asitanəş pasiban daşt*
*Roxe u busegahe haciyan bud*

**Yəni: Allahın evinin vəsfində nə deyim? O mənim dediklərimdən çox-çox ucadır; bilatəşbih sanki yeniyetmədir, boy-buxunu yol gedən sərv boylu məşuq kimidir; sinəsində hədiyyə gətirilmiş qara qəba var, belini zərli kəmərlə bağlayıb; qara daşın kandarında gözətçi var, onun üzü hacıların öpüş yeridir.**

Ondan sonra Ərəfat, Məşər və Minaya getməsini şərh edir və qurban bayramı axşamı Minanın mənzərəsini belə vəsf edir:

*Konun beşno to əz vəsfe çerağan*
*Ke kərdəndi füruzan Ali-Osman*
*Çenan cəşni do şəb əndər Mina şod*
*Ke Zöhre bəhre rəqqasi be pa şod*
*Do fərsəx şod çerağan kuho-səhra*
*Ke nətvan vəsfe u ra kərd inşa*
*Be hər su ta ke kərdi çeşme kəs kar*
*Füruzan bud çerağan çun qolu nar*
*Qələt qoftəm qələt, nuri nəmayan*
*Mina çun lalezari əz çerağan*
*Füruzan şod ze hər su səd eşare*
*Qənadiləş füzuntər əz sitarə*
*Ze bəs suye həva muşək rəvan şod*
*Çerağane degər dər asiman şod*

**Yəni: İndi sən Ali-Osmanın işıqlandırdığı çıraqların vəsfini eşit; Minada iki gecə elə şənlik və bayram oldu ki, rəqs etmək üçün Venera özü ayağa durdu; iki fərsəx dağ və səhra başdan-başa elə çırağa büründü ki, onun vəsfini qələmə almaq mümkün deyil; kimin gözü hansı tərəfdə nə qədər işləyirsə çıraqlar nar gülü kimi işıq saçırdı; səhv dedim səhv, aşkar nur! Mina çıraqlardan laləlik kimi idi; hər tərəfdə yüzlərlə əlamət işıq saçırdı, onun çıraqları ulduzdan da parlaq idi; havaya o qədər top atıldı ki, onlar da göydə digər çıraqlar oldular.**

Bu möhtərəm xanım Bəqi qəbristanlığının ziyarətinə gedəndə imamlar əleyhimissəlamın qəbirlərini zinətsiz və xalçasız görəndə şikayətlənərək İran şahından ora xalça və qızıl çıraq göndərəməsini istəyir:

*Nədidəm əndər an ərze mütəhhər*
*Be coz nure füruzan zeybe digər*
*Miyane yek zərihi çəhar mövlay*
*Gerefte hər yeki dər quşeyi cay*
*Zəmini ku bədi balatər əz ərş*
*Be kohne buriyayi gəşte bud fərş*
*Məkani ke bovəd tauəm be cənnət*
*Nədadəndəş əz qəndil zinət*
*Nəsima suye İsfahan qozər kon*
*Dər an sultane İran ra xəbər kon*
*Bequ key şahe adel dər kocayi*
*Əz in cənnətsəra qafil çerayi*
*Biya bengər bər övlade peyəmbər*
*Bedan rəxşəndə kövkəbhaye ənvər*
*Ke məskən kərdeənd dər yek sərayi*
*Zərih əz çubo fərş əz buriyayi*
*Rəvan kon ey qulame Ali Heydər*
*Furuşe layeqe an çar sərvər*
*Ze bəhre zinəte an xulde rizvan*
*Qənadile təla çun mehre rəxşan*

**Yəni: O pak torpaqda parlaq nurdan başqa bir zinət görmədim; bir zərihin içində dörd mövla var ki, onların hər biri bir guşədə qərar tutub; ərşdən də uca olan belə bir yer köhnə həsirlərlə döşənib; cənnətə**

**tay olan bir yeri çıraq ilə bəzəməyiblər; ey yel, İsfahana tərəf get və orada İran şahına xəbər ver; de ki, ey adil şah haradasan, nə üçün bu cənnət evindən xəbərsizsən? Gəl Peyğəmbərin övladlarına, bu parlaq nurlu ulduzlara nəzər sal; elə yerdə məskunlaşıblar ki, zərihi taxtadan, xalçası həsirdəndir; ey Heydər ailəsinin nökəri, o dörd ağaya layiqli xalçalar göndər; o əbədi cənnətin zinətləndirilməsi üçün günəş kimi parlaq qızıl çıraqlar göndər.**

Həmin dövrdə Məhəmmədəli Həzinin səfərnaməsinə də işarə etmək olar ki, o Səfəvi şahları silsiləsinin sonunda baş verən hadisələri şəhr edir və özünün bəzi şəhərlərə olan səfərlərini nəql edir.

### *AVROPALILARIN SƏFƏRNAMƏLƏRİ*

Bu əsrin səfərnamə ədəbiyyatının digər bir şəklini səyahət, ticarət və dini təbliğat məqsədi ilə Səfəvilərdən qabaqkı dövrdə və Səfəvilərin zamanında İrana gəlmiş avropalıların əsərlərində görmək olar. Əlbəttə onlar fars dilində yazılmayıb, lakin İran barəsindədir. Həmin şəxslərin çoxu öz səfər xatirələrini yazıblar və hal hazırda İran tarixinin öyrənilməsində mühüm mənbələrdən sayılırlar.

Bu qəbildən olan əsərlərin ən qədimi «Venizyanın İran səfərnamələri» kitabıdır ki, ağqoyunluların zamanına aiddir. Ondan sonra nümunə üçün Delavalenin və Denqarsiya Fiqoerovanın birinci Şah Abbasın dövrünə təsadüf edən səfərnamələrini, eləcə də Taverniye və Kompferin ikinci Abbasın zamanında yazılmış səfərnamələrini, bunların hamısından mühüm isə fransalı qızıl taciri Şardenin Şah Süleymanın zamanında (h.q. 1077-1105) yazılmış səfərnaməsini qeyd etmək olar.

Adı çəkilən səfərnamələr, bəzi məsələləri qeyd etdikləri üçün çox mühüm olmaları ilə yanaşı, bəzən dükan-bazar və avam söz-söhbətlərinə və şayiələrə əsaslandıqları üçün tamamilə istinad nöqtəsi sayıla bilməzlər. Bundan əlavə İranın tarixi hadisələri və ictimai, mədəni və dini məsələlər barəsində bəzi qənaətləri var ki, məxsus baxışların təsiri altındadır və onların əsərlərinə istinad edərkən onların həmin qənaətləri mətləbin əslindən ayrılmalıdır.

Bu arada ən müfəssəl səfərnamələrdən biri Şardenin səfərnaməsidir ki, o bu həssas dövrdə bütün cəhətlərdən İranın tarix və mədəniyyətinə nəzər salmağa çalışıb. Şah Süleymanın zamanına aid hissəsi tək və misilsiz olan

bu kitabın yeni tərcüməsi beş cilddə çap edilib. Bu kitabda İranın ictimai, siyasi, mədəni, elmi və iqtisadi vəziyyəti barəsində çoxlu məlumatlar mövcuddur. Onda elə məlumatlar var ki, İran mənbələrində (çox az miqdar istisna olmaqla) onları əldə etmək mümükün deyil.

Bunlardan əlavə avropalı müsafirlər, xüsusilə keşişlər, öz avropalı dostlarına və Vatikana məktub və ya sənəd formasında müfəssəl məlumatlar göndəriblər ki, bunlar da İranın Səfəvi əsrindəki vəziyyəti ilə tanışlıq istiqamətində çox mühüm rol oynaya bilər.

Avropalıların səfərnamələri avropalıların İrandakı nümayəndəlikləri, bu ölkədə olan rəqabətlər, qarşıdurmalar barəsində də məlumat əldə etmək üçün diqqəti cəlb edən mühüm mənbələrdəndirlər. Çünki onlar həmin səfərnamələrində avropalıların arasında olan və iranlılara çatmayan mətləbləri də bəyan ediblər. Buna görə də İranın Avropa ilə əlaqələrinin şərhi çox miqdarda bu səfərnamələrdə yazılmış mətləblərə əsaslanır.

Bu sıraya osmanlı türklərinin İrandan göndərdikləri məlumatları və səfir məktublarını da əlavə etmək lazımdır ki, onlarda da Səfəvi dövrünün İranı, xüsusilə Səfəvilərin son dövrləri barəsində məlumatlar mövcuddur. Bu qism mətnlər, toplu və külliyyat şəklində «Səfarətnamehaye İran» adı ilə çap olunmuşdur.

## *ŞAH SÜLEYMANIN DÖVRÜ*

### ŞAH SƏFİ ŞAHLIQ TAXTINDA

Hökmdarlığı birinci Şah Abbasın dövranına oxşadılan ikinci Şah Abbas birinci Abbasın zamanının çətinlikləri ilə müqayisədə çox az çətinliyə malik olub. Onun bu müddətdəki yeganə hərbi imtiyazı Qəndəharı ələ keçirmək idi ki, sonda İran üçün çox mühüm bir problem yaratdı. Bundan əlavə onun çoxlu bina və imarətlər tikdirməsinin xalqın boynuna ağır maliyyə yükləri qoyması da diqqəti çəkən məqamlardandır. Bu dövr İran dövlətinin iqtisadiyyatının güclənməsi və dövlətin güclənməsi dövrü olmaqa yanaşı həm də İranın zavala uğraması və məhvi üçün bir müqəddimə idi ki, sonrakı dövrlərdə bu hərəkət daha da tezləşdi.

Xarici siyasət baxımından ikinci Abbasın atasının zamanında ərəb İraqını osmanlılarla sülh qiymətinə əldən çıxarmaq, zahirdə hərbi rüsvayçılıq idi. Amma vəziyyətin sakitləşdirilməsi üçün bu, İran üçün çox mühüm idi. Bu

elə bir sakitlik idi ki, təqribən Səfəvilərin hakimiyyətlərinin sonuna kimi iki ölkə arasında davam etdi.

İkinci Abbas iyirmi beş illik hakimiyyətdən sonra h.q. 1077-ci ildə təqribən otuz beş yaşında vəfat etdi. Onun xəstəliyinin uzun sürməsinə baxmayaraq o, öz yerinə heç kəsi təyin etmədi. O ancaq belə bir göstəriş vermək fürsəti əldə edə bildi ki, onun məxsus malından hər il on iki gümüş şamdan və ud yandırılan iki qızıl qab miqdarında – bunların qiyməti təqribən min tümən edir – tədarük görüb dinin imamı və dünyanın sultanı Əbulhəsən Əli ibn Musa Rzanın pak və müqəddəs ziyarətgahına qoysunlar. Bir az sonra h.q. 1077-ci il Rəbiul-əvvəl ayının 25-i çərşənbə axşamı gecə Damğan şəhərinin Xosrovabad deyilən yerində vəfat etdi.

İkinci Şah Abbasın iki oğlu var idi. Onlardan biri Səfi Mirzə (h.q. 1058) idi həmin vaxt onun iyirmi yaşı var idi və digəri yeddi yaşlı Həmzə Mirzə (h.q. 1069) idi. Şahın vəfatından az sonra, elə həmin Damğanda saray şurası təşkil edildi. Saray adamlarının çoxu özlərinin azad davranmaları üçün ikinci Abbasın yeddi yaşlı oğlunu taxta çıxarmaq istəyirdilər. Həmin səfərdə ustadı Mühəqqiq Səbzivari ilə birlikdə Şah Abbasla birgə olan «Vəqaiyul-əvam vəs-sinin» kitabının müəllifi Xatunabadi yazır:

**Şənbə günü şahın vəfatından hələ heç kəsin xəbəri olmadığı bir vaxtda yüzbaşı Süleyman ağa qoşunun əmir və əyanlarını saraya topladı və şahın vəfat etməsi xəbərini onlara çatdırdı. Həmçinin dedi ki, bu yığıncaqda padşah təyin edilməlidir və padşah təyin edilməyincə siz bu saraydan çıxmayacaqsınız. Etimadud-dövlə Mirzə Mehdi demişdi ki, biz onun övladlarından kimlərin olmasını bilmirik. Ağa Mübarək demişdi ki, onun Səfi Mirzə adlı (əsas mətndə səhvən onun adı Sam Mirzə yazılıb) böyük oğlu Allaha şükr olsun ki, onun övladlarının böyüyüdür və İsfahan sarayındadır. Mirzə Mehdi də deyib ki, əgər böyük oğlu varsa hökümət mütləq onun haqqıdır. Ağa Mübarək etiraz sayağı demişdi ki, siz nə bilirsiniz onun böyük oğlu var? Etimadud-dövlə də onun cavabında demişdi ki, biz nə bilirik? Bizim vətəndən nə xəbərimiz var?**

Bu tarixi sənəd bir neçə şeyə dəlalət edir. Birincisi əmirlər nəzərlərində Həmzə Mirzəni tutublar və elə onun tərbiyəçisi həmin Ağa Mübarək olub. Bu məsələni həmin məclisdə iştirak etmiş Şarden də yazıb. İkinci məsələ başda vəzir olmaqla saray adamlarının ikinci Şah Abbasın övladlarının sayından xəbərsizliyidir və göstərir ki, saray adamlarının bu məsələ üzərində həssaslığı olub. Onlar hətta adətən şahın övladlarının saxlandıqları

hərəmxananlardan xəbərsiz olublar. Hətta bəzilərində belə təsəvvür olub ki, ikinci Şah Abbas oğlu Səfini öldürüb.

Səfi Mirzə uzun illər sarayda böyüyüb və axırlarda şahın gözündən düşmüşdü. Bu səbəbdən saray şurasının elçisi Damğandan gəlib onun çərkəs olan anasına oğlunun taxta çıxmaq üçün hərəmxanandan çıxmalı olmasını deyəndə, Səfinin anası onu həmin elçiyə təhvil verməkdən çəkinmişdi. Çünki onun anası belə zənn edirdi ki, həmin şəxs yalan danışır və Şah Abbas onu oğlunu öldürmək üçün göndərib. Əlbəttə belə hadisə Səfəvi sülaləsində dəfələrlə baş vermiş bir iş idi. Əmirlərin elçiləri çoxlu and içərək Səfinin anasını onu onlara təhvil verməyə razı saldılar.

Hər halda Səfi Mirzənin taxta çıxmasına şərait yarandı, təcrübəsiz və zahirdə tamamilə nalayiq bir şəxs kim görünən yeni şah taxta çıxdı.Onun taxta çıxmasından elə də çox vaxt keçməmişdi ki, o, ağır xəstələndi və bu xəstəlik bir ildən çox çəkdi. Bundan əlavə İranın şəhərlərində qəhətlik və taun xəstəliyi yarandı və əhalinin iqtisadi vəziyyəti və məişət şəraiti çox pisləşdi.

Sarayın münəccimi və bəzi əmirlərin vəziyyətin belə olması barəsindəki yozumları bu idi ki, tacqoyma mərasimi uğursuz bir vaxtda keçirilib və həmin mərasim daha yaxşı bir vaxtda yenidən təkrar keçirilməlidir. Buna görə də birinci tacqoyma mərasimindən təqribən bir ildən az artıq bir vaxtdan sonra, yeni ilin əvvəlində İsfahanın «Çehel sütun» sarayında digər bir mərasim keçirildi və onda şahın adı Səfidən dəyişdirilərək Süleyman edildi. İş elə gətirdi ki, bundan sonra şah sağaldı və ölkənin vəziyyəti də sahmana düşdü. «Dörd saat ərzində möhürləri və sikkəli pulların çoxunu dəyişdirdilər.» Şah da tapdığı yeni ruhiyyə ilə sağalmağa başladı.

## *ŞAH SÜLEYMANIN ŞAHLIQ DÖVRÜ*

Şah Süleyman özünün İrana iyirmi səkkiz illik (h.q. 1077-1105) hakimiyyəti illərində daxili və xarici siyasət işlərində hətta ikinci Şah Abbasın zamanının siyasi hadisələri ilə müqayisədə azacıq da olsa problemlə qarşılaşmadı.

Hər şeydən əvvəl təəssüflə qeyd etmək lazımdır ki, bu dövr və ondan sonrakı dövrlər barəsində İranın tarixi mənbələri, Süleymana qədər olan Səfəvi şahları ilə müqayisədə çox azdır. Bu barədə Astrabadinin «Əz Şeyx Səfi ta Şah Səfi» və Mustaufinin «Zubdətut-təvarix» kitablarını qeyd etmək olar ki, onlar bəzi hadisələrə ötəri şəkildə işarə ediblər. Bunun müqabilində bu dövrün hadisələri paytaxtda məskunlaşmış avropalıların müfəssəl şəkildə

yazdıqları səfərnamələrdə əks olunub. Şarden İkinci Şah Abbasın hakimiyyətinin bir dövrünü və Şah Süleymanın səltənət dövrünün şahidi olmuş və hətta İranın başçılarının Şah Süleymanı seçdikləri məraismdə iştirak etmişdir. Şardenin səfərnaməsindən əlavə Engelbert Kompfer, Cemli Karri və digər bir neçə nəfərin səfərnamələri bu dövr, xüsusilə İran cəmiyyətinin dövlət sistemi və ictimai-dini quruluşu barəsində nəzərə çarpacaq məlumatlar veriblər.

## *ŞAH SÜLEYMAN VƏ İRANIN XARİCİ SİYASƏTİ*

Mövcud məlumatlara əsasən Süleymanın hökamiyyətinin bütün illərində İranla Osmanlı sərhədlərində sülh və sakitlik bərqərar olub və Şah Səfinin zamanında iki dövlət arasında imzalanmış get-gəl sülhnaməsi öz qüvvəsində qalıb. Bu dövrdə avropalı səfirlər İranı osmanlılarla düşmənçiliyə vadar etmək istəyirdilər. Lakin şahın baş vəziri Şeyx Əlixan Zəngənənin zirəngliyi onların planlarını puça çıxardı. Bir tərəfdən Şeyx Əlixanın xüsusi siyasətinin nəticəsi, yəni İranla osmanlıların qarşılıqlı əlaqələrdə sülh tərəfdarı olmaları, digər tərəfdən Şah Süleymanın sakit təbiəti, həmçinin digər tərəfdən osmanlıların başlarının avropada qarışıq olması kiçik toqquşmaların iki dövlət arasında müharibə ilə nəticələnməməsinə səbəb oldu. Süleymanə şəhərinin banisi Süleyman Baban osmanlılar tərəfindən Kürdüstana gələndə İran dövləti onu darmadağın etmək üçün 1089-cu ildə sərkərdə Rüstəmxanın başçılığı altında ora qüvvə göndərdi və onlar kürdləri məğlub etdilər və Baban öldürüldü. Buna baxmayaraq həmin hadisə iki ölkə arasındakı əlaqələrə zərbə vurmadı. 1102-ci ildə İran dövləti ikinci Sultan Əhmədin hakimiyyətə gəlməsini təbrik etmək üçün çoxlu hədiyyələrlə İstanbula bir heyət göndərdi.

Mavəraun-Nəhrdə də məxsus problem yox idi və orada İran üçün bir təhlükə mövcud deyildi. Əbdüləzizxan illər uzunu Mavəraun-nəhrə hakimlik etdi və özünün İranla dostluq münasibətlərini qorudu. O, h.q. 1098-ci ildə hökuməti qardaşına həvalə edərək həcc əməllərini yerinə yetirmək üçün İrana yola düşdü. Əvvəlcə Xorasanda, sonra h.q. 1099-cu ildə İsfahanda İran dövləti tərəfindən rəsmi qarşılandı və Çehel Sütun sarayında onun hüzurunda böyük bayram şənliyi keçirildi. O, h.q. 1101-ci ildə Məkkəyə yola düşdü.

Sərhəd zonalarının məhdud bölgələrində bəzi çətinliklər qarşıya çıxırdı və onların ən mühümü qazaxların İrana hücumları idi. Bu hücumlar ikinci Şah Abbasın zamanının sonundan başlandı və qazaxların Stenka Razin adlı

komandan bu hadisələrə başçılıq edirdi. Şah Süleyman onlara tərəf on min nəfərlik bir qoşun göndərdi. Onlar gəmiyə mindilər və qazaxların məkrli hiylələrinə düçar oldular və demək olar ki, onların hamısı həlak oldu. Rusiya dövləti ilə də döyüş halında olan qazaxların başçısı ruslara məğlub oldu və əsir düşdü. O 1081-ci ildə Moskvada dar ağacından asıldı.

İranın digər bir çətinliyi Astrabad və onun ətraf bölgələrinə hücum edən türkmənlər tərəfdən idi. İran qoşunu 1087-ci ildə onlara hücum etdi və onları məğlub etdi.

İranın bu dövrdə avropa ölkələri ilə əlaqələri barəsində də demək lazımdır ki, həmin dövrdə İranın avropa ölkələrinin çoxu ilə qarşılıqlı əlaqələri olub. Xüsusilə avropalı heyətlər ticarət sahəsində imtiyazlar əldə etmək istiqamətində çox çalışırdılar. Bu barədə hollandlarla ingilislər hamıdan qabaqda idilər və sonrakı mərhələlərdə almanlar və fransalılar da bu sıraya qoşuldular. Bu barədə İran mənbələri və xarici səfərnamələrdə çoxlu sənəd və məlumatlar vardır. Adətən bu heyətlər arasında düşmənçilik mövcud olurdu. İran şahlarının sarayı da bəzən onların imtiyazlar əldə etmək istiqamətindəki rəqabətlərinin şahidi olurdu.

Bu arada papa on birinci İnosan Şah Süleymana məktub yazaraq avropa ölkələri ilə birlikdə osmanlılara qarşı bir ittifaq yaradılmasını istədi. Lakin şah onun bu təklifini qəbul etməkdən boyun qaçırdı və ona belə yazdı: «Adəti ədalət olan bu sülalə çoxdandır ki, həmin diyarın şahları ilə sülh etmişdir və bu uzun müddət ərzində onlar tərəfdən razılaşmaya zidd bir iş baş verməmişdir. Belə olan halda həmin pis işi görmək bənzəri olmayan Allahın razılığına zidd, peyğəmbərin buyuruqlarının əksinədir və bunu öz vaxtına kimi təxirə salmaq lazımdır.» Bizim bu kitabda «Şeyx Əlixan və avropalılar» başlığı altında gətirdiyimiz mövzuda bu barədə çoxlu dəlillər mövcuddur.

## *ŞAH SÜLEYMANIN ŞƏXSİYYƏTİ*

Şah Süleyman, Səfəvi şahzadələrinin özlərini göstərmək üçün heç bir cürətləri olmayan və ataları tərəfindən çox ciddi nəzarət altında saxlanıldıqları bir dövrdə tərbiyə edilib, böyüyüb. Şahzadələr hərəmxanalarda arvad və xacələrin kənarında böyüyürdülər və onların nəinki saray məclislərində iştirak edərək məsələlər barəsində öz nəzərlərini bildirmək imkanları yox idi, hətta onlara əqli və hərbi cəhətdən düzgün tərbiyə də verilmirdi. Belə bir tərbiyənin nəticəsi Səfi Mirzə, yəni sonralar Şah Süleyman kimi hakimiyyətə gələn şəxslər üçün heç bir təcrübəyə malik

olmadan ölkəni arvad və xacələrin istəkləri ilə idarə etmələri və ölkənin işlərinin idarəçiliyində lazımı iradəyə malik olmamaları ilə nəticələnirdi. Şübhəsiz, belə şahzadələri olan saray, illərlə müharibə etməyən və yalnız yeyib-içməklə məşğul olan ordu ilə heç bir hərbi təcrübəyə malik olmayacaq və ölkənin məhvinə şərait yaradacaqdır.

Bunlardan əlavə qeyd etmək lazımdır ki, Şah Süleyman da Səfəvi şahlarının çoxu kimi iki təfəkkür və davranış tərzinə malik idi:

Onun davranış tərzlərinin biri pozğun şah xüsusiyyəti idi ki, şah eyş-işrət, şərab içmək, kef, ov və gəzinti ilə məşğul olur və bu barədə nəinki günaha batırdı, hətta çox israfçılıqlar etməklə xalqın çoxunun haqqını ayaq altına atırdı. Bu vəziyyət Səfəvi şahları tərəfindən çox ehtiram göstərilən və sarayın lap daxilinə kimi get-gəlləri olan xarici səfirlər tərəfindən müşahidə edilirdi və onların vasitəsi ilə bizlərə sarayda olan əyyaşlıqlar, gecə məclisləri, çal-çağırlar və xoşagəlməz işlər barəsində qeyri-adi xəbərlər gəlib çatıb. Burada qeyd etmək lazımdır ki, Şah Süleyman özünün bu davranışlarını, şərh edəcəyimiz ikinci təfəkkür və davranışı ilə tamamilə bir yerdə toplayırdı. Bu təkcə Səfəvi şahlarının deyil, bəlkə tarixdə olmuş şahların çoxunun davranış üsulu olub.

Kompfer, şahın qadınlara hədsiz marağı barəsində çox danışıb və onun şahlığının birinci ilindəki xəstəliyinin səbəbini də «əyyaşlıqda ifrata varması» hesab edib. O deyir ki, şah hətta sağalandan sonra «şəhvətpərəstliyindən əl götürmədi və həmişə öz hərəmxanasında» olurdu. Şah kef etmək məqsədi ilə «Süleyman taxtı»na, Culfanın o tərəfində özü üçün tikdirdiyi yerə gəzintiyə gedərdi və arvad və kənizlərinin aparılması üçün küçələrin qorunmasını əmr edirdi ki, bu da camaat üçün bir çox çətinliklər yaradırdı. Şahın hərəmxanasında çoxlu arvad var idi və ölkənin müxtəlif yerlərindən gözəl qızların ora göndərilməsi nəticəsində onların sayı daha da artırdı. Bundan əlavə şahın erməni qızlarına da xüsusi meyli var idi və onlardan bir neçəsinin hərəmxanaya gətirilməsi üçün özü çalışırdı. İranın tarixi mənbələrində də şahın şərab içməsinə toxunulub. Mustaufi Zübdətut-təvarix kitabında yazır ki, Şah Süleyman «çox vax şərab içməklə və ya digər çirkin əməllərlə məşğul olurdu».

Kompfer, şahın əvvəlki ürəyiaçıqlığından, onun şərab və qumar məclislərindəki tonqal oyunlarında artıq xərcləri və bu işlərinin xəzinənin boşalmasına səbəb olması barəsində söhbət edib. Xəzinə boşaldıqdan sonra şah xəsisləşdi və maaş vermək məcburiyyətində qalmamaq üçün «şeyxul-islamlıq», «mehtərlik» və «eşikağası başı» kimi vəzifələri bir müddət

yiyəsiz qoydu ki, qənaət etmiş olsun. Həmin müddət ərzində qeyd edilən vəzifə sahiblərinin görməli olduqları işləri digərləri yerinə yetirirdilər. Şah ona gətirilən hədiyyələrə çox bağlı bir adam idi və yalnız qızıldan olan hədiyyələri qəbul edərdi. Fransa səfirinin elçisi şaha avropada düzəldilmiş və Kopernik nəzəriyyəsinə əsasən ulduzların hərəkətini ölçmək üçün çox dəqiq imkanlara malik bir rəsəd aləti gətirdi. Həmin cihaz qızıldan düzəldilmədiyi üçün şah göstəriş verdi ki, onu köhnə şeylər saxlanılan anbara qoysunlar. Onun üçün İsveçdən hədiyyə kimi gətirilmiş saatın taleyi də elə oldu.

Bunlarla yanaşı, Kompfer, şahın mehribançılığından da söz açıb və deyir: «o qanuna zidd işlər görmüş şəxslərə qarşı mehribançılıq və güzəşt nümayiş etdirirdi.» Bu xüsusiyyət ifrat dərəcədə onun oğlu Şah Sultan Hüseyndə də var imiş və bu, ölkənin cari işlərinin süstlüyünün səbəblərindən biri olub. Şah Süleyman mehribançılıqla yanaşı haqq-ədalətə riayət etməyə çalışırdı və birinin cinayəti sübuta yetəndən sonra güzəşt etmədən onu cəzasına çatdırırdı.

Şah Süleymanın ikinci davranış tərzi onun dini məsələlər, alimlər, vəqf, kitab, məscid, əza mərasimləri və bu kimi işlərlə əlaqəsi idi. Bir çox dəlillər şahın bu cəhətə də tam diqqət yetirməsindən və zahirdə zahiri məsələlərə riayət edərək işləri cari-dini ənənələrlə idarə etməyə çalışmasından xəbər verir. Bu baxımdan şeyxul-islamın, sədrin, qazının, pişnamazın və qeyrilərinin nüfuzu öz yerində qalmaqda idi və şah bütün hallarda onların hamısına hörmət göstərirdi.

Şah Süleymanın hakimiyyətinin bütün dövrlərində dini mədrəsələr tam ciddiyyətlə öz elmi işlərini davam etdirirdilər. Bunun səbəbi vəqf işlərinin himayə edilməsi və vəqf edilmiş şeylərdən əldə edilən gəlirin öz yerlərində xərclənməsi idi. Bundan əlavə şah və saray adamları yenə də keçmişdə olduğu kimi alimlərə kömək etməkdə fəal idilər və şəxsən şahın özünün alimlərlə əlaqəsi çox idi. Həmin dövrün alim və müəlliflərinin çoxu öz kitablarını Şah Süleymana təqdim edir və təbii ki, bir sıra məziyyətlərdən bəhrələnirdilər. Qeyd etmək lazımdır ki, bəzi hallarda şah özü hansısa kitabın yazılması və ya tərcümə edilməsini də tövsiyə edirdi. Kompfer yazır:

**Şah dindar bir adamdır. Heç vaxt namazlarını qılmağı və dinin dəstəmaz və qüsl kimi göstərişlərinin yerinə yetirilməsini yadından çıxarmazdı. İl boyu olan müxtəlif dini bayramlara hörmətlə yanaşırdı və çox təmtəraqla keçirilən qurban bayramında camaatla birgə iştirak edirdi. Bir ay orucluğu ayını camaatla birgə oruc tutur, çox vaxt**

**tanınmaz şəkildə səhər gün çıxmamışdan cümə məscidinə gedir və başqa məsələlərdə də camaata örnək olan yaşayışı ilə həqiqi müsəlman olmasını sübut edirdi.**

## *ŞAH VƏ ONUN ŞEYX HÜRR AMİLİ İLƏ TÜTÜN BARƏSİNDƏ MÜBAHİSƏSİ*

Şah Süleyman fiqhi məsələlərə diqqət edərdi və bir dəfə bir məclisdə Şeyx Hürr Amiliyə (1104) onun tütün və qəhvədən istifadəni qadağan edən fitvasına görə etiraz etdi. Şeyx Hürr özü bu söhbətin əhvalatını nəql edərək belə yazır: Şaha dedim ki, bu iki şey mənim təbiətimə ziddir. Şah dedi: Eşitmişəm ki, sən bu işlərin şəriət baxımından iradlı olduğunu deyibsən və şəri ehtiyata görə onları tərk etməyin lazımlığını bildirmisən. Mən dedim: Bəli, amma qəti dəlil mövcud olmadığı üçün onların məkruh və ya haram olmasına yəqinliyim yoxdur. Şah dedi: Onlardan istifadə etməyin caiz olmasına da yəqinliyin yoxdur? Dedim: Xeyir, çünki onlardan istifadə edilməsinin caiz olması barəsində də dəlilimiz yoxdur. Şah dedi: Bu ehtiyat vacibdir yoxsa müstəhəbb? Dedim: Bu barədə alimlər arasında fikir ayrılığı mövcuddur. Amma hər halda ehtiyatı – istər vacib olsun, istərsə də müstəhəb – üstün tuturlar. Şah dedi: Bu barədə onların caiz və mübah olmaları əsas götürülmür? Dedim: Bu ixtilaflı məsələdir və bu səbəbdən ehtiyat daha üstündür. Şah bu nəzəri qəbul etdi və ehtiyatı daha yaxşı hesab etdi.

Şeyx Hürr ilə şahın barəsində lətifə kimi belə bir hekayət də nəql edirlər ki, bir dəfə məclislərin birində şah Hürrün kənarında oturmuşdu və zarafatca ondan soruşdu: Ey ağam, Hürr ilə «xər»[1]in arasında nə fərq var? Hürr dedi: Bir qarış!

Bundan əlavə başqa bir məlumatda deyilir ki, imam Zaman əleyhis-salam qeybdə olan zaman cümə namazının qılınmasının vacib yoxsa haram olması barəsindəki ixtilaf kəskinləşəndə Şah Süleymanın hüzurunda alimlərdən ibarət bir məclis quruldu və onlar bu barədə ətraflı fikir mübadiləsi apardılar.

---

[1] Xər kəlməsinin mənası uzunqulaqdır və ərəb qrafikası ilə yazılarkən onların yazılışı bir-birindən bir nöqtə ilə fərqlənir.

## *ŞAH SÜLEYMAN VƏ XAÇPƏRƏST TƏBLİĞATÇILAR*

Xristianlığın İranda yayılmasının heç bir nəticə verməməsinə baxmayaraq xaçpərəst təbliğatçıların İsfahanda fəaliyyət göstərmələri şiə alimlərini xristianlıq barədə daha çox məlumat əldə etməyə vadar etdi. Şah Süleymanın zamanındakı xaçpərəst təbliğatçılardan biri Qabriel Efrenci idi. O əvvəlcə Təbrizdə sonra isə Tiflisdə xristianlığın təbliği ilə məşğul olub. Onun təbliğatının müqabilində bir müddət Tiflisdə yaşamış alim Zəhirəddin Təfərrüşü bir kitab yazıb və onun adını «Nusrətul-həqq» qoyub. Özünü bu cür məsələlərə meyilli kimi göstərən Şah Süleyman sonralar Təfərrüşüdən həmin kitabını ərəb dilindən fars dilinə tərcümə etməsini istədi.

Şah Süleyman üçün xristianlıq barəsində kitabça yazmış şəxslərdən biri də İsfahanın erməni xəlifələrindən olan və «Nurcahan» adı ilə məşhurlaşmış Havans (h.q. 1715) idi. Məsələ belə olmuşdu ki, Şah Süleyman İsfahanın Vanək kilsəsini görməyə gedəndə kilsədə nəqş edilmiş şəkillərə maraqla baxmışdı. Bu görüşdə xəlifə Havans Şahın həmin şəkillər, eləcə də İsanın Allah olması və «üçlük» əqidəsi barəsindəki suallarına cavab vermişdi. O həmin suallara cavab verməkdən əlavə bu barədə bir kitab da yazdı və onun bir səhifəsi erməni dilində, həmin səhifənin müqabil səhifəsi isə fars dilində idi. O həmin kitabı Şah Süleymana təqdim edib. Həmin müəllifin «İran ruhaniləri ilə mübahisə» adlı digər bir kitabı da olub.

Şardenin verdiyi məlumata əsasən ermənilərin Əbu Əli Sinanın və digər müsəlman filosofların əsərlərini oxumuş Ağapiri adlı böyüklərindən biri İslamı qəbul etmişdi. O, qohum və tanışlarının ona qarşı üsyan edəcəklərinlən çox qorxduğu üçün təzyiqləri azaltmaq məqsədi ilə saraya sığınmışdı. O, saray adamları ilə belə bir plan hazırladı ki, guya şah ona əmr edib ki, müsəlman olsun və o da şahın əmrindən çıxmamaq üçün belə edib. Lakin hamı bilirdi ki, bu, Ağapirinin öz seçimidir və o, müsəlmanların təfəkkürü ilə tanışlıqdan sonra belə bir addım atıb. Bu hadisə «İsfahanda olan bütün xaçpərəst ruhani dəstələr, tapriarx və keşişlərin çaş-baş qalmalarına və narahatçılıqlarına səbəb oldu.

Bütün bu müddət ərzində xaçpərəst keşişlər arasında iş müddəti ən çox çəkəni Rəfail Duman adlı bir şəxs olub. Fransalı bu keşiş İranda qırx ilə yaxın qalıb və Kapson firqəsinin başçısı kimi xristianlığın təbliği ilə məşğul olub. Belə deyirlər ki, o bəzi iranlıları xristian edərək avropaya göndərirmiş. O riyaziyyat elmi ilə də tanış olub və özü ilə bir astronomik cihaz da

gətiribmiş ki, bu da iranlılar üçün maraqlı imiş. Son illərdə onun qeydiyyatlar külliyatı iki cilddə fransız dilində çap edilib.

## *ŞEYX ƏLİXAN ZƏNGƏNƏ – İRANIN BÖYÜK VƏZİRİ*

Şübhəsiz İranın böyük vəzirlərindən biri Şeyx Əlixan Zənganədir. O, hər cəhətdən vəzir və etimidud-dövlə məqamına layiq olub. O, bütün tarixi mənbələrdə təriflənən bir şəxsiyyətdir və Səfəvi şahlarının ən nalayiq və acizi, yəni Şah Süleymanın hakimiyyəti dövründə İranın işlərinin idarəçiliyinin qüdrətli qolu olaraq ölkəni qoruyub. Ümumiyyətlə İranda vəzirlik tarixi ölkə üçün siyasi təcrübələr və idarəçilik bacarığı baxımından çox mühümdür. Elə bu səbəbdəndir ki, İranın elmi mirasında indiyə kimi vəzirlər və onların iş üsulu barəsində «Tarixil-vüzəra» və «Dəsturul-vüzəra» adı altında onlarla kitab çap edilib.

Zəngənə tayfası Kermanşah və onun ətraf bölgələrində yaşayan kürd tayfalarından biri olub. Bu tayfanın adamları qızılbaş dövlətində fəaliyyətə birinci Şah İsmayılın zamanından başlayıbla. Onlar Şah Abbasın zamanından dövlətə və öz məntəqələri Kermanşah və Həmədana daha çox cidiyyətlə xidmət ediblər. Bu elin mövqeyi ikinci Şah Abbasın dövründə özünün ən yüksək həddinə çatıb. Bunun səbəbi həmin tayfanın başçısı Şeyx Əlixan Zəngənənin (təvəllüdü h.q. 1020) bu dövlətdəki nüfuzuna görə idi. O nisbətən uzun bir müddət Kermanşaha başçılıq edib və həmin müddət ərzində şəhəri genişləndirərək orada çoxlu binalar tikdirib, bu şəhəri kiçik bir şəhər şəklindən böyük bir şəhərə çevirib. Şeyx Əlixan ikinci Şah Abbasın hakimiyyətinin son illərində özbəklərin Xorasana ara-sıra hücumlarının qarşısını almaq üçün ora ezam olunub. Vəliqulu Şamlı yazır: Bu il də (h.q. 1076) mənfur özbəklər heç bir qorxu keçirmədən Xorasanın bəzi köçərilərinə əl uzatdıqları üçün Bağdad sərhəddində bəylər-bəyi kimi gecə-gündüz canfəşanlıqla xidmət göstərən Şeyx Əlixan sığınacaq axtaran əhaliyə xidmət üçün həmin məntəqəyə göndərildi və oğlu onun canişini təyin edildi. Şeyx Əlixan İsfahana gələndə ikinci Şah Abbas ona komandan rütbəsi verdi və o, Zəngənə tayfasından olan çoxlu adamla birlikdə Xorasana getdi.

Şah Süleymanın hakimiyyətinin ilk illərində Şeyx Əlixan əvvəlcə tüfəngçibaşının canişini vəzifəsinə təyin edildi və az sonra h.q. 1079 və ya h.q. 1080-cı ildə vəzir oldu. Həmin vaxt Kermanşah hökuməti də onun oğlu Süleyman xana həvalə edildi.

O, h.q. 1082-ci ilə kimi tam qüdrətlə vəzir vəzifəsində çalışdı. Lakin həmin ildə şahın qardaşı və anası ilə rəftarına etiraz etdiyi üçün onun qəzəbinə düçar oldu və bir ilə yaxın vəzir vəzifəsindən uzaqlaşdırıldı. Həmin fasilədə vəzir vəzifəsinə heç kəs təyin edilmədi və vəzirlik işini digərləri yerinə yetirdilər. Nəhayət sonrakı il, yenidən işə dəvət edildi və öz vəzifəsini davam etdirdi. O, həmin vaxdan h.q. 1101-ci il məhərrəm ayının on birinə yəni vəfat edənə kimi bu vəzifəni tam qüdrətlə yerinə yetirdi. O, həm idarəçilik bacarığı, həm də vəzirlik müddəti baxımından İran tarixinin məşhur vəzirlərindəndir. Qeyd etmək lazımdır ki, ondan sonra ikinci Şah Abbas dövrünün məclis yazanı Mirzə Məhəmmədtahir Vəhid Qəzvini h.q. 1110-cu ilə kimi vəzir olub və iki il sonra vəfat edib.

Şeyx Əlixan din baxımından da kamil bir dindar şəxs olub və şahın ona şərab içdirmək təkidlərinə baxmayaraq heç vaxt şərab içmək çirkabına bulaşmayıb. Şarden Süleyman şahın etimadud-dövlə ilə kefli halda necə xoşagəlməz davranması və Şeyx Əlixana şərab piyaləsi verilməsi göstərişini verməsini nəql edib. O şərab içməkdən imtina edəndə şah şərab paylayana göstəriş verir ki, şərabı onun burnuna töksün. Şeyx Əlixan yenə bu işdən imtina edəndə şah ona qaynadılmış xaşxaş yeməsini əmr edir və Şeyx yeyir. Şeyx həmin məclisdə özünün çox alçaldılmış hesab edir. Onun səhərisi gün Şah onu çox çətinliklə öz yanına çağırtdıra bilir.

Hər halda Şeyx Əlixanın dindarlığı xalq arasında çox məşhur olub. Kompfer yazır: «O çox dindar, Allahdan qorxan və pəhrizkar bir şəxs olub.» Həmçinin yazır ki, «o əyyaşlıq və avaraçılıqdan uzaqdır, ədalət vurğunudur və rüşvət almır.» Eyni zamanda bu nöqtəyə də təkid edir ki, o, çox mühüm işləri öz yaxınlarına və qohumlarına həvalə edib. Şarden, Şeyx Əlixanın vəsfində yazır:

**Şeyx Əlixanın 55 yaşı var idi. İgidboylu və uca, üzü kişi üzü idi. Ümumilikdə boy-buxunu mütənasib, yaraşıqlı və böyük idi. Parlaq və iti gözləri onun batininin saflığının, sakitliyinin, mənəviyyatının və vüqarının aynası idi. Sadə və sakit görünürdü, üzündə adətən vəzirlərin və vəzifə sahiblərinin üzündə olan həyəcan və təşviş görünmürdü. Başqa sözlə desək üzündə və gözündə batininin saflığının, ruhunun sakitliyinin, azad və mərd insan olmasının, pak və riyasız düşüncələrinin nişanəsi oxunurdu. Elə sadə və riyasız əxlaq və xasiyyət sahibi idi ki, əgər onu tanımayan birisi onu görsəydi heç vaxt onun baş vəzir (sədre əzəm) və belə böyük vəzifə sahibi olmasını güman etməzdi. Onu yaxından tanıyanlar və batininə diqqət edənlər onun sadəliyinə,**

**mülayimliyinə, nəcib əxlaqına, təvazökarlığına, ağıllılığına, qəlbinin təmizliyinə, xalqsevərliyinə, sadə geyinməsinə, rəngarəng süfrələrə etinasızlığına min afərin deyib bunlardan heyranlıqla danışırdılar.**

Şeyx Əlixanın gördüyü işlərdən biri Həmədanda böyük bir mədrəsə tikməsi idi ki, həmin mədrəsənin xərclərini təmin etmək üçün çoxlu kəndləri ora vəqf etmişdi. Həmin vəqfnamənin mətni indi də qalmaqdadır. Onun bir hissəsində deyilir ki, tələbələrə verilən aylıq pul yalnız dini dərs oxuyub, lakin fəlsəfə ilə məşğul olmayan tələbələrə aiddir; bu pullar zahirdə günah işlər görməyən tələbələrə veriləcək. Eləcə də əgər tələbələrdən kimsə rüsvayçı günah, şər və əxlaqsız bir iş görsə mədrəsədən çıxarılsın. Həmin mədrəsə üçün bir neçə dükan, ticarət mərkəzi, karvansara, eləcə də kənd vəqf edilib və onların dəqiq xüsusiyyətləri qeyd edilib. Bunlar Şeyx Əlixan Zəngənənin dərin dini etiqadının nişanəsidir. İsfahanın həmin dövrdəki böyük alimlərinin çoxu həmin vəqfnaməninin aşağısına öz möhürlərini vurublar.

O, İsfahanda da Xacu məhəlləsində bir məscid tikdirib və bu günə kimi Xan məscidi adı ilə məşhurdur. Onun kitabəsi h.q. 1091-ci ili göstərir və orada yazılıb ki, məscid Şeyx Əlixan Asəfcahın, yəni barəsində danışılan həmin vəzirin göstərişi ilə tikilib. Bu binadan bir neçə kitabə qalıb və onların hamısı həmin dövrün məşhur xəttatı Məhəmmədrza İmaminin xətti ilə yazılıb. Bunlardan əlavə o İsfahanda bir mədrəsə də tikdirib, təəssüflər olsun ki, həmin mədrəsə aradan gedib və onun adı yalnız kitablarda qalıb.

### *ŞEYX ƏLİXAN VƏ AVROPALILAR*

Şeyx Əlixan öz mövqeyinə çox inanır və şahın qəzəbi baxımından qətiyyən nigaran deyildi. Xüsusilə buna görə ki, şah and içmişdi ki, nə vaxtsa hansı səbəbdənsə ona qəzəblənsə onu öldürməyəcək. Bu səbəbdən bəzən şah bir şeyə razı olurdu, amma vəzir istəməyincə həmin iş həyata keçmirdi. Odur ki, belə bir misal yayılmışdı: «Şah bağışlayır, Şeyx Əlixan bağışlamır.» Bu misal böyük vəzirin siyasi rəftarından yaranmışdı.

Bu məsələnin maraqlı nümunələrindən biri İranın osmanlılarla münasibətləri və avropalıların bu iki ölkənin münasibətlərinin pisləşməsi istiqamətindəki təhrikləri ilə bağlı idi. Kompfer yazır:

**Bizim saraydakı səfirliyimizdən əsas məqsədimiz, İran şahını, Bağdadı sülh dövründə atası Səfinin əlindən çıxarmış türklərə qarşı müştərək hücuma vadar etmək idi. Baş vəzir bu işə razı olmadığı üçün bizim səylərimiz bir nəticə vermədi.**

Kompfer Şeyx Əlixanın bu addımının özü tərəfindən bildirilmiş bir neçə dəlilini də nəql edib. O, deyirmiş: Bizim osmanlılarla vuruşmağımız birincisi bizimlə onlar arasında olan müqaviləyə ziddir. İkincisi mövcud şərait bizə belə bir addım atmağa icazə vermir. Üçüncüsü bizimlə sizin aranızda olan fasilə bir-birimizi həqiqi müttəfiq hesab edərək lazımı məlumatları bir-birimizə çatdırmağa mane olur. Şeyx Əlixan sonra birinci Şah Abbasın zamanına aid elə bir təcrübəni xatırladır ki, bu təcrübə böyük Şah Abbasın zamanı bizə belə bir birliyin təhlükəli olmasını öyrədir. Çünki o da avropalılarla müttəfiq idi. Amma xristianlar əvvəlcədən xəbərdar etmədən və onun razılığını almadan türklərlə qarşılıqlı dostluq müqaviləsi bağladılar, o da müharibənin bütün yükünü təkbaşına öz çiyinlərində çəkməyə məcbur oldu.

Karri yazır:

**Onun (Süleymanın) türklərlə dostluq tərəfdarı olan baş vəziri əslində Türkiyəni İran üçün xristianlar müqabilində sədd hesab edirdi. (Onun fikrincə) əgər bir gün türklər məhv olsalar, sonra mütləq İranın növbəsi çatacaq və İran onların qarşısında müqavimət göstərə bilməyəcək.**

Bu söhbətlər Polşa, Almaniya və Rusiyanın nümayəndələrinin iştirakı ilə keçirilən məclisdə olub. Orada Rusiyanın səfiri osmanlı dövlətinin çətinliklərini bəyan edərək bildirir ki, İran dövlətinin köməyi ilə Osmanlı dövlətini çox rahat aradan götürmək olar. Etimadud-dövlə onun cavabında İranla osmanlılar arasındakı sülh müqaviləsinə işarə edərək bildirir ki, İran qətiyyən osmanlı dövlətinin məhvini istəmir. Çünki əgər müsəlman osmanlı dövlətinin yerinə orada xristian bir dövlət hakim olsa İran çox çətinliklərlə qarşılaşacaq. Başqa sözlə desək osmanlılar xristian şahların İrana hücumları qarşısında bir səddir. Şeyx Əlixanın bu baxışları avropa dövlətlərinin Osmanlılarla olan sülh müqaviləsini pozmaq üçün İrana göstərdikləri çoxlu təzyiqlərin qarşısında ən ağıllı siyasi qərar idi.

### *ŞAH SÜLEYMAN VƏ İSFAHANIN ABADLAŞDIRILMASI*

Şah Səfinin zamanından başlamış və ikinci Şah Abbasın zamanında daha ifrat şəkildə yayılmış saray tikmə dəliliyi bu dövrdə də davam edib. Sanki şah bir neçə tarixi bina tikməsəydi və ya əvvəlki binaların mərtəbələrinin sayını artırmasaydı şah olmurdu.

H.q. 1080-ci ildə tikilmiş binalardan biri səksən beş cərib[1] böyüklüyündə olan bir bağın içində tikilmiş «Həşt beheşt» imarətidir. Onun sarayı «Bülbül sarayı» adı ilə məşhurlaşmışdı. Şarden bu bağ və sarayı müfəssəl şəkildə vəsf edib və otaq və koridorlarının çoxluğu və zinəti baxımından onu dövrünün ən gözəl binalarından biri adlandırıb. Saib də «Həşt beheştin» vəsfində uzun bir qəsidə deyib və onun son beytinin bir misrası həmin binanın tikilməyə başlama tarixini (h.q. 1080), bir misrası isə sona çatma tarixini (h.q. 1081) göstərir.

*Bad ya Rəbb qibləgahe sərfərazane zaman*
*Barqahe tazeye Sultan Süleyman zaman*

**Yəni: Pərvərdigara zamanın başı ucalarının qibləgahı olsun, zamanın sultanı Süleymanın yeni sarayı!**

Həmin dövrdən qalmış tarixi binalardan biri də Lunban məscididir ki, onun Səfəvilər dövründən qalma kitabələri var və 1080-cı hicri ilini göstərir. Bu məscid və onun yerləşdiyi məhəllə çox köhnədir və orada Səfəvilərdən qabaq tarixi binaların olmasını nəzərə alaraq demək olar ki, həmin ildə orada əsaslı təmir işləri aparılıb. İsfahan camaatı arasında belə söz gəzir ki, imam Həsən Müctəba (ə) həmin yerdə namaz qılıb və bu məscid indi də xüsusi müqəddəsliyə malikdir.

Səfəvi şahlarının sonuncu nümayəndələrinin gördükləri işlərdən biri böyük alim, şair və şəxsiyyətlərin qəbrləri üzərində məqbərələr tikmək idi. İsfahanın «Təxti-fulad» məntəqəsində Baba Rukniddin məqbərəsi birinci Şah Abbasın zamanından qalıb. Həmçinin Mirfəndriski təkyəsi də həmin dövrdən qalmadır. Şah Süleyman və onun oğlu Hüseynin zamanında «Təxti-fulad»da Feyz küçəsinin qərb tərəfində çoxlu təkyələr tikilib ki, onların əksəriyyəti bu günə kimi qalır.

Şahlardan əlavə tanınmış şəxsiyyətlər də özləri və ailələri üçün təkyələr tikirdilər. Saib Təbrizi h.q. 1087-ci ildə vəfat etdi və sonralar «Bağe-təkyə» adı ilə məşhurlaşan öz şəxsi bağında dəfn edildi. Orada sonralar onun ailə üzvlərinin bəziləri də dəfn edildilər. Bu bağ Niyasərəm çayının kənarında yerləşirmiş.

İkinci Şah Abbasın və Şah Süleymanın hakimiyyətinin ilkin dövrlərinin tanınmış alimlərindən biri məşhur filosof və alim Mirzə Rəfia Nainidir ki, o,

---

[1] Eni və uzunu altmış arşın olan yer ölçü vahididir

h.q. 1082-ci ildə vəfat edib və onun qəbirinin üstündə gözəl bir məqbərə tikilib. Sonralar İsfahanın qədimi hava limanının ərazisinə düşən həmin məqbərə bu gün də qalır və onun gözəl künbəzi günəşin nuru altında məxsus cilvəyə malik olur.

Ağa Hüseyn Xansarinin (h.q. 1098) vəfatından sonra tikilmiş və onun övlad və qohum-əqrabasının da dəfn edildiyi «Xansarilər» məqbərəsi də Şah Süleymanın həmin dövrünün tarixi abidələrindəndir və sonrakı dövrlərdə dəfələrlə təmir edilib və bu günə kimi qalmaqdadır.

H.q. 1099-cu ildə İsfahanın «Seyid» məscidinin şərqi divarının kənarında Mirzə Hüseyn mədrəsəsi də tikilib və bu sətrlərin müəllifi bir neçə səhər oranın hücrələrinin birində yaşayıb. Həmin dövrdə tikilmiş digər böyük bir mədrəsə «Kasəgəran» mədrəsəsidir ki, onu on ikinci hicri əsrinin ilk illərində Əmir Məhəmmədmehdi Həkimulmülk tikdirib. Onun kitabəsi h.q. 1103-1105-ci illəri (Şah Süleymanın şahlığının son ilini) göstərir. Həmin mədrəsənin vəqfnaməsi də bu gün qalır ki, ona bir çox kənd və dükanlar vəqf edilib.

Ağamübarək də dini elm tələbələri üçün bir mədrəsə tikib və o, «Mübarəkiyyə» mədrəsəsi adı ilə məşhur olub. Həmin mədrəsə Hafiz xiyabanının Kermani küçəsində yerləşirmiş. Bu mədrəsə Pəhləvilər dövründə dağıdılıb və «Namus» qız mədrəsəsinə çevrilib. O, Damğanın Xosrovabad bağında əmirlər şurasında ikinci Şah Abbasın ölümündən sonra Süleymanın şahlıq məsələsini möhkəmləndirmiş şəxsdir.

Həmin dövrdə Şah Süleymanın qüdrətli və ləyaqətli vəziri Şeyx Əlixanın əli ilə tikilmiş ən gözəl binalardan biri Şeyx Əlixan karvansarasıdır ki, hal hazırkı İsfahan-Tehran yolunun təqribən otuz kilometrliyində yerləşir. Həmin bina bu günə kimi qalmış ən maraqlı karvansaralardan biridir ki, özünəməxsus gözəlliyə malikdir. Onun tikilmə tarixi 1098-ci hicri ilidir.

Əlbəttə məscidlərin tikilməsində başqa adamlar da iştirak edir və digər nümunələrdə olduğu kimi, ora şahın adını və öz adlarını yazdırırdılar. H.q. 1093-cü ildən h.q. 1097-ci ilə kimi Həkim Niazaməddin Məhəmməd Elçinin həyat yoldaşı Sultanbəyim adlı bir xanım İsfahanın Əhmədabad məhəlləsində bir məscid tikdirib ki, indiyə kimi Elçi məscidi adı ilə məşhurdur.

İsfahandan başqa həmin dövrdə imam Rza əleyhis-salamın hərəmi barəsində də bəzi işlər görülüb. Həmin hərəmin müqəddəs künbəzi 1084-cü ildə möhkəm zədələndi və onda yarıq əmələ gəldi. Məhəmmədrza İmaminin xətti ilə yazılmış kitabəyə əsasən həmin ildə zəlzələ baş verib və hərəmdə

Şah Süleymanın göstərişi ilə yenidən bərpa işləri aparılıb. Əlbəttə künbəzin əsas zinət işləri (Əlirza Abbasinin künbəzin ətrafında yazılmış kitabəsinə əsasən) h.q. 1010-1016-cı illərdə ancaq birinci Şah Abbasın mülkü ilə görülüb.

## *SƏFƏVİLƏRİN SON ON İLLİKLƏRİ BARƏSİNDƏ ZİDDİYYƏTLİ DİNİ MƏLUMATLAR*

**A-Hədisə meyllilik**

Həmin dövrdə geniş yayılmış elmlərdən biri hədis elmidir ki, bütün cəhətlərdən diqqət mərkəzində olub. Bu dövrdə hədis sahəsində üç əsas hədis külliyyatı yazılıb:

Onlardan biri Feyz Kaşaninin (h.q. 1091) «əl-Vafi» kitabıdır ki, o, bu böyük kitabda şiə hədislərini «üsul» (əqidə) və «füru» (əməl) hissələrinə bölərək toplayıb.

İkinci kitab Şeyx Hürr Amilinin (h.q. 1033-1104) «Vəsailuş-şiə» kitabıdır ki, o bu kitabda fiqhi hədisləri misli görünməmiş şəkildə müxtəlif fiqhi təbəqələrə bölüb. Bu kitab bu günə kimi şiənin dini mədrəsələrində geniş yayılmış kitablardandar. Bunu da nəzərə almaq lazımdır ki, Şeyx Hürr bu dəyərli kitaba hər hədisi toplamayıb. O, zəif hədislərin çoxunu kənara atıb və öz kitabında şiənin mötəbər mənbələrində olan hədisləri təbəqələrə ayırıb. Onun işdəki ciddiliyi bu kitabın öz mötəbərliyini qoruyub saxlamasına səbəb olub.

Üçüncü hədis külliyyatı Əllamə Məclisinin «Biharul-ənvar» kitabıdır. Bu kitab təkcə hədis kitabı deyil. O, şiənin yerdə qalmış bütün mətnlərini bu kitabda toplayıb. Biz Əllamənin tərcümeyi-halında bu kitab və onun sair hədis kitabları barəsində danışacağıq.

Şeyx Abdullah Bəhrani İsfahani adlı digər bir alim də Əllamə Məclisi ilə bərabər həmin şəkildə «Əvalimul-ulum» adlı çox cildli bir kitab yazıb. Lakin o, fəsillərə bölmə və şərh baxımından Əllamə Məclisinin kitabınından aşağı səviyyədədir.

Bu dövrdə hətta Quranın təfsiri də hədis və rəvayət yönümlü idi. Misal üçün Seyid Haşim Bəhraninin (h.q. 1107) «əl-Bürhan fi təfsiril-Quran», Əbdəli ibn Cümə Huveyzinin (h.q. 1112) «Nurus-səqəleyn» və Feyz Kaşaninin «əs-Safi» təfsirlərini göstərmək olar. Bu kitablarda hər ayənin aşağısında şiə mənbələrində olan hədislər gətirilib.

Əxbariliyin inkişafı məsələsinə iki cəhətdən baxmaq olar. Biri fəlsəfə üçün məhdudiyyət yaratmaq, digəri isə ictihadi fiqhi məhdudlaşdırmaq baxımından.

Bu cərəyanın fəlsəfə ilə mübarizəsi barəsində Səfəvilərin son on illiklərində yaranmış müxtəlif nümunələrə işarə etmək olar. Bunun ən kiçik nümunəsi həmin dövrün mədrəsələrinin bəzilərinin vəqfnamələrində qoyulmuş maraqlı şərtdir. Onlarda deyilir ki, bu mədrəsədə fəlsəfi kitablar tədris edilə bilməz və əgər hansısa bir tələbə və ya ustad bu işlə məşğul olsa mədrəsədən çıxarılmalıdır. Şeyx Əlixan Zəngənənin Həmədandakı mədrəsəsinin vəqfnaməsində deyilir: «Əgər nə vaxtsa ustad və ya tələbələrdən biri şəriətə zidd olan fəlsəfə elmini, irad tutmaq və batil etmək istisna olmaqla, açıqlamaqla məşğul olarsa, onların maaşı kəsilsin və mədrəsədən çıxarılsınlar.»

Buna baxmayaraq qətiyyən belə təsəvvür etmək olmaz ki, fəlsəfi dərslərin alimlərin dərs proqramlarından bu sadəliklə çıxarılması mümkün olub. Şah Süleyman və onun oğlu Şah Sultan Hüseynin bütün hakimiyyətləri dövründə hədisin yayılmasına çox səylər göstərilməsinə baxmayaraq fəlsəfi əsərlər hələ də tədris edilirdi və Ağa Hüseyn Xansari kimi məşhur ustadların dərsləri dini tələbələrlə dolu olurdu. Xristianlıqdan dönüb şiəliyi yeni qəbul etmiş və Məclisiyə tabe olaraq hədisə çox etiqadı olan bir avropalı, yazılarının birində Səfəvilərin hakimiyyətinin son dövrlərində alimlərin hədisə diqqətsizliklərindən belə şikayətlənir:

**Mən dəfələrlə bir şey başa düşmələrini zənn edən, mədrəsələrdə vaxtlarını illərlə elm öyrənməyə sərf etmiş və özlərini elm və ağıl əhli sayan bu tayfadan (fəlsəfə oxuyan tələbələrdən) olan adamlarla bir məclisdə olmuşam. İslamı yeni qəbul etməyimə və hədislər barəsində tam məlumat əldə etməməyimə baxmayaraq, İslam dininin zəruri məsələlərinin biri barəsində onlardan hədis soruşmuşam və onlar bilməyiblər. Hətta mən onlara öyrətmişəm və onlar günahlarından daha pis olan bəhanə gətiriblər. Deyiblər ki, «biz fəlsəfə oxuyuruq və neçə ildir ki, «Hidayə»nin şərhindən «Şəfa»ya kimi olan fəlsəfə kitablarını oxumaqla məşğuluq, boş vaxtımız olmayıb ki, hədis də oxuyaq!**

O, sonra mədrəsə tikmək və vəqf etməklə məşğul olan şəxslərə tövsiyə edir ki, bu nöqtəyə diqqət etsinlər və bunu şərt kimi vəqfnamədə nəzərə alsınlar.

**Min zəhmətlə çoxlu pul əldə edib axirət savabı üçün xərcləyən, alimlərin yetişməsi və Əli ibn Əbu Talib əleyhis-salamın şiələrini o həzrətin dini ilə tanış etmək məqsədi ilə mədrəsə tikən, onun üçün vəqflər edən şəxslər niyyətlərinin nə olmasına, camaatın isə nə ilə məşğul olmalarını nəzərə alsınlar. Mən mədrəsə tikməyin pis olmasını demək istəmirəm. Demək istəyirəm ki, əgər həmin mədrəsələrdə hədis elmi və din əhli olan şəxslər oturtsalar və Əflatun və Ərəstundan başqa bir şey tanımayan dinsizləri oradan çıxararaq həmin mədrəsələrə qoymasalar, bunun savabı mədrəsə tikməyin savabından çox olacaq. Doğrudan da kiminsə filosofların sözlərini oxumağı imamların – salavatullah əleyhim əcməin – hədislərini və şəriət kitablaranı mütaliə etməkdən üstün tutması çox təəccüblüdür.**

Bu cür tövsiyələr Şah Səfinin qızı Məryəmbəyimin İsfahanda tikdirdiyi mədrəsənin vəqfnaməsində belə yazmasına səbəb olub:

**...Gərək xülya kitabları yəni əqli elmlər və fəlsəfə adı ilə məşhurlaşmış şəkk-şübhə elmlərinin «Şəfa», «İşarat», «Hikmətul-eyn», «Şərhi-hidayə» və bu kimi kitablarını dini elmlərə giriş bəhanəsi ilə oxumasınlar.**

İslamı yeni qəbul etmiş Əliqulu öncə dediklərinin ardınca fəlsəfə oxuyub hədisə diqqət etməyən şəxslərin bəhanələrini bəyan və tənqid edərək onların belə deməlırini yazır:

**İndiki zamanda hər bir kəsə Əflatun və Ərəstun fəlsəfəsindən bildiyi miqdarda vəzifə verirlər. Təhsil almağa gəlmiş mən və mənim kimiləri imkansız olduğumuz üçün elmin güzəranımızın təminat mənbəyi olmasını istəyirik. Görürük ki, İsfahanda da vəzifə və tərəqqi fəlsəfəni bilməklə mümkündür. Buna görə də Əflatun və Ərəstunun fəlsəfəsi ilə məşğul olur, fiqh və hədisə girişmirik.**

Bu izahat fəlsəfə təlimi bazarının hələ də çox qızğın olduğunu göstərir. Nəzərə almaq lazımdır ki, bu şəxs yuxarıda deyilənləri Şah Sultan Hüseyn Səfəvinin hakimiyyətinin (h.q. 1106-1135) ortalarında yazıb.

Əxbariliyin inkişafının digər nişanələrindən biri fiqhi ictihadın məhdudlaşmasıdır. Bu cəhətdə fiqh, seçilmiş hədislərin tərcümə edilməsi ilə məhdudlaşıb və əsaslı araşdırmalardan, fiqhin ümumi qanunlarından, eləcə də əqli nəticələrdən az istifadə edilir. Bunun müqabilində fiqhi hökmlərdə ehtiyatdan istifadə artıb. Qeyd etmək lazımdır ki, bu hərəkat on birinci hicri əsrinin əvvəllərindən başlamışdı və bu dövrdə də öz yolunu qüdrətlə davam

etdirirdi. Lakin ictihad məktəbi onun qarşısında güclü olduğu üçün mütləq şəkildə hakim ola bilmirdi.Səfəvilərin son şahlarının zamanında İsfahanda hələ də ictihadi fiqhə bağlı olan fəqihlər tapılırdılar. Bu məktəbin görkəmli simalarından biri Ağa Camal Xansari, digəri isə Fazil Hindi adı ilə məşhur olan Bəhaəddin Məhəmməd İsfahanidir (h.q. 1062-1137) ki, onun ən seçilmiş fəqihlərdən olması onun çox əhəmiyyətli «Kəşful-lüsam» kitabından məlum olur. O, ictihadi fiqh tarixinin, özü də fiqhdə Şəhidi Əvvəl, Şəhidi Sani və Mühəqqiq Kərəki baxış tərzinin mühüm silsilələrindəndir. Bu üslub ondan sonra İsfahanda sonna çatır və Nəcəfə keçir.

**B-Sufiliklə ziddiyyət.**

Bu dövrün dini xüsusiyyətlərindən biri sufiliklə mübarizədir ki, hər bir dövr barəsində danışarkən ona toxunmuşuq. Yaddan çıxarmaq olmaz ki, Səfəvi dövlətinin son günlərinə kimi qızılbaşlar hələ də nəfəs çəkir və sufilər arasında baş mürşidin canişini olan xəlifətul-xüləfa öz yerində qalmaqda idi. Aliqapının yanında Tövhidxana adlı bir yer də var idi ki, sufilər ora toplaşır və özlərinə xas məclisləri keçirirdilər. Buna bənzər yerlər digər şəhərlərdə də var idi ki, sufilər ora toplaşaraq «Allah, Allah» nərəsi çəkirdilər. Bu qızılbaşların çoxu hələ də şahın şəxsi mühafizləri idilər və silahlı qüvvələr də onlardan ibarət idi.

Bütün bunlara baxmayaraq Şah Süleyman və onun oğlunun zamanından onlara qarşı mübarizə şiddətləndi. Şarden, ruhanilərlə sufilər arasındakı ziddiyyətə toxunub və onlara qarşı edilən çıxışlar barəsində məlumat verib.

Bu ziddiyyətin davamı olaraq sufilərə qarşı bir çox əsərlər yazılıb. Özünün elmi fəaliyyətinin çox hissəsini bu tayfaya qarşı iradlar yazmağa həsr etmiş şəxslərdən biri Molla Məhəmmədtahir Qummidir (h.q. 1098) ki, uzun müddət Qum şəhərinin imam cüməsi olub. O sufilərə qarşı «Tohfətul-əxyar» adlı bir kitab yazıb və onda sufilərin fikirlərinin səhv olması barəsində geniş söhbət edib. Həmin zamanda Qumda Məhəmmədkərim Şərif Qummi adlı digər bir arif alim «Tohfətul-əxyar» kitabına rədd yazıb və onun adını «Tohfətul-üşşaq» qoyub. O, bu kitabda iddia edib ki, Şeyx Bəhai, Mir Damad, Lahici, Molla Rəcəbəli Təbrizi və s. bu kimi şəxsiyyətlər də sufilik yolunda olublar. Bu kitab h.q. 1098-ci ildə Molla Məhəmmədtahir vəfat edən ildə yazılıb. Maraqlası budur ki, Məhəmməd Mömin Təbib də məxsusən Şah Süleyman üçün Molla Məhəmmədtahirin sözlərinin rəddində bir kitab yazıb və onun adını «Təbsirətul-muminin»

qoyub. Molla Məhəmmədtahir sufilərə rədd olaraq digər kitablar da yazıb. Onlardan biri «Muhibbane-Xoda» adlı risalədir. Onun bu barədəki digər bir risaləsi «Munisul-əbrar» adlanır. O, sufiliyin şiəlikdən deyil, sünni məzhəbindən yaranmış olmasını göstərməyə çalışır. Həmçinin göstərmək istəyir ki, onların tövhid barəsindəki əqidələri səhvdir və şəriətə imanları zəifdir. O, sufiliyin rəddində digər böyük əsər də yazıb ki, indi onun yalnız bir cildi qalır. Həmin kitabın adı «Hidayətul-əvam və fəzihətul-liam»dır. Bu kitabın adından göründüyü kimi o, sufiləri həqir və alçaq hesab edirmiş və öz kitabında onların mahiyyətini ifşa etmək istəyib. Bu kitabda sufilərin Həllac və Bayəzid Bəstami kimi başçıları və onların bidətləri, eşqbazlıqları və onlara nisbət verilən digər şeylər barəsində söhbət edib.

Molla Məhəmmədtahir sufilərlə mübarizə yolunda bir müddət təkcə Feyz Kaşani ilə deyil, hətta bir zamanlar Məhəmmədtəqi Məclisi ilə də qızğın mübahisədə olub və hər iki tərəf bu barədə bir-birlərinin əleyhinə risalələr yazıblar. Qeyd etmək lazımdır ki, sonralar onun Feyz barəsindəki fikiri dəyişib və ondan üzr istəyib.

Sufilərlə mübarizə Şah Sultan Hüseynin zamanında da şiddətlənib və dini məqamların rəsmi din siyasətlərinin bir hissəsi olub. Bu hərəkət sufiliklə bağlı olmasından əlavə, cəmiyyətdə məzhəb mücadiləsini çox genişləndirdi və alimləri iki dəstəyə – müxalif və müvafiq dəstələrə böldü. Bu məsələ ümumilikdə cəmiyyətdə məzhəbin zəifləməsində təsirli idi. Qeyd etmək lazımdır ki, bəzi qələm əhli bu hadisələrin hamısının Əllamə Məclisinin kəskin davranışından yaranmasını hesab edirlər. Halbuki o bu barədə də mötədil davranıb və tarixi mənbələrdə onun bir iki şübhəli yerdən başqa sufilərlə kəskin davranması barəsində nəzərə çarpacaq bir şey nəql edilməyib.

Sanki sufilərə müxalif qüvvələrin çoxu, özlərinin sufilərə qarşı hərəkətlərində hətta Əllamə Məclisidən sonra onun nüfuzundan da istifadə edirmişlər. Halbuki Əllamə Məclisinin həmin dövrün saxta ariflərinin çoxu ilə arası olmamasına, hətta Molla Sədra kimi şəxslərin ürfani üslublarını bəyənməməsinə və şagirdi Nemətullah Cəzayirini «Məqamatun-nəcat» kitabını yazmaqdan saxlamasına baxmayaraq, onlarla pis davranmayıb. Bunun dəlili onun əsərlərinin bəzilərində ürfani üslubu bəyənən Feyz Kaşanidən hədis rəvayət etmək icazəsinin olmasıdır.

Sufilərə qarşı çıxılmasına şərait yaradan əsas səbəblərdən biri onların «Sima»[1] məclisləri keçirmələri və orada «ğina»[2] ilə şer oxumaları və mərasimlər keçirmələri idi. Bu məclisləri bu gün də qızılbaş sufilərin varis və davamçıları olan Türkiyə ələviləri keçirirlər. Şiə fiqhində ğina haram olduğu üçün bu məsələ müxaliflərin sufilərə hücum etmələrinə səbəb olurdu. Əllamə Məclisinin özü «Eynul-Həyat» kitabında yazır: «İndiki zamanda da, bu uydurma və boş sözlərin çoxunu onlardan eşidirəm. Onlar bu məzmunlu sözləri aşiqanə şerlər kimi qələmə verir, bir neçə axmağın əlinə veriblər ki, oxusunlar, əl çalsınlar və fəryad qoparsınlar.»

Burada həmin dövrün fikir və düşüncələri təkcə öz dövrlərinə deyil, bəlkə ondan əsrlərlə sonrakı vaxtda bizim cəmiyyətin mədəniyyətinə də təsir göstərmiş böyük alimlərindən bir neçəsinin tərcümeyi-halını bəyan etmək istəyirik. Həqiqətən də cari siyasi və mədəni hadisələrdə rol oynamış görkəmli alimlərin həyatı ilə yaxından tanış olmadan Səfəvilərin bu dövrünün tarixini düzgün dərk etmək mümkün deyil. Kitabın müxtəlif yerlərində alimlərin Səfəvi dövləti ilə əməkdaşlıq etmələrini demişik və bundan sonra da deyəcəyik. Şiə alimlərinin Səfəvilərdən qabaq və sonrakı siyasi nəzəriyyələri barəsində də danışmaq lazımdır ki, alimlərin Səfəvi dövləti ilə əməkdaşlıq etmələri və həmin dövlətdə təmsil edilmələri fiqhi baxımdan daha yaxşı anlaşılsın.

## *RUHANİLƏR VƏ SƏFƏVİ DÖVLƏTİ*

### FEYZ KAŞANİ, MÜHƏQQİQ SƏBZİVARİ, AĞA HÜSEYN XANSARİ, ƏLLAMƏ MƏCLİSİ

Səfəvi dövləti çox geniş bir əraziyə hakim olan və müstəqil, öz fikir və düşüncələrinə əsaslanan ilk şiə dövlətidir. Şiələrdən qabaq zeydilərin İranın bəzi nöqtələrində, eləcə də ondan xaricdə dövlətləri olub. Misir və İran Fatimiləri də, İsmaili şiələri kimi dövlətlər qurmuşdular. Monqol şahlarından olan Xodabəndə də şiəliyi qəbul edib və Sərbedaran da şiə olub. Lakin bunların heç biri şiə fiqhini əsas tutan və şiənin siyasi nəzərlərinə hətta az da olsa ehtiram qoyan bir quruluşa malik olmaq üçün şiə ideyalarını nəzərə almayıblar. İlk dəfə Səfəvi dövlətində şiə ruhanilərinə cəmiyyətin siyasi işlərinin bir hissəsini əllərinə almaq icazəsi verilib.

[1] Sufi dərvişlərinneylə ifadə etdikləri zikr məclisləri
[2] Musiqi avazı ilə

Burada Səfəvilərin son dövrlərinin, hamısı özündən əvvəlki alimlər – Mühəqqiq Kərəki, Şeyx Bəhai və Mir Damad kimi Səfəvi dövləti ilə əməkdaşlıq etmiş bir neçə görkəmli aliminin tərcümeyi halını şərh etməzdən əvvəl şiənin siyasi baxışlarına bir nəzər salmaq lazımdır. Əlbəttə Səfəvilərin iki yüz otuz illik hakimiyyəti dövründə elə alimlər də tapmaq mümkündür ki, onlar Səfəvi dövləti ilə əməkdaşlıq etməyə razı olmayıb. Onların bu rəftarlarının səbəbi bəzən dində ehtiyata əsaslanmaq, şahlarla yoldaşlıq etməkdən çəkindirən bəzi rəvayətlərin təsiri altına düşmək, bəzən də dərs və təhsil ilə məşğul olaraq siyasi məsələlərə daxil olmamaq olub.

## *ŞİƏNİN SƏFƏVİLƏRDƏN QABAQKI SİYASİ BAXIŞLARI*

Şiələr on ikinci imamın kiçik qeybə çəkilməsindən – h.q. 329-cu ildən sonra həmişə sünnilər arasında azlıq şəklində yaşayıblar. Onlar bütün bu müddət ərzində müstəqil bir dövlətə malik olmaq barəsində çox az düşünə bilirdilər. Çünki ümumiyyətlə ərəb və əcəm ölkələrində güclü sünni hökumətləri ola-ola belə bir fikirin gerçəkləşməsi mümkün deyildi. Buna görə də onlar şiə məzhəbi və onun əsaslarını qoruyub saxlamağa və öz qüvvələrini əldən verməməyə çalışırdılar. Şiələr bu əqidədə idilər ki, onların həqiqi imamı, yəni hakimiyyəti haqq olan yeganə şəxs hal hazırda qeybdə olan on ikinci imam əleyhis-salamdır və başqaları onun haqqını qəsb ediblər. Buna görə də İmam Zaman (ə) tərəfindən təyin edilmədən hakimiyyətdə olan bütün dövlətlər qəsbi və qeyri-qanunidir.

Eyni zamanda şiə özünü həm elmi cəhətdən qorumalı idi, həm də məhdud bir çərçivədə bir azlıq kimi öz siyasi mahiyyətini. Bu barədə əsas rolu Qum, Bağdad, Nəcəf, Hələb, Hillə, Rey, Səbzivar, Sari və…. şəhərlərində olan şiə alimləri oynayırdılar və şiələrin ideoloji və fiqhi rəhbərliyi onların ixtiyarında idi.

Bu rəhbərliyin iki məlum əsası var idi: **Birincisi** bu idi ki, həmin şəxslər şəriət və fiqh alimləri idilər və təbii olaraq hər bir kəs bilmədiyi məsələ barəsində alimə müraciət etməli, alimi özünün elmi mənbəyi hesab etməli idi. Bu cəhət ağıl baxımından alim və fəqihlər üçün bir növ elmi mənbə olmaq rolu yaradırdı. **İkinci** cəhət və əslində daha mühüm nöqtə imamların (ə) zamanından şiələrə fiqh və qəzavət məsələlərində şiə alimlərinə və hədis daşıyıcılarına müraciət etməyin əmr edilməsi idi. Çünki alimlər şiələrin içində imamların canişinləri idilər. Burada şiələrə bir növ şəri vəzifə yaranmışdı və bu, fəqihlərin camaatın arasında imamların (ə) canişinləri olmaları məsələsi idi.

Həmçinin şiə, imamətin mahiyyətini siyasi hesab etməkdən artıq ideoloji, siyasi və mənəvi mənalara yozduğu üçün onlarda «gərək fəqih hakim olsun» siyasi nəzəriyyəsinin irəli sürülməsinə daha çox şərait yaranırdı. Əlbəttə Səfəvilərə kimi bu hakimiyyətin çərçivəsi və fəqihin qüdrət dairəsi barəsində geniş söhbət edilməmişdi.

Bu səbəbdən də şiələr təkcə sırf fiqhi və elmi məsələlərdə deyil, bəlkə mümkün qədər məişət çətinliklərini, xüsusilə qəzavət məsələlərini şiə fəqihlərlə bölüşürdülər. Onlar bu əqidədə idilər ki, başqaları «tağut»[1]durlar şəri baxımdan düzgün olan yalnız fəqihlərin hökumətidir. Səfəvilərdən qabaq müəyyən çətinlər və şiənin azlıqda olması səbəbindən, hətta bir bölgədə geniş əhatəli bir hökumət ola bilməzdi. Çünki ümumiyyətlə onun gerçəkləşməsi qeyri-mümkün görünürdü.

Odur ki, şiə öz məsələ və çətinliyini bura qədər müstəqil mənliyini alim və fəqihlərin başçılığı altında qorumuş nüfuzlu bir azlıq çərçivəsində saxlamışdı. Lakin bu mərhələdə əsas sual bu idi:

Birincisi: Şiə mütləq sünni hökumətləri ilə necə əlaqə qura bilər?

İkincisi: Əgər nə vaxtsa bu azlıqdan çıxıb, dövlət qura bilsə öz siyasi quruluşunu hansı üsul və meyar əsasında quracaq?

Doğrusu Səfəvilərə kimi ikinci sualın meydana çıxmasına şərait yaranmamışdı və hamı imam Zamanın (ə) zühurunu gözləyir, həmin vaxtı şiənin əsl qələbə vaxtı hesab edirdilər.

Birinci sual barəsində isə çoxlu fikir və nəzərlər irəli sürülmüşdü. Bu barədə deyilənlərin xülasəsi bu idi ki, hökumətlər qəsbkar olmalarına baxmayaraq onların ədalətə yaxın olmaları və camaatın, xüsusilə şiələrin hüquqlarına riayət etmələri baxımından onlarla bir araya gəlmək mümkündür. Bu nəzəriyyəyə əsasən hakim ya ədalətlidir, ya da zalım. Əgər ədalətli olsa onunla əməkdaşlıq etmək məsləhət, hətta bəzən vacibdir. Əgər zalım olsa və insan həmin hökumətə nüfuz edib insanlara xidmət edə bilərsə həmin dövlətlə müəyyən şərtlərlə əməkdaşlıq etmək, yəni onun tərəfindən vəzifə almaq olar. Şiənin möhtərəm fəqihi Şeyx Tusi bu barədə belə yazır:

**Əmr be məruf və nəhy əz munkər edən, hər şeyi öz yerinə qoyan ədalətli hökmdardan vəzifə qəbul etmək caizdir və ola bilər ki, hətta bəzən zəruri və vacib olsun. Çünki əmr be məruf və nəhy əz munkər etməyə şərait yaranıb. Hökmdar zalım olan təqdirdə isə insan bilsə və ya çox ehtimal versə ki, onunla əməkdaşlıq edəndə Allahın müəyyən**

---

[1] Batil və haqq olmayan

**etdiyi həddləri icra edərək əmr be məruf və nəhy əz munkər edib xüms və zəkatı sahiblərinə çatdırmaq, qardaşların birliyi yolunda xərcləmək olar, digər tərəfdən vacib olan əmələ xələl gətirməyib çirkin əmələ mürtəkib olmayacaq onlar tərəfindən bir iş qəbul etməyə hazırlaşmaq müstəhəbbidir. Əks təqdirdə belə bir işə qol qoymaq olmaz. Əgər onu məcbur etsələr, yaxşı olar ki, mal və canına təhlükə yoxdursa zərər və çətinliyə qatlaşsın, belə bir işə razılaşmasın. Amma əgər onun özü, ailəsi və digər möminlər üçün bir təhlükə olsa həmin işi qəbul edə bilər. Amma hətta gizlində olsa belə gərək ədalətlə davransın.**

Bu, şiə fəqihlərinin çoxunun qəbul etdiyi və şiələrin hökumətlərlə münasibətlərini tənzimlədikləri bir fitvadır. Bu məsələnin, xüsusilə şiə alimlərinin Səfəvilərdən qabaqkı hökumətlərlə rəftarlarının tarixi nümunələrinin daha çox şərhə ehtiyacının olmasına baxmayaraq biz bu miqdarla kifayətlənərək Səfəvilərin dövründə baş verən hadisələrin bəyanına başlayırıq.

## *SƏFƏVİ DÖVLƏTİ VƏ ALİMLƏRİN BU DÖVLƏTDƏ İŞTİRAKI*

Səfəvi şahları ilə şiə alimləri arasındakı əlaqələr bir neçə mərhələni arxada qoyub. İlk mərhələ Səfəvi dövlətinin yaranması ilə bağlıdır ki, onda heç bir fəqihin rolu olmayıb. Əslində bu dövlət məxsus siyasi nəzəriyyə əsasında sufilik dairəsində baş mürşid ilə müridlər arasında yarandı və «xəlifəgəri» adlandırılan bir sistem qüdrəti ələ aldı. Qızılbaşların Şah İsmayıla itaət etmələrinin əsası, onların İsmayıla Ərdəbil təkyəsinin başçısı kimi əqidə bəsləmələri idi və bunun tayfaçılıq və fiqhi baxımdan heç bir əsas və izahı yox idi. Buna görə də bu dövlətin yaradılmasında fəqihlərin heç bir rolu olmayıb və işlərin davamında da nə nəzərə çarpacaq bir fəqih var idi və nə də hansısa mühüm bir fiqhi kitab şəri əməllərin yerinə yetirilməsinin əsası idi. Həmin zamana kimi Şah İsmayıla kömək edən alimlər fəqih deyil, filosof idilər. Bundan əlavə onların bir neçəsi həmin dövrdən şiəliyi qəbul etmiş keçmiş sünnilər idilər və şiə mədəniyyəti ilə dərindən tanış deyildilər.

İkinci mərhələ Səfəvi dövlətində fəqihlərin tədrici iştirakıdır. Keçmiş fiqhi mətnlər və qabaqkı fəqihlərin davranış üsulları əllərində olan şiə fəqihləri ədalətli hökmdarı himayə etmək və belə bir hökmdarın hökumətində vəzifə tutmaqda tərəddüddə deyildilər. Əlbəttə, bu məsələ özünün keçmişdəki təhlil həddində qalmamışdı və hökumətdə iştirak etmək və onunla əməklaşlıq barəsində keçmiş əsaslar üzərində yeni izahlar verilmişdi.

Məlumdur ki, Səfəvi dövləti baxımından da, şəri məsələlərin həll edilməsi ixtiyarında olan sədrlik və qəzavət məqamı hansısa bir sufiyə və ya filosofa tapşırıla bilməzdi. Çünki bu işlərin idarə edilməsi fiqh və şəriətə möhtacdır. Bu səbəbdən də Şah İsmayılın hökumətinin axırlarından fəqihlərə ehtiyac hiss edildi. Odur ki, şiə fəqihləri yavaş-yavaş şəri və qəzavət məsələlərinin idarə edilməsi həddində Səfəvi dövlətinə ayaq açdılar. Şah Təhmasibin iş üstünə gəlməsi ilə bu iş daha da sürətləndi. Təhmasib özü fiqhi şiəliyə çox etiqad bəsləyən adam olduğu üçün onun uzun hökmdarlıq müddəti ərzində fəqihlərin dövlətə nufuzunun artması daha da şiddətləndi. Əbdibəy Şirazinin Təhmasibin dövründə bir filosofun yerinə bir fəqihin qoyulması barəsindəki gözəl ibarələrinə diqqət edin. O yazır:

**(Şah Təhmasib) sədr vəzifəsində işləyən Mirqiyasəddin Mənsuru, fəqih olmadığı və fəlsəfə, astoronomiya, riyaziyyat və tibbdə digər alimlərdən üstün olduğu üçün həmin məqamından kənarlaşdırdı və onun yerinə fiqhdə başqalarından üstün olan və yoldaşları arasında təqva və pərhizkarlıqla başı uca olan Əmir Muizziddin Məhəmmədnəqib Mirmirani İsfahanini təyin etdi.**

Tarixi baxımdan iki maraqlı məsələ şiə fəqihlərinin Səfəvi dövlətinə daha ciddi daxil olmalarına səbəb oldu. Bunlardan biri Şah Təhmasibin istəyi və bu işə meyli, digəri isə şiə tarixinin görkəmli simalarından olan Mühəqqiq Kərəkinin meydana çıxması idi. Mühəqqiq Kərəki düz vaxtında, tarixin bu səhifəsində meydana atıldı və tam cürətlə alimlərin Səfəvi dövlətində iştirakı məsələsini ciddi şəkildə irəli sürdü.

Təhmasibin dövründə ciddi şəkildə mövcud olan nəzəriyyə adil və ya zalım hökmdarla əməkdaşlıq edib-etməmək qismindən deyil, bundan da üstün bir nəzəriyyə idi. Həmin nəzəriyyə bundan ibarət idi ki, hökumət fəqihə məxsusdur və «camiuşş-şərait» fəqih yaxud o zamanın dili ilə desək «müctəhiduz-zamani» imam qeybdə olan zaman məsum imamın bütün səlahiyyətlərinə malikdir. Məlumdur ki, Səfəvi şahları və onların otuz iki qızılbaş tayfasının başçılarından ibarət saray əhli, fəqihlərin hökumətinə tabe olmurdular. Buna görə də həmin hökumətin əməldə gerçəkləşməsinin mümkünlüyü üçün bir yol yaranmalı idi. Həmin yol bu idi ki, **fəqih zamanənin məsləhətinə əsasən özünün şəri və qanuni siyasi qüdrətini şaha həvalə edirdi.** Belə olan halda şah ölkənin idarə edilməsində müctəhidin canişini idi. Təhmasib tam aşkar şəkildə bu məsələni qəbul etmişdi və özünü camiuş-şərait müctəhidin canişini hesab edirdi. Hökmdar

siyasi qüdrəti ələ aldıqdan sonra özünün maliyyə və hərbi imkanlarından istifadə edərək şəri işləri öhdəsinə götürmək üçün fəqihi dəvət edirdi.

Yerdə qalan isə ölkənin ürfi işlərinin idarəsi olurdu ki, onlar da hökmdarın ixtiyarında olurdu və beləliklə bir növ qüdrət bölgüsü baş verirdi. Ürfi işlər şaha, şəriət işləri isə müctəhidə məxsus olurdu. Şəriət işləri də iki hissəyə sədr və şeyxul-islam vəzifələrinə bölünürdü. Sədrin vəzifəsi vəqflər və onunla əlaqədar işlər, şeyxul-islamın vəzifəsi isə şəriət işlərinin icrasına geniş şəkildə nəzarət etmək idi.

Əlbəttə, şah öz hökmranlıq taxtını möhkəmləndirmək üçün özünün mürşid ləqəbini saxlayırdı. Çünki onun qızılbaş qoşunu hələ fiqhi şiə deyildi və buna görə də, şahın qüdrətini həmin əsasda rəsmi qəbul etmirdilər. Onlar ənənəvi olaraq şahı baş mürşid hesab edirdilər. Bu məsələ Səfəvi dövlətinin hətta son günlərinə kimi mövcud idi, hərçənd ki, birinci Şah Abbasın zamanından sonra gün-gündən öz mahiyyətini itirirdi. Bu bazanı itirmək Səfəvi dövlətinin zavala uğramasının əsas amillərindəndir.

Lakin alimlərin dövlətdə iştirakı bir qayda üzrə və eyni tərzdə getmirdi. Şah Təhmasibin uzunmüddətli səltənəti dövründə (930-984) fəqihlərin qüdrəti dərinləşdi və bu səbəbdən onu ləğv etmək qeyri-mümkün oldu. Ondan sonra ikinci Şah İsmayıl sünniliyə meyl göstərməsinə baxmayaraq fəqihlərin təzyiqləri nəticəsində geri çəkilmək məcburiyyətində qaldı. Ondan sonra bütün dövrlərdə şəriət işləri həmişə fəqihlərin ixtiyarında qaldı.

Şah Abbasın zamanında o, işlərin idarəçiliyində bir növ mütləqiyyətlə birgə olan xüsusi üsula malik olduğu və bütün işlərin onun nəzarəti altında icra edilməsinə meylli olduğu üçün sədr və şeyxul-islam məqamı üçün elə də qüdrət qalmırdı. Bununla belə şəriət işlərinin idarəçiliyi qazı ilə birlikdə həmin şəxslərin öhdəsində idi. Hər halda mühüm cəhət bu idi ki, həmin şəxslərin hamısını şah özü təyin edirdi və fövqəladə siyasi qüdrətə malik olduğu üçün öz hakimiyyətini ruhanilərə də tətbiq edirdi. Bütün bunlarla yanaşı sədr, şeyxul-islam və qazı böhran vəziyyətlər istisna olmaqla həmişə bir qayda olaraq şəriət hökmlərinə riayət edirdilər. Bunu da qeyd etmək lazımdır ki, bu dövrdən sonra şah ilə müxtəlif məqam sahibləri arasında bir növ qohumluq əlaqələri yaranırdı.

Son mərhələdə yəni ikinci Şah Abbasın zamanından Şah Sultan Hüseyn Səfəvinin zamanına kimi fəqihlərin qüdrəti artmağa başladı. Hər üç şahın alimlərlə əlaqələri daha güclü və dövlət işlərində olan alim və fəqihlərin sayı daha çox idi. İkinci Abbas İsfahanda olan hindlilərlə bağlı xüsusi bir məsələnin həlli məqsədi ilə fiqhi şura çağırıb belə bir şura yaratmaqla

alimlərin dövlətlə əməkdaşlığını daha da ciddiləşdirdi. O, alimlərlə babasından çox get-gəl edirdi və bu ənənə Səfəvilərin hakimiyyətlərinin son illərinə kimi davam etdi. Hətta demək olar ki, bu iş Şah Sultan Hüseynin zamanında özünün ən yüksək həddinə çatdı. Amma bununla belə demək olmaz ki, qüdrət şahın və saray əhlinin əlindən çıxmışdı. Bütün işlərdə son qərarı verən şah və saray əhli idi və onlar istəyəndə dini məqamlar tərəfindən verilmiş şəri əmrlərin həyata keçməsinə mane ola bilirdilər. Əslində bu iştirak və qarşılıqlı əməkdaşlıq şahın fövqəladə qüdrəti və onun şəxsi mənafelərinə zərbə vurmayan çərçivədə idi və ruhanilərə həmin çərçivədə nüfuz etmək icazəsi verilirdi. Aydındır ki, bu miqdar da az deyil və ruhanilərin əlləri dini hökmlərin icrası üçün çox cəhətlərdən açıq idi.

## *XALQ, ALİMLƏR VƏ SƏFƏVİ DÖVLƏTİ*

Səfəvilərin bütün dövrlərində şiənin fiqhi-siyasi təlimi, xalq arasında bu fikiri irəli sürürdü ki, əsl qüdrət məsum imama, ondan sonra isə fəqihə məxsusdur. Eyni zamanda istər ədalətli və ya zalım hökmdarla əməkdaşlıq formasında olsun, istərsə də şahın fəqihin canişini olması şəklində, şiə alimlərinin əksəriyyəti dövlətlə əməkdaşlıq edir, vəzifələri öhdələrinə götürür və bu dövlətin bərqərarlığı üçün dua edirdilər. Eyni zamanda dövlətin şəriət baxımından qanuniliyinin yalnız fəqihə məxsus olması fikiri hamı üçün olmasa da dindar camaat üçün ən çox qəbul edilən fikir idi. Bunun müqabilində alimlər arasında bəzi tənqidçilər də var idilər ki, nüfuza malik olduqları üçün çox rahatlıqla məsələləri şahla müzakirə edib onlara həll yolu göstərə bilirdilər. Əlbəttə çox az vaxtlarda da müstəqil və cürətli bir alimin hökuməti tənqid etməsi də mümkün idi. Nümunə üçün İsfahanın Seyid Əhmədian məhəlləsində yaşamış Molla Kazım adlı bir alimin adı çəkilir ki, «o xalq tərəfindən kamil zahid və pərhizkar kimi tanındıqdan sonra ikinci Şah Abbasa qarşı kəskin sözlər deməyə başlayıb. O tam aşkar şəkildə deyirmiş ki, bu padşah həmişə məst olur; buna görə də kafirdir; onu öldürmək və yerinə şeyxul-islamın böyük Şah Abbasın nəvələrindən olan oğlanlarından birini oturtmaq lazımdır.» Bu ruhanini İsfahandan sürgün etdilər və onu Şiraz yolunda yox etdilər.

Həmişə camaat arasında olub onlarla söhbət edən bir xarici müşahidəçinin xalq arasında yayılmış siyasi əqidələr barəsində müfəssəl bəyanı çox maraqlıdır. Şarden özünün ikinci Şah Abbasın zamanının axırları və Şah Süleymanın zamanında yazdığı kitabının xüsusi bir fəslini ruhanilərin qüdrətinə həsr edib. Əlbəttə o, fars və ərəb dillərindəki kəlmələrin dəqiq

istifadəsi ilə yaxşı tanış olmadığı üçün bəzən bəzi ifadələri səhv işlədib. Lakin ümumilikdə Səfəvilərin dövründə hakim olan əqidəni tanıtması baxımından xarici bir müşahidəçinin nəzəri kimi dəyərlidir. O yazır:

**İranlıların fikrincə osmanlılarda müftinin ixtiyar və qüdrətində olan şeylərin çoxuna sədrin də qüdrəti var və iranlılar sədri dini və hüquqi işlərinin hakim və padşahı, şeyx və həqiqi qibəgah, peyğəmbərin yerində oturan və imamların canişini hesab edirlər. Bütün İran möminlərinin əqidəsi budur ki, ruhanilər və iman əhlindən başqa bütün şəxslərin hakimiyyəti qəsbidir və hüquqi hökumət sədr və digər ruhanilərin inkaredilməz haqqıdır.**

Şarden digər yerdə yazır:

**Bəzi ruhani alimlər, onların davamçıları və ibadət əhli bu əqidədədirlər ki, imam qeybdə olan zamanda ölkənin dini, ictimai və hökümət işlərini pak (tərcümədə səhvən məsum yazılıb) bir müctəhid idarə etməlidir və bu müctəhid elmlər toplusu və hər cəhətdən fəsad və günahdan uzaq olmalıdır.**

O sözünün davamında deyir ki, digər bir dəstə imamətin seyidlərdən birinə çatmalı olması əqidəsindədir. O, sonra Şeyx Səfinin qüdrəti ələ almasının necəliyini belə izah etməyə başlayır ki, onun fiqhi və şəri baxımdan heç bir əsası yoxdur. Amma yazır ki, deyəsən saray əhlinin bir dəstəsindən eşidib ki, Səfəvilərin qüdrətinin şəri cəhətdən qanuniliyinin dəlili, onların seyid olmalarıdır. Bu, Saib Təbrizi kimi şairlərin şerlərində də çox deyilib.

*Tace fərqe padşahan bovəd əz rahe nəsəb*
*Dər həsəb mümtaz bovəd əz xosrovane ruzgar*

**Yəni: Nəsil baxımından şahların başının tacıdır; şərəf və əsilzadəlikdə zəmanənin şahlarının üstünüdür.**

Şarden başqa bir yerdə İran əhalisinin əqidəsinə işarə edir ki, onlar dindar şəxslərin əqidəsinin əksinə olaraq qeyri-dini adamların hakimiyyətini dinə zidd hesab etmirlər. Elə buna görə də «şah, onun vəzirləri və saray əhlinin çoxu …. bu məsələlərə elə də nəzərə almayaraq tam qüdrətlə bütün işlərə hakimlik edirlər. Başqa sözlə desək mənəvi məsələlər maddi işlərin təsiri altında qalır və heç bir çətinlik olmadan cərəyan edir.»

Hazırkı hissənin təhlili üçün bu nöqtəyə diqqət etmək lazımdır ki, Səfəvi dövründə İranda fəqihlərin qüdrəti şəri və qanuni hesab edildiyi kimi, İran

tarixində şahlıq da ürfi baxımdan bir növ məqbul sayılıb. Buna görə də xalqın bir hissəsi yalnız fəqihlərin qüdrətlərinin şəri və qanuniliyinə, bir hissəsi isə ürfi hökuməti dini işlərin riayət edilməsinin şərti kimi qəbul edirdilər. Şarden yazır:

**İranlılar sədaqətlə öz şahlarının əmrlərini yerinə yetirməyi vacib hesab edir, məmnunluq və rəğbətlə onlara tabe olurlar və (bu əqidədədirlər ki,) onların əmrlərini dinin hökmlərinə zidd olmaması şərti ilə hətta ədalətə zidd olsa belə mütləq qəbul etmək lazımdır.**

Bu baxış tərzinin dini kökü qədimdən İranın sünni məzhəbi mədəniyyətində şahlar və əmirlər barəsindəki mövcud təfəkkürdür. Həmin mədəniyyətdə şahlar çox sitayiş edilirdilər və onların qüdrətlərinin şəri və qanuniliyi fəqihlərlə əsla bağlı deyildi. Bunun əvəzində hökmdarın hakimiyyətinin şəri və qanuniliyi məqsədi ilə Peyğəmbərə (s) nisbət verilən «Hökmdar Allahın kölgəsidir» kimi cümlələrdən istifadə edilirdi. Bu təfəkkür şiə İrana və hətta alimlərin bəzi ümumi yazılarına da sirayət etmişdi. Saibin ikinci Şah Abbas barəsindəki bu şerinə diqqət edin:

*An saye Xoda ke cəhan roşən əst əz u*
*Avərəd ru be borce şərəf aftabvar*

**Yəni: Allahın dünyanı işıqlandıran o kölgəsi, günəş kimi şərəf qülləsinə üz tutar.**

Bu barədə kökü İranın İslamdan qabaqkı siyasi mədəniyyətinə qayıdan yəzdan nuruna etiqad bəslənilməsi də xalq kütləsinin hökmdarın böyüklüyü fikirinə kömək edirdi. Saibin bu şeri bu təfəkkürün bir nümunəsidir.

*Sepehr mərtəbe Abbas şahe dərya del*
*Ke miderəxşədeş əz cebheye fərre yəzdani*

**Yəni: Dərya qəlbli uca məqamlı Şah Abbas ki, yəzdan nurundan parlayır**

Hər halda Şarden İran cəmiyyətində olan bu iki təfəkkürü nəzərə alaraq gəldiyi son nəticədə belə deyir:

**Müsəlmanların əqidəsi budur ki, onlara yalnız peyğəmbərin canişin və xəlifəsi hakim olmalıdır və padşahlar yalnız onların vəzir və işçiləri yerindədirlər.**

Şarden özü iştirakçısı olduğu Şah Süleymanın tacqoyma mərasimində şeyxul-islamın şahın hökmdarlığına rəsmiyyət verməsini belə xatırlayır: «Ölkənin ruhani başçısı şahzadəni şah kimi qəbul etmirdisə onun şah kimi tanınması natamam idi». Şeyxul-islam həmin mərasimdə şahın tac qoyması üçün lazım olan bütün hazırlıq işlərini gördü ki, hökmdarlığın rəsmiyyətinin onun təsdiq və həmkarlığı olmadan qəbuledilməz olmasını göstərsin. Şarden öz kitabında mənbələrdə «xütbeyi-cülus» kimi məşhur olan və Şah Süleymanın taxtaçıxma mərasimində Mühəqqiq Səbzivarinin oxuduğu xütbənin mətnini də nəql edib. Şah Sultan Hüseyn Səfəvinin taxtaoturma xütbəsini isə Əllamə Məclisi oxuyub və onun mətni indi də, olduğu kimi qalır. Ondan əvvəl Şah Səfinin taxtaoturma xütbəsini Mirdamad oxuyub.

Şah Süleymanın zamanında İranda olmuş Kompfer filosofların da müctəhidə etiqad məsələsində xalqla şərik olmasından təəccüblənib ki, «Allahın dininə əsasən xalqın ruhani rəhbərliyi və müsəlmanların başçılığı müctəhidin öhdəsinə qoyulub, halbuki, hökmdarın vəzifəsi yalnız onun nəzərlərini qorumaq və icra etmək üçün çalışmaqdır.» Əlbəttə o da təsdiqləyir ki, «Şah Səfinin müctəhidə göstərdiyi ehtiramın çox hissəsi» saxtadır. Eyni zamanda «şah bu işdə xalqdan qorxur. Çünki camaat müctəhidə o qədər tabedir ki, şah dinin möhkəm əsaslarından biri barəsində həddini aşmağı və ya ölkənin idarəçiliyində müctəhidin dinə zidd adlandırmağa məcbur ola biləcəyi bir iş tutmağı öz xeyrinə bilmir».

## *ŞİƏ SƏFƏVİ DÖVLƏTİNİN HAKİMİYYƏTƏ GƏLMƏSİ VƏ ALİMLƏRİN SEVİNCİ*

Alimlərin Səfəvi dövləti ilə əlaqələrində hədsiz təsirə malik məsələlərdən biri, dövlətlərin İslam tarixində şiəliklə neçə əsrlik düşmənçiliklərini təcrübə etmiş şiə alimlərinin yaranmış vəziyyətdən hədsiz sevinmələri və onu mədh etmələri idi ki, onun həddi bu gün bizim üçün bəlkə də bir az daha ifrat və yad görünür. Şiə alimləri Səfəvi dövlətinin bərəkətindən şiəliyin təqiyyə halından çıxmasından və belə bir tərəqqiyə çatmalarından çox şad və mənun idilər. Əllamə Məclisinin şagirdlərindən olmuş və h.q. 1115-ci ildə şeyxul-islam vəzifəsinə namizədlərdən biri olmuş Mirzə Abdullah Əfəndi sünni xəlifə və əmirlərin İrana hakim olmaları və şiələrə təzyiqlər göstərmələrini şərh etdikdən sonra Səfəvilərin iş üstünə gəlmələrinə toxunaraq yazır:

**Lakin indi şəriət hökmdarları olan Səfəvi dövlətinin bərəkətindən və mübarək din alimlərinin səyləri nəticəsində – Allah onların hamısının səylərini qiymətləndirsin – İran əhalisinin əksəriyyətinin xüsusilə**

**İsfahan əhalisinin, eləcə də Qəzvin və Kaşanın vəziyyəti imanın çoxluğu və şiəlik təəssübkeşliyi baxımından elə bir yerə çatıb ki, əgər bu üç şəhərdə, məxsusən İsfahan diyarında və ona tabe olan qəsəbə və kəndlər və ətraf bölgələrində gəzib oralarda bir sünni tapmağa çalışsalar Allaha şükr olsun ki, indi orada bir yerə çatmazlar.**

O digər bir yerdə Sultan Məhəmməd Xodabəndəninin, eləcə də Sərbedarların səyləri və onların Teymurun əli ilə aradan getmələrinə və yenidən şiələrə təzyiqlər göstərilməsinə toxunaraq yazır:

**Təqribən sünni Teymurun və onun sülaləsinin hökmdarlığına yaxın vaxtlarda sünni şahların hakim olmaları nəticəsində əhli-sünnət İran vilayətlərində həddindən artıq gücləndilər və İran şiələri hədsiz dərəcədə zəiflədilər, möminlər qol-qanadları sınmış halda uzun illər həmin vəziyyətdə keçindilər. Belə ki, İranın bütün vilayətləri küfr və azğınlıq içərisində idi və dinin düşmənləri keçmişdəki kimi bütün möminlərə hakim olmuşdu ki, şiələrdən heç kəs İranda öz məzhəbini aşkar edə bilmirdi. Nəhayət Səfəvi şahlarının – Allah onların səylərini qiymətləndirsin – aləmi işıqlandıran dövlət günəşi iman səmasından doğdu və onların nuru dünyanı bürüdü. İsgəndər məqamlı Şah İsmayıl – Allah onun dəlil-sübutunu nurlandırsın – Azərbaycandan xüruc edərək İranın və Turan ərazilərinin çoxuna, eləcə də Rumun bəzi diyarlarına hakim oldu. Həmin vaxt şiələr hər yerdən xüsusilə İrandan, hürkmüş ceyranlar kimi möminlərin köməyi, bəlkə şiələrin mehriban ata-anasının başına toplaşdılar. İranda şiə alimləri tək-tək bir-birlərinin ətrafına yığışdılar. Onun xoşbəxt nəsli ortaya çıxdıqdan, yeri cənnətlik səmərəli davamçısı Şah Təhmasib Səfəvi – Allah onun dəlil-sübutunu nurlandırsın – atasının canişini olduqdan və onların hər biri dinin düşmənlərini dəf edib Əmirəl-möminin əleyhis-salamın şiələrinin məqamını qaldırdıqdan sonra İran şiələrinin vəziyyəti layiq olduqları kimi qaydasına düşdü.**

Onlar bütün bu müddət ərzində, sünniliyə bir az meyilli olan ikinci İsmayıldan başqa bütün Səfəvi şahlarının var qüvvələri ilə nəyə görə olsa da şiəliyi müdafiə etmələrinin, hətta gücləri çatan qədər onun Hindistanda, Mavəraun-nəhrdə və Xarəzmdə yayılması üçün əllərindən gələni əsirgəməmələrinin şahidi oldular. Bütün bu müddət ərzində dövlətin əsas hədəf və amalı şiəlik idi və onlar imamların İranda və İraqdakı qəbirlərinin, həmçinin imamzadələrin qəbirlərinin abadlaşdırılması istiqamətində nəzərə çarpacaq dərəcədə səylər göstəriblər. Bundan əlavə cümə namazının geniş

əhatədə təşkili, məscidlərin çox böyük və əzəmətli quruluşda tikilməsi və alimləri himayə etməkdə də heç nəyi əsirgəməyiblər. Onlar alimlərlə əlaqələri qorumaq üçün hər fürsətdən istifadə ediblər və alimləri aradan götürmək imkanına malik olmalarına baxmayaraq onların hörmətlərinin qorunmasına çalışıblar.

Özbək və osmanlı dövlətləri var qüvvələri ilə bu şiə dövlətini devirməyə çalışdıqları bir vaxtda şiə alimlərinin onunla mübarizəyə başlamalarına heç bir əsas yox idi. Məlumdur ki, Əfəndinin işarə etdiyi kimi onlar doqquz yüz ildən sonra belə bir dövlətin varlığından məmnun idilər və onu himayə edirdilər. Onlar hətta imam Zamanın zühuruna kimi onun bərqərar qalması üçün dua da edirdilər.

Bütün bunlara baxmayaraq yaddan çıxarmaq olmaz ki, hətta Əllamə Məclisi kimi şəxslər «Eynul-həyat» kitabında geniş bəhs edərək şahlarla oturub durmağın ziyanları və onun mənfi nəticələri barəsində şiənin siyasi əxlaq qanunlarına təkid edib və şahdan və saray əhlindən uzaq olmağı əxlaqi bir dəyər kimi qoruyub saxlayıb. Əllamə Məclisi özü Abbasi məscidinin minbərinin üstündə ağlaya-ağlaya deyirmiş: «Hədislərdə deyilir ki, qəzavət kürsüsündə yalnız ya peyğəmbər və onun canişini oturar, ya da bədbəxt! Mən bilmirəm nə iş görmüşəm ki, bu gün bu kürsüdə oturmuşam.» Bir dəfə də saraya daxil olanda onları sərxoş görür və Allahdan onun canını almasını istəyir.

Müəyyən qədər alimlərin dövlətlə əməkdaşlığının fiqhi əsasları ilə tanış olduqdan sonra indi ikinci Şah Abbas və Şah Süleymanın zamanında yaşamış alimlərdən bir neçəsinin tərcümeyi-halı barəsində danışacağıq.

## *FEYZ KAŞANİ*

Mövla Feyz Kaşani (h.q. 1007-1091) Şah Süleymanın hökmdarlığının on üç ilinin şahidi olub. Ondan qabaq isə ikinci Şah Abbasın zamanında paytaxtda çox yüksək elmi və ictimai mövqeyə malik olub və adətən birinci dərəcəli alim və fəqihlər barəsində işlədilən «müctəhiduz-zamani» ləqəbi onun barəsində də işlədilib. O, həm əsərləri, həm ürfani ruhiyyəsi və əxlaqi səciyyələri, həm də siyasi davranışı baxımından çox məşhur olub və onun barəsində bu bir neçə istiqamətdə danışmaq lazımdır.

Feyz öz tərcümeyi-halında yazır ki, təhsil almaq məqsədi ilə bir müddət Kaşanda qalıb, sonra isə İsfahana, oradan Şiraza gedib və orada Seyid Macid Bəhraninin dərsində iştirak edib. Daha sonra İsfahana gəlib və bir müddət Şeyx Bəhainin yanında təhsil alıb. Ondan sonra isə Qumda xalasının

yoldaşı Molla Sədranın yanına gedib və Sədra Şiraza gedəndə o da onun arxasınca Şiraza gedib. Çox ehtimal ki, o, sonda Kaşanda məskunlaşıb və nəhayət ikinci Şah Abbasın dəvəti ilə İsfahana gedib. O, ömrünün son illərində yenidən Kaşana qayıdıb və məzarı hal hazırda həmin şəhərdə xalqın ziyarət yeridir.

Feyz Kaşani altmış illik tədqiqat və müəlliflik müddətində dini elmlərin müxtəlif sahələrində özündən sonra çoxlu əsərlər qoyub gedib. O, hədis kitabı olan «əl-Vafi» kimi çox məşhur əsərini qırx yaşından qabaq yazıb. Onun kənarında iki geniş fiqhi əsər də yazıb ki, onlardan biri «Mutəsəmuş-şiə», digəri isə «Məfatihuş-şəraye»dir. Onun «Məfatihuş-şəraye» kitabına Feyzin fiqhi məktəbinin davamçıları tərəfindən çoxlu şərhlər yazılıb. Həmçinin əqidənin əsasları barəsində «Elmul-yəqin» və «Həqqul-yəqin» kitablarını yazıb. Onun çox məşhur əsərlərindən biri böyük əxlaq kitabı olan «Məhəccətul-beyza»dır ki, Qəzzalinin «Ehyaul-ulum» kitabının bir növ xülasəsidir. O, Qəzzalinin kitabından bir çox şeyləri çıxarıb bir çox şeyi əlavə etməklə oxuculara Qəzzalinin kitabının şiə variantını təqdim edib.

Bu firavan əsərlərin kənarında Feyzdən çoxlu risalələr də qalıb. Feyz özü risalələrinin birində onların adlarını qeyd edib ki, onlar yüzə yaxın kitab və risalədir. Feyzin son əsərləri «ən-Nüxbə» və «əl-Həqaiq» kitablarıdır ki, onların mövzusu əxlaqi və ürfani baxışlarla kamil bir İslam fiqhidir. «əl-Həqaiq» kitabını Feyz vəfatından bir il əvvəl yəni h.q. 1090-cı ildə yazıb.

O, əsərlərinin ümumi xalq kütləsi üçün nəzərdə tutulan bir neçəsini fars dilində yazıb və hətta namaz, həcc və….kimi məsələlər barəsində həmin mövzuda olan hədislərin fars dilinə tərcüməsini tərtiblə bir yerə toplanmış şəkildə oxuculara təqdim edib. Əslində bundan öncə barəsində danışdığımız tərcümə hərəkatı bu dövrdə Feyz və şiənin digər alimləri tərəfindən davam etdirilib.

Elmi əsərlərdən əlavə Feyz həm də güclü şair olub və ondan içində çoxlu gözəl qəzəllər olan böyük həcmli şerlər külliyyatı qalıb.

Feyzin fikirləri çox geniş və dərin olub və onun fikirləri öz zamanında və ondan sonra şiə cəmiyyətinin diqqət mərkəzində olub. İndii sual budur ki, Feyzin fikir və düşüncələri necə fikirlər olub? Bəziləri onu fəqih və hədisşünas, bəziləri isə arif, sufi və bəzən filosof hesab ediblər. Həmin dövrün alim və şairlərindən olmuş Mirzə Əlirza Təcəlli kimi bir dəstə də onu ittiham edir ki, «vacibat və ibadətə etinasız, tədqiqat və araşdırmadan uzaq adam olub. Bəzən Muhyiddin Ərəbi sufiliyinin mürididir, bəzən Məhəmməd Qəzzalinin moizə köməkçilərindəndir, bəzən məşşayi filosofları

ilə birgə qaçır, bəzən də işraq fəlsəfəsinin işığında yol gedir»! Əlbəttə bu bədbincəsinə olan bir baxışdır.

Feyz Kaşani şübhəsiz ki, Əhli-beytin (ə) hədislərinə çox diqqət edən, əsərlərinin çoxunda onlardan istifadə edən və öz düşüncələrini onların üzərində Quran bir şəxs olub. Digər tərəfdən Şeyx Bəhainin və ondan sonra Molla Sədranın məktəbində ürfanla tanış olub və əxlaqi və ya fiqhi olmasından asılı olmayaraq özünün «ən-Nüxbə» kimi əsərlərində ürfan meylini qoruyub saxlayıb. Onün ürfana meyli o həddə olub ki, Feyzi sufilikdə ittiham edib şayiə yayıblar ki, o öz bağında «Sima» məclisi keçirib və «qinanı» caiz hesab edir. Bu isə qətiyyən doğru olmayıb və onun şagirdlərindən olmuş Camaləddin Nətənzi h.q. 1088-ci ildə yəni Feyzin sağlığında yazdığı bir risalədə onun barəsində bu qəbildən olan ittihamları rədd edib.

Hər halda bu günə kimi bəziləri üçün belə bir sual yenə də qalmaqdadır ki, Feyz sufiliyə meylli olub ya yox? Onun risalələrinin bəziləri bu ittihamı tamamilə təkzib edir. Camaləddin işarə edilən risalədə yazır:

**Avam camaatın arasında çox yayılıb ki, uca məqamlı fəzilətli alim və kamil qələm ustası mövlana Əbdulmöhsün sufiliyə meyllidir və adət şəklini almış büdət növlü «ibadət»ləri təsdiqləyərək onları caiz hesab edir. Onun əsərlərindən isə ona nisbət verilənlərin əksi aşkar olur.**

Feyzə sufiliyin nisbət verilməsi yalan bir nisbət idi. Ondan sufilik adətlərini qəbul etməsi soruşularkən cavab verib ki: «Allah eləməsin ki, mən məsum imamlardan şəri cəhətdən qanuni olması barəsində nəinki hədis olmayan, bəlkə əksinə ona qarşı hədislər olan adət şəklini almış ibadətləri caiz hesab edəm.» O, hətta Qəzzalinin «Ehyaul-ulum»da gətirdiyi «sima və vəcd»[1] fəslini Məhəccətul-beyzadan çıxarıb və orada bu barədə belə dəlil gətirib ki, bu fəsil sünnilərə məxsusdur və biz onu kitabdan çıxararaq yerinə «adabuş-şiə» fəslini qoymuşuq.

Qeyd etmək lazımdır ki, Sufilərə müxaliflərdən olan və Feyz ilə də davası olmuş Molla Məhəmmədtahir Qumi sonda Feyzin sufi olmamasını başa düşüb və onun görüşünə gedərək Feyzin qapısına çatandı xüsusilə incəliklə deyib: «Ya mohsinu qəd ətakəl-musiu» Yəni: Ey kərəm sahibi, günahkar yanına gəldi.

Feyz «Şirəhe-sədr» risaləsində öz tərcümeyi halını yazıb və «Rahe savab» və «İnsafiyyə» risaləsində mövcud məzhəb meylləri barəsində öz nəzərlərini

[1] Sufilərdə özünün unutmaq dərəcəsində ilahi eşqə dalma

bildirmişdir. Həmçinin «əl-Kəlimatut-tərifə» risaləsində dini tədqiqatçılar arasında müxtəlif səhv fikirlərə meyl göstərilməsini tənqid etmişdir. O, həmin kitabında şəriətin hökmlərinə diqqət yetirməyən fəlsəfə oxuyanları, fəlsəfəni kəlam ilə qarışdıranları, dində yalnız təqlidlə kifayətlənənləri, dini savadlarının artmasına kömək etməyən kitablar oxuyanları, ömürlərini elm öyrənməklə keçirib nəfslərini təmizləməklə məşğul olmayanları və……digər dəstələri möhkəm tənqid edib.

Feyz «Şirəhee-sədr» risaləsində alimləri üç dəstəyə – yalnız zahir elmi yəni fiqh oxuyanlara, yalnız batin elmi bilənlərə yəni ariflərə və üçüncü dəstə yəni həm zahir və həm də batin elmi bilənlərə bölüb. Üçüncü dəstə Feyzin özünə işarədir ki, fiqh ilə ürfani bir yerə toplayıb.

## *FEYZ VƏ İKİNCİ ŞAH ABBAS*

Feyz Kaşani özü yazdığı tərcümeyi-halında Şah Səfinin onu saraya dəvət etməsini xatırlayaraq qeyd edir ki, şahın ətrafında «bir dəstə zahirçi» alimlər olduğu üçün şahın dəvətini qəbul etməkdən boyun qaçırıb. Feyz tərcümeyi-halının davamında yazır ki, ikinci Şah Abbas sonra onu saraya dəvət edib və «bir çox keşməkeşlərdən sonra o cənaba üz tutub və onu, eşitdiyindən də üstün görüb.» Şah ona çox ehtiram göstərib və namaz qılmaq üçün onu dəvət edib. Deyəsən Şah Abbas Feyzlə bundan qabaq Qumda görüşübmüş.

Vəhid Qəzvininin h.q. 1065-ci ilin hadisələri barəsindəki məlumatında deyilir ki, Şah Qumun cümə məscidində Feyzin arxasında namaz qılıb. O yazır: «Elə həmin vaxtlarda dindarlıq və pərhizkarlıq ….. üzündən cümə məscidinə gedib orada fəzilətlər toplusu mövlana Məhəmməd Möhsin Kaşiyə iqtida edərək camaat namazı qılıb.»

Şah İsfahanın Molla Rəcəbəli Təbrizi kimi filosofları və Məhəmmədsaleh kimi dərvişləri ilə oturub durduqdan sonra «dərvişlərlə söhbət etmək fikirinə düşəndə hər iki yolun yolçusu və dünya və axirət məsti «müctəhiduz-zəmani» mövlana Məhəmməd Möhsin Kaşinin çağırılması göstərişini verir.» Bundan sonra bir məktub yazaraq ondan İsfahanda məskunlaşmasını və Abbas məscidində namaz qılmasını istədi. Həmin səbəbdən məktubda qeyd edilib ki, Feyz «itaət edilməsi vacib olan fərmandan xəbərdar olan kimi ümidvarlıqla dünyanın pənahının dərgahına yollansın və əslində zahir və batinin hökmdarının razılığını qazanmaq istiqamətində olan bu mübarək işi» yerinə yetirsin.

Feyz şahın cavabında Kaşanda cümə namazının qılınması üstündə öz müxalifləri ilə olan qarşıdurmalarına işarə edərək ondan «həmin tənhalıq

guşəsi və qənaət küncündə sürünməsinə və tərəddüd dizlərini qucaqlayaraq heç bir işə əl uzatmamasına icazə verməsini istəyir.» Amma deyəsən şah öz istəyində israr edir və buna görə də Feyz tərcümeyi-halında bu mətləbi «çox keşməkeşlə» deyə xatırlayır.

Feyz şahın dəvətini qəbul edərək h.q. 1067-ci ildə İsfahana gəlir və şahla görüşəndən sonra onun məqsədinin «namazların bərpa edilməsi və cümə və camaat namazlarının genişləndirilməsi» olduğunu başa düşür. Bir müddət sonra o İsfahan alimləri arasında çox böyük ixtilaf olmasının şahidi olur və özü demişkən «düşmənlər arasında qərib və tək qalır». Bütün bunlara baxmayaraq o şahın yanında öz hörmətini qoruyub saxlayıb. Vəliqulu Şamlı onun İsfahana gəlməsinə işarə edərək yazır: «Bu gün cümə məscidinin pişnamazlarından biri, o batini və zahiri fəzilətlər toplusudur.»

Vəhid Qəzvinin nəql etdiyi digər bir xəbərdə onun İsfahan camaatının bir dəstəsi tərəfindən vasitəçilik etməsinə işarə edilir ki, onun bu vasitəçiliyi İsfahanın darğasının dəyişdirilməsi ilə nəticələnib. Həmin xəbərdə deyilir ki: «bir dəstə şikayətçi müctəhiduz-zaman mövlana Möhsinin yanına gedib onu öz xəta və günahları üçün vasitəçi etdilər və o, məlumat əldə edib həqiqəti bildikdən sonra Allahın kölgəsi olan əlahəzrətin hüzurundan onların təqsirindən keçməsini istədi…..Mücəthiduz-zəmaninin iltimasına əsasən İsfahanın darğasının dəyişməsi fərmanı verildi və bu şərəfə Rüstəmxan nail oldu.»

Bundan əvvəl barəsində danışdığımız hindistanlıların müşkülünün həll olunması üçün yaradılmış fiqhi şurada da belə qərara alındı ki, Feyz də öz nəzərini yazsın və digər üç müctəhidin nəzərinin kənarında onun nəzəri də şaha təqdim edilsin. Həmin xəbərin davamında deyilir ki, «həmin mübarək saatlı vaxtlarda şah itaət və ibadətin sütunlarını gücləndirməyə üz tutdu və İsfahanın səltənət sarayının yeni Abbas cümə məscidinə təşrif buyurub cümə namazı qılaraq mövlana Məhəmməd Möhsin Kaşiyə iqtida etdi.»

Feyz cümə namazının qılınmasını vacib hesab edənlərdən olub və o, bu barədə «əş-Şubəhatus-saqib» adlı kitab da yazıb. O, Kaşanda sonra isə İsfahanda cümə namazı qılarmış.

Qeyd etmək lazımdır ki, Feyzdən sonra onun ailəsi Kaşanın görkəmli alim ailələrindən biri olub. Xüsusilə onun oğlu – «Məadinul-hikmə» kitabının müəllifi Ələmulhuda çox məşhur olub. Həmin nəsil bu günə kimi görkəmli və alim yetişdirən nəsil olub və bu gün də elədir.

## *MÜHƏQQİQ SƏBZİVARİ*

Mühəqqiq Səbzivari kimi məşhur olan Məhəmmədbaqir ibn Məhəmmədmömin Səbzivari (h.q. 1017-1090), bir neçəsi İsfahana təhsil almağa getmiş Səbzivarlı ailədəndir. Səbzivar əlahisinin şiəliyinin kökü üçüncü-dördüncü hicri əsrinə qayıdır. Bildiymiz kimi Səbzivar seyidlərindən olan Mirlövhi ailəsi də İsfahana həmin məqsədlə hicrət etmiş şəxslərin sırasındadır.

Mühəqqiq Səbzivari hədis və fiqhdə Molla Heydərəli İsfahani və Molla Məhəmmədtağı Məclisinin, fəlsəfədə Mirfəndrskinin və birinci Şah Abbasın h.q. 1020-ci ildə İstanbulda səfiri olmuş Qazı Muizziddin Hüseynin şagirdi olub və İsfahanda digər ustadların hüzurundan da bəhrələnib. Nəsrabadi onun barəsində yazır:

**Tam azadlıqla (dünyaya) bağlılıq zəncirindən xilas olaraq qurtulmuş və Səbzivarın quşları onun pərhizkarlıq və təqvasının yanında çənələrini bağlayıblar. Gəncliyinin əvvəlində təhsil üçün məlumatla çiyin-çiyinə İsfahana gəlib və nəzəri elmlərdə Mirzə Əbulqasim Mirfəndrskinin və Qazı Muizzin şagirdlərindən olub. Dini elmlər və hədislərə yiyələnməkdə axund Molla Heydərəli İsfahani və molla Həsənəli ibn molla Abdullah Şuştəri ilə məşğul olub. Hal hazırda çoxlu bacarıqlı alimlər onun mübarək mədrəsəsindən çox bəhrələnirlər və alimlərdən cümə namazı icazəsi alaraq İsfahanda bu işdə qabaqda gedirlər.**

Mühəqqiq Səbzivarinin əsas ixtisası fiqh elminin ictihadi üsuludur, əlbəttə Mühəqqiq Kərəkinin üsulu deyil Müqəddəs Ərdəbili və Feyz Kaşaninin üsulu ilə. Onun fiqhdə ən əhəmiyyətli əsərlərindən biri «Kifayətul-üsul»dur ki, həmişə ondan sonrakı alimlərin istifadə etdiyi kitablardan olub. Onun digər məşhur fiqh kitabı Əllamə Hillinin «İrşadul-əzhan» kitabına yazdığı «Zəxirətul-məad» kitabıdır. Bununla yanaşı o fəlsəfə və əxlaq elmində də çox məharətli olub, Məclisi və onun ustadı Şeyx Bəhainin üsulu ilə ürfan və estetik düşüncələrə də meylli olub.

Mühəqqiq Səbzivaridən «İşarat» və «Şəfa» kimi fəlsəfi əsərlərə çoxlu şərh və haşiyələr qalıb. O, ğina barəsində kitab yazaraq onun barəsində yeni nəzər bildirdiyi, ğinanı halal və harama böldüyü və haram ğinanı əyyaşlıq olan yerdə məhdudlaşdırdığı üçün Şəhid Saninin nəvələrindən olan Şeyx Əli adlı bir alimin tənqidinə məruz qalıb. Mühəqqiq cümə namazını da vacib hesab edirmiş və Nəsrabadinin yazdığı kimi o, İsfahanın rəsmi imam cüməsi olub. Deyilənlərdən əlavə onun çoxlu fiqhi risalələri də olub və onlardan

biri imam qeybdə olan zaman «Cümə namazının qılınmasının vacibliyinin isbatı» barəsində olub. O, bu risalənin bir nüsxəsini fars dilində, bir nüsxəsini isə ərəb dilində yazıb.

Mühəqqiq ikinci Şah Abbasın zamanında tanınmış elmi şəxsiyyətlərin sırasında olub və Şah Abbasın fəqih vəziri Xəlifə Sultan İsfahanın molla Abdullah mədrəsəsinin qəyyumluğunu molla Abdullahı oğlu molla Həsənəlidən alıb «axund Mövlana Məhəmmədbaqir Xorasaniyə verib».

Onun şagirdlərindən biri Səfəvi dövrünün tarixi mənbələrindən olan «Vəqayiul-əvam vəs-sinin» kitabının müəllifi Əbdülhüseyn Xatunabadidir. O ustadının tərcümeyi-halında yazır ki, səfər və vətəndə qırx il onunla bir yerdə olub. Mühəqqiq özünün bəzi əsərlərini ikinci Şah Abbas və Şah Süleymanın adına yazıb. O cümlədən «Camiuz-ziyarat Abbasi» kitabı, eləcə də fars dilində olan «Xilafiyyə» risaləsini ikinci Şah Abbasın adına və onun üçün yazıb.

Mühəqqiq Səbzivari yavaş-yavaş çox yüksək elmi və ictimai məqam əldə edib və şeyxul-islam və İsfahanın imam cüməsi təyin edilib. Xatunabadi yazır ki, «ikinci Şah Abbas Mazandaran səfərində axunda (Mühəqqiq Səbzivariyə) onunla birgə getməsi göstərişi verdi və mən də o cənabın qulluğunda idim... O çox səxavətli, comərd, zəngin təbiətli və çox dindar idi. Xüsusilə xəlvətdə olarkən və əxlaqi baxımdan zəmanənin nadir şəxslərindən idi. Həmişə özünün və mənim əxlaqımı düzəltməyə diqqət yetirirdi.» Mühəqqiq Səbzivari ikinci Şah Abbasın zamanında şeyxul-islam olub və Xatunabadinin yazdığı kimi o, ikinci Şah Abbasın h.q. 1076-cı ildə Mazandarana olan səfərində onunla birgə olub. Şah elə həmin səfərdə vəfat edib və Səbzivari bir-iki nəfərlə birlikdə şaha qüsl verib.

O, sonra Şah Süleymanın dövründə də şeyxul-islam olub və Xatunabadinin yazdığına əsasən Şah Süleyman h.q. 1078-ci ilin əvvəlində ikinci dəfə taxta çıxanda «Mövlana Məhəmmədbaqir Səbzivari həmin məclisdə çox fəsahətli və bəlağətli bir xütbə oxuyub. Xütbə oxunan zaman bütün əmir, əyan, alim və fəzilət sahibləri ayağa qalxdılar ki, onlardan biri də yaşlı Mirza Rəfia Naini idi.» Bu xəbər və həmin xütbənin məzmunu barəsindəki xəbəri Şarden də öz səfərnaməsində nəql edib.

Mühəqqiq Səbzivarinin elmi-siyasi işlərindən biri «Rövzətul-ənvari Abbasi» kitabıdır ki, onu h.q. 1073-cü ildə ikinci Şah Abbasın adına və onun işarəsi ilə siyasi əxlaq mövzusunda yazıb. Bu əsər çox geniş və İslam siyasəti barəsindədir. O, bu kitabda ümumi əxlaq barəsində danışmaqdan əlavə geniş şəkildə hökmdarlıq əxlaqı və onunla bağlı məsələlər barəsində

danışıb. Bu kitab tarixin bu dövrünün ən mühüm siyasi əsərlərindəndir. O kitabının müqəddiməsində bu kitabı ikinci Şah Abbasın ona olan çoxlu ətalarına minnətdarlıq məqsədi ilə onun və ondan sonrakı digər əmir və şahların istifadəsi üçün yazmasını qeyd edir.

Mühəqqiq Səbzivari h.q. 1090-cı ildə Rəbiul-əvvəl ayının səkkizində vəfat edib və onun cənazəsini Məşhədə aparıb həmin şəhərin Mirzə Cəfər mədrəsəsində dəfn ediblər. Bir çox alimlər, o cümlədən Şeyx Hürr Amili (h.q. 1104) orada dəfn ediliblər. Onun vəfatından sonra bir müddət molla Məhəmməd Cəfər İsfahanın imam cüməsi olub və onun nəvəsi Mirzə Məhəmməd Rəhim, Nadirşah tərəfindən şeyxul-islam təyin edilib. Ondan sonra on dördüncü hicri əsrinin ortalarına kimi Mühəqqiq Səbzivarinin nəvələrindən neçəsi şeyxul-islam olublar və onlar indiyə kimi Şeyxul-islam familiyası daşıyırlar.

Mühəqqiq Səbzivarinin yaşadığı və həmin zaman elə onun qəzavətlə məşğul olduğu iş yeri də olan ev bu günə kimi İsfahanın Həkim məscidinin yaxınlığında «Sinepayini» məhəlləsində qalır və ora Səfəvi dövrünün gözəl abidələrindən biri hesab edilir.

### *AĞA HÜSEYN XANSARİ*

İkinci Abbasın zamanının Şah Süleymana kimi olmuş böyük alimlərindən biri Ağa Hüseyn Xansaridir (h.q. 1016-1098). O, Xansarda dünyaya gəlib və təhsil almaq üçün İsfahana gedərək orada ucalmışdır. O, fəlsəfədə Mirfəndoskinin (h.q. 1050), hədis elmində isə Məhəmmədtəqi Məclisinin (h.q. 1070) şagirdi olub. Xansari bir müddət Şeyx Lütfullah mədrəsəsində təhsil alıb və tələbəlik illərinin xatirəsini belə açıqlayır: «Mədrəsədə olan vaxtlar qışı bir köhnə yorğan ilə keçirdim və od qalamaq imkanım yox idi. Yorğanı çiynimə atıb otaqda bir az yol gedirdim ki, bəlkə bir az qızındım.»

Ağa Hüseyn iki sahədə fiqh və fəlsəfə sahələrində çox məşhur olub və Səfəvilərin son dövrlərinin alimlərinin çoxu, onun şagirdi olublar. O, bir filosof və fəqih kimi İsfahan fəlsəfə məktəbinin davamçılarından olub və əsərlərinin çoxu Şəfa və İşarat kimi mühüm fəlsəfi kitablara haşiyə və şərhlərdən və qısa bir fəlsəfi risalədən ibarətdir. Fiqhdə Şəhide Əvvəlin «əd-Durus» kitabına «Məşariquş-şumus» adlı şərh yazıb və bu kitab dəqiqliyi və məsələlərin araşdırılması baxımından çox təriflənib. Bunlardan əlavə o, Quran və Səhifeyi Səccadiyyə kimi mühüm dini mətnləri, eləcə də Əllamə Hillinin Nəhcul-haqq kitabını tərcümə edib. O, həmçinin lətif zövqə malik olub və bu səbəbdən onun ətrafına çoxlu şair vəariflər toplaşardılar.

Nəsrabadi özünün Təzkirə kitabında onların bəziləri haqqında məlumat verib. Nəsrabadinin özü də Ağa Hüseynin şagirdlərindən olub. O, Ağa Hüseynin tərcümeyi-halına şərh yazıb. Təzkirə, yəni yalnız şairlərin tərcümeyi-halı yazılan kitablarda tərcümeyi-hal yazmaq ədəbiyyatı ilə tanışlıq məqsədi ilə biz onun yazdığı həmin mətni nəql edirik.

**Onun bərəkəti qurtarmayan zatı parlaq agahlıq üfüqündən bir ulduz, mübarək vücudu işıq saçan ağıllılıq səmasından bir ulduz, kəlamının yağlılıq və mülayimliyi cəfa yorğunlarının məlhəmi və qələminin gövhər saçan bir damcısı təhsil xəstələrinə şəfa şərbətidir. Kamilliklərinin banının nərdivanı dəlil-sübut, həqiqətlərlə ünsiyyətdə olan dərslərinin doğru yol göstərməsi şərh və bəyandan ehtiyacsızdır. Döşənmiş kilimi üzərində molla Cəlal (Dəvani) kənarda oturub və kamilliklərinin mətni yanında təqvimin qədim haşiyəsi cırılıb. O cənab gənc çağlarında təhsil almaq üçün fəzilət sahiblərinin gövhər sədəfi olan İsfahana təşrif buyurub. Az bir zamanda uca fitrəti sayəsində yoldaşlarını, bəlkə hətta özündən qabaqkı görkəmli alimləri arxada qoyub. Hal hazırda İsfahandadır və ikinci Şah Abbasın nənəsinin mədrəsəsinin qəyyumluğu onun öhdəsinədir. Fəzilət sahiblərinin çoxu ariflərin qibləsi olan bu şəxsin dərsində iştirak edərək ondan bəhrələnirlər. Şan-şöhrətli oğlu Ağa Camal hər gün həmin mədrəsəyə gəlir, bu mədrəsənin və digər mədrəsələrin tələbələri ondan bəhrələnirlər.»**

Ağa Hüseyn Xansarinin müasirlərindən olmuş Vəliquluxan onun barəsində belə yazır:

**O, pis ilə yaxşını seçən vaxtdan indiyə kimi mübarək vaxtı həmişə dərsə, fəlsəfə kitablarının mütaliəsinə və hədislərin tətbiqinə sərf olub və çoxları o cənabın hüzurundan zahiri və batini kamal qazanırlar. O, fəlsəfədə filosof dərəcəli şagirdlər yetişdirib ki, onların hamısı fəzilət sahiblərindən sayılırlar.**

Ağa Hüseyn Xansarinin müasiri və bir müddət şagirdi olmuş Əfəndi, onu «dövranın misilsiz və əsrinin yeganə» şəxsiyyəti adlandırıb, onu həmin zamanın bütün alim və fəzilət sahiblərinin arxa və dayağı hesab edib və hər yerdə onun barəsində «ustadul-mühəqqiq» ifadəsi işlədib. Onu deyəsən ustadlıq müddətinin uzun olmasına və şagirdlərinin çoxluğuna görə «ustadul-kull fil-kull» adlandırırmışlar.

Onun şagirdlərindən biri də bir müddət Hindistanda və İsfahanda yaşamış və 1085-ci ildə ustadından qabaq vəfat etmiş görkəmli fəqih və şair Əlirza

Təcəllidir. Onun şagirdlərindən digər ikisi elə Ağa Hüseyn Xansarinin öz alim oğlanları Ağa Camal və Ağa Rəzi Xansaridir ki, onların hər ikisindən əsərlər qalıb və onlar İsfahanın görkəmli alimlərindən olublar. Şah Süleyman və onun oğlu Hüseynin zamanının alimlərindən olmuş Məhəmmədsaleh Xatunabadi də Ağa Hüseynin şagirdlərindən olub.

Şiə təfəkküründə olan mövcud meyllər baxımından Ağa Hüseyn fəlsəfi təfəkkürün nümayəndəsidir ki, biz bu kitabın əvvəlindən Şiraz və ondan sonra İsfahan məktəbinin davam etdirilməsindən danışarkən ona toxunmuşuq. Ağa Hüseyn məşşa fəlsəfəsini Səfəvilərin hakimiyyətlərinin əvvəlindən həmin vaxta kimi olan iki əsr ərzində ona artırılmış estetik məsələlərlə birlikdə bir neçə onillikdə şagirdlərinə öyrədib. Əlbəttə o, fəlsəfədən əlavə fiqhdə tam elm sahibi olub və onun fiqhi əxbarilik deyil ictihadi məktəbin davamı olub. Ümumilikdə Ağa Hüseyn nə fəlsəfədə və nə də fiqhdə ixtira və yenilik sahibi olmayıb. Lakin onun mətnlərdən tam baş çıxarması və tədris etmək qüdrəti bu iki sahədə böyük elmi mirasın bir nəsildən digər bir nəsilə ötürülməsinə səbəb olub.

Ağa Hüseyn Xansari h.q. 1098-ci ilin Rəcəb ayında vəfat edib. O, hamı tərəfindən çox ehtiram göstərilən şəxs olduğu üçün Şah Süleyman onun qəbrinin üzərində bir məqbərə tikdirib və ora bu günə kimi «Xansarilər»in təkyəsi kimi məşhurdur.

İkinci Şah Abbasın zamanından görkəmli alimlər sırasında olmuş və Vəliqulu Şamlı tərəfindən adı həmin şahın dövrün alimləri arasında çəkilən Ağa Hüseyn Xansari, Səfəvi şahlarının çox diqqət mərkəzində olub. Şah Süleyman şərabın qadağan edilməsi barəsində fərman verəndə h.q. 1096-cı ildə Ağa Hüseyn çox ədəbi bir mətn hazırlamışdı ki, həmin mətn gözəlliyinə görə ədəbi və katiblik nəsrinin nümunəsi kimi ondan sonra illərlə həmin sahənin şagirdləri tərəfindən istifadə edilirdi. O, həmçinin Şah Süleymanın istəyi ilə Səhifeyi-Səccadiyyəni fars dilinə tərcümə edib və əsərlərinin bəzilərini həmin hökmdarın adına yazıb ki, onlardan biri də yeməli və içməli şeyləri fiqhi hökmlərindən bəhs edən «Maideyi-Süleymaniyyə» kitabıdır. Bir dəfə də, Məkkənin böyükü Şah Süleymana məktub yazmışdı və şah, Ağa Hüseyndən ona cavab yazmasını istədi, o da yazdı.

## *ƏLLAMƏ MƏHƏMMƏDBAQİR MƏCLİSİ*

Əllamə Məhəmmədbaqir Məclisi (h.q. 1037-1110), Səfəvi əsrinin, nuru, əsrlər keçməsinə baxmayaraq qətiyyən azalmayan parlaq simalarındandar. O çoxlu həm qədim, həm də yeni düşmənlərinin olmasına baxmayaraq yenə də

çox işgüzar, diqqətli, iti zehnli və məktəb sahibi olan alim kimi tanınır. Tam cürətlə demək olar ki, onun vəfatından üç yüz on il keçməsinə baxmayaraq onun şiə elmindəki nüfuzu yenə də qalmaqdadır və o, əbədi bir şəxsiyyətə çevrilib.

Atası Məhəmmədtəqi Məclisinin (h.q. 1070) ən kiçik övladı olan Məhəmmədbaqir atasının dərs yığıncaqlarından hamıdan çox bəhrələnib və çox ehtimal ki, İsfahanda digər alimlərin dərslərində də iştirak edib. Məhəmmədbaqir Məclisinin əsərləri, xüsusilə çox mühüm «Biharul-ənvar» kitabı onun müxtəlif elm sahələrindəki məharətini üzə çıxarır. Bütün bunlar göstərir ki, o, müxtəlif alimlərdən bəhrələnməkdən əlavə özü də elm öyrənmək üçün çox səylər göstərib. O, Biharul-ənvarın müqəddiməsində özünün ibtidai təhsili barəsində belə yazır:

**Mən cavanlığımın əvvəlində bütün elmləri öyrənməyə eşq bəsləyirdim və elm ağacının meyvələrini əldə etməyin vurğunu idim. Allahın lütfü ilə elm bağlarına yol tapdım və güc əldə etdim. Nəhayət Allahın köməyi ilə başa düşdüm ki, əgər elm zülalı pak vəhy çeşməsindən gəlməsə insanı doydurmur və fəlsəfə dinin qanunlarından yaranmayanda şirin olmur.**

Əllamə Məclisi çox zehnli və istedadlı olduğu üçün elə atasının zamanından böyük alim kimi parladı. Belə ki, Vəliqulu Şamlı onu ikinci Şah Abbasın (h.q. 1077) zamanının bir neçə görkəmli aliminin sırasında sayıb. O, bütün ömrü boyu qələmi yerə qoymadı və hətta ömrünün şeyxul-islam olduğu son on üç ilində də kitab yazmaq və tərcümə etməklə məşğul oldu.

Əllamə Məclisinin əsərləri onun elmi həyatının çox mühüm mövzularındandır. Bundan əvvəl qeyd etmişdik ki, onun əsərlərinin çoxu hədis mövzusu ətrafında olub və o, hədis və rəvayətlərin şərhində əlindən gələni etməyə çalışıb.

Onun bəzi kitablarının adını çəkməmişdən öncə qeyd etmək lazımdır ki, o, öz dəyərli əsərlərini yazmaq məqsədi ilə şiə kitablarını toplamaq üçün neçə on illiklər çalışıb. O, bütün mövcud imkanlardan, xüsusilə Mirzə Abdullah Əfəndi İsfahani kimi görkəmli şagirdləri olmaq fürsətindən istifadə edərək İranda və İrandan xaricdə şiə kitabının olmasını eşitdiyi hər bir nöqtədən bütün kitabları İsfahana toplayaraq onlardan özünün Biharul-ənvar və digər kitablarının yazılmasında çox istifadə edib.

Onun çox dəyərli işlərindən biri Kafi kitabına şərh olaraq yazdığı iyirmi altı cildlik «Miratul-uqul» kitabıdır ki, onda hədislər tam geniş şəkildə şərh edilib və onların çoxunun sənəd və mətni barəsində izahlar verilib. Onun

digər bir kitabı «Milazul-əxyar» kitabıdır ki, onu «Təhzibul-əhkam» kitabına şərh olaraq yazıb. Bu onun dərs kitabı olub və Əllamə şərhi dərs üçün hazırlayıb.

Əllamə Məclisinin ən böyük əsəri, hətta Səfəvi dövrünün ən böyük elmi-dini işi Biharul-ənvar kitabıdır. Mərhum Məclisinin bu ensiklopediyanın tərtib etməkdə məqsədi şiənin bütün mətnlərini bir yerə toplamaq və onları müxtəlif etiqadi, tarixi, əxlaqi, fiqhi və….fəsil və bölmələr şəklində təqdim etmək olub. O nəql etdiyi hər bir hədisin və ya bir neçə hədisin arxasınca bəzi izahlar da verib. Məlumdur ki, o bu məcmuədə bir çox ziddiyyətli və müxalif hədisləri, həmçinin zəif rəvayətləri də toplayıb. Onun bu işdə məqsədi onları qorumaq və onları daha yaxşı dəyərləndirmək üçün həmin hədisləri bir-birinin kənarında qoymaq olub. Bu əsər alim, tədqiqatçı və qələm əhlinin işini asanlaşdırmaq məqsədi ilə yazılıb və bu səbəbdən də Məclisi keçmiş nəsillərin əsərlərində olan heç bir nöqtəni hətta zəif olsa belə kənara qoymamağa çalışıb.

Bu kitabın tərtib edilməsində onun şagirdlərinin bəzisi, o cümlədən Seyid Nemətullah Cəzayiri (h.q. 1112) və Mirzə Abdullah Əfəndi ona kömək ediblər. Qeyd etmək lazımdır ki, bu kitabın mərhum Məclisinin öz xətti ilə yazılmış cildlərinin çoxu hal hazırda ayətullah Mərəşi Nəcəfinin kitabxanasında saxlanılır.

Əllamə Məclisinin hədis elmi ilə məşğul olması onun tamamilə əxbarilik üsullarından istifadə etməsi demək deyil. Əlbəttə məlumdur ki, o, məsələlərə nə filosofcasına yanaşıb və nə də sırf kəlami bəhslərə girişib. Lakin hədislərə ağılla yanaşmağa və onlarla məntiqi davranmağa çalışıb. O, özünün müctəhidlərlə əxbarilər arasında mötədil yol tutması barəsində belə yazır:

**Bu barədə bəndənin yolu orta yoldur. İfrata varmaq və ya tam biganəlik və laqeyidlik bütün işlərdə xoşagəlməzdir. Mən imamiyyə fəqihlərinə (müctəhidlərə) qarşı pis gümanda olan və onları dindarlıqlarının az olmasında günahlandıran dəstənin yolunu səhv hesab edirəm, (hərçənd ki,) onlar mənim dinimin böyükləri olublar. Həmçinin onları rəhbər bilib heç bir işdə onlara qarşı çıxmağı caiz bilməyib onlara təqlid edən dəstənin əqidəsini düz hesab etmirəm. Eləcə də kökü Quran və sünnə olmayan əqli əsasları da düzgün saymıram. Lakin Quran və sünnənin ümumi qaydalarından məlum olan ümumi əsas və qaydaları, aşkar hökmlə ziddiyyətdə olmadığı təqdirdə tabe olunmalı hesab edirəm.**

Onun sözləri Səfəvilərin dövründə əxbariliyi dirçəldən molla Məhəmmədəmin Astrabadi kimilərin radikallıqlarına və onların altıncı əsrdən Səfəvilərin zamanına kimi olmuş imamiyyə fəqih və müctəhidləri barəsində dediklərinə cavab ola bilər.

Əllamə Məclisinin əsər və yazılarında diqqəti çəkən məsələlərdən biri onun fars dilli xalq kütlələrinin dini mətnlərlə tanış olmalarına çalışmasıdır. Həmin dövrə kimi şiə mətnlərindən edilmiş tərcümələrin mövcud olmasına baxmayaraq, xalqın hidayəti üçün onların müxtəlif mövzularda ehtiyaclarını ödəyəcək, özü də Əhli-beyt (ə) maarifindən götürülmüş tutarlı əsər və kitablar yazılmamış və hazırlanmamışdı.

Belə bir fəzada Əllamə Məclisi böyük elmi mövqeyinə, Biharul-ənvarda və Kafinin şərhi olan Miratul-uqulda şahidi olduğumuz bacarıq və qüdrətinə baxmayaraq, tam təvazökarlıqla farsca yazmağa başladı və xalq kütləsinin hidayəti üçün onların dilində saysız-hesabsız əsərlər yazdı. Bu əsərlər Peyğəmbərin (s) və imamların (ə) həyatlarının tarixi, Peyğəmbərin (s) Əbuzərə vəsiyyətinin «Eynul-həyat» adı altında şərhi, fərdi və ictimai əxlaq barəsində mühüm «Hilyətul-müttəqin» kitabının yazılması ilə davam etdirildi. Belə ki, keçən üç yüz il ərzində həmin əsərlər həmişə ümumi xalq kütləsi, hətta seçilmiş təbəqə tərəfindən istifadə edilib.

Doğrudan da demək olar ki, «Hilyətul-müttəqin» kitabının dili bu gün üçün bir az qədim olmasına baxmayaraq, son üç əsrdə İran cəmiyyətində əxlaqi maarifin olmasını təmin edib. Xüsusilə cəmiyyətin süst, tənbəl, dilənçi və çirkin halda olmasında təsirli olan dərvişlik əxlaqının qalıqlarının mövcud olmasını nəzərə alanda, bu kitabın insanlara dini təlimlər əsasında əxlaq və sanitariya qaydalarının öyrədilməsindəki rolunu başa düşmək olar.

Hər halda Əllamə Məclisinin ümumi xalq kütləsi üçün fars dilində kitab yazmasını onun xalqa dini təlimlərin öyrədilməsindəki ən faydalı addımlarından hesab etmək lazımdır. O, müxtəlif məqsədlər üçün hədislərin tərcümələrindən ibarət kiçik risalələr də yazıb. O cümlədən «qəflət sahiblərini oyatmaq və hamının islahının onların islah edilməsindən asılı olduğu və fəsadları varlıqların seçilmişi və məxluqatın ən şərəflisi olan insan cinsinin fəsadı ilə nəticələnən dövlət adamlarını islah etmək üçün» Malik Əştərin əhdnaməsini tərcümə edib. Xalqın keçən üç əsrdə Məclisinin əsərlərindən çox bəhrələnməsinin dəlili, onun əsərlərinin əlyazma nüsxələrinin evlərdə və ümumi kitabxanalarda firavanlığıdır.

Əllamə Məclisinin təsirə malik elmi işlərindən biri onun elmi dərs və bəhs məclisləri qurması olub. Mövcud tarixi sənədlərə əsasən onun şagirdlərinin

sayı min nəfərə çatırmış. Həmin dövrdən qalmış əlyazma kitabların çoxunda Əllamə Məclisi həmin kitabın sahibinin, o kitabı onun yanında oxumuş olduğunu qeyd edib. «Təlamiz Əllamə Məclisi» kitabından, eləcə də «İcazat Əllamə Məclisi» kitabından onun şagirdlərin sayı baxımından əhatə dairəsinin genişliyini dərk etmək olar. Bu kitab Əllamənin öz şagirdlərinə verdiyi elmi şahidliklər barəsindədir ki, onlarda şagirdlərinin müxtəlif sahələrdəki elmlərini təsdiqləyib.

Deyilənlərdən əlavə Əllamə Məclisi bəzi islami adət-ənənələrin yayılmasında da nəzərə çarpacaq səylər göstərib. Bu ənənələrdən biri Qədr gecələrində səhərə kimi oyaq qalmaq mərasimlərinin bərpa edilməsidir ki, həmin ənənə bu günə kimi də davam edir. Bu mərasim və buna bənzər digər mərasimlər Məclisinin məskəni olan İsfahanda hətta bu gün də çox geniş şəkildə keçirilir. Məclisi bunların kənarında şeyxul-islam kimi vəzifələrindən biri olan əmr be mərüf və nəhy əz münkər məsələsində də Səfəvi əsrinin fəsada düçar olmuş cəmiyyətinin islahı üçün bir sıra addımlar atıb. Bu haqda Şah Sultan Hüseynin hökmdarlığı dövründə görülmüş işlər barəsində danışarkən müstəqil şəkildə söz açacağıq.

## *ƏLLAMƏ MƏCLİSİ VƏ ŞEYXUL-İSLAMLIQ VƏZİFƏSİ*

Şah Süleymanın zamanında görkəmli alim olduğu və saysız-hesabsız kitablar yazdığına görə seçilmiş sima şəklini almış Əllamə Məclisi h.q. 1098-ci ildə İsfahanın şeyxul-islamı təyin edildi. Əllamə Məclisi onun barəsində rəsmi hökm yazılmasa da Şah Süleymanın vəfatına h.q. 1105-ci ilin sonuna kimi həmin vəzifəni daşıyıb və ondan sonra da Şah Sultan Hüseyn tərəfindən həmin vəzifəyə təyin edilib.

Şeyxul-islamın həmin dövrdəki vəzifəsinin nədən ibarət olmasını Sultan Süleyman Səfəvinin Əllamə Məclisi üçün yazdığı fərmandan başa düşə bilərik. Bu fərman alimlərin Səfəvi dövlətindəki siyasi mövqelərinin açıqlanmasında da bizə kömək edə bilər.

Həmin fərmanda katiblərin bu qəbildən olan fərmanlarda istifadə etdikləri bir sıra rəsmiyyət xarakterli sözlərdən sonra «din ilə dövlət ekizdirlər» və «alimlər peyğəmbərlərin varisləridir» kimi hədislərə işarə edərək dinin hökmlərinin icrasının gərəkliyindən danışılıb və bildirilib ki, alim və müctəhidlər şəriət hökmlərinin biliciləri olduqları üçün şeyxul-islam vəzifəsinə onların ən yaxşısı təyin edilməlidir. Fərmanın mətnində deyilir:

**...Çünki həmin işlərin kələfi nicat tapan on iki imamçı firqənin hökmlərinin qoruyucuları və halal-haramın dəlil-sübutlarından**

**xəbərdar alimlərin əlindədir. Mövlana Məhəmmədbaqir Məclisi əsrin müctəhidi və zəmanə əhlinin kitab və sünnəyə ən savadlısıdır və şəriət hökmlərinin dəlillərinin sənədlərində şərait və imkan daxilində tədqiqat aparmışdır. Buna görə də İsfahanın, ona tabe və birləşik məntəqələrin səltənət sarayının Cənnət yurdlu və müqəddəs məkanlı əlahəzrət şah atamın – Allah onun dəlil-sübutunu nurlandırsın – həvalə etdiyi və barəsində itaət əmri imzalanmamış çox dəyərli və yüksək dərəcəli şeyxul-islam məqamını həm şəhərdə, həm də səfərdə zəfər təyinatlının yanında olsun ki, dini məsələlər və zəruri hökmlərdə ona müraciət edək, böyük məsələləri və anlaşılmaz iddiaları onun üstünə göndərək. Nəticədə möminlərin malları, namus və şərəfləri qorunsun, qeyd edilən işlər tələf və zay olmaq təhlükəsi qarşısında qalmasın.**

Fərmanın davamında şeyxul-islamın vəzifələrindən söz açılıb və onun qüdrət dairəsi bəyan edilib.

**Gərək əmr be məruf və nəhy əz munkərdə, şəriət hökmlərinin və milli adət-ənənələrin icra edilməsində, bidətçi və fasiq adamların qarşısının alınmasında, xumsun, zəkatın və Allahın haqqının onları gecikdirənlərdən alınaraq həmin şeylər düşən kəslərə çatdırmaqda, məscid, mədrəsə, ibadətgahlar və xeyriyyə yerlərinin nizama salınmasında və tərəflər arasında sazişə ehtiyacı olan məsələlərin icrasında, kəbinlərin kəsilməsi, təlaqların verilməsi və şeyxul-islamlara aid olan digər işlərdə, həmçinin bidətlərin aradan qaldırılmasında, müsəlmanların hüquqlarının təmin edilməsində, zalımların zülmlərinin dəf edilməsində, düşmənlərin əllərinin kəsilməsində, bəxşiş etməkdə və dini hökmlərin icra edilməsində heç kəsi nəzərə almasın.**

Əllamə Məclisinin və digər alimlərin Şah Sultan Hüseyn taxta çıxdıqdan sonra gördüyü mühüm işlərdən biri pozğun cəmiyyət, xüsusilə saray əhli üçün əmr be məruf və nəhy əz munkər ənənəsinin dirçəldilməsidir ki, yerində bu işlərdən də danışacağıq. Xatunabadinin məlumatına əsasən Əllamə Məclisinin h.q. 1098-ci ildə şeyxul-islam vəzifəsinə təyin edildikdən sonra gördüyü ilk işlərdən biri İsfahanda məskunlaşmış hindistanlıların bütlərini saraya toplayıb onların hamısını sındırmaq oldu.

Ümumilikdə demək olar ki, Əllamə Məclisi də digər şiə alim və fəqihləri kimi Səfəvi dövlətinə meylli adam olub və yeganə şiə dövləti olan və onun nəzərincə heç olmasa bir az ədalətli və şəriətə etiqadı olan bu dövlətin həmişə – əlbəttə ədalətli və şəriətə etiqadı olmaq şərti ilə – bərqərar qalmasını arzulayıb. Bu, təxminən bütün şiə alimlərinin nəzəri olub. Bu

əqidənin kökü müctəhidin yuxarıdakı fərmanda fiqh və hədis baxımından əsasları bəyan edilmiş vilayəti əqidəsindən əlavə həm də bu ola bilər ki, imam (ə) qeybdə olan zaman bütün dövlətlər onun haqqını qəsb etmiş olduğu bir vaxtda adil hökmdarla əməkdaşlıq etmək olar və bu, bəzən hətta bəlkə də vacibdir. Biz şiənin hökumət barəsindəki siyasi nəzəriyyəsi haqqında danışarkən bu mətləbi Şeyx Tusinin (h.q. 460) dilindən nəql etdik. Bu əməkdaşlıq şiənin min illik fiqhi və siyasi əsaslarına tam müvafiqdir. Xacə Nəsir və Əllamə Hillinin zəmanə dövlətləri ilə əməkdaşlıqları, eləcə də Şeyx Səduqla Şeyx Müfidin Ali-Buyə dövləti ilə get-gəlləri həmin münasibətlərin digər nümunələridir.

Əllamə Məclisi yetmiş üç illik bərəkətli ömrünü arxada qoyduqdan sonra 1110-cu hicri ilinin Ramazan ayında vəfat edib və dövrün məşhur fəqihi Ağa Camal Xansari bazar ertəsi günü Ramazan ayının iyirmi yeddisi İsfahanın «Came-ətiq» məscidində minlərlə insanın iştirakı ilə onun namazını qılıb. O, elə bu gün məqbərəsi olan həmin yerdə atasının kənarında dəfn edilib. Həmin dövrdə şəhərin alim və avamının dəfn edildiyi ümumi qəbristanlıq Təxti-fuladda idi. Əllamə Məclisinin cümə məscidinin kənarında dəfn edilməsi həmin dövrdə onun barəsində mövcud olmuş hörmət və etibarın yüksəkliyini göstərir. Onun məqbərəsi həmin vaxtdan bu günə kimi ona məhəbbəti olanların ziyarət yeridir.

## *ŞAH SULTAN HÜSEYN SƏFƏVİNİN ZAMANI*

### ŞAH SULTAN HÜSEYNİN TACQOYMA MƏRASİMİ

Şah Süleyman Səfəvi h.q. 1105-ci ildə Zil-hiccə ayının beşində İsfahanda vəfat etdi və doqquz gün sonra yəni həmin ayın on dördündə onun oğlu Şah Sultan Hüseyn iyirmi altı yaşında İranın şahlıq taxtına çıxdı. İlk addım Şah Süleymanın kəfən və dəfni idi ki, o, Qumda atasının və babasının kənarında dəfn edildi. Bundan sonra «üç gün su və əriştə verildi. Üç gün Şah məscidində – «Came Abbas»da – şah ehsan verdi və üç gün mərhum şahın anasının nümayəndələri.» Bundan sonra İsfahan əfqanlılar tərəfindən mühasirəyə alınıb təslim edilənə qədər, h.q. 1134-cü ilə kimi hökmdarlığını davam etdirdi. H.q. 1135-ci ilin Məhərrəm ayında hökmdarlıqdan kənara çəkildi və dörd il sonra əfqanlıların böyüklərinin göstərişi ilə öldürüldü.

Şah Sultan Hüseynin tacqoyma mərasimi əmir və əyanların iştirakı ilə keçirildi və bu dəfə onun tacını başına Əllamə Məclisi qoydu. Biz bundan əvvəl şeyxul-islamın Səfəvi şahlarının səltənətinə rəsmiyyət verilməsindəki

rolundan danışmışdıq. Bu dəfə əvvəlkilərdən daha ciddi oldu və hətta şahın qılıncını şeyxul-islam bağladı, halbuki ədətən onu həmişə qızılbaş sufilərdən biri şahın belinə bağlayardı. Bundan sonra Əllamə Məclisi tacqoyma mərasimində adət olan uzun bir xütbə oxudu. Nəsirinin «Dəsture-şəhriyaran» kitabında nəql etdiyi xəbərə əsasən bu mərasim «Ayinəxana» sarayında keçirildi və «….çox savadlı, əllamə, müctəhidiz-zamani, şeyxul-islam mövlana Məhəmmədbaqir Məclisini «Ayinəxana» sarayına çağırdılar və o, aləmdən bac alan şahlıq tacını qoymaqla şaha başucalığı verdi, kəmər bağlamaq və xəncərlə zinətləndirməklə nurani şəriətin hökmlərini icra etməyə hazırlaşanı hörmətə mindirdi.»

Yazıblar ki, elə orada şah ona dedi ki, bir istəyi varsa desin. Saray adamları, əyanlar və şəhər əhalisinin şərab içməsindən çox əziyyət çəkən Əllamə, şahdan bu ictimai fəsadın qarşısının alınması istiqamətində çalışmasını istədi. Şah da onun istəyini qəbul etdi.

Şah Süleyman və onun oğlu Şah Hüseyn səltənəti ələ almaq üçün xüsusi tərbiyə almamışdılar və onların özləri də fərdi xüsusiyyətləri baxımından hökmdarlıq üçün yaradılmamışdılar. Əslində bütün bu müddət ərzində işləri vəzir, sədr, şeyxul-islam, həkimbaşı, qoşun başçısı, bunların hamısından çox isə son zamanlarda xacə və hərəm kişiləri adı ilə övladı olmayan azad edilmiş qullardan ibarət bir tayfa idarə edirdi. Şah Süleymanın xoşbəxtliyi onda idi ki, onun Şeyx Əlixan Zəngənə kimi bacarıqlı bir vəziri var idi ki, h.q. 1101-ci ilə kimi vəzirlik edib. Ondan sonra vəzirlik hökumətin silah anbarının rəisi Şahquluxanın qardaşı Mirzə Tahir Vəhid Qəzviniyə tapşırıldı. O h.q. 1110-cu ilə kimi vəzirlik etdi və həmin ildə vəzifəsindən kənarlaşdırıldı və iki il sonra vəfat etdi. Ondan sonra da Məhəmmədmömin xan vəzir oldu və o, h.q. 1116-cı ildə vəfat etdi və silah anbarının rəisi Şahquluxan etimadud-dövlə vəzifəsinə təyin edildi. h.q. 1127-ci ildə o da vəfat etdi və Fətəlixan etimadud-dövlə oldu. O da əfqanlıların hücumundan bir az qabaq kor oldu və məqamından kənarlaşdırıldı. Nəhayət Səfəvi dövlətinin son vəziri Məhəmmədqulu Şamlı oldu.

Şah Sultan Hüseynin şeyxul-islamı Əllamə Məclisi idi ki, h.q. 1110-cu ilin Ramazan ayında vəfat etdi. Şeyxul-islamlıq vəzifəsi ondan sonra Mirzə Məhəmmədcəfər Qazıya həvalə edildi və o, h.q. 1115-ci ilə kimi həmin vəzifəni daşıdı. Ondan sonra birinci Məclisinin kürəkəni Mirməhəmməd Saleh (h.q. 1056-1126) adlı digər bir alim bu vəzifəyə seçildi.

## *İLK ADDIM – ŞƏRAB İÇİLMƏSİ İLƏ MÜBARİZƏ*

Bütün tarixi mənbələr bu məsələdə yekdil fikirdədirlər ki, Şah Sultan Hüseyn şəxsiyyət baxımından sakit və mətanətli adam olduğu, sərt və hərbi qarşıdurmalara qatlaşmaq və ölkəni idarə etmək bacarıq və qüdrətinə malik olmadığı halda, bunun müqabilində dini cəhətdən tam etiqadlı və dinə bağlı adam olub. Buna görə də imkanı olan qədər hərəm ağaları yəni xacələrin, hərəm arvadlarının və nüfuzlu məqam sahiblərinin yaratdıqları darısqal hasardan kənara çıxır, dini və məzhəbi məsələlərin genişləndirilməsinə yaxşı münasibət göstərirdi. Mustaufi «Zubdətut-təvarix» kitabında yazıb ki, Şah Sultan Hüseyn «çox rəhimli, məzlum, təmiz, islah və insaf zinəti ilə bəzənmiş, xeyir işlərə rəğbəti olan, kamil pərhizkar və təqvalı bir şəxs olub». «Vəqayius-sinin» kitabının müəllifi də yazıb: «Səfəvilər sülaləsində – Allah onların dövlətlərini bərqərar etsin – din pənahlı padşah Şah Sultan Hüseyn kimi şəriətə bağlı və saf (bir şah) gəlməyib. O, özünün bütün işlərini müqəddəs şəriətə müvafiq şəkildə yerinə yetirir.» Amma deyəsən Təhmasib ondan da dindar olub.

Həmin zamanda Şah Süleymanın şeyxul-islamlıq məqamının İranın ən böyük alimi Əllamə Məclisi daşıyırdı. Təzə şah ondan vəzifəsini davam etdirməsini istədi və onun üçün müfəssəl bir hökm də yazdı ki, biz onun bəzi yerlərini nəql etdik. Bundan əvvəl dediyimiz kimi şah tacqoyma mərasimində hökmdarlığının ilk addımı kimi şərab içilməsi ilə mübarizə aparmağa çalışacağına söz verdi.

Mustaufi yazır ki, həmin dövrdə Şah Süleymanın diqqətsizliyi üzündən fəsad və pis əməllər hər yeri bürümüşdü. Bu vəziyyəti görən və «həmin dövrdə müqəddəs məkanlı…….yeri cənnətliyin canişinlərinin etinasızlığı və soyuqqanlığı səbəbindən çirkin işlər, xoşagəlməz əməllər və günah işlərin, İblis və Şeytanın qoşununun çoxalmasının» hər yeri bürüməsini hiss edən Əllamə Məclisi, şahdan belə bir xahiş etdi. Şah da bu barədə bir fərman imzaladı. Həmin fərmanda deyilir:

**Şahlıq qüdrəti günəşinin şüalarının doğmasının və böyük hökmdarlıq ulduzunun çıxmasının başlanğıcı olan bu gün, uzaqgörən ağıla və qiymətli fikirə belə gəlir ki, Allahın əmr və qadağalarının icrasında doğru yol, keçmiş ata-babaların – kəramətli töhfələr olsun onlara – mübarək yolu ilə gedərək dinin hökmləri və peyğəmbərin şəriətinin möhkəmləndirilməsinə çalışmağımızdır. Bunu etmək Allahın razılığına və bizim qalib və başıuca olmağımıza səbəb olar…..Buna görə də belə qərara aldıq ki, kömək göstərən və dünyanı fəth edən bəylər bəyi və**

**şahın əmirləri ....« يا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ» ayəsinin vacibi əmrinə tabe olaraq Cəhənnəm odunun şöləsi olan və Cənnətin təbəqələrində seyr etməyə mane olan şərabın içilməsindən çəkinməyi zəruri hesab edib….harada ondan bir küp, kuzə və ya bir damcı və onun iyi olsa onun məhv edilməsi və aradan aparılması istiqamətində çox çalışıb hədsiz çalışqanlıq göstərsinlər.**

Bu fərman verildikdən sonra saray əhlinin fəryadı göyə qalxdı. Onların gətirdikləri bəhanə bu idi ki, şərab satan dükanlardan olan gəlir hədsiz çoxdur və həmin dükanlar bağlandıqdan sonra dövlət çox ziyana düşəcək. Bu etirazlardan qəzəblənmiş şah onlara dedi: «Əgər sizdə dindən, imandan, kişilikdən, ar və xarlıqdan bir nişanə varsa nə üçün belə boş sözlər danışırsınız?» Bundan sonra həmin şəxslər tövbə edərək dedikləri həmin sözlərdən peşman oldular. Bunun ardınca şah daha kəskin bir fərman verdi və onda təkcə şərab və qumarı deyil, hətta bir növ qumar sayılan və ya üstündə dava-dalaş düşən digər oyunları da qadağan etdi.

Əllamə Məclisi və zəmanənin digər alimlərindən bir neçəsi şahı himayə etmək barəsində bir bəyanat verdilər və şahın fərmanını dəstəklədilər. Şahın fərmanının mətnini daş üzərində həkk olunmuş şəkildə şəhərin məscidlərinin çoxundan asdılar. Amma məlumdur ki, saray sistemi və cəmiyyətin düşkün mədəniyyəti bu cür fərmanlara uzun zaman riayət edə bilməzdi. Bir müddət sonra hər şey öz yerinə qayıtdı və cəmiyyət əvvəlkindən də çox fəsada batdı.

## *DAXİLİ VƏ XARİCİ SİYASİ HADİSƏLƏR*

İlk siyasi-hərbi addımlardan biri şərq sərhədlərində bəzi üsyankar bəluc tayfalarının yatırılması oldu. Şah Süleymanın səltənətinin son illərindən başlanmış bu üsyanın və digər üsyanların hekayəti «Qəndəharın bir tərəfindən olan tağuki, naruyi, rigi, rəxşani, bərahuki bəluclar, əfqanlar və zizə, murzə ilə Sistan və Kermanın ətrafında məskunlaşmış məkrani, laşari və sistani bəluclarla» bağlı idi. Bizim əfqanlılara təkid etməyimizin səbəbi budur ki, otuz il sonra Kerman yolu ilə Yəzdə və daha sonra İsfahana gəlib Səfəvi dövlətini devirən həmin dəstə idi.

Hər halda Şah Sultan Hüseynin səltənətinin ilk günlərində həmin istiqamətə qoşun göndərildi və həmin hücumların qarşısı bir müddət də olsa alındı. Maraqlısı budur ki, elə həmin zamandan həmin hücumlar «Yəzd, Kuhpayə və Nain mahallarına» kimi gəlib çıxırdı. Onların bir dəstəsi Kermana kimi gələndə Kermanın hakimi Şahverdixan bir qoşun düzəldib

onları təqib etməyə göndərdi. Amma həmin qoşun «(onlardan) bir neçə nəfər susuzluqdan ölməkdən» başqa bir şey edə bilmədi. Şəmşirxan Ərəbin başçılığı altında digər bir qoşun göndərildi və onlar üsyançılardan bir dəstəni təqib etdilər. Lakin qəti bir iş görmədilər. Şəmşirxan «bəluclarla müttəfiq və əlbir olmaqda» günahlandırıldı. Bu səbəbdən onun mallarını müsadirə etdilər. Lakin bir müddət sonra «bəzi fəzilət sahiblərinin xahişi ilə onu bağışlayaraq mallarını geri qaytardılar.» Sultan Hüseynin hər günahkarı bağışlamaq üslubu ilə hökmdarlıq etməsi təhlükəsizliyin həmişəliyini təmin edə bilməzdi.

Bu hadisələr sonrakı illərdə də davam etdi və onlarda baş verənlər süni nəsr ilə «Dəsture-şəhriyaran» kitabının səhifələrini doldurdu. O cümlədən 1108-ci ilin hadisələri barəsində yazılıb ki, verilən xəbərlərə görə «dönüş yerləri bədbəxtlik olacaq həmin zalımların böyük bir dəstəsi ayaqlarını bədbəxt pusqulu vətənlərindən tələskənlik üzəngisinə basaraq Xubeys və Kerman əhalisinə qarət və soyğunçuluq əli uzadıb çoxlu dəvə, mal, sərvət və əsir götürüblər» və Kerman döyüşçüləri heç nə edə bilməyiblər. Maraqlı burasıdır ki, «həmin dinsiz alçaqlar Yəzdin «Çarmənar və Gəbərkerbad adı ilə məşhur olan iki məhəlləsinə hücum edib səkkiz yüz nəfəri tutub əsir alıblar.»

Bu hadisələr onu göstərir ki, əfqanlıların İrana hücumlarından bir neçə il qabaq onların hücum etdikləri yerlər kəskin hücumlara məruz qalıb və onlara ciddi ziyanlar dəyib. Həmçinin İran dövləti də etinasızlıq göstərməklə həmin bölgələri müdafiə etmək iqtidarında olmadığını göstərib. Amma əsas çətinlik h.q. 1121-ci ildə yarandı. Həmin ildə – yaxud da ondan iki il sonra – əfqan Mirveys Qəndəharın hakimi Gərginxanı öldürdü və həmin şəhəri İranın əlindən çıxartdı. Bu İsfahanın əfqanlılar tərəfindən alınması üçün bir müqəddimə idi.

H.q. 1107-ci ildə ölkənin qərb sərhədlərində Kürdüstan və onun müxtəlif yerlərində üsyanlar yarandı və mərkəzi dövləti və həmin vilayətlərin və şəhərlərin əmirlərini zəhmətə saldı.

Xorasanda yaranmış bir neçə illik nisbi sakitlikdən sonra yenidən özbəklərin Xorasana hücumları – əlbəttə bu dəfə yürüş və qəfil basqınlar şəklində – başlandı və hər neçə müddətdən bir oranın bir yeri özbəklər tərəfindən qarətlərə məruz qalırdı. Onların vəhşicəsinə olan hücumlarından biri h.q. 1122-ci ildə oldu ki, onlar həmin hücumda Xorasanda camaatı öldürmək, əsir götürmək və qarət etməklə məşğul olublar.

Dövlətin digər bir çətinliyi Oman Xəvaricinin Bəhreynə və hətta İranın cənub sərhədlərinə hücum edib bəzi limanlara ciddi ziyanlar vurmaları idi. Onlar Məsqətin imamı İmam Seyfin başçılığı ilə güclü bir dəniz qoşunu yaratmışdılar və mütəmadi olaraq ticari gəmilərə hücumlar edirdilər. Bu arada şiə məntələrindən olan Bəhreyn də hücumlara məruz qalırdı. Bu xəbərlər İran sarayına çatırdı. Lakin Məcməut-təvarix kitabının yazdığına görə bəzilərinin gözügötürməməzlik üzündən, bəzilərinin isə əyyaşlıq, əxlaqsızlıq və günah işlərlə məşğul olduqları üçün belə xəbərlərə qulaq asmaq fürsətləri yox idi.»

Bəhreyn şiələrinə hədsiz zülmlərin edilməsi həmin bölgənin şeyxul-islamı Şeyx Məhəmməd ibn Macidin İran sarayına gələrək «omanlıların Bəhreyn adasına….üstün gəlmələrinin necəliyini, həmin firqənin Allah evinin zəvvarlarının, tacirlərin və Hindistan müsafirlərinin yollarını bağlamalarını, öldürmələrini, əsir almaları və əziyyət verdikdən sonra həbs etmələrini» geniş şəkildə «şaha çatdırmasına» səbəb oldu. Şah «bu xəbərləri eşidib çox təsirləndi və Lütfəlixanı» bir qoşun ilə cənuba göndərdi.

İran dövlətinin hücum etmək üçün lazımi dəniz qüvvəsi olmadığı üçün avropalıların qüvvələrindən istifadə etmək fikrinə düşdü. Bunun ardınca Fars körfəzində olan portuqaliyalı qüvvələrdən kömək istənildi və belə qərara alındı ki, «avropadan içi döyüş və müharibə sursatı ilə dolu bir neçə nəhəng gəmi gücləri sınanmış təcrübəli kişilərlə birlikdə» Xəvariclə «vuruşmaqda İran qüvvələrinə kömək etsin». Amma bu iş Fars körfəzində yaranan qəhətlik və ərzaq məhsullarının bahalaşması ucbatından gerçəkləşmədi və hətta ondan sonrakı il ki, «taxıl və ərzaq bol oldu» «həmin kafirin tənbih edilməsi yenə də təxirə» düşdü və məlum oldu ki, mərkəzi dövlətdə heç kəsin bir qərara gəlmək qüdrəti yoxdur. Əslində əsas problem bu idi ki, portuqallar İranın hərbi qüvvələrini Bəhreynə daşımaq üçün pul istəyirdilər və iranlı qüvvələrin komandanı Lütfəlixan həmin pulu vermək istəmirdi. Beləliklə də Məsqətin imamının hücumları təkcə əhalisi şiə olan Bəhreynə davam etmədi, bəlkə Fars körfəzində İranın adalarının çoxu onlar tərəfindən işğal edildi və ticarət əmin-amanlığı aradan getdi. Lütfəlixan heç bir iş görmədən geri döndü. Bu hadisələrin xəbəri Məcməut-təvarix kitabında müfəssəl şəkildə nəql edilib.

Son illərdə bölgənin təhlükəsizliyinin bərqərar edilməsi üçün fransalılar öz dəniz gəmilərini iranlılara verməli idilər. İran fransalıların köməyinə ürək qızdırdığı bir vaxtda həmin ölkə Məsqətin imamı ilə müzakirələr aparmaqla məşğul idi və bunun mənası o idi ki, İran dövləti ələ salınırdı.

Qərbdə İran dövlətinin Osmanlılarla xüsusi bir problemi yox idi. H.q. 1107-ci ildə iranlı kəşfiyyatçıların mərkəzi dövlətə verdikləri xəbərlərə əsasən osmanlıların başı avropada bərk qarışmışdı. Türk dövlətinin digər bir çətinliyi Misir və İraqda ərəblərlə idi ki, əlbəttə onlarla kəskin davranılırdı. İranlı kəşfiyyatçılar həmçinin İrəvandan rus dövlətinin osmanlılarla toqquşmalarından xəbər verirdilər. Həmin il İran tərəfindən osmanlılara bir səfir getdi və Xandəgarla, yəni osmanlıların sultanı ilə görüşdü. Maraqlıdır ki, Xandəgar səfirdən gətirdiyi əsgərlərin onun hüzurunda çovqan oynamalarını istədi. Onlar da oynadılar və osmanlıların şahı «digərlərindən daha yaxşı oyun nümayiş etdirən iki nəfərə iyirmi əşrəfi miqdarından ənam» verdi. Səfir iki aydan bir az artıq müddətdən sonra İrana qayıtdı.

İranla osmanlıların arasında son səfir get-gəli əfqanların üsyanı ərəfəsində oldu. Həmin vaxt osmanlılar tərəfindən İrana səfir gəldi və yazdığı müfəssəl hesabatda İranın vəziyyətini çox böhranlı və Səfəvi dövlətini dağılmaq ərəfəsində vəfs etdi. Əhməd Dəri adlı həmin səfirin səfərnaməsi «Səfarətnamehaye İran» kitabında çap edilib. Şah Sultan Hüseynin osmanlıların səfiri vasitəsi ilə osmanlı Şahına göndərdiyi sifariş bu oldu:

**«Mən ona dua edirəm. Onlar ata-babadan cihad edən Xandəgardırlar və onlar həmişə vaxtlarını kafirlərlə müharibədə keçiriblər və onlara dua etmək bizə vacibdir.»**

Bu hadisələrə və İranın cənubundakı Xuzistan və Bəsrə hadisələrinə baxmayaraq, İran dövləti həmin zamanda keçmişdə olduğu kimi geniş ərazilərə hakim idi. Gürcüstan kimi bölgələrdə keçmişə nisbətdə daha az problem var idi və oranın hakimi İran dövləti tərəfindən əsl gürcü ailələrdən təyin edilirdi. Onların bir neçəsi Gürcüstandan əlavə İranın bəzi vilayətlərində də hakimlik edirdilər. Onlardan biri Gərginxan idi ki, eyni zamanda həm də Kermandan Qəndəhara kimi olan ərazilərin də hakimi idi və h.q. 1121-ci ildə Qəndəharda Mirveys tərəfindən öldürüldü. Bütün bunlara baxmayaraq Gürcüstan hələ də xaçpərəst idi və Rusiyanın güclənməsi ilə gürcülərin o tərəfə meylləri artdı. Həmçinin qərbdə Hərata və digər tərəfdə Qəndəhara kimi zahirdə İran dövlətinin ixtiyarında idi. Dövlətin bu barədə olan əsas çətinliyi Qəndəharın fəthindən sonra başlandı. Sanki Səfəvilərin hərbi idarə sisteminin onun barəsində heç bir həll yolu yox idi və məsələ gün-gündən daha da qəlizləşirdi. Onun ardınca Hərat da əldən çıxdı və ölkənin şərqinin hər tərəfini çaxnaşma bürüdü.

İranın Qafqazda, Gürcüstanda və Xəzər dənizinin sahil bölgələrində nüfuzunun azalması rusları həmin məntəqələri ələ keçirmək həvəsinə

salmışdı. Əslində həmin zaman böyük Pyotr öz məğrur fikirləri ilə isti sulara çatmaq üçün əvvəlcə bir növ ənənəvi əzəməti olan İran dövləti ilə ticarət əlaqələri qurmaq fikrinə düşdü və İrana səfirlər də göndərdi. Amma Şah Sultan Hüseynin səltənətinin son illərində Rusiyanın səfiri İranın şimalında Qafqaz bölgələrində vəziyyətin qarmaqarışıq olmasını görəndə böyük Pyotra xəbər verdi ki, az bir qüvvə ilə Xəzər dənizinin sahillərinə kimi nüfuz edə bilər. Bir neçə rus tacirinin öldürülməsi bu barədə çarın əlinə daha çox bəhanə verdi və Şah Sultan Hüseynin devrilməsi ilə rusların İrana hücum etmələrinə daha yaxşı şərait yarandı. Bunun ardınca h.q. 1136-cı ildə Rusiyanın iyirmi min əsgərdən ibarət hərbi qüvvələri Dərbəndə yollandı və Xəzər dənizinin cənub istiqamətində qərb sahillərini ələ keçirdilər.

### *İRAN VƏ FRANSA*

Həmin zamanda avropa ölkələri Hindistan, Fars körfəzi və İranda bərk ticarət işləri ilə məşğul idilər və təbii ki, ingilislər və hollandların bu işlərdə daha çox payları var idi. Fransalılar da Şah Süleymanın səltənətinin son illərindən İrana gəl-get etməyə başladılar və bu səfərlərini Şah Sultan Hüseynin zamanında daha da artırdılar. Şah Hüseyn h.q. 1115-ci ildə on dördüncü Luyiyə bir məktub yazaraq ondan İrana səfir göndərməsini istədi. Fransalıların gəlməsindən narahat olan ingilislər və hollandlar şahın məktubunun fransaya çatmasına mane oldular. Ondan sonra fransalılar İrana digər bir heyət göndərdilər. Onlar da bir sıra çətinliklərlə qarşılaşdılar və nəhayət həmin heyətin başçısı Mişel Şah Sultan Hüseynin yanına getdi. Şah ona çox hörmət göstərdi. Amma çox keçmədi ki, avropalıların paytaxt İsfahanda bir-birləri ilə rəqabətləri gücləndi. Nəhayət İranla Fransa arasında otuz bir maddədən ibarət bir müqavilə imzalandı. Həmin müqavilədə fransalılara bir sıra ticarət imtiyazlar verildi və xaçpərəst təbliğatçılara öz mənzillərindən kənarda on iki imamçı şiə məzhəbinə zidd əməllər etməmək şərti ilə azadlıq verildi.

İran dövlətinin bütün səyləri Fransanın hərbi köməklərindən Məsqətin imamına qarşı istifadə etmək üçün idi. İngilislər, hollandlar və hətta portuqallar İrandan belə bir köməyi əsirgəmişdilər.

Şah Sultan Hüseyn işlərin sürətlənməsi üçün İrəvanın hakimindən Fransaya bir səfir göndərməsini istədi. O da Məhəmmədriza bəy adlı bir şəxsi İran şahının səfiri kimi hədiyyələrlə birlikdə Fransaya göndərdi ki, iki ölkənin əlaqələrini genişləndirsin. İngiltərə və Hollandiya dövlətləri bu səfirə qarşı o qədər təhriklə məşğul oldular ki, onun osmanlıların

ərazilərindən keçməsi altı ay uzandı. Nəhayət hər çətinliklə olsa da səfir osmanlılardan xaric olub Fransaya yollandı.

On dördüncü Luyi İrana qail olduğu əhəmiyyətə, daha doğrusu İranın avropada olan şöhrətinə görə Məhəmmədrza bəyi çox yaxşı qarşıladı. On dördüncü Luyinin şəxsi nümayəndəsi Məhəmmədrza bəyə yaxınlaşanda ondan həmin nümayəndənin qarşısında dayanmasını istədilər. Amma o bu işdən boyun qaçıraraq bir xaçpərəstin qarşısında dayanmayacağını dedi. O, daha sonra digər səs-küyə səbəb olan işlər görmək və fransalıların həssaslıq göstərmələrinə səbəb olmaqla nəhayət faytona minib on dördüncü Luyinin yanına getdi. Həmin zaman on dördüncü Luyi artıq tamamilə qocalmışdı və yalnız İranın səfirinin ehtiramına taxtda oturmuşdu. On dördüncü Luyi Məhəmmədrza bəyi görən kimi ayağa qalxdı və hörmət əlaməti olaraq papağının başından götürdü. Bundan sonra səfirin halını soruşdu və daha sonra səfir müfəssəl söhbət etdi. Sonra İran şahının elə də çox olmayan hədiyyələri təqdim edildi. Fransanın şahı sonra səfir ilə müzakirə aparmaq üçün Fransanın yüksək məqamlı adamlarından bir neçəsini seçdi.

Səfir Fransada olduğu müddət ərzində çox şöhrət qazandı. Hər gün səhər onun azançısı uca səslə azan verir və görüşlərində İranın müxtəlif rəsmi adət-ənələrindən istifadə edirdi. Bunlar isə fransalılara çox maraqlı gəlir onların təəccübünə səbəb olurdu. Bunların hamısından daha təəccüblüsü isə bu idi ki, bir fransalı qız İranın səfirinə aşiq olmuşdu və yaşının on yeddi olmasına baxmayaraq İranın yaşı əllidən artıq olan səfiri ilə evləndi. Bu da çox tez yayılan xəbərlərdən biri idi.

Nəhayət tərəflər arasında müqavilə imzalandı və Məhəmmədrza bəy bir daha qoca Luyinin görüşünə getdi. Fransanın şahı bu dəfə İranın şahının qarşısında ayağa qalxdı. İndi qayıtmaq vaxtı idi. Amma səfir Parisə vurulmuşdu. O orada çox qalmışdı. Buna görə də məcbur oldu ki, qayıtmaq xərcləri üçün çoxlu pul borc alsın. Maraqlıdır ki, o artıq hamilə olan on yeddi yaşlı məşuqəsini də qızın anasının və fransalı məmurların narazılığına baxmayaraq gizlincə özü ilə İrana gətirdi. Səfir qayıdarkən yolda oğrulara əsir düşdü və saysız-hesabsız müsibətlərə qatlaşaraq bir il yarımdan sonra İrəvana çatdı. Fransa şahının hədiyyələrini xərclədiyi üçün vətəndə üzü olmayan səfir orada özünü öldürdü və onun artıq on səkkiz yaşı olan və səfirdən bir uşağı olan fransalı yoldaşı on dördüncü Luyinin məktubunu İsfahanda Səfəvilərin sarayına çatdırdı. Şah bu məktubun cavabını h.q. 1134-cü ildə yəni öz səltənətinin son ilində yazdı.

Məhəmmədrza bəyin Fransadakı sərgüzəştləri o qədər yayılmışdı və mədəniyyətlərin fərqliliyi və səfirin özünün bəzi xüsusiyyətləri səbəbindən o qədər fransalıların təəccübünə səbəb olmuşdu ki, Monteskiyu da öz əsərində onun barəsində danışıb.

## *ŞAH SULTAN HÜSEYN VƏ ONUN ƏTRAFINDAKI SARAY ƏYANLARI*

Bütün bu müddət ərzində Şah Sultan Hüseyn cari işlərlə məşğul olur və İsfahandan çox nadir hallarda çıxırdı. Onun İsfahandakı vaxtı hərəmxanada ya da Fərəhabad sarayında keçirdi və onun vaxtı orada görüşlər keçirməklə, bayram və şənlik mərasimləri qurmaqla və bəzən də müxtəlif vəzifələri həvalə etmək və xələt vermək üçün ümumi mərasimlərdə iştirak etməklə keçirdi. Adətən saray adamlarının ağzından və ya adi camaatdan eşidilən səfərnamə mənbələri şahı qeyri-kafi şəxs kimi qiymətləndirir və onun hərəmxanaya çox meyilli olduğunu bildirirlər.

Şahın vaxtını necə keçirməsinin nümunələrindən biri belədir ki, o h.q. 1107-ci ilin əvvəlində beş ay neçə gün Səadətabad bağında qalıb və oradan Hezarcərib bağına gedib. Bundan sonra da «gəzinti və ov məqsədi ilə böyük təmtəraq və dəbdəbə ilə» hərəkət edərək Kumə bağında məskunlaşıb.

Onun hakimiyyəti dövründə saray adamları daha çox mal əldə etməyə və daha yüksək məqama sahib olmağa çalışırdılar. Hər il «şahın nəvazişləri və lütflərinə şamil olan» bu adamların siyahısı hadisələri qələmə alan şəxs tərəfindən qeyd edilirdi. Əlbəttə bu qəbildən olan mərasimlər ikinci Şah Abbasın zamanından daha çox rəvac tapdı. Bunun da səbəbi o idi ki, həmin zamanlarda xarici müharibə problemləri az olurdu və baş qatmaq üçün məşğuliyyətlər də daim artmaqda idi.

Çox təmtəraqlı və eyni zamanda çox xərc aparan şənliklərin keçirilməsi İran saraylarının adətlərindən olub və camaat da «dünyanı işıqlandıran şamlarla həmin mübarək bayramlara» üz tutmalı və orada iştirak etməli idi. Həmin mərasimdə diqqəti cəlb edən məsələ «yüksək məqam sahibi olan əmirlərin iştirakı» idi ki, onların hamısı «ali fərmana uyğun olaraq çiyinlərini qızıl saplardan toxunmuş parçalarla bəzəyirdilər». Amma bu əmirlərin narahatçılıqlar müqabilində nə qədər güclü olmaları ən az ümid bəslənilən bir məsələ idi.

İnsafsızlıq olmasın deyə qeyd etmək lazımdır ki, Mirzə Əbu-Talib Mirfəndrskinin «Töhfətul-aləmin» kitabında yazdığına əsasən şah süvarilik və atıcılıqda nəzərə çarpacaq məharətlərə malik olub.

Həmin dövrdə sarayda çoxlu xacələr olub və işlərin kələfi xüsusilə maliyyə məsələləri onların əlində olub. Şahın işlərin idarəçiliyində zəifliyi səbəbindən onlar qəbul edilmiş qərarlara müdaxilə edirdilər. Adətən övladdan məhrum olan həmin şəxslər çoxlu sərvət toplayır və onları səfərlərdə, xüsusilə həcc səfərində israfçılıqla ölkədən çıxarırdalar. «Vəqaiyus-sinin» kitabının müəllifi Mahmud Nazirin Dədəxatunla birlikdə olan həcc səfərinə, eləcə də hərəmxananın ağsaqqal xacəsi olan Səadət Naminin və digər bəzilərinin həcc səfərlərinə toxunaraq yazır: «Təxminən belə deyilir ki, həmin ildə bu səfərin xərcləri üçün İrandan yüz min tümən pul çıxdı.»

Şahın çox xərcli səfərlərinin digər bir nümunəsi onun h.q. 1119-cu ildə Məşhədə olan səfəridir ki, bəzi mənbələr inandırıcı olmayan şəkildə onunla birlikdə olanların sayının altmış min nəfər olmasını yazıblar. Həmin dəstə İsfahandan Quma və oradan da Məşhədə gedib. Bəzi xarici müşahidəçilər yazıblar ki, bu səfər nəinki xəzinənin boşalmasna hətta yol uzunu xalqa çoxlu ziyanlar dəyməsinə səbəb olub.

Əlbəttə, əgər vəziyyət təbii axarı ilə getsəydi Şah Süleymanın dövranı da əvvəlki kimi keçərdi. Lakin fərq burasında idi ki, bu dəfə kənardan bir düşmən hücum etdi və yarımcan Səfəvi dövlətini aradan apardı.

## *SULTAN HÜSEYNİN ZAMANINDA ŞEYXUL-İSLAM VƏ MOLLABAŞI*

Bundan öncə qeyd edildi ki, ikinci Şah Abbasın zamanından Səfəvi şahlarının alimlərlə əlaqəsi çoxaldı. Şah Süleyman və onun oğlu Sultan Hüseynin zamanında Səfəvi sarayında alimlərin iştirakının və onlara xüsusi ehtiram göstərilməsinin şahidiyik. Bu iki nəfər alimlərə xüsusi hörmət qail olublar. Bu dövrdə bəzi ikinci dərəcəli alimlərin tənqidi yanaşmaları istisna olmaqla dövlətlə böyük alimlər arasında keçmişdə olduğu kimi heç bir ixtilaf və düşmənçilik müşahidə edilmir.

Dediyimiz kimi şiə alimləri ümumilikdə bu dövlətin mövcudluğundan razı və məmnun idilər. Əlbəttə onda olan çatışmamazlıqların aradan qaldırılması üçün də hər cür səylər göstərirdilər. Onların çoxu bu dövlətin var-dövlət və zinətinin əsiri olduqları üçün, ehtimal etmək olar ki, bu səbəbdən pərhizkarlıq əxlaqından uzaqlaşmışdılar.

H.q. 1110-ci ildə Əllamə Məclisi vəfat etdikdən sonra şeyxul-islam məqamı Molla Məhəmmədcəfər Qazıya həvalə edildi. Həmin zamanda ondan və bir sıra bəzi alimlərdən başqa iki fəqih və alim daha çox məşhur

idi. Onlardan biri Ağacamal Xansari (h.q. 1122) digəri isə Məhəmmədbaqir Xatunabadi (h.q. 1127) idi. Bu iki alimin Şah Hüseyn ilə əlaqələri çox səmimi idi və onların yazdıqları çoxlu əsərlərin böyük hissəsi şahın istəyi ilə olub.

«Vəqaiyus-sinin» kitabında yazılıb ki, h.q. 1115-ci ilin Ramazan ayında Mirsaleh Xatunabadi (h.q. 1116) və onun oğlu Mirməhəmmədbaqir iftarda şahın qonağı olublar və «şah yeddi saata yaxın onlarla söhbət edib». Şah həmin məclisdə Mirməhəmmədbaqirdən «namazın məsələlərini soruşub» və ondan namazın vacibatı barəsində kiçik bir risalə yazmasını istəyib. Həmin ayın iyirmi yeddisində Mirməhəmmədbaqir yenə də şahın qonağı olub və onun istəyi ilə dua barəsində bir risalə yazmağa başlayıb. Şah ondan həm də Məcməul-bəyan təfsirini fars dilinə tərcümə etməsini istəyib.

Şeyxul-islam molla Məhəmmədcəfər h.q. 1115-ci ildə həcc səfərində Nəcəf yaxınlığında vəfat etdikdən sonra şah Mirməhəmmədbaqir Xatunabadidən şeyxul-islam məqamını qəbul etməsini istədi. Lakin o bu məqamı qəbul etmədi. Həmin məqam ondan sonra Ağacamal Xansariyə təklif edildi. Amma o da qəbul etmədi. Nəhayət şeyxul-islamlıq Ağa Camalın ifadəsi ilə desək «heç biri müctəhid olmayan və şəriət baxımından layiq olmayan» bir neçə alimin arasından Mirməhəmmədsaleh adlı bir alimə həvalə edildi. Həmin dövrdə belə bir məqamdan imtina etmək «mərdliyin kamilliyi, himmət və dindarlıq» nişanəsi hesab edilirdi. Məsələn bu eyni ilə Seyid Həbibullah Sədrin nəvəsi Mirzə Seyid Məhəmməd kimi qazının barəsində «çox yaxşı hərəkət edir, özünü rüşvət almağa və bu kimi şeylərə aludə etmədi» deyilməsinə oxşayırdı.

İkinci və ya üçüncü dərəcəli bir alimin şeyxul-islamlıq məqamına təyin edilməsi həmin məqamın özünün əsas mövqeyini itirməsinə səbəb oldu. Onun kənarında Mirməhəmmədbaqir Xatunabadi və Ağa Camal və bir çox digər alimlər var idilər. Şah Xatunabadi ilə əlaqələrini çox səmimiləşdirmişdi və ona «Zübdətul-üləmail-mütəbəhhirin»[1] ləqəbi verib, onu özünün xüsusi adamlarından etmişdi. Vəqaiyus-sinin kitabında şahın Xatunabadi ilə münasibətləri, onun elmindən bəhrələnməsi, onu Məşhəd səfərində özü ilə aparması və «bütün yol boyu o alimlik nişanəsi ilə, söhbət etməsi» barəsində çoxlu məlumatlar mövcuddur. O yazır: «Şərəflilərin canişininin o alimlik nişanəsi ilə eləcə də o ustadın şərəflilərin canişini ilə rəftarı müəllim-şagird rəftarı idi.»

---

[1] dərin bilikli alimlərin ən seçilmişi

H.q. 1116-1118-ci illər arasında Çaharbağ mədrəsəsi tikildi və bundan sonra, iki-üç il onun bəzək və kaşı işləri davam etdi. Nəhayət h.q. 1121-ci ilin Rəcəb ayında həmin mədrəsə rəsmi olaraq açıldı. Xatunabadi bu mədrəsənin müəllimi təyin edildi və o, ehtiram üçün Ağa Camaldan dərsə onun başlamasını istədi. Bundan sonra o özü dərsi davam etdirdi.

Həmin müddət ərzində qarşıya müşkül çıxmışdı və o, bundan ibarət idi ki, şeyxul-islamlıq məqamının Məhəmmədsalehin ixtiyarında olmasına baxmayaraq, şah tərəfindən ən savadlı alim Məhəmmədbaqir Xatunabadi hesab edilirdi. Bu da şeyxul-islam üçün dözülməz idi. Bu səbəbdən və «elm əhlinin sərkərdəsi və onların hamısından qabaq olmağa» israr etdiyi üçün şeyxul-islamlıqdan kənarlaşdırıldı. Hərçənd ki, həmişə olduğu kimi saray adamlarından birinin vasitəçiliyi ilə «şərəflilərin canişini onun təqsirindən keçdi». Bununla belə şah şeyxul-islamlıqdan yuxarı bir məqam yaratmağı lazım bildi. Vəqayius-sinin kitabının yazdığına əsasən h.q. 1124-ci ildə «şərəflilərin canişini yüksək məqamlı şah zəmanənii müctəhidi əlahəzrət Mirməhəmmədbaqirin – səlləməhullah – bütün alim və şərəflərin başçısı olması göstərişini verdi. Şahın məclisində heç kəs oturub-durmaqda şaha zamanın müctəhidindən qabaq ola bilməzdi.» Səfəvi dövlətinin son illərində yazılmış «Təzkirətul-muluk» kitabında mollabaşı məqamının yaradılması barəsində belə yazılıb:

**Şah Sultan Hüseynin dövrünün sonlarında müasiri Ağa Camaldan aşağı olan Mirməhəmmədbaqir adlı bir fəzilət sahibi, mollabaşı rütbəsinə yüksəldi və şahla yoldaşlığa yaxınlaşıb Çaharbağ mədrəsəsinin əsasını qoydu. O özü həmin mədrəsənin müəllimi oldu və halal şəri pulların alınıb-verilməsi ilə də məşğul olurdu.**

Molla Məhəmmədbaqir Xatunabadi şah tərəfindən tamamilə himayə edilirdi. Maraqlıdır ki, h.q. 1127-ci ildə bir dəstə ona qarşı çıxaraq onu buğda, un və çörəyin bahalaşmasının səbəbkarı hesab edirdi. Hətta bir dəstə onun evinə tökülüb onun evinin qapısını yandırmışdı. Həmin hadisələr baş verən vaxt nə şah və nə də dövlət adamları onu elə də himayə etmədilər. Hətta onu qorumaq üçün göndərilən şəxslər özləri mollabaşının evini qarət etdilər. Başqa bir dəfə isə qarətçiləri evdən çıxartdılar, amma bütün digər işlərdə olduğu kimi araşdırma aparıb məsələni dəqiqləşdirmədən onun kənarından ötüb keçdilər. Şah Sultan Hüseynin xüsusiyyətlərini tanımaq üçün maraqlı nöqtələrdən biri budur ki, Vəqaiyus-sinin kitabının müəllifi bu hadisəni nəql etdikdən sonra belə yazır: «Dövranın qəribəliklərindən biri budur ki, padşah nəinki kimisə buna görə cəzalandırmadı, heç bu məsləyə

qətiyyən əhəmiyyət də vermədi və heç kəsdən bu əhvalatın nə olmasını soruşmadı.» Bu, şahın illər uzunu İsfahan alimlərinin ən üstünü hesab etdiyi, gecə-gündüzünü bir yerdə keçirdiyi və aralarında çox səmimiyyət olan bir şəxslə davranışı idi.

H.q. 1127-ci ildə Seyyid Məhəmmədbaqir Xatunabadi vəfat etdikdən sonra Molla Şahməhəmməd Təbrizinin oğlu Məhəmmədhüseyn Təbrizi adlı bir alim mollabaşı təyin edildi və o, İsfahan əfqanlar tərəfindən zəbt edilən günlərə kimi həmin vəzifəni daşıdı.

Səfəvi dövlətinin son günlərinə kimi həmin dövlətdə məqam sahibi olmuş şəxslər ibarətdirlər: Mollabaşı Məhəmməd Hüseyn Təbrizi; etimadud-dövlə Fətəlixan. Korluq və vəzifəsindən kənarlaşdırıldıqdan sonra Məhəmmədquluxan Şamlı onun yerinə təyin edilib. Mirzə Məhəmmədəmin oğlu Seyyid Məhəmməd İsfahanın şeyxul-islamı olub. Məhəmmədbaqir Xatunabadinin bir oğlu Mirməhəmməd İsmayıl «Came Abbasi» məscidinin müəllimi, digər bir oğlu Mir Seyyidməhəmməd isə Çaharbağ mədrəsəsinin müəllimi olub.

## *ŞAH SULTAN HÜSEYN SƏFƏVİNİN DÖVRÜNÜN TARİXİ BİNALARI.*

Şah Sultan Hüseynin dövründə Səfəvilərdən qalmış sərvətlər özünün ən yüksək həddində olduğu üçün, mədrəsə və saray kimi mühüm binaların tikintisi və məscid, ibadətgah və qəbristanlıqların abadlaşdırılması işi xüsusi rövnəq tapmışdı. Bu bina və tikililərin maliyyə mənbələri Şahın razılığı olan təqdirdə onun abadlıq xəzinəsindən təmin edilirdi. Bundan əlavə hərəmdəki qadınlar, xacələr və digər əyan-əşrafın ixtiyarında olan sərvət, bu binaların tikilməsinə sərf edilirdi.

Şah, özündən qabaqkı bəzi Səfəvi şahları kimi əvvəlcə özünün xüsusi evi kimi yeni saray tikməyə çalışdı. Bu imarətin binası Şah Sultan Hüseynin səltənətinin ilk illərində sona çatdı. Əlbəttə onun yeri və adı barəsində əlimizdə çox məlumat yoxdur. Əlimizdə olan təkcə Mirzə Məhəmmədülya Nəsrabadi adlı şairin həmin imarət barəsində dediyi şerdir ki, ondan həmin binanın əzəmətli olması, qapı-pəncərəsində gözəl bəzəklərin, zərif ayinə işlərinin və maraqlı rəsmlərin olması məlum olur. Onun ətrafında suyun axaraq dövr etməsi üçün arxlar planlaşdırılıbmış. O, həmin binanın divarında olan bir aşiq rəsminin vəsfində belə deyir:

*Ze aşeq surəti hər ca keşide*
*Cəhani ğutəvər dər abe dide*
*Ze simayəş əyan əfqano-zari*
*Çu bər ruye həva əbre bəhari*
*Çu əncüm bər fələk peyvəste səyyar*
*Be hər üzviyəş dağe rəşke əğyar*
*Nemude ellət xun cegər ra*
*Keşide mədde ahe bi əsər ra*

**Yəni: harda aşiqin rəsmi çəkilibsə o göz yaşına qərq olmuş bir dünyadır; onun üzündə havada bahar buludu aydın olan kimi fəğan və naləsi əyandır; ulduz kimi daim göydə seyrdədir, hər üzvündə yadların paxıllıqlarının dağı var; xəstəlik ciyəri qan edib, təsirsiz ahın uzunluğunu çəkib.**

Həmin dövrün ən gözəl tarixi binalarından biri İsfahanın Çaharbağ mədrəsəsidir ki, öz növündə bütün cəhətlərdən misilsizdir. Bu mədrəsəni Sultani mədrəsəsi və Madərşah mədrəsəsi də adlandırırlar. Mədrəsənin tikintisi h.q. 1116-cı ildə abadlıq xəzinədarı və ya bu günki dillə desək maliyyə naziri Ağa Kamalın nəzarəti altında başlandı və onun əsas binası h.q. 1118-ci ildə sona çatdı. Bundan sonra onun kaşı işləri və digər bəzək işlərinə başladılar və «Fəraidul-fəvaid» kitabının yazdığına əsasən h.q. 1121-ci ilin Rəcəb ayında, bəzi mənbələrin yazdığına görə isə h.q. 1122-ci ildə açılışı oldu. Həmin məclisdə demək olar ki, bütün saray adamları və görkəmli alimlər iştirak ediblər. Xatunabadi və Xansaridən başqa digər alimlər ibarət idilər: Fazil Hindi, Mühəqqiq Səbzivarinin oğlanları Məhəmmədcəfər və Məhəmmədrza, İsfahanın şeyxul-islamı Məhəmmədsaleh, Xatunabadidən sonrakı mollabaşı Məhəmmədhüseyn Təbrizi və digərləri. «Vəqaiyus-sinin» kitabının yazdığına əsasən «Səfəvi dövlətində belə bir yığıncaq olmamışdı».

Burada həmin dövrün alimlərindən olmuş və həmin mədərəsənin açılışının şahidi olmuş Məhəmmədzaman adlı alimin sözlərini nəql etmək yerinə düşərdi. O yazır:

**Keçən il ki, 1121-ci hicri ili idi, cümə axşamı günü Rəcəb ayının onu möhtərəm tələbələrə zamanın fəzilət sahiblərinin ən üstünü və dövranın alimlərinin ən böyüyü Məhəmmədbaqir Hüseyni Xatunabadinin təsdiqi ilə yüz əlli altı hücrəsi olan yer verildi. Onların hər birinə layiqli pay və**

**öz miqdarında mərhəmət edilərək bir-birindən üstün olan cənnətlərdə yerləşdirdilər. Hörmətli tələbələrin hər birinin gündəlik xərclərini və vəqf olunmuş kitablar, xalçalar, zəruri qab-qacaq və digər lazımı şeylərə ehtiyaclarını mərhəmət etdilər ki, onlar rahat fikir və rifah içində dini elmləri öyrənməklə və əbədiyyətə qovuşan dövlətə dua etməklə məşğul olsunlar.**

Binanın özündən əlavə bu mədrəsəninin üzərində çoxlu ayələr, hədislər və şerlər yazılmış gözəl kaşı işləri, bu əsəri Səfəvi dövrünün ən gözəl tarixi binalarından biri edib. Bu mədrəsənin əsasən h.q. 1119-cü ildən başlayan və bəziləri h.q. 1126-cı ilə kimi davam edən xəttatlıq işləri Əbdürrəhim Cəzayiridən, Əbdüllətif Təbrizidən və həmin dövrün digər bəzi xəttatlarındandır. Şerlərin çoxunda Şah Sultan Hüseynin və Ağa Kamalın adları görünür. Onların nümunələrindən biri budur:

*Be əhde doləte Sultan Hüseyn şahe cəvan*
*Ke əz ədaləte u gəşt molke din abad*
*Xodayeqane səlatine dəhr kəz səre sidq*
*Kəmine bənde dərgahe u Cəm əst-o Qubad*
*Be Çarbağe Sifahan be rənge həşt beheşt*
*Benaye mədrəse kərd həmçu səb şidad*
*Ze sedq bovəd çun Ağa Kamal sərokarəş*
*Şodəst mənzele əhle kamal- istedad.*

**Yəni: Ədalətindən din evi abad olan gənc şah Sultan Hüseynin hakimiyyəti dövründə; dünya sultanlarının böyükləri sidqi-qəlb ilə onun qapısının qullarıdırlar ki, onların ən aşağısı Cəmşid və Qubaddır, İsfahanın Çaharbağında səkkiz behişt rəngində çox möhkəm və uca bir mədrəsə tikdi; Ağa Kamalın işləri düzlük əsasında olduğu üçün kamal və istedad mənzili olub.**

Bu mədrəsənin kitabələrində Əəhli-beytin (ə) fəziəltləri, təlim-tərbiyə məsələləri barəsində olan çox gözəl hədislər, ayələr və şerlər təlim-tərbiyə mərkəzində məfhumların təlqin edilməsi, münasib mühitin yaradılması və mənəvi ruhun diri saxlanılmasında memarlıqdan nə qədər istifadə etməyin mümkünlüyünü göstərir.

Şah Sultan Hüseyn arabir gedib mütaliə ilə məşğul olmaq üçün orada özü üçün də bir hücrə götürmüşdü. Bu günə kimi qalan həmin hücrənin quruluş və şəkili, digər hücrələrdən fərqli olaraq şaha məxsus və gözəldir.

Bu mədrəsənin xərclərinin təmin edilməsi üçün bir sıra vəqflər müəyyənləşdirilmişdir ki, onların siyahisi çox uzun bir vəqfnamədə qeyd edilmişdir. Bu vəqfnamənin mətni İsfahanın vəqflərinin tarixçəsi kitabında yüz qırx səhifədən artıq bir həcmdə çap edilmişdir. Bu vəqfnamənin ən mühüm hissələri vəqf ərazi və kəndlərinin yerlərinin vəsfidir ki, mədrəsənin əsas gəlir mənbəyi oradan təmin edilməlidir. Bundan əlavə həmin mədrəsə üçün bir kitabxana da tədarük görülüb ki, onun üçün də məxsus bir vəqfnamə hazırlanıb. Biz başqa bir yerdə ona işarə edəcəyik.

Çaharbağ mədrəsəsinin tikilməsinə nəzarət edən Ağa Kamal özü də öz şəxsi pulu ilə İsfahanın Abbasabad məntəqəsində Sultan Hüseyniyyə adlı bir mədrəsə tikdirib ki, ondan bu gün mədrəsənin adı və tikilmə tarixi yazılan qapısının kaşılarından başqa kiçicik bir nişanə belə qalmayıb. Həmin kaşı da başqa yerdə saxlanılır. O bu mədrəsə üçün bir vəqfnamə də yazdırıb ki, onda onlarla kənd və dükanın adı çəkilir ki, mədrəsənin xərcləri həmin yerdən təmin edilməli imiş.

Həmin dövrün mədrəsələrindən digər biri Şah Səfinin qızı Məryəmbəyim mədrəsəsi olub ki, o, həmin mədrəsəni h.q. 1115-ci ildə tikdirib. Bu mədrəsə də Səfəvilərin digər mədrəsələri kimi dağıdılıb və onun yerinə məktəb tikilib. Bu mədrəsənin qapısının Əlinağı İmaminin xətti ilə yazılmış kitabəsi indi də qalır və onda mədrəsənin banisi kimi Məryəmbəyimin adı yazılıb. Orada digər bir kitabə də tapılıb ki, mədrəsənin kitabəsi onun üzərinə həkk olunub. Bu vəqfnamədə maraqlı cəhət budur ki, orada fəlsəfi kitabların tədrisi qadağan edilib. Əlbəttə Məryəmbəyim mədrəsəsi dağılıb sıradan çıxmış yeganə mədrəsə deyil. Tarixi mənbələrdə Həft mədrəsə adlı məcmuənin adı çəkilib ki, «onların dağılmış əraziləri Çərxab məhəlləsinin yaxınlığında olub və ora dörd tərəfdən rəsm əsərləri ilə bəzədilməsi ilə məşhur olub. Onların bəzilərinin adı ibarətdir: Dədəxatun mədrəsəsi, İsfandiyarbəy mədrəsəsi, Zeynəbbəyim mədrəsəsi və Pərixan xanım mədrəsəsi.»

Şah Sultan Hüseynin hakimiyyəti dövrünün mədrəsələrindən digər biri İsfahanın Nimavərd mədrəsəsidir ki, bu günə kimi qalmaqdadır və onun vəqfnaməsi də mövcuddur. Həmçinin Cəlaliyyə mədrəsəsi də həmin dövrün binalarındandır ki, h.q. 1114-cü ildə Cəlaləddin Məhəmməd adlı bir şəxs tərəfindən tikilib və bu günə kimi qalır.

Bunlardan əlavə Nəqşcahan meydanının arxasında – cənub şərqində – imamzadə Əhmədin məzarı üzərində də bir bina tikilib. Həmçinin

imamzadə İsmayılın binasında da əsaslı təmir işləri aparılıb. Qeyd etmək lazımdır ki, həmin dövrdə bu cür təmir işlərindən çox aparılıb.

Həmin dövrün tarixi binalarından digər biri də İsfahanın Səffə dağının ətəyində olmuş Fərəhabad sarayıdır ki, sadə olmasına baxmayaraq çox geniş bina olub. Şah əmir və əyanlara da göstəriş vermişdi ki, hər biri bir yer götürüb orada bağ salıb saray tiksinlər. Şah ilin bir hissəsini Fərəhabada gedir və qonaqlarını da orada qəbul edirdi. Əfqanların İsfahanı mühasirə edərkən ilk olaraq ələ keçirdikləri həmin bina sürətlə xarab olmağa doğru gedib və bu gün ondan heç nə qalmayıb.

Şahın abadlıq işlərinin digər bir hissəsi də İsfahanın Came-ətiq məscidində olub. Təqribən demək olar ki, Səfəvi şahlarının bir-iki nəfərini çıxmaqla hamısının bu məsciddə nişanələri qalmışdır. Bu məscidin ustad Siffənin yazdığı kitabələri, əsasən Şah Sultan Hüseyn Səfəvidən və h.q. 1112-ci ilə aiddir. Bu kitabələrdə olan şerlərdən məlum olur ki, həmin zaman sufilik öz rövnəqini tamamilə itirməsinə baxmayaraq şahı yenə də «xan» və «sufi» hesab edirlərmiş.

*An ke əmrəş ba «qəza» başəd «qədər»*
*Padşəh Sultan Hüseyn zille ilah*
*Mömine bi şobhevo dəsture-əhd*
*Xane aləm sufi yekrəng şah*

**Yəni: İşi Allahın qəzası ilə müqəddər olan kəs Allahın kölgəsi Şah Sultan Hüseyndir; barəsində şəkk-şübhə olmayan mömin və əhdin göstərişi, aləmin xanı birüzlü şahdır.**

## *ŞAH SULTAN HÜSEYNİN ZAMANINDA VƏQF İŞLƏRİ*

İndiyə kimi müxtəlif yerlərdə vəqflər barəsində danışmışıq. Şah Sultan Hüseynin dövründəki vəqflər barəsində qeyd edilməli məsələlərdən biri budur ki, həmin dövrdə vəqf işləri hədsiz dərəcədə geniş yayılıb. Başqa sözlə desək nə Səfəvilərin və nə də onlardan qabaqkı dövrlərin heç birində – bəlkə də Səlcuqların dövrü istisna olmaqla – vəqf işlərinin əhatə dairəsi belə geniş olmayıb. Lakin Səfəvilərin devrilmələri və əfqanların hakimiyyətə gəlmələri və ondan sonra İranın vəziyyətinin Qacara kimi qarmaqarışıq olması səbəbindən həmin vəqflərin çoxu aradan gedib.

Adətən həmin vəqflər mədrəsə, məscid, təkyə və karvansaraların, həmçinin başsız seyid ailələrinin və Nəcəf, Kərbəla, Məşhəd sakinlərinin

xərcləri üçün nəzərdə tutulurdu. Lakin bu son dövrlərdə vəqf edilmiş şeylərin çoxu Nəcəf-Kərbəla və Məşhəddə olan imamların məzarlarına sərf edilmək üçün edilirdi. Xüsusilə imam Hüseyn əleyhissəlamın matəm mərasimlərinin keçirilməsi və o imamın zəvvarlarının xərclərinin təmin edilməsi üçün çoxlu vəqflər edilirdi.

Maraqlı vəqflərdən biri də kitabların üzünün köçürülüb çoxaldılması üçün olan vəqfdir. Bu, İsfahanın əsilzadə və böyük hamamlarından biri olan Xosrovağa hamamı ilə bağlı olan vəqfdir. Həmin vəqfi edən şəxsin istəyi ilə bu hamamın gəliri yalnız kitabların üzünün köçürülüb çoxaldılmasına sərf edilməli imiş. Bu hamamın qəyyumu dövrün şeyxul-islamı olub. Hal-hazırda bir sıra kitablar mövcuddur ki, arxasında onların Xosrovağa hamamının gəliri ilə yazıldığı qeyd edilib.

Burada bir daş yazı nümunəsini eyni ilə nəql etmək istəyirik ki, onda vəqf edən şəxs, məscidi tikdikdən sonra ona ev və torpaq sahəsi vəqf edib. Bu məscidin adı Hacı Məhəmmədmehdi məscididir ki, İsfahanda Dərvişlər küçəsində Xacu məhəlləsində yerləşir. Hacı Məhəmmədmehdi onu 1107-ci ildə Şah Sultan Hüseynin zamanında vəqf edib.

**Bu məscidi Allahın lütfünə sığınan Hacı Məhəmmədrzanın oğlu iki şərafətli hərəmin xadimi Hacı Məhəmmədmehdi tikib və onun işıqlandırılması, döşənəcəyi və su çəkilişi üçün həmin məscidə birləşik bir evi və həmçinin məscidin təmiri və xidmətçiləri üçün o cümlədən Şəhristan kəndinə birləşik və Babul-hikmə kimi məşhur olan Mehrabadçı kəndinin yetmiş iki hissəsini vəqf etdi. Bunu dəyişdirən Allahın və Peyğəmbərin lənətinə gəlsin. Yazıldı: Mübarək Ramazan ayı, h.q. 1107.**

Bu vəqf edənlərin böyük bir hissəsi hədsiz sərvətləri olan və varisləri olmayan hərəm qadınları idilər. Onlar daha çox savab əldə etmək üçün məscid və mədrəsə tikməklə məşğul olurdular. Həmçinin sayları Səfəvilərin bütün dövrlərindən bu dövrdə daha çox olan hərəm xacələri bu vəqflərin baniləri idilər. Adətən övladı olmayanlar öz sərvətlərini həcc səfərinə, ziyarətgahlara ziyarət səfərinə və vəqflərə sərf edirdilər.

Bundan öncə Şah Sultan Hüseynin anasının və şahın özünün malı ilə tikilmiş Çaharbağ mədrəsəsinin vəqfnaməsinə işarə etdik. Lakin Ağa Kamal və ya Sultan Hüseyniyyə mədrəsələri ancaq sarayın malları illər uzunu əllərində olmuş bu hərəm xacəsinin malları ilə tikilmişdi. O öz mədrəsəsi üçün vəqfnamə yazdıraraq onda həmin mədrəsəyə bəzisi onun özü tərəfindən abad edilmiş və adı Ağa Kamal olan çoxlu kəndlər vəqf etmişdir.

Həmçinin Nəqşcahan meydanının ətrafında olan çoxlu dükanları həmin mədrəsəyə vəqf edib. Bundan əlavə vəqf edilmiş kənd və dükanlardan vergi alınmaması üçün Şahdan çoxlu fərmanlar alıb. Qeyd etmək lazımdır ki, sarayın bəzi əmir və əyanları ölümlərindən sonra mallarının müsadirə edilməməsi üçün onları xüsusi vəqf qismində öz övladlarına vəqf edirdilər. Həmin malların bu yolla vəqf adının alması dövlətin onları öz əlinə keçirməsinə mane olurdu. Belə olan halda həmin şeylərin gəliri o şəxsin ailəsinin əlində qalırdı.

Həmin dövrdə vəqf idarəsi dövlətin çox mühüm və doğrudan da ən çox gəlirli idarələrindən biri idi. Ümumi sədrlik və xüsusi sədrlik təşkilatları hələ neçə illər qabaqdan dövlətin və xalqın vəqflərinin qorunması məsuliyyəti daşıyırdı. Həmin sədrlər adətən seyid alimlərin arasından seçilirdi.

### *ALİMLƏR VƏ XAÇPƏRƏST MİSSİONERLƏR*

Şah Sultan Hüseyn Səfəvinin zamanında avropalıların get-gəlləri yenə də çox idi və Səfəvi sarayı ilə avropa ölkələrinin başçıları, həmçinin Vatikan təşkilatı arasında çoxlu yazışmalar olurdu. O cümlədən papa on ikinci İnosan Şah Sultan Hüseynə məktub yazaraq ondan icazə istədi ki, padralar[1] «sizin qüdrətinizə arxalanaraq böyük sevinclə öz işləri ilə məşğul olsunlar. Sizdən artıq dərəcədə xahiş edirik ki, adamlarınızı həzrət İsaya iman gətirmək üçün onların yanına gedən şəxslərə mane olmağa və onları incitməyə qoymayın, əksinə tam hədə-qorxu ilə onlara mane olanların ağır şəkildə cəzalandırılmalarını əmr edin».

Şahın ona yazdığı cavabda deyilir ki, İran şahı «nurani məzhəbin və peyğəmbərin parlaq şəriətinin yayılması ilə» məşğuldur. Buna görə də «ağılı olan hər bir kəsə vacibdir ki, təəssübkeşlik və nadanlıq olmadan insafla, agahlıq nuru və yəqin işığı ilə, dəlil və sübutla zamanın əməli düz haqq məzhəbini əldə etsin. Heç vaxt unudulmuş dinin kafirlərindən heç birini bu aydın dinə və gözəl əqidələrə məcbur etməmişik, xüsusilə xaçpərəst sultanların rəhbərlərinin və bütün başçılarının tapşıraraq riayət edilməsini umduqları keşiş və rahibləri ki, həmişə şahın mərhəmətindən bəhrələniblər və indi də bəhrələnməkdədirlər.»

Şahın bu cavabı ona işarə idi ki, xaçpərəst missionerlər İranda nəinki bir müvəffəqiyyət əldə edə bilməyiblər, hətta İrana gəlmiş keşiş və rahiblərin

[1] xaçpərəst alim, missioner

bir dəstəsi İslamı qəbul ediblər. Şarden xaçpərəst missionerlərin İrandakı uğursuzluqları barəsində yazır:

**Xaçpərəst missionerlərinin çoxu, xüsusilə equstinlər səfər etdikləri ölkənin əhalisinin dilini öyrənməyə meylsizdirlər və mənim tanıdığım səksən nəfərin arasında üç-dörd nəfər İran alimləri ilə mübahisə və söhbət edə bilib. Onlar da sədaqətlə etiraf ediblər ki, iranlılarla mübahisə etməkdən bir nəticə əldə etməyiblər və əbəs yerə zəhmət çəkiblər.**

Hələ məsələ bundan da dərinə gedib və bildiyimiz kimi xaçpərəstlərin İsfahandakı mühüm ibadətgahlarnın başçılarından ikisi İslamı qəbul ediblər və Vatikanın qəzəblənməsinə səbəb olublar. Onların biri Antonyo Dojzo idi ki, İrana Portuqaliyadan gəlmişdi və neçə il idi ki ibadətgahların birinin başçısı kimi fəaliyyət göstərirdi. Bundan əlavə, Antonyonun başçısı olduğu ibadətgahın keçmiş başçısı da müsəlman olmuşdu. Onun özü də tədricən İslamı qəbul etdi və adını dəyişdirərərk Əliqulu Cədidul-İslam qoydu. Sonra xaçpərəstliyin əleyhinə bir neçə kitab yazdı. Onun kitablarından biri «Hidayətuz-zallin və təqviyətul-möminin» kitabıdır ki, onu Şah Sultan Hüseynə təqdim edib.

Onun kitablarından digər biri «Seyful-möminin fi qitalil-muşrikin»dir ki, Tövratın ilk əlli bölməsi çərçivəsində xaçpərəstlərin keçmiş peyğəmbərlər barəsindəki nəzər və fikirlərini tənqid etmişdir. O bu kitabında iranlıları xaricilərə həddindən artıq hörmət göstərdikləri üçün məzəmmət etmişdir. O, həmçinin xaçpərəstlərin İranda bir nailiyyət qazanmamalarına toxunaraq Şahdan və saray adamlarından onların şəhərdən çıxarılmalarını istəyir. Çünki İncildə deyilir ki, təbliğatçılar hansı şəhərə gedib orada bir uğur qazana bilməsələr, həmin şəhərdən çıxanda hətta əgər həmin şəhərin toz-torpağından onların paltarlarına bir şey oturubsa onu özlərindən uzaqlaşdırsınlar. O dövlətdən istəyir ki, «onları İran torpağından çıxarsın və onlar bütün şəhərlərdən çıxarıldıqdan sonra səhrada onları uzadaraq onlara yüz və ya ondan da artıq çubuq vursunlar» ki, İncilin göstərişinə uyğun əməl edilərək onların toz-torpaqlarını çırpmış olsunlar.

Bu barədə atılmış digər bir addım İncilin fars dilinə dəqiq tərcümə edilməsidir. Həmin dövrün məşhur alimi, Çaharbağ mədrəsəsinin ilk müəllimi və Şah Sultan Hüseyn Səfəvinin ilk mollabaşısı Molla Məhəmmədbaqir Xatunabadi (h.q. 1127) o dövrdə İncilin İsfahana gətirilmiş nüsxəsi əsasında onu dəqiq tərcümə etdi. Xatunabadi özünün tərcümə etdiyi İncilin müqəddiməsində bu tərcümənin necəliyi barəsində

izahlar verib və elm pərəstişkarlarını İncilin mətni ilə tanış etməkdə olan məqsədini açıqlamışdır. O həmçinin bu işi Şah Sultan Hüseyn Səfəvinin istəyi ilə yerinə yetirdiyini xatırlatmışdır. Xatunabadi tərcümədən əlavə İncildə olan bəzi məsələləri tənqid də edib. O, özünün yazdığı geniş haşiyədə Məta, Merqis, Luqa və Yuhanna incilləri arasındakı ziddiyyətlərə toxunmuşdur.

## *SƏFƏVİLƏRİN DÖVRÜNDƏ KİTAB VƏ KİTABXANA*

Dünyada mədəniyyətin mühüm göstəricilərindən biri kitab və mütaliyəyə əhəmiyyət verməkdir. İslam mədəniyyəti bu məsələyə çox əhəmiyyət verir. İslam dünyasında minlərlə böyük və kiçik kitabxana ilə birlikdə saysız-hesabsız yazılı əsərlərin yaranması bu diqqətin göstəricisidir.

Səfəvilərin dövründə kitab məsələsi iki cəhətlidir. Onun bir cəhəti təqdirə layiq, digər bir cəhəti isə təəssüf doğurandır. Bu əzəmətli dövrdə İsfahan, Məşhəd, Təbriz, Qəzvin və bir çox digər şəhərlərdə minlərlə katib kitabların üzlərinin köçürülməsi ilə məşğul olub. Onlar özlərinin istifadəsi üçün və ya başqalarının istəyi ilə yazılı əsərləri köçürməklə məşğul olurdular. Katib kitabın üzünü köçürürdü və sonra həmin kitab hansısa bir alimin ya vəzirin və yaxıd şahın şəxsi kitabxanasına, ya da bir mədrəsənin kitabxanasına qoyulurdu. Həmin nüsxə məhdud olduğu üçün hər an məhv olmaq təhlükəsi qarşısında idi. Ümumiyyətlə səfəvilərin dövründə kitab istehsalı elə bir vəziyyətdə idi ki, kitab hazır olduqdan sonra hər an rahatlıqla məhv olmaq təhlükəsi ilə üzləşdiyi kimi rahatlıqla hamının ixtiyarında ola bilmirdi. Vəziyyətin belə olması bu dövrdə mədəniyyətin inkişaf və tərəqqisi yolunda bir maneə hesab edilirdi.

Əslində Səfəvi dövləti özündən qabaq olan durğun kitab istehsalı işində, yəni kitab yazılması və ya onun üzünün köçürülməsində ciddi hərəkətə başladı. Şiə kitablarının çoxu İraq, Cəbəl Amil, Bəhreyn və hətta Hindistandan İrana gətirildi və bəzi elmlərdə yeniliklər yarandı. Buna baxmayaraq iş, kitabın üzünün köçürülməsi həddindən qabağa getmədi. Bu dövrdə kitabların üzlərinin köçürülməsi işi xüsusilə İsfahanda hədsiz dərəcədə çox geniş şəkil almışdı. Həmin dövrdən yerdə qalmış əsərlər həmin zaman bu yolda nə qədər enerji sərf edilməsini göstərir.

Bununla belə həmin dövrdə avropada müxtəlif kitab növlərinin çap edilməsinə baxmayaraq bizə məlum olmayan səbəblərdən həmin çap sənayesinin İrana gətirilməsinə azacıq da olsun səy göstərilmirdi. Şarden bu barədə yazır:

**Digər şərq ölkələri kimi iranlıların çapxanaları yoxdur və onlar bu faydalı sənaye sahəsinə əhəmiyyət vermirlər. Onlar deyirlər ki, İranın havası quru olduğu üçün burada kağızın sınmasından və davam gətirməməsindən əlavə o, çapxanadan istifadəni də çətinləşdirəcəkdir. Buna görə də onlar kitabların üzünü köçürmək və əlyazmalara malik olmaqla kifayətlənirlər. Təbii olaraq elmi sevdikləri üçün yazı yazmaq və kitabın üzünü köçürmək sənəti burada çox tərəqqi edib və bu iş, incəsənətin sıralarına daxil olub.....Əlyazma kitabların qiyməti bizim çap kitablarının qiymətinə nisbətdə baha olmasına baxmayaraq əlyazma kitablar İranda həm kifayət qədər mövcuddur və həm də onların qiyməti baha deyil. Lakin müəlliflərin kitabları çox az tapılır. Buna görə də onu istəyən gərək həmin kitabın yazılmasını kitab üzü köçürənlərə sifariş versin.....hər halda kitabın bahalığının və az tapılmasının elm və mədəniyyətin yayılmasına nə qədər mane olduğunu və tədqiqatçıları mütaliədən və yeni elmi və əqli kəşflərdən saxlamasını asanlıqla başa düşmək olur…Mənə İsfahan sarayında dəfələrlə təklif ediblər ki, İrana bir neçə çapxana gətirim və onların birini İsfahanda qurub işə salım. Əgər ikinci Şah Abbas diri və şah olmuş olsaydı bu iş çox asanlıqla və tez bir zamanda gerçəkləşərdi. Lakin onun oğlu və canişini bu mühüm işin marağında deyil, alimlər və xeyirli fikir sahibləri onu bu işə hər nə qədər həvəsləndirdilərsə, bir faydası olmadı.**

Yaxşı olar ki, burada Rəfail Dumanın h.q. 1057-ci ildən h.q. 1108-ci ilə kimi İranda olmuş atasının Səfəvilərin dövründə kitabın vəziyyəti barəsindəki bəzi qeydlərini oxuyaq. O, saray kitabxanası barəsində yazır:

**Saray təşkilatında qətiyyən nizam-intizam yoxdur. Buna görə Şahın kitabları da kitabxana adlandırılan bir yerdə nizam-intizamsız sandıqların içinə tökülüb və heç bir rəfdə heç bir qayda əsasında nizama salınmayıb. Bu, bizim diyarda olanların tam əksinədir. Nəticədə marağı olan və axtarış aparan şəxslər asanlıqla istədikləri kitabı tapa bilmirlər.**

O, çap sənayesi barəsində yazır:

**Bunlar, sayəsində elmlər parlayan və müəllifin məşhurluğunun əsas səbəbkarı olan çap sənayesindən məhrumdurlar. Bunlar yalnız əlyazma nüsxəsindən istifadə edirlər. Odur ki, bunların yazılarında katiblərin xəbərsizliyindən və ya nəfsi-istəklərindən yaranan çoxlu səhvlər olur....Bu millətin kitabları çox qəribə dəyişkənliyinə məruz qalır.**

**Müəllif nə qədər ki, diridir və nəfəs çəkir, əgər onun kitabı xalqın marağına səbəb olsa, onu yaxşı qarşılayırlar və onun üzünü dəfələrlə köçürürlər, amma öz istədikləri kimi. Buna görə də əgər müəllif bir neçə ildən sonra öz kitabını bir yerdə görsə dəyişkənliyin çoxluğu səbəbindən onu çox çətin tanıyar və onu «haram toxum» adlandırar.**

Çap sənayesinin olmamasına görə edilən bu tənqidlər haqlı olsa da həmin dövrdən qalmış kitabların həcmi və dəyərli kitablar üzərində edilmiş diqqət göstərir ki, onların çoxu əsli ilə tutuşdurma və düzəlişlər aparmaq yolu ilə köçürülürmüş və ya kitabın üzü köçürüldükdən sonra ustadlar tərəfindən əsil nüsxə ilə tutuşdurulurmuş.

Hər halda İranda çoxlu kitabxanalar mövcud olub ki, misal üçün İmam Rzanın (ə) hərəminin kitabxanasını, Reydə həzrət Şah Əbdüləzimin hərəminin kitabxanasını, hal-hazırda nəfis nüsxələrinin çoxu ruslar tərəfindən qarət edilərək Sankt-Peterburq kitabxanalarında olan Şeyx Səfi məqbərəsinin kitabxanasını, eləcə də İsfahanın müxtəlif mədrəsələrinin kitabxanalarını, o cümlədən Çaharbağ mədrəsəsinin kitabxanasını göstərmək olar. Həmin kitabxanaların ən mühümlərindən biri əlbəttə elə də nizam-intizamı olmayan saray kitabxanasıdır. Filosofların Rüstəmi ləqəbi almış Məhəmməd Haşim, Şah Sultan Hüseynin saray kitabxanası barəsində yazır:

**Cəmşid nişanəli o Şahın bir kitabxanası var idi ki, onda bütün kitab ustadlarının xətləri yəni xəttatlıqda qayda-qanun məcmusu, kamil ustad cənab İbn Muqlənin, səkkiz xəttin ixtiraçısı Ustad Yaqut Mötəsimi, Ağa İbrahim, Mirzə Əhməd Təbrizi, Mirəli, Mirimad, Şahmiskin, Rəşid, Şəfia, Xacə İxtiyar və bu kimi digər ustadların (Allah onların hamısını bağışlasın) xətləri mövcud idi. Orada aşkar və gizlin xətlə, tərcüməli və tərcüməsiz Quranlar, dualar, hədislər, bütün elm və fənlərə aid çoxlu mötəbər nüsxələr, müxtəlif rəsmul-hesablar, hekayə və tarix kitabları, şairlərin şer məcmuəsi var idi ki, onların hamısı Xətayi, Xanbalıq və Keşmir kağızları üzərində gözəl bəzəklər və ürəyəyatan naxışlarla yazılmışdı.**

Şah Sultan Hüseynin səltənətinin orta illərində tikilmiş Çaharbağ mədrəsəsinin kitabxanası da Səfəvilər dövrünün kitabxanalarındandır. Həmin kitabxananın vəqfnaməsi qalır və biz onun kitab əmanət vermək barəsindəki bəzi yerlərini nəql edirik:

**Həmişə bü mübarək mədərəsəyə verilən kitabların qeyd və təhvil verilməsində səy göstərərək diqqətli olmaq lazımdır. Həmin mədrəsədə**

**məskunlaşmış möhtərəm tələbələrdən hər biri kitaba möhtac olanda mədrəsənin müəliminin icazəsi ilə onu götürsünlər və ehtiyacları olan qədər saxlayaraq ondan istifadə etsinlər və kitabı ehtiyacdan artıq saxlamasınlar.**

**Əgər həmin mədrəsənin sakini olmayan şiələrdən kiminsə həmin kitablara ehtiyacı olsa və (ordan kitab götürmək) istəsə, mədrəsə müəlliminin icazəsindən sonra müəllimin möhürlü qəbzini kitabxanaçıya təhvil verdikdən sonra kitabı götürüb ehtiyacı qədər öz yanında saxlayıb İsfahanın şah sarayından (kənara) aparmasın. Əgər mədrəsə ona etimad etməsə və münasib bilsə ondan girov alıb kitabı ona versin.**

**Həmin kitablardan hansınısa ziyarətə və ya bəyənilən digər işlərə və ibadətlərə aparmaq münasib olsa, istəyən və mədrəsə müəlliminin etimad etdiyi kəs olan şəxs və ya girov qoyan şəxs, müəllimin icazəsi və möhürlü qəbizindən sonra həmin kitabı müəyyən vaxta kimi deyilən şəkildə İsfahandan kənara apara bilər. İstifadə etdikdən və qayıtdıqdan sonra geri gətirərək kitabxanaçıya təhvil verməli və hər halda onun zay olmaması və aradan getməməsi istiqamətində çox çalışmalıdır.**

**Nə qədər ki, İsfahandadırlar, onu hər altı ayda bir dəfə müəllimə göstərməlidirlər ki, o, həmin kitabın xarab olmamasından xatircəm olsun və əgər yenə aparmaq istəsələr və müəllim yenə icazə versə, yenə də deyilən şəkildə ondan istifadə etsinlər.**

**Həmin mübarək mədrəsənin müəllimi ehtiyacı olanların, bəlkə bütün tələbələrin və şiələrin onlardan istifadəsi və xarab olmaması istiqamətində səy göstərsinlər və deyilən məqamların hər birinə əməl etsinlər.**

**Və əlahəzrət vəqf sahibi – Allah onu bütün təhlükələrdən qorusun – həmin kitabların alverini, bağışlanmasını, girov qoyulmasını və dünyada zaval və yerdəyişməyə düçar edilməmələrini şərt edir. Həmçinin bəhrələnmək üçün onu saxlayanları məəttəl qoymasınlar və elm əhli ondan istifadə edəndə şərafətli vaxtlarda aləmdəkilərin nemət sahibi və dünya əhlinin qibləgahını dua etsinlər.**

İndi İmam Rizanın (ə) hərəminin kitabxanası, Parlament kitabxanası, Tehran universitetinin kitabxanası, ayətullah Mərəşi Nəcəfinin kitabxanası, Milli kitabxana, Məlik kitabxanası kimi böyük kitabxanalarının çoxuna, hətta avropa və Amerikanın İranın əlyazma kitabları saxlanılan

kitabxanalarına müraciət etsək Səfəvilərin dövründə müəlliflik və tərcümə sahəsində görülmüş işlərin əzəmətini dərk edə bilərik.

Qeyd etmək lazımdır ki, bu böyük miras əfqanlıların səkkiz illik hücumları, İsfahana və digər bəzi şəhərlərə hücumları zamanı çoxlu ziyan gördü. O cümlədən Çaharbağ mədrəsəsinin kitablarını bir daxmada gizlətdilər və onların çoxu məhv oldu. Mühasirə günlərində bir çox alimlər öz kitablarını satmağa başladılar və onları çox ucuz bir qiymətə hərraca çıxardılar. Bundan sonra əyan və böyük adamların evləri də əfqanlılar tərəfindən qəsb edilərək kitabların çoxu məhv edildi. İndi həmin günlərdə İsfahanda olmuş Məhəmmədəli Həzinin öz səfərnaməsində yazdığı bir cümləni nəql edirik:

**(Mühasirə hadisəsində) hər təbəqədən – peşə sahiblərindən, varlılardan, fəzilət sahiblərindən, böyüklərdən və əsilzadələrdən o qədər öldü ki, onların sayını Allah bilir. Həmin vəziyyətdə mən elə günlər keçirdim ki, ondan yalnız sirləri bilən Allah xəbərdardır. Gücüm çatan hər bir şeyi sərf edirdim və mənim evimdə kitabxanadan başqa bir şey qalmamışdı və istifadəsiz olmasına baxmayaraq iki minə yaxın kitabı paylamışdım və qalanları qarət edildi.**

## *ALİMLƏR VƏ ŞAHIN ADINA KİTAB YAZMAQ*

İndiyə kimi ara-sıra filan müəllifin kitabını Şahın adına yazmasına və ya kitabını Şaha hədiyyə etməsinə toxunmuşuq. Bu işin böyük bir qismi, bəlkə də Səfəvi şahları içərisində ona ən çox kitab yazılan Şah Sultan Hüseyn olub. Bəzən müəllif kitab yazır və onun müqəddiməsində zamanənin şahı və ya vilayətin əmirinin adını önə çəkirdi. Bəzən də Şah bir alimdən müəyyən bir mövzu barəsində bir kitab yazmasını və ya tərcümə etməsini istəyirdi.

Bu adət İslamın ilkin əsrlərindən olub və ən azı hicrətin üçüncü əsrindən bəri xəlifələrin, sultanların və əmirlərin adına kitab yazmaq İslam dünyasının hər yerində mövcud olub. Beşinci əsrdə bəzi şiə alimləri öz kitablarını əmirlərin və ya böyüklərin adına yazırdılar. Bu iş səkkizinci hicri ilində də davam edib və bundan əvvəl də dediyimiz kimi Əllamə Hilli, Sultan Məhəmməd Xudabəndənin adına bir neçə kitab yazıb. Sonralar Teymurilərin dövründə də bu adət davam edib və bu irs Səfəvilərə gəlib çatıb.

Şahları şiəliyi çox güclü şəkildə yaymaqla məşğul olan Səfəvilər öz dövrlərində alimlərdən kitab yazmaq və ya hansısa bir əsəri tərcümə etməyi istəyirdilər. Bu adət Şah Təhmasibin zamanında çox genişlənib və həmin

dövrün şiə müəlliflərinin çoxu öz kitablarının müqəddiməsində Şah Təhmasibin adını çəkiblər. Bu adət sonralar digər Səfəvi şahlarının zamanında da davam edib.

Şah Sultan Hüseyn Səfəvi müxtəlif əsərlərin yazılmasına meylli olduğu və alimlər Səfəvi şahları ilə yaxın olduqları üçün onun dövründə bu adət daha da genişlənib. Biz ən azı iki yüz kitabın adını çəkə bilərik ki, Şah Sultan Hüseyn Səfəvinin adına yazılıb. Şahın adına işarə edilən həmin müqəddimələr çox vaxt ədibanə ifadələr olur ki, onların çoxu katib yazılarında ənənəvi olan təntənəvi sözlər həddindədir. Bundan əlavə Şaha ehtiram məqsədi ilə onun barəsində çoxlu ləqəblərdən istifadə edilirdi ki, ilk baxışdan onların saxta və süni olmasını başa düşmək olur. Qeyd etmək lazımdır ki, həmin dövrün Əllamə Məclisi, Mühəqqiq Səbzivari, Ağahüseyn Xansari və onun oğlu Ağacamal kimi məşhur alimləri öz əsərlərini ikinci Şah Abbasa, Şah Süleymana və Şah Sultan Hüseynə təqdim ediblər. Nümunə üçün İsfahanın şeyxul-islamı Məhəmmədcəfərin kitabının təqdimnaməsində «Sultan töhfəsi» adı ilə Şah Sultan Hüseyn barəsindəki ibarələrini nəql edirik:

**...Əməli hikməti olduğu kimi aydın şəriətin ikinci dərəcəli məsələlərinə tabe hesab edib. Nəzəri hikməti kimya nəzərlinin məqsədi edib. Varlığın başlanğıcı və sonu ilə bağlı mövzular və digər əqli məsələlərlə daha yaxşı tanış olunması üçün onun məsələlərinin yayılmasını yüksək nəzərlərinin diqqət mərkəzində və dünyanı qət edən düşüncələrinin əsas nəzarətində saxlayaraq dövləti əbədi bərqərar olan bu səbəbkar İsfahanın şeyxul-islamı Məhəmmədcəfərə əmrə tabe olan qələmini götürərək onun bütün fəsillərini (asan) başa düşülən fars dilində yazaraq müqəddəs xidmətinə təqdim etməyi qərara aldı.**

## *SƏFƏVİ DÖVLƏTİNİN DAĞILMASI*

## QƏNDƏHAR – TƏHLÜKƏ MƏNBƏYİ

Bu kitabın müxtəlif yerlərində Qəndəhar məsələsi, onun taleyi və Hindistan monqolları ilə İran arasında onun üstündə olan ziddiyyətlərdən geniş söhbət etmişik. Həmçinin buna da toxunduq ki, oranın İslamı qəbul etmələri özbəklərin müsəlman olmaları kimi olan sakinləri təbii ki, şiəliyə zidd idilər və qızılbaş dövlətinə tabe olmaq onlara ağır gəlirdi. Orada müxtəlif əfqan tayfaları yaşayırdılar və qəbilə başçıları İranın zəifləyəcəyi təqdirdə şəhəri onların əlindən çıxarıb mümkün olsa bölgədə Qəndəharın mərkəzçiliyi ilə bir dövlət yaratmaq arzusunda idilər.

Həmin tayfalar çoxlu bəluc tayfaları ilə birlikdə h.q. 1105-ci ildən h.q. 1121-ci ilə kimi İranın cənub bölgələrinə hücum edirdilər. Onlar dəfələrlə Kerman, Yəzd, Nain şəhərlərini, hətta İsfahanın Kuhpayə bölgəsini hücumlara məruz qoymuşdular. Həmin hücumlar zamanı adı çəkilən bölgələrə çoxlu ziyanlar dəymişdi və oranın sakinləri bəlucların əlindən hədsiz qorxuya düşmüşdülər. Belə bir vəziyyətdə aydındır ki, onların qarşısında elə də müdafiə qüdrətinə malik deyildilər. Başqa sözlə desək həmin vaxta kimi İranın bir hissəsi olan Qəndəharın problemi, daxili problem idi. Lakin məzhəb və etnik ayrılıqlar, coğrafi baxımdan uzaq fasilə, qızılbaşlarla Qəndəharda yaşayan bəzi tayfalar arasındakı düşmənçilik və bəzən də özbəklərin təhrikləri və Səfəvilərin digər düşmənlərinin – məsələn Qəndəharı geri almaq fikrində olan Hindistan monqollarının – araqızışdırmaları Qəndəharın Səfəvilərə qarşı üsyanlarına şərait yaradırdı.

Maraqlıdır ki, Səfəvi dövlətinin varlığına son qoyan Qəndəhardan bir problemin yaranması o vaxta kimi heç kəsin fikrinə gəlmirdi. Doğrudan da bu problem, iki əsr ərzində İranın düşməni olan osmanlılar və özbəklər tərəfindən deyil Qəndəhardan, yəni Səfəvi İranın şəhərlərinin birindən yarandı. Elə bir yerdən ki, oranın əhalisi özlərini Səfəvilərin rəiyyəti hesab edirdilər. Əlbəttə məzhəb və millət baxımından onlarla digər yerlər arasında fərqlər var idi. Lakin onların təhrik edilmələrində Hindistanın monqol dövlətinin də təsirli olmasını gizlətmək olmaz. Bu təsir iranlıların nəzərindən qaçmadı və sonralar Nadirin Hindistana hücumunda özünü göstərdi.

## *QƏNDƏHARDA ƏFQANLARIN ÜSYANININ ŞƏRAİTİ*

Dövlət Qəndəhar, əfqanlar tərəfindən zəbt edilməmişdən bir az əvvəl Gürcüstanda üsyan etmiş və yatırılmış, daha sonra qardaşı Xosrovxanın vasitəçili ilə İsfahana gələrək əfv edilmiş Gərginxan asayişi bərqərar etmək üçün Qəndəhara göndərildi. İdarəçilikdə güclü, amma eyni zamanda kobud adam olan Gərginxan gürcülərdən ibarət bir qoşunla Qəndəharda yerləşdi və müəyyən bir müddət həmin bölgədə əmin-amanlıq və nizam-intizamı bərqərar edə bildi.

Həmin vaxt Qəndəharda var-dövlət və əzəmət sahibi olan Mirveys adlı əfqan böyüklərindən biri Gərginxanın pis gümanına düçar oldu. Gərgin onu zahirdə bəzi işlər görmək, əslində isə Qəndəhardan uzaqlaşdırmaq üçün İsfahana göndərdi. O, İsfahana çatanda özünün nəzarət altında olmasını görür və dövlətin onunla xoşagəlməz rəftarını başa düşür. Mirveys İsfahanda olduğu müddətdə sarayın vəziyyətinin qarmaqarışıq olmasının şahidi olur. Krosinskinin dili ilə desək Mirveys «şahın ətrafında, məmur və etibar edilən şəxslərin iki dəstə olmalarının və onların arasında əsaslı ədavət və düşmənçiliyin geniş yayılmasını görür.» Bundan sonra o, zirəkliklə, etimadud-dövləyə və digər əmirlərə çoxlu hədiyyələr aparmaqla onları ələ alır və tam zirəkliklə Gərginxan və onun apardığı siyasətləri pisləməyə başlayır. O, bu barədə bacardığı qədər yalan uydurur və Səfəvi sarayını tamamilə aldada bilir. Hətta Gərginxanın Hindistanın monqol hakimi ilə yaxın əlaqələr qurması barəsində də şayələr yayır.

Şah bu xəbərləri eşidəndən və Mirveysə tam inanandan sonra, onun təqsirindən keçir və ona Məkkəyə səfər etmək icazəsi verir.

## *MİRVEYS QƏNDƏHARIN HAKİMİ KÜRSÜSÜNDƏ*

Mirveys bu səfərində Məkkənin sünni alimlərindən şiələrlə vuruşmağın vacibliyi, onların kafir olmaları, onları öldürməyin, qarət etməyin və arvad-uşaqlarını əsir götürməyin düzgünlüyü barəsində fitva almağa çalışdı. Məkkənin alimləri bundan öncədən bu işə hazır idilər və Məkkə şəhərində dəfələrlə şiə alimlərini qətlə yetirmişdilər. h.q. 1088-ci ildə Mirməhəmməd Rəzəvi İbrahim məqamının arxasında dayanıb Quran oxuyan zaman Məkkənin sünni alimlərinin təhriki ilə bir dəstə avara adam onu döyə-döyə məsciddən çıxarıb orda ona o qədər daş vurmuşdular ki, şəhid olmuşdu. Elə həmin ildə Məkkədə olan və az qala şəhid olan Şeyx Hürr Amili tez şəhərin böyüklərindən birinin evinə sığınmış və oradan Yəmənə qaçmışdı.

Bu barədə osmanlılardan və özbəklərdən çoxlu təcrübələr öyrənmiş Miveys Məkkə alimlərindən şiələri öldürmək, onların arvad-uşağını əsir götürmək və onları satmaq barəsində fitva ala bildi. Bu təkcə məzhəb müharibəsi üçün deyil, həm də əfqanları İsfahanın sərvətlərini ələ keçirməyə təhrik etmək üçün kifayət idi.

Mirveys fitvanı aldıqdan sonra İsfahana gəlib axmaq saray adamlarına çoxlu hədiyyələr verdi və işi o yerə çatdırdı ki «Şah ona çox məhəbbət göstərdi və o, şahın məsləhət və məşvərət məclisinə daxil oldu.» nəhayət ehtiram və etimadud-dövlənin tövsiyələri ilə Qəndəhara yola düşdü. Mirveys böyük təmtəraqla Qəndəhara daxil oldu. Bir müddət sonra Gərginxanı məhv etmək üçün hiylə ilə gürcülərlə birlikdə Qəndəhardan kənara, bəlucların içinə çəkdi və daha sonra bir dəstə əfqanı onların üstünə göndərdi və onu və digər gürcüləri öldürdülər. Mirveys Qəndəhara qayıtdı və h.q. 1121-1122-ci illərdə bu şəhəri ələ keçirdi və öz adına sikkə pullar buraxdırdı. Mirveysin öz adına çıxartdırdığı sikkənin üzərində yazılmış mətni osmanlıların İrandakı səfiri Əhməd Dəri öz səfərnaməsində nəql edib.

O bundan sonra Məkkə alimlərinin fitvalarını göstərərək sünni əfqanları möhkəmləndirir və onlara həmişə qələbə vəd edirdi. Qızılbaşların əfqanları əzmək üçün göndərdikləri qoşunlar bir nəticə əldə edə bilmədilər və hər dəfə onların bir hissəsi həlak olurdu. Həmin qoşun Gərginxanın qardaşı Xosrovxanın başçılığı altında Qəndəharı altı ay mühasirədə saxladı. Sonda Mustaufinin yazdığına əsasən «havanın isti olması, azuqə azlığı və havanın üfunətli olması səbəbindən Qızılbaş ordusunda xəstəlik və qəhətlik elə bir həddə çatdı ki, hər gün onların böyük bir hissəsi həlak olurdu. Qızılbaşlar tamamilə zəiflədikdən sonra Mirveys gözlənilmədən onlara hücum etdi və «onların böyük bir hissəsini qətlə yetirdi, bir çoxunu əsir götürdü və qoşun başçısı Xosrovxanı öldürdülər.»

Onun ardınca Hərat da, Sədullah Əfqan tərəfindən Qızılbaş dövlətinin əlindən çıxdı. Onların və Hərat əhalisinin çoxu öldürüldü. Sədullah Qızılbaşların məğlubiyyətindən sonra Məşhədə hücum etdi və oranı qırx gün mühasirədə saxladı. Lakin oranı ala bilmədiyi üçün Nişapura hücum etdi və oranı qarət edib əhalinin bir hissəsini öldürdükdən sonra bir hissəsini əsir götürdü. İbdali əfqanlılardan olan Sədullah Qəlzayi əfqanlardan olan Mahmud ilə tutuşdu və onun əli ilə öldürüldü.

Bura qədər həmin zamana kimi Səfəvilərin rəiyyəti olan əfqanlıların hədəfi şiə məzhəbli Qızılbaşların əlindən qurtarmaq idi. Əhməd Dəri İranda yaşayan sünnilərin osmanlının səfirinin daxil olması barəsindəki hisslərini

elə təsvir edib ki, onun kimisini Qəndəhar barəsində də təsəvvür etmək mümkündür.

## *ƏFQAN MAHMUD VƏ İRANA HÜCUM*

Mirveys Qəndəharda yeddi il hakim olduqdan sonra h.q. 1128 və ya h.q. 1129-cu ildə öldü və onun yerini qardaşı Mirabdullah yaxud Əbdüləziz tutdu. O Səfəvi dövləti ilə danışıqlara getmək və aranı düzəltmək istəyirdi ki, Mirveysin oğlu Mahmud onu öldürdü və əfqanlılara rəhbərliyi öz əlinə aldı.

Kəskin daxili ixtilaflara düçar olan və təcrübəli şəxslərin birgə əməkdaşlıqdan boyun qaçırması ilə qarşılaşan Səfəvi dövləti, Qəndəhar məsələsini həll etməkdə aciz qalmışdı. Şah Sultan Hüseyn Xorasana gedib Həratı ələ keçirmək və sonra Qəndəharı almaq niyyəti ilə h.q. 1129-cu ildə Qəzvinə getdi. Amma bu şəhərdə üç il qaldıqdan sonra heç bir iş görmədən nəticəsiz geri döndü. Mustaufi Zübdətut-təvarix kitabında yazır:

**Əmirlər və dövlətin əsas adamlarının hər biri (Qəzvində) özlərinin batil nəfsi məqsədlərinə görə və bir-birlərinə qarşı ikiüzlü olmaları səbəbindən dövlətin islah edilməsinə göz yumaraq (Şah) hərəkət etmək istəyəndə hərəsi bir bəhanə gətirib bir maneə söyləyərək hərəkəti saxladılar, eyş-işrətə məşğul olaraq məqam satmaq və öhdələrinə bir iş götürməyi Qəzvində üç il dayandırdılar.**

İranın vəziyyətindən xəbərdar olan və Qızılbaş qoşununun onun qoşunu qarşısında müqavimət göstərməkdən aciz olduğunu bilən Mahmud Kermana tərəf hərəkət etdi və h.q. 1132-ci ildə bu şəhəri aldı.

Həmin zamanda Bəhreyni fəth etmək üçün etimadud-dövlə Fətəlixanın qardaşı Lütfəlixanın başçılığı altında olan Qızılbaş ordusu ora getməyib Kermana gəldi. Onların qarşısında tab gətirə bilməyən əfqan Mahmud Qəndəhara qaçdı. Krosinskinin məlumatına əsasən İran sarayında Lütfəlixanın barəsində fikir ayrılığı mövcud idi və həmişə ona qarşı sözlər danışılırdı. O, bir dəfə də olmuş olsa əfqanlıları məğlub edə bildiyi üçün ona paxıllıq edirdilər. Lütfəlixan elə oradan öz qoşunu ilə Şiraza getdi. Bununla belə, o, əfqanlıları məğlub edə bildiyi üçün Şah ondan razı idi. Bu məsələ saray adamlarını daha da qızışdırırdı. Onlar bu dəfə təkcə ona qarşı deyil, həm də etimadud-dövlə olan qardaşına qarşı da fəaliyyətə başladılar.

Krosinski mollabaşı və həkimbaşı Rəhimxanı bu barədə Şahla çox danışmaqda ittiham edir. Onlar hətta Şaha yalançı bir məktub göstərdilər ki, etimadud-dövlə Kürdüstanın üsyançı kürdləri ilə razılıq əldə edib. Nəhayət

Şah etimadud-dövləni vəzifəsindən uzaqlaşdırmaq və onun gözlərini çıxartdırmaq qərarına gəldi. Digər tərəfdən Şirazın hakiminə də məktub yazdılar ki, Lütfəlixanı tutub İsfahana göndərsin. Şirazın hakimi də deyilən kimi etdi və Lütfəlixan zindana salındı. Krosinski artırar ki, Şah sonra öz etimadud-dövləsi ilə belə davrandığı üçün peşman oldu. Bu hadisələr əfqanlıların İsfahana son hücumları, mühasirələri və oranı almalarından bir az əvvəl baş verib. Qeyd etmək lazımdır ki, Fətəlixan Dağıstan ləzgilərindən olub və sünni olmaqda ittiham edilib.

Krosinskinin Fətəlixanı müdafiə etməsinin müqabilində həmin zamanda yaşamış və saray adamlarının tənqidçilərindən olan «Mükafatnamə» kitabının müəllifi onu kəskin pisləyib və «İranın misli olmayan vəziri Fətəli Dağıstaninin vəziyyətinin və onun İranın dağılmasındakı tədbirlərinin qısa bəyanı» adı altında yazır:

**Be qeyr əz vəzire fəribəndə kar Be surət çu tavus sirət çu mar**
**Fəribəndə tənnaz saher soxən Ke iblis ra dad bazi be fən**
**Be bord an həme əz cəmado-nəbat, Hərifane biçare ra kərd mat**
**Ze əmlako əsbabo nəqdo əqar Ze xeylo biğalo bəiro himar**

**Yəni: Üzdə tovuz quşu əməldə isə ilan olan kələkbaz vəzirdən başqa; yalançı, məsxərəçi və söz sehrbazı ki, fənd işlətməkdə İblisi aldadıb. O qədər canlı-cansız şeyləri apardı ki, biçarə rəqiblərini mat etdi. Əmlak, əşya, qızıl-gümüş, mülk, at, qatır, dəvə və uzunqulağı.**

Bu şair sonra Fətəlixanın İranın dağıdılması istiqamətində gördüyü işləri şərh edib və ona misallar çəkib. Şah bu hadisədən sonra Məhəmmədqulu Şamlını vəzirlik vəzifəsinə təyin etdi. Mükafatnamənin şairinin onunla da arası olmayıb. O, onun barəsində yazır:

**Səfihi Fəlatun məneş dube xər Dər aruq dayem rucu-ul-bəqər**
**Çenan əbləh və dəng o mədhuş bud Ke peyvəste dər xabe xərquş bud**
**Həme şəb be ləhvo fusuqo fucur Be əshabe xassi ke budeş zərur**
**Həme lutiyo fasiqo cundəre Çe saket çe nateh həme məsxəre**

**Yəni: Əflatun təbiətli uzunqulaq ayı, daim gəyirən elə əbləh, huşsuz və məst idi ki, həmişə dovşan yuxusunda idi, bütün gecəni ayrılmaz xas**

**yoldaşları ilə eyş-işrət və pozğunçuluqla məşğul olurdu. Onun yoldaşlarının hamısı lotu, fasiq və çürük adamlar idilər, istər sakit olsunlar, istər danışsınlar hamısı məsxərə idilər.**

## *İSFAHANIN MÜHASİRƏSİ*

Əfqan Mahmud h.q. 1132-ci ildə Kermanın alınmasında məğlubiyyətlə üzləşdikdən sonra h.q. 1133-cü ilin sonlarında bir daha Kermana hücum etdi və h.q. 1134-cü ilin Məhərrəm ayında bu şəhəri ələ keçirərək oranı özünün əsas qərargahı etdi. Sonra oradan İsfahana yollandı. Əfqan qoşunu yolüstü Yəzddən keçərək oranın alınmasını başqa bir vaxta saxladı.

Hüveyzənin hakiminin başçılığı ilə beş min nəfərlik bir qoşun əfqanlarla müharibəyə yola düşdü. Amma özündə döyüş aparmaq qüvvəsi görmədiyi üçün İsfahana qayıtdı. Bu hadisə şəhər əhalisi və saray adamlarının ruhiyyəsinə çox mənfi təsir etdi, sanki hamı vəziyyətin alt-üst və artıq əldən çıxmış görürdü. Hər çətinliklə olur-olsun qızılbaşlardan və küçə-bazar adamlardan ibarət bir-birinə uyuşmayan bir qoşun yaradıldı və artıq İsfahanın yaxınlığına kimi gəlib çatmış əfqan qoşununa tərəf göndərildi. Bu iki qoşun Gülünabad kəndi yaxınlığında bir-biri ilə qarşılaşdı və döyüşün əvvəlində Səfəvi qoşunu Mahmudun qoşununu məğlub edərək arxaya qova bildi. Amma sonrakı mərhələdə uduzacaqları təqdirdə hər şeyi itirəcəklərinə əmin olan əfqanlar, var gücləri ilə vuruşmağa başladılar və Qızılbaş qoşununu məğlub etdilər. Qızılbaşlardan bəzilərinin meydandan qaçmaları digər döyüşçüləri də öz arxasınca apardı və Səfəvi qoşununun bütün təchizatı əfqanların əlinə keçdi. Bu hadisə h.q. 1034-cü ilin Cəmadiyul-ula ayının iyirmisində baş verdi.

Mahmudun qoşunu əldə edilmiş qənimətləri Kermana göndərərək İsfahana tərəf hərəkət etdi. Onlar əvvəlcə İsfahanı cənub-şərq istiqamətindən fırlanaraq Zayəndərud çayının o tərəfinə keçdilər və oradan Fərəhabada və Culfaya yollandılar. Fərəhabad əvvəlcədən insanlardan boşalmışdı. Əfqanlar Culfa ermənilərindən azuqə alaraq Zayəndərud çayının arxasında qaldılar. Çünki oradan keçmək çətin idi və mövcud körpülər qorunurdu. Mühasirə h.q. 1134-cü ilin Cəmadiyul-ula ayının əvvəlindən başlandı və h.q. 1135-ci ilin Məhərrəm ayına kimi davam etdi.

Krosinski Gəlunabad döyüşündə Səfəvi qoşunlarının bir hissəsinə başçılıq etmiş və həm də şahın müşavirlərindən olan Hüveyzə hakimini daim əfqanlara «müqavimət göstərin, İsfahan tezliklə sizin olacaqdır» kimi xəbərlər göndərməkdə günahlandırıb. İki aydan sonra onlar Abbasabad

tərəfdə olan körpülərdən birini ələ keçirərək şəhərin bu tərəfinə qüvvə göndərə bildilər. Bu müddət ərzində, Qızılbaşlar dəfələrlə qoşun toplayaraq əfqanlarla döyüşə getdilər, amma hamısında məğlub olub geri döndülər.

İsfahan mühasirədə olan zaman və Səfəvi dövləti hər tərəfdən ümidsizləşdiyi bir vaxtda görülmüş yeganə faydalı iş, Təhmasib Mirzənin İsfahan qoşununun bir hissəsi ilə kənara göndərilməsi olub. Onlar bu işi müxtəlif bölgələrdən qüvvə toplamaq məqsədi ilə etdilər. Onlar mühasirədən çıxa bilmələrinə baxmayaraq, Təhmasib nəzərə çarpacaq bir qoşun toplaya bilmədi və o, bir iş görənə kimi İsfahan əfqanlılar tərəfindən zəbt edildi.

H.q. 1134-cü ilin Cəmadiyul-ula ayından h.q. 1135-ci ilin Məhərrəm ayına kimi olan yeddi ay iyirmi üç gün mühasirə müddəti ərzində böyük İsfahan şəhəri çox çətin qəhətliyə düçar oldu və onun əhalisi ərzaq imkanatının olmaması ilə çətinliyə düşmüşdülər. Həmin zaman özü də mühasirədə olmuş Mirzə Zəki Məşhədi bir şerdə şəhərin vəziyyətini belə vəsf edir:

*Fouce qezilbaş qorizan ze cəng* *Rəfte ze xater həme ra namo-nəng*
*Comlegi amade bəraye şekəst* *Quş bər avaze sədaye şekəst*
*Dər peye ənamo məvaceb təmam* *Dər səfəro mərəke ğayib müdam*
*Xəlq ze üsyan həme yaği şode* *Maddeye fetne dəmaği şode*
*Əhle cəhan comle ze həqq qafelənd* *Mustəede tənqiyeye kamelənd*
*İn təko doha həme bi fayidəst* *Şureşe əfqan həm əz in maddəst*

**Yəni: Qızılbaş camaatı müharibədən qaçaqdır, onların hamısının zehnindən ad və ar çıxıb; hamılıqla məğlubiyyətə hazırdırlar və qulaqları məğlubiyyət avazı səsini gözləyir; ənam və kamil məvacibin müqabilində həmişə səfər və döyüş zamanı qaibdirlər; camaatın hamısı üsyandan azğınlaşıb, fitnənin maddəsi olub; dünya əhlinin hamısı haqdan qafildir və kamil təmizlənməyə hazırdırlar; bu bir-ikilərin hamısı faydasızdır və əfqanların üsyanı da bu qəbildəndir.**

O, sonra qəhətliyi vəsf edərək yazır:

*Hər ke brun rəft ze piro cavan* *Koşte şod əz tiğe əduv biaman*
*Mahe Cəmadivo Rəcəb əz nəbat* *Bud ğəzayi peye hefze həyat*
*Dər məhe Şəban həme kəs qut daşt* *Quvvəti əz şəkəro qavut daşt*
*Hiç be ziqəde nəbudi əsər* *Əz şotoro əsbo ze qavo ze xər*
*Axəre Zihiccə təvani nəmand* *Əz səgo əz qorbe neşani nəmand*

*Cense dokanha çu nihan mişəvəd* *Surəte bazar əyan mişəvəd*
*Çeşme tənur əz peye nan baz bud* *Atəşe ğəm dər dele xəbbaz bud*
*Morde əst qəssabo qənare həman dokan* *Mande əst çu dəndan be dəhane*
*Xatere təbbax be fekre təam* *Poxte be kişe həme soudaye xam*
*Mivefuruşan həmeşan dərbedər* *Yafte dər qur ze ənqur əsər*
*Əlqərəz an sal bəharo xəzan* *Səbzə nədidim coz əz asiman*
*Mərdome an şəhr çu tefle cənin* *Mandənd noh mah həsari çenin*
*Bud ze bəs koştevo morde əyan* *Hər qozəri bud təlle aşiqan*

**Yəni: Qoca və cavanlardan kim şəhərdən çıxdısa amansız düşmənin qılıncı ilə öldürüldü; Cəmadi və Rəcəb aylarında həyatı qorumaq üçün bitkilərdən yemək var idi; Şəban ayında hamının azuqəsi var idi, şəkər azuqəsi və qavutu var idi; Zilqədə ayında dəvə, at, inək və uzunqulaqdan bir əsər-əlamət yox idi, Zilhiccənin axırında bir güc qalmadı, itdən pişikdən bir nişanə qalmadı; dükanların malları gizlənəndə bazarın üzü məlum olur; təndirin gözü çörəyin dalınca idi, çörəkçinin ürəyində qəm alovu var idi; qəssab ölüb və ət asılqanları dükanın ağızında diş kimi qalıb; aşbazın xəyalı yemək fikiri ilə xam sevda bişirmişdir; meyvəsatanların hamısı avara-sərgərdan olub gorda üzümdən bir nişanə tapıblar; əlqərəz həmin il biz bahar və payızda asimandan başqa bir göy görmədik; o şəhərin əhalisi ana qarnındakı uşaq kimi beləcə doqquz ay mühasirədə qaldı; öldürülmüş və ölmüş o qədər aşkar idi ki, hər bir keçid aşiqlərin təpəciyi idi.**

Mustaufi də yazır:

**Zilhiccə ayının axırında (iş) o yerə çatdı ki, aclıqdan ölmüş meyidlərin qulaqlarını yeyirdilər, at və inəyin dərisini qaynadıb ona bir az şəkər töküb yeyirdilər, düyü dükanları və düyü əkini alətləri saxlanılan yerdə olan çəltik və düyü torpağının hamısından qavut düzəldib yedilər. İsfahanda it-pişik qalmadı, hamısını kəsib yedilər.**

## *İSFAHANIN ZƏBT EDİLMƏSİ*

İsfahan nə qədər mühasirədə qaldısa Qəzvində olan Təhmasib Mirzə orada bir qoşun toplaya bilmədi və tam ləyaqətsizliklə taxta çıxdı. Bu elə bir vəziyyətdə baş verdi ki, onun atası İsfahanda şahlıq taxt-tacını Mahmuda təhvil vermişdi və bütün saray əfqanlıların hökmü altında idi.

Vəziyyətdən lap yorulmuş Şah, heç cür bir qərara gələ bilmirdi. Hətta camaatın bir dəstəsi Şahın evinə gəlib Hüveyzənin hakiminin döyüşmək məqsədinin olmamasını deyib özlərinin əfqanlara qarşı vuruşmağa hazır olduqlarını elan edəndə, Şah özünü onlara göstərmədi və onlarla danışmağa razı olmadı. Bir dəfə də alimlərdən biri ona xəbər göndərdi ki, şəhərin müdafiəsi barəsində onunla danışsın. Şah dedi ki, tez sup bişirilməsi göstərişini vermişik, ümidvarıq ki, təhlükə dəf edilsin!

Vəziyyət doğrudan da ağırlaşanda Şah təslim oldu və Mahmud qoşunu ilə birlikdə şah sarayına yollandı. İsfahan şəhərinin ələ keçirilməsi h.q. 1135-ci ilin Məhərrəm ayının on birindən on beşinə kimi çəkib.

Mahmud şah sarayına daxil olan kimi şah Sultan Hüseyn onu qucaqladı və ondan camaatla yumşaq davranmasını istədi. Şah dedi: Təqdir belə imiş ki, səltənət mənim əlimdən çıxıb sənin ixtiyarında olsun. Mahmud da şaha ehtiram göstərdi və şah ilə birlikdə şahlıq taxtına tərəf gedib taxtda özü oturdu. Hələ indi məlum oldu ki, qızılbaş böyüklərinin çoxu, bu müddət ərzində əfqan Mahmuda xəbərlər göndərərək Şaha xəyanət ediblər. Həmin şəxslərin hamısı Mahmud tərəfindən himayə edildilər. Şəhər artıq əfqanların ixtiyarında idi. Onlar şəhəri tam alıb ələ keçirdikdən sonra şəhəri təmizləməyə çalışdılar və ixtiyarlarında olanları camaata vermək üçün şəhərə daxil etməyə başladılar. Ətraf kəndlərə qaçanların çoxu şəhərə qayıtdılar və  vəziyyət sakitləşməyə doğru getdi.

Gilanantezin məlumatına əsasən ümumilikdə əfqanların əli ilə təqribən əlli min nəfər öldürüldü və yüz min nəfərə yaxın adam qəhətlikdən həlak oldu. Halbuki İsfahan alınana kimi əfqanlardan yalnız iki min nəfər öldürülmüşdü. Mustaufi Zübdətut-təvarix kitabında öldürülmüş adamların sayını inanılmaz şəkildə yeddi yüz min nəfər yazıb. Mühasirə dövrü və ondan sonra əfqan Mahmudun İsfahanın və onun ətraf bölgələrinin taleyinə hakim olması hadisələrinin gündəlik məlumatı İsfahanda məskunlaşmış hollandlar tərəfindən yazılıb, «Səfəvilərin devrilməsi və əfqan Mahmudun gəlməsi» kitabında olduğu kimi dərc edilib.

## *DİGƏR ŞƏHƏRLƏRƏ HÜCUM*

Digər tərəfdən İranın bütün əyalətlərini ələ keçirmək niyyətində olan əfqanlar, Amanullahxanın başçılığı ilə Qəzvinə səkkiz min nəfərlik bir qoşun göndərdilər ki, indi Təhmasibin olduğu və Səfəvilərin ikinci paytaxt şəhərini ələ keçirsinlər və Təhmasibi tutsunlar. Təhlükənin yaxın olduğunu görən Təhmasib, Qəzvini Təbrizə getmək məqsədi ilə tərk etdi. Əfqan

qoşunu Qəzvin yolunda Kaşana tərəf gəldi və kaşanlılar onları isti qarşıladılar. Gilanentezin «İsfahanın süqutu» kitabında yazdığına görə «kaşanlılar Amanullaha ehtiram məqsədi ilə yerə xalça və zərli parçalar sərmişdilər.» Bu Kaşanın təslim olması mənasında idi.

Əfqan qoşunu Qum şəhərinə çatanda «bu şəhərə daxil ola bilmədi, çünki qumlular silahlı qüvvə ilə onlara qarşı çıxdılar.» Onlar Qəzvinə çatanda qəzvinlilər də onları yaxşı qarşılayaraq şəhərə gətirdilər və onları öz evlərində yerləşdirdilər. Amanullahxan məğrurlaşaraq camaatdan hər gün azuqə və pul tələb edirdi. Sonrası gün onlardan altmış qız istədi. «Qəzvinlilərin səbr və təmkini» burada sona çatdı. İki kəndin əhalisi pul və qızları aparmağa gəlmiş əfqan qoşununa müqavimət göstərdi və ümumilikdə əfqanlardan üç yüz iyirmi nəfəri öldürərək onları öz obalarından çıxartdılar. Şəhər hərəkət və təlatümə gələndə Amanullahxan kütləvi qətl və məhəllələrin yandırılması göstərişini verdi.

Qızılbaşlardan yüz əlli nəfərlik bir qüvvənin gəlməsi və onların əfqanlarla qəhrəmancasına döyüşmələri ilə əhali də evlərdən çıxdı və əfqanlara qarşı vuruşmağa başladı. Döyüş əhalinin xeyirinə sona çatdı. Öz qüvvələrinin min iki yüz nəfərini itirmiş əfqanlar, İsfahana qaçdılar. Yazırlar ki, Qəzvin əhalisi şəhərin alimi Məhəmmədrəzi Qəzvininin fitvası ilə Diyalabad bölgəsində əfqanların qarşısında tam şücaətlə vuruşdular və onların çoxlu sayda adamını öldürdülər. H.q. 1136-cı ildə baş vermiş bu hücumda adı çəkilən alim özü də şəhid oldu.

Şirazı fəth etmək üçün ora da bir qoşun göndərildi. Şiraza hücum edən əfqan qoşununun başçısı Nəsrullahxan idi ki, o, şəhərə hücum zamanı öldürüldü. Mahmud ora digər bir qoşun göndərdi və həmin qoşun şəhəri səkkiz ay mühasirdə saxladı. Nəhayət şəhərə soxularaq «Şiraz əhalisindən çoxlu sayda adamı qətlə yetirdi.»

Bu qələbə Mahmudun otuz min nəfərlik bir qoşunla Kuhgiluyəyə getməsinə səbəb oldu. Həmin vaxta kimi oranın bir-biri ilə vuruşan ərəb-əcəm əhalisi pərakəndə şəkildə döyüşlərə başlayaraq əfqanlarla vuruşub qaçmağa başladı. Onlar hər axşam əfqanlara basqın edirdilər. Mahmud dənizin sahilinə çatanda qoşununun çoxu isti və xəstəlikdən həlak olmuşdu və o, oradan geri döndü. O, rüsvayçı şəkildə İsfahana daxil oldu. Yəzdi fəth etmək üçün getmiş qoşun da heç bir nəticə əldə etmədən İsfahana qayıtdı.

Bu arada İsfahanın ətraf bölgələrinin əhalisi bir-iki dəfə əfqanların qarşısında müqavimət göstərdilər. Mahmud göstəriş vermişdi ki, qoşun fəth

etdiyi hər bir yeri qarət etsin və onların qarət etdikləri şeylər onların maaş və məvacibləridir.

Onların bir dəstəsi İsfahanın Gəz kəndinə gedəndə oranın əhalisi müqavimət göstərərək onları öldürdülər. Bu hadisə o qədər çətin oldu ki, Mahmud özü qoşun ilə həmin bölgəyə yollandı. Maraqlıdır ki, Gəz günlərlə mühasirədə qaldı, amma Mahmud və əfqanlar ora daxil ola bilmədilər və nəhayət məğlub olaraq İsfahana qayıtdılar. Gilanantezin məlumatına əsasən nəhayət Gəzin barılarını dəlmək üçün özləri ilə bir dəstə zərdüşt apardılar. Onların köməyi ilə Gəzin barılarını dağıdaraq bu qəsəbəyə daxil oldular və «oranın bütün kişilərini öldürərək qadın və uşaqları, camaatın mallarını İsfahana apardılar.» Bu zərdüştlər Kermandan Mahmudla birgə idilər və onların Mahmudun yanında çox hörmətləri var idi. Onların başçılarından biri əfqanların Şiraza hücum edən qoşununun başçısı olmuş zərdüşt Nəsrullah xan idi.

Bu hadisələr, xüsusilə bir dəstə əfqanlının ölümünə səbəb olmuş Qəzvin hadisəsi, həmin vaxta kimi qızılbaşlar və gürcülərlə mülayim davranmağa çalışan əfqanları təhrik edərək onların camaatı kütləvi şəkildə qətlə yetirmələrinə səbəb oldu. Bu qətli-amda qızılbaş böyüklərindən və İsfahan camaatından çoxlu sayda adam öldürüldü.

## *MAHMUDUN DƏLİ OLMASI VƏ ƏŞRƏF SULTANIN ONUN YERİNƏ KEÇMƏSİ*

Bundan sonra əfqan Mahmud ruhi xəstəliyə tutuldu. Bəzi tarixçilərin yazdığına əsasən iş o yerə çatdı ki, o öz bədəninin ətini qopardıb yeyirdi. O, elə həmin vəziyyətdə olanda göstəriş verdi ki, çoxlu sayda Səfəvi şahzadələrini Şah Sultan Hüseynin hüzurunda öldürsünlər. Həmin şahzadələrin sayını otuz birdən otuz doqquza kimi və hətta daha çox da yazıblar. Bu İsfahanın süqutunun ən acı hadisəsi idi və bütün əhali bundan çox narahat oldu. Bir müddət sonra iş üstünə gələn Əşrəf Sultan şahzadələrin cənazələrinin toplanmasına icazə verdi və şəhər əhalisi qəm-kədəri içərisində onları Quma apararaq orada torpağa tapşırdılar.

Mahmudun dəliliyinin güclənməsi ilə əfqan başçıları onun yerinə adam təyin olunması fikirinə düşdülər. Bu işə ləyaqəti olan yeganə şəxs Mirabdullahın oğlu Əşrəf Sultan idi. Mirabdullah Mirveysdən sonra taxta çıxmışdı, amma Mirveysin oğlu Mahmud tərəfindən öldürülmüşdü.

Əfqan başçılarının taxta çıxmaq israrı ilə qarşılaşmış Əşrəf əfqanlardan istədi ki, əvvəlcə atasının qisası olaraq Mahmudu öldürsünlər, sonra onu

taxta oturtsunlar. Bu qərardan sonra əfqan Mahmud otuz altı yaşında yatdığı yerdə öldürüldü. Onun yaxınlarının və müşavirlərin çoxu da öldürüldü və Əşrəf şahlıq taxtına çıxdı.

Şah Sultan Hüseyn həmin vaxt da möhtərəm idi. Əşrəf onu sınamaq məqsədi ilə ondan yenidən şahlıq taxtına qayıtmasını və özünün Qəndəhara dönməsini istəyəndə Şah onun məqsədini başa düşərək dedi ki, əgər onun ləyaqəti olsaydı şahlıq ondan alınmazdı. Bundan sonra tacı Əşrəfin başına qoydu və qızını ona verməyə razı olduğunu bildirdi.

Mahmudun vaxtındakı qələbə və məğlubiyyətləri nəzərdən qaçırmayan Əşrəf ən mühüm çətinliyi Şah Sultan Hüseynin oğlu Təhmasib hesab edirdi. O, osmanlılar və ruslar tərəfindən yaranmış çətinlikləri bəhanə etməklə Təhmasibi özünə tərəf cəlb edib İsfahanda öldürməyə çalışdı. Əvvəlcə Əşrəfin sözlərinə aldanmış Təhmasib sonradan onun hiyləsindən xəbərdar olub yolun yarısından Qəzvinə qayıtdı. Bir müddət sonra Əşrəf xəbər tutdu ki, Qızılbaş böyüklərindən bir neçəsi Təhmasibə məktub yazıb onu İsfahana dəvət ediblər və bildiriblər ki, Əşrəfi öldürməyə çalışacaqlar. Bu məsələ Əşrəfin əlində bir bəhanəyə çevrildi və o, Qızılbaşlardan iyirmi beş nəfəri Fərəhabadda öldürdü.

Əşrəfin digər bir problemi əfqanları rəsmi surətdə tanımaq istəməyən osmanlıların, Şah Sultan Hüseyni onlara təhvil verməsini istəmələri idi. Şahın diri qalmasının problem yarada biləcəyini hiss edən Əşrəf onun öldürülməsi göstərişini verdi və onun başını osmanlıların Həmədana kimi gəlib çıxmış ordularının başçısı Əhmədpaşaya göndərdi. Bu hadisə h.q. 1039-cu ildə baş verdi. Bundan sonra şahın başını bədəninə birləşdirib onun cəsədini «bütün İsfahan əhlinin» iştirakı ilə Tuqçu qapısına kimi yola salıb oradan Quma apardılar.

Səfəvi dövlətinin aradan getməsi və əfqanlıların iş üstünə gəlmələri ilə İranın daxili vəziyyəti tamamilə qarmaqarışıq və viran oldu, ruslar şimaldan və osmanlılar qərbdən İranın sərhədlərini keçərək bir çox yerləri öz əllərinə aldılar. Xorasan da Məlik Mahmud Sistaninin üsyanı və onun müstəqillik tələbi ilə əldən çıxdı və beləliklə Səfəvilərin iki yüz otuz illik mirası məhv oldu.

## *SƏFƏVİ DÖVLƏTİNİN DAĞILMASININ SƏBƏB VƏ AMİLLƏRİ*

### SUFİLİK TƏƏSSÜBÜNÜN MƏHVİ – SƏFƏVİ DÖVLƏTİNİN ƏSAS AMİLİ KİMİ

İbn Xəldunun nəzəriyyələrinə əsasən hər bir dövlətin davamlılığı həmin dövlətin əsas qüvvələrinin birləşməsinə səbəb olan təəssüb qüvvəsindən asılıdır və həmin dövləti yaradıb-yaşadan həmin qüvvədir. Həmin bu təəssüb qüvvəsi müxtəlif şəkillərdə ola bilər. Səfəvi dövlətində əsas təəssüb qüvvəsi qızılbaş tayfalarının birləşməsi idi ki, onlar tək-tək tayfa şəklində bir-birləri ilə birləşmişdilər və bundan əlavə «baş mürşid» məfhumu ilə Şah İsmayılın ətrafında toplaşıb onu himayə edərək Səfəvi dövlətinin təməlini qoymuşdular. Bu birlik çox maraqlı bir ittifaq idi və qəbilə təəssübkeşliyi əsasında formalaşmış dövlətlərin əksinə olaraq Səfəvi dövləti, sufilik əqidəsinə təəssüb üzərində quruldu. Həmin səbəbdən güclü bir dövlət qura bildi və ən çətin döyüş meydanlarında öz qüvvələrini qoruya bildi.

Bu təəssüb Təhmasibin vaxtına kimi var qüvvəsi ilə Səfəvi dövlətini himayə etdi. Bundan sonra ikinci Şah İsmayılın anormal hərəkətləri səbəbindən, şahzadələri və bəzi qızılbaş böyükləri məhv etməsi nəticəsində sarsıldı. Sultan Məhəmməd Xodabəndənin bütün hakimiyyəti dövründə (h.q. 985-996) qızılbaş böyükləri arasındakı ixtilaf bu qüvvənin daxili birliyini aradan apardı və təvazökarlıq və baş mürşidin qarşısında təslim olmaq xislətini məhv etdi. Bundan əlavə hər tayfada bir neçə böyüyün inkişaf etməsi və həmin tayfanın müxtəlif qəbilələri arasındakı ixtilafın dərinləşməsi ayrı-ayrı tayfaların birliyini pozdu.

Digər tərəfdən hələ sabiq mürşid Xodabəndə ölməmiş onun oğlu Şah Abbas hakimiyyətə gəldi və şərhini həmin dövrün tarixi hadisələrindən danışarkən bəyan etdiyimiz – və əsasən də qızılbaşlar arasında ixtilaf və onların ümumi gücünün zəiflədilməsi ilə nəticələnən – həmin giriftarçılıqlar bir neçə il davam etdi. Qızılbaşlara əsas zərbəni Şah Abbas vurdu. O, Qızılbaşların üsyan və özbaşınalıqlarından yorulduğu üçün onların görkəmli simalarını aradan götürdü və bəzi itaətkar gəncləri qızılbaş tayfalarına hakim etdi. Bundan əlavə ayrı hərbi bölmələr yaratmaqla işi Qızılbaşların əlindən çıxartdı və tacik qüvvələrdən yəni qumlam kimi sarayda zahir olmuş fars dillilərdən, gürcü qüvvələrdən və başqalarından çox istifadə etdi.

Beləliklə sufi qızılbaşlar məhdudlaşdılar və yavaş-yavaş sarayda və hərbi qüvvələrin içərisində öz güclərini itirdilər. Belə ki, Səfəvi dövrünün sonunda qızılbaşdan addan başqa bir şey qalmamışdı.

Əgər alim və fəqihlərin də sufiliklə mübarizəsini araşdırsaq görərik ki, qızılbaş sufilər bu tərəfdən də əsaslı zərbəyə məruz qalıblar. Əlbəttə alimlərin nə siyasi maraqları var idi, nə də ki, onlar qızılbaşların hərbi-siyasi nüfuzlarına etina edirdilər. Onlar üçün mühüm olan sufilik düşüncələri idi ki, onu şəriətə zidd hesab edirdilər. Amma onların sufiliklə mübarizəsi hər halda sufilərin zəifləməsinə öz xüsusi təsirini göstərdi. Hakim məzhəb fəzasının təsiri altına düşüb sufiliyə bərk zidd olan Şah Sultan Hüseyn də – əlbəttə zəif mənbə olan «Fəvaidus-sufiyyə» kitabının yazdığına əsasən – «sufilik silsiləsinin şüar və davranış tərzi olan sufilik üsulunu dağıtdı. O cümlədən o həzrətin Alaqapıya birləşik sarayında olan və sufi şeyxlərinin hər cümə axşamı xəlifə və əmirlərlə vəcdə gələrək «yahu» oxuduqları tovhidxananın fəaliyyətini dayandırdı və bütün sufi şeyxlərini İsfahandan çıxartdı.» «Əlqab və məvacibe dövreye səlatine sufiyyə» kitabında tovhidxana və onun adətlərinin ikinci Təhmasibin dövründə (h.q. 1135-1145) bərpa edilməsi barəsində yazılanlardan məlum olur ki, həmin iş tamamilə aradan getməyib. Amma hər halda özünün əsas xüsusiyyətini itirib.

Sufilik təəssübü əsasında hakimiyyətə gəlmiş və müridləri Şaha «baş mürşid» kimi ölüm ayağına qədər itaət və himayə edən bir dövlət indi özünün əsas dost və köməkçilərini əldən çıxarıb. Deməli o, öz sütunlarını itirib. Bu elə bir halda baş verib ki, həmin dövlət əvvəlki birləşdirici amilin yerinə digər bir birləşdirici amil də qoya bilməyib. Yaxud da qoyduğu şey qənaətbəxş təəssübə, vəhdətə və qüvvəyə malik deyil.

Bu təhlilin sufilik əqidəsinin səhv və ya doğru olması ilə heç bir əlaqəsi yoxdur. Bəlkə məsələ burasındadır ki, hansısa bir dövləti hakimiyyətə gətirən təəssüb aradan gedəndə və həmin dövlət yolun yarısında onun yerinə yeni möhkəm bir təəssübkeşlik gətirməyəndə xarici düşmən hücum edən zaman arxa və hamisiz qalaraq məhv olmasını gözləməlidir.

Həmin dövrün böyük İranında təəssübün itməsini digər bir prizmadan da dəyərləndirmək olar və o budur ki, şiə-sünni ixtilafı İranı varlıq və yoxluq bərzəxi içərisində saxlamışdı. Səfəvilərin iki yüz illik təlaşı döyüşkən qızılbaşların himayəsi ilə İranı şərq və qərb sünnilərinin zərər-ziyanından özbək və osmanlılardan qoruyub. Lakin məlumdur ki, müşkül yenə də qalmaqdadır. Bu dəfə əgər həmin iki dövlət Səfəvi dövlətini məhv etmək

üçün bir şey etmədisə də, Qəndəhar sünniləri Mirveysin başçılığı ilə hərəkata başladılar. Onların bəxtləri onda gətirmişdi ki, Səfəvi dövləti özünün əsas qüvvəsini yəni qızılbaşları əldən vermişdi və hətta bir neçə minlik bir qoşunla qarşılaşmaq qüvvəsinə malik deyildi. Doğrudan da təəssübə xələl gələndə, hətta kiçicik bir zərbə də həmin dövlətin məhvinə kifayətdir.

Əsas və məntiqi təhlil deyilənlər olsa da Səfəvi dövlətinin dağılmasında xırda amillərə də toxunmaq olar ki, onların hər biri öz növbəsində Səfəvi cəmiyyətinin qarışması və parçalanmasında təsirli olub.

### *ŞAH SULTAN HÜSEYNİN XÜSUSİYYƏTLƏRİ*

Adətən Səfəvi dövlətinin zavala uğramasında qeyd edilən amillərdən biri Şahın şəxsi xüsusiyyətləridir. Tarixi mənbələr onu sakit, mətin, dindar, amma eyni zamanda ölkə idarəçiliyi və səltənət işi ilə tanış olmayan bir adam kimi təsvir edirlər. Məcməut-təvarix kitabında deyilir ki, Şah Sultan Hüseyn «nəfsi təmiz, rahatlıq sevən, səltənət və padşahlıq işlərinin idarəçiliyindən xəbərsiz bir adam idi». Onun vaxtının çoxu əyləncə və onun kənarında mütaliə ilə keçib və bu məsələlərə diqqət yetiriyi üçün molla kimi məşhurlaşmışdı. Bunun əvəzində siyasət və məmələkətin idarə edilməsinə diqqətsizliyi, onun əsas nöqsanlarından biri sayılırdı. Onun atasının xüsusiyyətləri də belə idi, bu istisna ilə ki, atasının cəsarəti oğlundan çox olub və onun vaxtında sərhədlərdən elə də əsaslı bir təhlükə qarşıya çıxmayıb. Mustaufi Şah Sultan Hüseyn barəsində yazır:

**O həzrətin səltənəti dövründə, alimlər, fəzilət sahibləri, seyidlər, xacələr çox müstəqil idilər, bütün işlərin kök və mənşəyi olurdular. Çox vaxt fəzilət sahibləri, seyidlər, həkimbaşı ilə söhbətləri olardı və kitab, şer, ədviyat və yeməklərin tərkibi barəsində söhbətə məşğul olardılar. Məmləkətin işlərinin nizam-intizamına diqqət etməzdi. Mühüm işləri əmirlərin öhdəsinə qoymuşdu və əmirlər də bir-birləri ilə ikiüzlülük edirdilər.**

Krosinski – Şah Sultan Hüseynin zamanında və İsfahanın əfqanlar tərəfindən mühasirəsi zamanı bu şəhərdə olmuş bu polşalı keşiş, Şahı « elm, fəzilət və kəramət sahibi» kimi vəsf edib. Amma onun fikrincə işlərə diqqətsizlik nəticəsində onun səltənətindən bir müddət keçəndən sonra «Səfəvi dövləti şikəst oldu, kütlənin nizam-intizam ipi boşaldı, ittifaq və birlik parçalanmağa, ikiüzlülüyə çevrildi və viranlıq astanasına gəlib çıxdı. Şah, dövlət adamları, avam kütlə və xas adamların hamısı eyş-işrətə məşğul

olub elə yuxuya getdilər ki, gecə-gündüz baş verənləndən xəbərsiz qaldılar. Şahın hüzurunda dövlət işləri, məmləkət və millətin xeyirini ona deyən, Şahı qəflət yuxusundan oyadan bir kimsə yox idi.»

Şah ondan olan istəklərin hamısının müqabilində «yaxşıdır» deyə cavab verirdi və bu səbəbdən «yaxşıdır» kimi məşhurlaşmışdı. O müxtəlif şəxslərə qarşı qətiyyətlə davranmırdı və hər bir cinayətkar, saray adamları və ya hərəm adamlarından birinin vasitəçiliyi ilə nicat tapacağına ümid bəsləyirdi. Şahın ruhiyyəsini bəyan etmək üçün ən yaxşı ifadələr onun müasirlərindən birinin «Mükafatnamə» məsnəvisində onun barəsində dediyi şerlərdir. Şair həmin şerlərdə Şahın xüsusiyyətlərini gözəl təsvir edib. O deyir:

*Çu u şah dər ərseye iqtidar          Nədidəst şətrənci ruzigar*
*Kərimo nəimo həlimo rəhim          Vəli ba zəno xace, teflo həkim*
*Lətifo nəzifo rəfiqo şəfiq          Çu ayinovo ab, qəlbeş rəqiq*
*Ze bəs bud rahem be hər niko bəd          Be namərd şəm hərfe tondi nəzəd*
*Əduv ra nəmixast qəmgin konəd          Məbada ke biçare nifrin konəd*
*Kəsi gər ze əmreş təxəllüf nemud          Be ruyeş ze ferte ğəzəb tuf nemud*
*Nemudi əgər xəsme molkəş xərab          Həmi kərd əz ğosse çeşmi por ab*
*Çu doşmən be molkəş zədi türktaz          Nemikərdi kari be ğeyr əz nəmaz*
*Çu zuhhad rəğbət be donya nədaşt          Əz an bər xərabiəş hemmət qomaşt*
*Nə əz cövr qəmgin nə əz ədl şad          Be bağe «fərəh» budiyəş dino dad*

**Yəni: Ruzigar heç şahmatda onun kimi şah görməyib; səxavətli, nemət sahibi, həlim və rəhimlidir, amma (işi-gücü) arvad, xacə uşaq və həkimlərdir; lətif, təmiz, yoldaş, mərhəmətlidir, qəlbi ayna və su kimi çox həssasdır; hər bir yaxşı və pisə o qədər rəhimli idi ki, namərdə də tünd söz deməzdi; düşməni qəmgin etmək istəmirdi ki, məbada biçarə nifrin edər; əgər kimsə əmrindən çıxsa, qəzəbin çoxluğundan üzünə tüfürər; əgər düşmənçiliklə mülkünü viran etsən, qüssədən gözlərini yaşla doldurar; əgər düşmən kimi qəflətən mülkünə hücüm etsən, namaz qılmaqdan başqa bir iş görməz; zahidlər kimi dünyaya rəğbətsiz idi, buna görə də onun xarab olmasına himmət göstərirdi; nə zülmdən qəmgin idi, nə də ədalətə şad, din və ədaləti «Fərəh» bağında idi.**

Şahın xüsusiyyəti barəsində bunu da yazıblar ki, «o taxta oturandan ondan kənarlaşdırılana kimi bir nəfərin də ölümünə fərman vermədi». Bir dəfə bağda ox ilə bir quş vurmuşdu, ona görə elə peşman oldu ki, «xəzinədən yoxsullara iki yüz qızıl tümən təsəddüq verilməsini» əmr etdi.

## *FAYDASIZ HƏRBİÇİLƏR*

Səfəvi dövlətinin məğlubiyyətinə səbəb olan amillərdən biri nizam-intizamlı, möhkəm və təcrübəli ordunun olmaması idi. Birinci Şah Abbasın zamanına kimi qızılbaş ordusu qəbilə təəssübkeşliyinə malik və böyük müharibə meydanlarında çoxlu təcrübəyə malik müxtəlif türkmən tayfalarından olan şəxslərdən təşkil olunmuşdu və onlar çox fəal şəkildə sərhədləri qoruyurdular. Şah Abbas ordunun qüdrətini artırmaq üçün onun tərkibini dəyişdirdi və gürcülərdən, qeyri-türk qullardan ibarət və qızılbaşlardan asılı olmayan digər dəstələr yaratdı. Onun bu addımı qısa müddətdə həmin ordunun irəliləməsinə səbəb oldu. Amma ondan sonra düzgün olmayan idarəçilik altında olan bu uyuşmazlıq, İranın hərbi vəziyyətinin dağılmasına səbəb oldu. Bundan öncə Səfəvi dövlətinin məhvində sufi qızılbaşların aradan getmələrinin təsiri barəsində danışmışıq.

Burada bunu əlavə etmək lazımdır ki, ikinci Şah Abbasın zamanından sonra osmanlılar və özbəklərlə müharibə sona çatdı və Səfəvilərin sayca çox olan ordusu müharibə qarşılaşması olmadan yenə də yeyib-içmək və geyinib-keçinməklə kifayətləndi. Bu vəziyyət bir neçə on illik davam etdi. Ümumiyyətlə vücudunun zəruriliyi məlum olmayan və çoxlu baxımsızlığa məruz qalıb dağılmış Səfəvi ordusu, qəlza əfqanlıları ilə qarşı-qarşıya gələndə müqavimət göstərə bilmədi. Çünki təcrübəsiz və qeyri-standart bir ordu tayfa və məzhəb təəssübü ilə döyüş meydanına çıxmış bir qoşunun qarşısında dayanmışdı. Digər tərəfdən döyüş meydanını tənzimləmək üçün heç bir hərbi rəhbərlik və idarəçilik yox idi. Bu vəziyyət ən azı otuz il mərkəzi dövlətlə İranın cənub şərqindəki üsyançı bəluc tayfaları arasındakı döyüşlərdə təcrübə edilmişdi.

Həmin dövrün şairlərindən biri, o vaxtın hərbi qüvvəsi barəsində bəzi nöqtələri bəyan edib və göstərib ki, bu ordu özünün mənfi xüsusiyyətlərinə görə müqavimət göstərmək və vuruşmaq iqtidarında deyil.

*Əmirane xoş yal zərbəft puş* — *Həme qərqe ahən ze dom ta be quş*
*Be surət həme Rostəmo Zalo Sam* — *Be sirət pəriçöhrevo xoşxəram*
*Be heybət həme Givo Qudərzo Tus* — *Ze zinət zəde təne bər no ərus*
*Be heybət həme həmçu dive dijəm* — *Be qeyrət ze Gərgin Milad kəm*
*Şücavo qəzənfər, dəliro mətin* — *Be surət çu şiro be tən nəzənin*
*Həme sorx roxsare leyk əz xizab* — *Həme ru sefid əz rəhe ektesab*
*Ze zərbəfto diba lebase həme* — *Vəli pizuri bovəd əsase həme*

**Yəni: Boynuyoğun əmirlər hamısı təpədən dırnağa kimi dəmirə bürünüblər; Üzdən hamısı Rüstəm, Zal və Sam, xasiyyətdə isə pəri üzlü və naz-qəmzəlidirlər; görünüşdə hamısı Giv, Qudərz və Tus, bəzək-düzəkdə isə təzə gəlini geridə qoyublar; heybətdə hamısı acıqlı div kimi, qeyrətdə isə Gərgindən, Miladdan da aşağı; şücaətli, igid, cəsarətli və mətin, surətdən şir kimi, bədən isə nazlı-işvəli; hamısı qırmızı üzlü, amma boyaqdan, hamısı üzü ağ amma qazanc yolu ilə; hamısının paltarı qızıl toxunuşlu və ipəkdəndir amma hamısının əsası süst və davamsız olar.**

Bu bər-bəzəkli içiboş ordunu iradəsiz Şahın kənarına qoysaq, Şah əgər uzun müddət Qəzvin və İsfahanda əfqanlarla döyüş tədarükatı hazırlamaq üçün olsa da şairin aşağıdakı bu şerindən başqa nə nəticəsi ola bilər ki, deyir:

*Bəsi sal Qəzvino Tehran begəşt*
*Dər in beyn xunha rəvan şod be dəşt*
*Nə yek boz ze doşmən gereftar şod*
*Əz in su bəsi koşte sərdar şod*
*Nə əz doşməno dust yek kəs bekoşt*
*Nə zəd ba xətakar hərfi doroşt*
*Əz in bud məlum hər əbləhi*
*Ke bizar gəşte əz şahənşəhi*
*Ke xahəd şod əz ricəte an səfər*
*Fəna təxte şahivo xunha hədər*

**Yəni: Neçə illər o qədər Qəzvin və Tehranda gəzdi ki, bu arada çöldə qanlar axdı; düşməndən bir keçi olsun belə ələ keçmədi, bu tərəfdən isə çoxlu sərkərdələr öldürüldü; nə düşmən və dostdan bir nəfəri öldürdü, nə də səhv edənlə acı danışıldı; hər axmaq burdan məlum olar ki, şahənşahdan bezib; həmin səfər qayıdışından şahlıq taxtı fəna, qanlar hədər olacaq.**

O digər bir yerdə rahatlığa adət etmiş qızılbaş bəyzadələrin vəsfində deyir:

*Cəvanane bəkzadeye xoşqumaş Ke sencabeşan bovəd dayem fəraş*
*Nəkərde ze daməne madər səfər Be ğeyr əz zəruri be caye degər*
*Be həmmam həm rəfte ba paləki Ze dəh salegi ta çehel salegi*
*Əgər muş costi şodəndi rəman Çu əz şire nər, qorbe əz xofe can*
*Əgər dide dər xab şəmşire tiz Nəces kərde şəlvar ra dər qoriz*

**Yəni: Rahat yataqlı bəyzadə cavanlar ki, dələ dərili yataqları daim açıq olar; analarının yanından zəruri yerləri çıxmaqla kənara səfər etməyiblər, on yaşından qırx yaşına kimi hamama da kəcavə ilə gedirlər; əgər siçan axtarsan pişik canının qorxusundan aslandan qaçan kimi hürküb qaçarlar; əgər yuxuda iti qılınc görsə qaçanda şalvarını isladar.**

### *FƏSAD VƏ POZĞUNÇULUQ, SARAY ADAMLARI ARASINDA İXTİLAF*

Səfəvi şahları kimi Səfəvi sarayının adamları da neçə illər idi ki, «badə piyaləsi və sadə zülfə» adət etmişdi. Hətta yazırlar ki, onlar bacarıqsız Şah Sultan Hüseyni eyş-işrətlə daha rahat məşğul ola biləmləri üçün seçdilər. Çünki Şah Süleymanın digər oğlu Abbas Mirzə nadan və cahil şəxs olmasına baxmayaraq çevik, döyüş və müharibə əhli idi. Şərab içmək və eyş-işrətə aludə olmaq saray adamlarının ağıllarını itirmələrinə, daxili və xarici problemlərin həlli üçün fikirləşib çarə axtarmaq əvəzinə hər şeyi bir cür həll edib məstliyə qayıtmaq fikirində olmalarına səbəb olmuşdu. Onlar dərd-sər, şər və şuluqluq yaratmağı heç cür sevmir, sükut və sakitçiliyin kölgəsində işləri yola vermək istəyirdilər. Şah və saray adamları ilə yaxından gəl-gedi olan «Mükafatnamə»nin şairi bəzi mətləblər nəql edir ki, onlardan bu faydasız saray adamlarının öz həqir düşməni qarşısında nə üçün bu qədər aciz olduğunu ehtimal etmək mümkündür. O, xüsusilə işlərinin idarəçiliyində çox mühüm rol oynayan xacələri tənqid edir.

*Ze xacesəra xame ra nefrət əst Ke məqbulişan qondəvo nikbət əst*
*Çe in naqesane nə mərdo nə zən Xoda naşenasane İblise fən*
*Nə əz noe ensan nə əz cense ded Nədanəstə kari be ğeyr əz ləgəd*
*Nə əqlo, nə fəhmo, nə dino nə dad Nə abo nə ataş nə xako nə bad*

| | |
|---|---|
| *Çu xacesəra gəşt fərmanrəva* | *Bequ xace ra ta rəvəd dər səra* |
| *Gereftənd zərha ze şaho gəda* | *Ze ənamo əz reşvevo əz reba* |
| *Nemude həram əz peye mostəhəb* | *Bedadənd zərha be Rumo əcəm* |
| *Ke hacivo həm Kərbəlayi şəvənd* | *Be həm çeşmi, həm mirai şəvənd* |

**Yəni: Kütlədə xacələrə qarşı nifrət var, ki, onların qəbul etdikləri üfunətli və bədbəxtlikdir; nə kişi nə arvad olan bu naqislər, Allahı tanımayan İblis fəndlilər; nə insan cinsindəndirlər, nə yırtıcı heyvan cinsindən. Şıllaq atmaqdan başqa bir iş bilmirlər; nə ağılları var nə dərrakələri, nə dinləri, nə insafları, nə sudurlar, nə od, nə torpaq, nə də külək; xacə hökmran olanda xəcəyə de evə getsin; qızılları Şahdan və dilənçidən ənam, rüşvət və riba kimi aldılar; müstəhəbbin dalınca haram iş tutdular, qızılları ruma və əcəmə verdilər; ki, həm hacı, həm kərbəlayi olsunlar, bir-birləri ilə bəhsə girərək bir-birləri ilə döyüşsünlər.**

Şair bu şerində sarayın zahirdə dindar olan xacələrinə işarə edir ki, bəzən qeyri-şəri yollarla sərvət əldə edərək ölkədən çıxarıb ziyarət səfərlərinə və həccə səfərinə sərf edir, osmanlıların cibinə tökürlər. Krosinski bu nöqtəni xatırladır ki, həmin günlərdə zəif insanlara edilən təzyiqlər baxımından «həcc səfərindən zərərli şey olmayıb».

Xatunabadi də nəql edir ki, təkcə bir ildə bəzi xacələrin həccə səfərinə görə İrandan yüz min tümən çıxarıldı. Məhəmmədmöhsün Mustaufi yazır: «o həzrətin səltənəti günlərində xacələrin və hərəm əhlinin çoxu əzəmətli Kəbənin, İraqdakı ziyarətgahların, müqəddəs Məşhəd şəhərinin ziyarətinə gediblər və bir-birləri ilə bəhsə girərək hər biri o səfərlərin xərci üçün böyük məbləğlər sərf ediblər.» Taverniyenin yazdığına əsasən bu problem Şah Abbasın zamanından irəli sürülüb və o, ölkənin nəqd pulunun xaricə çıxarılmasına meyilli olmayıb. Bu səbəbdən deyirlər ki, o, camaatı həcc və İraq ziyarətgahları əvəzinə Məşhəd səfərinə və imam Riza əleyhis-salamın ziyarətinə təhrik edirmiş. Hər halda Şah Sultan Hüseynin zamanındakı bu bəxşiş və səxavətlilik, ölkənin vəziyyətinin viran edilməsində çox təsirli olub.

Krosinskinin təkid etdiyi digər bir problem saray adamları arasındakı ziddiyyət və ixtilaf olub ki, onlar iki dəstəyə parçalanaraq hər biri öz mənafeləri üçün çalışırdılar. Və təbii ki, onlar Şahı da o tərəf bu tərəfə çəkirdilər. Bu ixtilaf və ziddiyyətlərin bir nümunəsi əfqanların hücumlarının qarşısının alınmasının necəliyi ilə bağlı hadisələrdə özünü göstərdi ki, biz öz

yerində ona işarə etmişik. Mirzə Xəlil Mərəşi özünün Səfəvilərin son dövrlərinin və ondan sonrakı hadisələrin şərhi barəsində olan «Məcməut-təvarix» kitabında saray adamlarının bir-birləri ilə ixtilafları barəsində yazır:

**Şahdan tutmuş əmirlərə kimi onların hamısı rahatlıq axtarmaqda, qorxaqlıqda, müharibə və qalmaqalın zərər-ziyanından çəkinmək, bir-birlərinə paxıllıq etməkdə bir tərzdə idilər. Belə ki, bu xoşagəlməz əxlaq səbəbindən səltənətin heç bir işi qabağa getmirdi və silah anbarının rəisi vəzirin tökdüyü hər bir tədbirə əks qərar qəbul edirdi və vəzir silah anbarının rəisinin tədarük gördüyünün əksini düzgün hesab edirdi.**

Mükafatnamənin şairi də həkimbaşının Şaha qarşı saxtakarlıqlarına və hiyləgərliklərinə görə ona çox nifrət edir.

*Ze rəh borde an Yusufe sade ra*     *Be çənqale səd qorq oftade ra*
*Ke taco nəgin ra be əfqan dad*     *Sərire Suleyman be divan bedad*

**Yəni: O, yüz canavarın çənginə düşmüş bu sadə Yusifi yoldan çıxarıb; şahlıq tacı və üzüyünü əfqanlara verdi, Süleymanın taxtını divlərə verdi.**

Mükafatnamənin şairi haqlı olaraq Səfəvi dövlətinin zavala uğramasının əsas dəlillərindən birini saray adamlarının ləyaqətsizliyi hesab edir və onları belə vəsf edir:

*Çu xahəd ferestəd be qövmi əzab*     *Konəd əbləhi çənd ra kamyab*
*Çu xahəd ze aləm bər arəd dəmar*     *Dəhəd livei çənd ra extiyar*
*Ke danənd xod ra Ərəstu məqam*     *Fəlatun məneş bu Əli ehtiram*
*Gəh rəzm başənd Rostəm məsaf*     *Gəh bəzme Hatəm ze lafo gəzaf*
*Həme əhməqo nadürüsto şərir*     *Həme lutivo tamio reşvegir*
*Be meydane mərdi həme zən nihad*     *Nədanəste çizi be coz giro dad*
*Ze ğaze həme ançenan qolüzar*     *Ke ruşan neşod zərd bəd əz fərar*
*Be xəlvət çu zən dəfzənan dər xuruş*     *Be bazare mərdi həme xod furuş*
*Ze ayine talar əz an saxtənd*     *Ke tuf bər roxe xiş əndaxtənd*

**Yəni: Allah bir tayfaya əzab göndərmək istəyəndə bir neçə axmağı arzusuna çatdırar; aləmi həlak etmək istəyəndə bir neçə hiyləgər yaltağa ixtiyar verər; ki, onlar özlərini Ərəstun məqamlı, Əflatun təbiətli və İbn Sina hörmətli hesab edərlər; gah Rüstəmin qarşısına**

**çıxacaq döyüşçü olarlar, gah Hatəmin hap-gop və bihudə sözlər məclisində; hamısı axmaq, əyri və şərrdirlər, hamısı lotu, tamahkar və rüşvətxordurlar. Kişilik meydanında hamısı qadın təbiətlidirlər, alıb-verməkdən başqa bir iş bilmirlər; qırmızı ənlikdən hamısı elə gül yanaqlıdırlar ki, qaçandan sonra da üzləri saralmadı; xəlvətdə hamısı arvad kimi dəf vurmaqda hay-küy salan, kişilik bazarında isə hamısı özlərini satandırlar; aynadan talvar tikdilər, ki, öz üzlərinə tüpürdülər.**

Osmanlıların h.q. 1131-ci ildə İrana gəlmiş və İran sarayını görmüş səfiri Əhməd Dəri Səfəvilərin süqutunun yaxın vaxtda baş verəcəyini proqnozlaşdırırdı. O yazır:

**Qızılbaş ölkəsinin hər yeri abadlıqdır və onun xarabalığı azdır. Amma Allah eləməmiş kimi elə bil ki, dövlətlərinin dağılması yaxındır. Mən aşkar və gizlin onların vəziyyətlərini birbəbir araşdırdım. Ölkələri çox abaddır. Amma dövlətlərinin kişiləri yoxdur. Sanki kişi qəhətliyidir. Buna görə də quruluşları qarmaqarışıq, pərişan və dövlətləri qeyri-stabildir. Hər tərəfdən onlara hücum edilir və onlar həmin hücumları dəf edə bilmirlər.**

## *DİNİ DƏYƏRLƏRİN ZƏRƏR-ZİYAN GÖRMƏSİ*

Bir tərəfdən dini dəyərlərə əsaslanan və digər tərəfdən fəsada aludə olan bir cəmiyyətdə bir növ ziddiyyət yaranır və bu, cəmiyyətin ideoloji və dini köklərinin məhvinə səbəb olur. Bu, dindar bir şəxsin günah edərkən və həmin günahı sonra yenə təkrar edərkən etiqad baxımından çox ziyana məruz qalmasına və zaman keçdikcə dindən uzaqlaşmasından əlavə, şəxsi və fərdi rahatlıq, sabitliyini də əldən verərək həyatının bütün sahələrində uyuşmamazlıqlara düçar olmasına bənzəyir. Səfəvi cəmiyyəti son bir neçə on illikdə cəmiyyətin əxlaqi vəziyyətinin islah edilməsi istiqamətində çalışmış Əllamə Məclisi kimi bəzi alimlərin səylərinə baxmayaraq fəsada çox düçar olmuşdu. Bu fəsad saray adamlarından əlavə ümumi kütlənin arasında da yayılmışdı. İsfahan şəhərində pozğunçuluq və nalayiq işlər çox geniş şəkil almışdı. Tarixi mənbələr bizi bu qəbildən olan fəsadların yayılması ilə lazımınca tanış ediblər. Burada şerini nəql etdiyimiz və elə özü vəziyyətin şahidi olmuş şairin dilindən Səfəvilərin son dövrlərində cəmiyyətin vəziyyətinə nəzər salırıq. O öz məsnəvisini bu beytlərlə başlayır:

*Be name Xodaye mukafat kon* *Piyade zəfərbəxş şəhe mat kon*
*Xədive mudəmmir kone qoume Lut* *Ke mərrixe qəhrəş nədarəd hubut*

**Yəni: Mukafat verən və piyadanı şaha qalib edib onu mat edən Allahın adı ilə;**

O, bundan sonra cəmiyyətin dini vəziyyətinə və əmirlərin vəziyyətinə işarə edərək yazır:

*Nə əz din əsər manədo nə ze fər* *Həme hubbe donya şəvəd əsle şər*
*Be işan xoş oftade zən şivegi* *Nəkərdənd kari be coz livegi*
*Xoşaməd çun zən bovəd əndişəşan* *Nəbudi be coz fekr pəs, pişəşan*
*Vəfa gəşte əz vədşan bifuruğ* *Nəqoftənd hərfi be ğeyr əz duruğ*
*Həme fohşe zən bovəd qoftarişan* *Qurumsaq ləfze səzavarişan*
*Həme kərde əz dine Əhməd hübut* *Həme peyrove məzhəbe qovme Lut*
*Be vəqte ebadət çu sağər zədənd* *Be caye dua saze digər zədənd*
*Şode dər nəmaz ançenan bixəbər* *Ke dər səcde kərdənd kare degər*
*Həme kərde şeri əz Ədhəm rəvan* *Ke əz xandənəş məst gərdəd bəyan*
*Əgər tiğ barəd to sağər bekeş* *Sepər ra qədəh sazo bər sər bekeş*
*Ze cubuno ze xissət, ze zən şivegi* *Ze naməmrdivo fetnevo livegi*
*Ze ğosle cənabət bovəd muctənib* *Nəmazişan bovəd fele ləhvo ləib*
*Çu mirane namus gəştənd məst* *Qoruqhaye əmre ilahi şekəst*
*Be ləhvo ləib comle məftun şode* *Həme Leyliye xişo Məcnun şode*
*Çu ba ləhvo tən pərvəri gəşt ram* *Nəbinəd degər dolətəş entezam*

**Yəni: Nə dindən, nə də dinin şaxələrindən bir nişanə qalar, şəriətin əsası dünyanı sevmək olar; arvadsayağılıq onlara xoş gəlib, hiyləgərlik və yaltaqlıqdan başqa bir iş görmədilər; fikirləri arvadlar kimi xoşagələn olar, vədələrində vəfa işığı olmaz, yalandan başqa bir söz danışmadılar; danışıqlarının hamısı arvad söyüşləridir, ən yaraşıqlı sözləri qurumsaqdır; Hamısı Əhmədin dinindən aşağı enib, hamısı Lutun qövmünün davamçısıdır; ibadət vaxtı qədəh vurduqları üçün dua yerinə başqa bir saz çaldılar; namazda elə bixəbər olublar ki, səcdədə başqa iş gördülər; hamısı Ədhəmdən bir şer əzbərləyib, ki, onu oxuyanda nitq məst olar; əgər xəncər yağsa sən qədəh çək, qalxanı qədəh edib başına çək; qorxaqlıqdan, alçaqlıqdan, arvadlıqdan, namərdlikdən, fitnə və hiyləgərlikdən; cənabət qüslündən uzaq olar, namazları oyun-oyuncaq olar; namus başçıları kimi məst oldular, Allahın əmrlərinin sərhədləri pozuldu; hamılıqla eyş-işrətə məftun**

**olublar, hamı öz Leylisi və Məcnun olub; əyyaşlıq və öz bədəninə qulluq etməklə ram olduğu üçün dövləti daha nizam-intizam görməz.**

Belə cəmiyyətdə dini işlər vəzifəsini daşıyan din alimləri də dünyatələbliyə üz tutanda, cəmiyyətin dini kökləri barəsində insanlarda daha çox tərəddüd yaranır və onlar inam və arxayınçılıqla addım ata bilmirlər. Düzdür bütün alimlər belə deyildilər, amma şeyxul-islamlar, qazılar və bəzi sədrlərin özləri və ya övladları çox böyük evlər tikdirmiş və öz ətraflarında çoxlu qulluqçu toplamışdılar. Xüsusilə onların bəziləri elmdən də bəhrəsiz idilər və elə yalnız hansısa alimin oğlu olduğuna görə irsi olaraq belə postlara çatır və onun maliyyə imkanlarından istifadə edirdilər. Yoxsul təbəqə həmin şəxslərin belə təmtəraqlı yaşayışını görəndə bu bəhsin əvvəlində toxunduğumuz ziddiyyətlərə düçar olurdular.

Mükafatnamənin sufi olan və sufilərə qarşı çıxan alimlərə qarşı ürəyi dolu olan şairi bu problemin təhlili, onun Səfəvi cəmiyyətində tərəddüd və fəsadın dərinləşməsindəki təsiri barəsində belə yazır:

*Bovəd elme əmmame zinət kamal* — *Fəzilət dirəm şosteruyi cəmal*
*Çe quyəm əz an varesane ulum* — *Çe quyəm əz an vaqefane rusum*
*Çe quyəm ze məsnədneşinane elm* — *Çe quyəm ze fetva nevisane elm*
*Əz an zöhdkişane ba Kibriya* — *Ze şəb zendedarane por moddəa*
*Həme bəste təqva be xod ba siriş* — *Həm esme əzəm dəmide be xiş*
*Ziyade ze Qarun şode malişan* — *Ze Haman füzun bovəd iclaleşan*
*Çu şod müctəhid ra xoş aməd şüar* — *Müqəllid konəd kofr ra extiyar*
*Çu molla ze başigəri yaft kam* — *Məbər digər əz şəro İslam nam*
*İmami ke əz mir quyəd soxən* — *Geluyəş begiro bebəndeş dəhən*

**Yəni: Əmmamənin elmi kamalın zinətidir, fəzilət dirhəm və üzün yuyulması gözəllik olar; elmlərin varislərindən nə deyim?, adət-ənənələrə tam bələd olanlardan nə deyim?; elm məqamlarında oturanlardan nə deyim?; elm fitvası yazanlardan nə deyim?; Allah ilə zahidlik dinində olanlardan və iddialı gecə yuxusuzlarından; onların hamısı yapışqan ilə özünə təqva yapışdırıb və özünə «ismi-əzəm» üfürüb; malları Qarundan da çox olub, cəlal və əzəmətləri Hamandan da çoxdur; müctəhidə əlamət və nişanə xoş gələndə təqlid edən küfrü seçər; molla mollabaşılıqdan kam alanda şəriət və İslamın adını çəkmə; başçıdan danışan imamın boğazından tut, ağzını bağla.**

İsfahanın mühasirəsi zamanı bu şəhərdə olmuş Qütbüddin Neyrizi hadisəni təhlil edərək Səfəvilərin məğlubiyyətlərinin əsas amilini fəsadın yayılması və əmr be məruf və nəhy əz münkərin aradan getməsi hesab edir.O, Tibbul-məmalik adlı kitabında yazır: «Alimlər gərək bilsinlər ki, biz əmr be məruf və nəhy əz münkəri buraxanda, paklara və Əhli-beytin (ə) seçilmiş şəxsiyyətlərinə tabe olmayanda, öz nəfs istəklərimizə tabe olanda, günah əhli ilə mehriban davrananda, Allahın qəzəbi ilə qəzəblənməyəndə və bunları avam camaatın çoxu Allahın ayələrini məsxərə edənə və dünya həyatı onları aldadana kimi davam etdirəndə, hətta xas adamların bəziləri pul əldə etmək üçün Allahın kitabını arxaya atanda, məsum imamlar əleyhimis-salamın yollarından uzaqlaşıb sultan və əmirlərin yanında məqam və izzət qazanmaq üçün zalımlara və arxalandığımız və köməkləri ilə dünyadan bəhrələnək deyə rifahtələb tayfaya yaxınlaşdığımız zaman» belə bir hadisənin baş verməsini gözləməliydik.

Alimlərin arasında kəskin ixtilafın olması da xalq arasında xoşagəlməz nəticələr verir və onları tərəddüd və sarsıntıya düçar edir. Bu ixtilafın ən mühümü sufiliyə mənsub insanlarla fəqihlər arasında idi ki, onlar güclü şəkildə bir-birlərinə qarşı fəaliyyət göstərir və bir-birlərinin əleyhinə kitab və risalə yazmağa əl atırdılar. Bu iki dəstənin hər biri digərini həqiqi imana malik olmayan və dinin düz yolundan çıxmış hesab edirdi. Belə bir şəraitdə camaat da iki dəstə olurdu. Amma bunların hamısından daha mühüm bu idi ki, xalq getdikcə hər iki dəstəyə inam və etimadını itirirdi. Sufiliyə bağlı olanlar alimləri dünya işlərinə daxil olduqları üçün məzəmmət edir və nəsr və nəzm dili ilə onların əleyhinə danışırdılar. Onlardan biri elə həmin Mükafatnamənin müəllifidir ki, sufiliyə meylli olduğu üçün fəqihlərə kəskin hücum edib və bəziləri elə düz olan iradlar irəli sürüb. Lakin bu iradlar tərəf müqabilindən zərbə görmüş bir sufinin dilindən olduğu üçün onların hamı tərəfindən qəbul olunması çətindir:

*Be sufi çenan doşmən an qoume xər* — *Ke sonni be şii ze ləne Ömər*
*Be xod kərde vaceb çu zekre Xoda* — *Ke lənət ferestəd bər övliya*
*Ze cövro ze kino ze tərke səvab* — *Həmin bəs ke kərdənd İran xərab*

**Yəni: O uzunqulaq tayfa sufiyə o qədər düşməndir ki, sünninin Ömərə lənətə görə şiyəyə düşmən olduğu kimi; o, övliyalara lənət göndərməyi Allahın zikri kimi özünə vacib edib; onların zülm, kin və doğru yolu tərk etmələrinə İranı xarab etmələri kifayətdir.**

Şah Sultan Hüseynin səltənətinin son dövrlərində özbəklərin Xorasana ara-sıra hücumlarından və şiələri qətlə yetirmələrindən bərk qəzəblənmiş xorasanlı alimlərdən biri öz etirazını bildirmək üçün paytaxta gəldi. Bəhaəddin Əstiri – yəni Səbzivarın Əstir kəndindən olan bu alim «Şirğazixanını Xorasana» hücumundan və «hədsiz qətl törədib əsir götürməsindən» sonra «din dərdinin çoxluğundan İsfahana gedib əmirlərin yanında məruz qaldıqları zülmlərdən danışdı», saray adamları və alimlərə çox tənqidlər yağdırdı. Bu alimin əhvalatı və onun saray adamları, əyanlar və alimlərə olan tənqidləri hakim fəsadın dərinliklərini və Səfəvi dövlətinin süqutunun dəlillərini göstərmək üçün maraqlıdır. Mirzə Xəlil Mərəşi özünün Məcməut-təvarix kitabında bu barədə yazır:

**(Şeyx Bəhaəddin) çox natiq, dilli və xətib olduğu üçün ürəyiyananlığın çoxluğundan bəzi qorxunc və ibrətamiz sözləri şaha, əmirlərə, alimlərə və bütün şiələrə çatdırmışdı. Məlum olan bunları ki: Cihad vacib bir məsələdir, ona təşviq və təkid etmək barəsində çoxlu hədis və ayələr gəlmişdir, padşahlıq rəhimlilik, mərhəmətlilik, qeyrət və dini şərəf hissindən ibarətdir. Padşah və əmirlər hamısı bu zamanda rahatlıq və asudəlik səbəbindən bu işin fəzilətindən əl götürərək həmişə əxlaqsızlıq və pozğunluq, çirkin və nalayiq əməllərlə məşğul olur, rəiyyətin və əl altında olanların vəziyyətlərindən xəbərsizliyi öz şüarları ediblər. O həddə kimi ki, məlun özbək Şirğazixan kimi birisi Xorasan diyarının əməlisaleh, ibadətkar, mömin, pəhrizkar, seyid kişi və qadınlarından altmış min nəfəri əsir edib və şah, əmir, ordudan heç kəsin din dərdi və qeyrət düşüncəsindən belə, həmin möhtərəm şəxsləri həmin zalım, dinsiz düşmənlərin əlindən qurtarmaq keçmədi. Alimlər də ağızlarına sükut möhürü vurub şahın və əmirlərin məclisində qətiyyən onların qəflətdən ayıldaraq xəbərdar olmalarına səbəb olan bir söz danışmadılar. Bu iş dindarlıq və imanla necə bir araya sığır? Bu haqq sözlərdən alimlərin çoxu kədərləndilər və o cənabı sufilik və dinsizlikdə ittiham edərək, oradan çıxarılması hökmünü verdilər. Belə ki, onu böyük rüsvayçılıqla İsfahandan çıxartdılar.**

Maraqlıdır ki, əfqanların sünnilik tərəfdarı olmalarına və İsfahan şəhərini aylarla mühasirədə saxlamalarına baxmayaraq camaatın şiəlik qeyrəti də onların birliyinə səbəb olub əfqanların qarşısında sədd yarada bilmədi. Bu, camaatın milli və dini ülfət və vəhdətinin tamamilə sıradan çıxmasını göstərir.

Bu məsələni digər bir prizmadan da dəyərləndirmək olar. Ümumiyyətlə şiə-sünni ixtilafı İranı varlıq və yoxluq keçidində saxlamışdı. Səfəvilərin iki yüz otuz illik səyləri İranı döyüşkən Qızılbaşların himayəsi ilə şərq və qərb sünniləri özbəklər və osmanlıların zərər-ziyanlarından qoruyub saxlamışdı. Amma məlum idi problem hələ də öz yerində qalmaqdadır və böyük İranın sünni sakinləri əldə etdikləri kiçik bir fürsətdə qızılbaşların şiəlikdəki ifratları müqabilində dayanacaqlar. Səfəvilərin bütün dövrləri ərzində bu ifratçılıqlar əsas şəhərlərdə davam edirdi və İranın ən uzaq nöqtəsindən mərkəzə gələn hər bir kəs bu məsələlərin şahidi idi. Onları öz diyarının əhalisinə çatdırırdı. Təbiidir ki, İran sünniləri belə bir vəziyyətdə Səfəvi dövləti üçün sadiq rəiyyət hesab oluna bilməzdilər. Maraqlıdır ki, osmanlılarla özbəklər İranla bir araya gələn zaman fitnə alovu Qəndəhardan qalxdı və bəhanə illər ərzində İranla Turan və İranla osmanlılar arasında müharibəyə səbəb olan həmin amil idi.

## *MƏRKƏZLƏŞDİRMƏ VƏ ƏYALƏTLƏRİN MÜSTƏQİLLİYİNİN ARADAN GETMƏSİ.*

Səfəvi dövlətinin əvvəlindən ölkənin əyalətləri Qızılbaş tayfalarının başçılarına həvalə edilirdi, hərçənd ki, onların dəyişdirilməsi və əvəz edilməsi Şahın və ya vəzirin əlində idi. Amma məmləkət adlandırılan əyalətlərin hər birinə hakim olan xanların əlində olan ixtiyarlar çox geniş idi. Bundan əlavə çox vaxt bu məqam qızılbaş ailələr arasında irsi olaraq davam edirdi və onlar bu vəzifənin müqabilində mərkəzə müəyyən qədər pul göndərirdilər. Bundan da mühüm o idi ki, onlar tayfa şəklində sərhədçiliklə məşğul olurdular. Böyük əhatəli müharibə olanda isə onlar öz el, tayfaları və digər yerli qüvvələrlə birlikdə şahın qoşununa birləşirdilər.

Qızılbaşların çoxlu zərbələrə məruz qaldığı zamandan–Şah Abbasın dövründən sonra əyalətlərin idarəçiliyi üçün əvvəlki sistemdən istifadə edilmirdi və Şah Qızılbaş başçılarından istifadə etdiyi kimi Qızılbaş olmayanlardan və hətta öz qulamlarından da bəhrələnirdi. Bunun nümunəsi Allahverdi xan və onun oğlu İmamqulu xan idi ki, Səfəvi sarayına gəlməmişdən qabaq erməni ailəsindən idilər və uzun illər fars hökuməti ixtiyarlarında olmuşdu.

Məmləkətlərin «xassə»yə çevrilmələri mərkəzi dövlətin əyalətlərə olan hegemonluğunu artırmaq və onların müstəqilliyini aradan aparmaq üçün idi. Belə olan şəraitdə bəylərbəyinin əyalətlərdə qalmaq marağı yox idi və əyalətlərin hakimləri maliyyə baxımından müstəqilliyə malik deyildilər. Bu

sistemin həyata keçirilməsi ilə mərkəz, vilayətlərə birbaşa nəzarət edirdi və bəylərbəyi postuna namizəd olanlar arasındakı ixtilaflar nəticəsində və onların bir-birlərinə qarşı etdikləri təhriklər nəticəsində əvvəlki şəxslər neçə vaxtdan bir oğurluq və xəyanətdə günahlandırılırdılar. Bu məsələ bölgədə sabitsizliyə səbəb olmaqdan əlavə, mərkəzi dövlətin nüfuzunu da azaldırdı. Səfəvi tarixinin bəzi tədqiqatçıları bu dövlətin dağılma amillərinin biri kimi bu məsələnin üzərində dayanırlar.

Bəlkə də İsfahanın neçə aylıq mühasirəsi müddətində ətrafdan, hətta Səfəvilərin ənənəvi və dini paytaxtları olmuş Azərbycandan heç bir kömək qüvvəsinin gəlməməsinin səbəbi həmin məsələdir. Əlbəttə, qeyd etmək lazımdır ki, h.q. 1134-cü ildə yəni İsfahanın mühasirəsi zamanı Təbrizdə dəhşətli zəlzələ baş verdi. Bəzilərinin dediyinə görə onda min nəfər həlak oldu. Təbiidir ki, belə bir hadisənin baş verməsi ilə oradan hərbi kömək gözləmək əbəsdir.

Hər nə idisə və hər nə oldusa axır ki, uzun ətəkli Səfəvi dövlətinin kitabı iki yüz iyirmi doqquz ildən sonra bağlandı və İran səksən illik bir böhran dövrünü yaşadı. Müxtəlif şəhərlərdə didərgin düşmüş ikinci Təhmasib bir müddət Səfəvi dövlətinin bayrağını ayaq üstə saxlamağa çalışdı. Amma Nadirin meydana çıxması ilə gücünü tam itirdi və Nadir onu devirməklə bir neçə il (h.q. 1144-dən 1148-ə kimi) üçüncü Abbas adı idə hökmranlıq etdi. Nəhayət h.q. 1148-ci ildə rəsmi şəkildə Səfəvi dövlətini aradan apardı və Muğan çölündə tacqoyma mərasimi keçirdi.

Bu cild böyük olduğu üçün bundan sonra baş vermiş hadisələrin şərhi sonrakı cilddə davam etdiriləcəkdir.

Mündəricat

ON SÖZ ....................................................................................................3
SƏFƏİVLİK BEŞİKDƏ ...............................................................................5
İRAN SƏFƏVİ DÖVLƏTİNİN TƏSİS OLUNMA ASTANASINDA ..................... 5
ƏRDƏBİL VƏ İRAN ..................................................................................... 6
AZƏRBAYCAN VƏ TÜRKLƏR ...................................................................... 6
ORTA ASİYA ƏLƏVİ ŞİƏLİYİN BAŞ QALDIRDIĞI YER OLMUŞDUR ........... 7
ANADOLU TÜRK MÜHACİRLƏRİ ŞEYX SƏFİ SÜLALƏSİNİN MÜRİDLƏRİ OLMUŞDUR ..................................................................................... 9
ŞEYX SƏFİYƏDDİNDƏN ŞEYX CÜNEYDƏDƏK ........................................... 11
CÜNEYD VƏ HEYDƏR.................................................................................. 12
TƏRİQƏT VƏ SİYASƏTİN BİRLİYİ ............................................................. 12
SƏFƏVİ DÖVLƏTİNİN TƏSİS OLUNMASI.................................................... 16
ŞEYX HEYDƏRDƏN ŞAH İSMAYIL SƏFƏVİYƏDƏK .................................... 16
TÜRK QƏBLİƏLƏRİ ŞAH İSMAYILIN QULLUĞUNDA ................................. 17
İSMAYILDAN ŞAH İSMAYILADƏK .............................................................. 18
ATILAN İLK ADDIM ŞİƏ MƏZHƏBİNİN RƏSMİ MƏZHƏB ELAN OLUNMASI OLDU................................................................................... 19
ŞAH İSMAYILIN İRANIN MƏRKƏZ ƏYALƏTLƏRİNDƏ GÖRDÜYÜ TƏDBİRLƏR.................................................................................................. 22
ÖZBƏKLƏR XORASAN ÜÇÜN CİDDİ ÇƏTİNLİK YARADIRLAR................ 24
ŞAH İSMAYIL VƏ ÖZBƏKLƏR..................................................................... 26
OSMANLI İMPERATORLUĞU...................................................................... 29
KONSTANTİNOPOLUN FƏTHİNƏ DOĞRU .................................................. 30
OSMANLILARIN ÖZ ƏRAZİLƏRİNİ GENİŞLƏNDİRMƏK MƏQSƏDİLƏ MİSİR VƏ İRANA ETDİKLƏRİ YÜRÜŞLƏR.................................................... 32
ÇALDIRAN DÖYÜŞÜ ..................................................................................... 33
ŞAH İSMAYIL ÇALDIRAN DÖYÜŞÜNDƏN SONRA ..................................... 36
ŞAH İSMAYILIN İSFAHAN VƏ QUMDA GÖRDÜYÜ ABADLIQ İŞLƏRİ...... 36
HƏRAT ALİMLƏRİNİN HƏRATA MÜHACİRƏTİ.......................................... 37
ŞAH İSMAYILIN ŞƏXSİYYƏTİ ..................................................................... 38
ŞAH İSMAYILIN DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNİN TƏMƏLİNİN QOYULMASI.................................................................................................. 40
QIZILBAŞLARA YAD OLAN ÜNSÜRLƏRİN SƏFƏVİ DÖVLƏTİNƏ DAXİL OLMASI ........................................................................................................ 41
TƏHMASİBİN HAKİMİYYƏT DÖVRÜ VƏ YA SƏFƏVİ DÖVLƏTİNİN MÖHKƏMLƏNMƏSİ....................................................................................... 43
PAYTAXTIN QƏZVİNƏ KÖÇÜRÜLMƏSİ...................................................... 45
ŞAH TƏHMASİBİN DÖVRÜNDƏ İRAN VƏ ÖZBƏKLƏRİN VƏZİYYƏTİ..... 47
ŞAH TƏHMASİB VƏ OSMANLI SULTANLARI .............................................. 50
SƏFƏVİ ƏLQAS MİRZƏNİN QİYAMI VƏ OSMANLILARIN HÜCUMU........ 51

İRANLA OSMANLILAR ARASINDAKI İLK  SÜLH SAZİŞİ............................ 53
İRANLA HİNDİSTAN ARASINDAKI SİYASİ ƏLAQƏLƏR............................. 57
SƏFƏVİ DÖVLƏTİ VƏ GÜRCÜSTAN................................................... 59
TƏHMASİB ŞAHIN HAKİMİYYƏT DÖVRÜNDƏ İDARƏÇİLİYİN TƏŞKİLİ 60
TƏHMASİB ŞAHIN HAKİMİYYƏT İLLƏRİNDƏ DİNİ TƏŞKİLATÇILIQ...... 61
ƏRƏB ALİMLƏRİNİN İRANA MÜHACİRƏTİ ........................................ 64
MÜHƏQQİQ KƏRƏKİNİN SƏFƏVİ DÖVLƏTİNDƏ İFA ETDİYİ ROL........... 66
TƏHMASİB ŞAHIN DİNDARLIĞI VƏ DİNİ SİYASƏTİ .................................. 68
HİCRƏTİN ONUNCU ƏSRİNDƏKİ ŞİƏ TƏFƏKKÜRÜ ................................... 72
ŞİƏ MƏZHƏBİNİN FƏLSƏFİ VƏ KƏLAMİ İDEOLOGİYASI........................... 72
FİQHİ TƏFƏKKÜR ....................................................................... 75
SƏFƏVİLƏRİN HAKİMİYYƏT DÖVRÜNÜN İLK İLLƏRİNDƏ VƏQFİN GENİŞ YAYILMASI................................................................................... 77
SƏFƏVİ QADINLARI VƏ VƏQF......................................................... 78
SEYİDLƏRİN TUTDUQLARI MÖVQE................................................... 79
ŞAH İSMAYIL VƏ TƏHMASİBİN DÖVRÜNDƏKİ FARS ƏDƏBİYYATI....... 79
ƏRƏB KİTABLARININ FARS DİLİNƏ TƏRCÜMƏSİNİN BAŞLANMASI ..... 84
TƏHMASİB ŞAHIN DÖVRÜNDƏ YAZILMIŞ DİNİ ŞERLƏR .......................... 85
TƏHMASİB ŞAHIN DÖVRÜNDƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ................ 87
ŞAH İSMAYIL VƏ TƏHMASİBİN DÖVRÜNDƏ QƏRBLƏ YARADILAN ƏLAQƏLƏR................................................................................... 90
PORTUQALİYALILAR FARS KÖRFƏZİNDƏ.......................................... 91
İNGİLİSLƏR İRANDA........................................................................ 93
SƏFƏVİ DÖVLƏTİNDƏ YARANMIŞ BÖHRAN ........................................ 94
(İKİNCİ ŞAH İSMAYILDAN SOLTAN MƏHƏMMƏD ŞAHIN SƏLTƏNƏTİNƏDƏK)........................................................................... 94
İKİNCİ İSMAYILIN HAKİMİYYƏT DÖVRÜ............................................ 95
İSMAYIL VƏ ŞAHZADƏLƏRİN ÖLDÜRÜLMƏSİ ......................................... 96
İKİNCİ ŞAH İSMAYILIN SÜNNİ VƏ ŞİƏLƏRƏ OLAN MÜNASİBƏTİ........... 98
ŞAH İSMAYIL VƏ İDARƏÇİLİK ............................................................ 99
İKİNCİ ŞAH İSMAYILIN ÖLÜMÜ VƏ SOLTAN MƏHƏMMƏD MİRZƏNİN CANİŞİN TƏYİN OLUNMASI ........................................................... 100
SOLTAN MƏHƏMMƏD XUDABƏNDİNİN HAKİMİYYƏT DÖVRÜ ........... 102
QIZILBAŞLARIN ƏN BÖYÜK ÇƏTİNLİYİ DAXİLİ İXTİLAFLAR OLMUŞDUR ............................................................................... 104
MƏHDULYANIN SÜQUTU ................................................................ 105
ŞAH MƏHƏMMƏD MİRZƏNİN SƏLTƏNƏT DÖVRÜNDƏ ÖZBƏK VƏ XORASANIN VƏZİYYƏTİ ............................................................. 107
XORASANDA BAŞ VERƏN DƏYİŞİKLƏR VƏ QIZILBAŞLAR ARASINDAKI İXTİLAFLAR .................................................................................. 108
OSMANLI DÖVLƏTİNİN GÜRCÜSTAN VƏ ŞİRVANI ƏLƏ KEÇİRMƏSİ... 109
BİRTƏRƏFLİ SÜLH DANIŞIQLARI ..................................................... 111
MİR ABBASIN ŞAH TƏYİN OLUNMASI VƏ XORASANA QOŞUN YÜRÜDÜLMƏSİ ......................................................................... 112

MİRZƏ MƏHƏMMƏDİN HAKİMİYYƏTİNİN SON İLLƏRİNDƏ BAŞ VERƏN HADİSƏLƏR........................................................................................ 114
TƏBRİZ CAMAATININ OSMANLILAR TƏRƏFİNDƏN QƏTLƏ YETİRİLMƏSİ .......................................................................................... 115
OSMANLILARIN TƏBRİZ QALASINDAKI HÖKMRANLIĞI VƏ QIZILBAŞ SƏRKƏRDƏLƏRİ ARASINDA YARANMIŞ İXTİLAFLAR ............................ 118
SƏFƏVİ DÖVRÜNDƏKİ OSMANLI SULTANLARI ........................................ 118
OSMANLILARIN TƏBRİZDƏ QALMALARI VƏ MİRZƏ HƏMZƏNİN QƏTLİ ........................................................................................................... 120
BİRİNCİ ŞAH ABBASIN HAKİMİYYƏT DÖVRÜ........................................... 121
MİRZƏ ABBAS VƏ MÜRŞİDQULU XANIN QƏZVİNƏ GƏLİŞİ................... 123
ŞAH ABBASIN HAKİMİYYƏT DÖVRÜ ......................................................... 125
QIZILBAŞLARIN ŞAH ABBAS TƏRƏFİNDƏN QARƏT VƏ TAR-MAR OLUNMASI........................................................................................................ 126
HƏRATIN SÜQUTU VƏ MÜRŞİDQULU XANIN QƏTLİ............................... 128
OSMANLILARLA SÜLH SAZİŞİ...................................................................... 130
MƏŞHƏDİN ÖZBƏKLƏR TƏRƏFİNDƏN SÜQUTU....................................... 132
DAXİLİ ÇƏTİNLİKLƏRİN HƏLLİ .................................................................... 134
YENİ ORDUNUN TƏŞKİLİ............................................................................... 135
ŞAH ABBAS VƏ ÖZBƏKLƏR.......................................................................... 136
NƏQTƏVİLƏRİN ÜSYANI VƏ ONLARIN YATIRILMASI ............................ 138
ÖZBƏK VƏ DAXİLİ ÜSYANÇILARA QARŞI APARILAN MÜBARİZƏNİN DAVAMI ........................................................................................................ 140
ÖZBƏKLƏRİN XORASANDAN ÇIXARILMASI ............................................ 141
TƏBRİZ, NAXÇIVAN VƏ İRƏVANIN AZAD OLUNMASI............................ 144
QIZILBAŞLARIN OSMANLILARLA APARDIĞI MÜBARİZƏNİN DAVAMI146
SƏFƏVİLƏR DÖVLƏTİNİN OSMANLILARLA YARATDIQLARI ƏLAQƏLƏRİN DAVAMI ................................................................................ 148
ŞAH ABBAS VƏ GÜRCÜSTAN ....................................................................... 151
ŞAH ABBASIN ÖLÜMÜ VƏ CANİŞİNLİK MƏSƏLƏSİNİN ORTAYA ÇIXMASI........................................................................................................ 152
İSFAHAN ŞAH ABBASIN DÖVRÜNDƏ PAYTAXTIN İSFAHANA KÖÇÜRÜLMƏSİ ............................................................................................ 154
ABBASİ MƏSCİDİ ............................................................................................. 156
(İMAM MƏSCİDİ).............................................................................................. 156
ŞEYX LÜTFULLAH MƏSCİDİ ......................................................................... 157
ALİQAPU ........................................................................................................... 158
MÖVLA ABDULLAH ŞUŞTƏRİ MƏDRƏSƏSİ ............................................. 159
ŞAH ABBASIN DİN VƏ MƏZHƏBƏ OLAN ƏLAQƏSİ ................................ 160
ŞAH ABBAS VƏ QƏDİMİ BAYRAMLAR....................................................... 162
ŞAH ABBAS VƏ VƏQF...................................................................................... 164
İMAM HÜSEYNİN AŞURA MƏRASİMİNİN KEÇİRİLMƏSİ.......................... 165
AŞURA GÜNÜ İSFAHANIN BÜTÜN MƏHƏLLƏ VƏ YERLƏRINDƏN BÖYÜK DƏSTƏLƏR YOLA DÜŞÜRLƏR VƏ ÖZLƏRI ILƏ BAYRAQ VƏ ƏLƏMLƏR APARIRLAR. ONLARIN ATLARININ ÜSTÜNDƏ MÜXTƏLIF SILAHLAR VƏ BIR

NEÇƏ ƏMMAMƏ OLUR; HƏMIN DƏSTƏLƏRLƏ BIRLIKDƏ BIR NEÇƏ DƏVƏ GƏTIRILIR. HƏMIN DƏVƏLƏRIN ÜSTÜNDƏ KƏCAVƏLƏR OLUR VƏ HƏR BIR KƏCAVƏNIN IÇINDƏ ŞƏHID HÜSEYNIN ƏSIR DÜŞMÜŞ UŞAQLARININ SIMVOLU OLARAQ ÜÇ-DÖRD UŞAQ OTURUR. ........ 166
ŞAH ABBAS VƏ ALİMLƏR ........ 167
ŞAH ABBASIN ZAMANINDA DİNİ TƏFƏKKÜRLƏR ........ 169
ŞEYX BƏHAİ ........ 171
*EY KE RUZO-ŞƏB ZƏNI ƏZ ELMO LAF HIÇ BƏR CƏHLƏT NƏDARI ETIRAF* ........ 174
*NANO HƏLVA ÇIST IN ƏMALE TO CÜBBEYE PƏŞMIN RIDAVO ŞALE TO* 174
MİR DAMAD ........ 176
MOLLA SƏDRA ........ 180
ŞİƏLİKDƏ «ƏXBARİ»LİK CƏRƏYANININ İNKİŞAFI ........ 185
BİRİNCİ ŞAH ABBASIN ZAMANINDA ŞER VƏ ŞAİRLİK ........ 186
*ƏGƏR DOŞMƏN KEŞƏD SAĞƏR VƏ GƏR DUST* ........ 187
*BE TAĞE ƏBRUYE MƏRDANEYE UST* ........ 187
İRANLI ŞAİRLƏRİN HİNDİSTANA MÜHACİRƏTİ ........ 188
DÜNYADA BU MƏSƏL MƏŞHURDUR KI, KIMIN YOLU BIR DƏFƏ HINDISTANA DÜŞSƏ VƏ O, BU FEYZ DOLU TORPAQDAN BƏHRƏLƏNSƏ, İRANA QAYIDANDA BU DIYARIN YOL VƏ ŞƏHƏRLƏRINDƏ ÖLMƏSƏ DƏ, HƏMIN TORPAĞIN ARZUSU ILƏ ÖLƏCƏK. ........ 189
*HƏBBƏZA HEND KƏBEYE HACAT* ........ 189
*XASSƏ YARANE AFIYƏTCU RA* ........ 189
*DƏR KEŞVƏRE HIND ŞADIYO ĞƏM MƏLUM* ........ 189
*DƏR ALƏME ĞƏM XATERE XORRƏM MƏLUM* ........ 189
SƏFƏVİLƏR VƏ HİNDİSTANA ŞİƏ MƏDƏNİYYƏTİNİN ÖTÜRÜLMƏSİ .. 190
ŞAH ABBASIN ZAMANINDA İRANIN XARİCİ ƏLAQƏLƏRİ ........ 194
ŞAH ABBASIN ZAMANINDA İRANLA HİNDİSTANIN SİYASİ ƏLAQƏLƏRİ ........ 195
SƏFƏVILƏRLƏ EYNI ZAMANDA DƏKƏNDƏ OLMUŞ MONQOL ŞAHLARI: 197
BİRİNCİ ŞAH ABBASIN ZAMANINDA İRANLA AVROPANIN ƏLAQƏLƏRİ ........ 197
İRAN VƏ PORTUQALİYA ........ 197
ŞAH ABBAS VƏ İNGİLİSLƏR ........ 199
XRİSTİAN MİSSİONERLƏRİN İRANA GƏLİŞİNİN BAŞLANĞICI ........ 202
İRANIN RUSİYA İLƏ ƏLAQƏLƏRİ ........ 204
ŞAH SƏFİ VƏ İKİNCİ ŞAH ABBASIN DÖVRÜ ........ 206
ŞAH SƏFİ ŞAHLIQ TAXTINDA ........ 206
ŞAH SƏFİNİN SƏFƏVİ SÜLALƏSİNƏ MÜNASİBƏTDƏ CİNAYƏTLƏRİ ... 206
ŞAH SƏFİNİN ÖLKƏDAXİLİ ÇƏTİNLİKLƏRİ ........ 207
ŞAH SƏFİNİN XARİCİ ÇƏTİNLİKLƏRİ. ........ 208
ŞAH SƏFİNİN ZAMANINDAN SƏDRLİK VƏ VƏZİRLİK ........ 210
İKİNCİ ŞAH ABBAS SƏLTƏNƏT TAXTINDA ........ 211
İKİNCİ ŞAH ABBAS VƏ DAXİLİ MƏSƏLƏLƏR ........ 212

MƏSƏLƏLƏRİN HƏLLİNƏ KÖMƏK MƏQSƏDİ İLƏ ALİMLƏRİN FİQHİ ŞURASININ YARADILMASI ........ 216
İKİNCİ ŞAH ABBAS VƏ XARİCİ MÜNASİBƏTLƏR ........ 217
MAVƏRAUN-NƏHR ........ 217
İKİNCİ ABBAS VƏ GÜRCÜSTAN ........ 217
HİNDİSTANLA ƏLAQƏLƏR VƏ QƏNDƏHAR MƏSƏLƏSİ ........ 218
OSMANLILARLA MÜNASİBƏT ........ 220
DİGƏR ÖLKƏLƏRLƏ ƏLAQƏLƏR ........ 220
AVROPALILAR İRANDA ........ 221
İKİNCİ ŞAH ABBASIN ZAMANINDA ABADLIQ İŞLƏRİ ........ 222
VƏQFİN GENİŞLƏNMƏSİ VƏ MƏDRƏSƏ TİKİLMƏSİ ........ 225
İKİNCİ ŞAH ABBAS ZAMANINDAKI DİN ALİMLƏRİNİN İDEOLOJİ MÖVQELƏRİ ........ 227
MƏHƏMMƏDTAĞI MƏCLİSİ ........ 229
MOLLA MƏHƏMMƏDXƏLİL QƏZVİNİ ........ 230
ƏBDÜRRƏZZAQ LAHİCİ ........ 231
ŞAH ABBAS VƏ ŞƏRABIN QADAĞAN OLUNMASI FƏRMANI ........ 232
İKİNCİ ŞAH ABBASIN ZAMANINDA FARS DİLİ ƏDƏBİYYATI ........ 234
HƏMİN DÖVRÜN ƏN GÖZƏL QƏZƏL USTADI-SAİB TƏBRİZİ ........ 235
*GƏRDUNE SƏDƏF QOHƏRE YEKDANEYE EŞQƏST* ........ 235
*XURŞIDE CAHANTAB NEGINXANEYE EŞQƏST* ........ 235
ƏBDÜRRƏZZAQ LAHİCİ VƏ MƏDHİYYƏ ŞERİ ........ 240
ŞAHNAMƏLƏRİN DEYİLMƏSİ ........ 244
FARS NƏSRİ ........ 246
SƏFƏRNAMƏ ƏDƏBİYYATI ........ 248
AVROPALILARIN SƏFƏRNAMƏLƏRİ ........ 253
ŞAH SÜLEYMANIN DÖVRÜ ........ 254
ŞAH SƏFİ ŞAHLIQ TAXTINDA ........ 254
ŞAH SÜLEYMANIN ŞAHLIQ DÖVRÜ ........ 256
ŞAH SÜLEYMAN VƏ İRANIN XARİCİ SİYASƏTİ ........ 257
ŞAH SÜLEYMANIN ŞƏXSİYYƏTİ ........ 258
ŞAH VƏ ONUN ŞEYX HÜRR AMİLİ İLƏ TÜTÜN BARƏSİNDƏ MÜBAHİSƏSİ ........ 261
ŞAH SÜLEYMAN VƏ XAÇPƏRƏST TƏBLİĞATÇILAR ........ 262
ŞEYX ƏLİXAN ZƏNGƏNƏ – İRANIN BÖYÜK VƏZİRİ ........ 263
ŞEYX ƏLİXAN VƏ AVROPALILAR ........ 265
ŞAH SÜLEYMAN VƏ İSFAHANIN ABADLAŞDIRILMASI ........ 266
SƏFƏVİLƏRİN SON ON İLLİKLƏRİ BARƏSİNDƏ ZİDDİYYƏTLİ DİNİ MƏLUMATLAR ........ 269
RUHANİLƏR VƏ SƏFƏVİ DÖVLƏTİ ........ 274
FEYZ KAŞANİ, MÜHƏQQİQ SƏBZİVARİ, AĞA HÜSEYN XANSARİ, ƏLLAMƏ MƏCLİSİ ........ 274
ŞİƏNİN SƏFƏVİLƏRDƏN QABAQKI SİYASİ BAXIŞLARI ........ 275
SƏFƏVİ DÖVLƏTİ VƏ ALİMLƏRİN BU DÖVLƏTDƏ İŞTİRAKI ........ 277
XALQ, ALİMLƏR VƏ SƏFƏVİ DÖVLƏTİ ........ 280

ŞİƏ SƏFƏVİ DÖVLƏTİNİN HAKİMİYYƏTƏ GƏLMƏSİ VƏ ALİMLƏRİN SEVİNCİ ........ 283
FEYZ KAŞANİ ........ 285
FEYZ VƏ İKİNCİ ŞAH ABBAS ........ 288
MÜHƏQQİQ SƏBZİVARİ ........ 290
AĞA HÜSEYN XANSARİ ........ 292
ƏLLAMƏ MƏHƏMMƏDBAQİR MƏCLİSİ ........ 294
ƏLLAMƏ MƏCLİSİ VƏ ŞEYXUL-İSLAMLIQ VƏZİFƏSİ ........ 298
ŞAH SULTAN HÜSEYN SƏFƏVİNİN ZAMANI ........ 300
ŞAH SULTAN HÜSEYNİN TACQOYMA MƏRASİMİ ........ 300
İLK ADDIM – ŞƏRAB İÇİLMƏSİ İLƏ MÜBARİZƏ ........ 302
DAXİLİ VƏ XARİCİ SİYASİ HADİSƏLƏR ........ 303
İRAN VƏ FRANSA ........ 307
ŞAH SULTAN HÜSEYN VƏ ONUN ƏTRAFINDAKI SARAY ƏYANLARI . 309
SULTAN HÜSEYNİN ZAMANINDA ŞEYXUL-İSLAM VƏ MOLLABAŞI ........ 310
ŞAH SULTAN HÜSEYN SƏFƏVİNİN DÖVRÜNÜN TARİXİ BİNALARI. ........ 313
ŞAH SULTAN HÜSEYNİN ZAMANINDA VƏQF İŞLƏRİ ........ 317
ALİMLƏR VƏ XAÇPƏRƏST MİSSİONERLƏR ........ 319
SƏFƏVİLƏRİN DÖVRÜNDƏ KİTAB VƏ KİTABXANA ........ 321
ALİMLƏR VƏ ŞAHIN ADINA KİTAB YAZMAQ ........ 325
SƏFƏVİ DÖVLƏTİNİN DAĞILMASI ........ 327
QƏNDƏHAR – TƏHLÜKƏ MƏNBƏYİ ........ 327
QƏNDƏHARDA ƏFQANLARIN ÜSYANININ ŞƏRAİTİ ........ 328
MİRVEYS QƏNDƏHARIN HAKİMİ KÜRSÜSÜNDƏ ........ 328
ƏFQAN MAHMUD VƏ İRANA HÜCUM ........ 330
İSFAHANIN MÜHASİRƏSİ ........ 332
İSFAHANIN ZƏBT EDİLMƏSİ ........ 334
DİGƏR ŞƏHƏRLƏRƏ HÜCUM ........ 335
MAHMUDUN DƏLİ OLMASI VƏ ƏŞRƏF SULTANIN ONUN YERİNƏ KEÇMƏSİ ........ 337
SƏFƏVİ DÖVLƏTİNİN DAĞILMASININ SƏBƏB VƏ AMİLLƏRİ ........ 339
SUFİLİK TƏƏSSÜBÜNÜN MƏHVİ – SƏFƏVİ DÖVLƏTİNİN ƏSAS AMİLİ KİMİ ........ 339
ŞAH SULTAN HÜSEYNİN XÜSUSİYYƏTLƏRİ ........ 341
FAYDASIZ HƏRBİÇİLƏR ........ 343
FƏSAD VƏ POZĞUNÇULUQ, SARAY ADAMLARI ARASINDA İXTİLAF . 345
DİNİ DƏYƏRLƏRİN ZƏRƏR-ZİYAN GÖRMƏSİ ........ 348
MƏRKƏZLƏŞDİRMƏ VƏ ƏYALƏTLƏRİN MÜSTƏQİLLİYİNİN ARADAN GETMƏSİ. ........ 353